

TBİLİSİ- 1439/2018

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაციით

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin elmi şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო მადლობას უხდის საქართველოს ახალგაზრდობის დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის ნებართვისათვის

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.

Kitabın orijinal adı:	İmandan İhsana Tasavvuf
Müəllif:	Osman Nuri TOPBAŞ
Məsləhətçi:	Hacı Yasin ƏLİYEV
Anadolu türkcəsindən Azərbaycan türkcəsinə uyğunlaşdıran:	Filologiya elmləri namizədi Siracəddin HACI
Ədəbi redaktor:	Elşən RZAYEV
Elmi redaktor:	Lokman HELVACI Ahmet BAKIRKAYA
Nəşrə hazırlayan:	Salih Zeki MERİÇ Hacı BƏKİROĞLU
Dizayn:	Elsevər ƏHMƏDOV

Esma Oniani st, Tbilisi, Georgia ,#23

Tel: (+995) 32 253 16 30

Mob: (+995) 577 62 30 31

ID: 401960794, Postal Code: 0159

E_mail: info.amag77@gmail.com

რწმენიდან სიკეთემდე

İmandan Ehsana

TƏSƏVVÜF

Osman Nuri TOPBAŞ

ოსმან ნური თოფბაში

TBİLİSİ- 1439/2018

Təqdimat

Təsəvvüfün qayəsi nəfsi təmizləmək, qəlbi saflaşdırmaqdır

Allah təala özünün ən kamil əsəri olan insanı yaradarkən ona ruhundan bir sirr, qüdrətindən bir cövhər üfürərək bəşər övladını məxluqatın ən şərəflisi etmişdir.

Din də məhz insan üçün yaradılmışdır. Din insanı dünya və axirət səadətinə qovuşduran ilahi bir qanun, Allahın insanlar üçün müəyyən etdiyi doğru yoldur. Allah təalanın insanlar üçün bəyənib seçdiyi sonuncu kamil din islamdır. Dinin qayəsi gözəl əxlaqlı insan yetişdirməkdir. Bu isə insanın Allahın qulu olaraq yalnız Ona ibadət etmək üçün yaradıldığı həqiqətini dərk etməsi və onu layiqincə yerinə yetirməsi ilə mümkündür.

Görünüşdə kiçik bir aləm, həqiqətdə isə cahana sığmayan böyük bir aləm olan insan özündən başqa heç bir canlı və cansız varlığın sahib olmadığı tükənməz imkanlara malikdir. Daha doğrusu, insan makrokosmos olan sonsuz kainatın mikrokosmosu, kiçik bir nüsxəsidir.

Həzrət Əlinin dediyi kimi: «Sən özünü kiçik bir cisim sanırsan, həqiqətdə isə səndə böyük bir aləm gizlənmişdir.»

Yaxud Şeyx Qalib demişkən:

Xoşca bax halına kim zübdeyi-aləmsən sən,
Mərdümi-dideyi -əkvan olan insansan sən!

İnsanı insan edən onun dini, imanıdır. İmanlı insan yüksək məqamlara, imansız insan isə alçaq mərtəbələrə layiq bir varlıqdır.

Məhəmməd Akif nə gözəl demişdir:

İmandır o cövhər ki, ilahi, nə böyükdür,
İmansız olan paslı ürək sinədə yükdür!

İslamda xüsusi mistik dünyagörüşü olan təsəvvüf isə dinimizin ehtiva etdiyi mənəvi yönü, əxlaqi yolu potensiallıqdan reallığa, qüvvədən felə, nəzəriyyədən əməliyyəyə çevirən bir təlimdir.

Təsəvvüfün müstəqil bir təlim, ayrıca bir cərəyan kimi meydana çıxması, mütəxəssislərin çoxunun qeyd etdiyi kimi, islami həyatın zaman keçdikcə əvvəlki gücünü itirməsi, dinimizdəki zöhd hərəkatının zəifləməsi ilə əlaqədardır.

İslam təsəvvüfünün zöhdi həyata verdiyi önəm bu elmin qayəsinin "masiva" (Allahdan başqa hər şey, dünya və dünyada olanlar) ilə qəlbin əlaqəsinin kəsilməsindən ibarət olduğunu deməyə əsas verir. Təsəvvüfdə dünya və onun içindəkilər insanı Allahdan uzaqlaşdıran, nəfsi ruha hakim edən büt hesab edilir, Allaha qul olmaq isə ən böyük azadəlik sayılır:

Dil əsirin olduğu gündən bəri azadədir,
Masivaya bağlanırmı bağlanan vicdan Sana?!

Müəllim Naci

Mütəsəvvifin ali hədəfi Allaha çatmaq, ruhən, mənən Allaha qovuşmaqdır. Allaha çatmaq isə yalnız seyri-sülukla – mənəvi yolçuluqla mümkündür. İnsanı Allaha qovuşduran mənəvi yolçuluq üsulu təriqət adlanır. Təriqətlər olduqca çoxdur, lakin bu təriqətlər metodoloji baxımdan üç əsas qismə ayrılır ki, onlar da aşağıdakılardır:

1. Təriqül-əxyar: namaz, oruc, dua, Quran tilavəti, həcc, cihad və s. ibadətlərə əsaslanan təriqətlər.

2. Təriqül-əbrar: nəfsi mücahədə və riyazət vasitəsilə tərbiyə edən təriqətlər.

3. Təriqüş-şüttar: insanı eşq, cəzbə, vəcd, şövq, zikr və fikir vasitəsilə Allaha qovuşmağa aparıb çıxaran təriqətlər.



Təsəvvüf yolunun yolçuları nəfsi təmizləmək və qəlbi saflaşdırmaqla məşğul olurlar. Bu çətin əməliyyat "üsuli-əşərə" deyilən on üsulla mümkündür ki, onlar tövbə, zöhd, təvəkkül, qənaət, üzlət, Allaha təvəccöh, səbir, riza, zikr və müraqəbə adlanır.

Təsəvvüfün əsasını nəfsə həzz verən hər bir şeydən uzaqlaşmaq, nəfsi təmizləyib ruha ram etmək, bununla da mələkxislət olmaq təşkil edir.

Təsəvvüfdə ən mühüm olan cəhətlərdən biri də islami əsaslara, dinin hökmlərinə uyğun şəkildə yaşamaqdır. Bu o deməkdir ki, təsəvvüfdə şəriətsiz təriqət, mərifət və həqiqət mümkün deyildir.

Hörmətli oxucu! Bütün bunları deməkdən məqsəd heç də sənə təsəvvüf haqqında məlumat vermək deyil, möhtərəm xocamız Osman Nuri Topbaşın "İmandan Ehsana Təsəvvüf" kitabını oxumağa hazırlamaqdır. Onsuz da sən həmin məlumatları bu kitabdan daha geniş surətdə əldə edəcəksən. Təsəvvüf, irfan haqqında ərəb, fars, türk dillərində çox-çox qiymətli kitablar yazılmış, dünyanın bir çox müsəlman və qeyri-müsəlman ölkələrində, xüsusilə Avropa məmləkətlərində görkəmli ailmlər tərəfindən külli miqdarda tədqiqatlar aparılmışdır.

Müəllif kitabın "Təsəvvüfün mahiyyəti" adlı birinci bölməsində haqlı olaraq qeyd edir ki, əsri-səadətdə, yəni Peyğəmbər -səllallahu əleyhi və səlləm-dövründə kəlam, etiqad və fiqhə aid məzhəblər hələ təşəkkül tapmamışdı. Bununla yanaşı, məzhəblərin zühurundan əvvəl də etiqadi, fiqhi və başqa hökmlər mövcud idi. Həmin hökmləri Allahın elçisi -səllallahu əleyhi və səlləm- səhabəyə öyrədir, onlar da həmin hökmləri gündəlik həyatda tətbiq edirdilər. Lakin o dövrdə bütün bu hökmlər hələ qeydə alınıb sistemə salınmamışdı. Müəyyən bir müddət keçdikdən sonra, məsələn, fiqh elmində məşhur olan nüfuzlu alimlərin tətbiq etdikləri üsullar və ictihadlar toplanıb sistemləşdirilmiş və həmin fərqli üsullara məzhəb adı verilmişdir. Bu, təsəvvüfə də aiddir.

Təsəvvüfün təlqin etdiyi zöhd və təqva həyatı əsri-səadətdə də yaşanırdı. Əhli-süffənin həya tərzi buna canlı sübutdur. Lakin təsəv-



vüfün bir təlim, mənəvi yolçuluq üsulu, seyri-suluk sistemi kimi formalaşması hicrətin ikinci əsrində başlamışdır.

Təsəvvüfə verilən çoxlu tərifləri sadalayan müəllif qeyd edir ki, o ilk növbədə gözəl əxlaq və ədəb, nəfsi təmizləmək və qəlbi saflaşdırmaq deməkdir. Qəlb öz mahiyyəti etibarilə "nəzərgahi-ilahi"dir. O, Allahın nəzərlərinin təcəlli məqamı kimi yüksək bir şərəfə nail olmuşdur. Bir sarayın taxtında sultandan qeyrisinin əyləşməsi mümkün olmadığı kimi, vücud mülkünün sarayı mövqeyində olan qəlbin də Allahdan başqa hər bir şeydən, yəni nəfsani düşüncələrdən, çirkin meyllərdən, qısası masivadan təmizlənməsi gərəkdir. Əks halda qəlb ilahi nemətlərə nail olmaq şərəfindən məhrum olur.

"Təsəvvüf sülhü olmayan mənəvi bir cəngdir", "Təsəvvüf ixlasdır", "Təsəvvüf istiqamətdir" (Allahın kitabına, Peyğəmbərin sünnəsinə möhkəm sarılmaqdır), "Təsəvvüf riza və təslimiyyətdir" tərifləri nəzərdən keçirən Osman xoca onların hər birinin mahiyyətini oxucu üçün gözəl bir təhkiyə üsulu ilə şərh edir.

Təsəvvüfün mövzusuna toxunan Osman Nuri Topbaş göstərir ki, o bir dərya kimi əngin və dərindir, çünki təsəvvüf insanın nəfsi və ruhu ilə olan hər bir şeylə maraqlanır.

Osman Nuri Topbaş altı bölümdən ibarət olan bu iri həcmli əsərində təsəvvüfün mahiyyətini açıqlamış, təsəvvüflə bağlı bir çox məsələləri, məqamları bacarıqla izah etmiş, onları Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm-, səhabənin, tabiinin, övliyaların, böyük islam şəxsiyyətlərinin həyatından, əməl və davranışlarından, verdiyi gözəl örnəklərlə inandırıcı şəkildə təsbit etmişdir.

Nəfsin təmizlənməsi, qəlbin saflaşması fəsillərində Osman xoca nəfsin mərtəbələri, qəlbin çeşidləri barədə ətraflı məlumat vermişdir.

Kitabda sufi tərbiyəsində təsəvvüf böyüklərindən Əbülxaliq Gücdüvaninin təsbit etdiyi və Nəqşbəndilikdə qəbul olunmuş on bir əsas prinsip geniş şərh edilmiş, mürşidi-kamil və irşad metodları, fəna fillah, fəna fiş-şeyx, fəna fir-rəsul məqamları qanedici şəkildə açıqlanmışdır.

Əsər oxucuda çox çətin bir təlim olan təsəvvüf haqqında geniş təsəvvür yaradır.

Bizə elə gəlir ki, "İmandan Ehsana Təsəvvüf" kitabının belə dolğun və məzmunlu olmasının əsas səbəbi onun sufiliyi yaxşı bilən quru bir nəzəriyyəçi tərəfindən deyil, təsəvvüfi həyat yaşayan, daha doğrusu onu mütəmadi yaşantı tərzinə çevirən bir könül adamı tərəfindən yazılmasıdır. Çünki təsəvvüf mahiyyəti etibarilə, necə deyərlər, "qal" elmi yox, "hal" elmidir, yəni sözlə ifadə edilə bilən bir elm olmayıb, yaşantı ilə, ruhi, mənəvi duyumla ifadə edilən bir elmdir. Onu əsl həqiqətdə yalnız bu ruhi vəziyyəti, mənəvi halı keçirən könül adamı vəsf edə bilər. Osman Nuri Topbaşın şəxsiyyəti buna gözəl örnək, həyat tərzi yaxşı nümunədir.

Ümidvaram ki, Osman Nuri Topbaşın "İmandan Ehsana Təsəvvüf" kitabı islamsevərlərin, təsəvvüflə maraqlananların stolüstü kitablarından birinə çevriləcəkdir.

Hacı Yasin Əliyev

Bütün Gürcüstan Müsəlmanları

İdarəsinin Müftisi.



«And olsun günəşə və onun işığına (günəşin qalxdığı vaxta); **And olsun** (günəşin) **ardınca çıxan aya; And olsun onu** (günəşi) **parlaq edən gündüzə; And olsun onu** (günəşi) **örtən gecəyə; And olsun göyə və onu yaradana; And olsun yerə və onu döşəyənə; And olsun nəfsə və onu yaradana** (ona biçim verənə); **Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini** (xeyir və şəri) **öyrədənə ki, nəfsini** (günahlardan) **təmizləyən mütləq nicat tapacaqdır! Onu** (günaha) **batıran isə, əlbəttə, ziyana uğrayacaqdır.»** (əş-Şəms, 91/1-10)

Uca Allahın and içməsi, üzərində and içilən varlıqların qiymət və şərəflərini bildirməklə yanaşı, əslində, o anddan sonra ifadə edilən ilahi qayə və istəyin ucalıq, əzəmət və önəmini göstərmək üçündür. Bu ayələrdəki andlar da belədir. Ancaq bir fərqlə: Uca Allah bu ayeyi-kərimələrdə ardıcıl olaraq yeddi dəfə and içir, sonra da mənanı daha da qüvvətləndirmək üçün «قَدْ» ədatından istifadə edir. Bu güclü təkid və təsdiqdən sonra bildirir: **«Nəfsini** (günahlardan) **təmizləyən mütləq nicat tapacaq! Onu** (günaha) **batıran isə, əlbəttə, ziyana uğrayacaq…»**

Diqqətəlayiqdir ki, Qurani-Kərimdə uca Allah nəfsin təmizlənməsindən başqa heç bir məsələdə bu şəkildə ardıcıl olaraq yeddi dəfə and içməmişdir. Bu gerçək, insanın qurtuluşu üçün nəfs təmizliyinin nə qədər əhəmiyyətli və zəruri olduğunu ifadə etmək üçün kifayətdir.

Elə **«İmandan ehsana təsəvvüf»** sərlövhəli bu əsər də bu Qurani həqiqəti Haqq dostlarının söz, hal və davranış gözəllikləri ilə izahından ibarətdir.

ÖN SÖZ

Ruhundan nəfəs verdiyi insana metafizik bir təfəkkür və duyğu dərinliyi bəxş etmiş olan uca Allaha sonsuz həmd-sənalar olsun!

Bu təfəkkür və duyğu dərinliyi baxımından da ən mükəmməl təcəllalara nail etdiyi və bütün bəşəriyyətə nümunəvi şəxsiyyət olaraq bəxş etdiyi qulu və rəsulu, kainatın fəxri olan mübarək Peyğəmbərimizə, onun ailəsinə, əshabına və Ona tabe olanlara sonsuz salət və salam olsun!

Şübhəsiz ki, əshatəsəvvüf İslamın qəlbi həyatı, mahiyyəti və mənəvi yönüdür. Yəni İslam, ələxsus, mahiyyətindəki bu cövhər və ruhun istedadlı insanlarda əmələ çevrilməsi səbəbiylə mömin könüllərdəki ruhaniyyət, feyz, məhəbbət və vəcd vəsflərini zirvələrə qaldırır. Bu o deməkdir ki, təsəvvüf İslam bağındakı uca elm və irfan ağacının meyvə baxımından ən səmərəli budaqlarından biri olmuşdur. Belə ki, bu günədək təsəvvüf haqqında:

- daha çox yüksək və dərin təfəkkür sahiblərinə (xəvassa)

- həm seçilmişlərə, həm də geniş xalq kütlələrinə (avama)

- ilk növbədə xalq kütlələrinə (avama) xitab edən -çox gözəl əsərlər yazılmışdır.

Bunlardan bir qismi, *«Füsusul-Hikəm»* və *«İnsani-Kamil»** kimi əsərlər yalnız dərin və yüksək təfəkkür sahiblərinin qavrayacağı səviyyədə qələmə alınmışdır. Bir sıra əsərlər isə, Mövlananın *«Məsnəvi»*si kimi, bəzən dərin düşüncəli insanlara, bəzən də orta səviyyəli xalq kütlələrinə xitab edən əsərlərdir. Bunlar zahiri elmlərini tamamlamış olanların sahib olduqları bilik ölçüsündə daha dərin, daha geniş mənəvi bir təfəkkür və feyzə ram olaraq Haqqa, həqiqətə və mərifətullaha nail olmaları üçündür. Bundan başqa, *«Ənvarul-Aşiqin»*, *«Məhəmmədiyyə»* və *«Nəfəhatül-Üns»* kimi geniş xalq kütləri üçün yazılmış olan təsəvvüf kitabları da var. Bunlar

* Əbdülkərim əl-Cilinin əsəri

şəri gerçəkləri qavramış olan geniş xalq kütlələrində duyğu, anlayış və davranış mükəmməlliyi baxımından az-çox bir səviyyə yaratmaq mahiyyətindədir.

Təsəvvüflə bağlı əsərlərdəki bu müxtəliflik cəmiyyətdə mövcud olan avama da, xəvassa da idrak və gücləri ölçüsündə İslamı, onun dərin mahiyyətindəki mükəmməlliyə yaraşan bir şəkildə dərk edib tətbiq etmək bacarığını vermək üçündür. Beləcə insanlar əcdadların deyimi ilə *«zül-cənaheyn»*, yəni iki qanadlı olurlar.

Bütün bu yönləri ilə cəmiyyətin hər təbəqəsinə xitab edən təsəvvüf həm sosial-iqtisadi rahatlıq zamanındakı tənbəllik və laqeyidliyə mane olaraq canlılığı davam etdirmiş, həm də istila, işğal və zülmlə dolu olan çətin dövrlərin qarışıqlıq və böhranları arasında sıxılmış, daralmış könüllərə ülvi pəncərələr açaraq onlara nəfəs vermiş, yaralı könüllərə məlhəm, yorğun zehinlərə təsəlli və qurumuş ruhlara Kövsər olmuşdur. O, bir yandan gözəl əxlaq və ibadətdə uca zirvələrə yüksələnlərə təvazökarlıq duyğusu təlqin edərək, onları qürur, təkəbbür və özünü bəyənmək kimi mənfi duyğulardan qorumuş, bir yandan da günah çuxurunda boğulan bəndələrə geniş bir əfv, anlayış, mərhəmət və rəhmət kimi can qurtaran halqalar uzatmışdır. Belə ki, Monqol istilasından sonra bütün Anadolunu əhatə etmiş qarışıqlığın ortaya çıxardığı narahatlıq və iztirabları təskin və təsəlliedici olaraq o dövrdə təsəvvüf cərəyanlarının gücləndiyi və bir çox böyük mütəsəvvifin də ortaya çıxmış olduğu tarixi bir həqiqətdir.

Bu gün də bütün bəşəriyyət dəhşətli bir narahatlıq və çoxsaylı iztirabların girdabına sürüklənmişdir. Belə bir zamanda könüllərə şəfa bəxş edəcək təsəvvüfi gözəllik və xislətlərə duyulan ehtiyacı, əsla inkar etmək mümkün deyil. Çünki ateizmin boyunduruğundan yenicə qurtulmuş *«yaralı bir quş»* kimi mənəvi müalicəyə möhtac olan qardaşlarımızın ruh və yorğun könülləri bu baxımdan bir dirilik suyuna möhtacdır. Belə ki, materializmdən ruhu sıxılmış istər Şərqdə, istərsə də Qərbdəki insanlar İslamı əvvəlcə böyük mütəsəvviflərin cazibə və gözəllikləri ilə tanıyırlar, sevirlər və nəhayət bu qurtarıcı dinə möhkəm sarılırlar.

Bütün bunlar onu göstərir ki, təsəvvüf geniş və dərin bünövrəsi və mahiyyəti ilə iman əhlinin əlində əvəzedilməz bir islami təcəlla, feyz və kamillik nemətidir. Bu baxımdan o həm müsəlmanların kamilləşməsi, həm də müsəlman olmayanların doğru yolu tapması və onlara İslamın doğru şəkildə təqdim olunması üçün çox böyük əhəmiyyət daşıyır.

Çünki gerçək təsəvvüf, Rəsulullah -səllallahu əleyhi və səlləm-in mübarək həyatının qiyamətədək gələcək əsrlərə və nəsillərə inikasını təmin edəcək bir könül aynasından ibarətdir.

Belə olduğu üçün də uca Allah -cəllə cəlaluhu-nun və həzrət Peyğəmbər -səllallahü əleyhi və səlləm-in feyz və məhəbbəti könüllərdə yüz illər boyu eyni canlılıq və təravətlə yaşamış, yaşayır və yaşayacaqdır.

Belə olduğu üçün də İslam bu gün müsəlmanların maddi baxımdan zəif olmalarına rəğmən, varlığını və təsirini güclü bir şəkildə davam etdirir. Belə olduğu üçün də İslamın gizli və açıq düşmənləri ruh və bədəni bir-birindən ayırdıqları kimi, təsəvvüfü də İslamdan ayrı olan bir anlayış sistemi olaraq göstərməyə çalışırlar. Başqa sözlə, məsələni bilməyən şəxslərin təsəvvüflə bağlı məsələlərdə yanılaraq yersiz müxalifətə sürüklənmək təhlükəsi olduğundan, təsəvvüfi həqiqət və gerçəklərin hər zaman doğru bir biçimdə dilə gətirilib ifadə edilməsi, yanlış düşüncələrin düzəldilməsi olduqca əhəmiyyətli bir zərurətə çevrilmişdir. Əlbəttə, təkcə bu zərurətlə bağlı deyil, yuxarıda toxunduğumuz gözəlliklərin də bütün könüllərə təqdim edilməsi üçün təsəvvüflə bağlı olan sahə, sanki bir əsərlər dəryası kimidir.

Biz də acizliklə bu dəryaya eyni məqsədlə bir könül damlası təqdim etməyə çalışdıq. Bir damla, çünki təsəvvüf «qal»dan (sözdən) çox, *«hal»* elmi olduğu üçün əsərimiz könülləri uca hüzura yönləndirməkdə bir körpü vəzifəsini ifa edərsə, özümüzü bəxtiyar sayarıq.

Bu mənada əsərimizdə təsəvvüfün ümumi olaraq mahiyyətini verdikdən sonra, onun ana mövzusunu təşkil edən mərifətullah, məhəbbətullah, nəfsin təmizlənməsi, qəlbin saflaşdırılması, təsəvvüfi üslub və başqa bu kimi məsələləri izah etməyə çalışdıq. Başda Peyğəmbər -səlləlahu aleyhi və səlləm- olmaqla o mübarək varlığın varisləri

olan İslam böyüklərinin davranışlarından nümunələr təqdim etdik. Yeri gəldikcə də, təsəvvüfün dərinlik və incəlikləri ilə bağlı bir sıra tərəddüdlü və müxalif görüşlərə cavab olaraq, şəxsləri hədəf seçərək deyil, sadəcə fikir mahiyyətində məlumat verdik. Bundan başqa, təsəvvüfün arzu etdiyi mənəvi tərbiyədən uzaq olan bəzi şəxslərin ya xoş bir niyyətlə, ancaq cahilanə, ya da onların qafilliklərindən yaranan şikəst, naqis və yersiz əməllərinin bu mübarək yol ilə heç bir əlaqəsinin olmadığını göstərmək istədik.

Xülasə, bütün bu yönləri ilə əsər ilk baxışda müəllifinin, ancaq həqiqətdə Haqq dostlarının əsəridir. Yəni əsərdəki bütün bərəkət və gözəlliklər Allah dostlarının könül aləmlərindən bizə əks edən ülvi dəyərlərdir. Bizim vəzifəmiz günümüzün ehtiyac və şərtlərinə görə bunları bir araya toplamaqdan ibarət olmuşdur. Bu baxımdan əsərimizi hazırlayarkən, şübhəsiz, bizdən öncə yazılmış əsərlərdən istifadə etdiyimiz kimi, bir «canlı kitab» kimi olan çox dostumuzdan da yardım gördük. Bunu məmnuniyyət və iftixarla qeyd etmək istəyirəm.

Sözlərimizi yekunlaşdırarkən bu əsərdə mənqibələrinin adı çəkilmiş Allah dostlarına və əmək sərf etmiş akademik dostlarımıza səmimi sevgi və dualarımızı bildirməyi vicdani bir borc hesab edirik.

Ya Rəbb! Elm və idrakımızın yetərsizliyinə baxmayaraq, dərin təsəvvüf aləminin izah və ifadəsinə cürət etdiyimiz duyğu və düşüncələrimizin möhtərəm oxucularımızda, inşallah, yaradacağı feyz və təsirlərə sonsuz, tükənməz bir bərəkət ehsan eylə!

Allahım! Bu acizanə könül xidmətimiz səbəbiylə bizi möhtərəm oxucularımızla birlikdə sonsuz nemətlərinə lütfünlə və kərəminlə nail eylə! Bu nemətləri də öz şanlı uluhiyyətinin əzəmət və ölçüsünə görə möhtəşəm bir mahiyyətlə lütf eylə!

Amin!..

Osman Nuri Topbaş

BİRİNCİ BÖLMƏ

TƏSƏVVÜFÜN MAHİYYƏTİ

A. TƏSƏVVÜFÜN MEYDANA GƏLMƏSİ
B. TƏSƏVVÜFÜN TƏRİFİ

1.Təsəvvüf gözəl əxlaq və ədəbdir
2.Təsəvvüf nəfs təzkiyəsi və qəlb təsfiyəsidir
3.Təsəvvüf sülhü olmayan mənəvi bir cəngdir
4.Təsəvvüf ixlasdır
5.Təsəvvüf istiqamətdir
6.Təsəvvüf riza və təslimiyyətdir

C. TƏSƏVVÜFÜN MÖVZUSU
D. TƏSƏVVÜFÜN MƏQSƏDİ
E. TƏSƏVVÜFÜN ÖNƏMİ
F. TƏSƏVVÜFÜN BAŞQA ELMLƏRLƏ MÜNASİBƏTİ

1. Təsəvvüf və digər islami elmlər
   a. Təsəvvüf və Kəlam
   b. Təsəvvüf və Təfsir
   c. Təsəvvüf və Hədis-Siyər
   d. Təsəvvüf və Fiqh
2. Təsəvvüf və Dəqiq elmlər
3. Təsəvvüf və Ədəbiyyat
4. Təsəvvüf və Gözəl sənətlər
   a. Musiqi
   b. Memarlıq
   c. Xəttatlıq
5. Təsəvvüf və Fəlsəfə

G. FAYDALI ELM



«Allaha inandım de, sonra istiqamət üzrə ol!» (Müslim, «İman», 62)

TƏSƏVVÜFÜN MAHİYYƏTİ

Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) **və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!** (əl-Əhzab, 33/21)

A. TƏSƏVVÜFÜN MEYDANA GƏLMƏSİ

Uca Allah insana ehsan etdiyi sonsuz nemətlərinə əlavə olaraq:

«Ruhumdan (qüdrətimdən bir sirr) **üfürdüm»**[1] buyuraraq, öz dərgahından bir cövhəri bəxş etməklə ona qiymətlərin ən ucasını lütf etmişdir. Buna qarşılıq olaraq da onun, Zati-Uluhiyyətinə sevgi bəsləyərək qulluq etməsini və bunun nəticəsində də mərifətdən pay alaraq vüsala qovuşmasını murad etmişdir.

Uca Allah bəndələrini doğru yola yönəltmək üçün insana bir sıra üstün vəsflər lütf etmişdir. Bundan başqa bir də onların arasından müstəsna yaradılışlı, vəhy almağa layiq görülmüş bir sıra bəndələrini peyğəmbər olaraq vəzifələndirməklə onlara ehsan etmişdir. Peyğəmbərlərin olmadığı zamanlarda isə, onların varisi olan saleh bəndələri ilə bu lütfünü davam etdirmişdir.

Rəbbin insanlığa müstəsna yardımını ifadə edən peyğəmbər göndərmək keyfiyyəti bütün insanlığı əhatə etməsi üçün həzrət Adəm -əleyhissalam- ilə başlamışdır. Həzrət Adəm həm ilk insan, həm də ilk peyğəmbərdir.

Bu mübarək hidayət yolu ilahi qüdrət axışları içində bir nur qığılcımı şəklində ardıcıl olaraq gələn yüz iyirmi mindən çox peyğəmbərlə dəstəklənib gücləndirilərək insanlığın yaşadığı tərəqqiyə

1. (Hicr, 15/29)

paralel bir təkamül qazandırmışdır. Dövrün xüsusiyyətlərinə və xitab etdiyi insanların səviyyəsinə uyğun təbliğatla davam edən bu silsilə, nəhayət son peyğəmbər həzrət Məhəmmədlə -səllallahu əleyhi və səlləm- kamala çatıb ən uca zirvəyə yüksəlmişdir.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- nuru ilə həzrət Adəmdən öncə, cismi ilə bütün peyğəmbərlərdən sonra zühur etmişdir. Bununla da O, peyğəmbərlik təqviminin ilk və son yarpağı olmuşdur. Yəni risalət təqvimi varlığın ilki olan Məhəmmədin nuru ilə başlamış, son yarpağı da Məhəmmədin cismi ilə başa çatmışdır. Dolayısı ilə, O, zaman baxımından son, yaradılış etibarı ilə ilk peyğəmbərdir.

Bütün yaradılmışların varlıq səbəbi Məhəmmədin nuru olduğundan uca Allah həzrət peyğəmbəri *«Həbibim»* xitabına nail olacaq bir qabiliyyətdə yaşatmışdır. Rəbbimiz, Onun müstəsna və şərəfli həyatını zahirən və daxilən ən gözəl bir şəkildə tərbiyə edərək bütün insanlığa bir ərməğan olaraq lütf etmişdir.

Rəsulullahın -səllallahu əleyhi və səlləm- daxili aləmi və mübarək şəxsiyyəti ancaq insan idrakına sığa bilən təzahürləri ilə belə bəşəri davranışlar mənzuməsinin ən əlçatmaz zirvəsini təşkil edir. Belə ki, Allah -cəllə cəlaluhu- O mübarək varlığı bütün insanlığa *«Üsveyi-Həsənə»*, yəni ən mükəmməl əxlaq nümunəsi etmişdir. Buna görə də, onu insan topluluğu içərisində acizlik baxımından ən zəif nöqtə olan *«yetim uşaqlıq»*dan başlayaraq həyatın bütün mərhələlərindən keçirib, qüdrət və səlahiyyət baxımından ən uca nöqtəyə, yəni dövlət başçısı və peyğəmbərliyədək yüksəltmişdir. Bu o məqsədlə edilmişdir ki, bəşəriyyətin inkişaf mərhələlərində ayrı-ayrı səviyyələrdə olan hər bir şəxs Ondan özü üçün ən mükəmməl əməli davranışları nümunə götürüb, öz gücü və istedadı ölçüsündə bunları gerçəkləşdirməyə səy edə bilsin.

Uca Allah Onun peyğəmbər olaraq göndərilişindən başlayaraq dünyanın sonunadək gələcək olan bütün insanlara bir nümunə təşkil etdiyini belə buyurmuşdur:

«Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) **və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!»** (əl-Əhzab, 33/21)

Bu o deməkdir ki, bütün insanlıq iman və əxlaq, daha ümumi bir ifadə ilə təsəvvüfi davranış mükəmməliyinə çata bilmək üçün o mübarək varlığın həyat və fəaliyyətini layiqincə öyrənmək məcburiyyətindədir. Öyrəndiklərini də öz istedadı ölçüsündə təqlid etməyə çalışmalı və vaxt keçdikcə mahiyyətini araşdırıb öyrənməyi hədəf seçməlidir. Bu isə Ona duyulan sevgi və Onun ruhaniyyətinə bürünə bilmək ölçüsündə gerçəkləşir. Onunla duyğulanıb feyziyab olmaqda saysız-hesabsız mənəvi nəsib və təcəllalar var. Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- örnək şəxsiyyət və mənəvi həyatından gücümüz çatdığı qədər nəsiblənmək, Onun əxlaqı ilə tərbiyələnmək dünya və axirətdəki şərəfin ən ucasıdır.

Aləmlərin Rəbbi kainatın fəxri olan sevimli peyğəmbərimizi zahirən və daxilən ən gözəl bir fitrətdə yaradıb, tərbiyə etmişdir. O, bu ilahi tərbiyəsini bu sözləri ilə dilə gətirmişdir:

«Məni Rəbbim tərbiyə etdi və tərbiyəmi necə gözəl etdi.» (Süyuti, «Camius-Sağır», I, 12)

Rəsulullah -səllallahu əleyhi və səlləm- dünya aləminə təşrif gətirməsindən başlayaraq qırx il dəhşətli bir cəhalət toplumu içində yaşadı. Buna baxmayaraq ilahi bir himayə, qoruma və tərbiyə altında böyüdü. Cahiliyyə dövrünün heç bir pisliyinə bulaşmadı. Hətta, peyğəmbərliyə hazırlıq mahiyyətində mübarək sinəsi yarılaraq qəlbi təmizlənmiş, mənəvi bərəkət və nurla bəzənmişdir.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- peyğəmbərlikdən əvvəl də tövhid düşüncəsi içində uca bir həyat yaşamış, xüsusilə, peyğəmbərlik vəzifəsi verilməsinə yaxın zamanlarda özünü daha çox Allaha -cəllə cəlaluhu- gerçək bir bəndə olmağa həsr etmişdir. Nur dağında uzun müddət tənha qalmış və dərin təfəkkür içində yaşamışdır. Bu tənhalığa çəkilməyin səbəbi ilk baxışda xalqın içinə düşdüyü azğınlıq, zülm və səfalətdən Onun könlünə əks edən iztirablarla bütün aləmi əhatə edən mərhəməti idi. Əslində isə, insanlığa əbədi bir nur qaynağı olan Quranın uca Allahın dərgahından həzrət Məhəmmədin pak qəlbi vasitəsilə bəşər idrakına nəql edilməsini təmin edəcək bir hazırlıq mərhələsi idi. Bu təcəlla və təzahürlərlə Onun qəlb aləmi həqiqi bir

saflığa qovuşaraq vəhyi qəbul edə biləcək səviyyəyə çatdı. Vəhyə hazır olan o mübarək qəlb altı ay müddətində doğru yuxular şəklində təzahür edən mənəvi işarələr və ilhamlara nail oldu.

Beləliklə, Ona mənəviyyat aləmindən sirlərin pərdələri açıldı. Bu hal vəhy almaq kimi adi bəndələr üçün dözülməsi mümkün olmayan ağır bir yükü daşımaqla bağlı fitri istedadın üzə çıxmaq mövsümü idi. Eynilə dəmirin mahiyyətindəki xüsusiyyətə uyğun olaraq polada çevrilməsi kimi…

Kainatın fəxri olan Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- bütün peyğəmbərlərin səlahiyyət və vəzifələrinin hamısını şəxsiyyətində və davranışlarında topladı. Əsil-nəcabət və ədəb aliliyi, camal və kamal səadəti Onda zirvəyə yüksəldi. O, ehkam vaz etdi. Təsəvvüfün mahiyyəti olan qəlbin saflaşması və nəfsin təmizlənməsi məsələsini təlim edib, tərtəmiz bir qəlb ilə uca Allaha ediləcək qulluğu və duanı öyrətdi. Ən gözəl əxlaqı yaşayaraq insanlığa mükəmməl bir nümunə oldu. Onun qırx yaşı isə, özü və bəşəriyyət üçün ən önəmli dönüş mərhələsi oldu.

❁

Təsəvvüf, mahiyyətinə görə könül aləmimizin səlim bir hala gəlib mərifətullah və məhəbbətullahdan pay alaraq müəyyən bir səviyyəyə çatması və beləliklə ilahi vüsala hazır ola biləcək bir mərtəbə qazanmasıdır. Bu mərtəbə, bizi qurtaracaq olan ruh Hira və Sevrdən qalan müqəddəs bir mirasdır. Belə ki, istər bu xüsusi məkanlarda, istərsə də başqa məkan və zamanlarda Peyğəmbərə -səllallahu əleyhi və səlləm- vəhyin verilməsində seçilən bu mənəvi təlim metodu qəlb saflaşması və nəfsin təmizlənməsinin bərəkətli qaynağını təşkil edir.

Hələ vəhy gəlmədən əvvəl müəyyən bir qəlbi və mənəvi səviyyəyə çatmış olan Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- ülvi bir həyatın və yüksək bir əxlaqın içində idi. Ancaq ilahi bir təlimat ilə Hira mağarasından dönərkən keçmiş həyatını geridə qoyan uca bir mərhələyə qovuşmuşdur. Uca Rəbbi ilə dərin və güclü qəlbi rabitə qurmuş, tövhid və mərifətullah nurunu bütün zərrələrinə hopduraraq



qulluqda təqva və mütiliyin zirvəsinə çatmışdı. Belə ki, gecələr ayaqları şişənədək göz yaşları içində qulluq və ibadətə davam etmiş, gözləri yatsa belə, qəlbi hər zaman oyaq qalmış, Allahın zikrindən, təfəkkür və müraqabəsindən bir an belə uzaq qalmamışdı.

Həqiqətən, o uca varlıq ona vəhy edilən Qurani-Kərimin ortaya qoyduğu elm və hikmətlə dövrünün seçilmiş insanlarını belə, aciz vəziyyətə salmış, həyatı və əməli ilə o günədək əldə edilməmiş və qiyamətədək əldə edilə biləcəyi mümkün olmayan bir möcüzə dəryasına çevrilmişdir. Artıq qiyamətədək baş verə biləcək heç bir kəşf onu təkzib edə bilməyəcək və heç bir tərbiyəçi də onun tərbiyəsinin səviyyəsinə yüksələ bilməyəcək.

Zaman keçdikcə Kainatın Fəxri -səllallahu əleyhi və səlləm-dəki bu mənəvi və qəlbi səviyyə daha da yüksəlmiş, Məhbubun Həbibinə əvəzsiz payı olan meracla O, bir *«sonsuzluq yolçusu»* olmuşdur. O gecə Rəbbinin xüsusi qonağı olaraq əlçatmaz səviyyələrə yüksəlmişdir. Ayeyi-kərimədə bəyan edildiyi kimi:

قَابَ قَوْسَيْنِ أَوْ أَدْنَى

sirrinə nail olmuşdur.[2]

İsra və Merac olaraq bildirilən bu böyük ilahi nemət bütün bəşəri pərdələr qaldırılaraq fövqəladə və tamamilə ilahi ölçülərlə gerçəkləşən bir lütfdür. Bəşəri mənada məkan və zaman anlayışı aradan qaldırılmış, milyardlarla insan ömrünə sığmayacaq qədər uzun bir yolçuluq və müşahidə çox az bir zamanda baş vermişdir. Aləmləri, kürsünü, ərşi və sidrətül-müntəhanı keçmiş, röyatullah təcəllasına nail olaraq Rəbbi ilə vasitəsiz bir şəkildə danışmaq kimi müstəsna bir nemətə nail olmuşdur.

Allahın lütfü ilə nail olduğu bu qəlbi səviyyə və kamalla bütün bəşəriyyəti hidayətə qovuşdurmaq arzusu ilə dini-mubini təbliğə

2. «**Qabə qavseyni əv ədna**»*: Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- merac gecəsində Cəbrail də daxil olmaqla heç bir yaradılmışın sərhədini keçə bilmədiyi Sidreyi-Müntəhanı keçdi. Ayədə insan idrakına «birləşdirilmiş iki yay arası, ya da daha az»* məsafə olaraq təqdim edilən keyfiyyəti ilə qullara görə anlaşılması mümkün olmayan məhrəm bir qovuşma gerçəkləşdirildi. Baxın, *«Nəcm»,* 53/9.



davam etmiş, ona verilən bu ilahi əmanəti yerinə yetirmək düşüncəsi onu zirvələrin zirvəsinə çevirmişdir. Vəzifəsini yerinə yetirməyə mane olacaq bütün dünyəvi təklifləri tərəddüdsüz rədd etmiş, Haqqa qulluğu hər şeydən üstün tutmuşdur. Təbliğin ilk mərhələsində baş verən bu hadisə də deyilən həqiqəti çox gözəl ifadə edir:

Müşriklər, Əbu-Talib vasitəsilə həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- xəbər göndərərək mübarizəsindən əl çəkməsini istəmişdilər. Buna cavab olaraq həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurdu:

«Əmi! Vallah Allahın dinini təbliğ etməkdən əl çəkməyim üçün Günəşi sağ əlimə, Ayı da sol əlimə qoysalar, mən yenə də bu mübarizədən əl çəkmərəm. Ya uca Allah onu bütün dünyaya yayar, vəzifəm bitər, ya da bu yolda ölərəm!»[3]

İslam nurunun doğulmasından narahat olan müşriklər Əbu-Talib vasitəsi ilə həyata keçirmək istədikləri təşəbbüslərinin nəticəsiz qaldığını görüb Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- yanına gəldilər və bu təklifi ona çatdırmağa cürət etdilər:

«-Zəngin olmaq istəyirsənsə sənə istədiyin qədər mal verək. Belə ki, qəbilələr arasında səndən varlı bir kimsə olmasın! Vəzifə istəyirsənsə səni özümüzə başçı edək. Məkkənin hakimi ol. Əgər nəcabətli bir qadınla evlənmək istəyirsənsə sənə Qureyşin ən gözəl qadınlarından hansını istəsən, onu verək! Nə istəyirsənsə, onu etməyə hazırıq. Ancaq bir şərtlə ki, bu mübarizədən əl çək!»

Allah Rəsulu -səllallahu əleyhi və səlləm-də o qafillərin etdikləri və edəcəkləri bütün bayağı və nəfsani təkliflərin hamısına belə cavab verdi:

«-Mən sizdən heç bir şey istəmirəm. Nə mal, nə mülk, nə səltənət, nə rəislik, nə də qadın! Mənim tək istədiyim tapınmaqda olduğunuz aciz bütlərdən əl çəkərək bir olan Allaha qulluq etmənizdir!»[4]

Heç şübhəsiz, bütün insanlığa nümunə olacaq bu davranış və

3. Baxın, İbnül-Əsir, «əl-Kamil fiт-Tarix», II, 64.

4. Baxın, İbn Hişaм, «əs-Sirə», I, 236.

bəyanlar imanda kamilliyin və vəzifə şüurunun ən mükəmməl bir təzahürüdür. İdeal və tərtəmiz bir qulluq halıdır.

Çünki həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- edilən belə yersiz təklif, tələb və çağırışlar dünya qarşılığında onun üçün axirətdən «əl çəkmək» mahiyyətində idi. Belə ki, insanlıq tarixi dünyanın nəfslərə səslənib onları özünə çağırması və sonsuz olanı pərdələyib, faniliyə aid olan keçici həvəsləri böyütməsi qarşısında əriyən çox iradə və saysız-hesabsız aldanışlarla doludur.

Əsasən, ilk olaraq aləmlərin Rəbbinə həmd ilə başlayan və sonda da qəlbi mənfi duyğu, düşüncə və vəsvəsələrdən təmizləyib, bütün yaradılmışların yeganə Rəbbinə mütləq mənada sığınmağı əmr edərək başa çatan Qurani-Kərimin qiyamətədək insanlığa nəzəri bir hidayət rəhbəri olmasının nəticəsi; insanlığın əməldə rəhbəri olan Peyğəmbərin -səllallahu əleyhi və səlləm- yolu və izi ilə getmək iki cahan üfüqünə şamil olan bəşəri səadətin yeganə vəsilə və vasitəsidir. Bu böyük nemətdən əl çəkmək hansı dəyər qarşılığında mümkün ola bilərdi ki?

O Qurani-Kərim ki, kainatın fəxri olan Peyğəmbərimizə -səllallahu əleyhi və səlləm- və onun vasitəsi ilə bütün bəşəriyyətə bir nemət olaraq təqdim olunmuşdur. O ilahi kəlam insanı özünü tanıyıb, əsərdən müəllifə, səbəbdən səbəbi yaradana, sənətdən sənətkara və məxluqdan Xaliqə getməyə çağırmaqdadır. Allahı çox zikr edərək bütün həyatını, sanki Onu görürmüş kimi ehsan və təqva duyğuları içərisində keçirib, bu yolla həqiqi bir müraqibə düşüncəsinə sahib çıxaraq uca Allahın məhəbbət və rizasına qovuşmaq yollarını təlim etməkdədir.

Bilinməlidir ki, Allaha məhəbbət dəryasına aparacaq olan yeganə rəhmət və məhəbbət bulağı həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-dir. Belə ki, həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- məhəbbət, Allaha məhəbbət, Ona itaət, Allaha itaət, Ona üsyan isə Allaha üsyan deməkdir.

Yuxarıda qeyd etdiyimiz kimi, mövcud olanların varlıq səbəbi

yaradılışda ilk olan Məhəmmədin nuru, onu yaradanın sevgisidir. Buna görə də, bütün kainat yaradılışda ilk olan Məhəmmədin nuru şərəfinə yaradılmışdır. Məhəmmədin nuruna görə yaradılan bu kainatın ilahi lütflərə nail və müxatəb olmaq yönündən zirvəsi insandır. İnsanlıq mənzuməsinin zirvəsi də Məhəmmədin vücududur. O insan ki, bu qoca kainatın bir yelpik kimi içində bükülərək yerləşdirildiyi miniatür bir aləmdir. Buna görə də ona eyni zamanda «kiçik aləm» də deyilir. O, toxum içində gizli olan qoca bir çinar, zərrədə gizli olan böyük bir aləm və fərd içində bir cəmiyyət olması baxımından varlığında müsbət və mənfi, böyük və külli yaradılışların xülasəsini daşıyan xüsusi bir varlıqdır. Bu xüsusiyyətlərinə görə, yaradılmışların ən şərəflisi olan insan zərrəciklərinin ümmanında xəyalın belə, çata bilməyəcəyi bir zirvə vardır ki, o da Peyğəmbərin varlığıdır. Ona üz tutanlar kainatın fəxrini istedad və iqtidarları ölçüsündə, bir də sevgi, ya da nifrətinə görə anlamışlar. Ona sevgidə nur, nifrətdə atəş görünür. Həzrət Əbu Bəkr və həzrət Əli ilə Əbu Cəhlin Məhəmmədin varlığını anlaması arasındakı fərq bununla əlaqəlidir. Həzrət Əbu Bəkrlə həzrət Əli aləmlərin Peyğəmbərinə böyük bir eşq və sevgi ilə baxa bildiyi üçün mahiyyətə enərək təsəvvüfün qızıl silsilələrində ilk həlqəni təşkil edə bilmək şərəfinə nail olmuşlar.

Buna görə də təsəvvüf Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- həyatı ilə zahirən və daxilən bütünləşərək dərin bir məhəbbətlə həmhal olmaqdır. Çünki o, Rəsulullahın -səllallahu əleyhi və səlləm- zahiri-daxili təcəllaları, yəni halıdır. Ona görədir ki, həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- ruhaniyyətindən pay ala bilmək və ruhən onunla birləşməkdən ibarətdir. Başqa bir ifadə ilə təsəvvüf sevgi ilə birləşən iman, vəcd ilə yerinə yetirilən ibadət və davranış gözəlliyidir. Bir sözlə, təsəvvüf Adəmə -əleyhissalam- *«ruh üfürülməsi»* ilə başlayan bir uca qismətin son Peyğəmbərdəki kamal təzahüründən sevgi dolu qəlblərə axan feyz şəbnəmləridir.

Təsəvvüfün mahiyyətini təşkil edən bu səlahiyyət və iqtidarın Peyğəmbərin -səllallahu əleyhi və səlləm- həyatında qəlbdən qəlbə, fərddən fərdə keçərək keyfiyyətini anlamaq üçün o mübarək varlığın həyat və fəaliyyətlərinin hamısına ümumi bir baxış formalaşdırmaq lazımdır.

Rəsulullah -səllallahu əleyhi və səlləm- həyatın hər sahəsində gözəl bir örnək olduğu kimi, insanları tərbiyə etmə və təmizləmə məsələsində də ən gözəl örnəkdir. Onun Peyğəmbər olaraq çoxsaylı vəzifə və səlahiyyəti var. Ancaq bunların içərisində uca Allahın ona verdiyi bu dörd vəzifə önə çıxmaqda və daha da əhəmiyyət ərz etməkdədir:

1. İlahi vəhy almaq. Peyğəmbərimiz uca Allahın çox zaman Cəbrail -əleyhissalam- vasitəsilə göndərdiyi kəlamına ünvan olmuşdur. Uca Allahın istəyib lütf etməsi ilə baş verən bu vəhy almaq keyfiyyəti Peyğəmbərimizin axirətə köçməsi ilə sona çatmışdır.

2. Qurani-Kərimlə nazil olan ehkam və həqiqətləri hədisi-şəriflərdə və siyəri-nəbidə bildirildiyi şəkildə şərh və izah etmək. Rəsulullahın bu elmi səlahiyyəti müctəhidlər tərəfindən davam etdirilmişdir.

İlahi ehkamın şərh və izahı, bəşəri həyatın yeni düzən və ehtiyacları qarşısında *«ictihad»* adı altında davam etməkdədir. Əhli olmadığı zaman bu keyfiyyət bəzən arxa plana keçmiş kimi görünsə də, ictihada olan ehtiyac və zərurət hər zaman aktual qalmışdır. Bu vəzifə ictihad səviyyəsinə çatan alimlərə aiddir.

3. Dinin əmr və qadağalarını müəssisə və sistem halında tətbiq edən, onu canlı saxlayan idarəetmə nüfuzuna sahib olmaq. Bu da xəlifələr tərəfindən davam etdirilmişdir.

4. Ruhları istiqamətləndirmək surətiylə insanların iç aləmini təmizləyib saflaşdırmaq. Rəsulullaha -səllallahu əleyhi və səlləm- aid olan vəhyi nəql etməkdən başqa bütün vəzifələrin onun ardınca gedənlər tərəfindən davam etdirilməsi istənildiyi və labüd olduğu kimi, onun insanların iç aləmini təmizləyib saflaşdırmaq vəzifəsinin də sona çatmaması və bunun şeyxlər, ulular tərəfindən qiyamətədək davam etdirilməsi də eyni şəkildə arzu olunandır və labüddür. Çünki möminlərin yalnız zahirinin deyil, daxilinin də təmizlənməsi ancaq və ancaq bu yolla mümkün ola bilər. Elə buna görə də, təsəvvüfə bağlı olan üsul və əsasların ana qaynağı, ruhu Quran və hədislərdə olan bu nəbəvi fəaliyyətin hər zaman və məkanda davam etməsindən

ibarətdir. Şeyxlər zümrəsi və onların fasiləsiz olaraq davam etmək gerçəyinin qaynağı bu zərurət və ehtiyacdandır.

❁

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ibadət, davranış və əxlaqdakı zahiri və batini fəzilətlərin mərkəzi və zirvəsidir. O Varlıq Nuru, Məkkədəki on üç illik təbliğ və təmizləmə mücadiləsindən sonra Mədinəyə hicrət edərkən ona **Sevr** mağarası göstərildi. Burada bəzi təcəllalar oldu. Çünki bu mağara bir növ ilahi hikmətlərə qərq olmaq və qəlbi inkişaf etdirmək məkanı idi. Buradakı qonaqlıq üç gün, üç gecə davam etdi. O, tək deyildi. Dostu, peyğəmbərlərdən sonra insanların ən üstünü olan həzrət Əbu Bəkr (r.a) onun yanında idi. Həzrət Əbu Bəkr (r.a) onunla mağarada üç gün yoldaşlıq etmək şərəf və fəzilətinə nail olmuşdur. *«(Üçüncüsü Allah olan)* **ikinin ikincisi…***»* olmuşdu. Varlıq Nuru bu əziz dostuna:

«… Kədərlənmə, Allah bizimlədir!..» (ət-Tövbə, 40) buyuraraq Allah ilə birgə olmaq sirrini təlqin edirdi. Bu halı ariflər eyni zamanda gizli zikr təliminin başlanğıcı və könüllərin Allah ilə rahatlıq tapmasının ilk təzahürü olaraq şərh etmişlər. Yəni təsəvvüfdə qəlbdən-qəlbə sirr axmasının İslam tarixindəki bilinən ilk təzahür məkanı olaraq Sevr mağarası və onun bəxtəvər müxatəbi olaraq da həzrət Əbu Bəkr (r.a) qəbul edilir. Ona görə də, həzrət Siddiq (r.a) bir ucu qiyamətədək davam edəcək **Qızıl Silsilə**nin həzrət Peyğəmbərdən -səllallahu əleyhi və səlləm- sonrakı ilk həlqəsi olaraq qəbul edilmişdir. Yəni Sevr mağarası sonsuz sirlər fəzasından bəndəni Allaha qovuşduracaq təməl mənəvi tərbiyənin önəmli bir mərhələsinə məkan olmuşdur.

Başqa yöndən, Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- cəhri zikri də həzrət Əliyə (r.a) təlim etdiyi nəql edilmişdir. Təsəvvüfün ən mühüm təlqinlərindən biri olan zikrin təlimi bu şəkildə bir qoldan həzrət Əbu Bəkrə (r.a), başqa bir qoldan da həzrət Əliyə (r.a) bağlanmışdır.

Təsəvvüf, əslində, dinin mahiyyətini təşkil etməsi baxımından həzrət Adəm -əleyhissalam- ilə başlayıb səadət əsrinədək bütün

peyğəmbərlərin həyatında var olmuşdur. Belə ki, hər peyğəmbərin həyatında təsəvvüfün çoxsaylı ölçülərini tapmaq olar. Ancaq təsəvvüfün günümüzdəki mənası ilə sistemli bir elm olaraq bir yerdə cəm olması və bir təriqətə bağlı olaraq gedilən yol mənasında ortaya çıxışı ilk dəfə hicri ikinci əsrdə başlamışdır.

Səadət əsrində kəlam, etiqad və fiqhə aid məzhəblər hələ yaranmamışdı. Bununla birlikdə məzhəblərin ortaya çıxmasından öncə də etiqadi, fiqhi və başqa hökmlər var idi. Bunlar Allah Rəsulu -səllallahu əleyhi və səlləm- tərəfindən səhabəyə öyrədilirdi, tətbiq edilirdi. Ancaq bunlar elmi üsullar baxımından hələ sistemləşdirilməmişdi. Bəlli bir vaxt keçdikdən sonra, məsələn, «fiqh» elmində nüfuz sahibi olan böyük alimlərin ictihadları tələbələri tərəfindən öyrənilib sistemləşdirilmiş və bu fərqli üsullara «məzhəb» adı verilmişdi. Məzhəblər o böyük alimlərin adı ilə adlandırılmışdı. Bu məzhəblər fiqhi ehtiyacların həll edilməsində bir üsul və yol olaraq geniş kütlələr tərəfindən qəbul edilmişdir.

Başqa dini elmlərdə olduğu kimi, təsəvvüfün təlqin etdiyi zöhd və təqva həyatı da eyni qaydada səadət əsrində yaşanırdı. Aradan zaman keçdikcə bu bərəkətli yaşayışı davam etdirən və onu özlərinə həyat tərzi seçən haqq dostları xalqın dünya malına təslim olub qəflətə düşməsinə mane olmaq məqsədilə ilahi rizanı qazanmaq üçün onlara nəsihətlər vermiş və onları qəflətdən oyandırmaq üçün xəbərdar etmişlər. Bu seçilmişlərin bir cığır açmaq, bir yol və həyat üslubu meydana gətirmək kimi məqsədi də yox idi. Məqsəd, İslamı mahiyyətinə uyğun olaraq gözəl yaşamaq və ibadətləri Quran və Sünnədə bildirildiyi kimi təslimiyyət və səmimiyyətlə icra edə bilmək idi. Ancaq onların söhbət və nəsihətlərindən faydalanmaq, onların hallarından özləri üçün bir pay almaq istəyən insanlar bu şəxsləri bir mənəvi rəhbər və ustad kimi qəbul etmişlər. Bu kimsələr onların nəsihətlərini, yəni mömini mənəvi kamilliyə və ilahi istiqamətə qovuşduracaq nəfsi təmizləmək və tərbiyə etmək üsullarını metodlaşdıraraq mənəvi bir qayda halına gətirmişlər. Nəticədə, bu ustadların adları ilə adlandırılan təriqətlər meydana gəlmişdir. Məsələn, Qədiriyyə, Mövləviyyə, Nəqşibəndiyyə və s. kimi…

Hər təsəvvüf qolunun Allaha qovuşma, təfəkkür və ehsan duyğusunun qazanılması kimi məsələlərdə seçdiyi üsula **təriqət** adı verilmişdir. Təriqətlər metodlarına görə üç yerə ayrılır:

1. Təriqi-Əhyar: İbadət və təqva üzərində diqqəti cəmləyən təriqətlərdir

2. Təriqi-Əbrar: Nəfsi, çətinlik və xidmətlə tərbiyə etməyə üstünlük verən təriqətlərdir.

3. Təriqi-Şüttar: Sevgi və vəcdlə hədəfə qovuşmaq yolunu seçən təriqətlərdir.

Bu yolla hər mömin mənəvi təmizlənmə və kamilləşmə üçün xarekterinə uyğun bir təriqətə bağlana bilər. Xarakterlər fərqli olduğundan təriqətlərin də müxtəlif formada olması təbiidir. Uca Allah ayeyi-kərimədə belə buyurur:

«Hər biriniz üçün bir şəriət və bir yol təyin etdik.» (əl-Maidə, 5/48)

Buradakı *«minhac»* kəlməsi lüğətlərdə *«nurlu bir yol»* kimi izah edilmişdir. Bu da uca Allaha yaxınlaşma niyyəti ilə gediləcək qulluq yolu deməkdir. Təsəvvüf böyükləri də:

«Uca Allaha gedən yollar yaradılmışların nəfəsləri qədər çoxdur», - buyurmuşlar.

Başqa yöndən Qurana bağlı olan hökmlər üç yerə ayrılır:

1. Etiqad (inanc əsasları)
2. Fiqh

a) İbadət

b) Müamilət

c) Üqubat

3. Əxlaq (qəlbin fiqhi)

Qəlbin fiqhi iç aləmin islah edilməsi, yəni əxlaqdır. Etiqadın və əməli davranışların əsasını təşkil edir. Əməllər onunla səviyyə qaza-

naraq saleh əmələ çevrilir. Qurani-Kərimdə qəlbin məqbul hallarını bildirən ən vacib vəsflər təqva, zöhd və ehsandır.

Təqva: Allaha qarşı məsuliyyət duyğusu ilə ilahi əmr və yasaqları diqqətlə tətbiq etmək vasitəsilə qəlbin qorunmasıdır.

Zöhd: Masiva, yəni Allahdan -cəllə cəlaluhu- başqa hər şeyin qəlbdə önəmini itirməsidir.

Ehsan: Möminin özünü ilahi müşahidənin altında hiss edib davranışlarını o ölçü ilə nizamlamasıdır.

Hədisi-şərifdə belə buyurulur:

«Ehsan, sanki Allahı görürmüş kimi ona ibadət etməyindir. Belə ki, sən Onu görməsən də O, mütləq səni görür.» (Buxari, «İman», 37; Müslim, «İman», 1)

Yəni ehsan ruhun uca Allahın müşahidəsini fasiləsiz bir təfəkkür halına gətirməsidir.

Qəlbin səviyyəsini yüksəltməsi hər an bu duyğu və düşüncə içində olmaq, bir ömrü bu inanca görə tənzim etməklə mümkündür. Bu halın yaranması ilə qəlb saflaşar. Bu baxımdan təsəvvüf qəlbin rahatlığa qovuşmasının ifadəsidir.

❁

Dinin məqsədi gözəl, incə ruhlu və iç aləmini təmizləmiş insan yetişdirməkdir. Bu da Haqqa qulluq etməyi dərk etməklə mümkündür. İslama görə, ideal insan Allah və Rəsulunun əxlaqı ilə tərbiyə olunmuş kimsədir. Bu ideala qovuşmağın yolu isə qəlbi tərbiyə etməkdən keçir.

Qəlb cövhərini parlaq bir güzgü kimi Haqqın təcəllalarının əks etdirdiyi bir məkana çevirmək orada zikrin yerləşməsi ilə mümkündür. Qəlbin bu gözəl hal ilə Haqqa yönəlməsi imanın parlaq təzahürlərinə yol açır.

«Zöhd», **«təqva»** və **«ehsan»** vasitəsilə mənəvi tərəqqi yolu açıq tutulmayıb, ancaq zahiri hökmlərlə kifayətlənmək qəti olaraq əmr

edilsə idi, istedadlı insanların Allaha qovuşmaq imkanı əllərindən alınmış və insanın son nöqtədəki istedadı da nəzərə alınmamış olardı. Belə olan halda, hər iradə və hökmündə hikmət sahibi olan uca Allahın ilahi tənzimində, Allah qorusun, nöqsanlıq var deyə düşünülərdi.

İfadə etdiyimiz kimi, bəndənin Rəbbini hər an görürmüş kimi özünə nəzarət edib bu yolla həyatını tənzim etməsi və ilahi müşahidənin qəlbdə sabitləşərək şüur halına gəlməsi demək olan **«ehsan»** müəyyən mənada Allaha yaxın bəndələrin ruh meracıdır. Bu baxımdan ehsan mənəvi, sirri və ilahi həqiqətdir. Mütəsəvviflərin hədəfi də məhz bu həqiqətə qovuşmaqdır. Bu da Allah ilə qurulan mənəvi və dərin əlaqəni göstərir. Bu əlaqəni sağlam bir şəkildə quran insan Rəbbin vəli quluna çevrilir. Beləliklə, o, ilahi əxlaqla tərbiyələnmiş olur.

Ancaq bu həqiqətə qovuşa bilinmədiyi təqdirdə məqsədə çatmağa gücü olmayan zahir və təqlid ilə kifayətlənməyə məhkum olunur.

Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- əxlaqı və yaşamış olduğu mənəvi həyatı səhabə, tabiun və təbəi-tabiun tərəfindən nümunə alınmış, bu həyatın zahiri və batini, görünən və görünməyən, izah edilən və edilməyən nəticələri bir nəsildən sonrakı nəsilə ötürülmüşdür. Ancaq bu şəkildə davam edən mənəvi həyat bütün ümmətə şamildir, xüsusi bir zümrəyə məxsus deyildir.

❁

Təməl islami anlayış belə olmaqla birgə, təsəvvüfə daha çox başqa gözlə baxanlar, ya da mənfi münasibəti olanlar onun qaynağı ilə bağlı müxtəlif iddialar ortaya atmışlar.

Sırf səs bənzərliyindən çıxış edərək bu dəyərli fəaliyyətin yunanca *«hikmət»* demək olan *«sofos»*dan törədiyini iddia edənlər olduğu kimi, ona yəhudilərə bağlı bir mənşə uyduranlardan, onu hind mistisizminə bağlayanlaradək çoxsaylı yersiz fikirlər ortaya atanlar olmuşdur. Bunlar kəlmə, ya da məzmun bənzərliyinə üstünlük verərək ortaya qoyulmuş yanlış görüşlərdir.

Həqiqətdə, *«təsəvvüf»* kəlməsinin hansı kökdən törədiyi ilə bağlı

İslam alimləri arasında olan fikirlər bu kəlmənin tamamilə islami qaynaqlı olduğunu göstərir. Bu məsələ ilə bağlı müxtəlif görüşlər arasında təsəvvüfün arınma, seçilmə anlamına gələn *«safa», «safvet»* və *«istafə»* kəlmələrindən yaranmış olduğu ifadə edildiyi kimi, ona aid olan üslubun ilk təzahür şəkli olan «əhli-suffə» adı ilə yad edilən əshabdan bəzi abid və zahidlərin geydiyi «suf» deyilən yun xirqədən alındığı ilə bağlı görüş daha çox qəbul edilmişdir.

Başqa yöndən elm, irfan və mənəviyyat qazanmaq məqsədilə Peyğəmbər məscidinə yerləşən və özlərinə «əhli-suffə» deyilən bu səhabə topluluğu Peyğəmbərin -səllallahu əleyhi və səlləm- isti-qamətləndirməsiylə zöhd və təqva yönündə inkişaf etmişlər. Hətta, Allahın Rəsulu -səllallahu əleyhi və səlləm- əshabın varlı olanlarından bu zümrənin məişət məsələlərini həll etmələrini tələb etmişdir. Bu hal təsəvvüflə bağlı davranışların Rəsulullahın -səllallahu əleyhi və səlləm- sünnəsi qarşısındakı mövqeyini və onun nəbəvi bir təsdiqə əsaslandığını göstərən tarixi bir gerçəkdir.

Həzrət Peyğəmbərdən -səllallahu əleyhi və səlləm- sonra səhabə nəsli arasında ortaya çıxan siyasi ixtilaflar zamanı «əhli-suffə»dən sağ olanlar heç bir tərəfi müdafiə etməyərək bitərəf qalmışlar. Hətta, bu ixtilafların möminlər arasındakı qardaşlıq duyğularını zəiflətməsindən ibrət alaraq zöhd və təqvada daha da kamilləşmişlər. Bu hal da sufiliyin inkişafına səbəb olmuşdur. İxtilaflara qarışmağı mənəvi baxımdan təhlükəli sayan başqa bir sıra səhabə də onlara qoşulmuş və bu yolla da zöhd, təqva yolunu tutanların sayı xeyli artmışdır.

«Suf» kəlməsindən «əhli-suffə» və onların riyazət və təqvalarından «təsəvvüf» və «mütəsəvvif» kəlmələri yaranmış, geniş yayılaraq bir müəssisəyə çevrilmişdir.

❁

İslam alimləri Quran və sünnəyə bağlılığı əsas götürdüklərinə görə, təqva yolunda hərəkət edən mütəsəvviflər də ortaya qoyduqları əsərlərdə təsəvvüfi görüşləri müctəhidlər kimi şəri həqiqətlərlə əsaslandırmışlar. Ancaq bu yolda rəhbərlərin, yəni şeyxlərin

zahirdən agah olmuş insanlardan seçilmədiyi bir qisim təriqətlərdə sufiliyin inkişafı səbəbi ilə bəzi yanlış işlər də olmuşdur. Ancaq şeyxləri, ümumiyyətlə, hacəgandan, yəni elm sahibi olan alimlərdən, dinin zahirinə də agah olan insanlardan olan təriqətlər bu yanlış addımlardan qoruna bilmişlər. Təsəvvüf tarixində Kitab və Sünnə çərçivəsi içində davam edən Nəqşilik və onun kimi digərlərinin şəri gerçəklərə sədaqətini ifadə etmək üçün məşhur bir ifadə ilə:

«Pərgarın sabit ayağı şəriətdir» -hökmü hər kəsin istifadə etdiyi bir ölçü olmuşdur.

Belə ki, həzrət Mövlana buyurur:

«-Biz pərgar kimiyik. Sabit ayağımız şəriətdədir, o biri ayağımızla yetmiş iki milləti gəzməkdəyik.»

«Şəriət bir şama bənzər, işıq saçar, yol göstərər. Şamı ələ almaqla yol gedilmiş olmaz. Ancaq şamı ələ götürmədən də yola çıxılmaz. Şəriətin işığında yola düşüb getməyə başladınsa, bax, bu getdiyin yol təriqətdir.»

Təsəvvüf maddi-mənəvi kirlərdən təmizlənib, gözəl əxlaq və xüsusiyyətləri qazanaraq dini mahiyyətinə uyğun bir şəkildə yaşamaq cəhdidir.

B. TƏSƏVVÜFÜN TƏRİFİ

Təsəvvüf, yaşandıqca dadı bilinən və idrak edilən bir elm olması baxımından kəlmələrin məhdud imkanları ilə onu mükəmməl bir şəkildə izah etmək çətindir. Buna görə də, Allah dostları hər tərəfindən müxtəlif işıqlar saçan o təsəvvüf cövhərinin onlara görünən tərəfini nəzərə alaraq fərqli-fərqli izahlar vermişlər.

Haqq dostları və bu mənəvi yolun yolçuları istedad, iqtidar və qəlblərində üzə çıxan hal təcəllaları ölçüsündə məsafə qət edərlər. Ona görə də, ilahi aləmdəki qəlbi ilhamların onlardakı təcəllasına görə də təsəvvüfü fərqli-fərqli anlayarlar.

Ancaq təsəvvüfə tərif vermiş olan bu kimi kimsələrin hamısı öz görüşlərində haqlıdırlar. Biz bu kimi təriflərə baxaraq təsəvvüfün mahiyyəti ilə bağlı ancaq ümumi bir fikir sahibi ola bilərik.

Bu müxtəlif təriflərin ortaq yönləri baxımından təsəvvüf: möminlərin iç aləmini tərbiyə edərək onları mənəvi baxımdan təkamül etdirən, insanı gözəl əxlaqa ucaldaraq onu haqqa yaxınlaşdıran və bu yolla da mərifətullaha çatdıran bir elmdir.

❁

Haqq dostlarının nail olduqları mənəvi təcəllalara görə irəli sürdükləri çoxsaylı təsəvvüf təriflərindən bir neçəsi belədir:

1. Təsəvvüf gözəl əxlaq və ədəbdir

Gözəl əxlaq imanı təqliddən qurtararaq fikir və davranışlara istiqamət verən ehsan duyğusunu, yəni uca Allahı görürmüş kimi bir əhval-ruhiyyəni qəlbdə yerləşdirərək şəxsiyyətin hakim və ayrılmaz bir ünsürü halına gətirmək və bu ölçü ilə yaşamaqdır.

Əbul-Hüseyn ən-Nuri:

«Təsəvvüf nə şəkil, nə də bir elmdir, o, sadəcə gözəl əxlaqdan ibarətdir. Əgər şəkil olsaydı, mücahidə ilə, elm olsaydı, öyrənməklə əldə etmək olardı. Buna görə də ancaq şəkil və elm insanı məqsədə çatdırmaz. Təsəvvüf haqqın əxlaqına bürünməkdir», - buyuraraq onun əxlaq ilə ayrılmaz bağına işarə etmişdir.

Təsəvvüf, Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- örnək həyatında ad olaraq deyilməmiş olsa da, mahiyyəti və həqiqəti baxımdan mövcuddur. Gözəl əxlaqda məqsəd Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- örnək əxlaqı ilə tərbiyə olunmaqdır. Onun əxlaqı Rəbbimiz tərəfindən Qurani-Kərimdə:

«Şübhəsiz, Sən uca bir əxlaq üzərindəsən!» (əl-Qələm, 68/4) buyurularaq, təsdiqlənmiş və tərif edilmişdir.

Belə ki, həzrət Aişədən (r.a) Rəsulullahın əxlaqı ilə bağlı soruşulan zaman belə buyurmuşudr:

«Onun əxlaqı Qurandır.» (Müslim, «Müsafirin», 139)

Bir bəndə Quran əxlaqı ilə tərbiyə olunub, onun ehkamı ilə istiqamətləndiyi zaman sanki canlı bir Qurana çevrilir. Qurani-Kərimi, onun mənasını düşünərək oxumaq və ehkamına tabe olaraq yaşamaq gözəl əxlaqın zirvə nöqtəsidir.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- peyğəmbər olaraq göndərildiyi vaxtdan etibarən qiyamətədək bütün zaman və məkanları aydınlatmaqla vəzifələndirilmişdir. Bu baxımdan onun ən kiçik və məhrəm təfərrüatı da daxil olmaqla bütün davranışları sağlam bir rəvayətlə bizə çatdırılmış və bu iş qiyamətədək fasiləsiz davam etmək bərəkətinə nail olmuşdur. Siyəri-Nəbi incələndiyi zaman

görünür ki, həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- insanlığın kamalı və gözəl əxlaqın zirvəsidir. Belə ki, o:

«Mən başqa bir məqsədlə deyil, ancaq gözəl əxlaqı tamamlamaq üçün göndərildim.» (İmam Malik, «Muvatta», «Hüsnül-Xulq», 8) buyuraraq vəzifəsini tərif etmiş və bütün insanlıq aləminə **«üsveyi-həsənə»**, yəni mükəmməl bir əxlaq nümunəsi olmuşdur.

❁

Qurani-Kərimdə həzrət Məhəmmədin -səllallahu əleyhi və səlləm- əxlaqı belə ifadə edilir:

«Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) **və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!»** (əl-Əhzab, 33/21)

Uca Rəbbimiz bir nemət olaraq gözəl əxlaqı Peyğəmbərimizdən başlayaraq vərəsətül-ənbiya[5] vasitəsilə fasiləsiz olaraq qiyamətədək davam etdirəcəkdir.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Möminlərin iman baxımından ən mükəmməli əxlaqca ən gözəl olanıdır.» (Əhməd b.Hənbəl, «Müsnəd», II, 250)

Peyğəmbərimiz bu sözləri ilə əxlaqın imanın meyvəsi və onun kamilliyinin əlaməti olduğuna işarə etmişdir. Allah dostları da bu peyğəmbər əxlaqı ilə tərbiyə olunmuş mənəviyyat rəhbərləridir.

Əbu Məhəmməd Cəriri:

«Təsəvvüf gözəl əxlaqı mənimsəmək və pis əxlaqdan sıyrılmaqdır», - deyərək yenə bu həqiqətə işarə etmişdir.

Qəlbi gözəl əxlaq ilə bəzəyib pis əxlaqdan qorumaq əbədi səadət və salamatlıq üçün məcburi olduğu qədər, məşəqqətli bir işdir. Belə ki, ilk mütəsəvviflərdən Əbu Haşim Sufi belə buyurmuşdur:

---

5. Vərəsətül-Ənbiya: Peyğəmbərlərə, xüsusən, axır zaman nəbisi Rəsulullaha -səllallahu əleyhi və səlləm- zahirən və daxilən elm, əməl və əxlaq baxımından varis olmuş həqiqi alimlərdir. Bir hədisdə belə buyurulur: «Həqiqi alimlər Peyğəmbərlərin varisləridir». (Əbu-Davud, «Elm», 1)

«Qəlbdə yer etmiş bir təkəbbürü qazıb çıxarmaq dağları iynə ilə oymaqdan daha çətindir.»

Əbu Bəkr əl-Kətdani isə belə deyir:

«Təsəvvüf əxlaqdır. Əxlaq baxımından səndən üstün olan paklıq, yəni mənəvi təmizlik baxımından da səndən üstündür.»

İnsanlıq tarixi peyğəmbərlərin misilsiz gözəllikləri olan əxlaqi davranış nümunələri ilə doludur. Bunun ən gözəl misallarından biri, şübhəsiz, həzrət Yusifdir -əleyhissalam-. O, ayeyi-kərimədə buyrulduğu kimi, ona açıq bir şəkildə zülm etmiş olan qardaşlarına belə demişdir:

«… Bu gün sizə (etdiklərinizə görə) **heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir!»** (Yusif, 12/92)

O, bu sözləri ilə insanları bağışlamağın misilsiz bir örnəyini göstərmişdir.

Mütəsəvvüfün hədəfi qəlbini həzrət İbrahim -əleyhissalam- kimi dünyadan uzaq tutan və ilahi əmrlərə qarşı itaətkar, həzrət İsmayıl -əleyhissalam- kimi Haqqa təslim və ilahi təqdirə razı olan, Əyyub -əleyhissalam- kimi səbirli etməkdir. Möminin kədəri Davudun -əleyhissalam- kədəri, yoxsulluğu isə həzrət İsanın -əleyhissalam- yoxsulluğu və qənaəti kimi olmalıdır.

Mütəsəvvif, həzrət Musanın -əleyhissalam- Allaha yalvardığı zaman şövq və istəklə dolu bir könülə və nəhayət, kainatın əbədi fəxri olan həzrət Məhəmmədin -səllallahu əleyhi və səlləm- ixlasına, yəni Rəbbinə olan sevgi və səmimiyyətinə sahib olmağa çalışan kimsədir.

Əbu Hafs əl-Həddad belə buyurmuşdur:

«Təsəvvüf ədəbdən ibarətdir.» O, bu sözləri ilə təsəvvüfü gözəl əxlaqın ən mükəmməl bir xülasəsi şəklində şərh etmişdir.

Həzrət Mövlana da ədəblə bağlı belə buyurur:



«Ey qardaş! Bil ki, ədəb insanın bədənindəki ruhdur. Ədəb rica-lullahın göz və könlünün nurudur. Əgər şeytanın başını əzmək istəsən, gözünü aç və gör ki, şeytanı məhv edən ədəbdir. İnsan oğlunda ədəb olmasa, o, əslində, insan deyil. İnsan ilə heyvan arasındakı fərq ədəbdir.»

Başqa bir beytin mənası da belədir:

«Ağlım qəlbimdən soruşdu:

-İman nədir?

Qəlbim isə ağlımın qulağına dedi:

-İman ədəbdən ibarətdir.»

Başqa bir şair də ədəbi gözəl təqdim etmişdir:

Ədəb bir tac imiş nuri-Xudadan,

Gey o tacı, əmin ol hər bəladan.

Bu baxımdan əvvəlcə təkyə və dərgahların lövhələrində yeganə xəbərdaredici olaraq *«Ədəb ya Hu!»* yazısı var idi.[6]

1. Təsəvvüf nəfs təzkiyəsi və qəlb təsfiyəsidir

İnsan oğlu bu aləmə qulluq imtahanı üçün gəldiyinə görə, ölüm vaxtınadək nəfs deyilən və min bir mənfilikləri ehtiva edən bir xəstəliyə mübtəladır. O, vəlayətin ən yüksək dərəcələrinə ucalsa da, dünya, nəfs və şeytan üçlüyünün daimi bir hiylə, vəsvəsə və pusquları ilə hər an qarşı-qarşıyadır. Elə qulluğun qiyməti də bu təhlükələri zərərsizləşdirib, bu fani aləmin cəzbedici aldatmalarından sıyrılaraq təqvaya bürünmək və bunun nəticəsində də Haqqa yönəlməklə başlayır.

Dolayısı ilə, insan fitrətində olan pis əməl işləmək (fücur) meyillərini tərbiyə edib, təqva toxumlarını cücərtmək üçün nəfs təzkiyəsi və qəlb təsfiyəsi zəruridir. Bunun üçün hər insan istedad və

6. Bu ifadə ədəbə əməl etməyə çağıran bir xəbərdarlıq olduğu kimi, eyni zamanda «Ey ilahi! Ədəb lütf eylə!» mənasında bir istəkdir.



iqtidarı ölçüsündə uca Allahı bilmək və bu bilgini irfan halına gətirərək saleh əməllərlə Mövlanı nöqsan sifətlərdən münəzzəh tutmaqla məsuldur. Məhz, qısaca olaraq *«qulluq»* budur. Bu qulluq keyfiyyətinin hədəfinə çatması isə, insanın nəfs əngəlini aşaraq ülvi duyğularla dolması demək olan nəfs təzkiyəsi və qəlb təsfiyəsinə bağlıdır. *«Vasili-ilallah»*[7] olub, *«Liqaullah»*[8] ilə şərəflənmək ancaq bu yolla mümkündür.

Əsl cövhəri baxımından qəlb bu aləmdə *«nəzərgahi-ilahi»*dir. Yəni uca Allahın nəzərlərinin təcəlla məqamı olmaq kimi bir şərəf qazanmışdır. Ancaq bir sarayın «taxt»ında sultandan başqa birisinin oturmağı mümkün olmadığı kimi, vücud mülkünün sarayı olan qəlbdə də Allahdan başqa hər şeydən, yəni nəfsani düşüncələrdən və çirkin təmayüllərdən təmizlənməsi zəruridir. Əks halda, qəlb ilahi lütflərə qarşı bağlanar. Ancaq bu Allahdan başqasına sevgi olmayacağı mənasında deyil. Doğrudur, nəfsini təzkiyə, qəlbini təsfiyə edərək sağlam bir qəlbin zirvəsinə yüksələnlər masiva sevgisindən azad olmuşlar. Ancaq digər insanlar mal, övlad və başqa sevgilərini qəlblərindən tamamilə silməyi bacarmazlar. Əsasən, bu cür sevgilər müəyyən bir ölçünü aşmadığı müddətdə məqbul sayılır.

Qəlb təmizliyinin önəmini başa düşmək üçün qəlbin maddi və mənəvi həyatdakı mövqeyinə baxmaq kifayətdir. Belə ki, Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- qəlbin insan həyatındakı önəmini belə ifadə etmişdir:

«... İnsan bədənində bir ət parçası var. O yaxşı olarsa, bütün bədən yaxşı, pis olarsa, bütün bədən pis olar. Diqqət edin, o, qəlbdir.» (Buxari, «İman», 39)

Həzrət Mövlana -quddisə sirruh- bir çuvalın dibindəki deşiyi yamamadan onun içini doldurmağa çalışmağın boş bir şey olduğunu bildirir. Bunun kimi əməllərin də təmizlənmiş bir qəlb ilə edildiyi təqdirdə insanın səadətinə yol açacağı aşikardır. Çünki əməllər niyyətlərə bağlıdır. Niyyət isə qəlbin əməllərindən biridir. Bu münasibətlə niyyətin doğru olması və ixlasla bəzənməsi şərtdir.

7. Vasili-ilallah: dünyada qəlbən uca Allaha qovuşmaq.

8. Likaullah: axirətdə Rəbbimizin camalına qovuşmaq.



Bu keyfiyyət isə ancaq işin əhli tərəfindən yerinə yetiriləcək qəlbi təlim və tərbiyə nəticəsində əldə edilən bir haldır. Haqq dostlarının qəlb tərbiyəsində hədəf seçdikləri nöqtə qəlbin davamlı olaraq Allah ilə birgə olmaq düşüncəsinə (ehsana) qovuşması və belə bir diri qəlb özəlliyinə sahib olmasıdır. Qəlbin bu dərəcəyə yüksəlməsi üçün Allahdan qeyri hər şeydən təmizlənmiş olması zəruridir.

Bu dərəcəyə yüksələn qəlb incə və dərin həqiqətləri görə biləcək bir səviyyəyə çatır. Qəlb paslardan təmizlənib lətafətə büründüyü ölçüdə də ilahi isimlərin və sirlərin əks olunduğu yer olur. Beləliklə, uca Allahın qəlb yolu ilə bilinməsi demək olan mərifətullah yaranır. Bu isə elmin irfan halına gəlməsi deməkdir.

Allahın hüzuruna ancaq saf bir qəlblə, yəni təmizlənmiş, bütün mənəvi xəstəliklərdən arınmış, içi ilahi sevgi ilə doldurulmuş tərtəmiz bir könüllə çıxanların qurtulacağını uca Allah belə bildirir:

«O gün ki, nə mal-dövlət, nə də övlad bir fayda verər! Ancaq sağlam (təmiz, daxilində şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmayan) **bir qəlblə Allahın hüzuruna gələn kimsədən** (möminlərdən) **başqa!»** (əş-Şuəra, 26/88-89)

Digər tərəfdən nəfsini təmizləyə bilməyən və Allahın zikrindən uzaq qalaraq sərtləşən qəlblərin də həlak olacağı yenə Qurani-Kərimdə belə bildirilmişdir:

«… And olsun nəfsə (insana) **və onu yaradana** (ona biçim verənə), **sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini** (xeyir və şəri) **öyrədənə ki, nəfsini təmizləyən mütləq nicat tapacaqdır! Onu** (günaha) **batıran isə, əlbəttə, ziyana uğrayacaqdır.»** (əş-Şəms, 91/7-10)

«… Elə isə vay qəlbləri Allahın zikrinə (Qurana) **qarşı sərt olanların halına! Onlar** (haqq yoldan) **açıq-aydın azmışlar.»** (əz-Zumər, 39/22)

Bu ayeyi-kərimələrin işığında Əbu Səid əl-Harrazın bu sözü necə mənalıdır:



«Kamil insan, Allah tərəfindən qəlbi təmizlənmiş və nurla doldurulmuş kimsədir.»

3. Təsəvvüf sülhü olmayan bir mənəvi cəngdir

Həzrət Cüneyd Bağdadiyə aid olan bu söz təsəvvüfün nəfsə qarşı ömür boyu davam edən bir mübarizə olduğunu ifadə edir. Nəfsə qarşı cihad nəfsin halal olmayan bütün istəklərinə mane olmaqdır.

Müharibələr müəyyən zaman və məkanlarda baş verir və bitir. Nəfsə qarşı olan bu savaşın isə ömür boyu fasiləsiz olaraq davam etdirilməsi zəruridir. Ayeyi-kərimədə belə buyurulur:

«… Sənə yəqin (ölüm) **gələnədək Rəbbinə qulluq etməyə davam et!»** (əl-Hicr, 15/ 99)

Uca Allah nəfsin hiylə və pusqularına qapı açan *«qəflət»*ə qarşı fasiləsiz bir sayıqlıq halında olub, bu yolla qulluğa davam edilməsini belə əmr etmişdir:

«Səhər-axşam yalvararaq, qorxaraq, səsini qaldırmadan ürəyində Rəbbini yad et və qafillərdən olma!» (əl-Əraf, 7/205)

Rəsulullahın -səllallahu əleyhi və səlləm- şəxsən iştirak etdiyi və **«Qəzvətül-Usra»,** yəni **«Çətin səfər»** adı ilə bilinən **Təbük savaşından** dönərkən buyurduğu:

«İndi kiçik cihaddan böyük cihada dönürük.» ifadəsi, şübhəsiz ki, bu tərifin ilham qaynağıdır. Çox çətin bir səfərdən sonra deyilmiş bu sözü eşidən səhabələr heyrətlə belə dedilər:

«-Bundan daha böyük cihad olarmı?»

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm-:

«-Bəli! İndi kiçik cihaddan ən böyük cihada - nəfs ilə mübarizəyə dönürük!»-deyə cavab vermişdir.

Əsrimizin araşdırıcılarından R. Garaudi islamdakı bu kiçik və böyük cihad tarazlığının önəmini belə dəyərləndirir:

Tamamilə islami bir mənəvi tərbiyə şəkli olan təsəvvüf, əslində, insanı yaradılış qayəsindən uzaqlaşdırıb, nəfsinə məhkum edən hər cür arzuya qarşı edilən iç mübarizəsi deməkdir. Bunun İslam terminologiyasındakı adı böyük cihaddır. Müsəlmanları Allah yolundan ayırıb, özünə ram edən hər cür iqtidar, zənginlik və yanlış bilgilərə qarşı onun birlik və ahəngini təmin etmək üçün çalışmaq isə kiçik cihad olaraq adlandırılmışdır. Fərd və cəmiyyətin səadətini təmin edən də bu iki cihad arasındakı tarazlıqdır.[9]

4. Təsəvvüf ixlasdır

Təsəvvüf Allaha olan səmimiyyətdir. Əməlləri ancaq ilahi rizanı hədəf seçərək yerinə yetirmək və bu məqsədin üzərinə başqa hədəflərin kölgəsini salmamaq, dini terminlə *«ixlas»* kəlməsi ilə ifadə olunur. Uca Allahın rizasından başqa bütün əməlləri qəlbdən təmizləmək müsəlmanın etməyə borclu olduğu böyük bir fəzilətdir.

Uca Allahın rizasını qazanmaq üçün əmr edilmiş olan əməllərə başqa bir ortağın qarışdırılması səmimiyyətsizlik və ya riyakarlıqdır. Bu isə, uca Allahın qatında o əməllərin sahiblərinə boş bir yorğunluqdan başqa heç bir fayda verməz. Deməli, Allah yanında əməllərin qəbul edilməsini təmin edən ən önəmli şərtlərin birincisi *«ixlas»*dır.

İxlas uca Allaha yaxınlaşmaq arzusu ilə hər cür dünya mənfəətindən qəlbi qoruya bilməkdir.

İxlas bəndələrə ən böyük xeyir olan ilahi rizanı qazandırır.

Uca Allahın əsl məqsədi bəndələrinin əməllərini ancaq Onun rizasına uyğun olaraq səmimiyyətlə icra etmələridir. Ayeyi-kərimələrdə belə buyurulur:

«(Ey Peyğəmbər!) **Biz Kitabı sənə haqq olaraq nazil etdik. Buna görə sən də dini məhz Allaha xas edərək yalnız Ona ibadət et!..»** (əz-Zumər, 39/2)

«De: «Mənə dini (itaəti) **məhz Allaha məxsus edərək yalnız Ona ibadət etmək əmr olunmuşdur!».** (əz-Zumər, 39/11)

9. Baxın, R. Garaudi, «İslamın vəd etdikləri», s. 47.

İlahi hüzurdan qovulan İblis ayeyi-kərimədə buyrulduğu kimi:

«(İblis) **dedi: «Ey Rəbbim! Məni azdırmağına** (rəhmətindən kənar etməyinə) **əvəz olaraq and içirəm ki, mən də** (bunun müqabilində) **onlara** (pis əməllərini, günahlarını) **yer üzündə yaxşı göstərib, onların hamısını yoldan çıxaracağam! Yalnız Sənin sadiq bəndələrindən başqa!»** (əl-Hicr, 15/39-40)

Təsəvvüf hər şeyi Allaha aid etmək, nemət və izzəti Ondan bilmək və qürurdan xilas olmaqdır. İnsan hansı hal və məqamda olursa-olsun, özündə bir varlıq və üstünlük hiss etməməlidir. Belə ki, uca Allah Bədr zəfəri münasibəti ilə Peyğəmbərimizə -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«(Ey möminlər! Bədrdə) **onları** (kafirləri) **siz öldürmədiniz, Allah öldürdü.** (Ey Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq) **atdığın zaman sən atmadın, Allah atdı…».** (əl-Ənfal, 8/17)[10]

Buna görə də, insan acizliyini və qulluğunu hər zaman hiss etməli, hər cür nemət, qələbə və uğurun uca Allahdan gələn bir lütf olduğunu bilməlidir. Əks halda, əməllərinin bərəkəti azalar, ya da tamamilə yox olar.

❁

Əbu Hureyrə (r.a) ibadətlərində ixlası itirib, qürur və həvəsini önə çıxaran şəxslərin aqibəti ilə bağlı həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- belə buyurduğunu xəbər vermişdir:

«Qiyamət günü hesabı ilk görüləcək şəxs, şəhid olmuş bir kimsə Allahın hüzuruna gətirilər. Uca Allah ona verdiyi nemətləri xatırladar. O da xatırlayar və bunlara qovuşduğunu etiraf edər. Uca Allah:

- Yaxşı, bunların əvəzində sən nə etdin?

O şəxs:

- Şəhid olana qədər Sənin uğrunda cihad etdim,- deyə cavab verər.

10. Allah Rəsulu savaş zamanı kafirlər ordusunun üzərinə yerdən bir ovuc torpaq atmış və o torpaq Allahın izni ilə kafirlərin gözlərini örtərək onları çaşdırmışdı. Mübarək ayə də bu hadisədən sonra nazil olmuşdur.



Uca Allah:

- Yalan söyləyirsən, sənə qəhrəman adam desinlər deyə savaşdın, o da deyildi,-buyurar.

Sonra əmr olunar və o şəxs üzüstə cəhənnəmə atılar.

Sonra elm öyrənmiş, öyrətmiş və Quran oxumuş bir şəxs uca Allahın hüzuruna gətirilər. Uca Allah ona da verdiyi nemətləri xatırladar. O da xatırlayar və etiraf edər. Ona da:

- Yaxşı, bu nemətlərin əvəzində sən nə etdin? -deyə soruşar.

O isə:

- Elm öyrəndim, öyrətdim və Sənin rizan üçün Quran oxudum, - cavabını verər.

Uca Allah:

- Yalan söyləyirsən. Sənə alim desinlər deyə elm öyrəndin, necə gözəl oxuyur desinlər deyə Quran oxudun. Bunlar da sənin haqqında söylənildi, -buyurar.

Sonra əmr olunar. O da üzüstə cəhənnəmə atılar.

Daha sonra Allahın hər cür mal və imkan verdiyi bir şəxs Onun hüzuruna gətirilər. Uca Allah ona verdiyi nemətləri xatırladar. O da verilən nemətləri xatırlayar və etiraf edər.

Uca Allah:

- Yaxşı, sən bu nemətlərin əvəzində nə etdin? -deyə buyurar.

O şəxs:

- Verilməsini sevdiyin, razı olduğun heç bir yerdən əsirgəmədim, sadəcə, Sənin rizanı qazanmaq üçün verdim, xərclədim, deyər.

Uca Allah:

- Yalan söyləyirsən. Sən bütün etdiklərini necə səxavətli adamdır desinlər deyə etdin. Bu da sənin üçün deyildi, -buyurar.

Əmr olunar, o da üzüstə cəhənnəmə atılar.» (Müslim, «İmarə», 152)



Həzrət Mövlana ixlasdan məhrum bir şəkildə ibadət edən kimsələrə belə səslənir:

«Ey qafil! Kaş səcdə etdiyin zaman üzünü səmimiyyətlə Haqqa çevirə biləydin. «Ucaların ucası olan Rəbbim hər cür nöqsan sifətlərdən uzaqdır», -deməyin mənasını layiqincə biləydin. Yəni ancaq şəkil səcdəsi deyil, könül səcdəsi edə biləydin!..»

İxlassız ibadətlər fani şəriklər və mənəvi kirlərlə doludur. Deməli, ibadətləri saflaşdırıb ülviləşdirəcək olan sirr, ixlasdır. İxlassız edilən əməl bəndəyə heç bir fayda verməz. Belə ki, dinin imandan sonra ən önəmli əmri olan namaz ibadətini belə ixlas şərtinə əməl etmədən yerinə yetirənlər bu ayeyi-kərimənin dəhşətli xəbərdarlığına məruz qalmışlar:

«Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər. Onlar riyakarlıq edərlər…» (əl-Maun, 107/ 4-6)

Cüneyd Bağdadi -qüddisə sirruh- belə buyurmuşdur:

«İxlas əməli mənəvi bulanıqlıqdan təmizləməkdir.»

Başqa bir Allah dostu isə belə deyir:

«İxlasda iddialı olmaq bir növ ixlassızlıqdır.» Çünki ixlas və təqvada ən böyük təhlükə möminin özünü təqva sahibi görməsidir.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- buyurur:

«Dinində ixlaslı ol! Belə etsən, az əməl belə sənə kifayət edər.» (Hakim, «Müstədrək», IV, 341)

«Allah təala sizin surətlərinizə və mallarınıza baxmaz! Ancaq sizin (ixlas və təqva baxımından) qəlblərinizə və əməllərinizə baxar.» (Müslim, «Birr», 34)

5. Təsəvvüf istiqamətdir

Təsəvvüfdə kitab və sünnəyə möhkəm sarılmağın tam ifadəsi «istiqamət»dir. Uca Allah bu məsələ ilə bağlı Peyğəmbərinə və

onun simasında biz ümmətinə ayeyi-kərimədə belə buyurmuşdur:

«(Ey Rəsulum!) **Sənə əmr edildiyi kimi düz** (yolda) **ol. Sənin**lə **birlikdə iman gətirənlər** (tövbə edib ardınca gedənlər) **də düz** (yolda) **olsunlar.** (Allahın əmrlərini pozub) **həddi aşmayın!..»** (Hud, 11/112)

Peyğəmbərimiz bu ayə ilə bağlı belə buyurmuşdur:

«Məni Hud surəsi qocaltdı.» (Tirmizi, «Təfsiri-Surə», 56/6)

Peyğəmbərimizin belə buyurmasına səbəb olan bu ilahi xitab[11] təfsirçilərə görə belə şərh edilmişdir:

«Ey Nəbi! Quran əxlaqı və ehkamına görə hərəkət edib birbaşa canlı bir istiqamət örnəyi olmalısan ki, bu yolla sənin haqqında heç bir şübhə və tərəddüdə əsas olmasın! Sən müşrik və münafiqlərin ağlına gələnləri danışmalarına baxma, onları Allaha həvalə et! İstər ümumi, istərsə də xüsusi vəzifələrində tam əmr olunduğun kimi istiqamət üzrə ol, doğru yoldan ayrılma! Sənə vəhy olunan əmrin icrası nə qədər ağır olursa-olsun, o əmrin təbliğ, icra və tətbiqində heç bir çətinlikdən qorxma! Rəbbin sənin yardımçındır.»[12]

Abdullah bin Abbas (r.a) bu ayə ilə bağlı olaraq belə demişdir:

«Qurani-Kərimdə Rəsulullah -səllallahu əleyhi və səlləm- üçün bu ayeyi-kərimədən daha şiddətli bir xitab olmamışdır.» (Nəvəvi, «Şərhu-Səhihi-Müslim», II, 9)

Buradakı xitab hər nə qədər şanlı Peyğəmbərimizə yönəlsə də, onu bu qədər məşəqqətə məruz qoyan sadəcə özü ilə bağlı istiqamət narahatçılığı deyildi. Çünki O:

«(Ey həbibim! Sən) **doğru yol üzərəsən»** (Yasin, 36/4) kimi bir ilahi xitaba nail olmuşdur. Onu bu qədər qocaldan bu əmrin möminlərə də aid olması səbəbiylə onlar haqqında duyduğu narahatlıq idi.

❁

11. Baxın, Qurtubi, «əl-Cami», IX, 107.

12. Baxın, Elmalılı M.Hamdi Yazır, «Hakk dini Kur'an dili», IV, 2829-2830.

Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- bisətindən sonra Kainatın Fəxrinin rəhbərliyindən kənarda qalan heç bir yol insanı Allaha qovuşdurmaz. Çünki uca Allah öz sevgi və bağışlamasını Peyğəmbərə itaət etmək şərtinə bağlamışdır. Ayeyi-kərimələrdə buyurulur:

«(Ey Rəsulum!) **De: «Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, rəhmlidir.»** (Ali-İmran, 3/31)

«De: «Allaha itaət edin, Peyğəmbərə itaət edin… Əgər ona itaət etsəniz, doğru yolu tapmış olarsınız…» (ən-Nur, 24/54)

Zünnuni-Misri -qüddisə sirruh- da belə buyurmuşdur:

«Əxlaqında, əməl və hərəkətlərində Allah təalanın həbibinin sünnəsinə tabe olan şəxs Haqqa olan sevgisini isbat etmiş olar.»

Bəyazidi-Bistami -qüddisə-sirruh- isə belə buyurmuşdur:

«Havada bardaş qurub otura bilən birini görsəniz, o şəxsin ilahi əmr və qadağaların hüdudlarını qoruduğunu, sünnəyə tabe olduğunu və Haqqın hüququna əməl etdiyini görmədikcə bunun bir kəramət olduğuna inanmayın.»

İstiqamət əhlinin yolu olan *«sırati-müstəqim»*də layiqincə yürüyə bilənlər haqqında Qurani-Kərimdə belə buyrulmuşdur:

«Allaha və Peyğəmbərə itaət edənlər (axirətdə) **Allahın nemətlər verdiyi nəbilər** (peyğəmbərlər), **siddiqlər** (tamamilə doğru danışanlar, etiqadı doğru, peyğəmbərləri hamıdan əvvəl təsdiq edən şəxslər**), şəhidlər və salehlərlə** (yaxşı əməl sahibləri ilə) **bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!»** (ən-Nisa, 4/69)

Ayeyi-kərimədən də göründüyü kimi, sırati- müstəqim (doğru yol) üstün insanların yoludur. İstiqamətin əsası da iman və təqvadır. Bu ikisinin yeri isə qəlbdir. Bu baxımdan istiqamət qəlbdə olan iman və təqva ilə vücudun həmahəng olmasıdır. Qəlbdəki iman, ixlas və tarazlıq istiqaməti təmin edər və onun daimi olmasına yol açar. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Dil istiqamət üzrə olmadıqca qəlb, qəlb istiqamət üzrə olmadıqca da iman müstəqim olmaz.» (Əhməd b. Hənbəl, «Müsnəd», III, 198)

Ondan nəsihət istəyən birinə Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm-:

«Allaha inandım de! Ondan sonra da istiqamət üzrə doğru ol!» (Müslim, «İman», 62) - buyuraraq dini xülasə etmişdir.

❁

Bütün məsələlərdə istiqaməti qorumaq qədər yüksək bir məqam və onun layiqincə yerinə yetirilməsi qədər çətin başqa bir əmr yoxdur. Çünki istiqamət ibadətdə ifrat və təfridə düşmədən orta yolu qorumaqla Haqq yolunda sabit olmaq və əmr olunanı buyrulduğu kimi gücünün çatdığı ölçüdə ən mükəmməl şəkildə yerinə yetirməkdir. Məhz bu səbəbə görə ən böyük kəramət istiqamətdir.

Allah dostları istiqamət üzrə olmağı bir şüara çevirmişlər. Həqiqi istiqamət isə Kainatın Fəxrinin nurlu yolu ilə getməkdir. Belə ki, Mövlana Cəlaləddin Rumi bu həqiqəti çox gözəl ifadə etmişdir:

«Bu can bədəndə durduqca Quranın bəndəsiyəm və Məhəmmədül-Muxtarın yolunun torpağı, ayağının tozuyam. Əgər biri mənim sözlərimdən bundan başqa bir şey danışarsa, dediyi sözdən də, özündən də küskünəm.»

«Kim Peyğəmbərin -səllallahu əleyhi və səlləm- süfrəsindən başqa bir süfrəyə gedərsə, bil ki, şeytan onunla bir qabdan yemək yeyər. Çünki o irfan süfrəsindən başqa bir süfrə seçən şəxsin boğazını sümük yırtar və deşər.»

6. Təsəvvüf riza və təslimiyyətdir

Təslimiyyət, boyun əymək, itaət etmək, təslim olmaq və etirazsız qəbul etmək deməkdir. İslam kəlməsi də eyni kökdəndir. Təsəvvüf bəndənin ilahi istiqamət üzrə yaşaya bilməsi və hər nəfəsdə Rəbbinə daha çox yaxınlaşa bilməsi üçün Haqqa riza və təslimiyyət duyğusunu könüllərə yerləşdirir.

Çünki bu fani aləmi əhatə edən min bir iztirab, kədər və çətinliklərin təsiri, nəfsani aldanışların bulanıqlığı ancaq Haqqa riza və təslimiyyət nəticəsində azalmağa başlayar. Yəni riza və təslimiyyətin bərəkəti ilə iztirablar sanki hissedilməz olar. Hətta, çətinliklər belə Rəbbin bir iltifatı şəklində qəbul edilərək sevincə dönər.

Təslimiyyət kədər təcəllalarını dərin bir riza ilə qarşılamaq, tədbirdən sonra müqəddəratı qəbul etmək və ortaya çıxacaq nəticəyə könül xoşluğu ilə boyun əyməkdir. Bu təslimiyyətin ən gözəl nümunəsi Allahın əmrinə uyğun olaraq öz sevimli övladını qurban kəsməyə aparan İbrahim -əleyhissalam- ilə boynunu ilahi təqdirə sevə-sevə əyən İsmayılda -əleyhissalam- təcəlla etmişdir. Qurani-Kərim bu iki Peyğəmbərin təslimiyyətini insanlığa misal olaraq göstərmiş və onlar haqqında belə buyurmuşdur:

«Hər ikisi də Allahın əmrinə təslim olmuşdu…» (əs-Saffat, 37/103)

Onların bu təslimiyyəti, bütövlükdə bir ibadətin rükünlərini təşkil etmə şəklindəki ilahi iltifata nail olmuşdur. Həcc ibadəti qiyamətədək davam edəcək ümmətə hər an təslimiyyəti təbliğ edən bir dildir.

Əmr və qadağalarda Haqqa təslim olmaq, ilahi təqdirə, əzab və imtahanlara səbirlə, təvəkküllə riza göstərmək zəruridir. Çünki kamilliyin açarı çətinliklərdir.

Şaqiqi-Bəlxi belə demişdir:

«Sıxıntının mükafatını bilən ondan xilas olmağa həvəs göstərməz.»

Bu incə mənanı bilən Allah dostları qəm və sevincə eyni gözlə baxmışlar. Həddən çox sevinclə, ölçüsüz iztirab kimi nəfsə tələ olan ən son nöqtələrə sürüklənməyib, riza və təslimiyyət məqamında dayanmışlar.

Təslimiyyətin bir yönü də *«eşq»* və *«ilahi məhəbbət»*dir. Çünki sevənlər sevdiklərindən gələn hər şeyi gözəl qarşılayaraq sevgilərindəki səmimiyyəti göstərmək və isbat etmək üçün çalışarlar.

Əbu Əli Ruzbari bu düşüncədən çıxış edərək təsəvvüfü belə dəyərləndirmişdir:

«Qovulsa belə, insanın sevgilinin qapısında diz çöküb sədaqət və təslimiyyətlə gözləməsidir.»

Könlü eşq ilə dolu olan bəndə Rəbbindən gələn hər şeyi məhəbbəti ölçüsündə qarşılayar. İbrahimin -əleyhissalam- Allaha olan təslimiyyət və sevgisinin göstəricisi dünya atəşini bir anda gül bağçasına çevirmişdi. Yaqubun -əleyhissalam- ilahi təqdir qarşısındakı riza və təslimiyyəti sevimli övladı Yusifin həsrət acısını:

«Mənə gözəl səbir etmək düşər.» (Yusif, 12/18) -deyərək təskinlik tapmasına səbəb olmuşdur.

Təsəvvüf əhli peyğəmbərlərin yolu olan haqqa təslimiyyəti həyatlarının məhvərinə çevirmişlər. Belə ki, Rabiətül-Ədəviyyənin -qüddisə-sirruh- dediyi kimi:

«Sevən sevdiyinə itaət edər.»

Yəni təslimiyyət sevgiyə bağlı olan könüllü bir itaətdir.

Əshabi-kiram Peyğəmbərimizə olan sevgi, onların bağlılıq və itaəti ölçüsündə inkişaf etmişdi. Sevgi və təslimiyyətlə etirazsız itaət etmələri sayəsində bütün ümmətə nümunə olan ulduzlara çevrilmişlər.

❁

Təsəvvüfün izahı ilə bağlı olaraq bu deyilənlərdən ilhamla aşağıdakıları söyləyə bilərik:

Təsəvvüf maddi-mənəvi kirlərdən təmizlənib, gözəl əxlaq və xüsusiyyətlər qazanaraq, dini mahiyyətinə uyğun bir biçimdə yaşamaqdır. Beləliklə, ancaq ağlın həll etməsinin mümkün olmadığı maddi, ya da mənəvi hadisələrdəki sirli məqamlar və uca müəmmaları əhatə edən bir görüş kamilliyinə çatmaqdır. Könlün sonsuz mənəvi həzzlərə duyduğu cazibə önündə bir maneə olan nəfs problemini həll etməyə çalışmaqdır. Ruhun həbs edilmiş olduğu nəfsani təmayüllərini aşaraq bütün hadisələrin mahiyyətindəki mücərrəd həqiqətləri idrakın sərhəddindəki pərdənin arxasında baş verən ibrət və hikmət

səhifələrini arifanə bir üslubla tamaşa edə bilməyi təmin edən bir sıra hallar və bilgilərin elmidir.

Bu təsəvvüf izahları ilə bağlı nəticələri Aksaray Olanlar Dərgahının şeyxi İbrahim Əfəndinin məşhur *«Təsəvvüf mənzuməsi»* ilə ifadə edək:

Bidayette tasavvuf sufi bican olmağa derler
Nihayette gönül tahtında sultan olmağa derler.

«Təsəvvüfün başlanğıcı maddi varlığından sıyrılan və özündə bir varlıq görməyən, qısa olaraq iradəsini Haqqa təslim etmiş bir sufi ola bilməkdir. Sonu isə bütün ilahi gözəllikləri qazanaraq könül taxtının sultanı olmaqdır.»

Tarikatte ibarettir tasavvuf mahvı-suretten
Hakikatte sarayı-sırda mihman olmağa derler.

«Təriqətdə təsəvvüf surətin məhvindən ibarətdir. Yəni bəşəri istəklərdən qurtulmaqdır. Həqiqətdə isə ilahi sirr sarayının qonağı olmaqdır.»

Bu ab u kil libasından tasavvuf arı olmaktır
Tasavvuf cismi-safi nuri-Yezdan olmağa derler.

«Təsəvvüf torpaq və sudan ibarət fani paltarlardan-qəfəslərdən qurtulmaqdır. Bu yolla tərtəmiz bir varlıq olaraq uca Allahın nuru halına gəlməkdir.»

Tasavvuf lemayı envarı-mutlaktan uyarmakdır
Tasavvuf ateşi-aşk ile suzan olmağa derler.

«Təsəvvüf (könül şamının) işığını ilahi nurlarla yandırmaqdır. Çünki təsəvvüf eşq atəşi ilə tutuşmağa deyərlər.»

Tasavvufta şerait namei-hestiyi dürmektir
Tasavvuf ehli-şeru ehli-iman olmağa derler.

«Təsəvvüfdə əsas olan varlıq kitabını örtmək, mənlikdən sıyrılmaqdır. Əsl təsəvvüf şəriət əhli və həqiqi iman sahibi olmaqdır.»



Tasavvuf arif olmaktır hakimen adetullaha
Tasavvuf cümle ehli-derde derman olmağa derler.

«Təsəvvüf ilahi sirr, təcəlla və iradənin hikmətlərini bilməkdir, ariflikdir. Təsəvvüf bütün dərd sahiblərinə dərman olmaqdır.»

Tasavvuf ten tılısmın ism miftahıyla açmaktı
Tasavvuf bu imaret külli viran olmağa derler.

«Təsəvvüf bu bədən tilsimini ad açarı (Allah adı) ilə açmaqdır. Təsəvvüf bu fani imarəti tamamilə yox etməkdir.»

Tasavvuf sufi kali hale tebdil eylemektir bil
Dahı her söz ki söyler abi-hayvan olmağa derler.

«Bil ki, təsəvvüf sufinin sözünü (bilgisini) hala çevirməkdir. Bu, sanki onun hər sözünün bir dirilik suyu olmasıdır.»

Tasavvuf ilmi-tabirat u tevilatı bilmektir
Tasavvuf can evinde sırrı-Sübhan olmağa derler.

«Təsəvvüf böyük bir dərinlik qazanaraq təbir və təvil elmlərinə vaqif olmaqdır. Bu yolla insan, kainat, Quran və sünnədəki ilahi sirləri anlamaqdır. Təsəvvüf can evində Allahın bir sirri ola bilməkdir.»

Tasavvuf hayreti-kübrada mest ü valih olmaktır
Tasavvuf Hakkın esrarında hayran olmağa derler.

«Təsəvvüf Haqqın əzəmət, qüdrət və gözəlliyi qarşısında böyük bir heyrət, dəhşət içində qalaraq həm sərxoş, həm də ayıq olmaqdır. Çünki təsəvvüf Haqqın sonsuz sirlərinə heyranlıqdır.»

Tasavvuf kalb evinden masivallahı gidermektir
Tasavvuf kalbı-mümin arşı-Rahman olmağa derler.

«Təsəvvüf könül sarayından Allahdan başqa hər şeyi çıxarmaqdır. Çünki təsəvvüf mömin bir qəlbin Allahın ərşi olması deməkdir.»

Tasavvuf her nefeste şarka vü qarba erişmektir
Tasavvuf bu kamu halka nigehban olmağa derler.



«Təsəvvüf hər nəfəsdə şərqə və qərbə çatmaq, yəni oralardakı əhli-imanı düşünmək, onların sevinc və kədərlərinə ortaq olmaq, ehtiyac sahiblərinə xidmət etməkdir. Təsəvvüf bütün xalqı düşünməyə çalışmaqdır.»

Tasavvuf cümle zerratı-cihanda Hakkı görmektir
Tasavvuf gün gibi kevne nümayan olmağa derler.

«Təsəvvüf cahanın bütün zərrələrində Haqqı müşahidə etməkdir. Beləliklə, təsəvvüf aləmlərə günəş kimi olmaqdır.»

Tasavvuf anlamaktır yetmiş iki milletin dilin
Tasavvuf alemi-akla Süleyman olmağa derler.

«Təsəvvüf yetmiş iki millətin dilini bilmək, yəni hər kəsin halından anlamaqdır. Təsəvvüf ağıl aləminə Süleyman olmaqdır.»

Tasavvuf urvetül-vüska yükün can ile çekmekti
Tasavvuf mahzar-ı ayat-ı gufran olmağa derler.

«Təsəvvüf Haqqın insana yüklədiyi ilahi əmanət olan Qurani-Kərim və onun gətirdiyi məsuliyyəti canla-başla daşımaqdır. Təsəvvüf ilahi bağışlanmanı müjdələyən ayələrə nail olmağa çalışmaq deməkdir.»

Tasavvuf ismi-azamla tasarruftur bütün kevne
Tasavvuf camii-ahkamı-Kuran olmağa derler.

«Təsəvvüf bütün kainata «ismi-əzəm»lə müraciət etməkdir. Təsəvvüf Quran hökmlərini könüldə toplamaq, yəni canlı bir Quran ola bilməkdir.»

Tasavvuf her nazarda zatı-Hakka nazır olmaktır
Tasavvuf sufiye her müşkil asan olmağa derler.

«Təsəvvüf hər baxışda uca Allaha yönəlməkdir. Təsəvvüf sufiyə bütün çətinliklərin asanlaşmasıdır.»

Tasavvuf ilmi-Hakka sinesini mahzen etmektir
Tasavvuf sufi bir katreyken umman olmağa derler.

«Təsəvvüf könlünü Haqqın elminə məkan etmək, yəni lədünni



elmə sahib olmaqdır. Beləliklə, təsəvvüf bir damla hökmündə ikən sufinin geniş bir dəryaya çevrilməsidir.»

Tasavvuf külli yakmaktır vücudun nar-ı«la» ile
Tasavvuf nuri - «illa» ile insan olmağa derler.

«Təsəvvüf Haqqın varlığı qarşısında bütün mövcudatın «lə/yox» atəşi ilə yanıb kül olmasıdır. Təsəvvüf «illə» nuru ilə, yəni təmizlənmiş bir könüllə Allahı tövhid edərək kamil insan olmaqdır.»

Tasavvuf «kul kefa billah» ile davet-dürür halkı
Tasavvuf «ircii»lafzıyla mestan olmağa derler.

«Təsəvvüf, **«De: «Allah sənə yetər!»** (ər-Rəd, 43) *ayəsi ilə insanları Haqq yoluna dəvət etməkdir. Təsəvvüf,* **«Rəbbinə dön!»** (əl-Fəcr, 28) *sözünün zövqü ilə özündən keçməkdir.»*

Tasavvuf günde bin kerre ölüp yine dirilmektir
Tasavvuf cümle alem cismine can olmağa derler.

«Təsəvvüf hər gün ölmədən əvvəl ölmək sirrini min dəfə yaşamaq və qəlbən diri qalmaqdır. Bundan sonra təsəvvüf bütün aləmin cisminə can ola bilmək, yəni başqa könülləri də diriltməkdir.»

Tasavvuf zatı-insan zatı-Hakda fani olmaktır
Tasavvuf kurb-ı ev «edna»da pinhan olmağa derler.

«Təsəvvüf insanın öz varlığını Haqqın varlığında yox etməsidir. Beləliklə, təsəvvüf merac vüslatında təcəlla edən və ayeyi-kərimədə **«İki yaydan daha yaxın»** (ən-Nəcm, 9) *şəklində ifadə edilən bir yaxınlıq içərisində belə, özünü gizləyə bilməkdir.»*

Tasavvuf canı canana verip azade olmaktır
Tasavvuf canı-canan canı-canan olmağa derler.

«Təsəvvüf canı sevgiliyə verib hər cür fani əsarətdən qurtulmaqdır. Bu baxımdan təsəvvüf sevgilinin canı, bəli sevgilinin canı ola bilmək, yəni onun tərəfindən də sevilməkdir.»

Tasavvuf bende olmaktır hakikat hak ey İbrahim
Tasavvuf şerri-Ahmed dilde burhan olmağa derler.



«Ey İbrahim! Təsəvvüf, əslində, uca Allaha qul, kölə olmaqdır. Bunun üçün təsəvvüf həzrət Əhmədin -səllallahu əleyhi və səlləm- yolunu və ölçülərini könüldə bir rəhbər etməkdir.»



Təsəvvüfün qayəsi gözəl əxlaqı, yəni mərhəmət, şəfqət, comərdlik, əfv edə bilmə, şükür kimi ülvi xislətləri mömində bir ləzzət halına çevirə bilməkdir.

C. TƏSƏVVÜFÜN MÖVZUSU

Təsəvvüfün çeşidli və geniş bir şəkildə izahının verilməsi, müəyyən bir mənada onun mövzusunun genişliyindən qaynaqlanır. Yəni təsəvvüfün mövzusu bir dərya kimi geniş və dərindir. Çünki o, insanın nəfsi və ruhu ilə bağlı olan bütün məsələlərlə maraqlanır. Bəndənin mənəvi yolçuluğunda qət etdiyi bütün məsafələr, keçdiyi aləmlər, əlaqədə olduğu varlıqlar, yaşadığı min bir əhval, nəhayət, aləmlərin Rəbbi olan Allahı tapmaq, qəlbən tanıya bilmək və ona qulluq etmək kimi çoxsaylı məsələlərlə bağlı olur. Belə bir mövzu dəryasından üçbeş damla təqdim edəcək olsaq, bunları söyləyə bilərik:

Təsəvvüf hər şeydən öncə nəfs təzkiyəsi və qəlb təsfiyəsi hesabına xam insandan kamil insan səviyyəsinə çatmaq yolunda müşahidə edilən mərhələ və halları mövzu seçir.

Başqa bir ifadə ilə təsəvvüf Haqqın rizasını qazanmaq və əbədi səadətə nail olmaq üçün nəfsi təzkiyə, qəlbi təsfiyə, daxili və zahiri nurlandırma, surət və sirəti arındırma hallarından bəhs edir. Mövzusu tərbiyə olunmaq və mənəvi həqiqətlərə sahib olmaqdır. Ehsan duyğusunun mənəvi bir zövq halında dadılaraq yaşanmasıdır.

Bu münasibətlə təsəvvüfün ana mövzusu Vacibül-Vücud olan Allah təalanın zatı, sifətləri və bu sifətlərin bütün kainata şamil olan təcəlla tərkiblərindəki hikmət, sirr və ilahi muradın qavranması ilə bağlı üsul və əsaslardır.

Təsəvvüf bu məzmunda kəşf, ilham, mənəvi müşahidə, vəcd və eşq kimi daxili aləmə, ruha, könülə və vicdana aid vasitələrin ortaqlığı ilə irəlilədiyi zaman nail olunan ülvi halları mövzu seçir.

Xülasə, təsəvvüf Allahın ad və sifətlərinin təcəllasını yəqini olaraq müşahidə edərək mərifəti, insan, kainat və Quranın həqiqətlərinin bilgisi ilə də mənəvi aləmdəki mərhələləri və bunların sonundakı kamilliyi mövzu seçmişdir.

Təsəvvüfün mövzusu bir dərya kimi geniş və dərindir. Çünki o, insanın nəfsi və ruhu ilə bağlı olan bütün məsələlərlə maraqlanır.

D. TƏSƏVVÜFÜN QAYƏSİ

Təsəvvüfün geniş tərif və mövzusuna baxanda onun insan oğlu üçün çox mühüm və uca bir qayəni düstura çevirdiyi görünür. Bu qayə ilk peyğəmbərdən başlayaraq bütün nəbilərin və övliyaların könül səmalarında bir günəş kimi mövcud olan *«Allaha ən gözəl və bərəkətli bir şəkildə qulluq»*dur. Bu yönü ilə qayələrin qayəsidir. Yəni, Haqqın rizasını kamil mənada qazana bilmək üçün mənəvi xəstəliklərdən qurtularaq Allah və Rəsulunun əxlaqından pay almaqdır. Yəni nəfsi dinin hökmünə ram etmək, ibadətləri mexaniki hallardan qurtarıb, **ehsan** duyğusuna qovuşmaq, qəlbi mənəvi ucalıqlar istiqamətinə yönləndirib, nəticədə sağlam bir qəlb ilə ilahi rizaya nail olmaqdır.

Bəşər tarixinin dəfələrcə sübut etdiyi bir həqiqətdir ki, insan əsl cövhəri baxımından **«əhsəni-təqvim»** (varlıqların ən şərəflisi) ucalığında ikən, yaradılış qayəsinə yadlaşıb istiqamətdən ayrılanda **«bəlhum-ədall»**, yəni *«heyvandan da aşağı»* olmaq sifətinə belə, məruz qala biləcək bir varlıqdır. Ondakı şərəf və dəyəri təyin edən yeganə ölçü **iman**dır. İmandan sonra isə **əxlaq** gəlir. Peyğəmbərlərin təzkiyə vəzifəsi də insanları bu xüsusiyyətlərlə bəzəyə bilməkdir.

Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- varislərindən olan övliyaullah və onların o feyzli nəbəvi mənbədən öyrəndikləri qəlb elmi də Rəsulullahın bu vəzifəsinə vərasət və vəkalət yerindədir.

Təsəvvüf yolunda gedənlər bütün hal və hərəkətlərində zahiri və batini fəzilətlərin mərkəzi olan Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- tam bir bağlılıq cəhdi içində olurlar. Onları bu yola yönləndirən «mənəviyyat ərləri» də bu yolla Peyğəmbərin -səllallahu əleyhi və səlləm- bu aləmdə icra etmiş olduğu bir xidməti davam etdirmiş olurlar və aşağıdakı hökm içərisində yer tuturlar:

«Gerçək alimlər peyğəmbərlərin varisləridir.» (Əbu Davud, «Elm», 1)

Başqa sözlə, təsəvvüfün məqsədi olan mənəvi kamilliyin müəyyən mənada Peyğəmbərin -səllallahu əleyhi və səlləm- insanlarda gerçəkləşdirmək istədiyi qayənin təzahürü olduğu söylənilə bilər. Məlum olduğu kimi bu qayə də insanları iman əsasında nəfsani və pis xasiyyətlərdən qurtarıb gözəl əxlaqa, yəni mənəvi kamilliyə və gözəl xasiyyətlərə yüksəldə bilməkdir.

Bir hədisi-şərifində uca Allah belə buyurur:

«Bu mənim zatım üçün razı olduğum bir dindir. Bu dinə yaraşan da ancaq səxavət və gözəl əxlaqdır. Bu dinə tabe olmaq neməti sizə lütf edildiyi müddətdə onu bu iki əlamətlə ucaldın.» (Heysəmi, «Məcmauz-Zəvaid», VIII, 20)

Bu baxımdan, təsəvvüf gözəl əxlaqı, yəni mərhəmət, şəfqət, comərdlik, bağışlama, şükür kimi ülvi xislətləri mömində bir ləzzət halına çevirməkdir.

Təsəvvüfdə qayə, istedadı olanları zöhd və təqva yolunda istedadları ölçüsündə inkişaf etdirərək kamil insan, hörmətli insan, özünü və Rəbbini haqqı ilə bilən, Haqqa yaxın olmaq ləzzətini dadmaq, nəfsin düşmənliklərinə müqavimət göstərərək Rəbbə dost olan bir insan olmaq yolunda mərhələlər qət etməyə təşviq etməkdir. Qurani-Kərimdə belə buyurulur:



«Biz əmanəti (Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi) **göylərə, yerə və dağlara təklif etdik. Onlar ona yüklənməkdən** (götürüb özləri ilə daşımaqdan) **qorxub çəkindilər. Onu insan yükləndi. Həqiqətən, o çox zalım, çox cahildir.** (İnsan bu ağır əmanəti götürməklə özünə zülm etdi və cahilliyi üzündən onun çətinliyini, ağır nəticəsini bilmədi.)» (əl-Əhzab, 33/72)

Bu ayədə buyrulduğu kimi, Allahın məqsədi günah içində çabalayan insanı **«zülm»** və **«cəhalət»** sifətindən qurtarıb kamil insan səviyyəsinə qovuşdurmaqdır. «Zülm»ün ziddi «ədl»dir. Yəni bəndənin əməlinin saleh olmasıdır. «Cəhl»in ziddi isə «elm»dir. Gerçək alim ola bilmək üçün zahiri elmə olduğu kimi, batini elmə də sahib olmaq zəruridir.

İmam Qəzali -rəhmətullahi əleyh- belə buyurmuşdur:

«Peyğəmbərlərin varisləri zahir və batin (qəlb) elminə sahib olanlardır.»

İnsanın qurtuluşu nəfsindəki pis sifətlərdən arınmasına, bu yolla əməllərinin saleh əmələ, elminin də şəxsiyyət qazanmasına, yəni irfana çevrilməsinə bağlıdır. Təsəvvüf bunu təmin edə biləcək ədəb və ərkanın dərk olunub yaşanmasını qayəyə çevirir.

Bu qayəni gerçəkləşdirən övliya, yəni uca Allahın özünə dost seçdiyi vəliləri, iman və təqvada kamil olan müstəsna insanlardır. Uca Allah onlar haqqında belə buyurur:

«Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər. O kəslər ki, iman gətirmiş və pis əməllərdən çəkinmişlər.» (Yunus, 10/62-63)

Qəlbdə təzahür edən iman, bəndəni bütün batil inanclardan qurtarıb Haqqa yaxınlaşdırarkən təqva da qəlbi masivadan təmizləyir. Belə bir bəndənin qəlbi artıq ilahi nəzərgaha çevrilir, ilahi hikmət və sirlərin təcəlla etdiyi məkan olur.



O gün nə mal fayda verər, nə də övlad. Ancaq Allaha təmiz bir qəlb ilə gələnlər müstəsna…

(əş-Şüəra, 26/88-89)

E. TƏSƏVVÜFÜN ƏHƏMİYYƏTİ

Təsəvvüf dinin qəlbi həyatı və özəyidir. Bir meyvəni dəyərli və ləzzətli edən içindəki şirəsi kimi…

Bilindiyi kimi, insanın bədən və ruh olmaqla iki yönü var. Bunların hər ikisinin də fitrətə bağlı olan tələbləri mövcuddur. İslam insanın yaradılışından gələn bu təmayülləri inkar etmir. Onları bir gerçəklik olaraq qəbul edir. Ortaya qoyduğu təməl ölçülər çərçivəsində məqbul olan təmayülləri inkişaf etdirməyə, məqbul olmayanları isə ən aşağı bir səviyyəyə endirməyə, ya da məqbul olan bir qayənin əmrinə tabe etməyə çalışır.

İnsan əgər bədəninin tələb və ehtiyacları çərçivəsində bir dünya quraraq ülviliklərə aid olan ruhunun tələblərini yox etməyə çalışarsa, xoşbəxtlik və səadətə qovuşması mümkün olmaz. Din insana maddi olanla mənəvi olan arasında bir tarazlıq proqramı təqdim edir. İnsanı bir tərəfdən mənəvi iqlimə yönləndirərkən, başqa yöndən də maddi aləmin tələblərini də rədd etmir. Din insanın maddi təmayüllərinə mücərrəd bir məna, ülvi bir qayə artırır. İnsan ancaq bədənlə əlaqəli məsələlərə bağlı qalıb, hər şeyi materialist bir baxışla seyr edərsə, ən mücərrəd bir hadisəni belə, cansız qəliblər halında görər. Əslində, təsəvvüfə qarşı olan etirazların təməlində yatan başlıca təmayüllərdən biri də budur.



Həqiqətən, insan idrakı maddi və konkret varlıqlar qədər mənəvi sirlər və mücərrəd həqiqətlərə də meyillidir. Buna görə də, bütün iş insanın maddi varlığı kimi, ruhunun da tətminkar olunub-olunmadığına bağlıdır. Bu gün maddi rifahın zirvəsində yaşayan Qərb mənəvi böhranlar və əxlaqi çöküntülər içində ateizmə sürüklənir. Hətta, xristianlığın mərkəzi olan Romada belə çoxsaylı ateist var. Çünki bu insanlar mənəvi aclıqlarını doyurmaqdan məhrumdurlar. Bunun təməlində isə qəlbin ilahi qaynaqdan qopması dayanır. Çünki insan əli ilə təhrif edilib, bəşəri müdaxilə ilə formaya salınan din ilahi saflığını itirdiyindən artıq qəlb rahatlığına səbəb olacaq mənəvi məzmundan çox uzaqlaşmışdır. Buna görə də, dinin həyəcanını duymayan qəlblər rahatlıq və dincliyə həsrət qalmışlar.

Dinin mənəvi həyacanından məhrum olan bir insan ən möhtəşəm bir mənəvi hadisəyə belə materialist bir gözlə baxıb, məsələnin ancaq şəkil tərəfini görməyə çalışır. Beləliklə, qupquru və içi boşaldılmış bir din anlayışı ortaya çıxır.

Təsəvvüf isə insanı ruha yönəldir. Ruha fərdi istedada uyğun bir rahatlıq yolu açır. Həqiqətən, dinin insan ruhunu rahat edən mənəvi cəbhəsi ortadan qaldırılanda o, ancaq fayda üzərində qurulmuş bəşəri sistemlər səviyyəsinə endirilmiş olur. Belə olan halda, ibadət və qulluq həyatının sadəcə zahiri və dünyəvi mənfəət yönünə dəyər verilib, onun əsl qayəsi olan qəlbi istifadəsindən məhrum qalınır. Məsələn, namaz bir idman, oruc pəhriz, zəkat sosial yardımlaşma kimi mənfəət planında dərk olunaraq, belə maddi faydalarla əsl qayə yaddan çıxmış olur. Ya da qulluq və ibadətlərin yerinə yetirilməsi üçün zəruri olan şərtlərin sırf zahiri qisminə fikir verilir. Bunun isə dinin mahiyyətindən uzaq və qeyri-islami anlayış yaradacağı, insan ruhunun ehtiyaclarına cavab verməyəcəyi və fitri olan din duyğusunu təmin etməyəcəyi aşkardır. Dini vəzifələrə qəlbi bir dərinlik qazandırmağın yolu təsəvvüfə bağlı tərbiyədir. İnsanlar dində dərinliyə qovuşmaq üçün bir sıra axtarışlara yönəlmişlər və nəticədə təsəvvüfə bağlı tərbiyəyə nail olmuşlar.

❁



Bundan başqa varlıqlar ən sadədən ən mükəmmələ doğru bir ardıcıllığa tabedirlər. Bu sırada zirvəni insan təşkil edir. İnsanların da fitri sərmayəyə bağlı olan istedad və iqtidarları çox müxtəlif səviyyələrdə olur. Bu da dünya həyatında ictimai ahəngin təmin edilməsi üçün zəruridir.

Uca Allah ilahi muradına uyğun olaraq insanları zahiri istedadları kimi, mənəvi istedadları baxımından da müxtəlif səviyyələrdə yaratmışdır. O, bəndələrindən güclərinin çatacağından artığını istəmədiyi kimi, verdiyi istedad ölçüsündə də onlara məsuliyyət yükləmişdir.

Rəhməti qəzəbindən çox olan Allah təalanın sonsuz mərhəməti bütün yaradılmışlara aiddir. Buna görə də, uca Allah bütün insanlığın yerinə yetirməyə borclu olduğu dini təklifləri təqdir və təyin edərkən ən aşağı səviyyəni əsas götürmüşdür. Yəni ən aciz fərdin belə, gücünün çatacağı bir səviyyə ilə kifayətlənmişdir. Ancaq hər kəsə aid vəzifələrdən daha çoxunu yerinə yetirməyə fitri baxımından qüdrəti, həvəsi və istedadı olan kimsələrə mənəvi inkişaf qapısını bağlamaq ilahi ədalətə zidd olacağından beləliklə üçün də ehtiyacları istiqamətində bir yolun var olması təbii və zəruridir. Yəni bu şəri vəzifələrə əlavə olaraq bir də qəlb aləmində ucalmaq istedadı olan möminlərə zöhd, təqva və ehsan ilə məsafə qət etməyi təmin edəcək bir yolun açıq tutulmasından ibarətdir. Bu yol isə bilindiyi kimi **təsəvvüf**dür. Bu gerçəklər də təsəvvüfün vacibliyinin əqli və dini sənədləridir.

❁

Qəlbin tətminkar olması, yəni dinclik, rahatlıq və səadəti tapması mənəvi baxımdan yüksəldiyi səviyyəyə bağlıdır. Buna görə də, bəndənin mənəvi bir tərbiyədən keçməsi zəruridir. Çünki qəlbin elm və hikmətlə dolması dinin yüksək həqiqətlərini bilməsi və bəndənin mənəvi təkamülü ancaq bir sıra əməllər nəticəsində mümkün ola bilər.

Belə ki, bəşəriyyətə nümunə olaraq göndərilən peyğəmbərlər belə, vəhy almazdan öncə bir hazırlıq mərhələsindən keçirilmişlər.



Çünki qəlbin incə mənəvi təcəllaları ala bilməsi üçün pisliklərdən arınması, həssaslıq qazanması və müəyyən bir səviyyəyə çatması zəruridir. Rəsulullah -səllallahu əleyhi və səlləm- hələ peyğəmbərlik vəzifəsi verilməmişdən əvvəl Hira mağarasında etiqafa[13] çəkilərdi. Musa -əleyhissalam-, uca Allahla mükaliməsindən əvvəl Turi-Sinada qırx gün bir növ riyazətə girmişdir. Yusif -əleyhissalam- Misirə sultan olmazdan öncə on iki il zindanda qaldı. Orada çətinlik, əziyyət, mübarizə və məşəqqətin bütün mərhələlərindən keçirildi. Beləliklə, mübarək qəlbi Allahdan başqa bütün şeylərdən və əlaqələrdən tamamilə təmizləndi.

Rəsulullah -səllallahu əleyhi və səlləm- Meraca çıxmazdan öncə «İnşirah» surəsinin sirrinə agah oldu. Köksü açılaraq mübarək qəlbi yuyuldu. Elm və hikmətin ruhaniyyəti ilə dolduruldu. Çünki o meracda qeyri-adi hadisələrlə qarşılaşacaq, bəşəri əngəllərlə görülməsi mümkün olmayacaq ilahi sirləri və bir sıra başqa incə mənzərələri seyr edəcəkdi.

Halbuki, Rəsulullah -səllallahu əleyhi və səlləm- indiyədək olmuş və olacaq bütün insanların ən təmiz qəlblisi idi. Bunu kafirlər də qəbul edirdilər. Buna baxmayaraq, aləmlərin Rəbbinin səltənəti və ilahi sirləri ona göstəriləcəyi üçün yenidən mənəvi bir əməliyyatdan keçirildi. *«Şəqqi-Sədr»*[14] hadisəsi baş verdi. Elə bu da mənəvi həyatın önəmini ifadə edir. İsmət, yəni günah etməmək sifəti qazanmış olan peyğəmbərlər belə, lətif olduqları halda, ilahi hüzura qəbul edilmək üçün bir qəlb təmizliyindən keçirilmişlər.

Allahın seçilmiş bəndələri olan peyğəmbərlər belə qəlb təmizliyindən keçirilirsə, başqa insanların qəlbi saflaşmağa nə qədər möhtac olduğu aydın görünər. Çünki bəşəri əngəllərlə dolu olan bir

13. Etiqaf: bir yerə qapanıb, vaxtı ibadətlə keçirtmək. Ayrıca olaraq, Ramazanın son on günündə məsciddən çıxmayaraq özünü ibadətə vermək.

14. Şəqqi-Sədr: Kainatın fəxri olan Peyğəmbərimizə mələklər tərəfindən tətbiq edilmiş və «şərhi-sədr»da deyilən bu əməliyyat ilahi nur və rahatlıqla köksün yarılıb açılması və genişlənməsidir. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- ilk dəfə uşaqlıqda, sonra da Meraca çıxmazdan öncə iki dəfə şərhi-sədrə nail olmuşdur. Mübarək ayədə Peyğəmbərimizə tətbiq edilən bu əməliyyatla bağlı belə buyurulur: «Biz Sənin köksünü açıb genişlətmədikmi?» (əl-İnşirah, 94/1).



qəlb ilə Lətif olana (Allaha) yaxınlaşmaq olmaz. Burnu hiss etmək qabiliyyətini itirmiş olan bir şəxs gülün, qərənfilin belə, qoxusunu duymaz. Kirli bir pəncərədən aydın bir mənzərəni seyr etmək mümkün deyil.

Buna görə də, qəlbin mənəvi həssaslığını artıraraq ilahi sirr və hikmətləri ala bilməsi üçün onun pisliklərdən arınması, lətafətə bürünməsi zəruridir. Uca Allah belə buyurur:

«O gün nə mal-dövlət, nə də övlad bir fayda verər! Ancaq sağlam (təmiz, daxilində şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmayan) **bir qəlblə Allahın hüzuruna gələn kimsədən (möminlərdən) başqa!»** (əş-Şuəra, 26/88-89)

Qəlbin sağlam olması isə ancaq mənəvi tərbiyə ilə saflaşmasına bağlıdır.

Dənizin qumsalla birləşdiyi yerdə, qumlar arasında dəzgahdan çıxmış kimi hamar daşlar olur. Əsrlərcə dalğalar tərəfindən döyülə-döyülə hamarlanmış, arınmış, cilalanmış, parlaq olmuş, qranit kimi də sağlamlaşmışdır.

Xam bir brilyant mədəndə kəsilib-biçilmədən, üzərində bir çox bıçaq zərbəsi və usta məharəti olmadan o parlaqlıq və şəffaflığı qazana bilməz. Bir qram qızıl əldə etmək üçün bəlkə bir ton torpağı eləmək lazımdır. Yəni hər varlıq bir növ tərbiyə və incəlmənin nəticəsində qiymət qazanır.

Elə qəlb də bu ayeyi-kərimədə buyurulan «sağlam»lıq keyfiyyətinə qovuşmaq üçün mənəvi tərbiyəyə möhtacdır.

Çünki mənəvi tərbiyə edilməmişdən əvvəl qəlb soyuq dəmir kimidir. Onun arzu olunan şəkildə ola bilməsi üçün ilk növbədə odda qızdırılması, paslarından, kirlərindən arınması, sərtliyini itirib yumşalması və döyülməsi zəruridir. Ancaq bu mərhələlərdən sonra qəlb arzu edilən şəkildə ola bilər. Eyni şəkildə bütün bu əməllər tətbiq edilmədən qəlb kamilliyə qovuşa bilməz. Qəlb kamilliyə qovuşduqdan sonra isə adi gözlə görülməyən, ağılla dərk edilməyən həqiqətlər aləmi bir zövq kimi qavranılır və qəlbən hiss edilir. Bunun üçün qəlbi imkanları təkmilləşdirmək zəruridir.



Məsələn, adi bir insan etdiyi zaman sümüklərinin qırılmasına səbəb olacaq bir hərəkəti uzun məşqlər nəticəsində bir idmançı asanlıqla edə bilir. Bu, vücudun bütün gücünü bir nöqtəyə yönəltməyin nəticəsidir. Bunun kimi, qəlbin də uca Allahın zikri və Peyğəmbərin -səllallahu əleyhi və səlləm- sevgisi ilə dolub güclənməsi vacibdir. Uca Allah ayeyi-kərimədə belə buyurur:

«Möminlər yalnız o kəslərdir ki, Allahın adı çəkiləndə (Onun heybət və əzəmətindən) **ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq öz Rəbbinə təvəkkül edər.»** (əl-Ənfal, 8/2)

Qəlblərin bu hala gəlməsi üçün günahlardan arınması, mənəvi baxımdan kamilləşməsi zəruridir. Çünki günah dolu xam bir qəlbin Allah ilə layiqincə əlaqə qurması mümkün deyil.

Bir orta məktəb şagirdi hüquq fakültəsinin tələbəsinin oxuduğu kitablardan bir şey anlaya bilməz. Çünki zehni hələ o səviyyəyə və kamilliyə çatmamışdır. Hələ neçə illər davam edəcək bir təhsilə möhtacdır. Bunun kimi qəlbin də bir təlim və tərbiyəsi var. Günahlarla dolu, arınmamış bir qəlbin Allaha qovuşmaq yolunun incəliklərini anlaması çox çətindir.

Qulun Allah qatında qəbul olunması daha çox qəlbin inkişafına bağlı olduğundan qəlbin kamilləşməsi üçün bilavasitə bir mənəvi tərbiyəyə ehtiyac var. Bu tərbiyənin adı təsəvvüfdür.

Həqiqətən, bütün iş qəlbə bağlanır və uca Allah ibadət və davranışlarda daha çox qəlbin hansı halda olduğuna önəm verir.

Belə ki, Rəsulullah -səllallahu əleyhi və səlləm- buyurmuşdur:

« Allah təala sizin bədənlərinizə və görünüşlərinizə deyil, ancaq qəlblərinizə baxar.» (Müslim, «Birr», 33)

Məsələn, Allah üçün ibadət və xidmət etmək məqsədi ilə yemək yeyilirsə, bu yemək də ibadət sayılır. Uşağının ruzisini halal yolla qazanmaq üçün çalışan bir insan atdığı hər addımında savab qazanır. Çünki qəlbin əməli olan niyyət xeyirlidir.



Geyim məsələləri də bunun kimidir. Məsələn, sarıq sarımaq sünnədəndir. Ancaq sarıq sarıyan bir şəxs qəlbi həyatını inkişaf etdirməli, şəfqət, mərhəmət kimi əxlaqi vəsflərlə bu sünnəni təmsil etmək ləyaqətinə qovuşmalıdır. Əks halda, sadəcə forma yetərli olmadığı kimi, insanı özünü bəyənməyə də yönəldə bilər.

Həzrət Yunus Əmrə çox gözəl söyləmişdir:

Dərvişlik olsaydı, tac ilə xirqə,
Biz dəxi alardıq otuza, qırxa.

Bundan başqa, İslamda hicab, yəni qadının örtünməsi şərtdir. Ancaq onun formaca örtük olduğu kimi, ruhən də örtünməsi lazımdır. Əgər bədən örtülü, ancaq ruh çılpaq, yəni qafil və cahildirsə, şərtlərin məcbur etdiyi, ya da nəfsin fürsət tapdığı anda hicab götürülər. Bundan başqa, qadının örtünməsinin altında qadınlıq vəzifəsini itirməməsi də lazımdır. Çünki qadına evin nizama salınması və övladlar əmanət edilmişdir. Onun üçün bütün məsələlərdə mənəvi həyat çox önəmlidir. Təbiidir ki, forma da qəlbi həyatla birgə olmalıdır. Bir insan Allahın qoyduğu örtünmə sərhədinin kənarına çıxa bilməz. Ancaq örtünmə də yalnız başına hər şey demək deyil, ilahi əmrlərin yalnız bir bölümüdür.

Məsələn, məscid tikdirmək çox böyük bir savabdır. Ancaq məscid tikdirən şəxsdə qəlbi kamillik yoxdursa, təkəbbür və qürur içində «mən edirəm, mən tikdirirəm», deyə öyünmə və özünü bəyənmə halları varsa, Allah qorusun, onun bu böyük əməyi kiçilər. Çünki «mən» deyəni uca Allah kiçildər, zəlil edər. «Bu sənin lütfündür, ya Rəbb!» deyəni isə uca Allah ucaldar. Onun üçün insanın davranışlarını məqbul edən qəlbi həssaslıqdır.

Ona görə də, hər davranışın bir ibadət vəcdi ilə, hər ibadətin də qəlbi bir riqqət ilə icra edilməsi yolunda qəlbi tərbiyə etmək demək olan təsəvvüfün insan həyatındakı önəmi heç bir zaman inkar edilə bilməz. Həqiqətən, ibadətlərin forma və ruh olmaqla bir-birini tamamlayan iki yönü var. Uca Allah Qurani-Kərimdə ibadətlərin zahiri şərtlərini, rükətlərini bildirmir. Onların hansı mənəvi keyfiyyət

və qəlbi həssaslıqla yerinə yetiriləcəyini bildirir. İbadətlərin forması ilə bağlı tərəfini isə sünnə ilə öyrənə bilirik.

❁

İbadətlərin zahiri hissəsini münafiqlərin başçısı olan Abdullah bin Übey bin Səlul da yerinə yetirirdi. O, Peyğəmbər məscidinə gəlir və Rəsulullahın -səllallahu əleyhi və səlləm- arxasında formaca namaz qılırdı. Yəni ibadətlərin zahiri hissəsini bir münafiq belə yerinə yetirə bilər. Bu da onu göstərir ki, ancaq forma baxımından yerinə yetirilən ibadətlərin Allah yanında heç bir dəyəri yoxdur. İbadətin qəbul olunması forma ilə ruhun birliyinə bağlıdır.

Belə ki, İslamın şərtlərindən namaz, oruc, zəkat və həcc ilə bağlı ayə və hədislər ümumi olaraq araşdırıldığında bu gerçəyi görmək heç də çətin deyil. Bunlardan namaz ibadəti ilə bağlı olaraq bir ayeyi-kərimədə belə buyurulur:

«… Şübhəsiz ki, namaz insanı çirkin və pis əməllərdən çəkindirər…» (əl-Ənkəbut, 29/45)

Ancaq bir şəxs namaz qıldığı halda, pisliklərdən çəkinmirsə, bu o deməkdir ki, o namaz səmimiyyətlə qılınmamışdır.

Qəlbləri səmimiyyətdən məhrum olaraq ancaq forma baxımından namaz qılanlar haqqında uca Allah belə buyurmuşdur:

«Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər.» (əl-Maun, 107/ 4-5)

Başqa bir ayeyi-kərimədə belə buyurulur:

«Həqiqətən, möminlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar**!) O kəslər ki, namazlarında** (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) **müti olub** (Ona) **boyun əyərlər** (Allahın qarşısında kiçilərlər!)» (əl-Muminun,23/ 1-2)

Ayeyi-kərimələrə görə, xilas olan möminlərin xüsusiyyətlərindən biri də namazı təslimiyyət duyğusu ilə qılmalarıdır. Namazın kamil mənada icra edilməsi üçün zahiri və batini bütün şərtlərinin yerinə

yetirilməsi lazımdır. İki insan eyni zaman və məkanda eyni namazı qılar, ancaq bu iki namazın arasında yer ilə göy qədər fərq var.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Bir şəxs namaz qılar, ancaq namazının yarısı, üçdə biri, dörddə biri, beşdə biri, altıda biri, yeddidə biri, səkkizdə biri, doqquzda biri, hətta, ancaq onda biri özü üçün yazılar.» (Əhməd b. Hənbəl, «Müsnəd», IV, 321) Peyğəmbərimizin bu sözü də namazda əməl edilməsi zəruri olan qəlbi keyfiyyətə işarədir.

Uca Allah Qurani-Kərimdə möminlərin əlamətlərini sayarkən belə buyurur:

«Və onlar ki, namazlarına davam edərlər.» (əl-Muminun, 23/9)

Həzrət Mövlana bu ayeyi-kərimə ilə bağlı zahiri mənaya əlavə olaraq:

«Namazdan sonra da namazdakı hallarına davam edərlər» -buyurur və belə əlavə edir:

«Bizə doğru yol göstərən, bizi pisliklərdən çəkindirən namaz gündə beş dəfə qılınır. Halbuki, aşiqlər hər zaman namazdadırlar. Çünki aşiqlərin könüllərindəki eşq və ciyərlərini qovuran o ilahi məhəbbət nə beş vaxta sığışar, nə də beş yüz min vaxtla keçib gedər.»

Könlü qəflətdən oyanmış Haqq aşiqlərinin namazını Yunus Əmrə belə təsvir edir:

Eşq imandır bizə, könül camaat,
Dost üzü qiblədir, daimdir salət!

Gerçəkdən, bir namazın qılınma vaxtı təqribən on-on beş dəqiqədir. Sonra isə qəlbin namazda olduğu kimi qorunması zəruridir. Çünki qorunmayan qəlb qafil olar. Bir zaman sonra pis işlərə, hətta, Allah qorusun, küfrə belə yönələr. Buna görə də insan namazından sonra belə, qəlbini uca Allaha bağlamalı, ondan qafil olmamalıdır.

Qəflət əhli isə namazdan sonrakı vaxtlar bir yana, namazda belə qəlbini səfərbər etməkdən Allahın qarşısında heyrətlə, təslimiyyətlə

boyun əyməkdən məhrumdur. Belə ki, bu məsələni ifadə etmək baxımından aşağıdakı hekayə çox ibrətlidir:

«Kamillik yolu ilə irəliləyən bir dərviş gecə vaxtı məsciddə namaz qılırdı. Yağış yağmağa başladı. Dərvişin könlü namazda bir anlıq evinə yönəldi. O anda içindən bir səs ona belə xəbərdarlıq etdi:

«Ey dərviş! Qıldığın bu namazla bizim üçün bir şey etmiş olmursan! Çünki səndə gözəl olanı (könlünü) evinə göndərdin. Burada isə bədənini saxladın!..»

Bir hədisi-şərifdə belə buyurulur:

«Gecə namazı qılan elə insanlar var ki, onların qıldığı namazdan payları yuxusuz qalmaqdan ibarətdir.» (Əhməd b. Hənbəl, «Müsnəd», II, 373)

Nəticədə, bütün iş yenə də qəlbi kamillik ehtiyacına bağlıdır.

Oruc ibadətində də, vəziyyət namazdan fərqli deyil. Yəni orucun həm zahiri, həm də batini əsaslarına əməl etməklə tutulması zəruridir. Oruc günahları silib-süpürən bir ibadətdir. Rəsulullah -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Kim fəzilətinə inanaraq və əvəzini Allahdan gözləyərək Ramazan orucunu tutarsa, keçmiş günahları bağışlanar.» (Buxari, «Savm», 6)

Orucun qayəsi insanları ac saxlamaq deyil. Uca Allah belə buyurur:

«Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib buyurulduğu kimi, sizə də vacib buyruldu ki, (bunun vasitəsilə pis əməllərdən) **çəkinəsiniz!»** (əl-Bəqərə, 2/183)

Bu ayədən aydın görünür ki, oruc tutmaqda əsas məqsəd təqvaya qovuşmaqdır.

Bu baxımdan oruc, sadəcə mədənin deyil, bütün üzvlərlə birlikdə qəlbin də orucudur. Qəlb, Allahın verdiyi nemətlərin qədrini düşünərək orucun mənəvi dərinliyinə nüfuz etməlidir.

Oruc, insanda mərhəmət, şəfqət kimi duyğuları inkişaf etdirən

mənəvi bir tərbiyədir. Oruc tutan insanda bu duyğu və düşüncələr aşıb-daşmırsa, oruc forma baxımından tutulmuş sayılır. Bu ibadət zamanı dedi-qodu və qeybət etmək onun bərəkətini və savabını yox etmək deməkdir.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Elə oruc tutanlar vardır ki, tutduqları orucdan onlara qalan ancaq aclıq və susuzluqdur.» (Əhməb b. Hənbəl, «Müsnəd», II, 373)

Bu onu göstərir ki, oruc ibadətində də qəlbi və mənəvi həyata ehtiyac var.

Möminin başqasını düşündüyünün göstəricisi olan zəkat ibadətində də qəlbi həssaslığın böyük önəmi var. Uca Allah, Qurani-Kərimdə möminlərin əlamətlərini sayarkən belə buyurur:

«Onların mallarında da dilənçinin və (abrına qısılıb dilənməyən) **yoxsulun haqqı** (payı) **var.»** (əz-Zariyat, 51/19)

Əgər bir möminin mənəvi tərəfi güclüdürsə, malının zəkatını verərkən, sanki, öz malının deyil, möhtacın və məhrumun onun malında olan hissəsini geri qaytarırmış kimi təbii, məmnun və hətta şükür duyğusu içində verərək zəkatın həqiqi fəzilətinə qovuşar. Çünki alan şəxs, verən şəxsin fərz bir ibadətini yerinə yetirməsinə yardım edir. Onun qəza və bəlalardan qorunmasına, axirət nemətlərini qazanmasına yol açır. Kamil bir mömin:

«Şübhəsiz ki, sədəqə möhtac olanın əlinə keçməzdən öncə Allahın (qüdrət) əlinə keçər.» (Təbərani, «Mucəmül-Kəbir», IX, 109)[15] hədisin sirrini anlamaq üçün verdiyi malı, əslində, uca Allahın qüdrət əlinə təslim etdiyini bilərək hərəkət edər. Bu da zəkat ibadətinin kamilliyini təmin edən dərin bir əsasdır.

Təbii ki, bu nəzakət də qəlbi kamilliklə mümkündür. Hətta, böyüklərimiz infaq edərkən infaq etdikləri şeyi gözəl bəzəyərək, bir qutu içərisinə qoyaraq ehtiramla təqdim etmişlər. Çünki infaq öncə Allaha çatacaq, daha sonra möhtac olan bəndəyə təqdim

15. Oxşar rəvayət üçün baxın, Buxari, «Tövhid», 23.

olunacaqdır. Bunlar İslamı qəlbi riqqət və nəzakətlə yaşamağın zərif göstəriciləridir. Uca Allah belə buyurur:

«… Sədəqələri Allah alır…» (ət-Tövbə, 9/104) Uca Allah bu sözü ilə infaq edərkən əməl edilməsi zəruri olan bir ədəb və nəzakətə işarə etmişdir.

Başqa yöndən, bu qəlbi həssaslıqdan məhrum bir şəkildə, «qaşıqla verib sapı ilə gözünü çıxarmaq» formasında insanın incidəcək bir üslubla vermək infaqın savabını öz əli ilə yox etmək deməkdir. Çünki İslam, nadan, özündən razı və kobud bir insan tipini rədd edir. Müsəlman həssas, zərif və incə bir insandır. Bunlar da ancaq qəlbi səviyyəyə bağlıdır.

Bu qəlbi incəliklər həcc ibadətində daha açıq şəkildə özünü göstərir. Həcc zahirən şəkli və bədəni tərəfi əsas olan bir ibadət kimi görünür. Ehram, təvaf, Ərəfatda vəqfə, qurban kəsmək, Müzdəlifəyə getmək və s. Bunlar isə həccin sadəcə forma tərəfidir. Həccin mənəvi yönünə baxanda isə qiyamətin və məhşər gününün xatırlanması, ilahi hesabın düşünülməsi, keçən ömrün hesabatı aydın görünür.

Möminlər məsciddə vəzifə, mövqe, varlı, ya da kasıb fərqinə baxmadan, eyni sırada çiyin-çiyinə namaz qılarlar. Bununla birlikdə, geyimlərinə baxaraq onların ictimai həyatdakı yerini və yaşayış səviyyələrini az-çox anlamaq olar. Lakin həcdə bu belə deyil. Milyonlarla insan sanki ağ bir kəfənə bürünmüş, dünyəvi rütbə və dərəcə fərqləri tamamilə ortadan qalxmışdır. Zəvvarlar qəlbi bir incəliyə, həssaslığa və duyğu zənginliyinə yönlənmişdir. Belə ki, ehramda olarkən bəzi halal şeylər belə yasaq edilmişdir. Məsələn, ot qoparmaq, heyvan öldürmək, ov ovlamaq, hətta, ovçuya ovu göstərmək belə qadağan olunmuşdur. Boş danışıqlar, lazımsız məşğuliyyətlər qadağan edilmiş, beləliklə qəlb həssaslığının yüksək bir səviyyə qazanması hədəf seçilmişdir.

Qurban ibadəti də zahirən konkret bir fəaliyyətlə bağlıdır. Ancaq başqa ibadətlərdə olduğu kimi, qurbanı da məqbul edən, qəlbin əməli niyyətidir. Bu məsələ ilə bağlı ilahi fərman çox açıqdır. Ayeyi-kərimədə belə buyurulur:

«Onların nəəti, nədəqanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır (səmimi qəlbdən etdiyiniz ibadətdir)...» (əl-Həcc, 22/37)

Ayeyi-kərimədən də göründüyü kimi, qurban kəsmədiyi təqdirdə ətrafdakı insanların qınağına tuş gələcəyindən qorxaraq və ya buna bənzər düşüncələrlə qurban kəsənlərin, bu yolla uca Allahın rizasını qazanmaları mümkün deyil.

Belə ki, həzrət Adəmin -səllallahu əleyhi və səlləm- oğullarından Qabilin təqdim etdiyi qurbanın qəbul edilməməsi, bunun yerinə Habilin səmimiyyətlə Allaha təqdim etdiyi qurbanın qəbul olunması bu həqiqətin açıq bir misalıdır.

Bu hadisə Qurani- Kərimdə belə bildirilir:

«(Ey Rəsulum!) **Onlara Adəmin iki oğlunun əhvalatını olduğu kimi söylə. Onlar qurban gətirdikləri zaman birinin qurbanı qəbul edilmiş, o birisininki isə qəbul olunmamışdı.** (Qurbanı qəbul olunmayan Qabil qardaşı Habilə) **demişdir: «Səni mütləq öldürəcəyəm!»** (Habil ona) **belə cavab vermişdir: «Allah yalnız müttəqilərdən** (qurban) **qəbul edər!»** (əl-Maidə, 5/27)

❁

Bütün bunlardan da anlaşıldığı kimi ibadətlərin *«məqbul»*, əməllərin *«saleh»* olması, ancaq qəlbi kamillik və yüksək zəka ilə mümkün olur. Belə olan halda hər şeydən öncə mənəvi tərbiyə ilə qəlbin təsfiyə edilməsinin zəruri olduğu nəticəsi ortaya çıxır.

Ancaq bunun mənasını dərindən anlamaq lazımdır. Çünki mütilik və təqva ilə ibadət etməmək qorxusu ilə və riyakarlıq təhlükəsinə görə, qüsurlu da olsa, yerinə yetirdiyimiz əməlləri tərk etmək, əsla doğru deyil. Yerinə yetirdiyimiz əməlləri tərk etmək deyil, onları mümkün qədər ixlas, təslimiyyət və təqva kimi qəlbi həssaslıqla təkmilləşdirməyə çalışmaq lazımdır. Çünki mənəviyyat yolu çətinliklərlə doludur. Nəfsani təmayüllərlə mübarizə aparmaq lazımdır. Nəticəyə birdən-birə və bəsit bir yolla çatmaq olmaz. Mütilik mənəvi yüksəlişdə bir zirvədir. Zirvəyə yüksəlmək isə addım-

addım olur. Bu yolda həm bəşəri iradədən istifadə etmək, həm də uca Allahın lütf və kərəmini niyaz etmək lazımdır.

Əməllərin keyfiyyətini qəlbin istiqaməti təyin etdiyindən qəlbə kamil bir istiqamət verməyi hədəf seçən təsəvvüfün vacibliyi aydın görünür. Bu baxımdan, uca dinimizi quru bir qaydalar toplusu kimi görmək və onu bu şəkildə təqdim etmək arzusunda olan bəzi qrupların təsəvvüfü rədd etmək yönündəki fəaliyyətləri maraq doğurur və düşündürücüdür.

Xəta, yanlışlıq və istismar hər sahədə olduğu kimi dini elmlərdə də ola bilər. Bunlar əhil olanlar tərəfindən asan bir şəkildə ayır edilə bilir. Ancaq bu xəta və istismarı bilərəkdən, ancaq dinin qəlbi həyatı demək olan təsəvvüf elminə aid olan bir məsələ kimi göstərərək onu rədd və inkar etmək, bəşəri olan zəiflik və qüsurları din, ya da təsəvvüfün mahiyyətinə aid etmək bir məntiqsizliyin göstəricisidir. Yəni nəfsani arzuları üçün təsəvvüfü istismar edənlərin var olması səbəbi ilə başqa bir yöndə həqiqi istiqamət üzrə davam edən təsəvvüf anlayışını da rədd etməyin heç bir məntiqi izahı yoxdur. Bu vəziyyət tibb elmini yanlış məqsədlər üçün istifadə edən şəxslərin olması üzündən o elmdən tamamilə əl çəkməyə bənzəyir. Belə bir anlayış ya qafilliyin, ya da çirkin niyyətli bir düşüncənin məhsuludur.

Təsəvvüfü yaşadığını zənn edən bir sıra ləyaqətsiz, ya da pis niyyətli insanların əməllərinə baxaraq onu anlamaq mümkün deyil. Çünki təsəvvüf hər tərəzinin çəkə biləcəyi bir yük olmadığı kimi, əhli olmayan kimsələrin davranışlarında ortaya çıxan məzmunla işin əsli arasındakı ciddi fərqi insaf və məntiq ölçüləri ilə baxanda səthi bir nəzərlə belə qavramaq olar.

Təsəvvüfü kobud ölçülərlə anlamaq mümkün deyil. Çünki təsəvvüf könül üfüqünə aid bir hadisə olub təməl prinsipi sevgi və məhəbbətdir. Məhəbbətdən qisməti olmayan kimsələrə o nə qədər izah olunsa da, fayda verməz. Bu anasından kor doğulan bir insana rəngləri anlatmaq kimi faydasız bir işdir.

İnsan nə qədər öz iç aləmini düşünməkdən uzaqlaşırsa, o ölçüdə də robot və təqlidçi olmağa yuvarlanır. İçindəki mənəvi aləmə güclü

bir şəkildə yönəlməyən, onu tanımayan və feyzdən məhrum olan bir insan ətrafındakıları yamsılayar. Özünü ümumi axına təslim edər. Bir şəxsiyyət və xarakter qazana bilməz. İlahi vüsala qovuşmaq ancaq könlü sərvət, şöhrət və dünyəvi ehtiraslardan təmizləməklə mümkündür.

❁

Təsəvvüf, əslində, insan elmidir. Aləmdən sıyrılaraq öz ruhunda dərinləşən insan hikmət və həqiqətlər sarayının qapısına çatar. Qurani-Kərimi anlayan və onu gerçək imanın yolu olaraq yaşayanlar həqiqi təsəvvüf ərləridir. Mütəsəvvif içində yaşadığı toplumun dini yaşayışından özünü Allahın qarşısında məsuliyyət daşıyan bir şəxs kimi hiss edən insandır.

Haqq dostlarından həzrət Nəcməddin Kübra tələbələri ilə birlikdə mömin bir şəxsin cənazə mərasimində iştirak edir. Ölüyə təlqin edildiyi zaman həzrət Nəcməddin Kübra gülümsəyir. Tələbələri onun gülümsəməsinə heyrətlənirlər və bunun hikmətini ondan soruşurlar. Həzrət açıqlamaq istəmir. Ancaq tələbələr israr edəndə belə deyir:

«Təlqin verən kimsənin qəlbi qafil, məzara qoyulan ölünün qəlbi isə diri idi. Qafil birinin qəlbən diri olana təlqin etməsinə təəccüb etdim.»

Elm adına təsəvvüfü rədd və inkar etməyə çalışanların halı da müəyyən mənada ölünün diriyə təlqin verməsi qədər gülməli bir vəziyyətdir. Çünki dini həyatın canlı olmasında, gələcək nəsillərə ötürülməsində, xalqın maariflənməsində və İslamın təbliğində tarix boyunca təsəvvüf əhlinin xidmət və çalışmalarındakı uğur gözlər önündədir. Belə ki, keçən əsrin böyük İslam alimlərindən Məhəmməd Həmidullah bu həqiqəti belə ifadə edir:

«Mənim yetişmə tərzim məntiqdir. Hüquqi çalışma və araşdırmalar mənə inandırıcı bir şəkildə izah və isbat edilməyən hər şeyi rədd etdirmişdi. Şübhəsiz ki, mən namaz, oruc kimi islami vəzifələrimi təsəvvüfi səbəblərlə deyil, hüquqi səbəblərlə yerinə yetirirdim. Öz-özümə deyirdim: «Allah mənim Rəbbimdir.

Sahibimdir. O, mənə bunları etməyi əmr buyurmuşdur. Ona görə də etməliyəm. Bundan başqa, haqq və vəzifə bir-birinə bağlıdır. Allah bunları mənim istifadə edə bilməyim üçün əmr etmişdir. Deməli, mən uca Allaha şükür etməyə borcluyam.»

Qərb cəmiyyətində, Paris kimi bir mühitdə yaşamağa başladığım zamandan bəri heyrətlə görürəm ki, xristianların islamı qəbulu, onları İslam dinini qəbul etməyə sövq edən fiqh və kəlam alimlərinin görüşləri deyil, İbn Ərəbi və Mövlana kimi sufilərdir. Bu məsələ ilə bağlı mənim də şəxsi müşahidələrim olmuşdur. İslami bir mövzuda məndən bir izah istənildiyi zaman mənim verdiyim əqli dəlillərə söykənən cavab sual veräni qane etmirdi, ancaq təsəvvüfi izah meyvəsini daha tez verirdi. Bu məsələ ilə bağlı təsir gücümü getdikcə itirdim. İndi inanıram ki, Hülakünün talan edən istilalarından sonra Qazan xan zamanında olduğu kimi, bu gün də ən azından Avropa və Afrikadakı İslama xidmət edəcək olan nə qılınc, nə də ağıldır, ancaq qəlbdir, yəni təsəvvüfdür.

Bu müşahidədən sonra təsəvvüflə bağlı yazılan bəzi əsərləri araşdırmağa başladım. Bu mənim könül gözümü açdı. Anladım ki, həzrət Peyğəmbər zamanındakı təsəvvüf və böyük İslam mütəsəvviflərinin yolu nə kəlmələr üzərində çalışmaq, nə də mənasız işlərlə məşğul olmaqdır. Gerçək iş insan ilə Allah arasındakı ən qısa yolda yürüməkdir. Şəxsiyyətin inkişaf yolunu axtarmaqdır.

İnsan ona verilmiş vəzifələrin səbəblərini axtarır. Mənəvi sahədə maddi izahlar bizi hədəfdən uzaqlaşdırır, yalnız mənəvi izahlar insanları qane edir.[16]

Bu ifadələrdən də anlaşıldığı kimi, Quran və sünnəyə bağlılığı mütləq olan təsəvvüfü rədd etmək, meyvə verən ağaca daş atmaqdır və günahı böyükdür.

Həzrət Mövlana buyurur: *«Əgər burnun ətri duymursa, heç olmasa güldə qəbahət axtarma».*

16. M. Əziz Ləhbabi, «İslam şəxsiyyətçiliyi», tərcümə edən İ. Haqqı Akın , s. 114-115, qeyd, 8. İstanbul, 1972. Bu qeyd Məhəmməd Həmidullahın tərcüməçiyə yazdığı 1967-ci il 27 sentyabr tarixli məktubunun mətnidir. (Müstafa Qara, «Mətnlərlə günümüz təsəvvüf hərəkətləri», s. 542-543)

Təsəvvüfün günümüzdəki əhəmiyyətinin başqa bir yönü də onun insanları islah etmək üçün seçdiyi metod və üsuldur. Şəriət həm axirət, həm də dünya üçün mükafat və cəza ilə insanları istiqamətləndirməyi hədəf seçir. Təsəvvüf isə sevgi, şəfqət və məhəbbəti önə çəkir. Zamanımızda yaşayan insanlar dindən uzaqlaşmağın və ağır günahlar etməyin ruhi böhranı içərisindədirlər. Belələrinə bir islah və qurtuluş imkanı təqdim etmək üçün əfv, anlayışla qarşılamaq və şəfqət yolunun daha asan və daha çox imkanının olduğunu heç kim inkar edə bilməz. Bu baxımdan dövrümüz təsəvvüfi gerçəklər qədər, onun qaydalarının da böyük bir əhəmiyyət daşıdığı bir zamandır. Belə ki, əfv anlayış və şəfqətlə baxanların həm ölkəmizdə, həm də Qərb aləmində mənəvi fəthlərə daha çox imkanlarının olduğu və daha çox uğurlar qazandıqları müşahidə edilir. Ağlın və nəfsin pəncəsində boğulan ruhlara İslamı ilahi bir təsəlli kimi təqdim etmək üçün onlara cəza vermək niyyəti ilə və qəzəblə yanaşmaq yerinə, şəfqət və mərhəmətdən istifadə etmək hər zaman daha bərəkətli bir metoddur.

Bu baxımdan insanların çoxunun ağır günahların qurbanı olmalarının səbəbini sevgisizlikdə görən təsəvvüf bu qaydaya görə, tətbiq etdiyi yollar islamı təbliğ etməyin ən bərəkətli bir metodudur. Çünki insanlar hər zaman Abdulqadir Geylani, Yunus Əmrə, Bəhaəddin Nəqşibənd və Mövlana kimi Haqq dostlarının sevgi qucağını həsrətlə gözləyərlər.

Bu həsrət və məhəbbəti əks etdirməsi baxımından bu misal çox diqqətəlayiqdir:

Bir Mövlana aşiqi olan pakistanlı böyük alim Məhəmməd İqbal Türkiyəyə gələrkən təyyarə türk hava sahəsinə girəndə ayağa qalxmış və bir müddət bu vəziyyətdə gözləmişdir. Yanındakılar ondan soruşmuşlar:

- Niyə belə etdiniz?

O da bu mənalı cavabı vermişdir:

- Bu torpaqlar həzrət Mövlananın qəbrinin olduğu mübarək torpaqdır və bu müqəddəs məkanda yaşayan millət də elə bir millətdir

ki, illər boyu islamı qorumuşdur. Əgər türk milləti olmasa idi, İslam Ərəb yarmadasında həbsdə qalardı. Buna görə də, könlümdə həzrət Mövlanaya və onun nəcib millətinə qarşı sonsuz bir hörmət və ehtiram var. Buna görə də, onlara hörmət edərək ayağa qalxdım».

Belə bir məhəbbət, heyranlıq və ehtiram dolu bu misal da göstərir ki, təsəvvüfün yetişdirdiyi böyük şəxsiyyətlərdən biri olan həzrət Mövlananın vəfatından yüzilliklər keçəndən sonra belə, Iqbal kimi böyük bir mütəfəkirə təsir edib onun şəxsiyyətinin formalaşmasında rol oynaması və könül aləmini eşq, vəcd, məhəbbət, incəlik, lətafət, mərifət kimi uca xüsusiyyətlərlə bəzəməsi həm də təsəvvüfün zəruriliyini göstərən müstəsna bir həqiqətdir. Belə ki, Şərqdən Qərbədək çox könülləri qovuşduran, kamilləşdirən və bir zirvəyə çevirən həqiqət!.. Əsrləri və nəsilləri əhatə edən bir həqiqət!..





Təsəvvüf zahiri elm və həqiqətləri öyrənib könül iqlimində daha uzaqlara çata bilməkdir.





F. TƏSƏVVÜFÜN DİGƏR ELMLƏRLƏ MÜNASİBƏTİ

İnsan fitrətindəki maraq duyğusunun, yəni araşdırma marağının təbii bir nəticəsi olaraq ortaya çıxan başqa elmlər öz sahələrinə aid gerçəklərlə bağlı qanunları, qaydaları araşdırır. Ancaq bu araşdırma zamanı istər-istəməz özlərinin məşğul olduqları sahəni daha ümumi bir perspektivlə və *«hikmət»* baxımından öyrənən təsəvvüflə bir çox ortaq nöqtələr tapırlar. Bu keyfiyyət ancaq dini elmlərə məxsus olmayıb, kainatın fiziki xüsusiyyətlərini araşdıran dəqiq elmlərə, sağlam fitrətin məhsulu olan gözəl sənətlərə və müəyyən mənada fəlsəfəyə də aiddir. Buna görə də, təsəvvüfün başqa elmlərlə münasibətini qısaca beş maddədə təhlil edə bilərik.

1. TƏSƏVVÜF və DİGƏR İSLAMİ ELMLƏR

Dinin qayəsi insana yaradıcısını tanıtmaq, Ona qarşı vəzifə və borclarını bildirmək, bəşəri münasibətləri ilahi murad istiqamətində ədalət, həqiqət, sülh və əmin-amanlıq üzərində qurmaqdır. İslam təsəvvüfünün hədəfi də mömini bütün bu məsələləri gerçəkləşdirə biləcək mənəvi keyfiyyətə və ucalığa çatdırmaqdır. Dinin zahiri ehka-



mına mənəvi bir bünövrə olaraq, o ehkamın ortaya qoyduğu əməlləri bu mənəvi məzmuna əməl etməklə kamil bir biçimdə icra etməyi təmin etməkdir. Bu baxımdan, təsəvvüfün başqa islami elmlərlə sıx bağlı olan bir xüsusiyyətinin varlığı təbiidir. Bu gerçəyi daha açıq bir surətdə görə bilmək üçün bu elmlər arasındakı münasibətlərə qısaca toxunmaq faydalı olar.

a. Təsəvvüf və Kəlam

Kəlam elmi mövzu baxımından hər şeydən öncə uca Allahın zat və sifətlərindən, onun birliyindən bəhs edir. Əqaidlə bağlı olduğu üçün islami elmlərin ən önəmlisi - elmlərin əşrəfi olaraq qəbul edilir. Kəlam elminin bir qayəsi haqqı sübut və batili rədd etməkdir. Bu yolla İslama qarşı yönəldilən tənqid və etirazlara cavab vermək və İslamın haqq din olduğuna insanları inandırmaq da onun hədəflərindən biridir.

Təsəvvüfün hədəfi isə kəmal sifətlərə sahib olan, nöqsan sifətlərdən uzaq, uca Allahı qəlbən də tanıya bilmək, yəni mərifətullahdır.

Kəlam elmi əqaidlə bağlı çətinlikləri kitab və sünnəni əsas götürərək ağıl vasitəsilə həll etməyə çalışır. Bu baxımdan kəlam alimləri filosoflara bənzəsələr də, ağlı *«nəss»*dən ayrı düşünmədiklərindən ondan bəlli bir ölçüdə istifadə edirlər. Ancaq səbəblər aləmində əsərdən müəssirə doğru bir idrak yolu ilə gedən ağıl insanı həqiqətə çatdırmaqda təkbaşına yetərli deyil. Qəlbi görüş və duyğulara da zərurət dərəcəsində ehtiyac hiss edilir.

Təsəvvüf ağlın gücünün çatmadığı məsələlərdə qəlbi yardıma çağıraraq təslimiyyətlə yola davam edir. Belə məsələləri Quran və sünnəyə uyğun olan kəşf və ilham kimi qəlbdəki təcəllalarla aydınlığa qovuşdurur. Bu yolla insana sonsuz bir rahatlıq verir.

Qəlbi fəaliyyətə olan ehtiyac kəlam alimlərinə görə də qəbul edilən bir keyfiyyətdir. Bu baxımdan yuxarıda da qeyd etdiyimiz kimi kəlam alimlərini çox zaman ağılı əsas götürən filosoflar kimi dəyərləndirmək doğru deyil. Onların arasında təsəvvüfi görüşləri əməli

baxımdan və ya fikir olaraq mənimsəyib icra edən bir çox şəxslərin olduğu da tarixi bir gerçəkdir.

Başqa yöndən, ağıl və mühakimə deyilən zehni fəaliyyət maddi aləmdən alınmış olan təsirlərdən istifadə edir. Oxşarlıqlar, ya da ziddiyyətlər hesabına həqiqətə çatmağa çalışır. Ancaq belə təsirlərə sahib olmayan metafizik varlıqlara və onların həqiqətinə ağıl yolu ilə çatmaq mümkün deyil. Buna görə də, ağıl insanın həqiqətə çatmaq meyilini bəlli bir ölçüdə təmin edə bilər. Bu ehtiyacın tam ödənməsi üçün ağılın tükəndiyi nöqtələrdən daha uzaq məsafələrə qəlbdəki ilham və insanın qəlbinə doğan fikirlərlə çatmaq olar. Təsəvvüf insana ağlın tükəndiyi nöqtələrdə dayanmayıb, daha irəliyə getmək imkanını verir. Bunu Allahı zikr etmək hesabına qəlbi ilham almağa əlverişli bir səviyyəyə çatdırmaqla təmin etmək olar. Elə buna görə də, təsəvvüf kəlam elminin başda uca Allahın zat və sifətləri olmaqla mövzu seçdiyi bütün sahələrdə ağlın imkansızlığını ortadan qaldıraraq, bu elmi fəaliyyəti insanı təmin edəcək bir kamilliyə çatdırır.

❁

Təsəvvüf kəlam elminin hamıya aid olan həqiqətlərini hər fərdin istedadı fərqli olduğundan ən istedadlı bir şəxsin belə təmin olacağı səviyyəyə çatdırır. Fərdin inancını sağlamlaşdıraraq Allahın varlığı və birliyi məsələsində onu tam inandığı bir biliyə qovuşdurur.

Bu gerçəyi kəlamçı bir təfsir alimi kimi şöhrət tapmış olan Fəxrəddin Razi belə ifadə edir:

«Kəlamçıların metodları həqiqətə çatmaq üçün kifayət etməsə də, təsəvvüfə keçmək üçün atılması zəruri olan, son dərəcə önəmli bir ilk addımdır. Kamil dərəcə insanın zahirə bağlı olan şəriət elmlərindən, hadisələrin həqiqətlərini bilməyə əsaslanan batini elmlərə keçməsi ilə əldə edilir».[17]

17. Məhəmməd Saleh əz-Zərkan, «Fahruddin ər-Razi və Arauhul-Kəlamiyyə vəl-Fəlsəfiyyə», s. 76. (Muhammməd Abid əl-Cabiri, «Ərəb-İslam Kültürünün Ağıl Yapısı», s. 626)

b. Təsəvvüf və Təfsir

Təfsir elmi bəşəriyyətə hidayət rəhbəri olaraq təqdim edilən Qurani-Kərimin dərin mənalarını ortaya çıxarıb izah etməyi mövzu seçən bir elmdir. Bu yönü ilə təfsir insanın daxili aləmini təmizləyib onu kamala çatdırmağı hədəf seçən təsəvvüf üçün istədiyi dərman və reseptləri təqdim edən bir əczaçı vəzifəsini icra edir. Çünki təsəvvüf elmi öyrəndiyi mövzuları araşdırarkən, özünə xas olan üsulları müəyyən edərkən təməl qaynaq olaraq Qurani-Kərimi əsas götürmüşdür.

Qurani-Kərim həyatın hər sahəsində Allaha qarşı məsuliyyət duyğusu ilə davranmağı, ibadətləri səmimiyyətlə yerinə yetirməyi, Allahı çox zikr edib davamlı olaraq ilahi nəzarət altında olmağı əmr edərək qulun Allahın rizasını qazanmasını istəyir. Bütün bu məsələlər təsəvvüf əhlinin üzərində həssaslıqla durduğu önəmli məsələlərdir. Allaha qəlbən qovuşmağı başlıca hədəf seçən təsəvvüf əhli Ona qovuşduracaq yeganə yolun Qurani-Kərimi olduğunu görmüşlər və onlar bu kitabı həyatlarının məhvərinə çevirmişlər. Onun üzərində dərindən düşünülməsi əmr edilən Quran ayələrini, səhər vaxtlarının virdləri halına gətirmişlər. Onun incə mənalarını qavraya bilmək üçün qəlblərini saflaşdırmağın zəruriliyinə inanmışlar.

Həzrət Məhəmmədin -səllallahu əleyhi və səlləm- əxlaqı Qurani-Kərimdən ibarət olduğu üçün əxlaqi baxımdan təkmilləşməyi hədəf seçən Allah dostları bütün əməl və davranışlarını ilahi kəlamın məzmununa görə nizamlamağa çalışmışlar. Onlar hər zaman canlı bir Quran olmağa cəhd göstərmişlər.

❁

Təsəvvüf əhlinin başlıca bərəkət və ilham qaynağı Qurani-Kərim olduğundan mütəsəvviflər təfsir elminə də böyük xidmətlər göstərmişlər. Ayələrin işarə etdiyi mənalarını ortaya çıxararaq bu elmin zənginləşdirilməsinə yardım etmişlər. Demək olar ki, bu baxımdan təsəvvüf böyükləri Quranın təfsirində onun kəlmələrindəki dərin dəryaya baş vuraraq çoxlu hikmətlər əldə etməyə çalışmışlar və bunun önəminin üzərində durmuşlar. Bu baxımdan ilahi kəlamın

məzmununu adi kəlmələrdəki darlığa həbs etmək doğru deyil. Ancaq bu fəaliyyətin də sistemsiz və qaydasız olduğu düşünülməməlidir. Bir ayəyə işari məna (daxili məna) verərkən bu üç məsələyə əməl edilmişdir:

1. İşari mənanın zahiri məna ilə təzad təşkil etməməsi

2. Verilən mənanın Kitab və sünnənin məzmununda olması

3. İşari məna üçün kəlmələrin əvvəlinin və sonunun uyğunluğu, bir-birini tamamlaması

Qurani-Kərimi işari tərzdə təfsir edən əsərlərə misal olaraq Əbu Əbdürrəhman Süləminin *«Həqaiqüt-Təfsir»*ni, Kuşeyrinin *«Lətaifül-İşarat»*ını və Bursalı İsmayıl Haqqının *«Ruhul-Bəyan»* adlı təfsirlərini göstərmək olar. Bunlardan başqa Mövlana və İbni-Ərəbi kimi mütəsəvviflərin əsərləri də bir çox ayeyi-kərimənin işari təfsiri ilə zənginləşmişdir.

Bu bir həqiqətdir ki, uca Allahın *«kəlam»* sifətinin təcəllasi olan Qurani-Kərimə hansı baxımdan məna verilirsə-verilsin, onun ifadə etdiyi mənaları bütövlükdə sözə çevirmək mümkün deyil. Uca Allahın zat və sifətlərini tam olaraq qavramaq mümkün olmadığı kimi, Qurani-Kərimi də bütün mahiyyəti ilə anlamaq mümkün deyil. Ondan öyrəndiklərimiz ancaq dəryadan bir dərya kimidir. Bu ayeyi-kərimədə bu gerçəklik çox gözəl ifadə edilmişdir:

«Əgər yer üzündəki bütün ağaclar qələm olsaydı, dəryaya da arxasından daha yeddi dərya (mürəkkəb) **qatılsaydı, yenə də Allahın sözləri** (yazılmaqla) **tükənməzdi. Həqiqətən, Allah yenilməz qüdrət sahibi, hikmət sahibidir»**. (Loğman, 31/27)

Uca Allah öz kəlimələrinin məzmununu müəyyən mənada bəşəri sözlərin mahiyyətindən üstün etməklə və onların sonsuzluğunu ifadə edərək sanki daha dərin mənalar əldə etməyi istəmişdir. Belə ki, Qurani-Kərimin bu xüsusiyyətini Rəsulullah -səllallahu əleyhi və səlləm- bu sözləri ilə ifadə etmişdir:

«... Quranın hər an ortaya çıxan daha öncə kəşf edilməmiş mənaları tükənməz...». (Tirmizi, «Fəzailül-Quran», 14)



Həzrət Mövlana da bu mövzu ilə bağlı belə deyir: *«Qurani-Kərimin zahirini bir qab mürəkkəblə yazmaq mümkündür. Ehtiva etdiyi bütün sirrləri ifadə etməyə isə sahilsiz dəryalar mürəkkəb, yer üzündəki bütün ağaclar da qələm olsa, yenə də kifayət etməz».*

Yuxarıda göstərilən ayə və hədisdəki ifadələr Qurani-Kərimin kainatdakı bütün həqiqətlərin kamil bir mənzuməsi olduğunu və bütün gerçəklərin onda bir nüvə halında olduğunu göstərir. Çünki bu cür bilgi və gerçəklərin Qurani-Kərimdəki mövcudluğu açıq olsa idi, onda sonsuz bir həcmdə olması zəruri olardı. Bu baxımdan bəzi gerçəklər açıq, ancaq bir çoxu da örtülü şəkildədir. Belə sirli gerçəkləri tapıb ortaya çıxartmaq ancaq elmdə səlahiyyət sahibi olmaqla, yəni incəlikləri qavramaq istedadı olan bir sağlam ağıl və qəlb gözü ilə mümkündür.

Bu məqsədə bağlı olaraq təfsir üsuluna dair kitablarda müfəssirlərin bilməsi zəruri olan elmlər sayılarkən uca Allahın seçilmiş bəndələrinə bəxş etdiyi *«vəhbi elm»*in (Allah vergisi) də adı çəkilir. Bu elm də ancaq uca Allaha təqva, yaradılmışlara qarşı təvazökarlıq, dünyaya münasibətdə zöhd və nəfsə münasibətdə amansız bir mücadilə ilə əldə edilə bilər. Belə ki, mübarək bir hədisdə bu gerçək ifadə edilmişdir: *«Bilgi ilə əməl edənlərə Allah bilmədiklərini də öyrədir.»* (Əbu Nuaym, «Hilyə», X, 15)

Deməli, Allahın ayələrini anlamağa mane olan təkəbbür, özündən razılıq, həsəd, dünya sevgisi kimi mənəvi xəstəliklər təsəvvüfi tərbiyə, təmizlənmə ilə müalicə edilmədikcə Quranın sirlərindən pay almaq mümkün deyil. Ayeyi-kərimədə bu açıq ifadə edilmişdir:

«Yer üzündə haqsız yerə (layiq olmadıqları halda) **təkəbbürlük edənləri ayələrimi anlamaqdan yayındıracağam** (mane olacağam…)**.»** (əl-Əraf, 7/146)

Deməli, mənəvi tərbiyə və təmizlənmə ilə qəlb aləmində inkişaf əldə edilməsə, Quran, kainat və insanın sirrlərini bilmək mümkün deyil.



c. Təsəvvüf və Hədis-Siyər

Hədis elmi Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- söz, iş, anlatma, yaradılış, ya da gözəl əxlaqı ilə bağlı xüsusiyyətlərini öyrənən bir elmdir.

Başqa islami elmlər kimi, təsəvvüfün də Qurani-Kərimdən sonra üz tutduğu ikinci qaynaq hədisdir. Rəsulullahın -səllallahu əleyhi və səlləm- həyatını, maddi-mənəvi bütün yönləri ilə ortaya qoyacaq bir zənginliyə sahib olan hədislərin təsəvvüfün biçimlənib inkişaf etməsində üzərinə götürdüyü vəzifənin böyüklüyünü anlamaq heç də çətin deyil. Çünki zöhd, günah və haramdan qaçmaq, ehsan, təvazökarlıq, başqasını düşünmə, səbir, şükür, təvəkkül kimi mənəvi mövzularla bağlı hədislər təsəvvüf əhlinin anlayış və düşüncələrinin təməllərini təşkil edir. Təsəvvüfü yaxından maraqlandıran bu və bunun kimi mövzularda kainatın fəxri olan Peyğəmbərimizin ruhani həyatı ilə bağlı sözləri, davranışları təsəvvüflə hədis elmini birbirinə yaxınlaşdırmış və onları ayrılmaz bir bütövə çevirmişdir. Təsəvvüfün təfsir elmi ilə münasibətində ifadə edildiyi kimi Allaha yaxınlaşmağı və qovuşmağı başlıca hədəf seçən təsəvvüf əhli Allaha sevginin Rəsulullahın -səllallahu əleyhi və səlləm- yolu ilə getməklə gerçəkləşəcəyini çox yaxşı bildiklərindən bütün məsələlərdə ona tabe olmağı özlərinə şüar seçmişlər və bu nöqtədə də sünnənin zəngin xəzinəsindən bol-bol istifadə etmişlər.

Kainatın Fəxrinin yolu ilə getmək ancaq onu sevməklə və onu hər şeydən əziz tutmaqla mümkündür. Qurani-Kərimdə həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- itaət və onu sevməyin zəruriliyi ilə bağlı bir çox ayeyi-kərimə var. Bu sevgi və itaətin necə olması ilə bağlı yaşanmış, təcrübədə olan çoxsaylı örnəklərə isə ancaq hədis və siyər qaynaqlarından istifadə etməklə çatmaq mümkündür.

İstər ibadət və münasibət, istərsə də əxlaqla bağlı məsələlərdə olsun qəlbi dərinlik, riqqət, nəzakət və zəriflik baxımından zirvə şəxsiyyət şübhəsiz ki, Rəsulullahdır -səllallahu əleyhi və səlləm-. Siyər və hədis kitablarımız bunu təsdiq edən saysız-hesabsız örnəklərlə doludur.

Həzrət Peyğəmbərdən -səllallahu əleyhi və səlləm- bizə qədər fasiləsiz olaraq ötürülmüş olanlar sadəcə onun mübarək sözləri deyil. Eyni şəkildə, Onun bütün davranışları da ən incə detallarınadək əshabi-kiram tərəfindən nəql edilmiş və bu yolla da bizə gəlib çatmışdır. Alimlərin, şeyxlərin, saleh əməl sahiblərinin davranışlarında özünü göstərən kamil hərəkətlər də rəhmət Peyğəmbərinin şəxsiyyətindən öyrənilərək tətbiq edilmiş məsələlərdir. Başlıca olaraq uca Allah Kainatın Fəxri olan Peyğəmbərimizi bəşəri davranışlar baxımından insanlığa mükəmməl bir örnək olaraq təqdim etmiş olduğundan Onu imkan ölçüsündə təqlid etmək hər möminin üzərində olan bir borc və vəzifədir. Şübhəsiz ki, bu vəzifəni ləyaqətlə icra edənlər, onu olduğu kimi anlayıb həyatına tətbiq edənlər seçilmiş insanlardır. Təsəvvüfi ədəbin gerçəkləşməsində bir ölçü olan bu davranışların ən kamil məzmunu Allah dostlarının tələqinlərinin təsiri olaraq yaranır. Bu da sufi anlayışın sünnə və hədisin mahiyyəti ilə birbaşa və mükəmməl bağlılığının ifadəsidir.

Buna görə də, təsəvvüf əhlinin fəzilətli həyatındakı gözəlliklər həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- şəxsiyyətindən bir inikas olub yazılı hədis mətnlərini tamamlayan bir ünsürdür. Təsəvvüf əhlinin hal və davranışları hədisi-şəriflərin əməli olaraq şərh olunmasıdır. Başqa bir ifadə ilə hədislərin nəzəriyyədən əmələ ötürülməsi yolu ilə sonrakı müxtəlif zaman və məkanlarda davam etdirilməsidir.

Təsəvvüfün bir elm olaraq ortaya çıxmasından öncə istər hədisçilər, istərsə də mütəsəvviflər tərəfindən qələmə alınan *«Kitabüz-Zöhd»*lər, hədis elmi ilə təsəvvüf arasında bir körpü olmuşdur.

Başqa yöndən, təsəvvüf əhli hədisi-şəriflərə işari mənalar verib, onu izah etməklə hədis elmini zənginləşdirmişlər. Hətta, bəzi sufilər, hədisçilər tərəfindən mənimsənməsə də, həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- ruhaniyyətindən kəşf yolu ilə də hədis alına biləcəyini qəbul etmişlər.

Tarixdə Hakim-Tirmizi və Kəlabazi kimi sufi olaraq məşhur olduğu halda hədisə dair əsər yazan təsəvvüf böyükləri var. Eyni

şəkildə, hədisçi olaraq şöhrət tapdığı halda, hədis elminin ölçüləri ilə birgə sufilərin metodlarını da mənimsəyən hədis alimləri də olmuşdur.

Məsələn, hədis elmində ən böyük nüfuz sahibi olaraq qəbul edilən və Qurani-Kərimdən sonra ən etibarlı qaynaq sayılan hədis kitabının sahibi İmam Buxari-rəhmətullahi əleyh- rəvayət etdiyi hər bir hədisi-şərif üçün iki rükət istixarə namazı qılmış və bunun nəticəsində hədisin sağlam olduğuna qəlbən də inandıqdan sonra onu əsərinə daxil etmişdir.[18]

Böyük hədis alimi Əhməd bin Hənbəlin də üç hədisi-şərifi birbaşa Rəsulullahdan -səllallahu əleyhi və səlləm- yuxusunda aldığı rəvayət edilir.[19]

d. Təsəvvüf və Fiqh

Lüğətdə fiqh bilmək, anlamaq, incəlikləri qavramaq mənasında izah edilmişdir. İslamın ilk zamanlarında dini və dünyəvi bütün məsələlərlə bağlı bilinməsi zəruri olan hər şey fiqh adı altında öyrənilir, bu elmlə məşğul olanlara da fəqih, yəni alim deyilirdi. Bu mənada fiqh kəlməsi varlığın və hadisələrin hikmətini bilən, insanın dini məsələlərdə lehinə və əleyhinə olan məsələləri bir-birindən seçməyə imkanı olan bir şəxsi ifadə edirdi. Belə ki, böyük İmam həzrət Əbu Hənifə fiqhi belə dəyərləndirmişdir: *«Fiqh, insanın dini baxımdan lehində və əleyhində olmasını bilməsidir».*

İnsanın səadət və fəlakətinə ən çox təsir edən *«Rəbbini doğru olaraq bilmək»* bu elmin ən önəmli hissəsini təşkil edirdi. Buna görə də, böyük İmamın etiqadla bağlı məsələlər haqqında ortaya qoyduğu və tələbələri tərəfindən qeyd olunaraq zamanımızadək çatdırılmış mətnə *«ən böyük fiqh»* mənasında olan *«fiqhi-əkbər»* deyilmişdir. Başlanğıcda vəziyyət belə idi, ancaq sonra bu məsələ ilə bağlı elmi

18. Baxın, İbni-Həcər, «Hedyüs-Sarı Mukaddimetü Fethil-Barı», s. 489; İbni-Həcər, «Tağlıkut-Talik», V, 421.

19. Baxın, «Məcmuul-Hədis», vərəq 110^{a} -112^{b}.



fəaliyyətin genişlənməsi ilə fəqihlər etiqadi və əxlaqi hökmləri fiqhdən kənarda saxlayaraq onu, ancaq əməli və qəzai hökmlərə həsr etmişlər. Bu gün də fiqh deyiləndə anlaşılan məna budur.

Təsəvvüf də insanın lehində və əleyhində olanları həm zahiri, həm də batini yönü ilə bilib, ondan doğan nəticələrə əməl etməsidir. Fiqh, dəstəmaz, təmizlik, namaz, oruc kimi əməli məsələlərin zahiri doğruluq şərtlərini bildirir. Təsəvvüf isə qəlbi təmizləyib, qulu mərifətə və qəlbi həssaslığa hazırlayır. Bu, o ibadətin kamilliyi üçün ən əlverişli şəraitin hazırlanması deməkdir. Bu baxımdan təsəvvüfə fiqh elminin ruhani əsası və mahiyyəti mənasında «fiqhi-batin», ya da «fiqhi-vicdani» də deyilmişdir.

❁

Heç şübhəsiz, fiqh elminin qayəsi əməlin mükəmməl, yəni Allah yanında məqbul olacaq bir tərzdə yerinə yetirilməsini təmin etməkdir. Belə bir mükəmməllik isə ancaq təsəvvüfi düşüncələrin təmin etdiyi ruhi kamilliklə gerçəkləşə biləcəyindən bu iki elmi bir-birinin, sanki tamamlayıcısı saymaq doğru olar. Çünki təsəvvüfün əsl hədəflərindən biri də insanı dinin metafizik, yəni ruhani həqiqətlərində zirvəyə ucaltmaqdır, onun bütün əməl və davranışlarını kamilləşdirməkdir. Əməllərin zahiri şərtlərini izah və müəyyən edən fiqh elminin əsl qayəsi ancaq təsəvvüfi kamilliklə gerçəkləşə bilər. Məsələn, namazın təmizlik və qaydalara uyğun icra edilməsi kimi zahiri şərtlərinin necə yerinə yetiriləcəyi fiqh elmində göstərilir. Hətta, niyyət kimi mənəvi bir şərtin lüzumu da izah olunur. Zahiri şərtlərinə əməl edilmiş olan ibadətin qəbul olunması üçün qəlbin riya, həsəd kimi xəstəliklərdən azad olması zəruri olduğu halda, fiqh bu mənəvi sahəni nizamlamaq işi ilə məşğul olmamışdır. Bu məkanı da təsəvvüf nizamlayaraq ibadətin zahiri qədər batini şərtlərini də gerçəkləşdirməyə çalışır. Çünki fiqh elmi hamı üçün olan şəriətin bir şöbəsi olmaqla ancaq zahiri məsələlərlə məşğul olur. İnsanların şəriət məsələləri ilə bağlı borcu da zahirdən ibarətdir. Ancaq ibadətləri qəbul, ya da rədd etmək haqqı yalnız özünə aid olan uca Allah zahir qədər batini də mütləq bir şəkildə bilir və batini təmizlik də Onun qulda görmək istədiyi təməl xüsusiyyətlərdən biridir.



Fəqihlər namaz, oruc, həcc kimi ibadətlərlə nikah, talaq, ticarət, qisas kimi məsələləri incələyib hökmlərini müəyyən edərkən, mütəsəvviflər bunların zöhd, təqva və ixlas kimi mənəvi güclə icra edilməsinə önəm vermişlər. Eyni şəkildə, Qurani-Kərim də ibadətlərin mənəvi yönünə daha çox üstünlük verir, qulu zöhd və təqvaya yönləndirir.

Təbii ki, bu, təsəvvüf əhlinin fiqhə önəm vermədiyi, ya da fiqh elmi ilə yetərincə maraqlanmadığı mənasına gəlmir. Əksinə, Qəzali, İbn Ərəbi, Mövlana Cəlaləddin Rumi, İmam Rəbbani və Xalid Bağdadi kimi bir çox mütəsəvviflər zahiri elmlərdə də səlahiyyət sahibi olan böyük alim və fəqihdirlər.

Dinin zahiri ehkamının məzmununu da, təsəvvüfi gerçəklikləri də layiqincə qavraya bilməmiş bir sıra şəxslər fiqh və sufi düşüncə arasında bir ayrılıq olduğunu iddia etmiş və nəticədə, yersiz ixtilaflar yaranmışdır. Ancaq təsəvvüfün kamilləri ilə gerçək fəqihlər arasında hər hansı bir anlaşılmazlıq demək olar ki, olmamışdır. İxtilaf və münaqişə özünü alim zənn edən cahillərlə, özünün kamil olduğunu düşünən xam sofular arasındadır.

Onun (Quranın) **haqq olduğu onlara** (müşriklərə) **bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə** (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında)**, həm də onların öz daxilində göstərəcəyik.** (Ey Peyğəmbər!) **Məgər Rəbbinin hər şeyə şahid olması** (sənin dediklərinin doğruluğuna) **kifayət deyilmi?!**
(əl-Fussilət, 41/53)

2. TƏSƏVVÜF VƏ FƏNNİ ELMLƏR

Fənni elmlər, yəni laboratoriya müşahidələri ilə sübut olunan elmlərin ilk baxışda təsəvvüflə heç bir əlaqəsinin olmadığı görünsə də, gerçək belə deyil.

Varlıqların və hadisələrin yaranmasındakı hikmət və keyfiyyətlə bağlı axtarışlar aparan hər bir elmi fəaliyyətin yolu sonda metafizik bir nöqtəyə çatır. Bu da fənni elmlərin təsəvvüflə qovuşduğu nöqtədir. Çünki təsəvvüf, kainatdakı bütün varlıqların sirr və hikmətlərini, yəni metafizik yönlərini ümumi olaraq təhlil, təsbit və müəyyən edir. İnsanı, Allah və ondan başqa olan bütün yaradılmışlarla daha dəqiq, bütün maraqlara cavab verə biləcək bir səviyyədə olan bir elmə, yəni həqiqət iqliminə qovuşdurur.

Fənni elmlərin maraq sahəsi maddi aləm, yəni təbii şeylərdir. Bu elmlərin varlıqlarda aşkar etdiyi gerçəklər onlara ilahi təyinatla yerləşdirilmiş olan xüsusiyyətlərdir. Buna görə də, maddi aləmə aid olan hər kəşf Yaradıcının qüdrət və əzəmətinə bir dəlil olaraq ortaya çıxır. Bu nöqtədən çıxış edərək fənni elmlərin müəyyən mənada ilahi sənət xariqələrinə çatmağa kömək etdiyini söyləmək mümkündür.

Başqa yöndən İslam, maddəni belə, metafizik yönləri ilə birlikdə incələyir. Bu gün müasir fənni elmlər də bu izaha yaxınlaşmışdır. Çünki maddi aləmdəki hər kəşf yeni bilinməyənlərə qapı açır və insan düşüncəsini sonsuz bir məsafəyə yönəldir. Maddi aləmin təsiri ilə olan bu fəaliyyətin sonunda da bir sıra metafizik hadisələr üzə çıxır. Xüsusilə, müasir dövrümüzdə bu elmlərin ağıllara heyrət, heyranlıq verən nöqtələrə çatması, nəticədə, fiziki gerçəklərin metafiziklə üz-üzə gəlməsinə səbəb olmuşdur. Buna görə də, həqiqəti yalnız maddəyə aid etmiş olan köhnə materialist düşüncələr iflasa uğramışdır. Keçən əsrin tabularından biri olan Lavoisier (Lavuazye) qanunu yıxılmış və fəlsəfə ilə din arasındakı əsas ixtilaf mövzularından biri olan «maddənin qədim olduğu» görüşü artıq tarixin zibilliyinə atılmışdır. Maddənin əsl deyil, zahiri bir surət və sıxılmış bir enerci olduğu həqiqəti atomun parçalanması ilə isbat edilmiş və bu yolla da maddə deyilən şeyin enercinin müəyyən bir qəlibdə saxlanmasından ibarət olduğu ortaya çıxmışdır. Bundan başqa, xüsusilə fizika, kimya, biologiya və astronomiyadakı yeni kəşflər dinin və Qurani-Kərimin ülvi mahiyyətini təsdiq edən çoxsaylı yeni dəlillərin ortaya çıxmasına yol açmışdır.

İnsanın genləri üzərində aparılan araşdırmalar, ortaya çıxan yeni kəşflər hər insanın özünə aid olan bir şifrəsi olduğu gerçəyini ortaya çıxarmışdır. Bu və buna bənzər kəşflər ilahi sənətin ağılları aciz qoyan müasir parlaq misallarıdır. Elə buna görə də, XIX əsrdə Ziya Paşa yazırdı:

Sübhane men tehayyera fi sunihil-ukul,
Subhane men bi-kudretihi yacizul-fuhul.

(Sənəti qarşısında ağılların heyrətə düşdüyü, qüdrəti ilə ən üstün alimləri belə aciz qoyan uca Allahı təsbih edirəm)

Çünki müsəlmanlar ilahi sənətin xariqələri qarşısındakı bu acizliyi hər zaman bilmişlər. Hətta, bu fənni kəşflərin, qiyamətə yaxın möcüzələr səviyyəsinə qədər arta biləcəyini də müsəlmanlar bilirdilər. Lakin hər yeni kəşf insanın acizliyi ilə ilahi sənətin əzəmətini və ondakı hikmətlərin sonsuzluğunu qəbul etmək istiqamətində vicdani bir zərurət doğurmuşdur. Ziya Paşa deyir:



İdraki- meali bu küçük akla gerekmez,
Zira bu terazu bu kadar sıkleti çekmez.

❁

Təsəvvüf sirləri dərk etmək məqsədi ilə kainatı təhlil etdiyinə görə fiziki gerçəklərin sonunda metafizik xüsusiyyətlərlə üz-üzə gələn dəqiq elmlərin təsəvvüflə hər hansı bir şəkildə əlaqəsinin olduğunu qəbul etmək bir zərurətdir.

Qurani-Kərim bir çox ayələrində diqqəti kainatdakı sirr və hikmətlərə yönəltmişdir:

«Onun (Quranın) **haqq olduğu onlara** (müşriklərə) **bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə** (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında), **həm də onların öz daxilində göstərəcəyik.** (Ey Peyğəmbər!) **Məgər Rəbbinin hər şeyə şahid olması** (sənin dediklərinin doğruluğuna) **kifayət deyilmi?!».** (əl-Fussilət, 41/53)

Ayədəki «üfüqlər» kəlməsi ilə insanı əhatə edən xarici aləmə, *«öz nəfsləri»* ifadəsi ilə də insanın bioloji və ruhi varlığındakı hikmət, ibrət və sirlərə işarə edilmişdir.

Uca Allah bəndələrinin qəflətini yox edərək onları oyatmaq üçün ayeyi-kərimədə belə buyurur:

«Məgər onlar (peyğəmbərləri yalançı hesab edən kafirlər) **yer üzündə gəzib-dolaşmırlarmı ki, düşünən qəlbləri** (bəsirət gözləri)**, eşidən qulaqları olsun? Həqiqətən, gözlər kor olmaz, ancaq sinələrdəki ürəklər** (qəlb gözü) **kor olar.** (Kafirlər keçmiş ümmətlərin başına gələn müsibətləri zahiri gözləri ilə görsələr də, qəlb gözü ilə görüb onlardan heç bir ibrət almazlar)**».** (əl-Həcc, 22/46)

«Biz göyləri, yeri və onlar arasında olanları oyun-oyuncaq (əyləncə) yaratmadıq! Biz onları yalnız haqq olaraq yaratdıq, ancaq onların (Məkkə müşriklərinin) çoxu (bunu) bilməz!» (əd-Duxan, 44/38-39)



Uca Allah bu qüdrət əlamətlərini ifadə etdikdən sonra insanları da başqa varlıqlar kimi müəyyən bir məqsəd üçün yaratmış olduğunu bir başqa ayeyi-kərimədə belə buyurur:

«Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) **hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?»** (əl-Muminun, 23/115)

Mikrodan-makroya qədər hər zərrədə ilahi sənətin gözəl təzahürləri var. Təsəvvüf mərkəzi insan olmaqla bu həqiqətlərin külli və ümumi bir məzmunda qavranılmasını təmin edən bir görüşdür. Təsəvvüf bu görüşün yaranması üçün başda Allahın zikri olmaq üzrə riyazət və başqa mənəvi tapşırıqlarla insanı kamilləşdirən əməli və elmi bir sistemdir.

Quran ayələrində fiziki aləmin hikmətlərinə diqqəti yönəldən və təkid üçün də bunları sual vasitəsi ilə ortaya qoyan bəyanlar var. Bu keyfiyyət dəqiq elmlərin fəaliyyət sahəsini maraqlandırmaqla yanaşı, əşyanın yalnız fiziki xüsusiyyətləri ilə bağlı deyil. Buna görə də hikməti qavramaq məsələsində bu elmlərin səlahiyyət və imkanlarından daha böyük bir qüdrətə ehtiyac var. Bu da mənəvi çalışmalarla qəlbin həssaslıq imkanlarını inkişaf etdirməyi zəruri edir. Təsəvvüf insana bu imkan və səlahiyyəti bəxş edən sonsuz bir üfüqdür.

Bilindiyi kimi, mütəsəvviflərin gözündə dünya Allahın adlarının təcəlla məkanıdır. Kainatda olan hər bir varlıq böyük bir sənət xariqəsidir. Gündəlik həyatda bir çoxumuzun qarşılaşdığı və heç düşünmədən keçib getdiyi hadisələr haqqında cildlərlə kitab yazılsa, yenə də azdır. Məsələn, bir tut yarpağını ceyran yeyəndə ətir, ipəkqurdu yeyəndə isə ipək olur. Bunun kimi kainat hər gün müşahidə etdiyimiz, ancaq üzərində layiqincə durub düşünmədiyimiz xariqələrlə doludur. Cücərən otlara, açan çiçəklərə, meyvə verən ağaclara ibrət gözü ilə baxılsa və bunların torpaqdan rəng, qoxu, ləzzət kimi xüsusiyyətləri necə əldə edib çıxara bildikləri düşünülsə, ilahi qüdrətin belə təzahürləri qarşısında heyrətdə qalmamaq mümkün olmaz. Qısacası, mütəsəvviflər kainatda heç

bir şeyin boş yerə yaradılmadığını sadəcə zahirləri ilə deyil, bütün qəlbləri ilə də qəbul etmişlər.

Quran və insan kimi, kainat da uca Allahın ilahi adlarının tərkibləri ilə meydana gəlmişdir. Bütün dəqiq elmlər müəyyən mənada bu tərkiblərin kainatdakı təzahürləri olan adətullahın hikmətlərini axtarmağa borcludur. Bu borcu yerinə yetirəndə isə mütləq bir acizliklə qarşılaşacaqlar. Ancaq mənəvi baxımdan inkişaf edərək bir növ qəlbən qəbul edicilərə malik olanlar sirr və hikmətləri qavrama məsələsində dəqiq elmlərin çatdığı mərhələlərdən daha irəliyə gedə bilər. Elə bu nöqtələrdən başlayaraq dəqiq elmlərlə təsəvvüf birləşir və eyniləşir.

Türk ədəbiyyatını ortaya çıxaran, inkişaf etdirən və kamilləşdirən təsəvvüfdür.

(Nihad Sami Banarlı)

3. TƏSƏVVÜF VƏ ƏDƏBİYYAT

Əsl fəaliyyət sahəsi könül aləmi olan təsəvvüf mənəvi hiss, fikir və həyəcanları bəlli bir üslub və ədəb daxilində sətirlərə, misralara, yəni sözə də çevirmişdir. Beləliklə, fərd olaraq hər bir kəsə birbaşa qovuşa bilmədiyi halda, sətirlər vasitəsi ilə çatmışdır, sadəcə könüllərə deyil, dərinlik və məzmun genişliyinə sahib olduğuna görə də ədəbiyyata böyük bir zənginlik vermişdir. Ədəbiyyat insanın dünyagörüşünü genişləndirən, könlünü dərinləşdirən, düşüncə və duyğu incəliyi ilə idraka zəriflik verən bir bədii sənət olmaq xüsusiyyəti ilə müstəsna bir zirvəyə çatmışdır.

Ədəbiyyat tariximizdə «Təkyə ədəbiyyatı» adı altında özünü göstərən sadə, axıcı, bəzən lirik, bəzən də didaktik növdə olan ədəbi nümunələrə dini-təsəvvüfi dəyərlər də güclü təsir etmişdir. Allahın birliyindən bəhs edən tövhid, Ona yalvarışları ifadə edən münacat və həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- duyulan eşq, məhəbbət və həssaslığı mövzu seçən nət kimi ədəbi növlər xalqın mənəviyyatının gücləndirilməsində, dərdli və yorğun könüllərin təsəlli tapmasında, günah, üsyan və qəflətdən uzaqlaşdırılmasında, cəmiyyətdə sevgi, qardaşlıq, sülh və əmin-amanlığın təmin edilməsində çox faydalı bir vəzifə yerinə yetirmişdir.

Yunus Əmrənin Monqol istilaları zamanından başlayıb zamanımızadək yeddi əsrdir davam edən şeirləri xalqın maariflənmə və təsəlli qaynaqlarından biri olmuşdur. Yəni bu cür ədəbi məhsullar verən mütəsəvviflər dini həyəcanın geniş xalq kütlələrinə ötürülməsində, mənəvi dəyərlərin canlı tutulmasında əhəmiyyətli işlər görmüşlər. Xoca Əhməd Yəsəvi, Hacı Bayram Vəli, Əşrəfoğlu Rumi və Əziz Mahmud Hüdayi -qaddəsəllahu əsrarahum- bunların məşhurlarıdır.

Divan ədəbiyyatı isə daha çox əruz vəzni ilə yazan və sənətkarlıq üslubu ilə diqqəti çəkən şairlərin əsərlərindən meydana çıxmışdır. Nəsr növündə də əsərlər yazılmış olmasına baxmayaraq, mənzum əsərlərin çoxluğu səbəbi ilə divan ədəbiyyatı deyə bilinən bu mərhələdə də təsəvvüfə bağlı olan düşüncə və dərinliyin böyük təsiri olmuşdur. Şeirlərin kəlmə xəzinəsində olan bir çox rəmzlərlə təsəvvüfi incəliklər yüksək bir zövqə müraciət edir və bu müraciət gözəl bir bədii biçimdə ifadə edilmişdir.

Bundan başqa ədəbi növlərin hər birində fərqli bir mənəvi həyəcanın təzahürü hakimdir. Tövhidlərdə coşqun bir ruh halının sonsuz ilahi üfüqlərə doğru qanad çalmasının səsi duyulur. Ələxsus, mütəsəvvif şairlərin yazdığı tövhidlər könülü tamam başqa bir iman səmasına aparır.

Nətlər həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- duyulan sevgi və məhəbbətin misralara tökülmüş yanıq tərənnümləridir. Könüllərdə həkk olunan məhəbbət tablolarıdır. Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- duyulan dərin sevgi və arzunu **Füzuli** nətində belə ifadə etmişdir:

Xaki-payinə yetən der ömürlərdir muttasıl,
Başını daşdan-daşa urub gəzər avarə su…

«(O rəhmət peyğəmbərinin») ayağının (dəydiyi, gəzib dolaşdığı, mübarək) torpağına qovuşum deyə, sular heç dayanmadan ömürlər boyu başlarını daşdan-daşa vuraraq avara bir şəkildə axmaqdadır.»

Mövlana, Füzuli, Naili, Nəbi, Nahifi, Şeyx Qalib və bir çox başqa şairlər əsərlərini təsəvvüfi qaynaqdan bəslənən bir könül iqlimində yazmışlar.

Bütün bunlar onu göstərir ki, təsəvvüfi dərinlik və məzmunun ədəbiyyata ayrıca bir zənginlik və kamillik bəxş etdiyi bir gerçəklikdir. Şeir və ədəbiyyat zövqünün geniş xalq kütlələrinə aşılanmasında belə böyük bir məzmundan bəslənməsinin də ciddi təsiri var. Belə ki, ədəbiyyat tarixçisi Nihat Sami Banarlı yazmışdır:

«Türk ədəbiyyatını ortaya çıxaran, inkişaf etdirən və kamilləşdirən təsəvvüfdür.»

Bu həqiqətin zirvədə olduğu dönəmlərdə dünyəvi bir şair olaraq tanınan Nədimin belə nət yazması və hətta, Tofiq Fikrət kimi bir şairin də tövhid yazaraq məşhur olması bu gerçəyin diqqətəlayiq bir göstəricisidir.

Digər tərəfdən, ədəbiyyatın və xüsusilə şeirin insanları bəlli bir duyğu və düşüncəyə yönəltməsi məqsədi ilə istifadə olunmasının təqdirəlayiq bir keyfiyyət olduğu bu hədisi-şərifdə də ifadə edilmişdir. Həzrət Aişə (r.a), həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- bu sahəyə verdiyi önəmi belə ifadə etmişdir:

«Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- şair Hassan bin Sabit üçün məsciddə ayrıca bir minbər qoydurdu. Hassan onun üzərinə çıxıb oturar və həzrət Peyğəmbəri -səllallahu əleyhi və səlləm- həcv edənlərə şeirlə cavab verərdi. Rəsulullah da -səllallahu əleyhi və səlləm- onun haqqında belə buyurmuşdur:

«Uca Allah, Hassanı o, Allah Rəsulunu müdafiə etdiyi müddətdə Ruhul-Qüdslə dəstəkləyər.» (Tirmizi, «Ədəb», 70; Əbu Davud, «Ədəb», 87)

Burada Cəbrailin şeir söyləyən Hassan ilə birgə olması, Haqq yolunda olan şairə uca Allah tərəfindən ilham gəlməsi və ilahi dəstəyə nail olması deməkdir.



Xəmiri təsəvvüflə yoğrulan, yəni qəlbi riqqət, həssaslıq və dərinlik iqlimində icra edilən sənətlər tariximizdə göründüyü kimi mədəniyyətlərin meydana çıxmasına təsir etmişdir.




4. TƏSƏVVÜF VƏ GÖZƏL SƏNƏTLƏR

Sənət qəlbi dərinlik və duyğuların əşyaya təsir etməsi və əyaniləşməsidir. Hansı sahədə olursa-olsun, bütün sənətlər təməldə insan ruhundakı düşüncə və duyğuların bir təzahüründən ibarətdir. Sənətdə incəlik və zəriflik mənəvi dərinliklə bir paralellik təşkil edir. Xəmiri təsəvvüflə yoğrulan, yəni qəlbi riqqət, həssaslıq və dərinlik iqlimində icra edilən sənətlər tariximizdə göründüyü kimi mədəniyyətlərin meydana çıxmasına təsir etmişdir. Həqiqətən, mədəniyyətdə zirvə nöqtələrə yüksələn millətlər ancaq siyasət, iqtisadiyyat və hərbi sahələrdə deyil, elm və sənətdə də böyük mövqe qazanmışlar. Tariximiz bu inkişafın zənginlikləri ilə doludur. Gözəl sənətlərin bir çox sahəsində özünü göstərən təsəvvüfi motivlərin hamısını ifadə etməyə nə gücümüz, nə də imkanımız var. Burada ancaq bir sıra sahələrdə təsəvvüfün təsiri ilə meydana çıxan inkişafa qısaca toxunacağıq.

a. Musiqi

İslam insan təbiətində olan özəllikləri rədd etmir. Onları kamil bir biçimdə nizamlayır. Bir çox bədii sənət kimi musiqi də insan oğlundakı fitri xüsusiyyətlərin təzahür şəkillərindən biridir. Təbiətinə



görə onu da başqa xüsusiyyətlər kimi nə tamamilə rədd, nə də olduğu kimi qəbul etmək olar.

Mütəsəvviflər musiqinin insan üzərindəki inkaredilməz təsirini islami ədəb və əxlaq çərçivəsində xeyir işlərə xidmət etmək üçün istifadə etmişlər. Musiqiyə ülvi bir hədəf seçərək nəfsə deyil, ruha qida ola biləcək bir məzmun və xüsusiyyət qazandırmışlar. Bu xüsusiyyətə uyğun olanları təşviq etmiş, uyğun olmayanları isə rədd etmişlər.

Həqiqətən, xeyir işlərə yönləndirildiyi zaman musiqi gah ahəngli səslərlə, gah da onunla birlikdə söylənilən qəzəl, qəsidə, ilahi kimi mənzumələrin yardımı ilə mənəvi coşğunluğu artırmaq və ülviyyət ilə həzz nəticəsində də fərdləri mənəvi baxımdan ucaltmaqda müstəsna bir rol oynayır. Dinləyənin ibadət və təslimiyyətə rəğbətini artıran, ona Allahı xatırladan, insanı günahlardan çəkindirməyə yönəldən, qəlbə saf duyğular və bərəkətlər bəxş edən musiqi halındakı bəstə və nəğmələri vaxt və məqamın ehtiyacına əməl etmək şərti ilə dinləmək, əlbəttə, faydasız deyil. Bu baxımdan, uzun əsrlər boyu mütəsəvvif zümrələr başqa vasitələrlə birgə, bu sənət yolundan da istifadə etmişlər və bu yolla musiqinin «təsəvvüf musiqisi» adı ilə bilinən bir bölməsinin ortaya çıxmasına səbəb olmuşlar.

Bu mövzuda musiqinin mənəvi bir tərbiyə vasitəsi olaraq istifadə edilməsinə tamamilə qarşı olanlar olduğu kimi, bunun müəyyən bir şəkildə istifadə edilə biləcəyini irəli sürənlər də var. İkinci fikri müdafiə edənlər simli musiqi vasitələrini rədd etmiş, zərb alətlərindən ahəngli səs çıxaranları isə məqbul saymışlar. Onlar bu fikirlərini həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- savaşlarda əsgərlərin qəhrəmanlıq duyğularını coşduraraq onları cəsarətləndirmək üçün istifadə etmiş olduğu oxşar vasitələrlə əsaslandırmışlar.

Bu məsələdəki münaqişələrdən uzaq duraraq gözəl və ahəngli səsə şəri ölçülər daxilində icazə verildiyini və hətta, bunun gözəl olduğunu söyləməklə kifayətlənək. Gözəl səsli müəzzinlərin camaatın məscidə daha çox rəğbət göstərməsinə yol açdığı hər kəsə bəllidir. Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- azan oxumaq üçün

üstünlük verdiyi göstərici də çoxmənalıdır. Məscidə dəvət şəklinin necə olacağı ilə bağlı məsləhətlərin davam etdiyi günlərdə doğru yuxu yolu ilə müjdələnən azanı öyrənərək Məhəmməd ümmətinə ilk dəfə xəbər vermək şərəfi Abdullah bin Zeyd və həzrət Ömərə nəsib olmuşdur. Belə olduğu halda, həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- azanı onlara deyil, Bilala (r.a) oxudaraq, eyni zamanda bizlərə də bir ölçü vermişdir. Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- məşhur müəzzini Bilal Həbəşinin ömrü boyu bu vəzifəni icra etməsinin səbəbinin səsinin gur və gözəl olmasından qaynaqlandığını söyləmək yanlış olmaz.

Təbiidir ki, musiqinin də başqa vasitələr kimi yalnız xeyir işlər üçün əlverişli olduğunu söyləmək mümkün deyil. Müasir dövrdə musiqi daha çox insanın nəfsani arzularını təhrik etmək üçün istifadə olunur. Ancaq bununla birgə, musiqini tamamilə rədd etmək də doğru deyil.

Belə ki, Bahaəddin Nəqşibəndin -qüddisə-sirruh- müridlərindən biri olan Xoca Misafir belə deyir:

«Həzrət Xoca Bahaəddinə xidmət edirdim və musiqiyə çox həvəsim var idi. Bir gün müridlərdən bir neçəsi ilə bir yerə toplaşaraq bir neçə musiqi alətləri tapıb Xocanın məclislərində musiqi ifa etməyi və bu yolla da onun bu mövzu ilə bağlı düşüncələrini öyrənməyə çalışdıq. Düşündüyümüz kimi də etdik. O möhtərəm Xoca bizə mane olmadı və belə buyurdu:

- Biz özümüz bu işi etmirik, ancaq inkar da etmirik!»

Şah Nəqşibəndin -qüddisə sirruh- bu sözü nəfsi məsələlərə yönəlməsi mümkün və şübhəsiz olan bu sahədə ehtiyatlı olmağın zəruriliyinə işarə edir. Belə ki, yaşadığımız dövrdə bu tarazlığı qoruya bilməyən bir sıra şəxslərin təsəvvüfün mahiyyətindən uzaqlaşaraq məsələnin ancaq musiqidən ibarət olduğunu önə çəkdikləri müşahidə olunur. Bu məsələ də çox diqqətli olmağın önəmli olduğunu göstərir.

b. Memarlıq

Gözəl sənətlər içində ən çox özünü göstərən sahələrdən biri də, şübhəsiz ki, memarlıqdır. Memarlıq riyaziyyat və həndəsənin qəlbi həssaslıqlarla təyin edilən yüksək bir zövqlə birləşdirilməsidir. Başqa bir ifadə ilə zehni və ruhi istedadların daş və taxta kimi maddələrdə təcəssüm etdirilməsidir. Təsəvvüfün memarlığa çox dəyərlər qazandırdığı bəllidir. Məsələn, İslam təsəvvüfünün dərinliyi ilə Süleymaniyə məscidi və bütün məscid kompleksi təhlil ediləndə orada İslam ruhunun əks olunduğu, göz qamaşdıran bir ehtişamla mənəviyyatın yerləşdirildiyi və bir sıra təsəvvüfi motivlərin burada mahir bir üslubla simvollaşdırıldığı aydın bir şəkildə görünür. Məsələn, mərkəzi qübbə ilə ətrafına elə mükəmməl bir şəkil verilmişdir ki, bina yerdən başlayaraq tədricən yüksəlir və sonda o əzəmətli «Vahid»lə örtülür. Mərkəzi qübbənin yarım və başqa qübbələrlə uyğunluğu isə təsəvvüfdəki: «Birlikdə çoxluq, çoxluqda birlik» sirrinin möhtəşəm bir təzahürüdür.

Həqiqətən, Süleymaniyə bir çox baxımdan möhtəşəm bir «Vahid»ə, yəni tək olan Allaha çatmaq, sonra da o Vahiddən təkrar təfərruata (çoxluğa) dönüşü simvollaşdıran, müstəsna gözəlliyi olan bir məna və incəliyi özündə əks etdirən əsərdir.

Bundan başqa, böyük qübbə həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- rəmzidir. Belə ki, qübbə, mübarək məsciddə oxunan Qurani-Kərim, edilən duaları möminlərə əks etdirməklə, eynən Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- uca Mövladan aldığı əmrləri ümmətinə çatdırmaq və təbliğ vəzifəsini təmsil edir. Bu misilsiz abidə qeyri-adi fəaliyyətin və diqqətin düha ilə birləşməsi nəticəsində ortaya çıxmışdır. Bu abidədə sabitlik, rahatlıq və əsalət mükəmməl bir şəkildə birləşdirilmişdir. Onların ahəngi göz oxşayan bir mənzərə yaratmışdır. Səmaya doğru yüksələn minarələri ilə mübarək məscid, sanki əllərini qaldırmış və Allaha dua və yalvarış vəziyyətindədir.

Məscidin içindəki havanın insanın əhval-ruhiyyəsinə təsiri də çox güclüdür. Bu abidələşən məbədi ziyarətə gələn fərqli dinlərə mənsub olan bir çox insan belə, qarşılaşdığı mənəvi havanın cazibəsinə təslim olub öz ruhlarına rahatlıq bəxş edirlər.

Rəvayətə görə, həzrət Peyğəmbərdən -səllallahu əleyhi və səlləm- yuxuda alınan bir əmrlə tikilməyə başlanan bu əzəmətli məbəd və onun kimi başqa məbədlər memarlıq baxımından qiyamətədək qalması niyyəti ilə imkan daxilində sağlam və möhkəm bir biçimdə tikilmişdir.

Başqa yöndən təsəvvüfün müəssisələri demək olan dərgahlar, təkyələr, zaviyələr, asitanələr, imarətxanalar, İslam şəhərlərinin mənzərəsinə fərqli bir görünüş və məna vermişdir. Bunlar kimi irili-xırdalı bir çox əsər daha çox fanilik, sadəlik, heçlik və təvazökarlıq duyğularının əks etdiyi, çox təmtəraqlı olmayan, təsəvvüfi ədəb və ərkanın yerinə yetirilməsinə imkan verən məkanlar kimi tikilmişdir. Bu əsərlər də maddəyə yerləşdirilmiş məna və mənəviyyat təzahürləri ilə doludur.

c. Xəttatlıq

Gözəl xətt Qurani-Kərim hərflərini estetik ölçülərə uyğun olaraq ən gözəl bir şəkildə və sənət əsəri olaraq yazmaq deməkdir. Yəni gözəl xətt Qurani-Kərimi ona layiq olan bir gözəllikdə yazmaq vəcd və şövqündən doğmuş müstəsna bir sənətdir.

Tarix boyunca təkyə və dərgahların xətt sənətinin inkişafında önəmli bir yeri olmuşdur. Xətt sənəti təsəvvüf ocaqlarından hər zaman təşviq və himayə görmüş, bir çox gözəl xətt ustadlarının yetişdiyi və tələbələrini yetişdirdikləri bir tərbiyə yuvası olmuşdur. Çünki xəttin gözəl bir naxış kimi ruhu oxşayan biçimdə, təbii, fitri bir incəliklə yazıla bilməsi, arınmış, duru bir qəlbə sahib olmağı zəruri edir. Bundan başqa, xətt sənətində kamilləşmək üçün böyük səbir və təslimiyyət lazımdır. Bu çox ağır zəhmət tələb edən bir işdir. Örnək alına biləcək kamil bir ustada ehtiyac var. Bütün bu xüsusiyyətlərinə görə xətt sənətinin təsəvvüflə ortaqlığı var.

Məsələn, kobud və əsəbi bir insan bir qaralama yazsa, o qaralama mişar dişlərini xatırladar. Bu yazı qırıq cizgilər halında görünər. Çünki ruh iztirab içindədir. Təsəvvüfün qayəsi də nəfsləri islah etmək

və ruhu nəfsin çirkinliklərindən qurtararaq ona incəlik, həssaslıq və rahatlıq bəxş etməkdir. Xəttatların ruh aləmi də bu rahatlıq, sakitlik və həssaslığa möhtacdır. Çünki gözəl xətt sadəcə yazı yazmaq sənəti deyil, eyni zamanda ruhları incəldib zərifləşdirən və könlü mənəvi duyğularla bəsləyən bir sənətdir.

Həqiqətən də, mənəvi güc sənətdə hər zaman böyük dühaların yetişməsinə zəmin hazırlamışdır. Xətt sənətinin örnək ustadları olan Şeyx Həmidullah, Qara Hisari, Yəsarizadə, Mustafa Rakım və bir çox başqaları təsəvvüfi mühitlərin mənəvi tərbiyəsi ilə kamilləşərək yetişmiş şəxsiyyətlərdir. Təsəvvüfi mənəviyyatla yoğrulmuş sənətkarların mənəvi dərinlik və fədakarlığını göstərən bu misal çox ibrətlidir:

Süleymaniyə məscidinin qübbə xətlərini yazmaq vəzifəsi xəttat Qara Hisariyə verilmişdir. Qara Hisari xətləri məscidin ehtişamına yaraşan bir şəkildə tamamlamaq üçün qeyri-adi bir güclə fəaliyyətə başladı. Belə ki, son cizginin axırıncı düzəlişini bitirdiyi an gözlərinin nuru tükəndi və kor oldu.

Məscidin tikintisi tamamlanıb ibadətə açılacağı zaman Qanuni Sultan Süleyman Xan:

«Mübarək məscidi ibadətə açmaq şərəfi onu belə əzəmətli və möhtəşəm bir biçimdə tikmiş baş memar Sinana aiddir,-dedi.

Sənətinə öncə təvazökarlığı öyrənməklə başlamış memar Sinan isə zahirdəki misilsizliyini mənəvi kamilliklə də birləşdirərək o an xəttat Qara Hisarinin fədakarlığını düşündü və Sultanın sözlərinə ehtiram göstərərək ona belə cavab verdi:

- Hökmdarım! Xəttat Qara Hisari bu mübarək məscidi xətləri ilə bəzəyərkən gözlərini fəda etdi. Bu şərəfi ona bəxş edin!..

Bundan sonra Qanuni orada olanların göz yaşları ilə mübarək məscidi xəttat Qara Hisarinin açmasını buyurdu».

Xətt sənətinin inkişafı və davamı da öz qaydaları ilə birlikdə əməl edilən mənəvi ölçülər hesabına mümkün olmuşdur. Bu baxımdan,

Qurani-Kərim və Hilyeyi-Şərifə yazmaq bir zirvə sayılmışdır. Ənənə olaraq da ancaq gözəl xətdə zirvəyə yüksələn xəttatlar Qurani-Kərim və Hilyeyi-Şərifə yazmışlar. Beləcə, bu qiymətli əsərlər ruhları və könülləri oxşayan müdhiş cazibəsi ilə, sanki, **«Oxu!»** əmrinə sevgi və şövq ilə əməl etməyə yol açmışlar.

Belə ixlas dolu bir anlayış və xidmətin bərəkəti olan bu sənət əsrlər boyu təmənnasız olaraq onu istəyənlərə öyrədilmişdir. Heç bir maddi əvəz istənilməmiş və hər xəttat bu məsələ ilə bağlı olan xidmətini öz sənətinin zəkatı saymışdır.

❁

Xülasə:

«... Allah gözəldir, gözəli sevər...» (Müslüm, «İman», 147) hədi-si-şərifinin bərəkətindən faydalanan bir möminin gözəlliyə biganə olması mümkün deyil.

Bu məna çərçivəsində insanın daxili gözəlliklərini təkəbbürə və özündən razılığa imkan verməmək, dinin mahiyyətinə bağlı qalmaq şərti ilə estetik dəyərlər səviyyəsində ifadə etməsi çox təbii bir hərəkətdir. Bu baxımdan hansı sahədə olursa-olsun, islami ədəbə uyğun olan bütün sənətlər təsəvvüfi mühitlərdən hər zaman təşviq və himayə görmüşdür. Təfəkkür və könül dünyasının dərinliklərində təsəvvüflə qovuşan bir çox gözəl sənət də motivlərinə yerləşdirdiyi bir sıra təsəvvüfi dəyərlər hesabına daha yüksək bir estetika və məzmun zənginliyinə qovuşmuşdur.

Qəlbi həyat və onun mənəvi duyğusu, hiss etməsi olmadan ancaq ağılla sonsuz həqiqətlər aləminə daxil olmaq mümkün deyil.

5. TƏSƏVVÜF VƏ FƏLSƏFƏ

Dəqiq elmlər varlıqları və hadisələri bir-bir təhlil edərək onların xüsusiyyətlərini ümumi qaydalar şəklində ifadə etməyə çalışır. Bunlara «təbiət qanunları» deyildiyi bilinir. Bütün bu elmlərin ortaya qoyduğu ümumi hökmləri yenidən birləşdirməyə, ya da ümumi qaydalar halında ortaya qoymağa çalışan bəşəri elm və düşüncə isə fəlsəfə sahəsini təşkil edir.

Bu baxımdan elmlərin elmi olaraq qəbul edilən fəlsəfənin həqiqətə çatmaq məqsədi ilə seçdiyi yeganə vasitə ağıldır. Hər fəlsəfi məktəbdə ağıl fəlsəfənin bir şöbəsi olan rasionalizmdəki kimi, sanki ilah səviyyəsinə yüksəldilməsə də, yenə də filosofların həqiqət axtarışında əsaslandıqları tək vasitə olaraq qəbul edilmişdir.

İslam ağlı bir işə görə məsuliyyət daşımağın şərtlərindən biri sayır. Bununla birgə, onun həqiqətlərə çatmaqla bağlı yetərli olmadığını da qəbul edir. Ona görə də, təsəvvüf ağlı nəzərə aldığı kimi, «nəqli» də əsas götürür. İslamda bir anlayış və kamillik axtarışı demək olan təsəvvüf də bir sıra metafizik gerçəklər axtarmasına baxmayaraq, onun kəşf hüduduna gedib çıxan düşüncə fəaliyyəti nəssə bağlı olaraq gerçəkləşməkdədir. Yəni təməl təsəvvüfi düşüncələrin bir şəri sənədə bağlı olması bu düşüncə fəaliyyətinin də nəqli olduğunu qəbul etməyi zəruri sayır. Ağıl nəssin hikmətini bilmək üçün istifadə

edilməklə birgə, onun müstəqil fəaliyyəti islami ehkamın təsbit edilməsində yetərli sayılmır (caiz görülmür). Buna görə də, İslamda ağlın kamil bir fayda təmin etməsi üçün vəhylə tərbiyə edilməsi və səlahiyyətinin bu şəkildə məhdudlaşdırılması zəruridir. Bu qayda ilə gedilən yol kəşf sərhədində tükənir. Qəlbi fəaliyyətlərə bağlı olaraq əldə edilən gerçəklərin caiz görülməsi, ya da mənimsənilməsi hamının onu qəbul etməsini zəruri saymır. Buna görə də bu gerçəklik belə ifadə edilmişdir:

«Kəşf əhlinin kəşfi ancaq özü üçün dəlildir, başqasına dəlil deyil.»

Bununla yanaşı, ağlın güc və səlahiyyətinin bitdiyi nöqtədə həqiqətin də sona çatdığını iddia etmək mümkün deyil. Buna görə də bu nöqtədən başlayaraq sonsuza doğru fasiləsiz olaraq gedən həqiqətlərə çatmaq təmayülü bir kənara qoyula bilməz. Çünki bu fitridir. Bundan ötrü istər dində, istərsə də dindən kənar düşüncədə gerçəklərin bu bölümünə laqeyd münasibət göstərilməmişdir. Metafizik məsələlərə aid olan fəlsəfi düşüncələrin əzəmətli külliyat təşkil etdiyi hər kəsə bəllidir. Ancaq filosoflar sırf ağıldan istifadə etdiyi üçün ziddiyyətlərdən qurtula bilməmişlər və ortaya çıxan hər filosof özündən öncəkiləri rədd və tənqid etmişdir. Bu məsələ də qürur duyğusunun və nəfsani iddiaların ön plana çıxarılmasının rolu olsa da, əsl səbəb ağlın ziddiyyətlərdən qurtula bilməməsidir.

❁

Həqiqətən, ağıl bir bıçaq kimidir. İnsan bu alətlə xeyirli işlər də görə bilər, bir terror əməlini də həyata keçirə bilər. "Əhsəni-təqvim"ə, yəni insanın nail ola biləcəyi ən yüksək səviyyəyə ağlın yardımı olmadan çatmaq mümkün deyil. Ancaq insanı çox zaman "bəlhum-ədall"a, yəni idrak baxımından heyvandan aşağı bir səviyyəyə endirən də ağıldır. Deməli, ağıl nəzarət altında olmalıdır. Bu nəzarət də vəhyə bağlı olan tərbiyədir. Əgər ağıl vəhyin nəzarətində olsa, insanı doğru yola yönəldər. Ancaq vəhyin nəzarətindən çıxarsa, insanı fəlakətə sürükləyər. Ona görə də, ağlın ilahi riza istiqamətinə yönəlməsi zəruridir.

Tarix boyunca dərin ağlı ilə seçilən bir çox zalımlar etdiklərinə görə heç bir vicdan əzabı duymamışlar. Çünki etdiyi zülmlər ona görə çox ağıllı bir hərəkət olmuşdur. Bağdad şəhərinə girib Dəclə çayının suyunda dörd yüz min günahsız insanı boğan Hülaki heç bir vicdan əzabı duymamışdır. İslamdan öncə Məkkə dövründə bir ağa köləsini öldürsə idi, vicdanı əsla sızlamaz, bir peşmançılıq hissi duymazdı. Onların nəzərində bir köləni, ya da bir odunu kəsmək eyni şey idi. Onlar bunu təbii və qanuni haqları sayırdılar. Ancaq bu adamlarda da ağılı var idi, onlar vəhyin tərbiyəsi altında olmadıqları üçün insanı heçə sayır, saysız-hesabsız cinayətlərə sövq edir və bunu da normal hesab edirdilər. Belə bir ağıl vicdanları kor etmiş, şəfqət, mərhəmət və sevgi duyğularının önünə pərdə çəkmişdir.

Filosoflar hər şeyi ağılla izah etməyə çalışdıqları üçün nə özlərini, nə də cəmiyyəti maarifləndirə bilmişlər. Əgər ağıl bütün işləri görə biləcək qüdrətdə olsa idi, hidayət rəhbəri olan peyğəmbərlərə ehtiyac olmazdı. Bu baxımdan ağıl vəhyin liderliyinə möhtacdır.

Bu gerçəyi görən bir sıra filosoflar ağlın bu acizliyini etiraf etmişlər və onlar həqiqəti araşdırmaq məsələsində başqa vasitələr axtarmışlar. Belə filosoflardan biri olan fransız Henri Berqson (1859-1941) intuisiyanı həqiqətə çatmağın vasitələrindən biri olaraq qəbul etmişdir. Bu söz qədim dövrdə «İnsanın qəlbinə doğan» deyə adlandırılan mükaşəfə əhlinin mənəvi fəaliyyətinin adıdır. Berqson bir sıra ruhi tapşırıqlarla (təsəvvüfdə zikr) qəlbən təmizlənən dindarların əldə etdikləri mənəvi bir mərtəbədə qəlblərinə doğan gerçəklərə fiziki həqiqətlərdəki kimi laboratoriya təcrübələri ilə sınaqdan keçirilmədiyi dəlili ilə etiraz edilməsinin yersiz və məntiqsiz olduğunu irəli sürmüşdür. Təsəvvüfi təcrübələrdə olduğu kimi, bütün mücərrəd gerçəklərin laboratoriya təcrübəsindən keçirilməsinin zəruri olmadığını bildirmişdir. Bu da fəlsəfənin az bir qisminin dinə və nəticə baxımından da təsəvvüfə yaxın bir mahiyyət ərz etdiyini göstərir. Filosofların çoxu həqiqətə çatmaq üçün ağıldan başqa bir vasitə qəbul etmirlər. Onlar bir-birini təkzib etməklə vaxt keçirirlər. Bunun əksinə, peyğəmbərlər və onların varisi olan övliya eyni qaynaqdan, yəni vəhy və ilham yolu ilə feyzləndikləri üçün bir-birini təsdiq etmişlər.

Böyük İslam alimi İmam Qəzali (r.a) belə buyurur:

«Fəlsəfə mövzusundakı idrak, tədqiq və tənqid səhifələrindən sonra bu məsələdəki araşdırmamı sona çatdıranda mənim məqsədimə görə bu elmin də kifayət etmədiyini, ağlın təkbaşına hər şeyi qavramağa gücünün çatmayacağını, onun bütün məsələnin üzərindəki pərdəni qaldıra bilməyəcəyini anladım».

Böyük alim Qəzalinin ağıl və mərifət sahələri arasındakı halını Nəcib Fazil Qısakürək bir əsərində belə anladır:

«İslamın hüccəti» deyə yad edilən böyük düşüncə adamı… O, elmi, fikri bütün düşüncə və idrak işlərini bir tərəfə qoyub həqiqi mərifət istiqamətinə yönələcəyi zaman belə dedi:

«Gördüm ki, hər şey peyğəmbərlər peyğəmbərinin ruh feyzinə sığınmaqdan ibarətdir, yerdə qalan yalan, qorxu və xəyaldır!.. Ağıl isə bir heçdir…Sadəcə hüduddur!»

Cahanın bir bənzərini görmədiyi bu əzəmətli beyin bütün suallarını yox etdi, peyğəmbərlər peyğəmbərinin ruh feyzinə sığındı, sonsuz olanı tapdı.» («Vəlilər Ordusundan», s. 213)

Həqiqətən, məhdud bir ağıl ilə müəyyən bir nöqtəyədək getmək olar. Ancaq bütün həqiqət bu sərhədlərin içərisinə sığışa bilərmi?! Ondan kənarda heç bir həqiqət yoxdurmu? Belə sualların doğru cavabını fəlsəfə kimi maddəüstü bir düşüncə olan, ancaq vəhyin qaynağından bəsləndiyi üçün ondan tamamilə ayrılan təsəvvüfün könül dünyasında tapmaq mümkündür.

İnsanı yaradan və onun xüsusiyyətlərini ən yaxşı bilən uca Allahdır. Buna görə də, həqiqət yolunda ağlın ilahi təbliğin işığında getməyə mütləq bir ehtiyacı var. Ağlın çata biləcəyi son nöqtədən başqa üfüqlərə isə qəlb və kəşf yolunun imkanları ilə getmək zəruridir. Qəlbi həyat və onun mənəvi duyğu və hissləri olmadan ancaq ağılla sonsuz həqiqətlər aləminə getmək olmaz.

Bilmək seyr etmək deyil, hikmət və sirri anlamaqdır.

G. FAYDALI ELM

Bilginin mənimsənilib sağlam bir düşüncənin dərinliklərində kök salmasına **«irfan»** deyilir. **Arif** isə sahib olduğu bilgilərin içindəki sirr, hikmət və ilahi təcəllaları öyrənmiş, yəni irfan sahibi olan şəxs deməkdir. Bu kamilliyə yüksəlməmiş elm sahibləri haqqında: «Alimdir, ancaq arif deyil» -deyilir. Belə şəxslərin bilgiləri kitablardakı kimi sabit və dəyişməzdir. Bu vəziyyət anbardakı toxuma bənzəyir. O toxum ancaq torpağa qovuşanda cücərmək imkanı tapır, inkişaf edir və çoxalır. Əks halda, belə bilgilər fikir istehsal etməyə və düşüncədən qəlbə enərək duyğuları dərinləşdirməyə imkan tapa bilməz. Buna görə də, belə bilgilərə **kitabi bilgi** deyilir.

Yerində və doğru olaraq istifadə edildiyi təqdirdə hər elmin bir fayda təmin edəcəyi sözsüzdür. Ancaq insanın hər iki dünyanın səadət və xoşbəxtliyini qazanması üçün bu elmlərin ancaq zahirən öyrənilməsi yetərli deyil. Bu nöqsanın aradan qaldırılması üçün İslam, elmlərin doğru və xeyirli yerlərdə istifadə edilməsini təmin etmək və şərə alət olmasının qarşısını almaq məqsədi ilə **faydalı elm** ilə qəlbi həyatı bəzəmişdir.

Belə ki, mərhum Mahir İz də qəlbi dərinlikdən məhrum olan bir elmin qüsurlu olduğunu və bu qüsuru aradan qaldırmağın yeganə çarəsinin də mənəvi tərbiyə olduğunu ifadə edərək belə deyir: «Elmin

qeylü-qalını hər zaman bir nöqtədə toplamaq mümkün olmadığından heç bir zaman elmi tədqiqatdan əl çəkmək olmaz. Əsl həqiqəti öyrənməyin yolunun ancaq bu işin əhlinin irşadı sayəsində mümkün ola biləcəyinə inanıram. Məhz bu səbəbə görə də, aydın bir işarət ilə iradə nərdivanımı mərifət səmasının meracına yüksəlmək üçün Feyzi-Samiyə dayadım». («İllərin izi», s. 396)

❁

Həqiqətən, mənəvi tərbiyə nəticəsində əldə edilən qəlbi kamillik insan idrakını zahiri elmin üstündə olan bir üfüqə aparır ki, buna da **mərifət** deyirlər. Bu isə ancaq bəzi təsəvvüfi tapşırıqlar hesabına əldə edilə bilər. İnsan bu görüş üfüqünə çatdığı zaman nə qədər böyük bir alim olsa da, acizliyini dərk edərək elmindən qürur duymaq xəstəliyindən xilas olur. Sonsuz və bir-birinin içinə yerləşmiş həqiqətlərə doğru açılan düşüncəsi heyrət və acizlik duyğuları ilə dolar. Sağlam ağıl ilə düşünəndə anlamaq olur ki, bilmək sadəcə zahiri seyr etmək deyil, bir sirri anlamaqdır. Bilmək, əslində, böyük sistemin müəmmasını anlamaq və ilahi sirlərdən agah olmaqdır. Həzrət Mövlana insanın əbədi səadəti üçün zəruri olan mərifətullah elmini əldə etməyin önəmini və buna biganə olanların kədərli aqibətini aşağıdakı hekayədə gözəl izah etmişdir:

«Bir dilçi alim gəmiyə minmişdi. Səfər zamanı elmindən məğrurluq duyaraq gəmiçi ilə söhbətə başladı. Gəmiçiyə müxtəlif suallar verdi və ondan «bilmirəm» cavabını alanda da, elmi ilə iftixar etdiyini ifadə edərək belə dedi:

- Təəssüf! Cəhalətin səbəbi ilə ömrünün yarısını boş keçirtmisən və ziyana düşmüsən, dedi və onu ələ saldı.

Təmiz qəlbli gəmiçinin ona qarşı olan bu həqarətdən qəlbi qırıldı. Ancaq o, kamillik göstərərək dilçiyə cavab vermədi, susdu. Birdən şiddətli bir fırtına qopdu və gəmini müdhiş bir burulğanın içinə sürüklədi. Hamını böyük bir təlaş bürüdü. Bu zaman gəmiçi dilçiyə tərəf döndü və dedi:

- Ey ustad, üzməyi bilirsənmi?

Dilçi solmuş, saralmış bir vəziyyətdə titrək bir səslə kəkələyərək dedi:

- Xeyr, bilmirəm!

Bunu eşidən gəmiçi kədərli bir əda ilə belə dedi:

- Dili bilmədiyim üçün mənim ömrümün yarısı məhv olmuşdu, ancaq sənin bütün ömrün məhv oldu. Çünki gəmimizin bu girdabdan qurtulmaq imkanı yoxdur. Ey dilçi! Bu dəryada dilçilikdən daha çox üzmək elminin faydalı və zəruri olduğunu bilmirdinmi?..»

Bu hekayədəki dilçilik elmindən məqsəd sadəcə dünyəvi və zahiri elmlərdir. Həqiqi faydalı elm isə ehtiyaca cavab verən elmdir. Bəşərin ən böyük ehtiyacı bədənlə birlikdə ruhun da əbədi səadətini təmin etməkdir. Bu isə yalnız Allahın rizasını qazanmağa bağlıdır. Allahın rizası isə kamil imanla birlikdə gözəl əməllərlə əldə edilir. Bu hekayədən göründüyü kimi, bu fani vücud gəmisi ölüm girdabında çırpınarkən, yəni dünyaya böyük vida etmək anı olan əcəl yaxınlaşanda həqiqi ehtiyaca cavab verməyən, yaşanmayan, irfana çevrilməyən, ruhsuz, quru və ancaq nəfsin rahatlığını təmin edən bilgilər fayda verməyəcək.

Belə olduğuna görə əcəl gəlməzdən öncə bütün bilgiləri Allah rizasını qazanmağa yol açacaq bir keyfiyyətdə öyrənmək zəruridir. Çünki vücud gəmisi ölüm ilə çarpışarkən ancaq torpağa tapşırılacaq bədənin rahatlığına yarayan elmlərdən bir kömək umulmaz. O anda sağlam qəlbə ehtiyac var. Qəlbin isə əcəl gəlməmişdən öncə nəfs əngəlini zərərsizləşdirmək nəticəsində bu keyfiyyəti əldə etməsi zəruridir. Bu mərhələyə yüksəlməyənlər bu geniş və dərin dəryada həlak olmaqdan xilas ola bilməzlər. Ancaq nəfsini ölmüş saya biləcək dərəcədə təkəbbür, özündənrazılıq və başqa həvəslərdən qurtaranları dərya misalı olan bu yeni aləm başı üzərində daşıyar, onu həlak olmaqdan qurtarar. Bu keyfiyyəti izah etmək üçün belə deyilmişdir:

«Ölmədən əvvəl ölün!», nəsihətinə könül verərək dünyamızdakı nəfsani təmayülləri ən aşağı səviyyəyə endirməyə çalışmalıyıq. Nəfsani arzuları zərərsizləşdirmək üçün insanın tez-tez özünə hesabat verməsi lazımdır. Bununla bağlı belə deyilmişdir:

«İlahi məhkəmədə hesaba çəkilməzdən əvvəl nəfsinizi hesaba çəkin!»

❁

Rəvayətə görə, bir alim belə demişdir:

«İmam Qəzalini simalarında nur və xeyrin açıq göründüyü bir camaatın içində gördüm. O, yamaqlı bir paltar geyinmişdi və əlində də bir kuzə var idi. Ona dedim:

- Ey İmam! Bağdaddakı Nizamiyə Mədrəsəsinin baş müəllimi olmaq bundan daha yaxşı deyildimi?

Mənə diqqətlə baxdı və dedi:

- Səadət ayı iradə səmasında bədirlənəndə ağıl günəşi vüsal yolunu göstərdiyi üçün belə etdim.» (Məhəmməd b. Abdullah əl-Hani, «Ədəb», s. 9)

Buna görə də, insanı dünya və axirətdə səadət və xoşbəxtliyə qovuşdurmaqda ən təsirli elm Allahı ən gözəl bir şəkildə qəlbən tanıya bilmək və bu bilginin yaratdığı əqli, vicdani və qəlbi bir məsuliyyətlə gözəl əməlləri ən mükəmməl bir səviyyədə yerinə yetirməkdir. Çünki bu duyğu, dərinlik və anlayış olmasa, fayda təmin etməyə yarayan bütün elmlərin maddi, ya da mənəvi bir çox zərərli nəticələrini aradan qaldırmaq olmaz. Ona görə də faydalı elm öz xarakterinə görə bir üfüq və zehniyyət məsələsidir. O olmadan elmlərdəki istifadə imkanları da nəzəriyyədən əmələ çevrilməz. Əksinə, şərə alət olar. Bu vəziyyətdən xilas olmağın yeganə çarəsi faydalı elm dediyimiz qəlbi kamillik və gözəl xüsusiyyətlərin əldə edilməsidir.

Belə ki, faydalı elmə sahib olmayan bir şəxs dərin hüquq təhsili gördükdən sonra haqq və ədaləti qorumalı olduğu halda, bir cəllad ola bilər. Tibb təhsili almış bir şəxs də insanlara şəfa verəcəyi halda bir insan qəssabına çevrilə bilər. Elmi qabiliyyətinə baxmayaraq, mərhəmət və məhəbbətdən məhrum olan bir rəhbər işçi onun yanında işləyənlərə yalnız zəhər saçar. Belə şəxslər bir cahilin cəhaləti ilə vura bilməyəcəyi zərərin daha dəhşətlisini elm sayəsində asanlıqla edə bilərlər.

Həzrət Yunus Əmrə çox gözəl söyləyir:

İlim okumaktan murad
Kişi Haqqı bilmektir,
Çün okudun bilmezsin,
Ha bir kuru emektir!..

Bu baxımdan hər insan dünya və axirət işlərində uğur qazanıb maddi və mənəvi baxımdan inkişaf edə bilmək üçün müxtəlif elmlərlə məşğul olarkən hər şeydən öncə faydalı elmin işığına və könül dərinliyinə möhtacdır.

Həqiqətən, insanı təkəbbür və özündən razılığa sövq edən, axırda da onu həlak girdabında boğan bir elm zahirən gözəl, faydalı şeylərdən ibarət olsa da, həqiqətdə ağır bir yükdən başqa nədir ki? Buna görə də, Allah Rəsulu -səllallahu əleyhi və səlləm- hər zaman uca Allahdan elmi məhz bu mənada istəmiş və belə dua etmişdir:

«Ey Rəbbim! Səndən faydalı elm istəyirəm! Faydası olmayan elmdən Sənə sığınıram!..» (Müslüm, «Zikr», 73)

Bu məna çərçivəsində təsəvvüf elminin də mahiyyəti sayıla biləcək olan faydalı elm, bəndəni zöhd, təqva və ehsan ilə bəzəməyə çalışmaq cəhdidir. Belə olanların elmi artıq mərifət olmuşdur.

Həzrət Mövlana belə deyir:

«Ancaq zahiri məsələlərlə bağlı alim olanlar sahələrinə görə həndəsə, astronomiya, tibb və fəlsəfənin incəliklərini bilirlər. Bilirlər, ancaq bunlar bir göz qırpımında gəlib-keçən bu fani dünyaya aid elmlərdir. Bunlar insana göyün yeddinci təbəqəsinin üstünə, yəni meraca çıxacaq yolu göstərə bilməzlər».

«Allah yolunu və o yolun gediləcək mərhələlərinin bilgisini nəfslərinə məhkum olan qafillər bilməzlər! Allah yolunun bilgilərini ancaq könül əhli olan ariflər ağılları ilə deyil, könülləri ilə bilirlər!»

Faydalı elmdən, yəni elmdəki qəlbi kamillikdən məhrum olan şəxslər nə öyrənirlərsə, öyrənsinlər, nəticədə ən böyük həqiqət olan Haqqa qovuşmaqdan məhrum olarlar. Elm ancaq qulaq və zehndən

qəlbə enib, qəlbən də həzm edildiyi halda bu elmin sahibi üçün gözəl nemətlər verər. Ancaq belə bir elm surətdən sirətə, yəni gözəl əxlaq, saleh əməl və Allah qorxusuna çevrilə bilər.

Uca Allah ayeyi-kərimədə belə buyurmuşdur:

«(Rəsulum!) **De: Rəbbim, elmimi artır!...»** (Taha, 20/114)

Bu inkişaf bəndənin təqva və qorxu duyğularının müəyyən bir səviyyəyə yüksəlməsi deməkdir. Çünki Qurani-Kərimdə belə buyurulur:

«… Allahdan öz bəndələri içərisində ancaq alimlər qorxar…» (Fatir, 35/28)

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- də belə buyurmuşdur:

«İçinizdə Allahdan ən çox qorxanınız və Onu ən çox biləniniz mənəm.» (Buxari, «İman», 13; «Ədəb», 72)

Deməli, elm könülə yerləşməmişsə və bu elmin sahibini Allah sevgisi və qorxusuna yönəltməmişsə, ona zahirən alim deyilsə də, o, həqiqi alim sayılmaz.

İmam Qəzali -qüddisə-sirruh- ancaq dünyəvi elmlərlə məşğul olub, bunların qeylü-qalı ilə ömrünü başa çatdıraraq Rəbbini unudan şəxslərə belə müraciət edir:

«Ey oğul! Kəlam, məntiq, bəlağət, şeir, dil, qrammatika və bu kimi elmləri bir irfana çevirməmişsənsə, vay sənin halına! Allahın -cəllə cəlaluhu- ona ibadət edəsən deyə vermiş olduğu ömrü boş yerə xərcləməkdən başqa əlində nə qaldı?»

Həqiqətən də, bəndəni Allah qatında peşman edib, onun cənnətinə və gözəl camalına qovuşdurmağa faydası olmayan bir elm kimə lazımdır? İnsanı sonda İblis, Bəlam bin Baura və Qaruna bənzədən və onların təkəbbür, özündən razılıq, özünü bəyənmək, hamıya yuxarıdan aşağı baxmaq, nəhayət, Haqqa qarşı üsyan etmək kimi pis sifətlərlə yükləyən bir elmə elm deyilə bilərmi? Əsla! Bu baxımdan İslam böyükləri elm haqqında belə demişlər:

«Elm dərk etməkdir. Dərk etmədən elm ortaya çıxmaz. Bu idrakın sonu isə mərifətullahdır. Bu yönü ilə mərifətullah bütün elmlərin əsasıdır. Elmlər bu elmə yaxınlıq dərəcəsinə görə dəyər qazanır…»

Həzrət Mövlana buyurur:

«Hünərli və elmli insan yaxşıdır, ancaq İblisdən ibrət al, ona çox dəyər vermə! Çünki İblisdə də elm var idi, ancaq o, Adəmin torpaqdan yaradıldığını, məsələnin xarici tərəfini gördü, onun həqiqətini görə bilmədi.»

«Elə elm, ağıl və anlayış var ki, həqiqət yolçusu üçün bir qülyə-baniyə çevrilir, yolunu kəsir. Onun üçün cənnətdə olanların çoxu filosofların şərindən qoruna bilmiş saf və qəlb əhli olan insanlardır. Ey qafil!

Qürurdan, təkəbbürdən xilas ol və lüzumsuz şeyləri üzərindən at ki, hər an sənə ilahi rəhmətlər yağsın.»

Heç bir insan ancaq ağlı ilə həqiqətə çata bilməz. Çünki kainat ağıl ilə təhlil ediləndə çoxsaylı problemlərlə qarşılaşılır. Ağıl dünya işlərini yerinə yetirməkdə faydalıdır, ancaq ilahi vəhydən feyz almadığı təqdirdə həqiqət yolunda gücsüzdür. Həqiqətə çatmaq ağıldan başqa bir iman və sevgi işidir. Vəhylə tərbiyə edilmiş sağlam bir mühakimə həqiqət axtarışında bəndəni müəyyən bir nöqtəyə çatdıra bilər. Onun arxa planındakı sirr və hikmətlərin dərk edilməsi üçün isə ancaq könül qanadları ilə gedilə bilər.

Həqiqətlər və sirlər aləmini bilməkdə ağlın rolu dar bir qapı kimidir. Buna baxmayaraq, onsuz irfana çatmaq mümkün olmadığı kimi, heç bir ağılsız da arif ola bilməz. Ancaq sırf ağıl da sahibini «irfan»a qovuşdura bilməz. Ağlın səthində qalaraq dini kamil mənası ilə qavramaq mümkün deyil. Çünki ağıl bir pillədir. Oradan sevgiyə yüksəlmək lazımdır. Həzrət Mövlana bu mərhələləri keçmək üçün belə bir ölçü vermişdir:

«Mustafanın qarşısında ağlı qurban et!»

Haqqa gedən yolda ağlın bitdiyi yerdə könül vəcdinə ehtiyac var.

Bütün Allah dostları bu varlıq dənizindən sevgi ilə keçdiklərini ifadə edirlər. Belə ki, onlardan həqiqətə qovuşmağın vəcdindən yaranan sevgi nəğmələrini tez-tez eşidirik. Onların gözündə bu viranə dünyanın qiyməti yoxdur. Vəcd halında olan bu insanları sevginin istisi öz qucağına almışdır. Buna görə də onlar hər zaman əsl hədəfə doğru yönəlirlər. Allahın vəli qulları bir əxlaq abidəsi olan peyğəmbərlərin nəfsləri tərbiyə etmək vəzifələrini insanlıq içində öncə öz nəfslərində yaşamaq və sonra da başqalarına bir örnək olmaqla tamamlayan ruh dünyasının zirvə şəxsiyyətləridir.

Qəlb gözü açılan mömin hər yerdə Rəbbin ilahi təcəllalarını müşahidə edər. Bu hal bir kəramət deyil. İrfan və mərifətə çevirilmiş bir elmdir. Könüldəki həqiqi sevginin məhsuludur. Haqq dostları ilahi sevginin verdiyi bu mənəvi güclə aləmi ilahi qüdrət təcəllaları içində müşahidə edərlər. İnsanı, əşyanı və kainatı öz sirr və həqiqəti ilə görərlər.

Həqiqətən, bilgi qəlbə sancılmış təkəbbür vasitəsi kimi bir tikan olsa, onun hədəfi olan güldən ətir duyulmaz?! Küləklərin, bulaqların, dağların dilini anlamayan, güllərdən, ağaclardan, çiçəklərdən, qurdlardan, quşlardan ibrət almayanlar üçün həyatın nə dadı ola bilər?! Onların tələqin etdiyi ilahi sənəti hiss edə bilməmək qəlbin kamilləşmədiyini göstərən əlamətdir.

Sədi Şirazi könülləri hikmətə yönləndirib, insanları faydalı elmə belə dəvət edir:

«Ayıq insanların gözündə ağacların yaşıl yarpaqları belə bir divandır. Hər zərrə uca Allahın ilahi sənətini ifadə etmirmi?»

Kainat ilahi sevincin qaynağından axan təcəllalar sərgisidir. İnsan deyilən bilinməyən müəmma ilahi sevincin kamil bir təcəllasıdır. İnsan oğlunu dünyada kamilləşdirən, onun ülvi sevinc duyğuları daşıyan bir ürək sahibi olmasıdır. Həllac daşa basılarkən belə kamil bir qəlb axtarırdı, o, gül atana üzüldü. Sonra çıxıb getdi.

Çünki kainatda hər zərrə hər an bizə ilahi sevincdən təzə bir xəbər və salam verir. Beşikdəki körpənin gülüşündən, bir kəpənəyin qanad çırpıntısına, bülbüllərin fəryadından, baharın rəng və ətirinə qədər

hər şey ilahi sevincin min bir təcəllası deyilmi? Faydalı elmin ən möhtəşəm təzahürü kainat kitabını könül gözü ilə oxumaqdır. Aləmin hikmət, ibrət və ilahi təcəllalardan ibarət olduğunu dərk etməkdir. Uca Allah ayeyi-kərimələrdə belə buyurur:

«Biz göyləri, yeri və onların arasında olanları oyun-oyuncaq (əyləncə) yaratmadıq!». (əd-Duxan, 44/38)

«Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?». (əl-Muminun, 23/115)

Buna görə də, hər elm insanı yaradılış qayəsinə uyğun olaraq ibrət və hikmətə yönəltməli, kainatdakı ilahi ehtişamı tamaşa edib, mütləq sənətkara çatdırmalıdır. Uca Allah təbiəti ruha gözəl ətirlər bəxş edən rəngarəng çiçəklərlə bəzəmişdir. Ən qaraqabaq adam belə bu gözəllikləri seyr edərkən ruhunda bir təsir hiss edir, üzündə təbəssüm görünür. Bitkilər aləmini öyrənən botanika elmində də faydalı elm kamilliyinə çatmış bir möminin qəlbi bütün bəşəriyyətin üzündə təbəssüm yaradan bir çiçək bağçasına çevrilir. İlahi sənətin özünü göstərdiyi başqa bir sirlər xəzinəsi də insan bədənidir. Bu xəzinəni kəşf edərək elmini faydalı edən bir həkim ilahi qüdrət qarşısında duyacağı heyranlıqla xəstəsinə yaradıcısından ötrü şəfqət və hörmətlə baxa bilmək fəzilətinə sahib olacaq.

Başqa yöndən, bu səviyyəyə yüksəlməyən bir insan elmi və dünyəvi sahələrdə çox yüksək zirvələr fəth etsə də, o yenə də qüsurludur. Çünki bir elmin qiyməti dünya və axirətdə faydası olacaq mənəvi kamillik və əxlaqi mükəmməlliklə ölçülür. Bütün bunlardan anlaşıldığı kimi, faydalı elmin yolu bir sıra mənəvi xüsusiyyətlərin insan könlünə yerləşməsinə bağlıdır. Yəni nəfsin ikiüzlülük, təkəbbür, tamah, qürur, şöhrət və bu kimi bütün pis sifətlərdən təmizlənməsi, bunun nəticəsində də könlün təqva, təslimiyyət, mərhəmət, səbir, şükür, təvazökarlıq, qənaət, zöhd, günah və haramdan uzaq durmaq, Haqqa təvəkkül etmək kimi peyğəmbər əxlaqı ilə tərbiyə olunması zəruridir.

❁



Faydalı elmin cücərdiyi iqlim və məkanı həzrət İmam Rəbbani qısa olaraq belə ifadə etmişdir:

«Ey din qardaşlarım! Hamımızın yerinə yetirəcəyimiz ilk vəzifə etiqadımızı Kitab və sünnəyə görə düzəltməkdir. Bidət və dəlalət əhli öz batil hökm və etiqadının Kitab və sünnəyə uyğun olduğunu düşünər. Halbuki, onların etiqadı haqq və həqiqətdən çox uzaqdır.»

Bundan sonra da dinin hökmlərini, halal və haramı, fərz, vacib və sünnələri bilmək və bunları saleh əməllər kimi tətbiq etmək lazımdır. Ancaq bütün bunların kamil mənada gerçəkləşməsi üçün də hər zaman qəlbi təmizləmək və nəfsi saflaşdırmaq zəruridir. Çünki etiqad doğru olmasa, dini hökmləri bilməyin, dini hökmlər bilinmədiyi halda hər hansı bir iş görməyin, bir əməl yerinə yetirilmədiyi təqdirdə qəlbi təsfiyə və nəfsi təzkiyə etməyin, təsfiyə və təzkiyə əməli olmadığı təqdirdə də etiqad, əməl və elmin heç bir faydası yoxdur.

Deməli, ancaq bu təməl əsasların olduğu bir məkanda meydana çıxacaq elm və davranışlar faydalı elm səviyyəsinə yüksələrək mərifət mahiyyətini qazanmış olur.

Ey Rəbbimiz! Bizi hər zaman faydalı elm ilə bərəkətləndirməyi arzu edirik, faydası olmayan hər cür elmdən Sənə sığınırıq!.. Bizi elmi ilə əməl edənlərdən et! Elmini irfana çevirib mərifətullah səmalarına yüksələn və bu yolla da öz meracına qovuşan bəxtiyarlardan elə!..

Amin!..





İKİNCİ BÖLMƏ

TƏSƏVVÜFİ TƏRBİYƏ
(Seyr və Süluk)

A. NƏFS VƏ ONUN TƏZKİYƏSİ
- **1. Nəfsin mahiyyəti**
- **2. Nəfsin təzkiyəsi**
- **3. Nəfsin mərtəbələri**
  - a. Nəfsi-əmmarə
  - b. Nəfsi-ləvvamə
  - c. Nəfsi-mülhəmə
  - d. Nəfsi-mütməinnə
  - e. Nəfsi-radiyyə
  - f. Nəfsi-mərdiyyə
  - g. Nəfsi-kamilə

B. QƏLB VƏ ONUN TƏSFİYƏSİ
- **1. Qəlbin mahiyyəti**
- **2. Qəlbin çeşidləri**
- **3. Qəlbin təsfiyəsi**
  - a. Halal qida
  - b. İstiğfar və dua
  - c. Quran oxumaq və onun buyruqlarına tabe olmaq
  - d. İbadətləri mütiliklə yerinə yetirmək
  - e. Gecələri ehya etmək
  - f. Zikrullah və təfəkkür
  - g. Rəsulullaha məhəbbət və salavati-şərifə
  - h. Rabiteyi-Mövt/Təfəkkürü-Mövt (Ölümü düşünmək)
  - i. Saleh və sadiqlərlə bərabər olmaq
  - j. Gözəl əxlaq sahibi olmaq
- **4. SAF BİR QƏLB İLƏ ALƏMƏ BAXIŞ**

C. TƏSƏVVÜFİ TƏRBİYƏDƏ TƏMƏL ƏSASLAR

D. KAMİL MÜRŞİD VƏ İRŞAD METODLARI
- **1. KAMİL MÜRŞİD**
- **2. İRŞAD METODLARI**
  - a. Sevgi-rabitə
  - b. Söhbət
  - c. Xidmət
  - d. Təvəccöh (yönəlmə)
  - e. Dua

E. TƏSƏVVÜFİ ÜSLUB
- 1. Hidayət və Rəhmət Üslubu
- 2. Mülayim olmaq və Şəfqət Üslubu



«(Günahlardan) təmizlənən kimsə isə nicat tapacaqdır.» (əl-Əla, 87/14)

TƏSƏVVÜFİ TƏRBİYƏ

(Seyr və Süluk)

Təsəvvüf həzrət Peyğəmbərə varis olmuş gerçək müəllimlərin əlində nəfsin tərbiyəsi və qəlbin təsfiyə edildiyi mənəvi bir məktəbdir.

İnsanlar istedad və güc baxımından müxtəlif səviyyələrdə yaradılmışdır. Təsəvvüfdəki tərbiyə salikin (təriqət yolçusunun) qəlbi istedad, iqtidar və xarakterinə uyğundur. Xarakteri isə tamamilə dəyişdirmək mümkün olmadığından ilahi əmrlərlə tərbiyə edilib yönləndirilə bildiyi ölçüdə arzu edilən səviyyəni əldə etmək olar. Şəriətin hamıya məxsus və hər kəs üçün eyni qaydalar müəyyən etməsinə rəğmən, təsəvvüfdə salikə, eynilə nömrəli gözlüklər kimi fərddən-fərdə dəyişən tərbiyə metodlarının tətbiq edilməsi yolu seçilmişdir. Bu ikisi arasında bir ziddiyyətin və ayrılığın olduğu düşüncəsi yanlışdır. Çünki təsəvvüf və şəriət münasibəti məşhur bir misal ilə desək, bir pərgara bənzəyir. Pərgarın sabit ayağı şəriət, hərəkət edən ayağı isə təsəvvüfdür. Bu iki ayaq arasındakı məsafə isə təsəvvüf yoluna daxil olmuş insanın xarakter və istedadına görə azaldılıb - çoxaldıla bilər.

Başqa yöndən, təsəvvüfün bu həssas ölçüləri Allahın əmr və qadağalarına kamil bir ölçüdə əməl etmiş insanlar üçündür. Buna görə də gerçək mütəssəvviflər zahiri aləmlərini düzəltmiş və mənəvi dünyalarını tərbiyə etməyə yönəlmiş insanlardır. Zahirdəki kamilliyi həm də mənəvi inkişaf ilə gücləndirmək istəyən şəxslərdir. Belə ki, zahirin islah və kamilləşdirilməsi önəmlisə da, əsl məsələ mənəvi

aləm, yəni qəlbdir. Çünki fellərə can verən iradə olsa da, iradəni yönləndirənin hisslər olduğu da yaddan çıxmamalıdır. Duyğuların məkanı isə qəlbdir.

Rəsulullahın -səllallahu əleyhi və səlləm- mənəvi tərbiyədə tətbiq etdiyi həssas ölçülərdən biri tərbiyə olunan şəxsi incitməmək, hətta qüsurları özünə aid edərək tərbiyə etməkdir. Yəni tərbiyəçi bir növ qüsurları özünə yükləyir. Bir çox səbəblə Peyğəmbərimizin: *«Mənə nə olmuşdur ki, sizləri belə görürəm»*[1], şəklində söylədiyi sözləri bunun təzahürünün açıq bir misalıdır. Bu qəlbi riqqətə və həssaslıq ölçülərinə tabe olan könül əhli də tənqidi nəfsinə, anlayışla qarşılamağı isə başqalarına aid etməyi bir şüara çevirmişdirlər. Onlar zahirdən daha çox qəlb təmizliyi və dolayısı ilə qəlb tərbiyəsiylə məşğul olduqları üçün günahkara belə mərhəmət və anlayışla yanaşırlar. Çünki onlar günahkarı deyil, günahı zərərsizləşdirməyə çalışırlar. Buna görə də, insanın mənfi hallarını tərbiyə etməzdən öncə söhbətin feyz və bərəkəti ilə onların qəlblərini yumşaldaraq islah olunmağa hazırlayırlar. Nəfslərdəki qəzəb fırtınalarını sakitləşdirərək peşmançılığın gözəl havasının yerləşməsinə zəmin hazırlayırlar.

Yusifin -əleyhissalam- Misirin başçısı olduqdan sonra bir vaxtlar onu öldürmək məqsədi ilə quyuya atan qardaşlarının yardım tələblərini rədd etməməsi və özünü gizləyərək onlara yaxşılıq etməsi, onlara qonaqlıq verməsi də qəlbi tərbiyədə misilsiz bir incəlikdir. Halbuki, o an əlindəki güc və hakimiyyətin imkanları ilə qardaşlarından intiqam ala bilərdi. Ancaq o qüsurları başa qaxmaqla könül sındırmağın deyil, pisliyə belə yaxşılıqla cavab verə bilməyin, eyib və xətaları örtməyin, ona qarşı edilənləri Haqqın rizasına uyğun olaraq unutmağın gözəl fəzilətinə nail olmuş bir hidayət rəhbəri idi. Ayeyi-kərimədə uca Allah Yusifin -əleyhissalam- qardaşlarına olan gözəl davranışını belə ifadə edir:

«(Yusif) **dedi: «Bu gün sizə** (etdiklərinizə görə) **heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın. Çünki O, rəhm edənlərin ən rəhmlisidir!»** (Yusuf, 12/92)

Bu nəcib və alicənab davranışlar qarşısında qardaşları da peşman

1. Baxın, Müslim, «Səlat», 119; Əbu-Davud, «Hatəм», 4; «Ədəb», 14.

olub tövbə etdilər. Yusifin -əleyhissalam- üstünlüyünü qəbul edərək onu təsdiq etdilər. Gözəl nəticə də bu yolla əldə edilmiş oldu.

Aşağıdakı misal da bu tərbiyəvi metodun bir başqa təzahürüdür:

«Bir dəstə qafil gənc Dəclə çayının kənarında şərab içib əylənirdilər. Məşhur Haqq dostlarından Maruf Kərhi -qüddisə sirruh- oradan keçirdi. Gənclər indi bu şeyxin onların etdiyi günahlara görə bəd dua edəcəyini, nəticədə də həlak olacaqlarını düşündülər və kefləri pozuldu. Bunu düşünən qəzəbli gənclərdən biri ayağa qalxdı və istehzalı bir əda ilə dedi:

- Ey şeyx! Tez ol, durma. İndi bizim Dəclə çayının azğın sularında qərq olmağımız üçün bəd dua et!

Həzrət Maruf heç qəzəblənmədi, mərhəmətlə əllərini qaldırdı və belə dua etdi:

- Ey İlahi! Bu igidlərə dünyada xoş dirilik verdiyin kimi, axirətdə də dirilik ver!

Gənclər onun bu gözlənilməz davranışı qarşısında dedilər:

- Ey şeyx! Siz nə danışırsınız? Biz bu sözlərin mənasını anlamadıq.

İxlasın bərəkəti ilə bu qısa və sadə sözlərinə uca Allahın təsir gücü verdiyi həzrət Maruf Kərhi belə cavab verdi:

- Övladlarım, Allah təala sizə axirətdə dirilik vermək istəsə, sizi tövbə etməyə yönəldər.»

İgidlər gözləmədikləri bu davranış qarşısında öncə bir müddət düşündülər. Sonra onları bir peşmançılıq və nəfs hesabatı halı bürüdü. Birdən onlar peşmançılıq içində şərablarını yerə tökdülər, musiqi alətlərini qırdılar və tövbə etdilər. Onlar iki dünyanın səadət və xoşbəxtliyinə yönəldilər.

Yuxarıda da dediyimiz kimi təsəvvüfdəki qəlbi tərbiyənin başqa bir xüsusiyyəti də hər fərdin xarakterinə görə bir islah və tərbiyə metodunun tətbiq edilməsidir. Təriqətlərin müxtəlif qollara ayrılması, xarakterlərdəki fərqlərə görə tərbiyə və təlqin metodunun zəru-

riliyindən doğmuşdur. Məsələn, ümumiyyətlə, coşqun xarakterli bir insan Qadiriliyin təqib etdiyi üsullarla daha asan tərbiyə oluna bilər. Şair, sənətkar və romantik xarakterli şəxslər Mövləvilikdə rahatlıq taparlar. Sakit və sabit xarakterli insanlar isə Nəqşi təriqətində özlərinə yer tapar və buna görə də o yolun tələqinlərinə və tərbiyə üsullarına daha asan təslim olaraq inkişaf edərlər. Xarakterin yox edilməsi mümkün deyil. Kamil mürşidlər də ancaq saliklərin xarakterindəki istedadların nəfsani bir məcraya yönəlməsinə mane olaraq onları ülvi qayələrə yönləndirməlidirlər, bu, onların vəzifəsidir. Onlar hər tələbənin mənəvi aləmindəki şəxsi xəstəliklərinə dərman olacaq xüsusi müalicə reseptləri təqdim edirlər.

Cahil ərəblər qız uşaqlarını diri-diri torpağa basdıran daşürəkli insanlar idi. Onlar haqqın yalnız güclüyə aid olduğunu, gücsüzün hər cür imkandan, təhlükəsizlikdən məhrum olduğu, mərhəmətdən qisməti olmayan toplumun insanları idilər. Bu toplum doğru yolu tapıb, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- mənəvi tərbiyəsi ilə dünyanın ən seçilmiş insanlarının yaşadığı bir cəmiyyətə çevrildi. Allah və Rəsuluna olan sevgini qəlblərində hər an diri saxlayaraq əldə etdikləri canlılıq hesabına ibadətləri təslimiyyətlə doldu. Fəzilət mənqibələri qiyamətədək müsəlmanların dillərindən düşməyəcək, könül aləmlərini nurlandıracaq gözəl əxlaq misalları oldu. Onlara "əshabi-kiram" deyildi.

Əshabi-kiram Rəsulullahın -səllallahu əleyhi və səlləm- tərbiyəsi ilə elə bir mənəvi səviyyəyə çatmışdı ki, Abdullah bin Məsud (r.a) bu vəziyyəti belə ifadə etmişdir:

«Biz boğazımızdan keçən loğmaların təsbih etdiyini duya biləcək bir hala gəlmişdik!» (Buxari, «Mənaqib», 25)

Təsəvvüf, Rəsulullahın -səllallahu əleyhi və səlləm- təzkiyə və tərbiyəsi sayəsində əshabi-kiramın əldə etdiyi bu mənəvi səviyyədən nəsiblənə bilməyin ülvi bir yoludur. Yəni həzrət Peyğəmbərə varis olmuş gerçək müəllimlərin əlində nəfsin tərbiyə və qəlbin də təsfiyə edildiyi mənəvi bir məktəbdir. Bu mənəvi tərbiyə məktəbinə daxil olub kamil insan olmaq yolunda məsafələr qət etmək *«seyr və süluk»* adlanır.

A. NƏFS VƏ ONUN TƏZKİYƏSİ

1. NƏFSİN MAHİYYƏTİ

Uca Allah insan nəslinin atası olan Adəmi -əleyhissalam- yaradılmışların ən şərəflisi edərək onu cənnətdə yaratmışdır. Ancaq uca Allah həzrət Adəm və onun nəslinə lütf etdiyi şərəf və etibara uyğun olaraq onun cənnətdə olmasının sırf lütf ilə deyil, bir əvəz qarşılığında mükafat olaraq gerçəkləşməsini istəmişdir. Bu ilahi istəyin gerçəkləşməsi üçün də Adəm -əleyhissalam- məlum "zəllə"yə düçar olmuş və bu zahiri səbəblə əsl vətəni olan cənnətdən çıxarılıb bir imtahan aləmi olan bu dünyaya göndərilmişdir.

Həzrət Adəm və onun nəslinin yenidən cənnətə dönməsinin bir mükafat olaraq təcəlla edə bilməsi üçün insanın bir sıra çətinlikləri həll etməsi zəruri olmuşdur.

Elə bu səbəbə görə də uca Allah başqa varlıqlardan fərqli olaraq həzrət Adəm və onun nəslini zidd təcəllalarla qarşı-qarşıya qoymuşdur. Bunun nəticəsində də insanların, aşağıların ən aşağısı demək olan **«əsfəli-safilin»** ilə, ucaların ən ucası demək olan **«əlayi-illiyyin»** arasında haqq etdikləri bir mövqedə olmalarını istəmişdir. Yəni yaradılmışların əşrəfi olan insan həm fitri sərmayəsi, həm də bu sərmayəni xeyirə, ya da şərə yönəltməyə uyğun olan cüzi iradəsi ilə **«bəlhüm ədall»**, yəni «heyvandan da aşağı» bir mövqe ilə «mələkdən daha üstün» bir nöqtə arasında yerini alır. Bu isə bəndənin

mübarizəsinə və fitrətində olan müsbət və mənfi təmayüllər arasındakı mücadilədən əldə edəcəyi nəticəyə görə gerçəkləşəcəkdir. Buna görə də, insan oğlunun bir sıra müsbət təmayüllərlə təchiz edilmiş olmasına baxmayaraq, bir sıra mənfi təmayüllərinin də olması bu hikmətdən qaynaqlanır. Təsəvvüfi anlayışa görə, insan oğlunda bir arada olan müsbət və mənfi təmayüllər isə «ruhi-heyvani» və «ruhi-sultani» deyilən mərkəzlərdən törəyir.

Ruhi-heyvani insanın həyatını davam etdirməsini təmin edən, bioloji quruluşa hökm edən incə bir gücdür. Ona «can», ya da «nəfs» deyilir. Yuxuda olan bir insanda heyvani ruh öz hökmünü davam etdirir. Buna görə də, bioloji fəaliyyətin bir çoxu da bu zaman qeyri-iradi baş verir. Sultani-ruh isə insan oyananda geriyə qayıdır, yəni yatan insanı tərk edir. Bədəni hərəkət etdirən, danışdıran, bir sözlə hər cür fəaliyyətin icrasına və ifasına səbəb olan, ancaq ölümlə insanın bədənindən çıxacaq olan ruh heyvani ruhdur. Mərkəzi zehin və ya qəlbdə olub, bədənin bütün üzvlərinə yayılmış və əsl hökmranlığını qan üzərində qurmuşdur. Xəlq aləmindən[2] olan və davranışların başlanğıc nöqtəsini təşkil edən bu ruh tərbiyə edilmədiyi təqdirdə insana mənfi təsir göstərir.

Ruhi-sultani isə uca Allahın insana öz ruhundan üfürdüyü ruhdur. İnsanı başqa canlılardan ayıran xüsusiyyət də budur. Əmr aləmindən[3] olan bu ruhun bədənlə birliyi müsbət işlər görmək üçündür. İnsan bədəninə yerləşdirilmiş bu ruh ilə qulluq və itaət edir, saleh əməllərə yönəlir. Bədənin öldükdən sonra çürüyüb yox olması bu ruha təsir etməz. Ölümlə ancaq bədən üzərindəki təsiri sona çatar. İnsan öz içindəki bu iki zidd qütbün mübarizəsi ilə hal və davranışlarına istiqamət verir. Sultani ruh qalib gələndə saleh əməllərə və gözəl əxlaqa yönəlir, əksinə, heyvani ruh qalib gələndə isə cürbəcür günahlara və əxlaqsızlıqlara yönəlir.

2. **Xalq aləmi:** Zaman və məkanla məhdudlaşdırılmış olaraq yaradılmış varlıqlardan ibarət olan bir aləmdir. Buna mülk və şəhadət aləmi də deyilir. Zahiri beş duyğumuzla hiss etdiyimiz şeylər bu aləmdəndir.

3. **Əmr aləmi:** Zaman və maddə ölçüsü olmadan uca Allahın «kun» (ol) əmri ilə var olan aləmdir. Buna mələküt və qeyb aləmi də deyilir. Ağıl, nəfs, ruh, qəlb, sirr və başqa lətafətlər bu aləmə aiddir.

İnsan nəfsini öz iradəsi ilə yönəltmək istedad və imkanına sahibdir. Bu imkan bəlli bir ölçüdədir. Buna görə də, insan mükafata da, cəzaya da layiq ola biləcək bir varlıqdır.

Dünya imtahanında ən çətin məsələlərdən biri nəfsdir. Nəfs insanın məruz qaldığı mənfi təmayülləri ağıla gətirir. Halbuki, onun özündə bir cövhər kimi müsbət mahiyyət də var. İnsanın vəzifəsi onu toz-torpaq kimi olan mənfiliklərdən mənəvi tərbiyə ilə təmizləyərək mahiyyətindəki cövhəri ortaya çıxarmaqdır.

Bir insan qürbətə gedəndə vətəninə əliboş dönməmək üçün çalışdığı kimi, böyük bir qürbət diyarı olan bu dünyada da axirət səadəti üçün eləcə çalışmalıdır. Çünki hər insan axirətdəki əbədi səadət, ya da peşmançılığını bu dünyadan götürəcək. Yəni müəyyən mənada qədərini bu dünya həyatında təyin edəcək.

Əbədi səadət və xoşbəxtliyin ən təməl şərtlərindən biri nəfsi gözəl əməllərə qaynaq ola biləcək bir səviyyəyə yüksəltməkdir. Belə bir qayədən məhrum olan nəfs azğın bir at kimidir. Azğın bir at sahibini mənzilə çatdırmaq əvəzinə onu uçuruma yuvarlayaraq həlakına səbəb olar. Ancaq bir at yaxşı əhilləşdirilib gözəl bir şəkildə cilovlanarsa, sahibini ən təhlükəli yollardan belə rahatlıqla keçirə bilər. Belə ki, əhilləşdirilməmiş bir atla arzu edilən hədəfə çatmaq mümkün olmadığı kimi, islah edilməmiş və nəzarət altına alınmamış bir nəfs ilə də həyatın ülvi qayəsini gerçəkləşdirmək mümkün deyil.

Həqiqətən, nəfs yaradılmışlar içərisində insanı həm yüksək bir mövqeyə ucalda bilən, həm də bunun ziddi olaraq "əsfəli-safilin", yəni aşağıların ən aşağısı səviyyəsinə alçalda bilən ikiyönlü bir vasitədir. İslah edilsə, xeyirə; tərbiyə olunmadıqda isə şərə yol açır. Bu mənada nəfs ikiağızlı bir bıçaq kimidir.

Mənəvi tərbiyə və nəzarətdən məhrum olan bir nəfs həqiqətləri qəflətlə örtən acı bir məhrumiyyətin səbəbidir. Ancaq yuxarıda da söylədiyimiz kimi insan nəfs maneəsinə baxmayaraq, pis əxlaqdan qurtulub, saflaşdırıldığı təqdirdə mələklərdən belə üstün ola bilər. Çünki hər nəticənin şərəfi ona çatmaq üçün məğlub edilən çətinliklər ölçüsündədir.

Allah ilə bəndə arasına bir qəflət pərdəsi olaraq daxil olub, onu doğru istiqamətindən uzaqlaşdıran və qəlbləri Allahdan başqa şeylərlə məşğuliyyətə sövq edən yenə də nəfsin mənfi xüsusiyyətləridir. Onun bitmək-tükənmək bilməyən mənfi həvəs və ehtiraslarına ancaq ciddi bir qətiyyətlə tətbiq ediləcək tərbiyəvi üsullarla müqavimət göstərmək olar. Bu da daimi bir sayıqlıq və iradə istəyən amansız bir mücadilə etməkdir. Buna görə də həzrət Məhəmməd -səllallahu əleyhi və səlləm- bir hədisi-şərifində belə buyurmuşdur:

«(Həqiqətdə) mücahid nəfsinə qarşı cihad edən kimsədir». (Tirmizi, «Fəzailül-Cihad», 2; Əhməd b. Hənbəl, «Müsnəd», VI, 20)

Nəfs ona qarşı aparılan mübarizə ilə ölməz, ancaq nəzarət altına alınar. Onsuz da məqsəd nəfsi yox etmək deyil, onu azğın əməllərdən çəkindirib, arzu və təmayüllərini ilahi rizaya uyğun ölçülərlə təhdid və tərbiyə edə bilməkdir. Bu məsələ ilə bağlı İmam Qəzali insanı bir atlıya bənzədərək belə deyir:

«Nəfs ruhun miniyidir. Əgər insan nəfsin cilovunu boş buraxsa və özünü onun getdiyi istiqamətə təslim etsə, mütləq həlak olacaq. (Bəzi hind dinlərində və mistik fəlsəfələrdə olduğu kimi) əgər onu öldürməyə çalışsa, bu dəfə də həqiqət yolunda miniksiz qalar. Deməli, nəfsin cilovlarını əlində tut və miniyindən istifadə et!»

Nəfsin tərbiyəsində bu ölçüyə əməl edilməsi eyni zamanda nəbəvi üsulun mahiyyətidir. Çünki Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- yeməmək, içməmək, ailə həyatı qurmamaqla özlərini ibadətə həsr etmək istəyənlərə mane olmuş, İslamda belə bir qaydanın və ruhbanlığın mövcud olmadığını təlim edərək, həyatın içində və cəmiyyətlə bir yerdə olarkən də mümkün olan mənəvi inkişafın yolunu göstərmişdir.

Digər tərəfdən çox çətin bir mücadilə olan bu tərbiyə zamanı nəfsin hal və mərtəbələrində bir sıra mərhələlər olur. Nəfsin ən böyük təhlükələrindən biri isə keçirdiyi bu dəyişikliklər və tərəqqi zamanı bir varlıq vəhminə qapılmaq və özünü bəyənməyə sürüklənməkdir. Bu gizli bir təkəbbür və özünübəyənmədir. Nəfsə qarşı başlanılan mücadilədə ən kiçik bir diqqətsizlik və etinasızlıq meydana çıxarsa,

o, dərhal keçmiş halına dönər. Çünki o hər vaxt pusquda olduğu üçün heç bir zaman onun şərindən əmin olmaq olmaz.

Buna görə də, hər mömin bağrında daşıdığı bu müdhiş gücün mənəvi həyat üçün öldürücü təhlükələrinə qarşı daimi bir sayıqlığın zəruri olduğunu bilməlidir. Nəfsin azğınlıqlarına qarşı sağlam düşüncə və vəhylə tərbiyə edilmiş bir iradə ilə müqavimət göstərib onu nəzarətə almalıdır.

İnsanın miniyi yerində olan, ancaq fitrətində azğınlıq təmayülü olan nəfsin təzkiyəsi necə olmalıdır? Nəfsin bu tərbiyə və təzkiyəsində hansı mərhələlərə bail oluna bilər? Məhz burada bu iki əhəmiyyətli məsələ üzərində duracağıq.

Önəmli olan gül təbiətli ola bilməkdir. Yəni bu dünya bağçasında tikanları görüb, onlardan inciyərək tikanlaşmaq deyil, araya qış kimi çətinliklər girsə də, onları bahar iqlimi ilə qucaqlayaraq bütün aləmə bir gül ola bilmək…

2. NƏFSİN TƏZKİYƏSİ

Təzkiyə lüğətdə təmizləmək, arındırmaq mənalarında izah olunur. Bundan başqa bu sözün inkişaf etdirmək, saflaşdırmaq, bərəkətləndirmək, feyzləndirmək mənaları da var. Bu məna çərçivəsində təzkiyə, əsasən, mənəvi tərbiyənin bütün sahələrini ifadə edir.

Nəfsi təzkiyə hər şeydən öncə onu küfr, cəhalət, pis duyğular, yanlış etiqadlar, fəna və pis əxlaqi vərdişlərdən xilas etməkdir. Yəni mübarək şəriətə zidd olan hər cür etiqadi, əxlaqi və əməli yanlışlıqlardan təmizləməkdir. Onu təmizləyib pisliklərdən qoruduqdan sonra da iman, elm, irfan, hikmət, xeyirli duyğular, gözəl xasiyyətlər kimi təqva ölçüləri ilə tərbiyə edərək, onu ruhaniyyətlə doldurmaqdır.

Təsəvvüfdə təzkiyə nəfsin istəklərini azaldaraq bədən üzərindəki hakimiyyətini qırmaq və bu yolla da ruhun hökmranlığına imkan yaratmaqdır. Bu da ancaq nəfsə qarşı iradəni gücləndirəcək olan riyazət yolu ilə, yəni yemək, içmək, yatmaq və danışmaqda ölçüyə əməl etmək kimi üsullarla təmin edilə bilər. Buna görə də təsəvvüfdə nəfsi cilovlamağın yolu az yemək, az yatmaq, az danışmaqdır. Bu bir tarazlıqdır. Çünki bunlar riyazət yolu ilə nəfs üzərində hakimiyyəti



təmin etməyin ilk addımlarıdır. Ancaq bütün məsələlərdə olduğu kimi, bu üsulları tətbiq edəndə də ehtiyatlı olmaq zəruridir. Çünki bədən Allahın insanlara bir əmanətidir.

Yəni bəndə nəfsini təzkiyə edərkən ifrat və təfrid ölçülərdən çəkinməli, onun azğınlıqlarına sədd çəkərkən riyazət və mübarizədə ölçünü itirməməlidir. Çünki din bütün hal və davranışlarda ölçülü olmağı əmr edir. İnsanlara hər cür ifratdan, ölçüsüzlükdən uzaq durmağı öyrədir. Bundan başqa, nəfsi mütləq surətdə zərərsizləşdirmək mümkün olmadığı kimi, belə bir məqsəd də yoxdur. Buna görə də nəfsin təzkiyə edilməsi nəfsani təmayüllərin ilahi əmrlər çərçivəsində qorunub tərbiyə edilməsi deməkdir.

Nəfsin tərbiyəsi və təzkiyə edilməsi bəşəri aqibətin fəlakət və ya səadət olaraq gerçəkləşməsində ən həlledici faktordur. Bu tərbiyə və təzkiyə üçün hər şeydən öncə ilahi iradəyə təslim olub, şəhəvi ehtiraslar və çirkin hallara qarşı mübarizə aparmaq lazımdır. Hər mömin öz qüsur, nöqsan, acizlik, heçlik və cahilliyini dərk edərək Rəbbini bütün əzəmət, qüdrət və kamalı ilə qavramalı və əməllərinə də bu düşüncə ilə yön verməlidir. Bu edildiyi təqdirdə, Quranın ifadəsi ilə **«pisliyi şiddətlə əmr edən»**[4] nəfs çirkin sifətlərdən arınıb məqbul bir hala gəlir.

Nəfsi təzkiyəyə çalışmaq və bu yolda ciddi bir mübarizə ilə seyr və sülukə girmək önəminə və çətinliyinə görə **«cihadi-əkbər»** adlandırılmışdır. Belə ki, bu ifadəni Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- çox çətin olan **Təbük savaşı**ndan geri qayıdarkən şəxsən özü söyləmiş və əshabına belə buyurmuşdur:

«İndi kiçik cihaddan böyük cihada dönürük».

Halbuki, getdikləri səfər çox böyük, ağır bir savaş ilə bağlı idi. Çünki səfərin əvvəlindən sonunadək münafiqlərin fitnələri və şeytanın vəsvəsələri əskik olmamışdı. O il dəhşətli bir istilik və quraqlıq hökm sürürdü. Gedilən yol olduqca uzun idi və piyada getməyə əlverişli deyildi. Meyvələrin toplanacağı yığım mövsümü də gəlib çatmışdı. Onları çoxsaylı Bizans ordusunun gözləməkdə olduğu xə-

4. Baxın, «Yusuf» surəsi, 12/53.



bəri isə bu savaşı daha da çətinləşdirmişdi. Otuz min insandan çox olan səhabə ordusu min kilometr yol getmiş və geri dönmüşdü. Mədinəyə yaxınlaşarkən onların, sanki çöhrələri dəyişmişdi. Dəriləri sümüklərinə yapışmış, saç və saqqalları bir-birinə qarışmışdı. Belə olan halda, Rəsulullahın -səllallahu əleyhi və səlləm- söylədiyi bu sözün hikmətini öyrənmək istəyən bəzi səhabələr heyrət içində dedilər:

- Ey Rəsulallah! Bizim halımız göz qabağındadır! Bundan daha böyük cihad olarmı?

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm-:

«- Bəli! İndi kiçik cihaddan ən böyük cihada, nəfsin istəkləri ilə mübarizəyə qayıdırıq!»[5],-deyə buyurdu.

Digər tərəfdən bütün savaşlarda iştirak edib sadəcə Təbük döyüşündə üzürsüz səbəblərə görə iştirak etmədikləri üçün hamının əlaqəsini kəsmək cəzası ilə cəzalandırılan və buna görə də əshab və Rəsulullahın -səllallahu əleyhi və səlləm- üzlərinə baxmadığı, onlarla danışmadığı, salamlarına belə, cavab vermədiyi üç səhabənin təsvirə sığmayan peşmanlıq və pərişanlığı məşhurdur.[6]

5. Baxın, Suyuti, «Camius-Sağır», II, 73.

6. Bu üç səhabə Mürarə bin Rabiil-Amri, Hilal bin Üməyyətil-Vakıfı və şair Kab bin Malikdir. Bunlar bütün savaşlarda iştirak etmişdilər. Kabdan başqa ikisi Bədir müharibəsində də iştirak etmişdi. Ancaq Təbük savaşında iştirak etməməklə böyük bir xətanın içinə düşdülər, onlara tətbiq edilən cəza üzündən dünya könüllərinə dar gəldi. Allah Rəsulunun -səllallahu əleyhi və səlləм- və əshabın salamlarını belə almayacaq dərəcədə onlardan üz çevirməsi, sanki yer üzünü onlara yadlaşdırmışdı. Belə ki, xanımları belə onlar üçün artıq yad bir insan idi. Çünki onlarla bağlı ilahi vəhy gələnədək onlarla hər cür əlaqə kəsiləcək və təcrid ediləcəkdilər. Çarəsiz idilər. Buna görə də gecə-gündüz peşmanlıq içində ağlayırdılar. Onlar ərimiş şama döndülər. Xəta etmişdilər, ancaq ixlas, doğruluq, təslimiyyət və tövbədən uzaqlaşmamışdılar. Beləcə, düz əlli gün keçdi. Nəhayət, həqiqəti olduğu кimi eтiraf eтdiklərinə və səмimi tövbələrinə görə bunun мükafatı olaraq aşağıdakı mübarək ayə ilə bağışlandılar: **«Həmçinin (Təbük döyüşündən) geri qalmış üç nəfərin də (tövbələrini qəbul etdi). Belə ki, dünya onlara ar olmuş, ürəkləri (qəm-qüssədən) təngə gəlib sıxılmışdı. Onlar Allahdan (Allahın əzabından) yalnız Onun Özünə sığınmağın mümkün olduğunu başa düşdülər. Allah onlara (əvvəlki hallarına) qayıtmaq üçün tövbə nəsib etdi və tövbələrini qəbul buyurdu. Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir, rəhmlidir! Ey iman gətirənlər! Allahdan qorxun və (imanında, sözündə, işində) doğru olanlarla olun!** (Peyğəmbər və onun sadiq əshabələri ilə birlikdə olun!)». (Tövbə, 9/118-119) Daha çox məlumat üçün baxın: Osman Nuri Topbaş «Nebiler silsilesi», IV, 289-294.

İndi insafla düşünülməli ki, belə bir cihad kiçik bir cihad adlandırılır və kiçik cihadda iştirak etməmək insanı hələ dünya həyatında bu qədər rəzil edirsə, ən böyük cihad olan nəfslərin təzkiyəsi və qəlblərin təsfiyəsi ilə bağlı qəflət, səhlənkarlıq sabah ilahi hüzurda insanı nə qədər çətin və ağır bir vəziyyətə düçar edər!.. Bu dəhşətli həqiqət qarşısında hər bir ağıllı mömin nəfsini dərhal dərin bir sorğu-suala çəkməlidir. Sabah çox gec olmadan və ilahi hesab başlamazdan öncə özümüzü öz iradəmizlə hesaba çəkmək məcburiyyətindəyik. Çünki uca Allahımızın ayeyi-kərimədəki bu xəbərdarlığı çox şiddətlidir:

«Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?» (əl-Muminun, 23/115)

Başqa bir ayeyi-kərimədə uca Allah belə buyurur:

«Məgər insan elə güman edir ki, o, başlı-başına (cəzasız) **buraxılacaq?!»** (əl-Qiyamə, 75/36)

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Ağıllı, nəfsinə hakim olub, onu hesaba çəkərək ölümdən sonrakı həyat üçün çalışandır, axmaq isə nəfsinin istəklərinə tabe olduğu halda, Allahdan (xeyir) umandır.» (Tirmizi, «Qiyamət», 25; İbn Macə, «Zöhd», 31)

Bu baxımdan hər mömin təzkiyəsi ilə borclu olduğu nəfsinə qarşı ciddi bir məsuliyyət düşüncəsi ilə hərəkət etməlidir. İnsan, nəfsini təzkiyə etməyə çalışarkən bu işin önəm və üsullarını yaxşı bilməlidir. Əks halda, «qaş düzəltdiyi yerdə göz çıxarmaq» məsəlində olduğu kimi bir xətaya düşə bilər. Nəfsin təhlükələrinə qarşı uca Allah biz bəndələrini belə xəbərdar edir:

«(Ey Rəsulum!) **Nəfsini özünə tanrı edəni gördünmü? Onun vəkili (zamini) sən olacaqsanmı?** (Onu bəd əməllərdən sənmi çəkindirib saxlayacaqsan? O özü haqqı axtarıb tapmalı, ona qail olmalıdır!)**».** (əl-Furqan, 25/43)

Bir hədisi-şərifində Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Ümmətimə görə ən qorxduğum şey nəfslərinin istəklərinə uymalarıdır.» (Suyuti, «Camius-Sağır», I, 12)

Ona görə də, nəfs təzkiyəsi hər mömin üçün son dərəcə həyati önəmi olan və böyük məsuliyyətli bir işdir. Bu məsuliyyəti uca Allah Qurani-Kərimdə belə ifadə etmişdir:

«Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaq! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaq». (əş-Şəms, 91/9-10)

Yəni nəfsini tərbiyə edib cilovlayan yolu rahatlıqla qət etmişdir, əksinə, onu azğınlıq və vəhşiliyi ilə baş-başa buraxan da əbədi bir ziyana düçar olmuşdur. Göründüyü kimi, nəfs ona ölçüsüz bir şəkildə tabe olunduğu zaman əbədi bir fəlakət səbəbi olur. Ancaq onu tərbiyə edib itaət altına alanda isə insanı mələklərdən üstün bir zirvəyə yüksəldir və bir qazanc vəsiləsi olur.

Başqa yöndən, infaq, sədəqə, xidmət kimi saleh əməllər zahirən başqalarına faydalı görünsə də, əslində, nəfsə doğrunu, gözəli və xeyirli olanı təlqin edir. Çünki yaxşılıqlar bu yolla insanın mənəviyyatına yerləşir, ruh bunlarla ünsiyyət yaradır. Başqa bütün saleh əməllərlə birlikdə sözlərin ən gözəli və ən doğrusu olan Qurani-Kərimi oxumaq, onun nəsihətlərini ürəkdən dinləmək və ehkamlarına əməl etmək nəfsin islah olunmasında ən böyük vasitələrdən biridir. Həyatını bütövlükdə Quran istiqamətində nizamlayan bir bəndə nəfsinin şərindən və şeytanın hiylələrindən xilas olur və yalnız Haqqın rizası ilə yaşayır. Qəlbi ilahi lütf təcəllalarına açıq olur. Belə bir hala gələn bəndə üçün artıq gözün gördüyü, qulağın eşitdiyi zahiri iqlimin görünməyən sahələrinə bir pəncərə açılır və kainat hikmətli və əzəmətli bir kitaba çevrilir. O halda heç bir mömin Qurani-Kərimdəki ilahi əmr və qadağalardan qafil olmamalı, əbədi səadət və rahatlığını təhlükəyə atmamalıdır.

❁

Uca kitabımız Qurani-Kərimdə nəfs təzkiyəsiylə bağlı bir çox ayeyi-kərimə var. Bu ayələrdə *«təzkiyə»* aşağıdakı mənalarda işlədilmişdir:

- Uca Allahın təzkiyə etməsi,

- Rəsulullahın -səllallahu əleyhi və səlləm- təzkiyə etməsi,

- İnsanın öz nəfsini təzkiyə etməsi.

Deməli, nəfs təzkiyəsi üç qismə ayrılmışdır.

1. Uca Allahın təzkiyə etməsi

Uca Allah ayeyi-kərimədə belə buyurur:

«… Özünüzü təmizə çıxarmayın. O, Allahdan qorxub pis əməllərdən çəkinənin kim olduğunu ən gözəl biləndir!». (ən-Nəcm, 53/32)

Mərhum Elmalılı Hamdi Yazır bu ayeyi-kəriməni belə təfsir etmişdir:

«Özünüzü günahsız, qüsursuz və tərtəmiz hesab edərək öyməyin. Çünki fərqində olmadığınız bir çox qüsurlarınız ola bilər.»

Bu mövzu ilə bağlı təfsirçi Alusi də belə deyir:

«Bu ayənin: «Bizim namazımız, orucumuz, həccimiz var»,-deyən bir dəstə haqqında endiyi rəvayət edilir. Təkəbbür və riya qarışması qorxusu ilə bəndənin etdiyi ibadət və xeyir işləri gizli saxlaması daha məqbuldur. Ancaq belə mənfi bir niyyət olmadan təşviq məqsədi ilə söylənilməsində bir problem yoxdur.»

Başqa bir ayeyi-kərimədə uca Allah belə buyurur:

«(Ey Rəsulum!) **Özlərini təmizə çıxaranları görmürsənmi? Xeyr,** (elə deyil)**. Allah istədiyini təmizə çıxarar və onlara xurma çəyirdəyindəki nazik tel qədər zülm olunmaz!»** (ən-Nisa, 4/49)

Bu ayədəki təzkiyə insanın özünü öyərək təmizə çıxartma cəhdindən ibarətdir. Halbuki, təzkiyə təqvaya bağlıdır. Təqva isə batində bir sifətdir və onun həqiqətini ancaq Allah bilir. Bu baxımdan ancaq Allahın təzkiyə etməsi məqbul olur.

Belə ki, Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə dua edərdi:

«Allahım! Nəfsimə təqvasını ver və onu təmizlə! Sən onu təmizləyənlərin ən xeyirlisisən. Sən onun vəlisi və Mövlasısan». (Müslim, «Zikr», 73)

Ayeyi-kərimədə belə buyurulur:

«Ey iman gətirənlər! Şeytanın yolunu tutub getməyin. Kim şeytanın getdiyi yolla getsə, o, (insanlara) **çirkin, pis işlər görməyi** (zina etməyi, yalan danışmağı, özgələrə böhtan atmağı) **əmr edər. Əgər Allahın sizə neməti və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt** (günahdan) **pak olmazdı. Ancaq Allah dilədiyini** (günahdan) **pak edər. Allah (hər şeyi) eşidəndir, biləndir!»** (ən-Nur, 24/21)

Göründüyü kimi, ayeyi-kərimədə təzkiyənin Allaha aid olduğu ifadə edilir. Çünki uca Allah fəzli və rəhməti ilə bəndəni itaətlərə və başqa təzkiyə vasitələrindən istifadə etməyə yönəldər. Bu səbəblə bəndə mənlik iddiasından çəkinərək ilahi təzkiyə hesabına əldə etdiyi səviyyəni öz güc, ləyaqət və cəhdinə bağlamamalıdır. Uca Allahın təzkiyə etməsindən başqa bəndənin axirətdə özünü təmizə çıxara bilməyəcəyini də dərk etməlidir. Bu anlayış əbədi qurtuluşa qovuşmağın ən önəmli vasitələrindən biridir. Çünki təzkiyə əzm və iradə baxımından insana, təlim və tərbiyə yönü ilə peyğəmbərlərə və onun varisi olan mürşidlərə aid edilsə də, ilahi mərhəməti ilə bəndələrini təzkiyəyə müvəffəq etməsi və bunu yaratması baxımından Allah təalaya aid edilməlidir.

2. Rəsulullahın -səllallahu əleyhi və səlləm- təzkiyə etməsi

Qurani-Kərimdə həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- vəzifələri haqqında belə buyurulur:

«Həmçinin (nemətimizi tamamlamaq məqsədi ilə) **sizə ayələrimizi oxumaq, sizi** (günahlardan) **təmizləmək, Kitabı** (Quranı), **hikməti** (şəriəti, halalla-haramı) **və bilmədiklərinizi öyrətmək üçün sizə öz içərinizdən bir peyğəmbər göndərdik.»** (əl-Bəqərə, 2/151)



«Allah möminlərə lütf etdi. Çünki onların öz içərisindən özlərinə (Allahın) **ayələrini oxuyan, onları** (pis əməllərdən) **təmizləyən, onlara Kitabı** (Quranı) **və hikməti öyrədən bir peyğəmbər göndərdi. Halbuki, bundan əvvəl onlar açıq-aydın zəlalət içərisində idilər.»** (Ali-İmran, 3/164)

Bu ayələrdən açıq görünür ki, Kainatın Fəxrinin üç başlıca vəzifəsi var:

a. Allahın ayələrini insanlara oxumaq

Peyğəmbərlərin ümmətlərini Haqq yoluna dəvəti gələn vəhyin oxunması ilə başlayır. Ancaq bu vəzifə insanları seçilən hədəfə çatdırmaqda ilk mərhələdir və bir zəmin təşkil edir.

b. Təzkiyə etmək

Tövhid dəvətinin öz məqsədinə çatması ancaq nəfsləri küfr, şirk və günah kimi mənəvi kirlərdən təmizləyib, onu mütilik və rahatlığa qovuşdurmaqla mümkündür. Belə ki, keçmişi cahil bir insan olan əshabi-kiram doğru yolu tapıb Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- feyzli söhbəti və mənəvi tərbiyəsi ilə könüllərini təmizlədikləri anda dünyanın ən seçilmiş insanlarına çevrildilər. Onların dillərdə və könüllərdə dolaşan fəzilət mənqibələri əsrləri və iqlimləri fəth etdi.

c. Kitab və hikməti öyrətmək

Bu mərhələdə isə yerinə yetirilməsi zəruri olan qanunları və hökmləri bəyan edən Kitabın, yəni Qurani-Kərimin təlimi gəlir. Qurani-Kərimin ruhunda dərinləşə bilmək qəlbi səviyyəyə bağlıdır. Qurani-Kərim əsl qəlb ilə oxunub anlaşılar. Gözlər isə qəlb üçün ancaq sadə bir vasitədir.

Quran, kainat və insan ilahi adların təcəllaları ilə meydana gəldiyindən sonsuz bir sirlər xəzinəsidir. Bu sirr və hikmətlər də qəlbi arınma və kamilləşməyə uyğun olaraq idrakda təcəlla edər. Hikmətin təlimi bütün bu mərhələlərdən sonra gəlir. Çünki uca Allah, ilahi adlarının bəşər düşüncəsinə kəlam şəklində təcəllası demək olan Qurani-Kərimin hikmət və sirlərini ancaq arınmış bir qəlbə sahib olan şəxslərə öyrədər.



Ayeyi-kərimələrdə təzkiyə ilə kitab və hikmətin təliminin birgə zikr edilməsi təzkiyə olunmamış şəxslərin elm əldə edə bilməyəcəklərini, etsələr də, bu elmin onlara bir fayda verməyəcəyini ifadə edir. Çünki elm və hikmət elə bir nur və zinətdir ki, bunu əldə etmək üçün onun məkan seçəcəyi yerlərin, yəni qəlbin hər şeydən öncə lüzumsuz və zərərli şeylərdən təmizlənməsi zəruridir. Bu baxımdan peyğəmbərlər öncə ayələri oxuyarlar, sonra bu ayələrə inanan və könül verən kimsələrin nəfslərini azğınlıqlardan, çirkinliklərdən təmizləyərək qəlblərini mənəvi kirlərdən arındırıb saflaşdırarlar. Daha sonra da təzkiyə və təsfiyə olunmuş şəxslərə kitab və hikməti təlim edərlər. Kainatdakı sirr və qüdrət nemətinə ancaq belə bir qəlbin sahibləri aşina olar və onlar bir hikmət qaynağına çevrilərlər. Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- bu vəzifələrindən ayələri oxuyub haram və halalı öyrətmək alimlər tərəfindən, nəfsləri təzkiyə, qəlbləri təsfiyə vəzifəsi isə kamil mürşidlər vasitəsi ilə qiyamətədək davam edəcək.

3. İnsanın öz nəfsini təzkiyə etməsi

Bu məsələ ilə bağlı uca Allah Qurani-Kərimdə belə buyurmuşdur:

«And olsun nəfsə (insana) **və onu yaradana** (ona biçim verənə). **Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini** (xeyir və şəri) **öyrədənə ki, nəfsini** (günahlardan) **təmizləyən mütləq nicat tapacaq! Onu** (günaha) **batıran isə, əlbəttə, ziyana uğrayacaq.»** (əş-Şəms, 91/7-10)

Ayeyi-kərimənin məzmununa görə ancaq Allahın təmizlədiyi, yəni günahlardan arınmış, feyz və təqva ilə tərbiyə olunmuş şəxslər həqiqi qurtuluşa nail olacaqlar. Uca Allahın:

«(Saleh) **bəndələrimin arasına daxil ol və cənnətimə gir»** (əl-Fəcr, 89/29-30) ayəsindəki müjdəsi də bu xoşbəxt bəndələr haqqındadır.

Başqa bir ayeyi-kərimədə uca Allah belə buyurur:

«(Günahlardan) **təmizlənən kimsə isə nicat tapacaqdır. O**

kimsə ki, Rəbbinin adını zikr edib namaz qılar!» (əl-Əla, 87/14-15)

Ayeyi-kərimədəki sıralama da diqqəti cəlb edir. Belə ki, ayeyi-kərimədəki sıralama bu şəkildədir:

- Öncə qəlb, bədən və malı kirlərdən gözəlcə təmizlənmək,

- Bunun hesabına Rəbb ilə bəndə arasında olan qəflət pərdələrini söküb atmaq,

- Sonra da halal qidalarla bəslənmiş bir bədən və zikr edən bir qəlb ilə təslimiyyət duyğusu içərisində tam bir ibadət iqliminə girərək könlü mənəvi ləzzətlərlə bəzəməkdir.

Müfəssir Bursəvi belə bəyan edir:

«Bu ayədə şəriətə zidd olan işlərdən nəfsi təmizləməyə, qəlbi dünya sevgisindən arındırmağa, gücü ölçüsündə Allaha yönəlməyə, hətta, Allahdan başqasını xatırlamaqdan belə çəkinməyə işarə var.»

Belə ki, Allah dostlarından Əbu Bəkr Qəttaniyə -qüddisə sirruh- ölüm döşəyində olarkən hansı bir əməli olduğu soruşulanda bu yuxarıda sadalananların bir əməli nümunəsi kimi aşağıdakı gözəl sözlərlə cavab vermişdir:

«Ölümüm yaxın olmasa, riya olacağı əndişəsi ilə sizə əməlimdən bəhs etməzdim. Tam qırx il qəlbimin qapısında gözətçilik etdim. Onu uca Allahdan başqasına açmamağa çalışdım. Qəlbim o hala gəldi ki, Allahdan başqasını tanımaz oldum.»

İbn Abbas (r.a) yuxarıdakı ayədə olan **«təzəkka»** kəlməsini «İnsanın **«lə iləhə illəllah»** deməsidir», şəklində təfsir etmişdir. (Qurtubi, «əl-Cami», XX, 22)

Çünki təmizləmədə ilk addım qəlbin küfr və şirkdən təmizlənməsidir.

Belə ki, tövhid kəlməsi öncə **nəfy** ilə başlayar. Yəni **«lə iləhə»** deyərək qəlbdən bütə çevrilmiş nəfsani həvəslər çirkin əxlaq və xasiyyətlər çıxarılır. Sonra **isbata** keçilir, yəni **«illəllah»** deməklə bir ilahi nəzərgah olan qəlb uca Allahın tövhid nurları ilə doldurulur.

Şair bu gerçəyi çox gözəl ifadə etmişdir:

Sür çıkar ağyarı dilden ta tecelli ede Hak,
Padişah girmez saraya hane mamur olmadan.

«Könül sarayından Allahdan başqa nə varsa, hamısını çıxar. Çünki ev hazır olmadan padşah sarayı şərəfləndirməz.»

Təmizlənmənin önəmi ilə bağlı İbrahim Desuki -qüddisə sirruh- belə buyurur:

«Ey oğlum! Gündüzlərini orucla, gecələrini namazla keçirsən, təmiz bir iç aləminə və Haqq ilə xalis bir ünsiyyətə sahib olsan, əsla mənəm-mənəmlik iddiasında olma! Əsla təkəbbürə məğlub olub nəfsin səni aldatmasına inanma. Çünki bir çox dərviş nəfsinin istəklərinə tabe olub həlak oldu.»

Hatəmi Əsam -qüddisə sirruh- da belə buyurur:

«Möhtəşəm saraylara, məhsuldar bağ və bağçalara aldanma. Cənnətdən daha gözəl bir yer yoxdur. Ancaq həzrət Adəmin başına nə gəldisə, cənnətin o sonsuz gözəllikləri içində olarkən gəldi. Nəfsi orada əbədi qalmaq istədi. Qadağan olunmuş meyvəyə yaxınlaşdı. İlahi istəyə uyğun olaraq dünyaya endirilməklə cəzalandırıldı.

İbadət və kəramətinin çoxluğuna aldanma. Çünki sahib olduğu çoxsaylı kəramətə baxmayaraq, Allahın (c.c) ona ismi-əzəmi öyrətdiyi Bələm bin Bauranın[7] başına gələn kədərli aqibət çox ibrətlidir.

Sən, sən ol, elm və əməl çoxluğuna da aldanma. Çünki elm və əməlinə baxmayaraq, İblisin başına nələr gəldi, bilmirsənmi?! Nəfs və şeytanın hiyləsi ilə aldananlardan olma!

Belə ki, bəndələrinə mərhəməti sonsuz olan uca Rəbbimiz ayeyi-kərimələrdə şeytanın hiylə və tələlərinə qarşı xəbərdarlıq edərək belə buyurur:

«(İblis) **dedi: «Sənin məni** (Adəmə səcdə etmədiyimə görə) **zəlalətə düçar etməyinə əvəz olaraq mən də Sənin düz yolunun**

7. Baxın, «Əraf» surəsi, 175-176-cı ayələr.

üstündə oturub insanlara (Sənə ibadət və itaət etməyə) **mane olacağam!»** (əl-Əraf, 7/16)

«(İblis) **dedi: «Ey Rəbbim! Məni azdırmağına** (rəhmətindən kənar etməyinə) **əvəz olaraq and içirəm ki, mən də** (bunun müqabilində) **onlara** (pis əməllərini, günahlarını) **yer üzündə yaxşı göstərib onların hamısını yoldan çıxaracağam!».** (əl-Hicr, 15/39)

Abidlərin, zahidlərin yanında oluram deyə də özünə güvənmə. Çünki boş-boşuna bir yerdə olmaq faydasızdır. Saləbə[8] həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- söhbətində duyğusuzca iştirak etdiyindən faciəli bir aqibətlə üzləşdi.

Bir peyğəmbər övladı olmasına baxmayaraq, həzrət Nuhun oğlu atasının dəvətini qəbul etmədiyinə görə bədbəxt oldu. Aralarındakı qan bağı belə ona heç bir fayda verməmədi. Nəticədə həlak oldu.

Həzrət Lutun xanımı kafir və müşriklərlə olan ünsiyyət və məhəbbətinə görə yanında olan hidayət nurundan pay ala bilmədi və qəflət içərisində küfrün qaranlıqlarında boğuldu.

Xülasə elm, əməl, mal, övlad və dost kimi nə qədər arxan olsa da, axirətdəki qurtuluş üçün bunlara çox güvənmə! Bunlardan nəfsinə bir pay çıxarma.»

Ayeyi-kərimədə:

«Günahlardan təmizlənən kimsə isə nicat tapacaqdır», buyurulur. Bu ifadədən eyni zamanda «təzkiyə olmayanların, yəni mənliklərini pisliklərdən arındırmayanların nicat tapmayacağı» mənası da ortaya çıxır.

Uca Allah Qurani-Kərimdə belə buyurur:

«**…** (Ey Peyğəmbər!) **Sən ancaq Rəbbindən** (Onun əzabını) **görmədikləri halda qorxanları və** (vaxtlı-vaxtında) **namaz qılanları qorxudub xəbərdar edirsən. Hər kəs** (günahlardan, küfrdən)

8. Saləbə əvvəllər məsciddən və Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- söhbətlərindən ayrılmazdı. Sonra da mal-mülk sahibi olub dünya sevgisi könlünə yerləşəndə camaatı tərk etdi, fərz olan zəkatını belə verməkdən imtina edərək kədərli bir aqibətə düçar oldu. (Təbəri, «Təfsir», XIV, 370-372; İbn Kəsir, «Təfsir», II, 388)

təmizlənsə, özü üçün təmizlənmiş olar (savabı özünə yetişər). **Axır dönüş ancaq Allahadır!».** (Fatir, 35/18)

Ayeyi-kərimədə peyğəmbərlərin ümmətlərini faciəli aqibətlərlə bağlı xəbərdar etmələrinin və qorxutmalarının, ancaq görmədikləri halda qəlbləri Allahın əzəməti ilə dolu olan, namaz qılan və zahirlərini ibadət ilə bəzəmiş olan kimsələrə fayda verəcəyi bəyan edilmişdir.

Günahkar insan günahının əvəzini ancaq özü çəkəcəkdir və heç kəs ona ortaq olmayacaq. Edilən xeyir işlər də ancaq onun sahibinə fayda verəcək. Təmizlənən şəxs də öz xeyrinə təmizlənəcək.

Ayeyi-kərimədəki «təzəkkə» kəlməsi Allah qorxusuna və namazı mütiliklə qılmağa da şamildir.

«Allahdan ancaq həqiqi mənada alim olanlar qorxarlar» (Fatir, 35/28) ayəsi insanın həqiqi bilgiyə qovuşduğu ölçüdə Allahın adı çəkiləndə qəlbinin titrəyəcəyini ifadə edir. Rəbbini bilməyən və Ondan qorxmayan şəxslərin qəlbi ölüdür. Belələrinə xəbərdarlıq və nəsihət təsir etməz. *«Yasin»* surəsinin yetmişinci ayəsində buyurulan bəyan da **«**(Peyğəmbər Quran ilə qəlbləri) **diri olanları xəbərdar etsin deyə…»** bunu anladır. Yəni batində qorxu, zahirdə də doğru qılınan bir namaz olmalıdır.

Günahlardan təmizlənməyin əvəzi cənnət və onun yüksək dərəcələridir. Ayeyi-kərimədə belə buyurulur:

«Kim (Rəbbinin hüzuruna) **yaxşı əməllər etmiş bir mömin olaraq gələrsə, belələrini ən yüksək dərəcələr gözləyir. Əbədi qalacaqları** (ağacları) **altından çaylar axan Ədn cənnətləri! Bu,** (günahlardan) **pak olanların** (təmizlənənlərin) **mükafatıdır».** (Taha, 20/75-76)

Allahdan başqasına könül bağlamaqdan qurtulmağın əvəzi isə cənnətdən də daha böyük bir nemət olan Cəmalullah nemətidir ki, orada uca Allahın təriflərə sığmayan gözəllikdəki camalının təcəllaları tamaşa edilir. Kim öz iradə, ixtiyarı və haqqı ilə Allaha yönələrsə, ondan başqa bir düşüncəsi olmaz. Allahı tanımaq, yəni mərifətullah da təzkiyə edildikdən sonra nəfsin həqiqətini öyrənməklə başlayar.

«Nəfsini bilən, Rəbbini də bilər» həqiqəti bu mənanı ifadə edir.

İnsanlığın daha çox maddi nemətlərə təslim olub nəfsaniyyət girdabında ruhunu qaraltdığı günümüzdə nəfsin çirkin ehtiraslarından uzaq qala bilən nurani şəxslərin rəhbərliyinə olan ehtiyacımız daha da çoxdur. Bu münasibətlə Haqq dostu olan mənəviyyat sultanlarının qəlbləri dirildən nəsihət və tövsiyələrindən, onların bir örnək olan ibrət, hikmət dolu yaşayışlarından öz xeyirimizə bir nümunə götürməliyik.

Milli tariximizin zahiri planında olduğu kimi, mənəviyyat aləmində də zirvə şəxsiyyətlərdən biri olan Yavuz Sultan Səlim Xanın yolumuzu nurlandırmağa səbəb ola biləcək bu davranışı çox mənalıdır:

«O, zəfərlərdən zəfərlərə nail olduğu Misir səfərindən dönərkən İstanbul xalqının onu böyük bir həyəcan ilə gözlədiyini eşitdi. Buna cavab olaraq şəhərə yaxınlaşmış olmasına baxmayaraq, ordusunu Çamlıcanın arxasında, dağların ətəyində saxladı və İstanbula girmədi. Çoxsaylı böyük ordulara qalib olan Sultan nəfsinə məğlub olmaq qorxusu ilə min bir əndişəyə düşdü və lələsi Həsən Cana belə dedi:

«Lələ, hava qaralsın, hər kəs evinə dönsün və ondan sonra İstanbula girək. Fani olanların alqışları, zəfər həyəcanı və bizə göstərəcəkləri xoş münasibətlər bizi nəfsimizə məğlub edib yerə sərməsin!..»

Nəhayət, axşam olub, hər yer qaranlığa bürünəndən sonra gizlicə və təmtəraqsız bir şəkildə şəhərə girdi. Çünki o, ehtişam və səltənətin nəfsi tələyə sala biləcəyini bilən ayıq bir sultan idi. Bir vəlinin mübarək nəfəsi ilə aydınlığa qovuşmağın dünya səltənətindən də dəyərli olduğunu ifadə edən bu beyti çox məşhurdur:

Padişahi -alem olmak bir kuru kavğa imiş,
Bir veliye bende olmak cümleden ala imiş.

Hər mömin tez-tez nəfsi ilə iç sorğu-sualına girərək onu hesaba çəkməli, mənəvi vəziyyətini ciddi bir şəkildə qaydaya salmalı, onu nəzarətdə saxlamalıdır. Buna ruhiyyət elmində nəfs sorğu-sualı

deyirlər. İnsan heç olmasa, başını yastığa qoyduğu hər iyirmi dörd saatdan bir o günün haqq-hesabını düşünməli və özünü sorğu-suala çəkməlidir. Bunu bir vərdişə çevirənlərin xətada israr etmək xəstəliyindən xilas olmaları asanlaşar.

Bu məsələ ilə bağlı həzrət İmam Qəzalinin bu nəsihətlərini dinləyək:

«Bir mömin sabah namazını qıldıqdan sonra və günə başlamazdan əvvəl bir müddət nəfsi ilə baş-başa qalmalı, onunla bir sıra şərtlər müəyyənləşdirməli və bir sıra məsələlərlə bağlı razılığa gəlməlidir. Belə ki, bir tacir də sərmayəsini ortağına vermək istəyirsə, onunla belə müqavilə bağlayar. Tacir ortağına xəbərdarlıq etməyi də unutmaz. İnsan da nəfsinə belə xəbərdarlıq və təlqin etməlidir:

«Mənim sərmayəm ömrümdür. Ömrüm başa çatanda pulum da gedər, artıq iş və qazancım da başa çatar. Ancaq bu başlayan gün yeni bir gündür. Uca Allah bu gündə mənə möhlət verərək mükafatlandırdı. Əgər məni öldürsəydi, əlbəttə, bir günlüyə olsa da, geri göndərilib burada ardıcıl olaraq saleh əməllər və müxtəlif xeyir işlər görməyi istəyərdim. İndi qəbul et ki, öldürüldün və geri qaytarıldın. Ona görə də, bu gün günah və pis işlərə qətiyyən yaxınlaşma və bu günün bir anını belə əsla boş keçirmə. Çünki hər nəfəs əvəzi olmayan bir nemətdir.

Yaxşı bil ki, bir gün gecə və gündüz ilə birlikdə iyirmi dörd saatdır. Qiyamət günü insan oğlunun önünə hər gün üçün iyirmi dörd dənə bağlı qutu gətirilir. Qutunun birini açıb, o saatda etdiyi əməllərin mükafatı olaraq içinin nur ilə dolu olduğunu görəndə Allahın lütf edəcəyi mükafatı düşünərək qul elə sevinər ki, bu sevinci cəhənnəm xalqı arasında paylanılsa, onlar cəhənnəmin acısını duymazlar. İkinci qutunu açanda ondan qaranlıq və pis qoxular çıxar ki, bu da üsyan ilə keçirdiyi saatdır. Buna da elə üzülər ki, əgər bu üzüntü cənnət xalqına paylanılsaydı, kədərlərindən cənnətin zövqünü duymazdılar. Üçüncü bir qutu da açılar ki, içi tamamilə boş olar. Bu da yuxuda, ya da icazə verilən məsələlərlə bağlı keçirtdiyin saatdır. Ancaq kiçik bir xeyrin mükafatına belə, çox ehtiyac duyulduğu o gündə imkan olduğu halda

böyük bir qazancı itirən tacirin həsrəti kimi və bəlkə ondan daha çox yanar, o saatı boş keçirməsinin acısı ilə qıvrılar. O halda, ey nəfsim, fürsət varkən sandığını yaxşı doldur, əsla onu boş saxlama. Tənbəllik etmə, yoxsa yüksək dərəcələrdən düşərsən.»

Bədənin üzvləri də nəfsin yardımçılarıdır. İnsan onlara vəzifələrinə görə xüsusi tövsiyələr verməli, bu əmanətləri pis işlərə bulaşdırmamağı nəfsinə təlqin etməlidir.

Gözü haramlara və qəlbi məşğul edəcək faydasız, boş şeylərə baxmaqdan qorumalıdır.

Dili *«dilin fəlakəti»* sayılan dedi-qodu, qeybət, iftira, yalan, söz çatdırmaq, özünü öymək, başqalarını ələ salmaq, yaltaqlanmaq kimi çirkin şeylərdən qorumalı, hər zaman zikrə və xeyir sözlər danışmağa yönəltməlidir.

Mədəni haram və şübhəli qidalardan qorumalı, halal olanları da ən az ölçüdə qəbul etməyə alışdırmalıdır.

İnsan hər hərəkətində bir çox faydalı şeylərlə qarşılaşır. Məqsədsiz məşğuliyyətləri tərk etməsi çox uyğun bir davranışdır. Belə ki, Rəsulullah -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Lüzumsuz şeyləri tərk etməsi insanın yaxşı müsəlman olmasındandır.» (Tirmizi, «Zöhd», 11; İbn Macə, «Fitən», 12)

Yəni həqiqi bir möminin danışması zikr, baxışı ibrət, susması da təfəkkür olmalıdır.

Nəfs belə təlqinlərlə hər zaman oyaq saxlanılmalıdır.

Nəfsi hesaba çəkərkən gözdən qaçırılmaması zəruri olan məsələlərdən biri də etdiyi əməlin Allah, yoxsa, nəfsi üçün olduğunu yoxlamaqdır. Çünki insan tez-tez Allah üçün saleh əməllər etdiyini güman etdiyi halda, nəfsani duyğularını təmin etmək üçün bir iş görmüş ola bilər.

Nəfs təzkiyəsi nəticəsində qəlb «sağlam»laşır. Sağlam qəlb mərhələsində bu üç hal müşahidə edilir:

1. O şəxs heç kimi incitməz. O, Allahdan qorxma halıdır. Qəlb nəfsin şərindən qorunur. Gözəl əxlaq yaranır.

2. Kimsədən inciməz. Bu da məhəbbət əhlinin halıdır. Fanilərin öyməsi və tənqid etməsinin bir önəmi olmaz. Günəş işığı qarşısında işıqlandırma və qaranlıq yaratmağın bir önəmi olmadığı kimi.

Şair bu halı belə ifadə edir:

Cihan bağında ey aşık budur maksudi-insü cin,
Ne kimse senden incinsin, ne sen bir kimseden incin.

3. Dünya mənfəəti ilə axirət qarşı-qarşıya gəldikdə axirəti seçərək ilahi rizanı üstün tutar.

Bütün bu söylədiklərimizin qısa məzmunu budur:

Allah təala bir imtahan aləmi olmasını istədiyi bu dünyada hər insanın qarşısına nəfs çətinliyi qoymuş və insanı nəfsin ortaya çıxardığı çətinlikləri məğlub edərək qalib bir şəkildə özünə geri dönmək vəzifəsi vermişdir. Nəfsin xeyrə də, şərə də yol açmaq imkanı var. Deməli, o həm bir qazanc qapısı, həm də ona itaət edildiyi təqdirdə cəhənnəm quyusudur. Nəfsi təzkiyənin bərəkəti isə dünyada heç bir şeylə müqayisə edilməyəcək dərəcədə çoxdur.

Uca Allah hamımızı nəfsinə qalib gələnlərdən etsin!

Amin!

Nəfsindən arınmış insan mütləq sənətkarın, yəni Rəbbinin bir sənət xariqəsidir. Çünki o, bütün camali təcəllaların əks olunduğu yerdir.

3. NƏFSİN MƏRTƏBƏLƏRİ

Mənəvi tərbiyə və təkamül zamanı müşahidə edilən nəfsin hal və mərtəbələri məşhur təsnifə görə yeddi qismə ayrılır:

a. Nəfsi-Əmmarə

Bəndəni Rəbbindən uzaqlaşdıraraq pislik etməyə təhrik edən ən çirkin vəziyyətdə olan üsyankar nəfsdir. «Əmmarə» çox əmr edən deməkdir. Belə olan nəfsin yeganə məqsədi istək və həvəslərini ölçüsüz bir biçimdə təmin etməkdən ibarətdir. Şəhvətin əsiri, şeytanın köləsi olmuş, kefinə, zövqünə, günaha düşkün olan nəfsdir. Nəfsin düşkünlüyü və ölçüsüz istəkləri demək olan şəhvətə qarşı hər hansı bir mücadilə göstərməmək, onun arzularına tabe olaraq şeytanın yoluna uyub getməkdə nəfsi-əmmarə səviyyəsində olan şəxslərin əlamətlərindəndir.

Əslində, nəfsi-əmmarə sahibinə qarşı şeytandan da təhlükəli ola bilər. Belə ki, bu xüsusiyyəti İbn Ataullah əl-İskəndəri belə izah edir:

«… Sən nəfsindən qorx! O nəfs ki, sənin əleyhinə çalışır. Üstəlik ölüncəyədək sahibindən ayrılmaz. Ancaq şeytan heç olmasa,

Ramazan ayında insandan ayrılır. Çünki Ramazan ayında şeytanlar zəncirə bağlanılır. Ancaq buna baxmayaraq, Ramazan ayında da baş verən cinayət, oğurluq və əxlaqsızlıq əməlləri şeytanın aldatmasından deyil, nəfsin azğınlığından irəli gəlir.»

Uca Allah ayeyi-kərimədə belə buyurur:

«… Şübhəsiz ki, nəfs (insana) **pis işlə görməyi** (şəhvətə uymağı) **əmr edər…»** (Yusuf, 12/53)

Bu ayeyi-kərimə nəfsi-əmmarəyə aiddir.

Başqa yöndən, insanın mənəvi aləmdəki mövqeyi baxımından nəfsi-əmmarə heyvanlar içərisindəki zəhərli ilana bənzəyir. Şübhəsiz ki, belə bir bənzətmə ilə nəfsin təhlükələrinə və faciəvi nəticələrinə diqqət yönəldilir. Belə ki, şair Nevizadə Ətai bu həqiqəti belə ifadə etmişdir:

Döndü ahlaki-zemime mare
Şahi-maranı anın emmare.

«Hər pis əxlaq bir ilana bənzədi. Bu ilanların şahı da nəfsi-əmmarə oldu.»

Bu baxımdan, sağlam ağıl sahibi olan hər bir mömin nəfsi-əmmarə ilə daimi bir cihad halındadır. Bu cihadda ağıl və iradə qılıncını qəflət qınına qoymaqdan daha böyük bir ziyan ola bilməz. Çünki nəfs çoxsaylı ülvi dəyərlərə sahib olan bir çox şəxslərin bir anlıq qəflətindən istifadə edərək əbədi peşmanlıq və bədbəxtliyə amil olmuşdur. Ancaq Allahın yardım edib qoruduğu səmimi bəndələr bundan istisnadır.

Belə ki, Misir əzizinin xanımı Züleyxa ilə həzrət Yusif arasında baş verən bu hadisə çox ibrətlidir: Qurani-Kərimdə bildirildiyinə görə, Yusif -əleyhissalam- böyümüşdü. O, gözəlliyi ilə diqqəti cəlb edən bir gənc olmuşdu. Onun bu halı yaşadığı evin xanımı olan Züleyxanı müxtəlif düşüncələrə sövq etmişdi. Uca Allah ayeyi-kərimələrdə bu hadisəni belə bildirir:

«… Evində olduğu qadın (Züleyxa Yusifi) tovlayıb yoldan çıxartmaq (onunla yaxınlıq etmək) **istədi və qapıları bağlayaraq: «Di gəlsənə!»,-dedi.** (Yusif isə)**: «Mən** (sənin bu hərəkətindən) **Allaha sığınıram. Axı o (sənin ərin) mənim ağamdır. O mənə yaxşı baxır** (ya da Allah mənim ixtiyar sahibimdir, mənə mərhəmət ehsan buyurmuşdur). **Həqiqətən,** (ağasına xəyanət etməklə onun əhli-əyalına pis gözlə baxmaq və zina etməklə özlərinə) **zülm edənlər nicat tapmazlar!»,-deyə cavab verdi. Doğrudan da** (qadın) **ona meyil salmışdı. Əgər Rəbbinin dəlilini (xəbərdarlığını) görməsəydi,** (Yusif də) **ona meyil edərdi. Biz pisliyi və biabırçılığı** (zinanı) **ondan sovuşdurmaq üçün belə etdik. O, həqiqətən, Bizim sadiq bəndələrimizdəndir!»** (Yusuf, 12/22-24)

Yusif -əleyhissalam- uca Allahın lütf və kərəmi ilə mənəvi yardımlara nail olmuş və bu yolla da nəfsi-əmmarəni təmsil edən Züleyxaya meyil etməkdən qurtulmuşdur. Biz aciz bəndələr də uca Allaha təqva ilə yönələrək özümüzü nəfsimizin şərindən və təhlükəli hallarından uzaq tutmaq məcburiyyətindəyik.

Uca Rəbbimizin aqibəti faciəli olan bir sıra işlərin ilk səhifələrinə belə, aid olan əməllərdən özümüzü qorumağımızı əmr etməsi bu hikmətə görədir. Məsələn, bir kişinin halal olmayan bir qadına şəhvətlə baxması zinaya yol açdığına görə qadağan edilmişdir. Başqa bütün pis işlər üçün də vəziyyət belədir.

Həqiqətən, bu hadisə böyük ibrətlərlə doludur. Çünki əbədi qurtuluşa bir əvəz olan dünyəvi imtahanları çətin və şiddətli edən bir çox ünsür burada adətən bir araya toplanmışdır. Belə ki:

Yusif -əleyhissalam- gözəlliyi dillərə dastan olacaq, mələk kimi bir gənc idi. Gözəlliyi qarşısında qadınlar barmaqlarını doğradıqları halda, heyranlıqlarından bunu hiss etməmişdilər. Əgər Yusif -əleyhissalam- çirkin və şəhvət duyğuları sönmüş bir qoca olsaydı, nə bu imtahan bu qədər çətin, nə də bu hadisə bu qədər ibrətamiz ola bilərdi.

Buna qarşılıq Züleyxa da nəfslərin ən çox aldandığı üç vəsfin; yəni sərvət, şöhrət və şəhvətin təmsilçisi idi. Əgər Züleyxa da yaşlı,

ya da çirkin bir qadın olsaydı, həzrət Yusifin imtahanı bu qədər çətin olmaz və bu hadisə bu qədər təsirli bir örnəyə çevrilməzdi. Ancaq o da gənc idi, gözəl idi və bir çox şəxsi özünə ram edə biləcək bir cazibəsi var idi. Bundan başqa o, evin qapısını da bərk-bərk bağlamışdı. Beləliklə, gizlilik və tənhalığın günahları artırdığı bir zamanda həzrət Yusifə şiddətli bir arzu ilə belə dedi: **«Mənim yanıma gəlsənə!»** O, bu sözləri ilə çirkin bir əmələ cəhd göstərdi. Müqavimət göstərməkdə bir çoxlarının iradəsini əridə biləcək belə bir mənzərə qarşısında Yusifin -əleyhissalam- belə, çətin bir vəziyyətdə qaldığını uca Allah bu sözləri ilə ifadə etmişdir:

«...Əgər Rəbbinin dəlilini (xəbərdarlığını) görməsəydi, (Yusif də) ona meyil edərdi...»

Yusif -əleyhissalam- qarşısında olan bu dəhşətli cazibələrin hiylələrinə aldanmamaq üçün «maazallah» deyərək yeganə çarənin yüksək bir təqva ilə «Allaha sığınmaq» olduğunu anlamışdır. Bu da ilahi yardımın özünü göstərməsi üçün təqvanın bir zərurət olduğunu ortaya qoyur. Yəni nəfsi-əmmarənin şiddətli arzularına müqavimət göstərmək ancaq təqva duyğularının qüvvətlənməsi hesabına mümkün ola bilər.

Həqiqətən, bir kişinin həyatı boyunca qarşılaşa biləcəyi imtahanların ən ağırlarından biri gənclik, gözəllik, sərvət kimi hər cür cazibəyə sahib bir qadından, həm də təklikdə olduğu zaman gələn dəvət və istəyə «xeyr» deyə bilməkdir.

Belə ki, Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bir hədisi-şərifində heç bir kölgənin olmadığı qiyamətin o çətin günündə uca Allahın yeddi sinif insanı ərşin kölgəsi altında saxlayacağını bildirdikdən sonra bu siniflərdən birinin:

«Gözəl və mövqe sahibi bir qadının birgə olmaq istəyini: «Mən Allahdan qorxuram»,-deyərək rədd edən gənc…» (Buxari, «Azan», 36) olduğunu ifadə etmişdir. Çünki insanın ən zəif nöqtələrindən biri dəvətə, iltifata məğlub olaraq özünü qorumaq gücünü itirməsidir. Ancaq həzrət Yusifdə bu olmadı. Çünki təqvası və tərbiyə edilmiş nəfsinin kamillik məqamında olması ilahi yardıma

yol açdı və o qorundu. Nəfsi-əmmarənin hiylələri qarşısında onu güclü etdi.

İbrətli olan başqa bir məsələ də budur:

«Züleyxa onun arzusuna tabe olmadığı təqdirdə həzrət Yusifi zindan qorxusu ilə təhdid etmişdi. Halbuki, Yusifin -əleyhissalam- arınmış nəfsi ona təqvanı ilham etməkdə olduğu üçün o, belə demişdi:

«Ey Rəbbim! Zindan onların məni dəvət etdiyi şeydən daha sevimlidir.» Bundan başqa o, uca Allaha yalvarışında belə deyirdi:

«Əgər onların hiyləsini məndən uzaqlaşdırmasan, mən onlara meyil edən cahillərdən olaram.» Onun bu vəziyyətdən qurtuluşun tək çarəsi olan zindana düşməyi seçməsi böyük bir təqvası olduğunun əlaməti idi.

Bu da onu göstərir ki, insanı günahlara sürükləyən bütün dünyəvi cazibələrin «mənim yanıma gəlsənə»,- dəvətinə müqavimət edə biləcək yeganə güc o anda qəlbin «Allaha sığınıram» deyə bilməsidir.

❁

Qurani-Kərimdə nəfsi-əmmarənin afətlərindən qorunmağa qarşı ən güclü silahın təqva olduğu bildirilir. Uca kitabımız Qurani-Kərimdə nəfsin həqiqətini göstərən bir hadisə də belədir:

Musaya -əleyhissalam- Turi-Sinada peyğəmbərlik təbliğ edildi və bundan sonra ona belə deyildi: **«… Əsanı** (yerə) **at!»** (Musa əsanı yerə atdı). **O əsanın ilan kimi qıvrıldığını gördükdə dönüb qaçdı, heç dala da baxmadı.** (Biz ona belə buyurduq)**: «Ey Musa! Bəri gəl, qorxma! Sən əmin-amanlıq içindəsən!»** (əl-Qəsəs, 28, 31)

Əziz və Cəlil olan Allah Musaya qüdrətini o əsada göstərmişdi. Musa -əleyhissalam- da əsa vasitəsi ilə Allahın qüdrəti ilə ünsiyyət saxladı. Allah onu peyğəmbər olaraq təyin edib, özünə yaxınlaşdıraraq danışanda ona bəzi vəzifələr verdi. Ona müraciət edərək belə buyurdu:

«Bu sağ əlindəki nədir, ey Musa?» (Taha, 20/17)

Musa -əleyhissalam- da:

«… O mənim əsamdır. Ona söykənir, onunla qoyunlarıma xəzəl silkələyirəm. O, başqa işlərdə də karıma gəlir!» (Taha, 20/18) şəklində cavab verdi. Bundan sonra uca Allah (c.c) belə buyurdu:

«Onu yerə at, ey Musa!» (Taha, 20/19)

Həzrət Musa dərhal onun əmrini yerinə yetirdi:

«(Musa əsanı yerə) **atan kimi o, dərhal bir ilan** (əjdaha) **olub sürətlə sürünməyə başladı.»** (Taha, 20/20)

Bunu görən Musa -əleyhissalam- qaçmağa başladı. Ancaq:

«Allah buyurdu: «Tut onu, qorxma. Biz onu qaytarıb əvvəlki şəklinə salacağıq.» (Taha, 20/21)

Bir sıra təfsirçilər Musanın -əleyhissalam- əsasını yerə atması ilə bağlı ayənin işari açıqlamasında bunun həzrət Musanın iç dünyası ilə bağlı olan bir maariflənmə olduğunu bəyan etmişlər.

Musa -əleyhissalam- əlavə şeyləri, yəni fani əlaqəni, imkanları sadalayanda uca Allah (c.c) bunların atılmasını əmr etdi.

Nəfs və nəfsə bağlı olan şeylər böyük bir ilan olaraq göründü. Musaya -əleyhissalam- nəfsin həqiqəti göstərildi. Qorxdu, ürkdü və ondan qaçdı. Ona işari olaraq sanki belə deyilmiş oldu:

«Ey Musa, bax bu ilan Allahdan başqa şeylərə bağlı olmağın əlamətidir. Bu nəfsani əlamət bir formaya çevrilmiş surətdə onun sahibinə göstəriləndə ondan ürkər və qaçar.»

«Artıq sən tövhid sifəti ilə bəzənmisən. Sənin bir əsaya söykənməyin, sənin üçün ona arxalanacağın, ondan yardım istəyəcəyin və istifadə edəcəyin bir şeyin olması necə doğru ola bilər? Necə ola bilər ki, sən o əsa ilə belə edirəm, ondan istifadə edirəm və onda mənim üçün başqa faydalı şeylər də var deyirsən? Tövhid yolunda ilk addım səbəbləri tərk etməkdir. Yəni mütləq təvəkkül və təslimiyyətdir. Hər cür tələb və istəkdən əl çək!»



Buyrulur ki:

«Haqqın nidasını eşidən və Onun camalının nurunu görən insan Allahdan başqa arxalandığı hər bir şeydən imtina edər. Allahın fəzl və bərəkətindən başqa heç bir şeyə arxayın olmaz. Bu yolla da nəfsin arzularından və hiylələrindən xilas olar.»

❁

Bu fani yuxu aləminin beş dəqiqəlik saxta ləzzətlərinə görə həqiqi səadəti və əbədi axirət səltənətini tərk etdirib insanı ən uca zirvələrdən bir heyvan səviyyəsinə endirən də nəfsi-əmmarədir.

Nəfsi-əmmarəyə sahib olan bir insan onu xilas edəcək həqiqətlərin önünü kəsər, bu həqiqətlərə inad və təkəbbürlə müqavimət göstərər, ətrafında olanlara lovğalıqla baxar, yalan, dedi-qodu və iftira ilə məşğul olmaqdan zövq alar. O, dinə görə qadağan edilmiş çirkinliklərdən xilas ola bilməz. Beləliklə qısa dünya həyatının fani və nəfsani ləzzətlərinə görə cənnəti və Camalullahı, əbədi səadət və xoşbəxtliyi tərk edəcək qədər ağıl, idrak və düşüncəsi pozulmuş, qəlb gözləri pərdəli, cahil və qafil insanlardır.

Nəfsi-əmmarədə ruhi-sultani tamamilə heyvani ruhun əsirinə çevrilmişdir, insanlıq sifəti itirilmiş, heyvanlıq sifəti hakim olmuşdur. Belə şəxslər haqqında uca Allah ayeyi-kərimədə belə buyurur:

«Biz cinlərdən və insanlardan bir çoxunu cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, ancaq onunla (Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini) **anlamazlar. Onların gözləri vardır, ancaq onunla** (Allahın möcüzələrini) **görməzlər. Onların qulaqları vardır, ancaq onunla** (öyüd-nəsihət) **eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!»** (əl-Əraf, 7/179)

Beləliklə dəhşətli qəflət tüğyanı içində Allahın mərhəmətinə lazım olduğundan daha çox inanaraq özlərini aldadır, günah işlərdə davam edirlər. Uca Allahın əzabından əmin olan insanlar kimi belə deyirlər:

«Haramı haram bilərək etmək küfrə götürməz ki! Necə olsa da,



bir gün tövbə edərəm!» Onların bu düşüncəsi boş xəyallardan başqa bir şey deyildir, onlar, ancaq özlərini aldadırlar.

Halbuki uca Allahın xəbərdarlığı çox böyükdür:

«Ey insanlar! Rəbbinizdən qorxun. Atanın oğula, oğulun da ataya heç bir şeylə kara gələ bilməyəcəyi bir gündən həzər edin. Allahın vədi, şübhəsiz ki, haqqdır. (Qiyamət günü mütləq gələcək). **Ehtiyatlı olun ki, dünya həyatı sizi aldatmasın. Şeytan sizi Allaha arxayın edib** (Allah Öz bəndələrinə mehribandır, onların hamısını bağışlayacaq, günahlarından keçəcək deyə) **tovlamasın!»** (Loğman, 31/33)

Məhz bu və buna bənzər düşüncələr, əslində, günahların asanlıqla edilməsinə şərait yaratmaq və bunu normal göstərmək istəyən nəfsin və şeytanın hiyləgər fısıltılarıdır.

Başqa yöndən nəfsi-əmmarə qəflətinə düşmüş şəxslər axirətlərini xilas edəcək xeyir və gözəl işlər görmək üçün çalışmırlar, onlar tənbəldirlər, pisliklərdən azad olmaq üçün heç bir cəhd göstərmirlər, laqeyddirlər. Əgər təqdir olunduğu üzrə kiçik bir xeyir iş görsələr, bunu gözlərində böyüdüb, hər zaman onunla öyünərlər. Özlərinin etdikləri pisliklərdən hərdən bir peşman olsalar da, bu peşmançılıq onların hal və davranışlarında faydalı olan bir dəyişikliyə yol açmaq gücündən məhrumdur.

Bu mərtəbədə olan bir mömin müalicəyə ehtiyacı olan bir xəstə kimidir. Onun nəfsi-əmmarədən xilas olub, nəfsi-ləvvamayə keçə bilməsi üçün mənəvi müalicədə tətbiq edilməsi zəruri olan ən önəmli üsul özünü ciddi bir şəkildə hesaba çəkməkdir. Bəndə əzəmət və cəlal sahibi olan Rəbbinin hər şeyi bildiyini, qəbirdəki sualları, məhşərdəki hesabı, cəhənnəmdəki şiddətli əzabı düşünməli və tövbə etməyə çalışmalıdır. Ancaq tövbə zamanı bəndə, uca Allaha yalvarışlarını sadəcə sözlə deyil, qəlbən də peşman olub böyük bir səmimiyyətlə ifadə etməlidir. Dil tövbə edərkən fürsət düşdükcə yenə o günahı etmək arzusu qəlbdə hakim olursa, bu tövbə məqbul olmaz. Əksinə, bu, münafiqin tövbəsidir və hətta, tövbəyə möhtac olan bir tövbədir. Bir yandan tövbə edib, başqa yöndən də günahlara davam etmək tövbə ilə sığınılan məqamı ciddiyə almamaq və onunla istehza

etməkdir. Tövbə, həqiqətən, peşman olub, bir daha geri qayıtmamaqla pisliklərdən əl çəkərək uca Allahdan bağışlanma diləməkdir.

Başqa yöndən, bəndə nəfsi-əmmarədən xilas olmaq üçün ən azı zəruri olan şəri ehkama əməl edərək tövhid kəlməsinin ruh və həqiqətində dərinləşməyə çalışmalıdır. Qəlbdə, sanki bir bütə çevrilmiş olan və bəndəni Rəbbindən qafil edən bütün istəklər **«Lə iləhə»** deyərkən tərk edilib, Allahdan başqa bütün şeylər qəlbdən silinməlidir. Bundan sonra da arınmış qəlbdə **«İlləllah»** həqiqətini yerləşdirib könlün ancaq Allaha məxsus edilməsinə çalışmaq lazımdır. Bu şəkildə bəndə acizlik və heçliyini anlayaraq imanında təqliddən təhqiqə doğru inkişaf etməyə çalışmalıdır. İmanın qəlbdə gerçək mənada yerləşib güclənməsi isə bəndəni saleh əməllərə və nəticədə ülvi mövqelərə sövq edər.

b. Nəfsi-Ləvvamə

Nəfsi-əmmarəsini peşmanlıqla hesaba çəkib, onun çirkin hal və hərəkətlərindən xilas olmaq üçün çalışanlar nəfsi-ləvvaməyə doğru irəliləyirlər.

Belə şəxslər nəfsi-əmmarədəki kimi «necə olsa, Allah bağışlayar» düşüncəsi ilə özlərini aldatmaq qəflətindən nisbətən təmizləndikləri üçün özlərini təsəlli etməzlər. Buna görə də, nəfslərini qınayar, peşmanlıqla tövbə edər, bağışlanma istəyərlər. Elmi ilə özlərinə bir doğru yol açа bilmədikəri üçün peşman olanlarla, elm və irfan məclislərində göz yaşı töküb tövbə etdikdən, bağışlanma istədikdən sonra yenə eyni pisliklərə dönənlər də bu sinifə daxildirlər.

Ləvm etmək qınamaq və məzəmmət etmək deməkdir. Nəfsi-ləvvamə etdiyi pisliklərdən, Allahın əmr və qadağalarına qarşı göstərdiyi laqeydlikdən və qüsurlardan peşmanlıq duyaraq vicdanı sızlayan və buna görə də özünü şiddətlə qınayan nəfsdir. Bu mərtəbədə olan insan nəfsi-əmmarədəki işlərin bəzilərindən tövbə edib qurtulmuşdur. Yəni qəflətdən bir qədər sıyrılmış və günah arzusu azalmışdır. Ancaq bu duyğular yetərincə kamilləşmədiyi üçün onlar dözə bilməyib

yenidən günahlara yönəlməkdən də özlərini qoruya bilmirlər.

Ruhi-sultani, heyvani ruhun əsarətindən xilas olub, ondan ayrıldığı üçün günahların ardından dərhal peşmanlıq duyğusu yaranır. Bəndə nəfsini qınayır və bağışlanma istəyir. Ancaq nəfs hələ məğlub edilmədiyindən tövbəsində tam olaraq sabitləşməmişdir. Belə şəxslər pisliklərdən vicdani baxımdan narahat olsalar da, xaricdən gələn mənfi təsirləri rədd edə biləcək güc hələ özlərində formalaşmadığı üçün günahlardan xilas ola bilmirlər. Məsələn, dostlarının sözünü yerə sala bilmədiyi üçün onlarla birlikdə günah işlər görürlər…

Beləliəri çox zaman etdiyi gözəl işlərlə şad, günah işləri ilə də kədərli olurlar. Şəhəvi arzuların azğınlıqlarından özlərini qorumağa və onlara qarşı müqavimət göstərməyə çalışırlar. Tövbə təmayülləri güclənmişdir. Qəlbin nuru ilə bir az nurlanmış və o ölçüdə də qəflətdən oyanmışdır.

Bu şəxslərin uca Allahın əmrlərinə bağlılıqda və saleh əməllərində artım görünür. Əməlləri çox zaman Allah üçündür. Ancaq ilahi ilhamların bəxş etdiyi rahatlıq və dincliyə tam mənası ilə qovuşa bilmədiklərindən Allah üçün etdikləri saleh əməllərinin xalq tərəfindən bilinməsini də istəyirlər. Yəni nəfsi-əmmarənin bir sıra pis əlamətləri davam edir, ancaq bəndə bu vəziyyətə görə özünü qınayır.

Nəfsin bu mərhələdəki adı ilə bağlı Qurani-Kərimdə belə buyurulur:

«And içirəm (günah etdiyi üçün, ya da yaxşı əməli azdır deyə) özünü qınayan nəfsə…» (əl-Qiyamə, 75/2)

İnsanın öz nəfsini qınaması, yəni onu şiddətlə məzəmmət etməsi ancaq quru sözlərlə olsa, bundan gözlənilən nəticəni əldə etmək çətindir. Çünki *«ləvvamə»* və *«əmmarə»* mərtəbələri arasında çox həssas və incə bir sərhəd var. İnsanın nəfsini az qınamasına görə içində bir təkəbbür halı yaranırsa, orada hələ gizli də olsa, nəfsi-əmmarənin hökmranlığının olduğu aşkardır.

Uca Allah ayeyi-kərimədə belə buyurur:

«And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə

etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq!». (Qaf, 50/16)

Bu baxımdan insan öz nəfsini qınayarkən belə nəfsi-əmmarənin gizli hiylələrindən və özünü təhlükəsiz hiss etmək qəflətindən şiddətlə çəkinməlidir.

Çünki bəzi insanlar təvazökarlığı fitrətlərinin bir xüsusiyyəti olaraq deyil, onlara təvazökar desinlər deyə, öz nəfsinin istəyini təmin etmək məqsədi ilə təvazökar görünür və yalandan nəfslərini qınayarlar. Bu səmimiyyətsiz və riyakar hal, əslində, «təvazökarlığın fəxri»ndən[9] ibarətdir.

Tövbədə sabit olub pis işlərdən təmizlənə bilmək ancaq mənəvi tərbiyə ilə mümkündür. Ləvvamə mərtəbəsindəki nəfs əgər mənəvi tərbiyə altında və salehlərlə birgə olarsa, pis əməllərdən xilas ola bilər. Fürsət tapdıqca onlara yenidən qayıtmaz. Ancaq qəlbdə kin, həsəd, təkəbbür kimi bəzi pis əlamətlər qalar.

Ləvvamədən xilas olub mülhəməyə keçiş mənəvi tərbiyənin mühüm bir üsulu olan «rabitə» ilə mümkündür. Yəni hər hal və davranışda haramlardan çəkinmək və ilahi əmrlərə riayət etməklə özünə söz verdiyi və mənəvi tərbiyədə rəhbər bildiyi kamil bir mürşidin mənən və hər an onun əlindən tutduğu düşüncəsi ilə və bu könül bərabərliyi duyğuları ilə hərəkət etməlidir.

Nəfsini hər zaman hesaba çəkməli, özündə hansı pis əxlaq varsa, bunların hər birini mərhələlərlə tərk etməyə çalışıb, tövbə etməlidir. Bundan sonra da bu mənfi xüsusiyyətlərin ziddi olan gözəl əxlaq ilə tərbiyə olunmağa çalışmalıdır. Məsələn, təkəbbürlü bir insandırsa, təvazökarlığa və heçliyə bürünməlidir. Kinli və paxıl bir insandırsa, mömin qardaşlarını özündən üstün saymalı, onların qüsurlarından öncə öz qüsurları ilə məşğul olmalıdır. Möminin mömin üçün bir ayna olduğunu pis gözlə baxanda pisliklər, yaxşı gözlə baxanda isə gözəlliklər görəcəyini düşünməli, möminlərin ancaq gözəl yönlərini düşünməlidir.

9. Təvazökarlığın fəxri: təvazökarlıq vasitəsi ilə öyünmə deməkdir. Məsələn, özünü göstərmək meyli içində: «Mən yazıq, aciz, ancaq üç gündə bir Quran oxuyub bitirirəm», kimi ifadələr bunun əlamətidir.

Bu mərtəbədə Allahı zikr etməyə davam etməli, günahlara qarşı sayıq olmalı, qəlb aləmini Allah sevgisinin nurları ilə işıqlandırmağa çalışmalıdır.

c. Nəfsi-Mülhəmə

Nəfsi-əmmarədən peşman olaraq ləvvaməyə yüksələn mömin bu mərhələdə də tövbə, bağışlanma, günahlardan çəkinmə, mənəvi tərbiyəyə könül vermə və bir sıra başqa nəfsə qarşı mübarizə yolları ilə mülhəmə mərtəbəsinə ucalır.

Bu mərtəbədə bəndə Allahın lütfü ilə xeyir və şəri həssas bir şəkildə ayıra bilir və şəhəvi duyğularının azğınlıqlarına qarşı müqavimət göstərmək gücü qazanır. Qəlbi Allahdan qafil edən hər şeydən uzaqlaşır. Artıq xalq nəzərindən daha çox Haqqın yanındakı mövqeyindən narahat olur. İmanın həqiqətləri qəlbdə inkişaf edir.

Nəfsin bu mərtəbəsinin *«mülhəmə»* adlandırılması da Qurana bağlıdır:

«And olsun nəfsə (insana) **və onu yaradana** (ona biçim verənə). **Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini** (xeyir və şəri) **öyrədənə.»** (əş-Şəms, 91/7-8)

Nəfsi-mülhəmə ilhama açıq olan bir nəfsdir. Nəfsin bu mərhələsini yaşayanlar ilahi əmr və qadağalara diqqətlə əməl etmək bərəkəti ilə gizli həqiqətlərdən, mərifət və kəşfdən də bir hissə pay almağa başlayarlar. Bəndə eşq ilə ruhlar aləminə yönəlir, ilahidən gələn bəzi ilhamlara və qismən də Rəbbani əsintilərə açıq olur. Ancaq bu ilham əsintilərinin Rəhmani olub-olmadığını anlaya bilmək üçün bir mənəvi rəhbərin nəzarətinə mütləq surətdə ehtiyac var.

Çünki başlanılan mübarizədə nəfs məğlub vəziyyətdə olsa da, o yenə boş durmur, ruhi-sultanini məğlub etmək üçün gizli hiylə və vəsvəsələrlə qəlbi məşğul edir. Buna görə də mülhəmə mərtəbəsindəkilərin uca Allaha təvəkkül və təslimiyyətləri kamil mənada deyildir. Yəni zahiri və əməli kamillik hələ batində gerçəkləşməmişdir.

Pis və çirkin xüsusiyyətlər bir əmələ çevrilməsə də, hələ mövcuddur. Zahiri səbəblər aləmindən həqiqət iqliminə hələ keçilməmiş və buna görə də tərəddüd, şübhə, könül sıxıntısı, ehtiraslar tamamilə atılıb, təslimiyyətin rahatlıq və səadətinə qovuşulmamışdır. Könüllər yaşayış və gələcək qayğıları kimi müxtəlif əməllərlə hüznlüdür. Bu günün ruzisini əldə etdikləri halda, sabahın ruzisi üçün narahat olurlar. Zahirən uca Allahın «Rəzzaq» sifətini qəbul etsələr də, fərqində olmasalar belə, qəlbən duyduqları narahatlıqla bu ilahi sifətə etimadsızlıq göstərə bilirlər. Bu və bənzəri başqa hallarda da Allahın təqdirinə riza, Ona təslimiyyət və təvəkkül hələ qəlbən təhqiqi olaraq gerçəkləşmədiyindən onu yamsılamaq şəklində icra edirlər.

Bu mərhələdə nəfsin arzu etdiyi şeyləri tərk edib, istəmədiklərini etməklə nəfs tərbiyəsində bir xeyli uğur qazanılmış olur. Ancaq heyvani ruh məğlub olsa da, sultani ruhdan qaynaqlanan təmiz xasiyyətlər və gözəl əxlaq hələ tam olaraq yerləşməmişdir. Bunun yerləşməsi sadəcə nəfsin xoşladıqlarını tərk edib, xoşlanmadıqlarını etməklə, yəni ancaq çətinlik və mübarizə ilə mümkün olmaz. Bununla birgə, Allahı zikr etməyə də çox ehtiyac var. Ancaq qəlb dünyəvi narahatlıq və ehtiraslarla məşğul olduqca zikrin ləzzətinə və bu yolla da rahatlığa qovuşa bilməz. Allahın zikrinin qaydalarına əməl etməklə icra edilməsi üçün Allah dostlarının mənəvi tərbiyə və rəhbərliyinə ehtiyac var. Bəndə nə zaman bir müalicə və bir şeyi yox etmək məqsədi ilə deyil, dərin bir zövq və ləzzətlə, eşq və vəcd içində Rəbbini zikr etməyə başlayarsa, o an zikrin həqiqi mənasını tapmış olur. O zaman Rəbbani ilhamlarla kainatın sirlərini bilir, orada olan ilahi qüdrət əlamətlərinə heyran qalır və könlü rahat olur. O, uca Allahın bu buyruğundan bir pay almağa başlayır, sözləri gözəl və hikmətli olur. Çünki o, artıq ilham almağa layiq olmuş bir bəndədir:

«(Ey Rəsulum!) **İnsanları hikmətlə** (Quranla, tutarlı dəlillərlə), **gözəl öyüd-nəsihət** (moizə) **ilə Rəbbinin yoluna** (İslama) **dəvət et…»** (ən-Nəhl, 16/125)

Bu yolda məsafə qət edildikcə də heyvani ruh, sultani ruhun əmrinə tabe olmağa və çirkin təmayüllərin pisliyindən xilas olmağa

başlayır. Onun səbir və dözüm gücü artır, təvazökarlıq, qənaət və səxavətdə yüksək bir səviyyəyə çatır.

Ancaq bu mərtəbənin təhlükəsi də «bir şey oldum» zənninə qapılaraq qəflətlə təkəbbürə və özündən razılığa sürüklənməkdir. Buna görə də, mülhəmə mərtəbəsində olan bir mömin hər zaman ilahi nəzarət altında olduğunu bilib, hal və davranışlarını təvazökarlıq və fanilik duyğuları ilə təyin etməlidir. Başqa yöndən, dünya həyatını axirət düşüncəsindən qafil olmadan anlaya biləcək bir görüş məkanına qovuşaraq ölümü düşünmək kamilliyinə yüksəlməlidir.

Belə ki, həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Ölümü çox xatırlayın, çünki ölümü xatırlamaq (insanı) günahlardan təmizləyir, onu dünyaya münasibətdə bir zahidə çevirir. Əgər siz varlı olarkən onu xatırlasanız, zənginliyin təhlükələrini sizdən uzaqlaşdırar. Əgər yoxsul olarkən onu xatırlasanız, sizi həyatınızdan razı edər.» (Suyuti, «Camius-Sağır», I, 47)

Nəfsi bu mərtəbəyə yüksəlmiş olan salik həzrət Ömərin (r.a) buyurduğu bu nəsihətin mahiyyətini anlamağa çalışmalıdır:

«Hesaba çəkilmədən öncə özünüzü hesaba çəkin. İlahi tərəzidə çəkilməzdən öncə özünüz əməllərinizi çəkin. Heç bir əməlinizin ona gizli qalmayacağı uca Allahın hüzuruna çıxmazdan öncə o böyük məhkəməyə hazırlaşın.» (İbn Kəsir, «Təfsir», I, 27)

d. Nəfsi-Mütməinnə

Uca Allahın əmrlərinə layiqincə əməl edib, qadağan etdiklərindən həssaslıqla çəkinmək yolu ilə mənəvi xəstəliklərdən qurtulmuş, həqiqi və güclü bir iman ilə də rahatlıq, dinclik və əmin-amanlığa qovuşmuş nəfsdir. Qəlb Allahın zikrinin bərəkəti ilə şübhə və tərəddüdlərdən arınmış, hər an şükür və dua halındadır.

Bu mərtəbədə pis və çirkin əlamətlər yerini gözəl əxlaqa

vermişdir. Davranış kamilliyində zirvə olan və bütün bəşəriyyətə örnək həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- yüksək əxlaqı misilsiz bir zövqlə yaşanır. Bəndənin qəlbi səbir, təvəkkül, təslimiyyət və riza ilə bəzənmişdir. Mütməinnə arifi-billah olan, təqva və yəqin əhlinin nəfsidir. Belə kimsələrin könülləri hər zaman Allahın zikri ilə məşğuldur. Onlar şəriət ehkamlarının daxili mənalarını da öyrənmişlər.

Həzrət İmam Rəbbani belə buyurmuşdur:

«Nəfsi-mütməinnəyə qədər edilən ibadətlər və qulluq təqlididir. Nəfsi-mütməinnədə isə bunlar təqliddən təhqiqə çevrilir.»

Qulluqda təhqiqə yüksəlmək isə şəriət, təriqət, həqiqət və mərifət sıralamasındakı «həqiqət mərtəbəsinə» nail olmaq deməkdir. Əldə edilən bu kamillik məsuliyyət anlayışı ilə birgə yüksək həssaslığı da özü ilə bərabər gətirir. Belə ki, şəri baxımdan yetkinlik yaşına çatmayanlar dinin hökmlərinə görə məsuliyyət daşımırlar. Məsuliyyət ancaq yetkinlik yaşına çatanlara aiddir.

Bunun kimi təsəvvüfi yollardan birinə bağlanan bir salik də seyr və sülukunu tamamlayanadək günahsız bir uşaq kimi qəbul edilir, təriqət ədəbinə uyğun olmayan qüsurları anlayışla qarşılanır. Çünki təriqətdə salik ancaq seyr və sülukunu tamamladığı anda yetkinləşmiş sayılır. Artıq şəriət kimi təriqət ədəbinə aid olan qüsurlara görə də məsuliyyət daşıyır. Ancaq «həqiqət» yönünə bağlı olan qüsurlarına görə hələ məsuliyyət daşımır. Bu məsuliyyət daşımamaq halı mütməinnə mərtəbəsinə addım atan kimi məsuliyyətə çevrilir. Çünki mütməinnə mərtəbəsində «həqiqət» baxımından da yetkinləşmiş olur.

Buna görə də, şəriətdə icazə verilən bəzi şeylər təriqətdə kiçik günah kimi qəbul edilir. Təriqətdə kiçik günah olan şeylər isə həqiqət və mərifətdə böyük günah kimi ciddi və önəmli sayılır.

Məsələn, şəriətdə doyduqdan sonra yemək israfdır. Təriqətdə isə doyana qədər yemək israfdır. Həqiqətdə zəruri miqdarda yeməyi Allahdan qafil olaraq yemək israfdır. Mərifətdə də bütün bunlardan başqa nemətlərdəki ilahi təcəllaları görmədən yemək israfdır. Çünki

uca Allah hər şeydə varlığına bir işarə təqdim edir. Başqa bütün məsələlərdə də vəziyyət belədir.

Nəfsi-mütməinnə uca Allahın gücü və istəyi ilə həqiqət, rahatlıq və yəqinə[10] qovuşaraq kədər və narahatlıqlardan qurtulmuş, bir sıra kəşf və ilham da əldə etmişdir.

Bu mərtəbədə qəlbin üzərindəki qəflət pərdələri götürülmüşdür. Könüllər uzaq məsafələri və həqiqətləri aynəl-yəqin mərtəbəsilə müşahidə edə bilir. Yəni qəlb tərəddüd və şübhələrdən arınmış gerçək bir təslimiyyətlə tam bir rahatlığa qovuşmuşdur. Bu hala qovuşan bir bəndə dini borcları həm zahirən, həm də daxilən tərəddüdsüz olaraq qəbul edib, gözəl bir şəkildə icra edir. Bundan başqa onun dini qəbul etməsi və ona inanması elə sağlamdır ki, bütün aləm bir olub onun inandığının ziddini iddia etsə, onda ən kiçik bir tərəddüd belə yarada bilməzlər. Çünki o, maddi və mənəvi aləmi artıq həqiqət pəncərəsindən seyr edir.

Artıq belələri imanı uğrunda heç bir çətinlik və mübarizədən qorxmazlar. Belə ki, Qurani-Kərimdə hekayəsi anladılan Fironun sehrbazları da həzrət Musadan -əleyhissalam- gördükləri açıq möcüzə qarşısında əmin olmuş bir könüllə Allaha iman etmiş və imanda qərarlı olduqlarını canları bahasına mühafizə etmişlər. Zalım Fironun onları imanlarından dönmədikləri təqdirdə əl və ayaqlarını kəsdirəcəyini və onları asdıracağını söyləməsinə belə, əsla fikir verməmişlər:

«… Biz şübhə yoxdur ki, Rəbbimizin hüzuruna dönəcəyik! (Bizi ölümlə qorxuda bilməzsən!) **Sənin bizdən intiqam almağın isə ancaq Rəbbimizin möcüzələri gələn kimi bizim onlara iman gətirməyimizə görədir. Ey Rəbbimiz! Bizə** (bolluca) **səbir əta et və bizi müsəlman olaraq öldür!»** (əl-Əraf, 7/125-126)

10. Yəqin: qəti və açıq bilgini ifadə edən ərəbcə bir kəlmədir. Yəqində şübhəyə yer yoxdur. Qəlb bir şeyin həqiqəti ilə bağlı məsələləri dəqiq bilir. Yəqin dəlillərdən başqa inanc gücü ilə bir şeyi aydın görməyi ifadə edir. Kuşeyri yəqinin üç növ olduğunu söyləyir:
Elməl-yəqin: Bir şey haqqında xəbərə əsaslanan bilgidir.
Eynəl-yəqin: Bir şey haqqında onu görməklə əldə edilən bilgidir.
Haqqəl-yəqin: Bir şeyi şəxsən yaşamaqla əldə edilən bilgidir.



Onlar belə deyərək böyük bir iman həyəcanı içində canlarını sevə-sevə fəda etmişlər. Çünki bu məqamda gözləri pərdələyən bəşəri pisliklər yox olub incə duyğularla həqiqət nuru özünü göstərmiş olduğundan:

«Ey (öz imanından, əməlindən və Allahın vədindən) **xatircəm olan kəs!»** (əl-Fəcr, 89/27) şəklindəki ilahi xitaba nail olmuşdur.

Göründüyü kimi, mütməinnədən aşağı dərəcədə olan nəfslər ilahi iltifata layiq olmamışdır. Ancaq bu mərtəbəyə qovuşmuş olan nəfsi-mütməinnə və ondan yuxarı mərtəbədəki nəfslər belə bir xoşbəxtliyə qovuşmuşdur. Bu ilahi iltifata layiq ola bilmək isə ciddi bir cəhd sərf edib nəfsi itaət altına almaqla mümkündür.

Mütməinnəyə nail olan bəxtiyar bəndələr sırası ilə radiyə, mərdiyyə və kamilə deyilən üç yüksək mərtəbəyə yönəlmiş olurlar ki, onlar qazandıqları uğurlar ölçüsündə bu mərtəbələrlə Haqqa yaxınlıq və qovuşmanın zirvəsinə çatarlar.

e. Nəfsi-Radiyyə

Hər zaman Haqqa yönəlməklə, Allah ilə birgə olmaq düşüncəsinə sahib olmuş, onun hikmətinə və hökmünə təslim olaraq Rəbbindən razı hala gəlmiş olan nəfsdir. Bu mərtəbəyə yüksələn bəndə öz iradəsindən əl çəkib Haqqın iradəsində fani olmuşdur.

Qurani-Kərimdəki:

«Dön Rəbbinə sən Ondan razı olaraq, O da səndən!» (əl-Fəcr, 89/28) ayəsindəki *«Sən Ondan razı olaraq»* hökmünün bu məqama işarə etdiyi bəyan olunur.

Bu riza halı Haqqdan gələn bütün çətin imtahanlara qarşı səbir göstərmək və bu məsələdə Onun iradəsini candan və könüldən qəbul etməkdir.

Ayeyi-kərimədə buyurulur:

«Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can



(övlad) **və məhsul qıtlığı ilə imtahan edərik.** (Ey Rəsulum! Belə imtahanlara) **səbir edən şəxslərə müjdə ver!»** (əl-Bəqərə, 2/155)

Bu ayeyi-kərimədə ifadə edilən *«səbir edənlər»* zümrəsindən ola bilmək ancaq uca Allahın təqdirinə, hətta, o təqdir ümid edildiyi və gözlənildiyi kimi təcəlla etməsə belə razı olmaq və əsla üsyan etməməklə mümkündür. Nəfsi-radiyə də ilahi iradənin xeyir, ya da şər olaraq təcəlla edən bütün qəza hökmlərinə tərəddüdsüz təslim olub riza göstərənlərin, əsla şikayət etməyənlərin məqamıdır. Bu məqamın imtahanları əvvəlkilərə nisbətən daha ağırdır. Çünki insan mənəvi baxımdan yüksəldikcə çətinliklər artar. Belə ki, Allah Rəsulu -səllallahu əleyhi və səlləm- buyurmuşdur:

«İnsanlar içində ən şiddətli çətinliklərlə üzləşənlər peyğəmbərlərdir. Sonra da onlara yaxınlıq dərəcəsinə görə başqa kimsələrdir. İnsan dindarlığı ölçüsündə məşəqqətlərə məruz qalır.» (Tirmizi, «Zöhd», 57)

İnsan, ancaq nəfs çətinliyini həll etdikdən sonra əzab və məşəqqətlərə layiqincə səbir göstərə biləcək və onları verəndən razı ola biləcək bir gücə sahib olur. Bunlar mənəviyyat yolunun cilvələridir. Onun üçün böyük mükafatlar hər zaman böyük müqavimət, səbir, dözüm və mübarizənin nəticəsində verilir.

Bu mərtəbədəki möminlərin nəzərində həyatın kədəri və sevinci birdir. Çünki dünyaya qəlbən bağlanmadıqları üçün həyatın sevinc və kədəri onlar üçün eynidir. Xeyir, ya da şər hər nə təqdir olmuşsa, hamısını uca Allahdan bilib ona razı olurlar.

Bu misralar bu halı çox gözəl ifadə edir:

Hoştur bana Senden gelen,
Ya gonca gül, yahut diken!
Ya hilat ü yahut kefen
Kahrın da hoş, lutfun da hoş!

Çox asanlıqla söylənilən bu qitədəki həqiqətlərin yaşanmasındakı böyük çətinlik dərindən qavranmalı və təqdir olunmalıdır. Ancaq radiyə məqamında gerçəkləşə bilən bu və buna bənzər sözləri nəfsində bir varlıq olduğu düşüncəsinə qapılaraq, ya da təqlid həvəsi ilə

vaxtından öncə və düşünmədən söyləməkdən çəkinmək gərəkdir. Çünki bu təqdirdə onlar bir iddiaya çevrilər ki, uca Allah bəndəsinin söylədiyi bu sözdə səmimi olub-olmadığını imtahan edərsə, bir çox bəndənin bu yolda aciz qalacağından əndişə edilir!

Radiyə məqamındakı bir bəndə ilahi sirləri öyrənməyə başlayar. İlahinin vəhdətini kamil səviyyədə dərk edərək məna aləmindəki kamilliyi müşahidə etməyə nail olar. Uca Allahın ad və sifətlərinin xüsusi təcəllaları ilə şərəflənər. Onun şəxsiyyəti xeyirin, gözəlin və doğrunun feyzli bir mənbəyinə çevrilər. İlahi əmr və yasaqlara rahatlıqla itaət edər. İbadətlər səmimi və Allah üçün yerinə yetirildiyindən əsla yorğunluq verməz. Çünki yorğunluq verən ibadətlərin iç üzündə ya mərtəbələr keçmək, ya da kəramət və kəşfə nail olmaq, ya da ki, buna oxşar məqsədlər var. Bir kimsə belə əməlləri niyyət edərsə, o əməllərlə özü-özünün yolunu bağlamış və bütün əməyini boşa xərcləmiş olar. Belə olanda da zikri və fikri unutduran bir yorğunluq özünü göstərir. Bunun üçün seyr və sülukun başından sonunadək Allah rizasından başqa heç bir əməl düşünülməməlidir.

Uca Allah biz bəndələrinə şah damarından daha yaxındır. Mühüm olan bizim də bu yaxınlığı dərk edərək Rəbbimizin yaxınlığına nail ola bilməmizdir. Uca Allah bəndələrindən razı olar. Yetər ki, bəndələri də onun yolunda çalışsın, Onun təqdir və qəzasına razı olsun. Əldə etdiyi ilahi təcəllaları kamilliklə qarşılaya bilsinlər.

f. Nəfsi-Mərdiyyə

Radiyyə mərtəbəsində olanların bu mərtəbənin bütün bərəkətindən istifadə edə bilməsi üçün uca Allahın da onlardan razı olması zəruridir. Yəni bəndənin Allahdan razı olması ilə birgə, kamil bir inkişaf üçün Allahın da bəndəsindən razı olması zəruridir. Başqa bir ifadə ilə Haqqdan rizamız, Onun uca rizasına yol açа biləcək bir səviyyədə və gözəllikdə olmaqdır. Bu gerçəkləşdiyi təqdirdə «mərdiyyə» sifəti Allaha aid olmasına baxmayaraq, bəndənin bunu təmin etmək üçün etdiyi əməllərinin bərəkəti ilə bu məqam bəndəyə də aid edilmişdir. Buna görə, radiyyə Allahdan razı olanların, mərdiyyə

isə Allahın da onlardan razı olduğu şəxslərin məqamıdır. Uca Allahın şəxsən razı olduğu bir nəfs olan mərdiyyədə pis xasiyyətlər yox olmuş, gözəl xasiyyətlər və əxlaqi məziyyətlər inkişaf etmişdir. Belə ki, Yaradandan ötrü yaradılanlara şəfqət, mərhəmət, sevgi, səxavət, bağışlama və həssaslıq kimi xüsusiyyətlər onda bir ləzzətə çevrilmişdir. Bu mərtəbədəki bir mömin nəfsini ən gözəl bir şəkildə sorğu-sual edər. Hər nəfəs alanda varlıq və təkəbbür əlamətlərini nəzərdə saxlayaraq şeytani hiylələrə qarşı sayıq olar.

Bu mərtəbədə olan bəndə hər zaman və bütün varlığı ilə Haqqa təslim olmuşdur. Allahdan gələn bəla, ya da lütf təcəllalarının hər ikisinə də göstərdiyi riza bərəkəti ilə əbədiyyət aləminə köçərkən ilahi riza ilə müjdələnərək ona cənnət paltarı geyindirilmişdir.

«Dön Rəbbinə sən Ondan razı olaraq, O da səndən!» (əl-Fəcr, 89/28) ayəsindəki *«Rəbbin də səndən razı olaraq»* hökmü bu halı ifadə edir.

Bundan başqa əl-Bəyyinə surəsinin 8-ci ayəsində olan:

«… Allah onlardan razıdır, onlar da Allahdan…» bəyanı da bu həqiqətin başqa bir ifadəsidir.

Bu hal və həqiqətlərə nail olan bir bəndə artıq hadisələri «haqqəl-yəqin» mərtəbəsindən seyr edir. Allahın icazəsi ilə bir sıra gizli sirləri bilir. Uca Allah riza, təvəkkül və təslimiyyətlərinə görə belə bəndələrinin, sanki görən gözü, eşidən qulağı, danışan dili, tutan əli… olur. Onların halına, davranışına və gözəl əxlaqına təsir gücü ehsan edir.

Yəni nəfsi-radiyyə məqamında müşahidə etdiyi kamillik əlamətlərini indi şəxsən öz nəfsində dadır və o halla yaşayır. Səbir, təvəkkül, təslimiyyət və riza kimi xüsusiyyətlər onun davranışlarının başlıca əlamətləridir.

Peyğəmbərlərin uca əxlaqından bu gözəl hallarla bağlı bir neçə misal verək:

Həzrət Yaqub -əleyhissalam- ard-arda gələn müsibətlər nəticəsində öz halını belə ifadə edir:



«Mənim vəzifəm ancaq gözəl səbir etməkdir.»

Dözülməz xəstəlik və məşəqqətlərə məruz qalan Əyyub -əleyhissalam- xanımının:

- Rəbbinə dua et ki, bu iztirablı halın sona çatsın,-sözlərinə belə cavab vermişdir:

- Uca Allah mənə səksən il sağlam bir ömür verdi. O qədər xəstəlik çəkmədən sağlamlıq istəməyə utanıram.

İbrahim -əleyhissalam- da oda atılarkən ona yardım üçün gələn mələklərə belə buyurmuşdur:

«Atəşi yandıran kimdir? O, mənim halımı bilir. Sizdən bir istəyim yoxdur!»

Əslində, nəfsin təmizlənməsi yolunda keçilən mərhələlər bunlardan ibarət olmaqla bərabər, kamil insanlara aid olan xidmət baxımından daha bir mərhələ də var. Bu mərhələyə nəfsi-kamil, ya da nəfsi-safiyə deyilir.

g. Kamil Nəfs

Kamil nəfs təzkiyə nəticəsində arınmış, saf, parlaq, ülvi və kamil nəfsdir. Bütün mərifət sirlərinin bilindiyi və ancaq uca Allah tərəfindən bəxş edilən vəhbi bir məqamdır. Yəni, Haqq vergisidir, çalışmaqla əldə edilməz. Qədər sirrinə bağlı olan ilahi bir ehsandır.

Kamil nəfsə qovuşanlara, ümumiyyətlə, insanları tərbiyə etmək vəzifəsi verildiyindən bu məqama eyni zamanda irşad məqamı da deyilir. Uca Allah bu məqamdakıların hal və davranışlarındakı mükəmməlliklə onlara insanları qəflətdən ayıltmaq kimi bir güc verir. Belə şəxslər yolunu azmış bir şəxslə görüşsələr, onun halını anlayarlar, qəlbi xəstəliklərinin dərmanını hal dili ilə onlara bildirərlər. Bu insan da əgər onun qəlbi möhürlənməmişsə, insafa gələr və peşmanlıqla qəflətdən oyanar.



Qəlb xeyir və şərin, təqva və günahın, yəni mələki və şeytani güclərin bir mücadilə sahəsidir. Könüllər bir ömür boyu bu mələki və şeytani təcəlla və təmayüllərlə çalxalanır.

B. QƏLB VƏ ONUN TƏSFİYƏSİ

1. QƏLBİN MAHİYYƏTİ

Dinin başlıca hədəfi Haqqa bəndə olduğunu dərk edən zərif və dərin insanlar yetişdirməkdir. Bu məqsədin həyata keçirilməsi ancaq və ancaq Haqqa qulluğun layiqincə dərk və icra edilməsinə bağlıdır. İnsanın kamilləşərək mənəvi baxımdan yüksək bir səviyyəyə ucalması, qəlb aləmindəki ülvi həyəcan, səmavi tərpəniş və müqəddəs duyumlar nisbətində gerçəkləşir.

Qəlb bədəni və ruhani aləmimizin mərkəzidir. Onun bədəni həyatın davam etməsində həlledici bir rolu var. Həqiqətən, insan vücudundakı milyardlarla hüceyrədən hər hansı birinə təzə qan çatdırılması ən çox dörd saniyədən daha uzun bir müddətdə kəsilsə, o hüceyrə həyatını itirər. Bədəni həyat üçün belə önəmli olan qəlb eyni zamanda insandakı duyğu qüdrət və qabiliyyətinin mərkəzi olan mənəvi bir cövhərdir. Buna görə də, qəlb həm bir bədən üzvü olmaq, həm də mənəviyyat baxımından insan varlığının sultanıdır. Onun önəmi o dərəcədədir ki, bir düşüncə mərkəzi olan beyin belə, ondan gələn hissiyyatın təsiri altında fikir yaradır. Bu o deməkdir ki, qəlb sahib olduğu duyğu qabiliyyəti ilə beyin də daxil olmaqla bütün bədən üzvlərinə hakimdir. Həyəcanlanan bir insanın əli titrəyir, ürək döyüntüləri artır. Hər hansı bir xarici təsirin təhrik etdiyi mərhəmət,

qəzəb, sevgi kimi duyğuların düşüncəyə, iradəyə və nəticədə, hərəkətlərə yön verməsi bütün bəşəri davranışlarda müşahidə edilən bir həqiqətdir.

Qəlb mənəvi yönü baxımından bir haqq və həqiqət kompasıdır. Bu vəzifə ona uca Allahın qərarı ilə yüklənmişdir. Ancaq o, yaradılış məqsədinin əksinə olan şərtlərlə bu fitri mahiyyətindən uzaqlaşdırıldığı zaman mənfiliklərə sürüklənməkdən xilas ola bilməz. Bu təqdirdə, sahibini dünya və axirətdə abad etmək əvəzinə, bərbad edən bir amil olar. Buna görə də, onu yaradılış hədəfinə görə yönləndirəcək təsirlərə tabe etmək və ilahi hədəfə uyğun olan təmayüllərini gücləndirib inkişaf etdirmək bəşəri tərbiyədə çox önəmli bir məsələdir.

Ayeyi-kərimədə uca Allah qəlbin dünyəvi ləzzətlərə aldanaraq sahibinin əbədi aləmdə məhrumiyyət içində qalmaması üçün biz bəndələrini belə xəbərdar etmişdir:

«Ey insanlar! Şübhəsiz ki, Allahın (qiyamət barəsindəki) **vədi haqqdır. Dünya həyatı sizi aldatmasın. O tovlayan** (şeytan) **da sizi tovlayıb yoldan çıxarmasın!»** (Fatir, 35/5)

Həzrət Mövlana da -qüddisə sirruh- insanın əsl qayəsindən yayınmaması üçün nəfsani arzularını cilovlamasının zəruri olduğunu belə ifadə edir:

«Bədəni çox bəsləyib inkişaf etdirməyə çalışma! Çünki o, sonda torpağa veriləcək bir qurbandır. Sən könlünü bəsləməyə çalış! Ucalara gedəcək və şərəflənəcək olan odur!»

«Bədəninə yağlı, ballı şeyləri az ver. Çünki onu həddindən artıq bəsləyən nəfsani arzulara təslim olur və sonda rəzil olub gedir.»

«Ruha mənəvi qidalar ver. Mükəmməl düşüncə, incə anlayış və ruhi qidalar ver ki, gedəcəyi yerə güclü və qüvvətli getsin.»

Loğman həkim də oğlunu qəflətdən ayıltmaq məqsədi ilə ona bu nəsihəti verir:

«Oğlum! Dünya dərin bir dəryadır. Arif olmayan alimlər və bir çoxları burada həlak oldular. Bu dəryada sənin gəmin Allahdan ra-

zı olan bir qəlb ilə iman etmək olsun. Gəminin təchizatı isə təqva və ibadət olsun. Dənizlərdə üzən və səfər edən bir gəminin yelkəni də təvəkkül olsun. Ancaq bu yolla xilas ola biləcəyinə ümid var.» (Beyhəqi, «Kitabüz-Zöhd», 73)

Bir yönü ilə bədənin, başqa yönü ilə isə mənəviyyatın mərkəzi olan qəlb bədən üçün nə qədər zəruri və önəmli isə, mənəvi həyat üçün də bir o qədər önəmlidir. Ancaq insanı insan edən surətdən daha çox mənəvi əsası olduğundan qəlbin mənəvi rolu üzvi rolundan bütün yönləri ilə üstündür. Bu mənəvi xüsusiyyətləri baxımından və özündəki çox incə sirr və hikmətlər sayəsində insanın *«insanlıq»* məna və fəzilətinə qovuşmasını təmin edən yeganə nemət qəlbdir. Bu hikmətə görədir ki, iman *«dil ilə demək»*dən öncə, *«qəlb ilə təsdiq»* ilə meydana gəlir. Çox diqqətəlayiqdir ki, burada zehni və fikri baxımdan qəbul etməkdən daha çox, qəlbə aid bir təsdiq yetərli sayılmışdır.

Kainatın özəyi qəbul edilən insanda xeyir və şər, ülviyyət və çirkinliyə aid istedad və təmayüllər fitri olaraq mövcud olduğu kimi, insanın özəyi olan qəlbdə də bu zidd istedad və təmayüllər bir aradadır. Gerçəkdən, o mələki əlamətlər qədər şeytani müdaxilələrə də açıqdır. Demək olar ki, qəlb xeyir və şərin, təqva və günahın, yəni mələki və şeytani güclərin bir mübarizə sahəsidir. Qəlblər bir ömür boyu bu mələki və şeytani təcəlla və təmayüllərlə çalxalanır.

Mələk və şeytanın qəlblərdəki təsir şəklinə gəlincə isə demək olar ki, mələki xüsusiyyətlər ona iman, gözəl xüsusiyyətlər, saleh əməl, yaradılmışlara qarşı şəfqət, ibadətləri səmimiyyətlə yerinə yetirmək kimi mənəvi hallar verir. Şeytani xüsusiyyətlər isə küfr, şübhə, pis əxlaq, şəhvət, nəfsani istəklər kimi pis halları qəlbdə yaradır.

Şeytanın qəlbdən uzaqlaşdırılması ancaq ibadət və Allahın zikri ilə mümkündür. Qəlblər Allahın zikri ilə rahatlıq və dincliyə qovuşur. Zikrlə rahatlıq və dinclik tapan qəlb özündə imanın kök atıb sağlamlaşması ilə mümkün olan ən ülvi razılıq dərəcəsinə yüksəlir. Bir an gəlir ki, qəlb pərdə kimi açılır və sahibinə həm dərk və müşahidə edilə bilməyən, həm də idrak və müşahidə sahəsinə daxil olan aləmlərin



sirləri əyan olur. Bütün sirləri ilə kainat oxunmağa hazır olan bir kitaba çevrilir.

Mələki və şeytani xüsusiyyətlərin mücadilə sahəsi olan qəlb bu mübarizədə qalib olan tərəfin sırasında yer tutan, onun əlamətlərinə bürünən, hərəkətli və dəyişkən bir xüsusiyyətə sahibdir. Qəlb bəşəri iradəyə itaət və təslim olmaq məsələsində başqa üzvlərdən fərqlidir. Qəlbin xeyrə də, şərə də meyil etmək məsələsindəki fitri istedadı daxili təsirlərdən daha çox xarici təsirlərlə hərəkətə başlayır. Yəni hisslər insanın qəlbinə doğan şeylər və qəlbə özündən doğulan düşüncələrdən daha çox, xarici səbəblərlə ortaya çıxır. Bu xüsusiyyəti ilə qəlb, sanki içində olduğu qabın şəkil və rəngini alan suya bənzəyir. Əgər könül əhlidirsə, seçim şansını qəlbdəki müsbət təmayüllər üçün istifadə edərək qurtuluş iqliminə qovuşur.

Ayeyi-kərimələrdə belə buyurulur:

«Ey iman gətirənlər! Allahdan qorxun və (imanında, sözündə, işində) **doğru olanlarla olun!»** (ət-Tövbə, 9/119)

«(Ey Rəsulum!) **Ayələrimizə istehza edənləri gördüyün zaman onlar söhbəti dəyişənə qədər onlardan üz çevir. Əgər şeytan** (bu qadağan əmrini) **sənə unutdursa, xatırlayandan sonra o zalım tayfa ilə bərabər oturma.»** (əl-Ənam, 6/68)

«…Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman müşriklər (mövzunu dəyişib) **başqa bir söhbətə girişməyənə qədər onlarla bir yerdə əyləşməyin! Çünki o vaxt siz də onların tayı olarsınız. Həqiqətən, Allah münafiqlərin və kafirlərin hamısını cəhənnəmdə bir yerə toplayacaq!»** (ən-Nisa, 4/140)

İradə ona təsir edəcək müsbət, ya da mənfi təsirlərin müəyyən edilməsində öncə təyin, təsbit və seçim zamanı istifadə olunur. Bu halı ilə qəlb məruz qaldığı təsirlərə görə formalaşmaq baxımından bir uşaq oyuncağı olan «fırfıra»ya bənzəyir. Elə «qəlb» kəlməsinin lüğətlərdə olan qarşılığına baxanda görürük ki, orada «bir şeyi ziddinə çevirmək, şəkil və rəng dəyişdirmək» mənaları da insanın ən mərkəzi bədən üzvü olan qəlbdəki bu xüsusiyyəti açıq göstərir.



Hədisi-şərifdə belə buyurulur:

«Qəlb bomboş bir ərazidə küləyin ora-bura sovurduğu bir quş tükünə bənzər.» (İbn Macə, «Müqəddimə», 10; Əhməd b. Hənbəl, «Müsnəd», IV, 408)

Səadət əsrində baş verən bu hadisə qəlbdəki bu «dəyişmə» xüsusiyyətini çox açıq bir şəkildə ifadə edir:

«Həzrət Əbu Bəkr (r.a) bir gün Hanzala (r.a) ilə rastlaşdı. Onun vəziyyətini soruşdu. Hanzala (r.a) böyük bir həyəcan və əndişə içində:

- Hanzala münafiq oldu, ey Siddiq! -dedi.

Həzrət Əbu Bəkr:

- Sübhanallah! Bu necə sözdür? -dedi.

Hanzala (r.a) sözlərinə belə davam etdi:

- Biz həzrət Peyğəmbərin söhbətində olarkən, O bizə cənnət və cəhənnəmi xatırladır, hətta, onları gözlə görürmüş kimi bir hala bürünürük. Rəsulullahın -səllallahu əleyhi və səlləm- hüzurundan çıxıb ailəmiz və dünyəvi işlərimizlə məşğul olmağa başlayanda isə eşitdiklərimizin çoxunu unuduruq (Onun söhbətindəki feyz və ruhaniyyətimizi qeyb edirik), -dedi.

Həzrət Əbu Bəkr (r.a):

- Vallah, buna oxşar hallar bizdə də olur,-dedi.

Bundan sonra ikimiz də Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına getdik və vəziyyəti ona danışdıq. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-:

- Canım qüdrət əlində olan Allaha and içirəm ki, mənim yanımdakı halınızı davamlı qoruyub, daimi zikr halında ola bilsəydiniz, yataqda yatarkən də, yollarda yeriyərkən də mələklər sizinlə söhbət edərdi. (Üç dəfə təkrar edərək):

- Ey Hanzala! Bəzən elə, bəzən də belə olur! -buyurdu». (Müslim, «Tövbə», 12)

Yəni həm axirətin həqiqət və sirləri ilə dolaraq qulluq, həm də həyatın davamı üçün dünyəvi işlər bir arada olmalıdır.

Rəsulullah -səllallahu əleyhi və səlləm- qəlbdəki **«təlvin»**, yəni bir haldan başqa bir hala keçmək xüsusiyyətini bu şəkildə izah etmişdir. Təsəvvüfün başlıca hədəflərindən biri də qəlbdəki *«təlvin»* halını söhbət və zikrin bərəkəti ilə mümkün qədər **«təmkin»** halına çevirməkdir. Yəni qəlbi ilahi istiqamətə yönləndirib, bu yöndə sabitləşməkdir. Səhabələrdən Əbu Bəkr (r.a) bu halın ən gözəl misalıdır. Merac hadisəsində göstərdiyi qəlbi sarsılmazlıq ilə heç bir tərəddüd etmədən Allah Rəsulunu -səllallahu əleyhi və səlləm- olduğu kimi təsdiq etməsi ancaq qəlbinin qazandığı təmkin ilə izah oluna bilər.

Belə ki, müşriklər Merac hadisəsindən sonra dərhal bir yalan kompaniyası başlatdılar. Onların məqsədi möminlərin qəlbinə şübhə və vəsvəsə toxumları səpərək onları imandan döndərmək idi. Buna görə də, bir çox səhabənin yanına getdikləri kimi həzrət Əbu Bəkrin (r.a) də yanına getdilər və ona istehzalı bir şəkildə dedilər:

- Eşitdinmi, səninki səmalara çıxdığından danışırmış. Yaxşı, buna nə deyəcəksən? -dedilər.

Həzrət Əbu Bəkr (r.a) isə böyük bir iman vəcdi ilə müşriklərin qulaqlarına daha öncə heç eşitmədikləri və bədbəxtliklərini bir az da artıran bu dastanlara sığmayan sədaqət cümləsini nəqş etdi:

«- O, nə söyləyirsə, doğrudur!.. Çünki O, əsla yalan söyləməz! Mən onun hər gətirdiyinə dərhal inanıram!» (İbn Hişam, «əs-Sirət», II, 31)

Şirkin təmsilçiləri şübhə və vəsvəsə təşəbbüslərinin uğursuz olması ilə özlərini qəhr etdilər və yenə də əlləri boş qaldı.

❁

Mələklər ancaq xeyir işlər görmək üçün yaradılmışlar. Şeytanlar isə ancaq şər və pis işlər edən varlıqlardır. İnsanlar isə bu ikisinin ortasında olan bir mövqedə dayanırlar. Buna görə də insan ifrat və təfrid təmayüllərdən qəlbini qoruyaraq nə şeytani bir vəziyyətə düşməli,

nə də insanın gücü çatmayacağı ölçüdə özünü mələkləşdirməlidir. Fitrətinə uyğun olaraq müvazinəti və ölçünü qorumalıdır.

İnsanın həyatda ən önəmli vəzifəsi və ən ciddi işi mütləq və sonsuz bir gələcək olan "ölümdən sonrakı mərhələ"yə hazırlaşmaqdır. Bu isə ancaq qəlbin həqiqətini bilərək, onu pisliklərdən qorumaq və mənəvi təsirlərə bağlı qalmaqla mümkün olar. Çünki dünyada tarazlıq və rahatlıq, axirətdə səadət və xoşbəxtlik sağlam bir qəlb sahibi olmağa bağlıdır. Belə bir qəlb isə «pak», yəni yaradılışdan olan təmiz və fitri xüsusiyyətlərini itirməmiş, müqəddəs dinə bağlı olan qəlb deməkdir. Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- mübarək dodaqlarından belə deyilmişdir:

«Hər doğulan uşaq İslam fitrəti ilə doğular. Sonra atası, anası onu (inanclarına görə) ya xristian, ya yəhudi, ya da məcusi ... edər.» (Müslim, «Qədər», 22)

Həzrət Peyğəmbərin bu sözləri deyilən həqiqəti göstərir. Deməli, qəlbin fitri və sağlam təməli İslama bağlıdır. Ancaq qəlb mənfi təsirlərə məruz qalanda onun sağlam təməli pozulur və istiqamətini dəyişmək ehtimalı ortaya çıxır.

Mənəvi iqlimlərin feyzli havasını uda-uda mənəvi təcəllalarla dolan qəlblərdə isə gözəl əxlaq, saleh əməl və mənəvi hallar meydana gəlir. Bəndə ancaq bu yolla fitrətindəki *«əhsəni-təqvim»*[11] sirrinə nail olur. Hadisələrə və varlıqlara baxışda bir dərinlik və bacarıq qazanır ki, bu da varlığına ayələrdə işarə edilən *«qəlb gözü»*nün[12] önündəki pərdələrin çəkilərək daha uzaq məsafələri görə bilməsi deməkdir. Heç şübhəsiz ki, bu görüş adi gözün görmə sahəsinin görə bilmədiyi həqiqətlər üçündür.

Qəlb gözü açılmağa istedadı olan şəxslər tərbiyə və maariflənməyi ürəkdən arzulayırlar. Onlar Haqq yolunda irəliləmək üçün ciddi işlər görürlər. Ancaq bunu səmimiyyətlə arzu etməyənlər, yəqin mərtəbəsinə çatmaq arzusundan qafil olanlar, ənbiya və övliyanın təlqinlərinə qulaq asmazlar. Onlar inad və təkəbbür göstərərək

11 Əhsəni-təqvim:Ən gözəl bir surət və biçimdə yaradılmış insan.

12. Baxın, «Həcc» surəsi, 46.

zülmət və çirkab bataqlığı içində boğularlar. Gedəcəyi yönü və yolu təyin edə bilməyəcək bir haldakı korlara yazıqları gələr, ancaq onlar düçar olduqları mənəvi korluqların fəlakətindən xəbərsizdirlər. İnsan ilahi əmr və qadağaların təklif edildiyi bu imtahan aləmində yalnız müsbətə deyil, mənfiyə də yönələ biləcək şəkildə əməllərində iradə və ixtiyar sahibi edilmişdir. İradə və ixtiyarın necə təzahür edəcəyini təyin edən, ümumiyyətlə, qəlbin sahib olduğu müsbət, ya da mənfi istiqamət cizgiləridir. Qəlbin isə bir çox xarici təsirlərin və nəfsani təmayüllərin təsiri altında qalaraq tez-tez yaradılış qayəsindən uzaqlaşdığı və sahibinin əbədi gələcəyini təhlükəyə məruz qoyacaq bir hala gəldiyi də inkar edilməsi mümkün olmayan bir həqiqətdir.

Nəfsaniyyətin çirkabı içində olan qəlblər küfr, şirk, əxlaqsızlıq, şəhəvi ehtiraslar və vəsvəsə ilə doludur. Belə qəlblər yaradılış qayəsinin tərsinə, ülviyyətə qarşı kütləşir, çirkaba maraq göstərir. Beləliəri Quranın ifadəsi ilə *«Bəl hüm əddall»*[13], yəni heyvandan da aşağı dərəcəyə düşərək dünya həyatını qəflət içərisində boş yerə xərcləyərlər. Belə qəlblər xəstədir və müalicəyə möhtacdır.

13. Baxın: «Furqan» surəsi, 44.



Davranışlarımız qəlblərimizin qrafikasıdır. Qəlbimizin istək və inkarına görə davranışlarımız formalaşır.




1. QƏLBİN NÖVLƏRİ

Ümumi bölgüyə görə qəlbin aşağıdakı növləri var:

a- Yaradılış qayə və xüsusiyyətini qoruyan qəlblər.

b- Möhürlənmiş və ölü qəlblər

c- Xəstə və qafil qəlblər

a - Yaradılış qayə və xüsusiyyətini qoruyan qəlblər

Bunlar zikr sayəsində qəflətdən oyanmış zakir qəlblərdir. Nəfsə ruhaniyyət hakim olmuş, qəlb iman nuru ilə dolmuşdur. Belələri aşağıdakı ayeyi-kərimələrin buyruqlarını yerinə yetirməyə nail olmuş kimsələrdir:

«Ey iman edənlər! Allahı çox-çox zikr edin!..» (əl-Əhzab, 33/41)

«Rəbbinin adını zikr et! Bütün varlığınla Ona yönəl!» (əl-Müzzəmmil, 73/8)

«(Onu) **o kəslər** (təqdis edər) **ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi** (dəhşətdən ürəklərin duymaqdan, gözlərin görməkdən qalacağı) **bir gündən** (qiyamət günündən) **qorxarlar.»** (ən-Nur, 24/37)



Belə bir səviyyədə olan qəlb sahibi olan bəndələrdə uca Allahın cəmali adlarının təcəllaları cəlali təcəllalara qalib gəlmişdir. Belə bir qəlb sahibi olanlar Allah (c.c), Rəsulullah -səllallahu əleyhi və səlləm- və Qurani-Kərim əxlaqı ilə tərbiyə olunaraq kamilləşmiş şəxslərdir. Allah və Rəsuluna olan sevgi, vəcd və məhəbbətin feyizi ilə nəfsani təmayüllərindən sıyrılmış, Allahdan başqa olan hər şeyin dəyərini itirdiyi qəlblərdir. Belə qəlblər Qurani-Kərimdə *«qəlbi-səlim»*, *«qəlbi-münib»* və *«qəlbi-mütməin»* adları ilə yad olunmuşdur. Uca Allah yanında məqbul olan bu qəlblər qısa olaraq belə izah edilə bilər.

Qəlbi-səlim nəfsani təmayüllərdən və onun təhlükələrindən qorunmuş, ya da arındırılmış qəlbdir. Uca Allahın bəndəsinə təmiz fitrətlə birlikdə ehsan etdiyi və ondan qorumasını tələb etdiyi qəlbdir. Qəlbin bu saflıq halına isə ancaq nəfsin təzkiyəsi və qəlbin təsfiyəsi deyilən təsəvvüfi üsullarla çatmaq olar. Bəndə bu yollarla günahların çirkindən xilas olaraq lətafətin hakimiyyətinə nail olur. Məhz ilahi nurları qəbul edən belə bir qəlbdə bir zərrəbin üzərinə düşən işıq şüalarının tək bir nöqtədə toplanaraq od əmələ gətirdiyi kimi, ruhaniyyətin bir nöqtədə cəmlənməsi də bütün nəfsani həvəs və istəkləri yandırıb kül edir. Bu hal qəlbi-səlim üçün bir nailiyyətdir və uca Allahın hüzurunda qəbul ediləcək olan da belə bir qəlbdir.

Ayeyi-kərimədə belə buyurulur:

«O gün ki, nə mal-dövlət, nə də övlad bir fayda verər. Ancaq sağlam (təmiz, daxilində şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmayan) **bir qəlblə Allahın hüzuruna gələn kimsədən** (möminlərdən) **başqa!»** (əş-Şuəra, 26/88-89)

Şair **Ruhi Bağdadlı** bu məsələni belə ifadə edir:

Sanma ey hace kim senden zer ü sim isterler,
Yevme la-yenfeuda kalbi-selim isterler.

(Ey tacir! Mal və övladın belə fayda verməyəcəyi hesab günündə sanma ki, səndən qızıl və gümüş istəyərlər. Səndən ancaq sağlam bir qəlb istəyərlər.)

Qəlbi-münib isə hər zaman Haqqa yönələn qəlbdir. Fani əlaqələrin əsarətindən qurtulub sevgi və şövq ilə hər zaman aləmin zövqlərindən ləzzət alan bir haldadır. Qəlb ilahi qüdrət əlamətlərinin ülvi həyəcanları ilə hərəkət edir. Ayeyi-kərimədə belə buyurulur:

«(Onlara deyiləcəkdir): **«Bu, vəd olunduğunuz** (cənnətdir). **O hər bir** (tövbə edib Allaha tərəf) **qayıdan,** (nəfsini haramdan, özünü günahdan) **qoruyan Rəhmandan** (Onu) **görmədən qorxan və** (Rəbbinin hüzuruna) **haqqa dönmüş qəlblə gələn bəndə üçündür!»** (Qaf, 50/32-33)

Qəlbi-mütməin də iman rahatlığı ilə gözəl əxlaqın kamalına doğru irəliləmiş qəlbdir. İbadətlər təqliddən xilas olub təhqiqi hala gəlmişdir. Qəlb zikr ilə nurlanmış, nəfsə ruhaniyyət hakim olmuş, iman cövhəri hissiyyat mərkəzi olan qəlbdə sarsılmaz bir surətdə məkan tapmışdır. *«Təhqiqi iman»* və *«riza»* halları ilə qəlb rahatlıq, dinclik və əminliyə qovuşmuşdur.

«...Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapar!» (ər-Rəd, 13/28) ayəsində buyurulan hal meydana çıxmışdır. Bu ayədə ifadə edilən mənanın əksini düşünsək, Allahın zikrindən uzaq olan qəlblərin narahatlıq iztirablarından heç bir zaman azad olmayacağı və həqiqi rahatlığa qovuşmayacağı anlaşılmaqdadır.

Sağlam, münib və mütməin vəsflərinə sahib olan qəlbin əlaməti bunlardır: riqqət (incəlik), yaradılmışlara mərhəmət, göz yaşı, içərisində olduğu hala razı olmaq, haqq və xeyirə xidmət etmək, şərdən qaçmaq, nəsihət və irşada yönəlmək, ilahi sevginin həzzi ilə dolu olmaq.

Qəlbə aid olan bu səviyyənin sərmayəsi səmimi *"dua etmək və bağışlanma istəmək"*lə birlikdə *"halal tikə"*yə diqqət etməkdir. Bu sərmayənin qorunması isə ancaq gözəl əməllərlə mümkündür. İnsan olmaq baxımından günahlardan mütləq surətdə uzaq qalmaq mümkün olmadığına görə və günahlar da qəlbin həssaslığını azaldıb onu həqiqətə qarşı mənəvi baxımdan kor və kar etdiyindən, qəlbin müsbət təcəllalara açıq ola bilməsi üçün səmimi olaraq bağışlanmağa və duaya sarılmaq şərtdir. Bu hikmətə bağlı olduğuna görə də təsəvvüfi

dərslər Allahdan bağışlanma istəməklə başlanır. Çünki Məcəllənin məşhur qaydasında ifadə edildiyi kimi:

«Dəfi məfasid, cəlbi mənafidən evladır.» Yəni pisliklərin zərərsizləşdirilməsi, yaxşılıqların cəlb edilməsindən daha önəmlidir və hər şeydən öncə bu təmin edilməlidir.

Halal tikə ilə bağlı Allah dostları belə buyurmuşlar:

«Halal tikə yeyənin qəlbini Allah nurlandırır və hikmət bulaqlarını qəlbindən dilinə axıdır.»

Gözəl əməl isə qəlbin qazandığı səviyyəni qorumağın və əldə saxlamağın təminatıdır. Uca Allahdan gələn xüsusi iltifatlar ancaq bu yolla belə qəlb sahibləri üçün bir nemət sayılır.

Bir də bunlardan başqa Allahın nuru ilə bəzənmiş diri qəlblər var. Onlar peyğəmbərlərin və böyük Allah dostlarının qəlbləridir. Onların qəlblərini ilahi sevgi diriltdiyinə görə hər iki dünyaya da iltifat sayıla biləcək bir nəzərlə, hətta, göz ucu ilə belə baxmazlar. Uca Allah peyğəmbərləri, onların varisləri olan alimləri və övliyanı insanların qəlb gözlərini örtən qəflət pərdələrini açmaq, onları gözəl əxlaq və səmimi ibadətlərə təşviqlə qəlblərini dirildib onları Allaha qovuşduracaq mərifətullaha sövq etməklə bir cənnət dəvətçisi etmişdir.

Qəlbi tərbiyə nəticəsində saliklərin yüksəlməsi arzu edilən səviyyə qəlbin fasiləsiz olaraq Allah ilə birgə olmaq halına (ehsana) qovuşması və bu yolla da *«diri qəlb»* vəsfini qazanmasıdır.

b. Möhürlənmiş və ölü qəlblər

Bu qismə daxil olan qəlblər zikr edən və diri olan qəlblərin tam ziddi olaraq imana bağlı olan nəsib qapıları möhürlənmiş ölü qəlblərdir. Belə qəlblərin cəhənnəm çuxurlarından bir çuxur olan bəzi məzarlardan fərqi yoxdur. Bu qəlblər peyğəmbər, vəli və salehlərin qəlblərinin tam ziddi olan qəlblərdir. Nəfsani iştahalardan bir başqa tələbi qalmamış olan belə qəlblərə sahib olanların dünyada yemək,

içmək, ötəri sevdalarla ömür sürməkdən başqa bir məqsədləri yoxdur. Həyatdakı qayələri heyvanların qayəsindən fərqli deyil. Bəzən onlardan belə daha aşağı səviyyədədir. Uca Allah ayeyi-kərimədə buyurur:

«Allah iman gətirib yaxşı əməllər edənləri (ağacları) **altından çaylar axan cənnətlərə daxil edər. Kafirlər isə** (dünyada) **səfa sürər, heyvan kimi yeyib-içərlər.** (Öləndən sonra) **cəhənnəm odu onların məskəni olacaq!»** (Məhəmməd, 47/12)

Başqa bir ayeyi-kərimədə isə belə buyurulur:

«(Ey Rəsulum!) **Yoxsa elə güman edirsən ki, onların çoxu** (sən deyən sözü) **eşidəcək, ya da** (ağıllı-başlı) **fikirləşəcək? Onlar heyvan kimidirlər, bəlkə ondan daha çox zəlalət yolundadırlar.»** (əl-Furqan, 25/44)

Bütün həyati fəaliyyətləri nəfsani əməllərə bağlı olan belə şəxslərin ömürləri əbədi bir peşmanlıq içində keçər. Axirətdəki halları isə təsvir olunmaz bir faciə dəhşəti ilə sonsuzadək davam edər.

Belələri insan və həyatdakı sirlərdən, kainatdakı ibrətli naxışlardan xəbərsizdirlər. Özləri azdıqları kimi, təsiri altında olan şəxslərin də imkanları çərçivəsində dəlalətə düşməsinə səbəb olurlar.

Onlar dünyada Allahın mülkü və nemətləri içində yaşadıqları halda, bu nemətlərin sahibini inkar etmək, Onun əmr və yasaqlarını pozmaq kimi böyük bir nankorluq içindədirlər. Uca Allah belə insanlar haqqında ayeyi-kərimədə belə buyurur:

«Məgər insan onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə (Rəbbinə) **açıq bir düşmən kəsildi.»** (Yasin, 36/77)

«Onlar kar, lal və kordurlar (haqqı eşitməz, danışmaz və görməzlər). **Buna görə də** (öz pis adətlərindən, yaramaz əməllərindən dönməzlər)**.»** (əl-Bəqərə, 2/18)

«Şübhəsiz ki, sən nə ölülərə (haqqı) **başa sala bilər, nə də dönüb gedən karlara** (haqqa) **çağırışı eşitdirə bilərsən. Sən o korları düşdükləri əyri yoldan düz yola gətirə bilməzsən. Sən** (haqqı)

yalnız ayələrimizə inananlara eşitdirə bilərsən. Məhz onlar müsəlmandırlar.» (ən-Nəml, 27/80-81)

Bu kimsələrin qəlblərinin bağlı və möhürlü olduğu ayələrlə sabitdir. Qurani-Kərimdə bu həqiqət belə bəyan edilmişdir:

«Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə var. Onları böyük bir əzab gözləyir!» (əl-Bəqərə, 2/7)

Bu keyfiyyət bütün insanlığı qorxu və əzəmətlə dəhşətə salacaq ilahi bir sirr və hikmətdir. Hər insanda həm *«hadi»*, həm də *«mudill»* sifətlərindən bir pay olduğu üçün onlar hələ dünyada ikən qəlbin möhürlənib hidayət qapılarının mütləq bir surətdə və ilahi bir iradə ilə bağlanması düşünülməz. Çünki həzrət Peyğəmbəri -səllallahu əleyhi və səlləm- öldürmək kimi çirkin bir qayə ilə yola çıxmış olan həzrət Ömərə, həzrət Həmzəni şəhid edən Vəhşiyə, hətta, o mübarək varlığın cəsədini təhqir edib, ciyərini çıxarıb dişləyən Əbu Süfyanın arvadı Hində də bu hidayət qapısı bağlanmamışdır.

Qurani-Kərimdə qəlbləri möhürlənən şəxslərdən danışılmaqla birgə, bunları bir-bir müəyyən etmək mümkün deyil. Çünki aqibət bilinmir. Fironun sehirbazlarının misalı kimi dəlalətlə yaşayıb ömürlərinin axırında hidayətə qovuşanlar olduğu kimi, Qarun və Bəlam bin Baura kimi hidayət üzrə olub, sonda əməl dəftərini peşmanlıqla bağlamış olanlar da var.

Burada diqqət ediləcək nöqtə Qurani-Kərimdə qəlbləri möhürlənmiş olaraq yad edilənlərin daha çox *«zülm»*, *«küfr»* və *«fisq»* kimi günahları edənlərdən bəziləri olduğu həqiqətidir. Bu xüsusiyyətlərə sahib insanlarla bağlı Qurani-Kərimin iyirmi altı yerində **«Allah onları hidayətə qovuşdurmaz»**, buyurulmuşdur. Bu ayələrin on ikisi zalımlar, səkkizi kafirlər, altısı da fasiqlər haqqındadır. Ancaq bu günahlardan əl çəkərək səmimi bir könüllə Allaha yönələn bəndələrə hidayət qapısı açıqdır.

Onlar hələ bu dünyada olarkən qəlblərinin möhürlənməsi yolu ilə ən ağır cəzaya məhkum edilmiş bədbəxt kimsələrdir. Hidayətdən məhrumiyyətin bu üç günah arxasında ifadə edilməsi bu məhru-

miyyətin səbəbi haqqında bir dəlil olsa da, həqiqəti Allaha həvalə etməkdən başqa çarə yoxdur. Bundan çıxış edərək biz bu üç növ günahdan qorunmaq üçün daha çox diqqətli olmalıyıq.

Başqa yöndən bir çox hikmətinə baxmayaraq, qədərin məchul qalması və onu araşdırmağın çox da yaxşı bir iş olmaması səbəbi ilə bu nöqtəni dərindən araşdırmaqdan imtina edirik.

Hikməti nə olursa-olsun, inkar etmək mümkün olmayan bir həqiqət budur ki, qəlbləri belə möhürlü və bağlı olanlar Haqqa və xeyirə qarşı qapıları bağlanmış, gerçək insanlıqla və mənəvi həyatla əlaqələri kəsilmiş şəxslərdir. Qəlblərindəki möhür və qıfılları qaldıra biləcək yeganə qüdrətin sahibi, onların unutmuş olduqları uca Allahdır. Biz bəndələrini belə bir qəflətə düşməkdən xəbərdar etmək məqsədi ilə uca Allah belə buyurur:

«Allahı unutduqları üçün Allah da onları özlərinə unutdurduğu (xeyirlərini başa düşməyən) **kimsələrə bənzəməyin! Onlar** (Allahın itaətindən çıxmış) **fasiqlərdir!»** (əl-Həşr, 59/19)

Ayədə Allahı unudan şəxslərin özlərini belə, xatırlaya biləcək bir düşüncə və şüurdan məhrum olduqları vurğulanmışdır.

Həqiqətə kor olan bu tip qəlblər peyğəmbərlərin və övliyaların onlara təqdim etdikləri qurtuluş düsturlarını və hidayət ölçülərini onların nəfsani arzularına zidd olduğu üçün etirazla qarşılayar, ya da biganə qalmaq bədbəxtliyinə düçar olarlar. Nəfslərinin aldadıcı təlqinləri ilə ölüm və axirəti olmayan bir xəyal dünyası quraraq orada özlərini aldatmağa çalışırlar.

Yarasaların fitri təmayüllərinə uyğun olaraq qaranlıqdan xoşlanması kimi, bunlar da şəxsiyyətlərində olan mənfiliklərin təsiri altına düşərək öz səfalətlərini səadət hesab etmək bədbəxtliyi və cəsədlərinin hamballığı içində yaşayırlar. Onların bu halını şair **Mehmed Akif** belə təsvir etmişdir:

İmandır o cevher ki ilahi ne büyüktür!
İmansız olan paslı yürek sinede yüktür!



Nəfsaniyyət və imansızlıq bataqlığına düşmüş olanlar ölüm anının qorxunc zəlzələləri və ölüm mələyinin odlu zərbələri ilə həqiqəti dərk edərlərsə də, artıq bu oyanışdan heç bir fayda əldə edə bilməzlər. Çünki Adəm oğlunun vəzifəsi, borcu ölüm mələyini qarşısında görəcəyi ana qədərdir. O andan sonra fürsət bir daha ələ keçməz, o artıq yox olmuşdur. O zamandakı geriyə dönüş və peşmanlıq Fironun ölüm anında gecikmiş təsdiqi və səcdəyə qapanması kimi faydasızdır. Artıq onların bundan sonrakı aqibəti cəsədləri udduqca iştahası artan cəhənnəm alovlarının qucağı olacaq.

c. Xəstə və Qafil Qəlblər

Bunlar sağlam və ölü olan qəlblər arasında orta bir mövqedədirlər. Belələrinin halı bədəni xəstə insanların iztirablı həyatına bənzəyir. Nə dünyəvi həyatlarında bir ahəng, nə də içlərində bir rahatlıq vardır. İç aləmlərindəki qeyri-müəyyənlik xarici aləmlərini, xarici aləmlərindəki sistemsizlik də iç aləmlərini mənfi təsir altında saxlayır. Düşüncələrindəki qarışıqlıq bütün hal və hərəkətlərinə təsir edir. Şübhə, qərarsızlıq və qeyri-sabitlik girdabında çabalayan bu tip xəstə və qafil qəlblər cəhalət, şəhvət və ehtirasları səbəbi ilə bütün əxlaqsızlıqlara düşmək təhlükəsi ilə hər an qarşı-qarşıya olmaq kimi mənəvi xəstəliklərə mübtəladırlar.

Ayeyi-kərimədə bu zümrə haqqında uca Allah belə buyurur:

«Onların ürəyində mərəz (nifaq və həsəd mərəzi) var. Allah onların (şəkk, kin və nifaq) **mərəzini daha da artırar. Yalan dedikləri üçün onlar şiddətli bir əzaba düçar olacaqlar!»** (əl-Bəqərə, 2/10)

Şübhə - bir həqiqət budağına qona bilməməklə feyzli bir mənəvi həyatdan məhrum olmaq xəstəliyidir. Bu xəstəlik qəlblərə mənəvi ölüm sancıları gətirir. Onları qəlbi təmin edəcək iman sabitliyindən məhrum edir, onları daimi bir narahatlıq xəstəliyinə yoluxdurur.

Cəhalət - həqiqətdən məhrumiyyətin iztirabını belə, hiss etməyəcək dərəcədə korluq, zavallılıq, acı və qaranlıq dolu bir yoldur. Bu



hal onları istila edərək sonu mütləq peşmanlıq və fəlakət olan bir yolda hərəkət etdirir.

Şəhvət və ehtiraslar - qəlbin incəliyini itirərək duyğusuz olması nəticəsində doymaq bilməyən arzuların yerinə yetməsi üçün onların təsiri altında olmaq xəstəliyidir. Müəyyən mənada əməl çılğınlığıdır. Onların rahat ola biləcəyi yeganə yer sərv ağacının kölgələri altındakı qəbirstanlığın qara torpağıdır.

Əxlaqsızlıq - qəlbin mənəvi xərçəngidir. Vaxtında müalicə olunsa, Allahın icazəsi ilə şəfa tapa bilər.

Qəlbin qorxunc bir xəstəliyi də **sərtlik**dir. Bu xəstəlik zərif və lətif şeylərin, insani duyğuların və ruhani əsintilərin narın təmaslarını duymamaq məhrumiyyətidir. Belə qəlblər itaət tanımaz, nəsihət dinləməz, inilti, fəryad eşitməz, mərhəmət və şəfqətin nə olduğunu bilməz. Daşlar belə, bu qəlblərə baxanda daha yumşaqdır, daha isti və sevimlidir. Uca Allah Qurani-Kərimdə bu həqiqəti belə ifadə etmişdir:

«Bundan (bu əhvalatdan) **sonra qəlbləriniz yenə sərtləşərək daş kimi, bəlkə, daha da qatı oldu. Həqiqətən, bəzi daşların içərisindən çaylar axar, bəzisi yarılıb içindən su fışqırar və bəzisi də Allahın qorxusundan** (uca yerlərdən, dağda) **yuvarlanıb düşər. Allah sizin etdiklərinizdən, əlbəttə, qafil deyildir!»** (əl-Bəqərə, 2/74)

Ayeyi-kərimədən anlaşıldığı kimi, qəlbin sərtliyi Allahı xatırlamamaq və ilahi həqiqətlərlə uzun bir müddət ünsiyyətdən məhrum qalmağın təbii bir nəticəsidir. Başqa bir ayeyi-kərimədə də uca Allah belə buyurur:

«… Elə isə vay qəlbləri Allahın zikrinə (Qurana) **qarşı sərt olanların halına! Onlar** (haqq yoldan) **açıq-aydın azmışlar.»** (əz-Zumər, 39/22) Xəstə və qafil qəlblərlə edilən əməllər Haqq yanında qiymətini itirər. Qəlblər Haqq nuru ilə aydınlanmadıqca kütləşər və duyğusuzlaşar. Kainatdakı ilahi sirləri ifadə edən min bir naxışı və işarələri görməz.

Uca Allah ayeyi-kərimədə belə buyurur:



«Məgər onlar (peyğəmbərləri yalançı hesab edən kafirlər) **yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən qəlbləri** (bəsirət gözləri)**, eşidən qulaqları olsun? Həqiqətən, gözlər kor olmaz, lakin sinələrdəki ürəklər** (qəlb gözü) **kor olar.»** (əl-Həcc, 22/46)

Uca Allah bu ayə ilə ibrət nəzərlərinin qəlblər üçün dirildici bir nemət olduğunu bəyan etmişdir. Qəlbin nuru ilə baxmadıqca göz pəncərəsi bir işə yaramaz. Çünki kirli bir aynadan aydın bir mənzərə seyr etmək mümkün deyil.

Qəlbin nəzərdən qaçırılan kiçik xəstəlikləri belə, müalicəsi mümkün olmayan böyük itkilərə, hətta, onun mənəvi ölümünə səbəb ola bilər. Buna görə də qəlblərin böyük bir iman həssaslığı içində qorunaraq Allahın iradəsinə təslim olması zəruridir. Uca Allaha tam mənası ilə təslim olmuş bir insanı Yaradanından başqa sövq və idarə edəcək heç bir güc yoxdur. Bu hədisi-şərif qəlbi qorumağın zəruriliyini çox gözəl ifadə edir:

«Xəbəriniz olsun ki, insanda bir ət parçası var. O yaxşı olsa, bütün bədən yaxşı olar. O pis olsa, bütün bədən xarab olar. Bu, ürəkdir.» (Buxari, «İman», 39)

Bu dünya uca Allahın imtahan və təklif səhrasıdır. Onun üzərində müxtəlif imtahan küləkləri əsir və insan qəlbini çeşidli təsirlər altında saxlayaraq bir o yana, bir bu yana sürükləyir.

Dünyanın imtahan məkanı olaraq təqdir edilməsinin təbii bir nəticəsi olaraq cərəyan edən bir-birinə zidd fırtınaların qəlbi bir quru yarpaq kimi qarşısına salıb sürükləməməsi üçün onun bu təsirlərdən qorunması zəruridir. Bu baxımdan qəlbi, uca Allahın ilahi təminat cəhətindən əsən sərin küləklərə təslim etmək lazımdır. Bu da ancaq Allaha yalvarmaq, Onun əmr və qadağalarına itaət və təslimiyyət göstərməklə mümkündür.



Qəlb şəffaf bir su kimidir. Ancaq pis iş və günahlarla bulaşdıqdan sonra heç bir şey görünmür. Bu vəziyyətdə mənəviyyat incilərini və həqiqət nurlarını görə bilmək üçün o suyu durultmaq lazımdır.

3. QƏLBİN TƏSFİYƏSİ

Sağlam, münib və mütməin qəlblərin bu keyfiyyətlərini qoruya bilmək, xəstə qəlbləri müalicə etmək və əbədi məhrumiyyətlə möhürlənmiş qəlblərin aqibətinə düçar olmamaq üçün əməl edilməsi zəruri olan başlıca şərtlər bunlardır:

a. Halal qida

b. İstiğfar və dua

c. Quran oxumaq və onun ehkamlarına tabe olmaq

ç. İbadətləri mütiliklə yerinə yetirmək

d. Gecələri ehaya etmək

e. Allahı zikr etmək və müraqibə

ə. Rəsulullaha -səllallahu əleyhi və səlləm- məhəbbət və ona hər zaman salavat demək

f. Ölümü düşünmək

g. Saleh və sadiqlərlə bərabər olmaq

h. Gözəl əxlaq sahibi olmaq

Bu şərtləri ciddi bir şəkildə yerinə yetirmək üçün hər şeydən öncə onları doğru anlamaq və önəmini dərk etmək zəruridir.

a. Halal qida

İbrahim Desuki -qüddisə sirruh- : «Ey qardaşlarım! Haram yediyiniz müddətdə hikmət və mərifət haqqında bir şey əldə edəcəyinizi düşünməyin.»

İbadətlər ruhu bəsləyən mənəvi qida olmaqla bərabər bir də bədənin maddi qidalardan aldığı güc və qüvvətlə yerinə yetirilir. Vücuda halal qidadan ruhaniyyət və feyz əks etdiyi halda, bunun əksunə haram və şübhəli qidalardan isə sıxıntı, ətalət və qəflət daxil olar.

Halal qida ilə gözəl əməllər arasında ciddi bir bağlılıq var. Duanın qəbul olunmasında da halal qidanın əhəmiyyəti çoxdur. Rəsulullah -səllallahu əleyhi və səlləm- bu məsələ ilə bağlı belə buyurmuşdur:

«Ey insanlar! Şübhəsiz ki, Allah pakdır və heç bir şeyə möhtac deyil, bu baxımdan halal və təmiz olanlardan başqa bir şey qəbul etməz. Uca Allah peyğəmbərlərə əmr etdiyi şeyləri möminlərə də əmr etmişdir.»

Ayeyi-kərimədə belə buyurulur:

«Ey peyğəmbərlər! Təmiz (halal) nemətlərdən yeyin və yaxşı işlər görün! Mən, həqiqətən, sizin nə etdiklərinizi bilirəm!» (əl-Muminun, 23/51)

«Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin (təmiz və) halalından yeyin…» (əl-Bəqərə, 2/172)

Həzrət Peyğəmbər bu ayələri oxuduqdan sonra uzun bir səfərə çıxdığı üçün saçı dağınıq, toza-torpağa bulaşmış və əllərini səmaya qaldıraraq:

«Ey Rəbbim, ey Rəbbim!», deyə dua edən bir adamdan danışır və sonra belə buyurur:

«Bu adamın yediyi haram, içdiyi haram, geydiyi haram olduğu

halda və haramla qidalandığından onun duası necə qəbul edilsin?!» (Muslim, «Zəkat», 65)

Könül əhli olan Haqq dostları mənəvi aləmlərin inkişafı üçün bu iki xüsusiyyətə çox diqqətlə yanaşırlar və onlar belə buyururlar:

«Yeyərkən ağzınıza girənə, danışarkən ağzınızdan çıxana diqqət edin!..»

Aşağıdakı hədisi-şərif bizə halal və haram məsələsində nə qədər ehtiyatlı olmağımızın zəruriliyini çox gözəl və aydın bir şəkildə açıqlayır.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- buyurur:

«Şübhəsiz, halal bəllidir. Haram da bəllidir. Ancaq bu ikisi arasında halal, ya da haram olduğu açıq bəlli olmayan bir sıra şübhəli şeylər vardır ki, çoxları bunları bilmir. Şübhəli şeylərdən qaçan bir şəxs dinini və heysiyyətini qorumuş olur. Şübhəli şeylərdən çəkinməyən bir kimsə isə bəzən haram yeyə bilər. Sürüsünü başqasına aid bir ərazinin ətrafında otaran çoban kimi. Çünki sürünün bu əraziyə girmək təhlükəsi var. Diqqət edin! Hər padşahın girilməsi qadağan olan bir ərazisi var. Unutmayın ki, Allahın yasaq ərazisi də haram etdiyi şeylərdir.» (Buxari, «İman», 39)

Allahın əmrinə itaət, təslimiyyət və riza halında olan qəlblər hikmət, xeyir və bərəkət qaynağı olur. Bunun əksinə, haramlardan və şübhəli şeylərdən qorunmayan qəlb və bədənlər isə başdan-başa bir pislik məskəni və əxlaqsızlıq yuvasına çevrilir. Bu diqqət və həssaslığın önəmi ilə bağlı aşağıdakı misallar da çox ibrətlidir:

«Əbu Bəkr Siddiqin (r.a) bir köləsi var idi. Bu kölə qazancının müəyyən bir qismini ona verir, o da bundan yeyirdi. Bir gün kölə qazandığı bir şey gətirdi. Əbu Bəkr (r.a) onu yeməyə başladı. Bundan sonra kölə dedi:

- Yediyin şeyin nə olduğunu bilirsənmi?

Əbu Bəkr (r.a):

- Xeyr, bilmirəm. Söylə görüm bu nədir?

Kölə:

- Falçılıqdan bir şey bilmədiyim halda, cahiliyə dövründə falçılıq edərək bir adam aldatmışdım. Bu gün onunla qarşılaşdıq. Adam o gördüyüm işə görə indi sizə verdiyim yeməyi mənə verdi.

Həzrət Əbu Bəkr (r.a) bunu eşidəndə barmağını boğazına uzatdı və yediyinin hamısını çıxartdı.» (Buxari, «Mənaqibül-Ənsar», 26)

Başqa bir rəvayətə görə kölə belə demişdir:

- Bir tikə üçün bu qədər əziyyət çəkməyə dəyərmi?

Həzrət Əbu Bəkr belə cavab vermişdir:

- Canımın çıxacağını bilsəm belə, yenə o tikəni çıxarardım.» (Əhməd b. Abdullah ət-Təbəri, «ər-Riyadun-Nadra», II, 140-141)

Xızırın -əleyhissalam- məşhur Haqq dostlarından Əbdül Xaliq Gücdəvanini -qüddisə sirruh- ziyarət etdiyi zaman onların arasında olan bu söhbət də çox ibrətlidir. Xızır -əleyhissəlam, həzrət Gücdəvaninin verdiyi yeməkləri yeməz və özünü süfrədən kənara çəkərdi. Əbdül Xaliq Gücdəvani -qüddisə sirruh- heyrətlə:

- Bunlar halal tikələrdir, niyə yemirsiniz?,-deyir.

Xızır -əleyhissalam- isə bu cavabı verir:

- Bəli, halal tikələrdir, ancaq bişirən qəzəb və qəflətli bişirmişdir!

Göründüyü kimi, yeyilən bir yeməyin halal olub-olmamasından başqa, onun hansı əhval-ruhiyyə ilə bişirildiyi də insanın hal, hərəkət, münasibət və ibadətlərinin ruhuna təsir edir. Bu vəziyyət qidalara münasibətdə diqqətli olmağın önəmini ortaya qoyur.

Saleh insanların qidalarla bağlı bu həssaslıqları onların dükan və bazardan aldıqları qida maddələrini evlərinə qapalı bir şəkildə aparmağa sövq etmişdir. Çünki alınan bu qida üzərində *«göz qalmamalıdır»* və qidalardan əldə edilən enerji və qüvvət ehtiyac sahiblərinin ahlarının, qəriblərin və məhrumların kədərli baxışlarının mənfi təsirlərinə məruz qalmamalıdır.

Mömin haram və şübhəli olan şeylərdən çəkinməklə birgə, halal nemətlərdən istifadə edərkən də tarazlığı pozmamalı və israfdan qaçmalıdır. Ayeyi-kərimədə belə buyurulur:

«Qohum-əqrabaya da, miskinə də, (pulu qurtarıb yolda qalan) müsafirə də haqqını ver. Eyni zamanda (mal-dövlətini əbəs yerə) sağa-sola da səpələmə. Həqiqətən, (malını əbəs yerə) sağa-sola səpələyənlər şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur!» (əl-İsra, 17/26-27)

Məsnəvidə halal tikənin bədən və ruh üzərindəki təsirini həzrət Mövlana məcazi üslubla belə ifadə edir:

«Dünən gecə ilham bizə başqa cür təcəlla etdi. Çünki mədəyə daxil olan bir neçə şübhəli tikə ilhamın yolunu bağladı.

Nəfsin arzu etdiyi şübhəli qidalar səni Haqq yolundan uzaqlaşdıran ayağına batmış tikanlar kimidir. Buna görə də, tikəyə diqqət verməyənlər düşmənlərdən oldular.

Ey bədən! Sənin içində elə gözəl bir gül var ki, onu qorusan, ətrafa yayılan gözəl ətirdən saysız-hesabsız irfan və mərifət gülüstanı meydana gələr.»

Abdülqadir Geylani -qüddisə sirruh- da tikənin qəlbin təmizlənməsindəki önəminə diqqəti çəkmişdir:

«Bax, övladım! Haram yemək qəlbi öldürür. Tikə vardır, qəlbini nurlandırır, tikə vardır onu qaranlığa qərq edir. Tikə vardır səni bu dünyaya yönəldər, tikə vardır ki, səni axirətə yönəldər. Tikə vardır səni hər iki dünyanın zahidinə çevirər, tikə vardır, səni dünya və axirətin yaradıcısına yönəldər. Haram yemək səni dünya işlərinə yönəldər və pisliklərı sənə gözəl göstərər. İcazə veriləni yemək səni axirətə yönəldər və ibadətləri sənə sevdirər. Halal yemək isə qəlbi Mövlaya yaxınlaşdırar. Yeyəcəklərin keyfiyyəti və təsiri ancaq mərifətullah ilə bilinər. Mərifətullah isə qəlbdə olur, kitab və dəftərdə deyil. İlahi mərifət yaradıcıdan qəlbə ehsan edilir, yaradılmışdan qəlbə ehsan edilməz. Bu isə tövhidi təsdiq və ilahi ehkamlara əməl etdikdən sonra ortaya çıxar.»

İbrahim Desuki -qüddisə sirruh- belə buyurur:

«Ey qardaşlarım! Haram yediyiniz müddətdə hikmət və mərifət haqqında bir şeylər əldə edəcəyinizi düşünməyin.»

Halal yeməklə bağlı Ubeydullah Əhrar -qüddisə sirruh- ilə Seyid Qasım Təbrizi -qüddisə sirruh- arasında olan bu söhbət də çox ibrətlidir.

Həzrət Ubeydullah Əhrar belə söyləyir:

«Bir gün həzrət Seyid Qasım mənə belə dedi:

«Ata! Bilirsənmi, bizim yaşadığımız dövrdə hikmət və həqiqət nə üçün az olur? Çünki bu dövrdə batin təmizlənməsi çox az insanda qalmışdır. Kamillik qəlbin təsfiyəsindədir. Bu isə halal tikə yeməklə mümkündür. Bu dövrdə halal tikə çox azdır. Qəlbi təsfiyə edilmiş adam isə demək olar ki, yoxdur. Belələrində ilahi sirlərin təcəlla etməsini necə istəyə bilərsən?»

b. İstiğfar və Dua

«(Ey Rəsulum!) **De: «Əgər duanız** (ibadətiniz) **olmasa, Rəbbim sizə nə qiymət verər?...»** (əl-Furqan, 25/77)

Başda Peyğəmbər olmaqla, bütün vəlilər, salehlər və sadiqlər qıtlıq və bolluq zamanında, kədərli və sevincli anlarda hər zaman uca Allaha yalvarmışlar və Ona möhtac olduqlarını bildirmişlər. Çünki peyğəmbərlərdə də *«zəllə»*[14] olduğuna görə dua və bağışlanmadan kənarda qala biləcək heç bir qul yoxdur. Dua və bağışlanma həqiqi mahiyyəti ilə dərin bir peşmanlıq və yalvarış mənasını əhatə etdiyindən Allaha yaxınlığın ən təsirli vasitəsidir. Ərəbcə namazın dua mənasında olan *«salət»* kəlməsi ilə ifadə edilməsinin bir hikməti də onun ən gözəl bir dua və ibadət olmasıdır.

Başqa yöndən duanın əvvəli bağışlanma istəməkdir, uca Allahdan əvf istəməkdir. Bu tələb olunan əlamətləri daşıyırsa, yəni bağışlanılması istənilən günahın bir daha edilməməsində qəti bir əzm və

14. Zəllə: Qeyri-iradi xəta.

peşmanlıq ehtiva edirsə, qəlbin həssaslığını kütləşdirən kir və pası silib onu, sanki həqiqət qarşısında parlayan bir güzgüyə çevirir. Qəlb ancaq bu yolla feyzlər almağa hazır olur.

Edilən günahlar nəticəsində qaralan qəlblərin bağışlanma ilə nurlanacağını bəyan etmək üçün Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- bu hədisi-şərifi qəlbin təsfiyəsi baxımından çox ibrətamizdir:

«Bəndə bir xəta etdiyi zaman qəlbində qara bir nöqtə yaranır. Əgər o günahı tərk edib bağışlanma diləyərək tövbəyə yönələrsə, qəlbi cilalanar. Belə etməz və yenidən xətalara dönərsə, qara nöqtələr artar və sonda bütün qəlbi əhatə edər.»

Uca Allahın:

«Xeyr (belə deyildir). **Əslində, onların qəlblərini qazandıqları** (günahlar) **bürümüşdür.»** (əl-Mutəffifin, 83, 14) deyə təsvir etdiyi hal da budur. (Tirmizi, Təfsir, 83)

Dünyanı könül gözü ilə tamaşa edəndə görürük ki, bütün yaradılmışlar ilahi nemətlərə şükür etməzdən öncə öz acizliklərini etiraf edirlər. İradə sahibi olan və bu iradədən istifadə edərkən xətadan mütləq bir şəkildə uzaq qalması mümkün olmayan Adəm oğlu üçün Allahdan bağışlanma istəmək Allaha yaxınlaşmaq üçün atılacaq ilk addımdır.

Dua ilahi mərhəməti cəlb etməyə yol açdığından öncədən müəyyən olunmuş bəlalardan xilas olmağı təmin etmək üçün böyük bir təsir gücünə sahibdir. Buna görə də, yuxarıda başqa bir səbəblə ifadə etdiyimiz kimi, bütün təriqətlərdə mənəvi dərsə bağışlanma ilə başlayırlar.

Duanın önəmi ilə bağlı olaraq ayeyi-kərimədə belə buyurulur:

«(Ey Rəsulum!) **De: «Əgər duanız** (ibadətiniz) **olmasa, Rəbbim sizə nə qiymət verər?..»** (əl-Furqan, 25/77)

«(Ey Rəsulum!) **Bəndələrim Məni səndən soruşanda söylə ki, Mən** (onlara) **yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib Mənə iman**

gətirsinlər. Bununla da ola bilsin ki, doğru yola yetişsinlər». (əl-Bəqərə, 2/186)

«Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin. Şübhəsiz ki, O, həddi aşanları (qışqıraraq dua edənləri) **sevməz!».** (əl-Əraf, 7/55)

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- hədisi-şəriflərində belə buyurmuşdur:

«Allah yanında Ona dua etməkdən daha qiymətli bir şey ola bilməz. Dua ibadətin (qulluğun) canıdır.» (Tirmizi, «Dəavat», 1)

«Sıxıntı və çətinlik zamanında duasının qəbul olunmasını istəyən şəxs, bolluq və rahatlıq zamanında da çox dua etsin.» (Tirmizi, «Deavat», 9)

«Kimə ki dua qapıları açılmışdır, ona rəhmət qapıları da açılmışdır.» (Tirmizi, «Deavat», 101)

«Qəbul ediləcəyinə inanaraq uca Allaha dua edin. Bunu bilin ki, uca Allah qafil bir qəlblə edilən duanı qəbul etməz.» (Tirmizi, «Dəavat», 65)

Hədisi-şərifin məzmununa görə qafil bir qəlblə və dağınıq bir üslubla edilən duaların Allah yanında qəbul ediləcəyini düşünmək şeytanın aldatmasından başqa bir şey deyil.

İmam Rəbbani -qüddisə sirruh- belə deyir:

«Bir savaş iki ordunun birliyi ilə qazanılar. Biri sərhəd ordusu, o birisi isə dua ordusudur.»

Belə ki, əshabi-kiram da cihada gedərkən öz dualarından başqa, zəfər qazanmaları üçün Suffa əhlinin duasını da istəyirdilər.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Bir möminin başqa bir möminə onun xəbəri olmadan edilən duasından daha tez qəbul edilən heç bir dua yoxdur.» (Tirmizi, «Birr», 50)

İnsanlar duasının qəbul ediləcəyini ümid etdikləri şəxslərdən dua istəyirlər. Halbuki, duanın qəbul olunmasını təmin edən başlıca məsələ bunu edənin ilahi yanında mövqeyindən daha çox, onun

tələbindəki ixlas və səmimiyyətidir. Bu o deməkdir ki, bir günahkarın mömin qardaşına səmimiyyətlə edəcəyi dua Allah yanındakı mövqeyi baxımından ondan çox irəlidə olan bir başqasının könülsüz duasından daha xeyirlidir. Bəndənin günahkar olması o demək deyil ki, uca Allah onu tərk etmişdir. Belə olsaydı, günahkarın qüsurlarını söyləmək *«qeybət»* adı ilə böyük günahlardan biri sayılmazdı. Burada kim olursa-olsun, Allahın bəndələrindən birinin könlünü almağın və onun səmimi dualarını eşitməyin dəyərini dərk etmək zəruridir.

Əshabi-kiram Allah Rəsulundan -səllallahu əleyhi və səlləm- soruşdu:

- Ən məqbul dua hansıdır?

O buyurdu:

«- Gecənin son hissəsində və hər fərz namazdan sonra edilən duadır.» (Tirmizi, «Dəavat», 78)

Duanın qəbul edilməsi üçün istəyin ancaq sözlə ifadə edilməsi kifayət deyil. Qəlb seçilən kəlmələrin yükləndiyi mənaya bağlı olan arzularla titrəməli və dua bir günahın bağışlanması istiqamətindədirsə, onun bir daha edilməməsi üçün qəti bir əzm və qərarla birlikdə tələb edilməlidir.

Başqa yöndən duaların Haqq yanına yüksəlməsini təmin etməsi baxımından istiqamət və gözəl əməlin önəmi çox böyükdür. Belə ki, ayeyi-kərimədə buyurulur:

«… Pak söz (tövhid kəlməsi, zikr, həmd-səna) **Ona tərəf yüksələr və pak sözü də** (Allah dərgahına**) yaxşı əməl qaldırar…»** (Fatir, 35/10)

Duaları *«xovf və rəca»*, yəni qorxu və ümid duyğuları ilə etməyə çalışmaq lazımdır. Dua və istiğfar fərd və millətləri xoşbəxtliyə yönəldər, gələcək müsibətləri yox edər.

Qəlbi xəstəliklərdən xilas olmaq və duanın qəbulu ilə bağlı həzrət Mövlana -qüddisə sirruh- belə buyurur:



«Peşmanlıq atəşi ilə yanan bir könüllə, nəmli gözlərlə dua və tövbə et! Çünki çiçəklər günəşli və nəm yerlərdə açar!»

İlk tövbə ilk peyğəmbər həzrət Adəmlə -əleyhissalam- başlamışdır. O tövbəsində belə demişdir:

«(Adəm və Həvva): **«Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamaz və rəhm etməzsən, biz şübhəsiz ki, ziyana uğrayanlardan olarıq!» -dedilər».** (əl-Əraf, 7/23)

Onun bu duası özündən sonra qiyamətədək gələcək övladları üçün bir istiğfar nümunəsi olmuşdur.

Uca Allah qəlblərin qəflətdən oyanması və mənəvi xəstəliklərdən şəfa tapması üçün bəndələrini tövbəyə dəvət edərək belə buyurur:

«Ey iman gətirənlər! Allaha səmimi qəlbdən (bir daha günaha qayıtmamaq şərti ilə) **tövbə edin. Ola bilsin ki, Rəbbiniz günahlarınızın üstünü örtsün!..»** (əl-Təhrim, 66/8)

Allaha yönəliş və qəlbin yüksək bir səviyyə qazanmasında dua və istiğfar istəyi son dərəcə önəmlidir. Müxtəlif təsirlər səbəbi ilə hər an dəyişib, Haqqdan uzaqlaşması mümkün olan qəlbin hidayətdən ayrılmaması üçün insanın duaya sarılmaqdan başqa çarəsi yoxdur. Bu məsələ ilə bağlı uca Allahımız bəndələrinə belə dua etmələrini öyrədir:

«Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra ürəklərimizə şəkk-şübhə (azğınlıq, əyrilik) **salma! Bizə Öz tərəfindən bir mərhəmət bəxş et, çünki Sən, həqiqətən,** (bəndələrinə mərhəmət, nemət) **bəxş edənsən!»** (Ali-İmran, 3/8)

Bu ilahi təlimi həyatının başlıca sözünə çevirən Kainatın Fəxri -səllallahu əleyhi və səlləm- tez-tez belə dua edərdi:

«Ey qəlbləri çevirən Allahım! Qəlbimi dininə bağla.» (Tirmizi, «Qədər», 7)

Dua qəlblərin təmizlənməsinin ən önəmli vasitələrindən biridir. Bu ayeyi-kərimə qəlbin mənəvi kirlərdən arınmasında duanın önəmini çox gözəl ifadə edir.



«Onlardan (mühacirlərdən və ənsardan) **sonra gələnlər** (tabiin) **belə deyərlər: «Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş** (din) **qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə** (həsədə) **yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!»** (əl-Həşr, 59/10)

Çünki öncə hədəfə çatmağa mane olan mənfilikləri yox etmək və bu yolla qəlb zəminini əsl qayəyə uyğun hala gətirmək zəruridir. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- qəlbin duyğusuzluğundan və onda olan mənfi duyğu və düşüncələrdən təmizlənmək üçün Allaha yalvarış və ehtiyac halında olmağın zəruriliyini öz şəxsində belə ifadə etmişdir:

«Allahım! Fayda verməyən elmdən, ürpərməyən qəlbdən, doymayan nəfsdən və qəbul olunmayacaq duadan Sənə sığınıram.» (Müslim, «Zikr», 73)

«Allahım! Ağ paltarı kirdən təmizlədiyin kimi, qəlbimi də günahlardan təmizləyib, arı, duru et!» (Buxari, «Dəavat», 39)

Sağlam bir qəlbə qovuşa bilmək ancaq uca Allahın lütfü ilə gerçəkləşər. Belə ki, Rəbbinə sağlam bir qəlb təqdim etməyi bacaran həzrət İbrahim -əleyhissalam- gizli olanların üzə çıxacağı məşhər günündə peşman olmamaq üçün Rəbbindən bunları istəyir:

«(İnsanların qəbirlərdən çıxarılıb) **dirildiləcəyi gün** (qiyamət günü) **məni zəlil** (rüsvay) **etmə! O gün ki, nə mal-dövlət, nə də övlad bir fayda verər! Ancaq sağlam** (təmiz, daxilində şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmayan) **bir qəlblə Allahın hüzuruna gələn kimsədən (möminlərdən) başqa!».** (əş-Şuəra, 26/87-89)

Peyğəmbərimiz də -səllallahu əleyhi və səlləm- ulu əcdadı İbrahim -əleyhissalam- kimi Rəbbinə eyni şəkildə yalvarmış və dua etmişdir:

«Allahım! Səndən doğru söyləyən bir dil və sağlam bir qəlb istəyirəm.» (Tirmizi, «Dəavat», 23)

Digər tərəfdən duada təkrar və səbat da önəmlidir. Səbat üçün dua mətninin ən azı üç dəfə təkrar edilməsi nəbəvi bir üsuldur. Dua

səmimi olduğu təqdirdə əsla və qəti olaraq rədd edilməz. Ancaq bəzi istəklər səmimi olmasına baxmayaraq, bəzən "mütləq qədər"ə uyğun olmaz. Buna görə, dua edən bezməməli və duasına davam etməlidir. Çünki dünyada yerinə yetirilməyən duaların əvəzi axirət aləmində veriləcəkdir.

c. Qurani-Kərim Oxumaq və Ehkamına Tabe Olmaq

Qəlbimizin Quranın ruhaniyyətindən feyz alaraq, hikmət və sirlərlə dolması ancaq onu oxuyarkən sahib olduğumuz qəlbi səviyəyə bağlıdır.

Uca Allahın lütf etdiyi ən böyük nemətlərdən biri də Quran ilə insana xitab etməsidir.

Ruh və bədənin həqiqi rahatlıq və dincliyinə aid olan kamil ölçülər Qurani-Kərimin bərəkətli məzmununda da var. İnsanın səadət və xoşbəxtliyi bu ideal ölçülərdən aldığı pay nisbətində mümkündür. Quranın ruhaniyyətinə sığınmayıb, ona arxa çevirməklə tarazlığını itirən bir şəxs insanlıq şərəfinə yaraşmayan bir iş görmüş, bu nemətə sahib olmağa şükür etmək əvəzinə, ən dəhşətli bir nankorluğa sürüklənmiş, nəfsinin istəklərinin girdablarında özünü həlak etmişdir.

Quran qanayan ruhlara, yorğun könüllərə şəfa və təsəlli verən ilahi hikmətlər mənbəyidir. Dəhşətli və qaçılmaz «ölüm» həqiqətini mömin bir bəndənin Rəbbinə qovuşmasında bir vasitə olaraq «şəbi-arus» (toy gecəsi) kimi qarşılaya bilməyin ölçülərini təqdim edən ilahi bir lütfdür.

Uca Rəbbimiz ilahi kəlamını insanlığa belə təqdim edir:

«(Ey insanlar!) **Sizə Rəbbinizdən bir öyüd-nəsihət, ürəklərdə olana** (cəhalətə, şəkk-şübhəyə, nifaqa) **bir şəfa, möminlərə hidayət və mərhəmət** (Quran) **gəlmişdir!»** (Yunus, 10/57)

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- hədisi-şəriflərində belə buyurmuşdur:

«Hər ziyafət verən ziyafətinə insanların gəlməsini istəyər və

bundan məmnun olar. Quran da Allahın ziyafətidir. Ondan uzaq durmayın.» (Darimi, «Fəzailül-Quran», 1)

«Quran oxuyun… Çünki Allah içində Quran olan bir qəlbə əzab etməz…» (Darimi, «Fəzailül-Quran», 1)

«Gerçək Quran əhli əhlullahdır və onlar Allahın xas bəndələridir.»(Hakim, «Müstədrək», I, 743)[15]

Allahı zikr etməkdən və Quran oxumaqdan məhrum olan qəlblər pisliklərə düçar olar. Belə ki, səhabeyi-kiramdan Əbu Musa əl-Əşari (r.a) onu ziyarət etməyə gələnlərə belə tövsiyə etmişdir:

«Quran oxumağa davam edin! Əsla, uzun müddət Quran oxumağı tərk etməyin! Əks halda, sizdən öncəkilər kimi, sizin də qəlbiniz sərtləşər.» (Müslim, «Zəkat», 119)

Qurani-Kərimin heyvanları və mələkləri belə, təsir altına aldığını ifadə edən bu hadisə çox ibrətlidir:

Üseyd bin Xudayr (r.a) belə söyləyir:

«Bir gecə Bəqərə surəsini oxuyurdum. Atım da yanımda bağlı idi. Birdən at hərəkət etməyə başladı. Oxumağı dayandırdım. At da sakitləşdi. Yenə oxumağa başladım. At yenə şahə qalxdı. Hətta, oğlum Yəhyanı atın onu əzməsindən qorxaraq yanıma çağırdım.

Bu zaman səmaya baxdım. Üzərimdə çıraqlara bənzər bir şeylər olduğunu gördüm. Sonra onlar göyə doğru yüksəlib gözdən itdi. Səhəri gün baş verənləri Rəsulullaha -səllallahu əleyhi və səlləm- anlatdım. O mənə belə dedi:

- Oxu, ey Üseyd, oxu! Ey Üseyd! O gördüklərinin nə olduğunu bilirsənmi?

15. Qurani-Kərimi sadəcə əzbərləməklə kifayətlənməmiş, eyni zamanda onun ehkamına tabe olub əxlaqı ilə tərbiyələnmiş olan Quran əhlinə uca Allah bir çox ehsan vermişdir. Hətta, bəzi hafizlərin uca Allahın xüsusi bir neməti olaraq vəfatlarından sonra cəsədlərinin çürümədiyi belə, müşahidə edilmişdir. Belə ki, Allah dostlarından Mahmud Sami Ramazanoğlu -kuddisə sirruh- Adanada bu əlamətlərə sahib olan bir hafizin vəfatından otuz il sonra yol çəkilməsi zərurəti ilə bağlı olaraq qəbrinin açıldığı zaman ancaq bu şəxsin cəsədinin heç çürüməmiş olduğuna, bundan əlavə kəfəninin belə təzə qaldığına şəxsən şahid olduğunu ifadə etmişdir.



- Xeyr.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm-:

- Onlar sənin Quran oxumağını dinləməyə gələn mələklər idi. Əgər sən oxumağa davam etsəydin, sabahadək səni dinləyəcəkdilər. O mələklər insanlara gizli qalmayacaq, insanlar da onları görə biləcəkdilər.» (Buxari, «Fəzailul-Quran», 15)

Quran insana nazil olmuşdur. O "könül insanı" üçün dərin bir təfəkkür xəzinəsidir. Quranın ruhaniyyətindən uzaq qalmağın nəticəsi mütləq və əbədi bir peşmanlıqdır. Qurandakı hikmət, ibrət və sirlər dəryasından qafil qalanlar üçün Allah təala belə buyurur:

«Onlar Quran barəsində düşünməzlərmi? Yoxsa ürəklərinə kilid vurulmuşdur? (Yoxsa ürəklərinin öz kilidləri vardır?)**»** (Məhəmməd, 47/24)

Qurani-Kərim uca Allaha aid adların bizim idrak dünyamıza kəlam surətində əks etdirilmiş bir təzahürüdür.

Uca Allah ayeyi-kərimədə Qurani-Kərimin sonsuz məna ehtişamını bu şəkildə ifadə edir:

«Əgər yer üzündəki bütün ağaclar qələm olsaydı, dəryaya da arxasından daha yeddi dərya (mürəkkəb) qatılsaydı, yenə də Allahın sözləri (yazılmaqla) tükənməzdi. Həqiqətən, Allah yenilməz qüdrət sahibi, hikmət sahibidir.» (Loğman, 31/27)

Qəlbimizin Quranın ruhaniyyətindən feyz alaraq hikmət və sirlərlə dolması ancaq onu oxuyarkən sahib olduğumuz qəlbi səviyyəyə bağlıdır. Buna görə də Quranın həqiqətinə qovuşmaq üçün qəlbi səviyyəni artırmağa ehtiyac var. Çünki bir hidayət rəhbəri olan Qurani-Kərim ona yaxınlaşanın qəlbi niyyət və durumuna görə həm irşada, həm də cəhalətə yönəldə biləcək bir mahiyyət daşıyır.

Uca Rəbbimiz haqqı ilə oxunan Quran ayələrinin möminlərin könül aləmlərində yaradacağı təsiri və meydana gətirəcəyi mənəvi coşqunluğu belə bəyan edir:



«… Rəbbindən qorxanların tükləri biz-biz olar. Allahın zikrindən (öyüd-nəsihətlərindən, vədlərindən) **sonra ürəkləri yerinə gəlib qorxuları gedər. Bu** (Quran) **Allahın hidayətidir…»** (əz-Zumər, 39/23)

«… Allahın ayələri oxunduğu zaman həmin ayələr onların (möminlərin) imanlarını daha da artırar…» (əl-Ənfal, 8/2)

Qurani-Kərimdən layiqincə istifadə etməyin birinci şərti ona ehtiramla yaxınlaşmaqdır. Çünki o ehtiram Qurana aid olan əhəmiyyətin bir təzahürüdür.

Həqiqətən, Qurani-Kərim bəşəriyyətin ehtiyaclarını ödəyə biləcək kamillik, həqiqət və sirləri ehtiva edir. Ona görə də, bu kitab möhtəşəm bir rəhbərdir. Uca Allah Qurani-Kərimin bu xüsusiyyətini belə bəyan edir:

«Həqiqətən, bu Quran (bütün bəşəriyyəti) **ən doğru yola** (İslama) **yönəldir, yaxşı işlər görən möminlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir!..»** (əl-İsra, 17/9)

Qurani-Kərim rəhbərliyi qiyamətədək davam edəcək olan ilahi bir kitab olduğundan onun kölgəsi altındakı hər bir mömin də ölümün əbədiyyət qapısı açılanadək Quran hökmlərinə və Quran həyatına sadiq qalmaq məcburiyyətindədir. Bu dünyada qəlbi səadət və xoşbəxtlik, axirətdə isə uca Allahın rizasına nail olaraq ilahi nemətlərə qərq olmaq ancaq bu yolla mümkündür.

Qurandan layiqincə istifadə edə bilmək onun qəlbən oxuna bildiyi ölçüdə gerçəkləşir. Bu hədisi-şərif bu mənəvi halı çox gözəl ifadə edir:

Quran oxumaq üçün hansı səs və oxuma şəkli daha gözəldir deyə soruşulanda Rəsulullah -səllallahu əleyhi və səlləm- belə buyurdu:

«Quran oxunmasını eşidəndə Allahdan qorxmaq hissini səndə oyandıran kimsənin səsidir.» (Darimi, «Fəzailul-Quran», 34)

Həzrət Öməri (r.a) hidayətə gətirib, onun doğru yolu tapmasına səbəb olan da bacısı Fatimənin evində təslimiyyət duyğusu içində oxunan Qurani-Kərim idi.

Bu ayeyi-kərimələr Qurani-Kərimin necə oxunması ilə bağlı bizə yol göstərir:

«(Ey Peyğəmbər! Bu Quran) **sənə nazil etdiyimiz mübarək** (xeyir-bərəkətli) **bir Kitabdır ki,** (insanlar) **onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də** (ondan) **ibrət alsınlar!»** (Sad, 38/29)

«… (Ey Rəsulum!) **Həm də** (gecə ibadət etdiyin zaman) **aramla** (ağır-ağır) **Quran oxu!»** (əl-Muzzəmmil, 73/4)

Başqa yöndən həzrət Ömərin (r.a) əl-Bəqərə surəsini on iki ildə tamamladığı və bu surəni oxuyub bitirəndən sonra da şükür qurbanı olaraq bir dəvə kəsdiyi rəvayət olunur. (Qurtubi, «əl-Cami», I, 40)

Bütün bunlar Allahın kitabını oxuyarkən təkcə deyilişdən deyil, onun daxili mənasından da pay almaq, ehkamına tabe olmaq və əxlaqı ilə tərbiyə olunmağın zəruri olduğunu göstərməsi baxımından da diqqətəlayiqdir.

İslam tarixinin səadət əsrindən sonra ən səviyyəli dövrünü dərk etmiş olan Osmanlının Qurani-Kərimə qarşı göstərdikləri yüksək bir ehtiram bərəkəti ilə meydana çıxdığı unudulmamalıdır. Həqiqətən də o dövlətin qurucusu olan vəli sultan həzrət Osman Qazinin Şeyx Ədəbalının evində bir gecə divardan asılmış Qurani-Kərimə hörmətsizlik olacağı düşüncəsi ilə yatmadığı çox məşhur bir rəvayətdir. Başqa yöndən, Qurana dəstəmaz almadan əl vurmağın doğru olmaması ilə bağlı dinin prinsipi də var.

Bu da Qurana olan ehtiramın vacibliyini və önəmini göstərir.

Qurani-Kərimi qurşaqdan aşağı tutmamağın islami ədəb içindəki önəmi də məlumdur. Başqa yöndən, Qurani-Kərim sadəcə oxumaq deyil, yazılarına baxmaq belə, onunla ünsiyyətin bir vasitəsi olduğundan məqbul və hətta, savab sayılmışdır. Buna görə də, Qurani-Kərimə hörmət göstərərkən heç bir qüsura yol vermək olmaz və onu mümkün olduqca az da olsa, tez-tez oxumaq bir adətə çevrilməlidir. Bundan başqa, Qurani-Kərimin ilk əmrinin **«Oxu!»** (əl-Ələq, 1) deyə nazil olmasındakı hikmət də heç bir zaman yaddan çıxarılmamalıdır. Bu oxumaq keyfiyyətinin önəmi qiraətsiz bir namazın qəbul olunmaması ilə sabitdir.

Əməvi xəlifəsi Süleyman bin Əbdülməlikin xalqa ilk müraciəti belə idi:

«Ey Allahın bəndələri! Siz Allahın kitabını rəhbər seçin. Onun verdiyi hökmə razı olun. Onunla əməl edin. Çünki bu Quran sabah aydınlığının qaranlığı yox etdiyi kimi, şeytanın qurduğu tələni və hiyləni yox edər.» (Beyhəqi, «Kitabüz-Zöhd», 61)

Bütün bunlar Qurani-Kərimlə ünsiyyətin həyatımızda nə qədər önəmli bir yer tutmasının zəruri olduğunu açıq göstərir. İlahi kəlamın uluhiyyata aid sevinc və şadlığı ilə könüllərimizin dolub-daşmasını uca Allahdan istəməliyik. Belə ki, Kainatın Fəxrinin -səllallahu əleyhi və səlləm- dualarından biri belə idi:

«... Rəbbim! Bəndələrindən hər hansı birinə öyrətdiyin, kitabında endirdiyin, ya da bilgisini öz yanında gizlədiyin hər bir gözəl adının hörmətinə Səndən istəyim budur ki, Quranı könlümün baharı, köksümün nuru, hüzn və kədərimin çarəsi et!» (Əhməd b. Hənbəl, «Müsnəd», I, 391)

ç. İbadətləri Mütiliklə Yerinə Yetirmək

«Allaha elə ibadət et ki, sanki Onu görürsən! Sən Onu görməsən də, O, səni görür.» (Buxari, «İman», 37)

İbadətlər bəndənin Rəbbi ilə əzəldə bağladığı əhdə vəfa prinsipinə sadiq olduğunu göstərən bir sədaqət sübutudur. İbadət anları qulluq şərtləri içində uca Allaha ən çox yaxınlaşılan vüsal anlarıdır. İnsanın dünyəvi işlərinə aid bütün problemlərini könlündən çıxararaq ancaq sahibinin rizası üçün bir şey edə bilməyin rahatlığı ilə ruhunu sakitləşdirib gücləndirdiyi xüsusi bir aləmdir. Çünki namazda əllər qulaqlara doğru qaldırılaraq alınan təkbir hər şeyin arxaya atılıb, ancaq Allaha yönəlməyin ifadəsidir.

İbadətlər insanı ölümdən sonrakı qayğı və düşüncələrdən azad edə biləcək ən təsirli şəfa və təsəlli qaynağıdır. Əbədi aləm üçün qoyulacaq yatırımların yeganə yolunun ondan keçdiyi bir ruh iqlimidir.

Bu xüsusiyyətləri ilə ibadətlər qəlbi tarazlıq və təhlükəsizliyin təmin edilməsi yolunda əsla biganəlik göstərilməyən bir feyz qaynağıdır.

İbadətlərin arzu edilən nəticəni verməsi üçün onun mütiliklə ilə icra edilməsi şərtdir. Mütilik isə qəlbin rahatlıq və dincliklə, sevgi və qorxu duyğularının iç-içə olduğu bir vəziyyətdə ilahinin hüzurunda dura bilməkdir. Qarşısında dayandığı uca Sultanın əzəmətini dərk edərək, düşmən ilə söhbətdən əl çəkmək, yalnız Onunla olmaq və Ona ibadət üçün yaradıldığını dərk etməkdir.

İbadətlər içində ən mükəmməli olanı isə **namaz**dır. Namaz Allahın bəndələrinə ən böyük hədiyyələrindən biridir. Hədisi-şərifdə belə buyurulur:

«Əgər bir mömin öncə gözəl dəstəmaz alsa, sonra qalxıb başdan sonadək qəlbi və bütün varlığı ilə tam bir rahatlıq və təslimiyyət içində iki rükət namaz qılsa, cənnət ona vacib olar.» (Müslim, «Təharət», 17)

İnsana qazandırdığı mənəvi məziyyətlər baxımından gerçək bir namazın yerini tuta biləcək heç bir ibadət yoxdur. Belə bir namaz üçün Haqqdan başqa hər şeyin, hətta, insanın öz nəfsinin belə, gözdən və könüldən düşməsi zəruridir.

Süleyman Darani -qüddisə sirruh-:

«İki rükət namaz qılmaq, ya da Firdövs cənnətinə girmək arasında seçim etməli olsam, iki rükət namazı seçərəm. Çünki Firdövs cənnətinə girmək nəfsin xoşlanacağı bir istəkdir. Ancaq iki rükət namaz qılsam, Rəbbimlə birgə olmuş olaram», -buyurmuşdur.

Namaz qılan bir şəxs namazdan başqa heç bir şeylə məşğul ola bilməz. Namaz onu hər cür dünya düşüncəsindən uzaqlaşdırar. Həqiqi bir namazda qəlblərdəki pərdələr qalxar və həqiqət nurları təcəlla edər. Uca Allah ilə misilsiz bir vüsal yaşanar. Başqa ibadətlərdə isə belə deyildir. Məsələn, oruclu olan bir şəxs bazarda müştəri də olar, satıcı da… Həcc ziyarətində də vəziyyət belədir. Ancaq namaz qılan nə satıcı ola bilər, nə də alıcı… O, sadəcə namaz qılandır. Yəni o, maddəsi ilə də, mənası ilə də Allah təalanın hüzurunda olmağa məcburdur.

Ürəkdən və doğru qılınan namaz, verdiyi feyz və ruh ilə mömini nəfsani təmayüllərin girdabına düşməkdən qurtarıb onu hər zaman ilahi hüzurda və müraqibə altında olduğu düşüncəsinə qovuşduran fəzilətli bir ibadətdir.

Belə ki, Rəsulullah -səllallahu əleyhi və səlləm- hədisi-şəriflərində belə buyurur:

«Allaha, elə ibadət et ki, sanki Onu görürsən! Sən Onu görməsən də, O səni görür.» (Buxari, «İman», 37)

«Namazında ölümü xatırla. Çünki bir insan ölümü xatırlayaraq namaz qılarsa, o namaz kamil və gözəl olar. Namazını son namazını qıldığını düşünən şəxs kimi qıl. Sonunda üzr istəməyə məcbur qalacağın hər şeydən də uzaq ol.» (Deyləmi, «Müsnəd», I, 431)

Ayeyi-kərimədə doğru qılınan bir namazla bağlı belə buyurulur:

«… (Ey Rəsulum!) **Qurandan sənə vəhy olunanı oxu və** (vaxtlı-vaxtında) **namaz qıl. Həqiqətən, namaz** (insanı) **çirkin və pis əməllərdən çəkindirər…»** (əl-Ənkəbut, 29/45)

Namazın pisliklərdən qorunması namazdakı mütilik və səmimiyyətin namazdan sonra da davam etməsinə bağlıdır. Əgər namaz qılan şəxsdə belə bir mühafizə görünmürsə, o həqiqi mənada namaz qılmamışdır. Ayeyi-kərimədə bu şəkildə namaz qılanlar haqqında nazil olan ilahi təhdid çox açıqdır:

«Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər (səhlənkarlıqları üzündən namazlarını vaxtlı-vaxtında qılmazlar**). Onlar** (namazlarında) **riyakarlıq edər və** (xalqa) **zəkat verməyi qadağan edərlər.»** (əl-Maun, 107/4-7)

Deməli, kim namazını tədili-ərkana əməl etməklə qılmaz, ilahi hüzurda dayandığından xəbərsiz olar və ağlı, düşüncəsi ticarəti, ya da başqa dünyəvi işlərlə məşğul olarsa, onun qıldığı namaz gözlənilən bərəkəti hasil etməz. Belə namazlar məcburiyyət növündən olub, sadəcə borcun yerinə yetirilməsini təmin edər.



Uca Allah həqiqi və ideal mənadakı bir namazı ayeyi-kərimədə belə təqdim etmişdir:

«Həqiqətən, möminlər nicat tapmışlar! O kəslər ki, namazlarında (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) **müti olub** (Ona) **boyun əyərlər!»** (əl-Muminun, 23/1-2)

Səhabədən Abdullah bin Şihhir (r.a), Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- namazdakı halını belə təsvir edir:

«Rəsulullahı -səllallahu əleyhi və səlləm- namaz qılarkən gördüm. Ağladığına görə, sinəsindən qazan qaynamasına bənzəyən bir səs eşidilirdi.» (Əbu Davud, «Salət», 156/157; Əhməd b. Hənbəl, «Müsnəd», IV, 25)

Həzrət Əli (r.a) namaz qılarkən bənizi saralır, öz bədəni də daxil olmaqla hər şeydən sıyrılırdı. Bir müharibədə mübarək ayağına batan oxun çıxarılması üçün namaza durmuşdu. Çünki bu təqdirdə oxun çıxarılması zamanı olan iztirabı duymayacağını bilirdi. Ancaq bu ölçüdə, dünya ilə əlaqəni kəsərək namaz qıla bilmək neçə bəndəyə qismət olur?

Namazı bu ölçüdə və mükəmməlliklə qılmayanlar isə ümidsizliyə düşərək, namazı tərk etməməlidirlər. Çünki ən azından fərz olan borcu ödəyən o şəklən namazları davam etdirən hər şəxs bir gün bu istiqamətdə az, ya da çox bir kamala çatar.

Hər gün bəlli vaxtlarda yerinə yetirilən beş vaxt namaz insanın zamanını proqramlaşdıraraq ona intizamlı bir həyat şəraiti təqdim edir və məsuliyyət duyğusunu gücləndirir. Həyatı ahəng və sistem üzrə olmayan bir insanın iç dünyasında tarazlıq və rahatlıq olmasından danışmaq olmaz. Bununla birgə, namaz mənəvi baxımdan da imanı sağlam bir şəkildə qoruyar, düşüncəni dərinləşdirər, qorxu anlarında insana təsəlli verər, gözəl anlarda isə ona misilsiz ləzzət təqdim edər. Namaz ruhaniyyətə dəstək, qəlbə sevinc və saflıq verən, ilahi ünsiyyəti artıran feyz və bərəkətlərlə dolu bir ibadətdir.

Həyat mücadiləsində zəruri olan səbir, iradə, nəfsani arzulara müqavimət kimi halların gücləndirilməsi ilə əxlaqı kamilləşdirən başqa bir ibadət də orucdur.



Oruc, əsl qayəsi baxımından daimi bir ibadət düşüncəsi içində nəfs çətinliyinə qarşı mücadilə etmək və onu nəzarət altında saxlayaraq təsirini azaltmaqdır.

Oruc insanı səbrə, sabitliyə, qənaətə, öz halından razı olmağa və məşəqqətlərə qarşı mətanətli olmağa yönəldir. İnsanda bu deyilən əxlaqi fəzilətləri formalaşdırır. Oruc məhrumiyyət və aclıq zamanı nemətlərin qədrini xatırladır. Varlı-kasıb hər kəsə aclığı daddırmaqla onları bu nöqtədə bərabərləşdirir. Bu yolla varlı insanlara yoxsul, ac və səfil insanların halını xatırladıb yardım və mərhəmət duyğularını gücləndirir. Nəticədə, insanların bir-birilərinə qarşı mövcud olması zəruri olan şükür duyğularını gücləndirir.

Oruc insandakı təqva duyğularını canlandıraraq qəlbin saflığını artırır. Ayeyi-kərimədə belə buyurulur:

«Ey iman edənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib buyrulduğu kimi, sizə də vacib buyruldu ki, (bunun vasitəsi ilə pis əməllərdən) **çəkinəsiniz!»** (əl-Bəqərə, 2/183)

İradə tərbiyəsi üçün orucdan daha təsirli ola biləcək bir başqa üsul yoxdur. İradə isə insandakı təbii və nəfsani təmayüllərin azğınlıqlarına qarşı müqavimət göstərməyin təməl vasitələrindən biridir.

Həzrət Mövlana -qüddisə sirruh- əbədi aləmin nemətlərinə nail olmaq üçün bu dünyada az yeməyin zəruri olması ilə bağlı belə buyurur:

«İnsanın əsl qidası ilahi eşq və hikmətdir. Buna görə də ona həddindən artıq bədən qidası vermək doğru deyil».

«İnsan əsl mənəvi qidasını unudub, bədən qidası üçün əndişə etdiyinə görə narahatdır. Çünki doymaq bilməz. Ehtirasdan üzü saralmış, ayaqları titrəyir, qəlbi tələşlə döyünür. Halbuki, yer üzünün qidası hara, sonsuzluğun qidası hara?!»

«Allah şəhidlər üçün: «Onlara Rəbbi yanında ruzi əta olunur»[16]*-deyə buyurdu. O mənəvi qida üçün nə ağız, nə də bədən var.»*

16. Ali-İmran, 3/169.

Orucun həqiqətinə qovuşmaq və ruhaniyyətindən istifadə edə bilmək üçün onu zədələyə biləcək hərəkətlərdən qaçmaq zəruridir. Hədisi-şərifdə belə buyurulur:

«Oruc, sadəcə yemək, içməkdən əl çəkmək deyil. Kamil və savablı oruc ancaq faydasız söz və işlərdən, dedi-qodudan əl çəkməkdir. Əgər biri sənə söyər, ya da sənə qarşı cahilcəsinə hər hansı bir münasibət göstərərsə, ona: «Şübhəsiz ki, mən orucluyam!»,-de!» (Hakim, «Müstədrək», I, 595)

Nəfsani arzuları cilovlayaraq iradəni tərbiyə edən oruc ibadəti ilə birgə varlı insanların sərvətə təslim olmaq nəticəsində meydana gələ biləcək azğınlıqlarına sədd çəkmək, möhtaclarda da varlı adamlara qarşı kin və həsəd kimi mənfi təmayüllərin ortaya çıxmasının qarşısını almaq, ictimai həyatı qorumaq və fərdləri bir-birinə sevgi ilə bağlamaq üçün **"zəkat"** fərz edilmişdir. İslam ictimai sistemində yoxsul və varlı İnsanlar arasındakı məhəbbəti təmin edib, həsəd və düşmənçiliyi zərərsizləşdirmək üçün **"zəkat və infaq"** ibadəti son dərəcə önəmlidir.

Varlı malını haradan qazanıb nəyə sərf etdiyindən, qazancının halal olub-olmadığından, zəkatı və sədəqəni verib-vermədiyindən Allahın hüzurunda ağır bir hesab verəcək. O, sərvətinin müəyyən bir qismini yoxsullara verməyə borcludur. Bu baxımdan böyük bir imtahan verəcək. Ancaq başqa vəzifələri ilə birlikdə, bu imtahanı da qazansa, ilahi rizaya və cənnət nemətlərinə nail ola bilər.

Qurani-Kərimdə bir çox yerdə adı çəkilən zəkat ibadətinin iyirmi yeddi yerdə də dinin təməl dirəyi olan namazla birlikdə zikr edilməsi onun əhəmiyyətini göstərir.

Zəkat, imkanı olanın möhtac olana Allahın əmr etdiyi bəlli miqdardakı borcudur. Qurani-Kərimdə belə buyurulur:

«Mallarında da dilənçinin və (abrına qısılıb dilənməyən) **yoxsulun haqqı** (payı) **var idi.»** (əz-Zariyat, 51/19)

Bu baxımdan zəkat müəyyən olunmuş miqdardan çox olan malların müəyyən bir hissəsinin ilahi bir vergi halında bu verilən maldan

başqa yerdə qalan hissəsinin halal edilməsidir. Beləliklə, zəkat olaraq alınan mal hissə-hissə, dərəcə-dərəcə cəmiyyətin yoxsul insanlarına verilir. Bunun hesabına da varlının sərvəti təmizlənir və cəmiyyətdə tarazlıq, ədalət və ictimai ahəng meydana gəlir. Bu həqiqəti qavramaq üçün aşağıdakı ayeyi-kəriməni oxumaq kifayətdir:

«… Zəkat verənlər (təmizlənib) **nicat tapdı.»** (əl-Əla, 87/14)

Çünki zəkatın kəlmə baxımından *«təzkiyə»,* yəni *«təmizləmə»* mənasında olması da diqqətəlayiq bir nöqtədir.

Zəkat, Allahın varlı insanlara yüklədiyi müyyən miqdarda bir borcdur. Halbuki, bundan başqa infaq və sədəqələrdə bir ölçü qoyulmamışdır və buna qarşılıq varlı kimsələri sövq etmək üçün də bunların əvəzi olan savab eynilə oruc ibadətində olduğu kimi gizli saxlanılmışdır. Uca Allah keçmiş ümmətlərdən fərqli olaraq Məhəmməd ümmətinin günahlarını birə-bir, gözəl əməllərinə isə birə on qarşılıq verir. Bundan başqa birə yeddi yüzə qədər, hətta, bundan da çox savab və əcir qazanan əməllər də var. Ancaq orucla birlikdə infaqın qarşılığı olan savabın miqdarı təşviq üçün gizli tutulmuşdur. Uca Allah ayeyi-kərimədə belə buyurur:

«(Ey Rəsulum!) **Onların mallarından sədəqə** (zəkat) **al. Bununla onları** (günahlarından) **pak etmiş, təmizləmiş** (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) **olarsan. Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır** (rahatlıqdır)**. Allah** (hər şeyi) **eşidəndir, biləndir.»** (ət-Tövbə, 9/103)

Ayeyi-kərimənin mahiyyətinə görə, zəkat və infaqın həm malı, həm də qəlbi təmizləyən iki yönü var.

Uca Allah ayeyi-kərimədə ilahi bir təhdid ilə belə buyurur:

«… Qızıl, gümüş yığıb, onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ!». (ət-Tövbə, 9/34)

«O gün (qiyamət günü) **yığdıqları qızıl-gümüş cəhənnəm atəşində qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacaq** (və onlara): **"Bu sizin özünüz üçün yığıb saxladığınız mallardır. Yığdığınız**

mal-dövlətin (əzabını, acısını) **dadın!"** - (deyiləcəkdir!)» (ət-Tövbə, 9/35)

Buna görə, mala olan sevginin qəlbə yerləşməsi ilə o malın infaq edilmə keyfiyyətini itirməsi nəticəsində möhtacın haqqı əlindən alınmış olur. Belə halların da kədərli bir aqibətinin olacağı yuxarıdakı ayeyi-kərimədəki xəbərdarlıqla sabitdir.

Başqa yöndən, ancaq iki nemət üçün «fitnə» sözündən istifadə edilmişdir. Bu iki nemət «övlad» və «mal»dır. Övladla birgə, mala aid olan sevginin qəlbə nüfuz etməsi və ona hakim olma təhlükəsi uca Allah tərəfindən:

«Doğrusu, övladlarınız və mallarınız sizin üçün bir fitnədir (imtahan vəsiləsidir)**…»** (ət-Tağabun, 64/15) şəklində ifadə edilmişdir. Bunları fitnə olmaqdan qoruyacaq keyfiyyət onlara qarşı bəslənən həddindən artıq sevgini tənzimləmək və onları qəlbə daxil etməməkdir. Zəkat, infaq və sədəqə kimi ilahi əmrlərə layiqincə əməl etmək ancaq və ancaq dünya məhəbbətinin qəlbdə yerləşməsinə fürsət verməyib, onun bir «əmanət» olduğunu dərk etməklə mümkündür.

Bu məsələ ilə bağlı yuxarıda göstərdiyimiz ilahi xəbərdarlıqları dərindən düşünməli və zəkatla birgə sədəqə və infaq üçün də məcburi olan malın qırxda birindən də çoxunu verməyə çalışmaq lazımdır.

Ayeyi-kərimədə uca Allah belə buyurur:

«… (Allah yolunda) **nəyi paylamalı olduqlarını soruşanlara isə de: «Ehtiyacınızdan artıq qalanını** (möhtaclara paylayın)!**..»** (əl-Bəqərə, 2/219)

Şükür edən və səxavətli varlılar ilə səbirli və ləyaqətli kasıblar insanlıq şərəfində və ilahi rizada bərabərdirlər. Ancaq İslamda təkəbbürlü, xəsis varlılar ilə səbirsiz və üsyankar yoxsullar məzəmmət edilmişlər.

Zəkat, mal və sərvət sahiblərinin əməli bir şükür ifadəsidir. Şükrün isə neməti artıracağını uca Allah vəd etmişdir. Uca Allah belə buyurur:

«… Əgər (Mənə) **şükür etsəniz, sizə** (olan nemətimi) **artıracağam…»** (İbrahim, 14/7)

Belə ki, həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- infaq etməyi çox sevər və insanları buna təşviq edərdi. Bir hədisi-şərifində belə buyurur:

«Ey insan oğlu! İnfaq et ki, sənə də infaq edilsin…» (Buxari, «Nəfəqat», 1)

Rəsulullah -səllallahu əleyhi və səlləm- səxavətin bir müsəlmanın həqiqi xarakterinə çevirilməsini çox arzu edərdi. Həzrət Məhəmməd -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Ancaq iki insana qibtə edilər. Biri Allahın mal verib haqq yolunda xərcləməyə yönəltdiyi insan, o birisi də Allahın elm verib, elmi ilə əməl edən və bunları başqasına öyrədən (yəni elmini infaq edən) şəxsdir.» (Buxari, «Elm», 15)

Bir sözlə, insan yaradılış baxımından dünyaya meyil edən bir varlıqdır. Dünya malı isə nəfsə cazibəli görünür. Ona aldananlar doymaq bilməzlər. Mal yığıldıqca insanın tamahı artar, tamahkar olar. Gözünü maddi şeylər və sərvət hərisliyi örtmüş olan insanda mərhəmət və şəfqət hissi azalar. İnfaq etmək onun üçün çox çətin olar. Nəfsi ona hər zaman belə deyər: «Daha varlı ol, gələcəkdə daha çox xeyir və infaq edərsən!» Nəfsi bu sözləri ilə onu aldatmağa çalışar. Belə insan bədən rahatlığına qovuşsa da, mənən xəstədir.

Belə ki:

«Sabah edərəm deyənlər həlak oldu!..» -buyurulmuşdur.

Ona görə də, zəkat dünya malına qarşı həris olmaq kimi qəlbi xəstəliklərin dərmanıdır.

Uca Allah ayeyi-kərimədə ölüm anında yuxudan ayılmış bir insan kimi yanına gələn şəxsin əbədi peşmanlıqla belə dediyini bildirir:

«… Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım!..» (əl-Munafiqun, 63/10)

Zəkat və sədəqədə ədəb ölçülərinə əməl etmək çox önəmlidir. Xüsusən, verən alana təşəkkür duyğusu içində olmalıdır. Çünki onu fərz olan bir borcdan qurtarıb savaba nail eləmişdir. Verilən sədəqələr

eyni zamanda verən insan üçün xəstəlik və müsibətlərə qarşı bir sarsılmaz sipərdir. Sədəqə verərkən həssas bir könüllə onu möhtac olana təqdim etməyin əhəmiyyətini ifadə etmək üçün ayeyi-kərimədə belə buyurulur:

«… Sədəqələri Allah alır!» (ət-Tövbə, 9/104)

«Ey iman edənlər! Sədəqələrinizi malını riyakarlıqla (özünü xalqa göstərmək üçün) **sərf edən, Allaha və axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın…»** (əl-Bəqərə, 2/264)

Bütün canlılar Allahın mülkündə yaşayıb, dolanırlar. Allah təala yer üzərindəki bir ovuc torpağı fasiləsiz olaraq dəyişdirməklə çoxsaylı canlını bəsləyəcək bir qida anbarı kimi istifadə edir. Bütün canlılar içində ağıl neməti ilə şərəfləndirilmiş yeganə varlıq olan insanlar bu həqiqəti görüb Rəbbin mömin-kafir, aciz-güclü, bir sözlə canlıları doyurduğu halda, kimin malın kimdən əsirgədiklərini heç düşünməzlərmi?

Uca Allah kainatı sevgi ilə yaratmış və sevginin hörmətinə görə də çoxsaylı nemət, ehsan və lütf vermişdir. Çünki sevməyin təbii nəticəsi fədakarlıqdır. Sevən sevilənə qarşı sevgisi ölçüsündə fədakarlıq etməyi bir zövq və vəzifə kimi düşünür. Bu hal bir aşiqin məşuqu uğrunda can verməsinə qədər gedib çıxır. O aşiq bu hərəkəti ilə bir fədakarlıq etdiyi duyğusuna belə qapılmaz. Allah üçün onun yaratdıqlarına edilən infaq sevənin sevdiyinə qarşı ən gözəl bir məhəbbət təzahürüdür. Bu maddi ibadətlərlə birgə, həm maddi, həm də bədəni bir ibadət olan **"həcc"** də nəbilər silsiləsinin ilki olan Adəm -əleyhissalam-dan son peyğəmbərə qədər yanıq könül tərənnümləri və müxtəlif ülvi xatirələrlə iman cövhərini könüllərdə kamilləşdirən və məhşərin bir bənzərini hələ bu dünyada olarkən yaşadaraq *«Ölmədən əvvəl ölün!»* sirrinə qovuşmağa yol açan ülvi bir ibadətdir.

Həcc ibadətinin dünyəvi və axirətlə bağlı olan bir çox hikmətləri var. Həqiqi bir həcc Allahın sonsuz rəhmətinin təcəllası ilə əfv və bağışlanmağa nail olan müsəlmanların dərin bir iman, sevgi və vəcd həyəcanı içində qaynaşdığı, möhtəşəm və mübarək bir ibadətdir.

Həcc varlıq və nəfs paltarlarından sıyrılıb, ruhun dərinliyinə nüfuz edərək nəfsani qasırğalardan qurtulmağa çalışmaqdır.

Həcc, insan ruhunun ahəngini, iqlimini və rəngini tapdığı, əsl mahiyyətinə qovuşduğu, qəlbin mənəvi feyz yağmurları ilə təmizlənib arındığı ruhaniyyət təzahürləri ilə dolu bir ibadətdir.

Möminlərin qibləsi olan Kəbə uca Allahın Qurani-Kərimdə **«Səcdə et və yaxınlaş!»** (əl-Ələq, 96/19) buyruğu ilə müəyyən etdiyi namaz ibadətinin istiqamət hədəfidir. Eyni zamanda, bütün müsəlmanların birgə yönəldiyi nöqtə, yəni İslam dünyasının nəbzinin döyündüyü yerdir. İlahi nəzərlərin insandakı təcəlla məkanı qəlb, kainatdakı təcəlla yeri isə Kəbədir. Yəni kainat içində Kəbə müəyyən mənada insan bədənindəki qəlb kimidir. Buna görə də, həcc Kəbənin möhtəşəmliyini dərk edərək həssas bir qəlb ilə icra edilməsi zəruri olan və çox diqqət tələb edən bir ibadətdir.

Həcc proqramı baxımından insanı mənəvi həssaslığa yönləndirir. Çünki bu zərif ibadət Allahın yaratdıqlarını incitməmək kimi şəfqət, mərhəmət və məhəbbət təzahürləri ilə doludur.

Həcc ağappaq ehramlar içərisində mələklərin lətafətindən pay almaq cəhdidir. Ehramda olarkən ov ovlanmamalı, bir ot, hətta, qəsdən bir yarpaq belə qoparılmamalıdır. Orada rafəs yox, fisq yox, cidal yox…[17] orada ancaq Yaradandan ötrü yaradılmışlara şəfqət, mərhəmət və nəzakət var.

Unutmamaq lazımdır ki, ölüm bütün canlıların dadmağa məcbur olduğu mütləq və müştərək bir ibadətdir. Zamanı, dəqiqəsi və nəfəs sayına qədər təyin olunmuş və bir hökmə bağlanmışdır. Əcəli tezləşdirməyin və ya gecikdirməyin bəşəri qüdrətlə mümkün olmadığı açıq bir həqiqətdir və əcəldən qaçanların xilas olduqları ilə bağlı bir xəbər də eşidilməmişdir. Həccə getmək imkanına sahib olanlar bu deyilənləri dərindən düşünüb həcc ibadətinin yerinə yetirilməsi ilə bağlı məsələlərdə səhlənkarlıq etməməli və laqeydlikdən uzaq

17. Baxın, əl-Bəqərə surəsi, 22/197. **Rafəs:** Cinsi münasibətdə olmaq, bu mövzu ilə bağlı sözlər danışmaq və hətta, hər cür pis söz söyləmək kimi mənaları var. **Fisq:** Hər cür günah olan işlər. **Cidal:** Lazımsız münaqişə və mübahisələr.

qaçmalıdır. Əks halda, həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- bu dəhşətli xəbərdarlığı ilə üz-üzə qalacaqlar:

«Bir şəxs yemək, içmək və miniyə sahib olub, onun Beytullaha getməsi mümkün olduğu halda, həcc etməsə, artıq onun yəhudi, ya da xristian olaraq ölməsinə heç bir maneə yoxdur!» (Tirmizi, «Həcc», 3)

Bu peyğəmbər xəbərdarlığı həcc etməyin bütün şərtlərinə sahib olub, ancaq qafil olduğuna görə bu ibadətə laqeyd yanaşanların acı bir itki içində olacaqlarını və ilahi əzabı dadacaqlarını ifadə edir.

Müsəlmanların günahlardan təmizlənmək yolu ilə qəlblərini təsfiyə edəcək olan həcc ibadətinə biganə qalmaları necə böyük bir qəflət və itkidir!..

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- buyurur:

«Hər kim, bu Kəbeyi-Müəzzəməni həcc niyəti ilə gəlib, günahlar etmədən (fisq və rafes) həccini yerinə yetirərsə, anasından doğulduğu kimi, günahsız bir şəkildə tərtəmiz evinə dönər.» (Müslim, «Həcc», 438)

d. Gecələri ehya etmək

Doldur o şerabdan, yine doldur, yine bir sun!
Dursun gece, ey dost onu durdur, ne olursun!
Vur uykumu zincirlere vur, geçmesin anlar.
Varmaz gecenin farkına, varmaz uyuyanlar!

İnsanın öz iç dünyasına yönələrək gündüzlərin maddi və mənəvi yorğunluğunu üzərindən atması ancaq gecənin sakitliyinə bürünməklə mümkündür. Çünki gündüzlər gecənin mənəvi istirahətini əvəz edə bilməz. Gecələrin nemətini bilməyənlər üçün gündüzün xeyirini düşünmək də mümkün deyil.

Gecənin ilahi və mənəvi mənzərələrinə baxmaq üçün ondan xüsusi bir məqsədlə istifadə etmək zəruridir.

Qəlb əhli üçün gecənin səssizliyindən daha bərəkətli bir zaman ola bilməz. Gecələri bəlli bir ölçüdə oyaq qalaraq onun feyz və bərəkətindən istifadə etmək zəruridir. Bu məsələ ilə bağlı ayeyi-kərimədə belə buyurulur:

«Onlar ibadət üçün yataqlarından qalxar (gecələr az yatar), **qorxu və ümid içində** (Allahın əzabından qorxaraq, mərhəmətinə ümid bəsləyərək) **Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən** (ehtiyacı olanlara) **sərf edərlər».** (əs-Səcdə, 32/16)

«Səhər-axşam Rəbbinin adını zikr et! Gecənin bir qismində Ona səcdə et və gecə uzunu da Onu təqdis edib şəninə təriflər de!». (əl-İnsan, 76/25-26)

Uca Allahın gecəyə verdiyi qiymət və onun içinə yerləşdirdiyi sirlər saysız-hesabsızdır. Bu məsələ ilə bağlı uca Allah belə buyurur:

«Gecəyə və (gecənin) **qoynuna aldıqlarını and olsun ki…»** (əl-İnşiqaq, 84/17)

«Biz onu mübarək bir gecədə (Qədir gecəsində) **nazil etdik…»** (əd-Duxan, 44/2)

«Qaralmaqda olan gecəyə (ya da qaralmaqda və çəkilməkdə olan gecəyə) **və sökülməkdə olan dan yerinə and olsun…»** (ət-Təkvir,81/17-18)

Bu ayələrdə Allahın gecəyə and içməsindəki sirr düşüncəmizdə və könlümüzdə bir çox həqiqətləri seyr etmək üçün açılan bir pəncərədir.

Kamil möminlər üçün gecələr, ondakı səssizlik və feyz səbəbiylə əvəzsiz bir qənimətdir. Bu nemətin qiymətini layiqincə bilənlər, xüsusilə, gecə yarısından sonra bütün yaradılmışların istirahətə çəkilərək aləmi dərin bir səssizlik əhatə etdiyi zamanda dua, ibadət və yanıq yalvarışlarla Rəblərinə yönəlməyin ən feyzli anlarıdır.

Həzrət Mövlana gecə vaxtı yaşadığı sevgini və vəcdi *«Divani-Kəbir»*ində bu misralarla ifadə edir:

Saki! Kadehi, aşkı-İlahi ile doldur!
Mestaneye, ekmek sözü etmekten uzak dur!
Sun kevseri, kansın suya hep teşne gönüller,
Deryada yüzen canlı, sudan başka ne ister.
Doldur o şerabdan, yine doldur, yine bir sun!
Dursun gece, ey dost onu durdur, ne olursun!
Vur uykumu zincirlere vur, geçmesin anlar.
Varmaz gecenin farkına, varmaz uyuyanlar! [18]

Gecə və səhərləri oyaq qalmaq xüsusunda uca Allah, ondan qorxduqları üçün ilahi nemətlərə nail olacaqlarını bəyan etməklə öydüyü o bəxtiyar bəndələri haqqında belə buyurur:

«Onlar gecələr (ibadətlə məşğul olub) **az yatırdılar. Səhərlər isə** (Allahdan) **bağışlanmalarını diləyirdilər.»** (əz-Zariyat, 51/17-18)

«Onlar gecəni Rəbbi üçün səcdə və qiyam (namaz) içində keçirərlər…» (əl-Furqan, 25/64)

Başqa bir ayeyi-kərimədə uca Allah buyurur:

«O Allah ki, səni namaza duranda da görür, səcdə edənlər içində dolananda da…» (əş-Şuəra, 26/218-219)

Bu ayeyi-kərimə ilə bağlı Qazı Beyzavi belə deyir:

«Ümmət üçün beş vaxt namaz fərz olub, gecə namazı sünnə olanda Rəsuli-Əkrəm -səllallahu əleyhi və səlləm- əshabın əhvalını müşahidə etmək məqsədi ilə gecə öz mübarək evindən kənara çıxıb, əshabının evləri arasında gəzmiş və o evlərin Quran oxunması, zikr və təsbih səsləri ilə arı pətəkləri kimi vızıldadığını eşitmişdi.»

Allah təala gecənin səhərə doğru olan vaxtında icra edilən zikrə başqa zamanlardan daha çox dəyər verir. Çünki səhərlər zikr və ibadətlə məşğul olmaq başqa zamanlardan daha çətindir. Buna görə də, səhərlər oyaq qalmaq bəndənin Rəbbinə olan səmimi məhəbbət və itaətinin bir ifadəsidir. Könüldəki sevgi və ilahi məhəbbətin şiddəti nə qədərdirsə, şübhəsiz ki, gecə namazına və zikrə rəğbət də o dərəcədə özünü göstərir. Bu baxımdan da gecə namazları və zikrləri,

18. «Divani-Kəbir»dən şeirlə türkcəyə çevirən: Emin Işık,

sanki sevgili ilə görüşüb söhbət etməyə bənzəyir. Hər kəs yatarkən ayıq olmaq uca Allahın rəhmət iqliminə daxil olaraq bağışlanma, məhəbbət və mərifət məclisində olan müstəsna bəndələrdən olmaq deməkdir.

Əgər bir mömin gecədən məqsədəuyğun şəkildə istifadə edə bilsə, səhər vaxtı zikrin ruhaniyyətindən nəsib ala bilsə, gecəsi gündüzündən mənəvi baxımdan daha aydın və xeyirli olar. Ancaq məqsədsiz və yuxuya məhkum olaraq keçirilən gecə isə daşa, dənizə və çölə yağan yağış kimi faydasız və yerinin doldurulması çətin olan bir itkidir. Belə bir gecənin gündüzü də mənəvi baxımdan qaranlıqdır.

Səhər başlayan tövhidin ruhaniyyəti günlərimizi və könüllərimizi əhatə edərsə, son nəfəsimiz, yəni dünyadakı hər şeyə böyük əlvida demək olan ölüm də tövhid kəlməsinin ruhaniyyəti ilə, inşallah, bir «şəbi-arus» olar.

Abdullah bin Amr bin As (r.anhuma), Rəsulullahın -səllallahu əleyhi və səlləm- ona belə xəbərdarlıq etdiyini bildirmişdir:

«Ey Abdullah! Filankəs kimi olma. Çünki o gecə ibadətinə davam edərkən artıq qalxa bilmədi.» (Buxari, «Təhəccüd», 19; Müslim, «Siyam», 185)

Kainatın Fəxri -səllallahu əleyhi və səlləm- əshabi-kirama müraciət edərək belə buyurmuşdur:

«Gecə ibadətinə diqqət edin. Çünki o sizdən öncəki saleh kimsələrin adətidir. Şübhəsiz, gecə ibadətə qalxmaq Allaha yaxınlaşmaq vasitəsidir. (Bu ibadət) insanı günahlardan uzaqlaşdırır, xətalara əvəz olur və bədəndən dərdləri çıxarır.» (Tirmizi, «Dəavat», 101)

Bütün gecəni yatmayıb, arada bir oyanmağın insan bədəninin sağlamlığı üçün önəmli olduğu da tibbi baxımdan təsbit edilmişdir. Həqiqətən, çox uzun müddət yatıb, sonra yuxudan oyananlar baş ağrısından əziyyət çəkirlər. Bu yatarkən nəfəs alıb verməyin azalması və beynin kifayət qədər oksigenlə qidalanmamasının nəticəsidir. Yuxunu bölənlər əməli hərəkətlərlə nəfəs alıb-verməyi normallaşdırdıqlarından az bir yuxuya rəğmən, yataqlarından daha rahat qalxarlar. Başqa yöndən, xüsusilə, qocalarda ölüm daha çox səhərə yaxın baş verir. Buna görə də, həkimlər «səhər vaxtı»na «ölüm

saatı» deyirlər. Bunun səbəbi yuxunun ən dərin olduğu saatda qəlbin fəaliyyətinin azalmasıdır. Bu saatda oyananlar soyuq su ilə dəstəmaz alsalar, bütün bədən funksiyalarını normallaşdıra bilərlər.

Dinin əmrləri bu kimi dünyəvi faydalar üçün olmayıb, Allaha qulluğu gerçəkləşdirmək məqsədi ilə buyrulsa da, onların hər birində belə dünyəvi faydalar da var. Namaz, oruc və başqa ibadətlər də belə saysız-hesabsız dünyəvi hikmətlər və mənfəətlərlə doludur. Ancaq xarakterinə görə bunlar o ibadətlərin varlıq səbəbi deyil, faydalı bir yönüdür.

e. Allahın zikri və Təfəkkür

«Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapar!»

(ər-Rəd, 13/28)

«İnsan» kəlməsi mənşə etibarı ilə bir görüşə görə, «nisyan»dan gəlir. «Nisyan», zikrin (xatırlamağın) ziddidir və unutqanlığı bildirir. Bu da insanın ən böyük zəifliklərindən biridir. Bu həqiqət xalq arasında «Bəşər hafizəsi nisyanla vəzifəlidir», zərbi-məsəli ilə ifadə edilmişdir. Nisyanı ən aşağı səviyyəyə endirməyin başlıca yolu zikrdir.

İnsanın yaradılış məqsədinə uyğun yaşaya bilməsi üçün ruhların Bəzmi-Ələstdə[19] Rəbbi ilə bağlamış olduğu əhd və müqaviləyə sadiq qalaraq Yaradıcısını əsla yaddaşından və könlündən çıxarmamalıdır. Buna görə də, insanda fitri olaraq mövcud olan unutqanlıqdan törəyən zərərlərin yox edilməsi üçün «Allah» və ona «qulluq» idrakının hər zaman canlı saxlanılması məqsədi ilə hər şeydən öncə «zikr»ə ehtiyac var. Çünki hər təkrar, təkrar edilən şeyin idrak və yaddaşdakı yerini qüvvətləndirir.

19. **Bəzmi-Ələst** (ruhların əzəl toplantısı): Ruhlar aləmində uca Allah onlardan belə soruşdu:
- Mən sizin Rəbbiniz deyiləmmi?
Ruhlar belə cavab verdi:
- Bəli, Sən bizim Rəbbimizsən!
Bu yolla da onlar uca Allahın böyüklüyünü təsdiq etdilər. Baxın, «Əraf» surəsi, 172-ci ayə.

Uca Allah bəndələrinin surətinə deyil, qəlbinə baxar. Bu baxımdan hər bir mömin ilahi nəzərlərin təcəlla etdiyi qəlbini qəflətdən qoruyub, zikr ilə məşğul olmağı özünün vəzifəsi bilməlidir.

Qulluq vəzifələri içərisindəki bu cəhətinə görə zikr kəlməsindən Qurani-Kərimdə iki yüz əlli dəfədən çox istifadə olunub. Uca Allaha həqiqi mənada qulluq edə bilmək və bu yolla mərifətullaha çatmaq zikrin qəlbdə qazandığı mövqe və duyulmasındakı dərinlik ölçüsündə gerçəkləşir. Buna görə də «mərifətullah», yəni Rəbbin həqiqətinə qəlbən nail olmaq elmin ən fəzilətlisi sayılmışdır. Çünki insana lazım olan ən zəruri bilgi budur.

Uca Allah bəndələrinin zikrin ruhaniyyətindən qafil olmaması üçün bu məsələ ilə bağlı ayələrin bir qismində buyurmuşdur:

«İman gətirənlərin qəlblərinin Allahın zikri və haqqdan nazil olan (Quran) **üçün yumşalması vaxtı gəlib çatmadımı?!»** (əl-Hədid, 57/16)

«Allahı zikr etmək, əlbəttə, ən böyük ibadətdir.» (əl-Ənkəbut, 29/45)

«Belə olduqda siz (itaətlə) **Məni xatırlayın ki, Mən də sizi yada salım! Mənə şükür edin, Məni danmayın!»** (əl-Bəqərə, 2/152)

Uca Allah Musa və Harunu -əleyhissalam- Firona təbliğ üçün göndərərkən onlara belə buyurur:

«Sən və qardaşın möcüzələrimlə gedin və Məni zikr etməkdə zəiflik göstərməyin.» (Taha, 20/42)

Allahı zikr etmək, heç şübhəsiz ki, **«Allah»** sözünün sadəcə kəlmə olaraq təkrarlanması deyil, onun hissiyyat mərkəzi olan qəlbdə yer tutmasıdır.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- buyurur:

«Allahı zikr edən şəxslə zikr etməyənin misalı diri ilə ölü kimidir.» (Buxari, «Deavat», 66)

«Allahı sevməyin əlaməti, Allahı zikr etməyi sevməkdir.» (Süyuti, «Camius-Sağır», II, 52)

Belə ki, zikrdən uzaq olan şəxslər Allah sevgisindən də uzaq ol-

duqları üçün ilahi təhdid altındadırlar. Ayeyi-kərimədə buyurulur:

«…Elə isə vay qəlbləri Allahın zikrinə (Qurana) **qarşı sərt olanların halına…»** (əz-Zumər, 39/22)

Bu təhdiddən özünü qoruya bilmək üçün davamlı olaraq zikr halında olmağın zəruriliyi uca Allah tərəfindən bu şəkildə bəyan edilmişdir:

«Səhər, axşam yalvararaq, qorxaraq, səsini qaldırmadan ürəyində Rəbbini yad et və qafillərdən olma!» (əl-Əraf, 7/205)

Başqa ayeyi-kərimələrdə də zikrdən uzaqlaşmağın təhlükəli olduğunu ifadə etmək məqsədi ilə belə buyurulmuşdur:

«Hər kəs Rəhmanın zikrindən boyun qaçırsa, Biz ona şeytanı urcah edərik və onun (şeytanın) **yaxın dostu olar.** (Şeytanlar) **onları doğru yoldan çıxardar, onlar isə özlərinin haqq** yolda olduqlarını güman edərlər! Nəhayət, o, (qiyamət günü) **hüzurumuza gəldikdə** (öz yanında olan yoldaşına) **belə deyər: «Kaş ki, mənimlə sənin aranda şərqlə qərb arasındakı məsafə qədər uzaqlıq olardı. Sən nə pis yolda imişsən!»** (əz-Zuxruf, 43/36-38)

«Hər kəs Mənim öyüd-nəsihətimdən (Qurandan) **üz döndərsə, güzəranı daralar** (ya da qəbir evində şiddətli əzaba düçar olar) **və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik! O belə deyər: «Ey Rəbbim! Nə üçün məni məhşərə kor olaraq gətirdin, halbuki, mən** (dünyada hər şeyi) **görürdüm!** (Allah) **buyurar: «Elədir, amma sənə ayələrimiz** (möcüzələrimiz, qüdrətimizə dəlalət edən əlamətlər) **gəldi, sən isə** (özünü görməməzliyə vurub) **onları unutdun** (iman gətirmədin). **Bu gün eləcə də sən unudulacaqsan!»** (Taha, 20/124-126)

Gözəl əxlaq və xislətlər ancaq uca Allahdan qorxan, Onu çox sevən və çox zikr edənlərə məxsusdur. Uca Allah belə buyurur:

«Yeddi (qat) **göy, yer və onlarda olan hər kəs** (bütün məxluqat) **Allahı təqdis edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükür etməsin, ancaq siz onların** (dillərini bilmədiyiniz üçün)

təqdisini anlamazsınız. (Allah) **həqiqətən, həlimdir, bağışlayandır!»** (əl-İsra, 17/44)

❀

Kainatın Fəxri -səllallahu əleyhi və səlləm- də zikr və zikr məclislərinin fəziləti ilə bağlı bir hədisi-şərifində belə buyurmuşdur:

«Uca Allah buyurur ki, Mən quluma onun Mənim haqqımda olan düşüncəsinə görə münasibət göstərirəm. O Məni zikr edəndə Mən onunla bərabərəm. O Məni öz içində zikr edərsə, Mən də onu zikr edərəm. O Məni bir cəmiyyət içərisində zikr edərsə, Mən də onu o cəmiyyətdən daha xeyirli bir cəmiyyət içərisində anaram.» (Buxari, «Tövhid», 15)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bir gün əshabi-kirama üz tutaraq belə dedi:

«- Əməllərinizin Allah yanında ən təmizini, dərəcələrinizin ən yüksəyini, qızıl və gümüş sədəqə verməyinizdən daha xeyirlisini, düşmənlərinizlə qarşılaşıb boyunlarını vurmağınızdan və onların da sizin boynunuzu vurmasından daha xeyirlisini xəbər verimmi?»

Onlar da:

- Xəbər ver, ey Allahın Rəsulu! -dedilər.

Buna cavab olaraq həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm-:

«- Allahı zikr etməkdir»,-buyurdu. (Tirmizi, «Deavat», 6)

Allahın zikr olunması fərdi olaraq edilə bildiyi kimi, cəmiyyət şəklində də edilə bilər. Belə ki, Muaviyə (r.a) məsciddə dairə şəklində oturan bir camaatın yanına gəldi və soruşdu:

- Niyə burada toplaşmısınız?

- Allahı zikr etmək üçün toplaşdıq,-deyə cavab verdilər.

O yenə soruşdu:

- Allah eşqinə, doğru söyləyin. Siz burada ancaq Allahı zikr etmək üçün toplaşmısınız?



- Bəli, ancaq bu məqsədlə toplaşmışıq.

Muaviyə (r.a):

- Mən sizin sözünüzə inanıram, sadəcə olaraq, Rəsulullaha -səllallahu əleyhi və səlləm- mənim qədər yaxın olub, məndən az hədis rəvayət edən yoxdur. Bir gün Rəsulullah -səllallahu əleyhi və səlləm- dairə şəklində oturan səhabələrin yanına gəldi və onlara belə dedi:

- Niyə burada oturmusunuz?

- Bizə İslamiyyəti qismət edərək böyük bir lütf bağışladığına görə, Allahı zikr etmək və Ona həmd etmək üçün oturmuşuq.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm-:

- Allah adına doğru söyləyin. Həqiqətən, siz burada ancaq Allahı zikr etmək üçün oturmusunuz?

- Bəli, vallah, ancaq bu məqsədlə oturmuşuq.

Allahın Rəsulu -səllallahu əleyhi və səlləm-:

-Mənim sizə and içdirməyim sizə inanmadığım üçün deyil. Cəbrail mənim yanıma gələrək uca Allahın mələklərə sizinlə fəxr etdiyini xəbər verdi. Ona görə belə söylədim. (Müslim, «Zikr», 40)

Rəsulullah -səllallahu əleyhi və səlləm- qəlbi tərbiyə məsələsində əshabi-kiramın istedadına uyğun olaraq onlara zikr təlim edirdi. Ümmü Hani ilə arasında olan bu söhbət də dediyimizin gözəl misallarından biridir:

«Əbu Talibin qızı Ümmü Hani (r.anha), Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- müraciət edərək ondan soruşdu:

- Ya Rəsulallah! Mən qocaldım və zəiflədim. Mənə oturduğum yerdə edə biləcəyim bir ibadət tövsiyə edərsənmi?

Rəsulullah -səllallahu əleyhi və səlləm- belə cavab verdi:

Yüz dəfə *«sübhanallah»,*

yüz dəfə *«əlhəmdulillah»,*



yüz dəfə *«lə iləhə illəllah» de!»* (İbn Macə, «Ədəb», 56; Əhməd b. Hənbəl, «Müsnəd», VI, 344)

Zikrlər içində, xüsusilə, tövhid kəlməsinin toplu halda zikr edilməsinin ayrıca yeri var. Belə ki, səhabədən Şəddad bin Evsin (r.a) rəvayət etdiyi bu hədis də bu məsələyə işarə edir:

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- onun yanında olduğumuz zaman bizə müraciətlə belə söylədi:

- Aranızda yad olan biri varmı?

Peyğəmbər -səllallahu əleyhi və səlləm- «yad» kəlməsi ilə əhli-kitabı nəzərdə tuturdu.

Biz də:

- Xeyr, yoxdur, ey Rəsulullah! - dedik.

Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- qapıların bağlanmasını əmr edərək belə buyurdu:

- Əllərinizi qaldırın və **«Lə iləhə illəllah»** deyin!

Şəddəd bin Evs (r.a) bu zikr məclisinin davamını belə anladır:

- Əllərimizi bir müddət qaldırıb söylənildiyi şəkildə (**«Lə iləhə illəllah»** deyərək) zikr etdik. Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- əllərini endirdi və belə dua etdi:

- Allahım Sənə həmd olsun! Rəbbim məni «bu cümlə» ilə göndərdin.

Onu (söyləməyi və zəruri olanı yerinə yetirməyi) mənə əmr etdin. Bunun əvəzinə mənə cənnəti vəd etdin. Sən vədindən əsla dönməzsən!

Daha sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- əshabına belə buyurdu:

- Müjdələr olsun sizə! Şübhəsiz ki, uca Allah sizi bağışladı. (Əhməd b. Hənbəl, «Müsnəd», IV, 124)

Bir başqa hədisi-şərifdə də belə buyurulur:



«Lə iləhə illəllah!» *Allah yanındakı yeri və dəyəri çox böyük olan bir kəlmədir. Kim tam bir ixlas və sədaqət içində onu söylərsə, Allah onu cənnətə daxil edər. Kim də onu inanmadığı halda, sadəcə dili ilə söylərsə, canı və malı qorunar, ancaq sabah Allaha qovuşanda Allah da onun hesabını soruşar.»* (Heysəmi, «Məcmauz-Zəvaid», I, 26)

Hər an Allahı zikr etmək və düşünməyin zəruri olduğunu ifadə edən bu hədisi-şərif də çox ibrətlidir:

«Allahı unudaraq lazımsız söhbətlər etməyin. Çünki Allahı unudaraq edilən çox söhbətlər qəlbi qatılaşdırır. Allahdan ən uzaq olan kimsə isə qəlbi sərt olandır!» (Tirmizi, «Zöhd», 62)

Göründüyü kimi, Allahı zikr etmək şəxsən Allah Rəsulu -səllallahu əleyhi və səlləm- tərəfindən bir çox yollarla təlim, təşviq və təlqin edilmişdir. Bu qədər önəmi olan bir ibadətin feyzindən uzaq qalmaq çox böyük bir itkidir. Ancaq bu ibadət layiqincə yerinə yetiriləndə axirətə bağlı olan çox nemətləri insana bəxş edir. Deməli, bunun əksi acı bir məhrumiyyətdir.

Bu dünya həyatında Rəbbimizi nə qədər çox və nə ölçüdə dərindən hiss edərək ansaq, sabah axirətdə ilahi vüsala bu ölçüdə nail olacağımız şübhəsizdir.

Sevənlər sevdiklərini ona olan məhəbbətin dərəcəsi ölçüsündə yad edərlər. Başqa yöndən, o yad etmək də sevilənə olan məhəbbəti artırar. İman ləzzətindən pay alanlar da bu istiqamətdə mərhələlər keçdikcə uca Allaha olan sevgiləri qədər zikrləri də artar. Nəfsani iştaha ilə ruhani iştaha arasında insanı təmin etmək baxımından da bir fərq var. Yemək, içmək kimi nəfsani ehtiyaclar təmin olunanda sönər, mənəvi ehtiyac isə artıb çoxalar. Bu susuzluğu söndürmək üçün, sanki duzlu su içməyə bənzəyər. Hər içilən su susuzluğu bir az da artırar.

Beləliklə hər hal və fürsətdə, hər zaman bir zikr halında olub göylərin və yerin yaradılışındakı incə və dərin hikmətləri düşünər:

«… Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən paksan, müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) **qoru!»** (Ali-İmran, 3/191)



Həyatı iman və itminanla davam etdirməyin, ilahi təcəlla və sevinclərə qovuşmağın və nəhayət, kamil bir imanla Haqqa üz tutmağın yolu daimi zikrdən keçir. Çünki insan necə yaşayırsa, elə ölür və öldüyü kimi də dirildilir. Belə ki, hədisi-şərifdə buyurulur:

«İnsanlar qiyamət günündə öldükləri kimi dirildiləcəklər.» (Müslim, «Cənnət», 83)

Heç bir şey insanın duyğu və düşüncə ehtiyacını kainatın hakim və nazimi olan uca Allahın varlığını bilmək və Onu sevmək qədər təmin etmək gücündə deyil. Çünki ayeyi-kərimədə belə buyurulur:

«… Qəlblər yalnız Allahı zikr etməklə aram tapar!» (ər-Rəd, 13/28)

ə. Rəsulullaha Məhəbbət və Salavati-Şərifə

«Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə Salavat deyirlər (xeyir-dua verirlər). **Ey iman gətirənlər! Siz də ona salavat deyib layiqincə salamlayın!»**

(əl-Əhzab, 33/56)

Bir yaradılış xariqəsi olan həzrət Məhəmmədi -səllallahu əleyhi və səlləm- bəşəri istedad və güc daxilində kamil bir şəkildə qavramağımız mümkün deyil. Bu aləmdən alınan informasiyalar Onu izah və idrak etməyə imkan vermir. Bir stəkana bir ümmanı sığışdırmaq mümkün olmadığı kimi, Məhəmmədin nurunu dərk etmək də mümkün deyil. Bu həqiqəti ifadə edən ayeyi-kərimədə buyurulur:

«Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat deyirlər (xeyir-dua verirlər**). Ey iman gətirənlər! Siz də ona salavat deyib layiqincə salamlayın!»** (əl-Əhzab, 33/56)

Ayeyi-kərimədəki ilahi fərmanın bəyanına görə Kainatın Fəxrinə salət və salam söyləmək məcburidir. Bu, uca Allahın Peyğəmbərə -səllallahu əleyhi və səlləm- qarşı bütün ümmətin yerinə yetirməsini istədiyi və əmr buyurduğu bir ədəb ölçüsüdür. Uca Allahın saysız-hesabsız mələkləri ilə birlikdə *«salət və salam»*

söylədiyi o uca Peyğəmbərin fəzl və kamalına yaxınlaşmaq bir iman vəzifəsidir.

Çünki Rəbbimiz ayeyi-kərimədə belə buyurur:

«(Ey Rəsulum!) **De: «Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, rəhmlidir!»** (Ali-İmran, 3/31)

Şübhəsiz ki, mömin Rəsulullahın -səllallahu əleyhi və səlləm- sevgisi qarşısında ilahi ürpənişlərini, ədəb duyğularını hiss etdiyi, ruhunu nəfsaniyyətə aid olan bütün əlamətlərdən boşaltdığı vaxt Onun məhəbbət və örnək şəxsiyyətindən pay almaq yoluna daxil olmuş olur.

Onun mübarək şəxsiyyətindən pay alaraq Onda faniləşən ümmətin könül ərləri Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- sevgisinə çox gözəl örnəklər təqdim etmişlər.

Sevginin qaynağına Allah və Rəsulunda qovuşanlar qiyamətədək Məhəmmədin ümmətinin dostu olaraq yaşayarlar. Fani həyatlarından sonra da onlar hər zaman rəhmət və dualarla yad edilirlər. Bu hala qovuşan çoxsaylı Rəsulullah aşiqlərindən ikisinin halı belədir:

«Allah Rəsulu -səllallahu əleyhi və səlləm- mübarək dini yaymaq və öyrətmək məqsədi ilə ətrafındakı qəbilələrə müəllimlər göndərirdi. Ancaq göndərdiyi bəzi müəllimlərə xəyanət edilmişdi. Bunlardan biri də Raci hadisəsində olmuşdu.

Adal və Karə qəbilələri Allah Rəsulundan -səllallahu əleyhi və səlləm- İslamı onlara öyrədəcək müəllimlər istədi. Rəsulullah da -səllallahu əleyhi və səlləm- on nəfərlik bir heyət göndərdi. Qafilə Raciyə çatanda tələyə salındı, səkkiz nəfər şəhid edildi, ikisi də əsir alınıb məkkəli müşriklərə verildi.

Əsir edilən səhabələr Zeyd və Hubeyb (r.anhuma) idi. İkisi də zalım müşriklər tərəfindən şəhid edildi. Şəhid edilməzdən öncə Zeyddən soruşdular:

- Həyatının xilas olmasının əvəzinə sənin yerində Peyğəmbərin olmasını istərdinmi?

Zeyd (r.a) bu sualı soruşan Əbu Süfyana acıyaraq baxdı və belə dedi:

- Mənim ailəmin yanında olub, Peyğəmbərimin burada olmasını istəmək bir yana dursun, Onun ayağına tikan batmasına belə əsla könlüm razı olmaz.

Əbu Süfyan bu məhəbbət qarşısında donub qaldı:

- Doğrusu, bu bir heyrətdir! Mən dünyada Məhəmmədin əshabının Onu sevdiyi qədər bir-birini sevən iki şəxs görmədim.

Sonra Hubeybin (r.a) yanına getdilər. Ona dinindən əl çəkərsə, xilas olacağını söylədilər.

Hubeyb (r.a):

- Dünyanı versəniz belə, dinimdən dönmərəm!,-dedi.

Zeyddən (r.a) soruşduqlarını ondan da soruşdular və eyni cavabı aldılar.

Hubeybin isə şəhid edilməzdən öncə tək bir arzusu var idi:

«Həzrət Peyğəmbərə sevgi ilə salam göndərmək!..»

Ancaq kiminlə göndərə bilərdi ki! Onun yanında tək bir müsəlman da yox idi! Gözlərini kədərli bir şəkildə səmaya qaldırdı və Allaha yalvararaq belə dedi:

- Allahım! Burada salamımı Rəsulullaha -səllallahu əleyhi və səlləm- çatdıracaq bir kimsə yoxdur. Ona salamımı Sən çatdır!

Bu zaman əshabı ilə Mədinədə əyləşən Allah Rəsulunun -səllallahu əleyhi və səlləm-

«Ona da salam olsun!» mənasındakı «və əleyhissəlam» buyurduğunu onun yanında olanlar eşitdilər. Əshabi-kiram heyrətlə soruşdu:

- Ey Rəsulullah! Kimin salamına cavab verdin?

- Qardaşınız Hubeybin salamına.

Nəhayət, kafirlər hər iki səhabəni də ağır işgəncələrlə şəhid etdilər. Şəhid edilərkən Hubeybin sözlərindən biri çox ibrətlidir:



«Müsəlman olaraq öldükdən sonra elə, ya da belə ölməkdə nə qəm!..»[20]

Səhabənin iman, sevgi və cəsarətinin ən gözəl nümunələrindən biri budur!

Belə bir işgəncə bizi dəhşətə saldığı halda, Allah və Rəsulullah aşiqləri bu mənzərə qarşısında əsla qorxmadılar. Onların bütün istəkləri Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- diqqətini, sevgisini qazanmaq idi. Onların ixlas, məhəbbət və salamları yerinə çatdı. Bu salamı isə uca olan Allah çatdırdı…

Əshabın həzrət Peyğəmbərə həsrət və məhəbbətini göstərən bu misal da bizlər üçün çox ibrətlidir:

«Abdullah bin Zeyd əl-Ənsari (r.a), Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına gəlib belə dedi və ağladı:

- Ey Rəsulullah! Sən mənə nəfsimdən, malımdan, övladımdan və ailəmdən daha sevimlisən. Əgər gəlib bir də səni görmək kimi nemət olmasaydı, ölməyi arzu edərdim.

Buna cavab olaraq Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə buyurdu:

- Niyə ağlayırsan?

Ənsari:

- Ey Rəsulullah! Bir gün sizin də, bizim də öləcəyimizi, sizin peyğəmbərlərlə bərabər yüksək məqamlarda olacağınızı, bizim isə əgər cənnətə girsək belə, aşağı məqamlarda olacağımızı düşünərək (səni görməyəcəyimdən narahat olaraq) ağladım.

Mərhəmət ümmanı olan Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- susdu. Bu zaman bu ayeyi-kərimə nazil oldu:

«Allaha və Peyğəmbərə itaət edənlər (axirətdə) **Allahın nemətlər verdiyi nəbilər** (peyğəmbərlər), **siddiqlər** (tamamilə doğru danışanlar, etiqadı dürüst, peyğəmbərləri hamıdan əvvəl təsdiq edən şəxslər), **şəhidlər və salehlərlə** (yaxşı əməl sahibləri

20. Baxın, Buxari, «Məqazi», 10; Vaqidi, «Məqazi», s. 280-281.



ilə) **bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!»** (ən-Nisa, 4/69)

Abdullah bin Zeyd əl-Ənsari (r.a) bağçasında çalışdığı zaman oğlu tənginəfəs gəlib böyük bir kədərlə Peyğəmbərin -səllallahu əleyhi və səlləm- vəfat etdiyi xəbərini verdi. Bu acı xəbərdən sarsılan Ənsari belə dua etdi:

«Gözlərimi kor et ki, artıq bundan sonra tək sevdiyim həzrət Məhəmməddən -səllallahu əleyhi və səlləm- başqa bir şəxsi görməyim.»

Abdullah bin Zeyd əl-Ənsarinin duası qəbul olundu və elə oradaca da onun gözləri kor oldu.[21]

Deməli, sevgi və məhəbbət iki qəlb arasında olan bir cərəyan xəttidir. Sevənlər heç bir zaman sevilənləri könüllərindən çıxarmazlar və dillərindən düşürməzlər. Sevdiklərinə canlarını və mallarını verməklə fədakarlığın rahatlığı içində yaşayarlar və ölərlər. Ayeyi-kərimədə belə buyurulur:

«Namaz qılın, zəkat verin və Peyğəmbərə itaət edin ki, sizə rəhm olunsun!» (ən-Nur, 24/56)

«Sevən sevdiyinin hər şeyini sevib ona məftun olar!» ölçüsünə görə ən gözəl nümunə olan həzrət Məhəmmədə -səllallahu əleyhi və səlləm- bütün yönləri ilə tabe olmaq şərtdir. Belə ki, bu məsələdəki sevgi, məhəbbət və itaət Haqqa məhəbbətin bel sümüyüdür.

Tövhid kəlməsində **«Lə iləhə illəllah»**dan sonra **«Məhəmmədən Rəsulullah»** cümləsi gəlir. Hər tövhid kəlməsi və hər salavati-şərifə Haqqa məhəbbət və yaxınlığın sərmayəsini təşkil edir. Dünya və axirətin səadət həyatı və bütün mənəvi fəthlər Onun məhəbbəti hesabına qazanılır. Dünya ilahi məhəbbətin təzahürüdür. Bu məhəbbətin cövhərini Məhəmmədin nuru təşkil edir və uca Allaha qovuşmağın yeganə yolu da Ona məhəbbətdir.

İbadətdəki ruhaniyyət, münasibətdəki incəlik, əxlaqdakı nəzakət, könüldəki lətafət, simalarda olan məlahət nuru, dillərdəki axıcılıq, duyğulardakı incəlik, baxışlardakı dərinlik, bir sözlə,

21. Baxın, Qurtubi, «əl-Camili-Ahkamil-Kuran», V, 271.

bütün gözəlliklər o varlıq nuruna olan məhəbbətdən qəlblərə əks edən parıltılardır.

Həzrət Mövlana çox gözəl buyurur:

«Gəl ey könül! Həqiqi bayram həzrət Məhəmmədə qovuşmaqdır. Çünki dünyanın aydınlığı, o mübarək varlığın gözəl üzünün nurundandır.»

İlahi feyz və bərəkətin qəlbə nəqş olunması üçün, bütün zaman və məkanlarda, xüsusilə, günün səhər vaxtlarında Rəsulullahla -səllallahu əleyhi və səlləm- əlaqəni gücləndirmək və Onun ruhaniyyətindən pay almaq üçün mübarək salavatların önəmi çox böyükdür.

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- həqiqətində həyat tapan Haqq dostları salət və salam gətirmək, bu yolla da Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- yaxınlaşmağın fəzilətlərini belə sıralamışlar:

1. Uca Allahın buyruğuna uyğun olaraq Allahın və mələklərin salavatına qoşulmaq.

Ayeyi-kərimədə belə buyurulur:

«Həqiqətən, Allah və Onun mələkləri peyğəmbərə salavat deyirlər (xeyir-dua verirlər). **Ey iman gətirənlər! Siz də ona salavat deyib layiqincə salamlayın!»** (əl-Əhzab, 33/56)

Allahın, mələklərin və ümmətin salət və salamları arasında məna baxımından fərqlər var. *«Allahın saləti»* Peyğəmbərinə rəhmət edib onu ucaltmasıdır. *«Mələklərin saləti»* həzrət Peyğəmbər üçün bağışlanma və duadır. *«Möminlərin saləti»* isə Rəsulullah -səllallahu əleyhi və səlləm- haqqında dua etməkdir.

2. Günahların bağışlanmasına vəsilədir.

Rəsulullah -səllallahu əleyhi və səlləm- belə buyurur:

«Kim mənim üçün bir dəfə salət söyləsə, Allah o şəxsə on dəfə

salət deyər, on xətası silinər və on dərəcə yüksəldilər.» (Nəsai, «Səhv», 55)

3. Qiyamətdə Rəsulullah -səllallahu əleyhi və səlləm- onun yanında olar.

Rəsulullah -səllallahu əleyhi və səlləm- buyurur:

«Qiyamət günündə insanların mənə ən yaxın olanları mənim üçün ən çox salət və salam söyləyənlərdir.» (Tirmizi, «Vitr», 21)

4. Rəsulullah -səllallahu əleyhi və səlləm- ona salət oxuyana cavab verir.

Rəsulullah -səllallahu əleyhi və səlləm- belə buyurur:

«Salam verən şəxsin salamına cavab vermək üçün Allah ruhumu mənə qaytarar.» (Əbu Davud, «Mənasiq», 96)

5. Hər salət söyləyənin adı Peyğəmbərə -səllallahu əleyhi və səlləm- deyilir:

Rəsulullah -səllallahu əleyhi və səlləm- buyurur:

«Yer üzündə Allahın səyyah mələkləri var. Onlar ümmətimin salamını dərhal mənə çatdırır.» (Nəsai, «Səhv», 46)

6. Salət və salam oxuyan şəxs Allah və Rəsulunun məhəbbətini başqa sevgilərdən üstün tutduğu üçün, Onun əxlaqı ilə tərbiyə olunaraq dərəcəsi yüksəlir, pis əxlaqdan xilas olur, fəzilətə qovuşur.

7. Həzrət Məhəmmədin -səllallahu əleyhi və səlləm- ona olan sevgisi artdığı kimi, onun da Peyğəmbərimizə -səllallahu əleyhi və səlləm- olan məhəbbəti davam edər və hər zaman artar.

8. Uca Allahın, Rəsulullah -səllallahu əleyhi və səlləm- ilə bizə ehsan etdiyi lütflər saysız-hesabsız olduğuna baxmayaraq, salət və salam ilə Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- üzərimizdəki haqqını çox az da olsa, ödəməyə çalışmış oluruq.

9. Uca Allahın rəhmətinin üzərimizə enməsinə yol açır.

Rəsulullah -səllallahu əleyhi və səlləm- belə buyurur:



«Kim mənim üçün bir dəfə salət və salam söyləsə, buna görə uca Allah da ona on misli mərhəmət edər.» (Müslim, «Salət», 70)

10. Unudulan sözün xatırlanmasına səbəb olar.

11. Duaların qəbuluna yol açar.

Rəsulullah -səllallahu əleyhi və səlləm- namazdan sonra Allaha həmd etmədən və Peyğəmbərə salət və salam demədən dua edən bir adam gördü. Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurdu:

«Bu adam tələsdi.» Sonra o adamı yanına çağırdı və belə dedi: «Biriniz dua edəcəyiniz zaman öncə uca Allaha həmd və səna etsin, sonra mənə salət və salam söyləsin. Bundan sonra da istədiyi şəkildə dua etsin.» (Tirmizi, «Dəavat», 64)

Başqa bir hədisi-şərifdə buyurulur:

«Dua edən bir şəxs Peyğəmbərə salət oxumadığı müddətdə duası pərdəlidir, hədəfinə çatmaz.» (Münziri, «ət-Tərğib vət -Tərhib», III, 165)

12. İlahi təmbehə məruz qalmaqdan qorunar:

Rəsulullah -səllallahu əleyhi və səlləm- buyurur:

«Yanında adım zikr olunduğu halda mənə salavat söyləməyənin burnu sürtülsün». (Tirmizi, «Dəavat», 100)

13. Uca Allah Onun Peyğəmbərinə salət söyləyən bəndəsinin işlərində ona yardım edər, onun həm dünya, həm də axirət kədərini yox edər.

Belə ki, Übey bin Kab (r.a) deyir: «Həzrət Peyğəmbərdən soruşdum:

- Ey Rəsulullah! Mən sənə çox salavati-şərifə söyləyirəm. Sizcə, bunu nə qədər söyləməliyəm?

- *İstədiyin qədər söylə.*

- Dualarımın dörddə birini salavati-şərifəyə ayırsam, uyğun olarmı?

- *İstədiyin qədərini ayır. Ancaq daha çox etsən, sənin üçün xeyirli olar.*



- Onda duamın yarısını salavati-şərifə ayırım.

- İstədiyin qədər et. Ancaq daha çox etsən, sənin üçün xeyirli olar.

- Onda üçdə ikisini ayırsam, yetərmi?

- İstədiyin qədər ayır. Ancaq artırsan, sənin üçün yaxşı olar.

- Onda duaya ayırdığım zamanın hamısında sənə salavati-şərifə oxusam, necə olar?

- O zaman Allah bütün sıxıntılarını həll edər və günahlarını bağışlayar». (Tirmizi, «Qiyamət», 23)

Salət və salam söyləmək həzrət Peyğəmbərin ruhaniyyəti ilə əlaqə yaratmağı və Onun nurundan istifadə etməyi təmin edər. Bu salavatların mükafatı isə qulun həzrət Peyğəmbərə olan məhəbbəti və səmimiyyəti ölçüsündədir.

Ey Rəsul, ey Nəbi, sonsuz salət və salam sənə olsun!..

Ey Rəsulullah! Sənin şəfaət və mərhəmətinə möhtacam!..

f. Ölümü düşünmək

Nə dünyada ölümdən qaçacaq bir zaman və məkan,nə qəbirdə yenidən geriyə dönəcək bir imkan, nə də qiyamətin şiddətindən sığınılacaq bir yer var…

İnsan həyatın axını içində yaşamaq sevinci ilə ölümdən qorxmaq kimi iki müdhiş ziddiyyətin içində çalxalanır. Daimi bir axın şəklində olan həyat və ölümün həqiqi mənaları dərk edilmədən yaradılış sirr və hikməti ilə insanın gerçək mahiyyəti də qavranılmaz.

İstisnasız hər həyat səyyahının başına gələcək ölüm idrak sahibi olan bütün varlıqların həll etməyə məcbur olduğu bir müəmmadır.



Allah təala belə buyurur:

«Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) **üçün ölümü və həyatı yaradan Odur…»** (əl-Mülk, 67/2)

Uca Allah Ənbiya surəsində belə buyurur:

«Hər bir kəs (hər bir canlı) **ölümü dadacaq** (dözüb-dözməyəcəyinizi, şükür edəcəyinizi, ya da nankor olacağınızı) **yoxlamaq məqsədi ilə Biz sizi şər və xeyirlə** (xəstəlik, yoxsulluq, ehtiyac və sağlamlıq, var-dövlət və cəh-cəlalla) **imtahana çəkərik və siz** (qiyamət günü əməllərinizin əvəzini almaq üçün) **ancaq Bizim hüzurumuza qaytarılacaqsınız!»** (əl-Ənbiya, 21/35)

Dünya ilahi bir iman məktəbi, ölüm isə zəruri bir yoxluq qanunudur. Həzrət Mövlana belə buyurur:

«Dirilmək üçün ölün!»

Qəlbin dirilməsi ancaq nəfsaniyyətdən əl çəkməklə mümkündür. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurur:

«Bütün zövqləri kökündən yox edən ölümü çox xatırlayın!» (Tirmizi, «Qiyamət», 26)

Ölümü düşünmək ölüm gəlməzdən öncə onu xatırlamaqdır. Bu yolla nəfsaniyyətdən uzaqlaşaraq iradi bir şəkildə Rəbbin hüzuruna hazırlanmaqdır. Bu imana bağlı olan bir təfəkkür və düşüncədir.

İnsanın bitmək-tükənmək bilməyən dünyəvi əməlləri, fani ümid və təsəlliləri qəbir torpağına düşən kimi çox müdhiş bir yarpaq tökümüdür.

Qəbiristanlıqlar fani həyatlarını başa vurmuş, ana, ata, uşaq, sevgili, qohum, dost qəbirləri ilə doludur. Dünya həyatı istər sarayda, istərsə də samanlıqda yaşansın, bütün yolların və cığırların məcburi çıxış nöqtəsi qəbirdir. Ondan qaçıb qurtarılacaq nə bir zaman, nə də bir məkan var. Ayeyi-kərimədə belə buyurulur:

«(Ey Peyğəmbər!) **De: «**(Qorxub) **qaçdığınız ölüm sizi mütləq yaxalayacaq. Sonra siz gizlini də, aşkarı da bilənin** (Allahın)



hüzuruna qaytarılacaqsınız. O da sizə (dünyada) **nələr etdiyinizi** (bir-bir) **xəbər verəcək.»** (əl-Cümə, 62/8)

Ölüm səssizliyinə bürünmüş hər məzar daşı hal dili ilə danışan atəşli bir nəsihətçidir. Qəbiristanlıqların şəhər içərisində, yol kənarlarında, məscid yaxınlığında olması bir növ əməli ölüm düşüncəsi, yəni ölümü düşünüb dünyanı ona görə tənzim etmək üçündür. Ölümün qorxunc ağırlığını kəlmələrin zəif çiyinləri daşıya bilməz! Ölüm qarşısında bütün iqtidarlar sona çatar və əriyər.

Dünya aldadıcı bir məkan, axirət isə ölümsüz bir həyatdır. Ümumiyyətlə, insan həyatın min bir cilvə və təzahürləri içində güzgüdəki yalanların əsiridir. Hər an bu yalanlar ilə vəfasızlığını davam etdirən bu dünya bir aldanış məkanı deyilsə, bəs nədir?

İnsan niyə ibrət almır ki, hər fani varlığın təzəlik və canlılığı zaman dəyirmanında fasiləsiz olaraq üyüdülür! Axirət gerçəyindən xəbərsiz yaşanan bir həyat ilə nəfsani arzuları təhrik edən dünyəvi iltifatlara və fani oyuncaqlara bağlanıb qalmaq böyük və sonsuz gələcək qarşısında çox qorxunc bir aldanışdır!.. Qafilanə bir həyat uşaqlıqda bir oyun, gənclikdə şəhvət, ərgənlik çağında qəflət, qocalıqda əldən gedənlərə həsrət, min bir çırpınış və peşmanlıqdan ibarətdir.

Ölüm insanın xüsusi qiyamətidir. Qiyamətimizdən əvvəl oyanaq ki, peşman olanlardan olmayaq! Çünki hər faninin məchul bir zaman və məkanda Əzrayılla qarşılaşacağı şübhəsizdir. Ölümdən qaçılacaq heç bir məkan yoxdur. Deməli, insan vaxt itirmədən **«Allaha yönəlin…»** (əz-Zariyat, 50) xitabından dərs alaraq ilahi rəhməti yeganə sığınacaq qəbul etməlidir.

Ölümün ən dəqiq mahiyyəti ölənlərin dodaqlarında düyümlənən izahı mümkün olmayan sükutun sirrində gizlidir.

Ölümün öyüd verməkdəki bəlağəti qarşısında dünyadan gələn cavablar ancaq göz yaşları və quru hıçqırıqlardır.

Çox acıdır ki, insan bir neçə gün qonaq olduğu bu dünyada özünü aldadır. Hər gün cənazə səhnələrini seyr etdiyi halda, ölümü özündən uzaq görür. Özünü itirilməsi hər an mümkün olan fani əmanətlərin daimi sahibi hesab edir. Halbuki, insan ruhuna cəsəd geyindirilərək



bir qapıdan dünyaya daxil ediləndə, o, artıq bir ölüm yolçusudur. O yolun bir hazırlıq məkanına girmiş olduğu halda, bu həqiqətdən çox zaman qafil yaşayır. Bir gün gəlir ruh cəsəddən ayrılır. Axirət qapısı olan qəbirdə başqa böyük bir yolçuluq başlanır.

Zaman ağacından düşən hər anın bizi həqiqət sabahına yaxınlaşdırmasını ayeyi-kərimə çox gözəl ifadə edir:

«Hər kəsə uzun ömür versək, onu xilqətcə dəyişib tərsinə çevirərik (başqa şəkilə salarıq, qüvvəsini alar, gözünün nurunu aparar, hafizəsini zəiflədib bildiklərini unutdurar, özünü də uşaq kimi edərik)**. Məgər** (kafirlər bütün bunları gördükdən sonra Allahın hər şeyə qadir olduğunu) **dərk etməzlərmi?»** (Yasin, 36/68)

Ayeyi-kərimədə insana çox gözəl nəsihət edilir. Dünyanın ən açıq əlaməti vəfasızlıqdır. O, verdiyini tez geri alır. Bir gün yüksəldir, ertəsi gün quyunun dibinə endirir. Kölgə kimidir. Onu tutmaq istəsən, hər zaman qaçar. Sən qaçsan, o da sənin arxanca qaçar. Arxasınca gedilən şeyləri bu gün, sabah əldə edərəm deyərkən, bir də görürsən ki, ömür bitmişdir. Dünyaya könül verilsə, o xam bir dayçaya çevrilər. İnsanı yerə çırpar. Vəsvəsə və qorxusunun ardı-arası kəsilməz. Davranış və hərəkətləri vəfasızdır. Ona bağlananları tez fəda edər.

Düşünməliyik ki, nə dünyada ölümdən qaçacaq bir zaman və məkan, nə qəbirdən geri qayıdacaq bir imkan, nə də qiyamətin şiddətindən sığınılacaq bir güc var…

Bir səhabə Rəsulullahdan soruşdu:

- Hansı mömin daha ağıllıdır, ey Rəsulullah?

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- də belə buyurdu:

- Ölümü çox xatırlayıb, ölümdən sonrası üçün ən yaxşı hazırlıq görən. Həqiqi ağıllı insan odur…» (İbn Macə, «Zöhd», 31)

Rəsulullah -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Ölümü və öldükdən sonra cəsəd və sümüklərin çürüməsini xatırlayın. Axirət həyatını istəyən dünya həyatının bəzəyini tərk edər». (Tirmizi, «Qiyamət», 24)



Fudayl bin İyaz belə deyir:

«İnsanlara nəsihət üçün ölüm kifayətdir.»

Əshabi-kiramdan biri vəfat etmişdi. Dostları onun haqqında tərif dolu sözlər söylədilər və ibadətinin çoxluğundan bəhs etdilər.

Rəsulullah -səllallahu əleyhi və səlləm- səssizcə onları dinləyirdi. Onlar sözlərini qurtaranda Kainatın Fəxri dedi:

- Haqqında danışdığınız şəxs ölümü çox düşünərdimi?

Onlar da:

- Xeyr.

- Yaxşı, nəfsinin lazımsız və ölçüsüz istəklərindən çox zaman əl çəkə bilirdimi?

Əshabi-kiram:

- Xeyr, ey Rəsulullah! -dedilər.

Buna cavab olaraq Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə buyurdu:

- Dostunuz dediyiniz qədər də deyilmiş.» (Heysəmi, «Məcmauz-Zəvaid», X, 308-309)

Abdullah bin Ömər (r.a) anladır:

«Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- məni tutdu və belə dedi:

«Dünyada bir qərib, hətta, bir yolçu kimi hərəkət et! Özünü ölülərdən və qəbir əhlindən say.»

Əshabi-kiramdan sonra gələn nəslin böyüklərindən Mücahid bin Cəbr (r.a) belə deyir:

«Abdullah bin Ömər (r.a) bu hədisi danışdıqdan sonra mənə aşağıdakı nəsihəti verdi:

«Ey Mücahid! Sabaha çıxınca nəfsinə axşam haqqında bir söz demə! Axşam olanda da nəfsinə sabah haqqında danışma! Xəstəlikdən

öncə sağlamlığından, ölümdən əvvəl də həyatından istifadə et! Çünki ey Allahın qulu, sən sabah nə halda olacağını bilmirsən!» (Tirmizi, «Zöhd», 25)

Ənəs bin Malik (r.a) belə deyir:

«Yer hər gün bu on nəsihət ilə insana səslənir:

Ey Adəm oğlu!

1. Üzərimdə gəzirsən, ancaq dönüşün mənədir.

2. Üzərimdə cürbəcür günahlar edirsən, ancaq içimdə əzab görəcəksən.

3. Üzərimdə gülüb-əylənirsən, ancaq içimdə ağlayacaqsan.

4. Üzərimdə sevinirsən, ancaq içimdə üzüləcəksən.

5. Üzərimdə mal toplayırsan, ancaq içimdə peşman olacaqsan.

6. Üzərimdə haram yeyirsən, ancaq içimdə qurdlar səni yeyəcək.

7. Üzərimdə təkəbbürlənirsən, ancaq içimdə zəlil olacaqsan.

8. Üzərimdə sevinclə gəzirsən, ancaq içimdə kədərlə boğulacaqsan.

9. Üzərimdə aydınlıqda gəzirsən, ancaq içimdə qaranlıqda qalacaqsan.

10. Üzərimdə cəmiyyət içində dolaşırsan, ancaq içimə tək girəcəksən.» (İbn Hacər əl-Əskalani, «Münəbbihat», 37)

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- əshabına hikmət və fəsahət əhli Kuss bin Saidədən danışaraq belə buyurmuşdur:

«Kuss bin Saidənin Ukaz bazarında bir dəvənin üzərində insanlara belə dediyini görmüşdüm: «Ey insanlar! Gəlin, dinləyin, yaxşı düşünün və ibrət alın. Yaşayan ölər, ölən fəna olar, olacaq da olar. Yağış yağar, otlar bitər, uşaqlar doğular, analarının, atalarının yerini tutar. Sonra da hamısı məhv olub gedər. Hadisələrin ardı-arası kəsilməz. Bir-birini təqib edər. Göydə xəbər var, yerdə ibrətli şeylər var. Yer üzü sərilmiş bir döşək, göy üzü yüksək bir tavandır. Ulduzlar hərəkət edər, dənizlər durar. Gələn qalmaz, gedən gəlməz. Görəsən,

getdikləri yerdən razı olduqları üçün orada qalırlar, yoxsa yorulub yatırlarmı…

Ey İyad qəbiləsi! Atalarınız və dədələriniz hanı? Hanı bəzəkli kaşanələr, hanı daşdan evlər tikən Ad və Səmud? Hanı dünya həyatından məğrur olub öz qövmünə üz tutaraq: «Mən sizin ən böyük Rəbbinizəm!»,-deyən Firon və Nəmrud?

Bu yer onları dəyirmanında üyütdü, toz etdi. Sümükləri belə çürüyüb dağıldı, evləri də yıxılıb xaraba qaldı. Yerlərində indi itlər oynayır. Əsla, onlar kimi qafil olmayın! Onların yolu ilə getməyin. Hər şey fanidir, ancaq uca Allah əbədidir!

Ölüm bulağının girəcək yerləri çoxdur, ancaq çıxacaq yeri yoxdur…»[22]

Həyat səhnəsinin son pərdəsi olan ölüm hər kəsin öz aqibətini xəbər verəcək bir güzgü kimidir. Bir bəndə nəfs çirkabı içində və bu dünyanı hədəf seçərək yaşayarsa, qəbir ona qaranlıq bir dəhliz kimi görünər. Ölümün xatırlanması belə, heç bir şeylə müqayisə edilməyəcək dərəcədə ona iztirab verər.

İnsan nəfs əngəlini məğlub edib, ölümü düşünmək nəticəsində ruhunda var olan mələki yönünə doğru mərhələləri qət edərsə, ölüm xəyalın dərk edə bilmədiyi Rəbbə qovuşmağın məcburi bir şərti kimi görünər.

Beləliklə, insanlarda əksəriyyətlə soyuq bir duyğu yaradan ölüm, onda bir sevgiliyə qovuşma həyəcanına çevrilər. Belə ölümlər təsəvvüf yolunun böyüklərindən olan Mövlana Cəlaləddin Ruminin sözləri ilə «şəbi-arus»dur. Bu elə bir yoldur ki, bəşər üçün ən dəhşətli şey olan ölümü gözəlləşdirir. «Ölümü gözəlləşdirmək» üçün nəfs problemini həll edib tövbə, zöhd, təvəkkül, qənaət, zikr, diqqət, səbir, düşüncə və riza kimi qəlbi hallara qovuşmaq zəruridir.

Qəlbin bu saflığa qovuşmasında ölümü düşünməyin başqa heç bir şeylə müqayisə edilməyəcək önəmli bir təsiri var. Bu məsələ ilə bağlı Rəbi bin Hüseyn belə deyir:

22. Baxın, Beyhəqi, «Kitabüz-Zöhd», II, 264; İbn Kəsir, «əl-Bidayə», II, 234-241; Heysəmi, «Məcmauz-Zəvaid», IX, 418.

«Qəlbin ölümü xatırlamaqdan uzaqlaşarsa, onun fəsada uğramasından qorxuram. Əgər özümdən öncəkilərə müxalifət edəcək olmasaydım, ölüncəyədək qəbirstanlıqda oturardım.» (Beyhəqi, «Kitabüz-Zöhd», s. 212)

Qəlb nəfsaniyyət və ruhaniyyət ehtiyacları arasında ölənədək çalxalanır. Ölüm axirət yolçuluğunun zəruri bir başlanğıcıdır. Bu yolçuluğa başlamazdan öncə qəlbi mərifətullah ilə ölümə hazırlamaq, ölümün qorxu və qayğılarından xilas olaraq mənəvi sağlamlıq və rahatlığı təmin edə bilmək əsla biganəlik göstərilməyəcək bir keyfiyyətdir. Bu yolla, *«ölmədən əvvəl ölün»* sözünün sirri ortaya çıxar və insan sanki yox edilmiş nəfs hakimiyyəti yerinə, Allaha məhəbbət və itaəti kamil mənası ilə gerçəkləşdirmiş olar.

g. Saleh və Sadiqlərlə Bərabər Olmaq

> **«Ey iman gətirənlər! Allahdan qorxun və** (imanında, sözündə, işində) **doğru olanlarla olun!»** (ət-Tövbə, 9/119)

Qəlbin dünyaya meyil etməkdən qorunması ilə hər zaman müsbət təlqinlərə açıq olması üçün ruhaniyyətlərindən feyz alına biləcək könül əhli olan saleh və sadiqlərlə ünsiyyət zəruridir. Çünki hər bədən üzvündə iradə olmasına rəğmən, ancaq qəlbdə iradə yoxdur və qəlb ətrafından gələn təsirlərin ona təlqin etdiyi istiqamətə tabe olur.

Qəlb içində olduğu şəraitin rənginə, şəklinə və ahənginə bürünür. Ancaq bu hal qəlbdə bəlli təsirlərin kök salıb yerləşməsindəki başlanğıc halıdır. Sonradan baş verəcək olan müsbət, ya da mənfi təsirlər əvvəlkilərə bənzəmək, ya zidd olmaq səbəbi ilə müsbət də ola bilər, mənfi də. Ancaq qəlb başlanğıcda yaxşı təsirlərə tabe olub müəyyən bir səviyyəyə yüksəlmədikcə, böyük bir təhlükə mövcud olur. Çünki xarici təsirlərə məruz qalan qəlb məhəbbəti ölçüsündə onların təsiri altında qalarkən, nifrəti ölçüsündə də onları rədd edir.

Elə buna görə də, insanın mənəvi baxımdan yüksəlib-alçalmasında məhəbbət və nifrətin yerində istifadə olunması çox önəmli bir vasitədir. Gerçəkdən, məhəbbəti ona layiq olana, nifrəti də ona layiq olana yönəltmək sahibini xoşbəxt edər. Bunun əksinə, məhəbbət ona layiq olmayana, nifrət isə ona aid olmayana yönəldilsə, sahibini bu seçimdəki yanlışlıq ölçüsündə bədbəxt edər.

Bu həqiqət göz önündə tutulanda mənəvi inkişaf üçün Allahın saleh bəndələri ilə birlikdə olub, onların təsir dairəsi içində yaşamağın lüzum və önəmi açıq bir şəkildə ortaya çıxır. Ancaq bu təqdirdə, istifadə etmək imkanı da üz tutulan ünvana məhəbbət ölçüsündə gerçəkləşir. Əks halda, mənəvi dərinliyə biganə olaraq yalançı bir bərabərlik az-çox fayda versə də, nəzərdə tutulan nəticəni təmin edə bilməz. Bu məsələ ilə bağlı Bəyazid Bistamidən -qüddisə sirruh- nəql edilən bu hekayə çox ibrətlidir:

«Müridlərindən biri ona belə deyir:

- Ustadım, kürkünüzdən bir parça versəniz, təbərrük olaraq üzərimdə saxlayaram!..

Bəyazid buna cavab olaraq belə deyir:

- Oğlum, sən istiqamət üzrə olmadıqdan sonra Bəyazidin kürkünü deyil, onun dərisini soyub içinə girsən belə, fayda verməz!..»

Bütün kainatda bir eyniləşmə təmayülü var. Bu, varlığın əslinin tək olmasına bağlı bir keyfiyyətdir. Üstəlik bu ümumi eyniləşmə təmayülü həm fiziki keyfiyyətlər, həm də mənəvi hallar üçün doğrudur. Məsələn, evin hər hansı bir küncündə içərisində qoxusu çox kəskin olan bir qab çevrilsə, ətrafa yayılan qoxu otaqda olan havanın bütün zərrələrində eyni dərəcədə olana qədər o rayihəni daha çox canına çəkmiş olan hava zərrələrindən başqa zərrələrə doğru bir cərəyan axar. İsti, soyuq kimi bütün zidd təcəllalar üçün də eyni ilə belə bir qayda var. Bu, fiziki bir qanundur. Ancaq bu qanunun bəşəri həyatda təzahür edə bilməsi üçün eyniləşməyi təmin edəcək bir vasitəyə ehtiyac var. O da **məhəbbət**dir.

Xalq arasında bu məsələni ifadə etmək məqsədi ilə «Qəlbdən qəlbə yol var»,-şəklində bir söz məşhur olmuşdur.

Çox zaman güclü və enerjili şəxsiyyətlər zəiflər üçün ilham qaynağı olmuşdur. İnsan təbiətində mövcud olan təmayüllərdən biri də yamsılama hissidir. Bir uşaq başlanğıcda bütün əməl və hərəkətlərini bu duyğu ilə tənzim edər. Ancaq bu təmayül həyat boyu az, ya da çox hər zaman olur. Bu baxımdan saleh və sadiqlərin ibadətindəki mütilik, əxlaqlarındakı yüksək səviyyə, şəfqət, mərhəmət, mənəvi incəlik və dərinlikləri ətrafındakılar da bu halı yamsılamaq və onun etdiklərini təkrar etmək duyğusu oyandırır. Belə ki, keçmişdə cahil insan olan səhabələr də misilsiz bir nümunə şəxsiyyət olan Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- olan sevgiləri ilə zirvə şəxsiyyətlərə çevrilmişlər.

Biz zahiri aləmdəki müşahidələrimizdən bilirik ki, hər hansı bir dərsin müəllimi tələbələrinə özünü sevdirsə, o dərs tələbəyə asan gəlir və rahatlıq verir. Çünki məhəbbət zəhməti rəhmətə çevirən sehirli bir rol oynayır. Sevilən bir iş nə qədər ağır olsa da, asanlıqla yerinə yetirilir. Sevilməyən bir işin çətinliyi isə olduğundan qat-qat ağır görünür. Ruhda məhəbbət olanda iyirmi rükətlik təravih namazı insana asan gəlir. Məhəbbətsiz qılınan dörd rükətlik sabah namazı isə insana ağır gəlir. Belə davranışlardakı ağırlıq və tənbəllik də məhəbbətsizliyin bir nəticəsidir. Bu misalların təhlili göstərir ki, saleh və sadiqlərlə bərabər olanda məhəbbət hissləri ilə dolu olmağın mənəviyyat yollarındakı çoxsaylı çətin yoxuşları keçməyi təmin edən ruhani və sehirli bir təsiri var.

Başqa yöndən qəlbi rahatlığın qorunması üçün də qafil və fasiqlərlə ünsiyyətdən çəkinmək lazımdır. Çünki qoxuyan zibillər və leşlər üzərindən keçib gələn bir külək onların üfunətli qoxularını ətrafa yayar, insanın nəfəsini boğar və ruhunu daraldar.

Şeyx Ubeydullah Əhrar -qüddisə sirruh- bu məsələ ilə bağlı belə nəsihət edir:

«Düşmən və biganələrlə birgə olmaq qəlbə biganəlik, ruha dağınıqlıq və qəlbə pərişanlıq verir.»

Belə ki, Bəyazid Bistami bir gün içində belə bir narahatlıq hiss etdi, çox çalışdı, ancaq özünü bu haldan qurtara bilmədi. Məclisindəkilərə belə dedi:

- Bir baxın, aramızda yad bir insan varmı?

Axtardılar, ancaq heç bir yad insan tapa bilmədilər. Ancaq Bəyazid Bistami israr etdi:

- Yaxşı axtarın. Əsaların olduğu yerə də baxın.

Yenidən axtardılar və qafil bir şəxsin əsasını tapdılar. O əsanı çölə çıxartdılar. Bəyazid Bistaminin könül rahatlığı yerinə gəldi.»

Bir gün Xacə Ubeydullah Əhrar onun yanına gələn yaxınlarından birinə belə dedi:

«- Səndən yad adamın qoxusu gəlir. Sən yəqin ki, yad bir şəxsin paltarını geyinmisən.

O şəxs heyrətlə belə dedi:

- Bəli, elədir.

Sonra o paltarını dəyişib yenidən gəldi.»

Mənfi hallardakı bu sirayət özəlliyi müsbət hallarda da eyni ilə özünü doğruldur. Bunun ən gözəl misalı Yusif -əleyhissalam- ilə atası Yaqub -əleyhissalam- arasında baş vermişdir. Həzrət Yaqub oğlu Yusifdə öz xüsusiyyətlərini görəndə ona başqa uşaqlarından daha çox meyil etdi. Bu məhəbbətlə elə bir eyniləşmə oldu ki, daha sonra Yusifin köynəyi Misirdən ona gətirilərkən Yaqub -əleyhissalam- Kənan elində olduğu halda köynəyin qoxusunu duymağa başladı. Halbuki, ondan başqa heç kim, hətta, köynəyi gətirən oğlu Yəhuda belə, o qoxudakı sirri hiss etməmişdi. Köynək həzrət Yaqubun üzünə toxunanda gözləri açıldı və görməyə başladı. Bu hal əşyaya belə sirayət edən ruhaniyyət ilə "rabitə"nin bir təzahürüdür.

Mənəvi halların əşyaya belə sirayət etməsi halında, əşyadan daha çox həssas olmasında şübhə olmayan insanın qəlbini çox böyük diqqətlə qorumağın zəruri olduğu aydındır.



Böyüklər bu məsələ ilə bağlı belə deyirlər:

«Xalqın əməl və əxlaqından cansız varlıqlar belə təsirlənir. Bu baxımdan müxtəlif çətinliklərin olduğu bir yerdəki ibadətlə, əməlisaleh və xeyir işlərə məkan olmuş bir yerdəki ibadət dəyərinə görə bir-birindən fərqlidir. Buna görə də Kəbə hərəmində qılınan bir namaz başqa yerlərdə qılınan namazlardan qat-qat üstündür.»

Bunun kimi mübarək məkanlardakı feyz və ruhaniyyətin əksinə, elə məkanlar da var ki, oralardan da ətalət sirayət edər. Belə ki, min bir məşəqqətlə dolu olan Təbük səfərindən geri qayıdanda əshabi-kiram kölgədə oturmaq və su təmin edə bilmək üçün Hicr vadisində Səmud qövmünün daşları oyaraq düzəltdikləri köşklərə girmişdi. Bunu görən həzrət Məhəmməd -səllallahu əleyhi və səlləm- belə buyurdu:

«Bu məkanda uca Allah Səmud qövmünü həlak etdi. O müdhiş hadisənin bizə təsir etməməsi üçün buralardan su götürməyin.»

Əshab:

- Ey Rəsulullah! Qablarımıza su doldurduq və bu su ilə xəmir düzəltdik.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm:

- Suları boşaldın və xəmirləri dəvələrə yedirin!» (Buxari, «Ənbiya», 17)

Bu və buna oxşar hadisələr əhval-ruhiyyənin cansız varlıqlara da təsir etdiyini göstərən canlı bir misaldır.

❁

Mənəvi keyfiyyətlərin inkişaf etməsi və səviyyə qazanması üçün saleh və sadiqlərin gözəl hallarından feyz (mənəvi enerji) almağa çalışmaq lazımdır. Belə müsbət təsirin ən gözəl şəkli mənəvi söhbətlərlə gerçəkləşir. Belə ki, Loğmanın -əleyhissalam- oğluna verdiyi bu tövsiyələr də diqqəti bu məsələyə yönəldir:

«Övladım! Alim şəxslərlə birgə ol və onların söhbətindən ayrılma! Çünki uca Allah yağışla torpağı canlandırdığı kimi, hikmət nuru ilə də qəlbləri canlandırır.» (Əhməd b. Hənbəl, «Kitabüz-Zöhd», Hədis №551)



Söhbətlərin önəmini və möminə verəcəyi mənəvi dərəcələri bu hədisi-şərif də çox gözəl ifadə edir:

«Allahın evlərindən birində Allahın kitabını oxumaq və aralarında müzakirə etmək üçün toplaşan bir camaatın üzərinə mütləq rahatlıq enər. Onları uca Allahın rəhməti bürüyər və mələklər onları əhatə edər. Allah onları öz yanındakılar arasında zikr edər». (Əbu Davud, «Vitr», 14; İbn Macə, «Müqəddimə», 17)

Əbu İdris əl-Havlani də belə söyləyir:

«Şamda Ümeyyə məscidinə girdim. Bir də gördüm ki, parlaq dişli, gülər üzlü bir gənc oturub. Onun ətrafında insanlar toplaşmış, bir şey haqqında danışırlar. Onlar bir məsələ ilə bağlı mübahisə edəndə də o gəncə müraciət edirlər və onun sözünü qəbul edərək doğru sayırlar. Oradakılardan onun Muaz bin Cəbəl (r.a) olduğunu öyrəndim.

Ertəsi gün erkəndən məscidə getdim. O məndən də tez gəlmişdi, namaz qılırdı. Namazını bitirməsini gözlədim. Sonra hüzuruna getdim, salam verdim və dedim:

- Vallah, mən səni Allah üçün sevirəm.

Muaz (r.a) üç dəfə:

- Həqiqətən, Allah üçün sevirsən?,-dedi.

Mən də hər dəfə:

- Bəli, Allah üçün sevirəm,-dedim.

Bundan sonra paltarımdan tutdu və məni yanına çəkərək belə dedi:

- Sənə müjdələr olsun! Mən Rəsulullahın -səllallahu əleyhi və səlləm- Rəbbindən rəvayət edərək belə buyurduğunu eşitdim: *«Mənim rizam üçün bir-birini sevən, onunla bir yerdə oturan, bir-birini ziyarət edən və özlərini mənim rizama həsr edən şəxslərə məhəbbətim vacib olar».* (İmam Malik, «Muvatta», «Şaar», 5)

Uca Allah ayeyi-kərimədə belə buyurur:

«Ey iman gətirənlər! Allahdan qorxun və (imanında, sözündə) **doğru olanlarla olun!»** (ət-Tövbə, 9/119)

Hallardakı sirayət yuxarıda deyildiyi kimi, məhəbbət və ünsiyyət ölçüsündə gerçəkləşir. Kamil bir mömin ola bilmək üçün sadiq və salehlərlə ünsiyyətdə olmaq, yəni onları sevmək və onlara yaxın olmağa çalışmaq bu təmayülün güclənərək arzu edilən nəticənin hasil edilməsi üçün şərtdir.

Rəsulullah da -səllallahu əleyhi və səlləm- sadiqlərlə birgə olmağın önəmini bu misalla çox gözəl ifadə buyurmuşdur:

«Yaxşı yoldaşla pis yoldaşın misalı müşk daşıyanla körük çəkən insanlar kimidir. Müşk sahibi ya sənə qoxusundan ətir saçar, ya da sən ondan satın alarsan. Körük çəkən isə ya sənin paltarını yandırar, ya da onun pis qoxusu sənə təsir edər.» (Buxari, «Buyu», 38)

Həyatda olarkən saleh insanlarla birgə olmağın önəmi olduğu kimi, qəbirdə belə onların qəbirlərinə qonşu olmağın əhəmiyyətini Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə ifadə etmişdir:

«Ölülərinizi saleh insanların arasında dəfn edin.» (Deyləmi, «Müsnəd», I, 102)

İnsanın öz ehtiyaclarını da saleh insanların vasitəsi ilə təmin etməsinin önəmini bu hadisə çox gözəl ifadə edir:

«İbnül-Firasinin anlatdığına görə, atası həzrət Məhəmməddən -səllallahu əleyhi və səlləm- belə soruşmuşdur:

- Ey Allahın Rəsulu! Mən ehtiyacımı həll etmək üçün başqasına müraciət edimmi?

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm:

- Xeyr, etmə! Ancaq istəmək məcburiyyətində qalsan, heç olmasa, saleh insanlardan istə!» (Əbu Davud, «Zəkat», 28; Nəsai, «Zəkat», 84)

❁

Bəyazid Bistamiyə müraciət edən bir dərviş belə deyir:

«- Məni Allaha yaxınlaşdıracaq bir əməl tövsiyə et.

Bəyazid Bistami -qüddisə sirruh- ona bu nəsihəti vermişdir:

- Allahın vəli qullarını sev! Sev ki, onlar da səni sevsinlər. Onların könlünə girməyə çalış! Çünki uca Allah o ariflərin qəlblərinə hər gün 360 dəfə baxar. Bu baxış zamanı uca Allah səni də orada tapar!..»

Elə buna görə də, təsəvvüfi tərbiyədə salikin mənsub olduğu yerə və sadiqlərə olan məhəbbətini hər zaman təzə və canlı tuta bilməsi üçün **«rabitə»**[23] daimi bir qaydaya çevrilmişdir.

Düşünməliyik ki, günah yolunda olan bir insan bu mənəvi bağlılığın gözəl təsirləri ilə, bəlkə də geri qaytarılması mümkün olmayan bir çox mənəvi itkidən xilas ola bilər.

Rabitə məhəbbətin şiddəti ilə mənəvi duyma və hiss etmədə yüksək bir mənəvi xətt yaradır. Bu xəttin iki ucunda olan şəxsiyyətlərdə **«eyniləşmə»** istiqamətində bir ruhi alış-veriş başlayır. Bu alış-verişdə alıcı olan möminlər inkişaf edir, verici olan saleh və sadiqlər isə bəlli bir ölçüdə zərər görür. Feyz qaynağı olan salehlərin yanına mənəvi baxımdan min bir kir-pas ilə gələnləri arındırmaq demək olan bu hal, sanki bir işçinin kirli paltarını yumağa bənzəyir. Ancaq irşad səlahiyyətinə sahib olan saleh şəxslər tərbiyələri ilə mükəlləf olduqları insanlardan gələn mənəvi kir və pasları böyük bir dəniz kimi olan könül aləmlərində əridib yox edərlər. Belə şəxslər, əgər belə demək mümkünsə, cəmiyyətdə bir təmizləmə cihazıdırlar. Onlar çürüyüb iylənmiş, gübrə halına gəlmiş bir sıra maddələri rəngarəng çiçəklərə, ləzzətli meyvələrə çevirən bitkilər kimidirlər. Vəziyyət belə olmaqla birgə, tərbiyə etməyə səlahiyyəti olan hər bir saleh və sadiq şəxsin həyatında uzun, ya da qısa bir tənhalıq mərhələsi var. Bu sadəcə Rəbbə yaxınlıq arzusundan deyil, eyni zamanda həyatın çirkinliklərindən bəlli bir müddət azad qalmaq ehtiyacından irəli gəlir.

Ünsiyyətlə gücləndirilən məhəbbət sonda o hala gəlir ki, sevən sevdiyinin varlığında, sanki yox olur. Həzrət Mövlana -qüddisə sirruh- ancaq eşq nəticəsində gerçəkləşən bu halı belə ifadə edir:

«Dənizə qovuşan bir çayda çay olmaq xüsusiyyəti yox olar, o, daxil olduğu dənizin bir parçası olar. Yediyimiz bir çörək vücudumuzun

23. Geniş bilgi üçün baxın, kitabın «İrşad metodları» bölümünə.



içində əriyər və bədənimizin bir parçasına çevrilər. Sevən bir kimsənin varlığı da məhəbbətinin şiddəti ölçüsündə sevdiyində yox olar.»

Həzrət Mövlana sözlərinə davam edərək bu eyniləşmə və yox olma halındakı əhval-ruhiyyəni belə bəyan edir:

«Eşq gəldi, qan kimi damarlarıma, dərimə doldu. Məni məndən aldı, varlığımı sevgi ilə doldurdu. Vücudumun bütün hissələrini dost əhatə etdi. Məndən mənə qalan ancaq bir ad. Qalan hər şey O...»

Təsəvvüfdə **«fəna fillah»** və **«bəqa billah»**[24] deyilən keyfiyyət məhz budur. Ancaq məhəbbətullah istiqamətində bu dərəcədə irəliləmək üçün qəlbin ona dözə biləcək bir ləyaqət və keyfiyyət qazanması zəruridir. Bu isə bəşəri məhəbbət vərdişləri (tapşırıqları) ilə əldə edilə bilər.

Qəlb üçün bir hazırlıq mərhələsi lazımdır. Bu mərhələdə halal ölçülər daxilindəki insani sevgiyə müsbət nəzərlərlə baxılır və bu sevgi «eşqi-məcazi» adlanır. Məsələn, bir insanın öz ailəsinə olan sevgisi kimi. Ancaq eşqin məna və səviyyəsini təyin etməkdə yenə həzrət Mövlananın bu sözlərinin məzmununu dərindən anlamaq zəruridir. Həzrət Mövlana belə buyurur:

«İnsaf et, eşq yaxşı bir şeydir. Onu zədələyən isə sənin pis xasiyyətindir. Sən şəhvətə eşq adı qoymusan. Ah! Kaş biləydin ki, şəhvətlə eşq arasında necə uzun bir məsafə var!..»

«İlahi eşq və vəcd mömini ayıq saxlayar. Dünyəvi və şəhəvi eşqlər isə insanı axmaq və sərsəm edər. Eşq su və torpaqdan yaradılmış insanın yanması və çırpıntısıdır. Damarlarda qanın dövr etməsi, yəni həyatın davam etməsi deyil, ciyərin eşqlə qovrulması önəmlidir.»

Bəşəri eşqin zirvələrində sevən məhəbbətindəki şiddət ölçüsündə sevdiyi ilə bir eyniləşmə qazanır. Təsəvvüfdə müridin mürşidinə məhəbbətdə bu nöqtəyə yüksəlib, şeyxinin varlığında, sanki yox olduğu məqamı **«fəna fiş-şeyx»** adı qoyulur.

---

24. Bu rerminlərin təsəvvüflə bağlı qaynaqlarda müxtəlif şərhləri var. Bunlardan biri də budur: Fənəfillah: Allahda fani olmaq deməkdir. Bütün dünyəvi əlaqələrdən qəlbən sıyrılaraq nəfsani əlamətlərdən arınmaqdır.
Bəqabillah: nəfsani əlamətlərdən arınan qulun Allahın əxlaqı ilə tərbiyə olunmasıdır. Bu hal isə Rəsulullah -səllallahu əleyhi və səlləm- və Qurani-Kərimin əxlaq və ruhaniyyətinə bürünməklə ortaya çıxar.



Həzrət Əbu Bəkr (r.a), Rəsulullah -səllallahu əleyhi və səlləm- ilə hər yeni görüşündə və söhbətində ayrı bir vəcd və şövq halı yaşayırdı. Onun yanında olanda belə, Peyğəmbərə olan məhəbbət və həsrəti təskinlik tapacağı halda, daha da çoxalırdı.

Belə ki, bir gün həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurdu:

«Əbu Bəkrin malından istifadə etdiyim qədər, başqa heç bir şəxsin malından faydalanmadım.»

Allah Rəsulunun sevgisi ilə varlığından keçib, artıq Rəsulullahın varlığında özünü tapmış olan həzrət Siddiq isə bu nəbəvi iltifat qarşısında özünün Peyğəmbərdən ayrı bir insan olduğu düşüncəsinə qapıldı. Bu duyğu ilə ruhunun dərinliklərində ayrılıq atəşlərinə bənzəyən bir yandırıcı iztirab duydu. O, Peyğəmbərdən ayrı bir insan olduğunun narahatlığı içərisində:

«Ey Rəsulullah! Mən və malım ancaq və ancaq sənə aid deyilmiyik?!,-dedi.» (İbn-Macə, «Müqəddimə», 11)

Həzrət Mövlananın dilində bu həqiqət belə ifadə olunur:

«Bir sevgi yolunda xərclənmədikcə, bir sevgiliyə fəda edilmədikcə, qızılın, canın, incinin, mərcanın dəyəri nədir ki?!»

Həzrət Mövlana bu sözləri ilə sanki, həzrət Əbu Bəkrin halını təsvir etmişdir:

Bir gün könüllər sultanı olan həzrət Məhəmmədin -səllallahu əleyhi və səlləm- narahat olduğunu eşidən həzrət Əbu Bəkr bu xəbərin üzüntüsündən özü yatağa düşmüşdü.

Bu eyniləşməyə görə Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Əbu Bəkr məndəndir, mən də ondanam. Əbu Bəkr dünyada və axirətdə qardaşımdır.» (Deyləmi, «Müsnəd», I, 437)

Peyğəmbər bu sözləri ilə məna aləmindəki birliyi və qəlbdən-qəlbə axan halı nəzərdə tutmuşdur.



Həzrət Əbu Bəkrin bu sədaqəti qarşısında həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- ölüm döşəyində olarkən belə buyurmuşdur:

«Bütün qapılar bağlansın, ancaq Əbu Bəkrin qapısı qalsın!» (Buxari, «Əshabün-Nəbi», 3)

Həzrət Peyğəmbər bu sözləri ilə onunla olan mənəvi birliyini, qəlbdən qəlbə yol olduğunu, bir sevgi axdığını gözəl ifadə etmişdir.

Şeyx Sədi Şirazi də insanların halının təsir etmək xüsusiyyətini belə ifadə etmişdir:

«Əshabi-Kəhfin iti sadiqlərlə bərabər olduğu üçün böyük bir şərəf qazandı. Onun adı Qurani-Kərimdə və tarixdə yer tutdu. Lut peyğəmbərin arvadı isə fasiqlərlə birgə olduğu üçün küfrə düçar oldu».

Qəflət əhli olan insanlarla ünsiyyətin qəlbə verəcəyi zərəri həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə ifadə etmişdir:

«(Axır zamanda) ümmətimdən bir qisim insanlar dində fəqih olduqlarını iddia edəcək, Quran oxuyacaq və belə deyəcək: «Biz idarəçilərin yanına gedər, onların dünyəvi imkanlarından faydalanar və onları dinimizə daxil etmərik». Halbuki, belə olmayacaq. Tikan ağacından ancaq tikan toplamaq mümkün olduğu kimi, onlara yaxın olanlar da ancaq onların mənfiliklərini öyrənəcəklər.» (İbn Macə, «Müqəddimə», 23)

Saleh və sadiqlərlə ünsiyyət zamanı meydana gələn hal sirayəti və bunun nəticəsində yaranan *«eyniləşmə»*ni *«Gülüstan»* adlı əsərində Şeyx Sədi təmsil yolu ilə belə ifadə edir:

«Bir şəxs hamama gedir. Hamamda dostlarından biri ona təmizlənməsi üçün gözəl ətirli bir gil verir. Gildən ruhu oxşayan çox gözəl bir ətir yayılır. Adam gildən soruşur:

- Ey mübarək! Sənin gözəl ətrindən məst oldum. Tez söylə, sən müşksən, yoxsa ənbərsən?

Gil ona cavab olaraq belə deyir:



- Mən nə müşkəm, nə də ənbər. Sizin də yaxşı tanıdığınız adi bir torpağam. Ancaq bir gül fidanının altında idim və gül qönçələrindən süzülən şehlərlə hər gün islanırdım. Sizin hiss etdiyiniz və könüllərə fərəh verən bu ətir o güllərə aiddir.»

Bu gözəl misaldakı mənanın da işarə etdiyi kimi, səmimiyyət, təslimiyyət və təvazökarlıq ilə könüllərini Haqq dostlarının önünə sərənlər aşiq olduqları gözəlliyin bir təcəlla məkanına çevrilərlər. Göydəki Ayın özünə aid bir işığı olmamasına baxmayaraq, Günəşə baxan üzünün aldığı nur şüalarını əks etdirməsi ilə Günəşin bir xüsusiyyətindən pay aldığı kimi, bələləri də bəşəriyyətin zülmətlə qaralmış gecələrinə, sanki bir çıraq olurlar.

❁

h. Gözəl əxlaq sahibi olmaq

> ***«Qiyamət günü mömin bəndənin tərəzisində gözəl əxlaqdan daha ağır bir şey olmaz. Uca Allah çirkin hərəkətlər edən, çirkin sözlər danışan şəxsə nifrət edər.»***
> (Tirmizi, «Birr», 62)

Uca Allah insanı incəlik, zəriflik və ülvi dərinlik istedadı ilə təchiz etmişdir. İnsanın əsl qiyməti də bu məziyyətlərini könül aləmində cücərdib inkişaf etdirməsi ölçüsündədir. İnsanın ancaq zahiri baxımdan deyil, mənəvi baxımdan da insan ola bilməsi ancaq gözəl xasiyyətlərlə bəzənib, pis xüsusiyyətləri təsirsiz hala gətirməsi ilə mümkündür.

Ruhaniyyət dolu qəlblər gözəl əxlaq, saleh əməl və mənəvi halların təzahürünə amil olur. Bu yolla bəndə ən gözəl surətdə yaradılmış varlıq olmağın əsas xüsusiyyətlərini gerçəkləşdirmiş olur.

Qəlblərin ruhaniyyətlə dolu olmasının əksinə olaraq, onda nəfsaniyyət qalib gəlmişdirsə, bu, küfr, şirk, pis xasiyyət, şəhvət

və vəsvəsə kimi çirkin təzahürlərə yol açır. Nəticədə, qəlb Rəbbini unudub, yaradılış qayəsinin tərsinə olan bir istiqamətə yönəlir və kütləşir. Hətta, bəzən başqa məxluqatdan daha aşağı bir səviyyəyə düşür.

Kainatın yaradıcısı insanı ünvan seçərək, onun belə bir aşağı səviyyəyə düşməməsi və özünə dönməsi üçün xəbərdar edir:

«Ey (kafir) **insan! Səni kərim olan Rəbbin barədə aldadan** (ya da məğrur edən) **nədir? O Rəbbin ki, səni** (yoxdan) **yaratdı. Düzəldib bir biçimə** (insan şəklinə) **saldı. Sənə Özü istədiyi surəti verdi.»** (əl-İnfitar, 82/6-8)

Uca Rəbbimiz Qurani-Kərimdə belə buyurur:

«Allah (bəndələrini) **əmin-amanlıq yurduna** (cənnətə) **çağırır və istədiyini doğru yola yönəldir!»** (Yunus, 10/25)

Ancaq fanilərin dəvətlərini qəbul etməyin belə, bir şərti var. Hər kəs hər yerə dəvət edilməz. Dəvət edilmək üçün ləyaqət şərti əsasdır. Rəbbimizin **«Darüs-Salam»**a (cənnətə) dəvətinə isə ancaq sağlam bir qəlb ilə icazə veriləcəkdir.

Həqiqi mənada insanlıq vəsfi ilə yaşaya bilməyin yeganə şərti din və əxlaqın ülvi hədəflərinə çata bilməkdir. İnsanlığın kamalı və gözəl əxlaqın zirvə nöqtədəki misalı da həzrət Peyğəmbərdir -səllallahu əleyhi və səlləm-. Uca Allah ondakı bu xüsusiyyəti təsdiq etmək məqsədi ilə belə buyurur:

«Şübhəsiz, sən uca bir əxlaq üzərindəsən». (əl-Qələm, 68/4)

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- bir hədisi-şərifində belə buyurmuşdur:

«Məni Rəbbim tərbiyə etdi və tərbiyəmi də çox gözəl etdi». (Suyuti, «Camius-Sağır», I, 12)

«Qiyamət günü mömin qulun tərəzisində əxlaqdan daha ağır bir şey olmaz. Uca Allah çirkin hərəkətlər edən, çirkin sözlər söyləyən şəxsə nifrət edər.» (Tirmizi, «Birr», 62)

«Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim.» (İmam Malik, «Muvatta», «Hüsnül-Hulk», 8)

Tarixdə, həyatının ən incə detallarına qədər təsbit edilə bilən tək peyğəmbər və tək insan həzrət Məhəmməd Mustafadır -səllallahu əleyhi və səlləm. Onun bütün söz, iş və duyğuları anbaan qeyd edilərək tarixə bir şərəf lövhəsi kimi daxil olmuşdur. Həzrət Peyğəmbərdəki gözəl örnək bütün bəşəriyyət üçün zirvə təşkil etmişdir. Uca Allah ayeyi-kərimədə bunu belə bildirmişdir:

«Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) **və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!»** (əl-Əhzab, 33/21)

Kainatın Fəxrinin -səllallahu əleyhi və səlləm- qəlbi həyatından və əxlaq ölçülərindən nümunə götürmək zəruridir. Bu da ancaq Ona olan məhəbbət və Onun ruhaniyyətinə bürünə bilmək ölçüsündə gerçəkləşir. Bu təsir və mənəvi boyanma nəticəsində mömində mərhəmət, şəfqət, səxavət, bağışlama, öz imkanlarını bir din qardaşı ilə paylaşmaq xislətləri bir sevinc və ləzzət halına gəlir. Əshabi-kiram, Allah dostları, salehlər və sadiqlər bu halın ən gözəl nümunələridir.

Bu incə ruhlu zərif möminlər Rəsulullahın -səllallahu əleyhi və səlləm- həqiqətinə yaxınlaşa bilmək üçün Onun ruhaniyyəti ətrafında bir pərvanə kimi olaraq, Onda fani olmağı dünyanın ən böyük neməti saymış və bu yolla da ilahi lütflərə qərq olmuşlar. Tarix boyunca həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- gözəl örnəyindən nümunə götürən möminlər imana aid təkamül çıxışlarını zirvələşdirmişlər, fitrətdəki ilahi toxumları kamilləşdirərək insanlıq üçün bir mübarək nur olmuşlar. Xəstə və qafil qəlblərin ən təsirli dərmanı Ona olan sevgidir.

Onun yüksək yaradılış əxlaq və davranışlarının tipik misallarından bəzilərinə baxaq:

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- mübarək üzü üzlərin ən gözəl və təmizi idi. Yəhudi alimlərindən Abdullah İbn Səlam hicrətdə maraqla Allah Rəsulunu -səllallahu əleyhi və səlləm- so-

ruşmuş, onun mübarək üzünə baxanda da belə deyərək müsəlman olmuşdur: «Bu üzün sahibi yalançı ola bilməz.» (Əhməd b. Hənbəl, «Müsnəd», V, 451)

Çünki Ondakı gözəllik, heybət, nur və lətafət o dərəcədə idi ki, Allahın Peyğəmbəri olduğuna dair ayrıca bir möcüzə, dəlil və əlamətə ehtiyac yox idi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bir şeyi arzu etmədiyi zaman, bu, dərhal simasından bilinirdi. O, bir şeyi bəyənəndə də məmnuniyyəti hiss edilirdi.

İlk yaradılan nur Onun nurudur. Zərif cismindəki canlılıq, güclü həya və müdhiş bir iradə bir arada toplanmışdı. O libasına bürünmüş bakirə bir gənc qızdan daha ədəbli idi.

İncə qəlbinin dərinliyini izah etmək mümkün deyil.

O, çox uzun danışmazdı, ancaq hər sözü hikmət və nəsihət idi. Onun dilində dedi-qodu və yalan yox idi. Hər kəsin ağıl və düşüncəsinə uyğun söz söyləyərdi.

Mülayim və təvazökar idi. O, qəhqəhə ilə gülməzdi. Ancaq hər zaman üzündə təbəssüm var idi. Onu qəflətən görən şəxsi heyrət bürüyərdi. Onunla ülfət və söhbət edən şəxs Ona ürəkdən aşiq və dost olardı.

Dərəcələrinə görə fəzilət sahiblərinə ehtiram edərdi. Qohumlarına da çox diqqətlə yanaşardı. Əhli-beytinə və əshabına gözəl münasibət göstərdiyi kimi, başqa insanlara da lütf ilə mülayim davranardı. O, belə buyurardı:

«Sizdən hər biriniz öz nəfsi üçün istədiyini mömin qardaşı üçün də istəmədikcə, kamil mömin ola bilməz.» (Buxari, «İman», 7; Müslim, «İman», 71-72)

Xidmətçilərinə xoş münasibət göstərərdi. Özü nə yeyər və nə geyərdisə, onlara da onu yedirir və onu geyindirirdi. Səxavət sahibi, şəfqətli, mərhəmətli, lazım gələndə cəsur, lazım gələndə də yumşaq idi. Əhdinə və vədinə sadiq olardı. Əxlaq gözəlliyi, ağıl və zəka

yönü ilə də bütün insanlardan üstün və hər cür öygüyə layiq idi. Üzü çox gözəl idi, mənəviyyatı mükəmməl idi, misli yaradılmamış bir mübarək bədəni var idi.

Rəsulullahın -səllallahu əleyhi və səlləm- hüznü daimi, düşüncəsi fasiləsiz idi, zərurət olmasa, danışmazdı. Sükunət halı uzun sürərdi. Bir sözə başlayanda onu yarımçıq saxlamaz, tamamlayaraq bitirərdi. Az sözlə çox mənalar ifadə edərdi. Sözləri tək-tək deyərdi. Nə lazım olduğundan çox, nə də az danışardı. Yaradılış olaraq yumşaq xasiyyətli olmasına baxmayaraq çox vüqarlı, əzəmətli və heybətli idi.

Hirsləndiyi zaman yerindən durmazdı. Haqqa etiraz edilməsindən, haqqın tapdalanmasından başqa heç bir halda qəzəblənməzdi. Bir kimsənin fərqinə varmadığı bir haqq tapdalandığı zaman qəzəblənər, haqq yerini tapanadək hirsi soyumazdı. Ancaq haqqı bərpa etdikdən sonra sakitləşərdi. Əsla öz mənafeyi üçün qəzəblənməzdi. Özünü müdafiə etməz, bir kimsə ilə də münaqişəyə girməzdi.

O, heç kimin evinə icazə almadan girməzdi. Evinə gəldiyi zaman da evdə olacağı müddəti üç yerə bölərdi: birini Allaha ibadətə, o birisini ailəsinə, üçüncüsünü də özünə ayırardı. Özünə ayırdığı zamanını avam, seçilmiş insanların hamısına aid edər, onlardan heç kimi məhrum buraxmazdı. Hamısının könlünü fəth edərdi.

Rəsulullahın -səllallahu əleyhi və səlləm- hər halı və hərəkəti Allahın zikri ilə dolu idi.

Bəlli bir yerdə oturmağın adətə çevrilməməsi üçün məscidin hər yerində oturardı. Yerlərin və məqamların müqəddəs elan edilməsini və məscidlərdə təkəbbürə yol açacaq bir davranış göstərilməsini istəməzdi. Bir məclisə girəndə hara boş olardısa, orada oturar, hər bir kəsin də elə etməsini arzulayardı.

Kim ondan hər hansı bir ehtiyacını həll etmək üçün bir şey istəsə, o istər önəmli, istərsə də önəmsiz olsun, onu yerinə yetirmədən rahat olmaz, ehtiyacı həll etmək mümkün olmadığı halda isə, heç olmasa, gözəl bir sözlə ona müraciət edən şəxsin könlünü alardı. O, hər kəsin dərd ortağı idi. İnsanlar hansı məqam və mövqedə olursa-olsun: varlı-kasıb, alim-cahil, Onun yanında insan olmaq heysiyyəti ilə

bərabər bir münasibətə nail olurdu. Bütün məclisləri elm, həya, səbir, təvəkkül, mərifət və əmanət kimi fəzilətlərin hakim olduğu və axdığı bir yer idi.

Eyib və qüsurlarına görə bir kimsəni qınamaz, xəbərdarlıq ehtiyacı hiss edəndə isə bunu qarşısındakını incitməyəcək bir şəkildə, zərif bir işarə ilə edərdi.

«Müsəlman qardaşının üzləşdiyi fəlakəti sevinclə qarşılama! Uca Allah onu rəhməti ilə o fəlakətdən qurtarar, səni müsibətlə imtahan edər»,-buyurardı. (Tirmizi, «Qiyamət», 54)

Bir kimsənin üzə çıxmamış eyib və qüsuru ilə məşğul olmadığı kimi, bu cür halların araşdırılmasını da qətiyyətlə qadağan edərdi. Çünki başqaları haqqında zənn və güman ilahi əmrlərlə qadağan olunmuşdu.

Savabını umduğu məsələlərdən başqa bir şey danışmazdı. Söhbət məclisləri vəcd içində idi. O, danışarkən ətrafındakılar elə sehirlənir və ürəkdən dinləyirdilər ki, həzrət Ömərin ifadəsi ilə başlarına bir quş qonmuş olsa, uçmadan saatlarla dura bilərdi. Ondan əshabına keçən ədəb, həya o dərəcədə idi ki, Ondan sual soruşmaq belə çox zaman cürət sayılırdı. Çöldən bir bədəvi gələrək həzrət Peyğəmbərlə söhbətə vəsilə olsa da, Onun feyz və ruhaniyyətindən istifadə etmək üçün gözləyərdilər.

Əbu Hüreyrə (r.a) onun mərhəmət və şəfqətinin genişliyini belə ifadə edir:

Biz bir savaşda kafirlərin yox olması üçün Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- bəd dua etməsini istədik. O isə belə buyurdu:

«Mən lənət etmək üçün deyil, aləmlərə rəhmət olaraq göndərildim.» (Müslim, «Birr», 87)

Uca Allah Qurani-Kərimdə həzrət Məhəmməd -səllallahu əleyhi və səlləm- üçün belə buyurmuşdur:

«Səni ancaq aləmlərə rəhmət olaraq göndərdik.» (əl-Ənbiya, 21/107)

Haqq dostu həzrət Əhməd ər-Rifai mənəvi övladlarına bu nəsihəti verir:

«Ey irfan talibi! Bütün varlığını Haqq yolunda xərclə. Rəsulullahın -səllallahu əleyhi və səlləm- sünnəsinə tabe ol. Gecə və gündüzünü mütilik dolu ibadət iqlimində və gözəl bir şəraitdə keçir… Ancaq bu yolla mərifətə nail ola bilərsən. Əks təqdirdə, bundan bir pay ala bilməzsən. Onun halı ilə bütövləşməz, qüsurlu bir bəndə olarsan.»

Burada kəlmələrin məhdud imkanları ilə xülasə etməyə çalışdığımız Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- yüksək yaradılışındakı əxlaqi məziyyətlər Ondan idrakımıza damcılayan şehlər kimidir. Allaha qovuşmağın sirri Allahın kitabına və Varlıq Nurunun sünnəsinə, yəni yüksək əxlaq və davranışlarına xalis bir qəlb ilə yaxınlaşa bilməkdir. Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- hissiyatından istifadə edə bilməyin təməl şərti də, Ona məhəbbət, onun düşmənlərinə nifrət bəsləməkdir.

Bu aləm ağıl sahibləri üçün ilahi təcəlla və ilahi nizamı ibrətlə tamaşa etməkdən, axmaqlar üçün isə yemək və şəhvətdən ibarətdir.

4. SAF BİR QƏLB İLƏ ALƏMƏ BAXIŞ

Qəlb təmizlənə-təmizlənə bəşəri və təsəvvüfi qaydalara (tapşırıqlara) əlavə olan Allahın lütf və kərəmi ilə yolun sonunda elə bir hala gəlir ki, bu qəlbin sahibi zahirən insana bənzəyir, ancaq mənəvi baxımdan mələklərin dərəcəsinə yüksəlir. Bu durumda olanların bəziləri səmada olan saysız-hesabsız ulduzlardan biri kimi, öz aləmlərində və başqaları üçün tam bir məchulluq içində yaşayarlar. Belələrini bilmək mümkün deyil.

Bunlardan başqa, bəziləri isə onlara verilmiş olan ictimai vəzifələrə görə bəlli bir ölçüdə tanınırlar və öz zamanlarından gələcəyə doğru bir yol göstərici olaraq bəşəri həyatda vəzifələrini davam etdirməklə bəqa sirrindən pay alırlar. Hadisələrin arxasında olan səbəblər zəncirindəki ən son səbəbi, yəni ilahi istəyi qavrayarlar. Buna görə də, hikməti bildikləri üçün rahatlıq və dinclik içərisində yaşayarlar. Təlaş və qorxu kimi bir çox bəşəri xüsusiyyətlər onlara yaddır.

Onlar üçün artıq *«əbəs»* yoxdur ölçüsü ilə başlayan mənəvi inkişafda hikmətə etibar edirlər və bütün aləmi ibrət, məhəbbət və heyrət duyğuları ilə seyr etməyə başlayırlar.

İlahi qüdrətin təcəllaları olaraq çıxan günəşə, işıq şüalarının qürubda çəkdiyi rəngarəng tablolara heyrətə qərq olaraq baxarlar. Onlar bir ilana belə, bu gözlə baxdıqlarından başqalarının duyduğu qorxu yerinə, bu heyvanın dərisindəki naxışlara, onun ayaqlarının olmamasına rəğmən, hərəkətlərindəki sürət və canlılığa məftun olarlar.

Bu Haqq dostları yaradılmışlara məhəbbət və hikmət nəzərləri ilə baxdıqlarından vəhşi heyvanların hücumlarından belə qorunmuşlar. Çünki məhəbbət üz tutduğu ünvanı özünə tabe etmək məsələsində yaşadığımız dövrdə kəşf edilmiş radiasiya kimi təsirə malikdir.

Başqa insanlardakı kainat xariqələrini adi bir şey kimi görmək halı onlarda olmaz. Həqiqətən, adi bir insan bir rəssamın təbiəti yamsılayaraq çəkdiyi tabloları təqdirlə tamaşa edərkən kainat və onun Xaliqi qarşısında eyni təqdir hissini duymaz. Bütün xariqələri adi bir şey olaraq qəbul edər. Ancaq təmizlənmiş qəlb sahibi olan Haqq dostları isə rəssamın ancaq adını davam etdirmək üçün çəkdiyi bu tabloların əvəzinə əsl sənətkar və Onun əsərləri qarşısında heyrət, həyəcan duyan bir qəlb ilə yaşayarlar. İlahi qüdrətin təbiətdə yaratdığı sonsuz xariqələrdəki sənətin zövqünü dadarlar. Sərmayəsi eyni torpaq olan bitkilərin rəngarəng yarpaq və çiçəklərinə, bunlardakı ecazkarlığa, ağacların rəng, ətir, ləzzət və görünüşdə çoxsaylı fərqləri olan meyvələrinə, ancaq bir-iki həftəlik ömrü olduğu halda kəpənəyin qanadlarındakı xariqə naxışlara, insanın yaradılışdındakı qeyri-adiliyə baxarlar və gözün görməsi, beynin düşünməsi kimi sonsuz ilahi xariqələr və bunların *«hal lisanı»* deyilən sirrli bəyanlarına diqqət edər, qulaq asarlar.

Bələləri üçün bütün bir kainat artıq oxunmağa hazır olan bir kitab kimidir. Bunlar sətirlərdəki elmləri öyrənmiş, daxili mənadakı elmə sahib olmuşlar. Bir zamanlar Səlcuqlu mədrəsəsində müdərris olan Mövlana sonradan könlü eşqlə dolu Şəms adlı bir Allah dostunun irşad nəzərlərindən qığılcım alıb, eşq atəşi ilə yanmağa başlayan Mövlana kimi. O Mövlana ki, bu yolla eşq iqlimində yenidən doğulduqdan sonra zahiri elmə aid olan bütün kitabları oxumaqla birgə, onların daxili mənasına da nüfuz etmiş, beləliklə, kainatın sirlərini və naxışlarını oxumağa başlamışdır. Ancaq bundan sonra

insan, kainat və Qurandakı sirr və hikmətləri açıb göstərən və bir fəryadnamə olan *«Məsnəvi»* adlı şah əsər meydana gəlmişdir..

Belə hallara sahib ola bilmək ancaq möminin qəlbindəki eşq, istedad və iqtidarını inkişaf etdirdiyi ölçüdə mümkündür. Belə qəlblər artıq ilahi təcəlla məkanı olmaq yönündə sanki bir zirvəyə çevrilmişlər. Həzrət Mövlana bu dərəcədə saflaşmış bir qəlbin dəyərini çox güman ki, onun meydana gəlməsində bəşəri bir iradə olduğu üçün öyərək deyir:

«Kabe bünyadi-Halili-Azer est,
Dil nazargahi-Celili-Ekber est».

Yəni Kəbə Azərin oğlu Xəlil İbrahim tərəfindən tikilmişdir. Könül isə uca və böyük Allahın nəzərgahıdır.

Sufilərə aid olan mənaqib kitablarında könlün Kəbəyə bənzədilməsinə tez-tez rast gəlinir. Bu keyfiyyət kainatın özü olan insandakı qəlbin kainat içində Kəbənin yerinə oxşamasına görədir. Həqiqətən, hər ikisi də ilahi təcəllagah olmaq baxımından bir mərkəzdir. İlahi təcəllanın bir mərkəzləşmə nöqtəsidir. Bu mənqibələrdə bəzən könlün Kəbədən üstün tutularaq təqdim edilməsi qismən aşiqanə bir coşqunluq və qismən də könlü bu hala gətirməyin önəmini anlatmaq və bu yolda aparılan mübarizəyə rəğbət yaratmaq üçündür.

Könlü ilahi təcəlla məkanına çevrilən insanlar haqqında İbn Ömərin (r.a) Kəbeyi-Müəzzəməyə üz tutaraq söylədiyi bu sözlər çox ibrətlidir:

«Sən nə böyüksən, ey Kəbə! Sənin şanın çox ucadır. Ancaq həqiqi bir möminin Allah yanındakı şərəfi səndən də üstündür.» (Tirmizi, «Birr», 85)

Qəlb imanın məkanıdır. Kamil bir mömin qəlbinin Kəbədən üstün olduğu İbn Ömərin (r.a) ifadəsindən də anlaşılır.

Belə ki, həzrət Mövlana bu həqiqəti təsdiq edərək belə buyurmuşdur:

«Əgər səndə bəsirət varsa, könül Kəbəsini təvaf et. Torpaqdan tikilmiş sandığın Kəbənin əsl mənası könüldür».

«Uca Allah görünən, bilinən surət Kəbəsini təvaf etməyi, pisliklərdən təmizlənmiş, arınmış bir könül Kəbəsi əldə edə biləsən deyə, sənə fərz etmişdir».

«Bunu yaxşı bil ki, sən Allahın nəzərgahı olan bir könülü incidib qırsan, Kəbəyə piyada getsən belə, qazandığın savab könül qırmağın günahını əvəz edə bilməz.»

Abdülqadir Geylani -qüddisə sirruh- isə bu ucalığın şərtini belə ifadə edir:

«Könül ancaq pisliklərdən arınmış olan mərifətullah sahiblərinə Kəbə olar».

Bu məsələ ilə bağlı İsmayıl Haqqı Bursəvi də belə deyir:

«Qəlbə girən şəxs Kəbəyə girən şəxsdən daha üstündür. Elə buna görə də, saleh bəndələrə və Allah dostlarına: «Bizi də könlünüzdən çıxarmayın», -deyirlər və bu yolla da onlardan feyz və mürşidin diqqətini istəyirlər».

İmam Rəbbani -qüddisə sirruh- insanın bir «kiçik kainat» olduğu həqiqətini belə ifadə edir:

«İnsan aləmin kiçildilmiş bir xülasəsidir. Buna görə də, aləmdə var olan hər şeyin bir nümunəsi də insanda var.»

Bu yuxarıda bir neçə dəfə ifadə etdiyimiz kimi insanın «xeyir» və *«şər»* olmaqla iki qütbünün varlığına işarədir. Dinin əmrləri və bunlardan başqa təsəvvüfi qaydaların hədəfi şər təmayülləri mümkün olduğu ölçüdə zərərsizləşdirərək insan mənliyində xeyirin qələbəsini təmin etməkdir. Bunun üçün bütün bədən üzvlərindən ilahi əmrlərə itaət çərçivəsində istifadə etmək zəruridir. Ancaq bu məsələdə qəlblə bağlı olan əməllər və qaydalar hər şeydən daha önəmlidir. Çünki bir duyğu mərkəzi olan qəlb düşüncəyə, düşüncə də iradəyə yön verir. Bu o deməkdir ki, bütün iradi əməllərin təməl şərti qəlbdir, orada kök salmış duyğulardır. Qəlb isə iradə qarşısında ən müstəqil bir

bədən üzvüdür. Onun ilahi əmrlər çərçivəsinə yerləşdirilməsi başqa bədən üzvlərindən daha önəmlidir və daha çətindir. Yuxarıda xəstə qəlblər üçün işarə etdiyimiz müalicə yollarına aid olan çətinliklər bu keyfiyyəti sübut etməyə kifayətdir. Ancaq əldə edilən hər nəticənin dəyəri ona çata bilmək üçün çəkilən əziyyətlər nisbətində olduğundan qəlbin nəzarətə alınmasının da ilahi yanında dəyəri çox böyükdür. Bu məsələdə uğur qazananlara uca Allahın mələklərə aid, bəzən də ondan daha üstün xüsusiyyətlər lütf etməsi bu hikmətə bağlıdır.

Qəlb və onun mənəvi varlığının adı olan könül insanın səadətini və təhlükəsizliyini təmin etməkdə bu qədər önəmli olduğu üçündür ki, başqası tərəfindən incidilməsi bütün təsəvvüf əhlinə görə çox ağır bir günah sayılmışdır.

Belə ki, həzrət Mövlana könül incidənləri belə xəbərdar edir: «Sənin bir saman çöpü qədər dəyər vermədiyin yıxılmış bir könül Ərşdən də üstündür, Kürsidən də, Lövhdən də, Qələmdən də! Pis belə olsa, könlü qırma! O bu vəziyyəti ilə belə, yenə də üstünlər üstünüdür. Yıxılmış könül Allahın nəzər etdiyi varlıqdır. Onu saflaşdıran can çox mübarəkdir. Qırılmış, iki yüz parça olmuş könlü təmir etmək Allah yanında bir çox xeyir və gözəl işlərdən daha üstündür… Sus! Hər tükündə iki yüz dil olsa da, söyləsən, könlü yenə də anlatmaq olmaz».

İnsan bədənində bir sultan olduğuna görə ilahi təcəllaların özünü göstərdiyi məkan olaraq qəlb seçilmişdir. Belə ki, yuxarıda başqa məsələlərlə bağlı dediyimiz kimi, imanın varlığı üçün «qəlb ilə təsdiq» şərti var. Ayeyi-kərimədə vəhyin üz tutduğu ünvan olaraq bir düşüncə mərkəzi olan beyin deyil, duyğu mərkəzi olan qəlb zikr edilmişdir. Ayeyi-kərimədə buyurulur:

«Onu Cəbrayıl (Ruhul-Əmin) **endirdi.** (Günahkarları Allahın əzabı ilə) **qorxudan** (xəbərdar edən) **peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə** (nazil etdi). **Özü də açıq-aydın ərəb dilində».** (əş-Şuəra, 26/193-195)

Qəlb tərbiyəsində müəyyən bir məsafə qət etmək başqa bütün fəaliyyətlərdə olduğu kimi, insanın çalışması və uca Allahın doğru

yolu göstərməsi, lütf və kərəmlərinin bəxş olunması hesabınadır. Çünki bəşəri mübarizə və gözəl əməllər mənəvi bir zəmin təşkil etməklə birgə, İlahi lütf və yardımlara bir vasitədir. Bu baxımdan qul bu yola girdiyi təqdirdə, Allahın lütf və kərəminə ümid bağlamalıdır. O ilahi lütflər onu az, ya da çox, mütləq bir səviyyəyə çatdıracaq. Buna görə də, bu hal istənilən halda bir qazancdır. Əsas odur ki, uca Allahın bəndələrinə lütf və nemət vermək üçün gözlədiyi fəaliyyətlər imkan daxilində ortaya qoyulsun.

Bizdən öncəkilər «Bir şeyin hamısını əldə etmək mümkün deyilsə, onun əldə edilə bilən hissəsindən də əl çəkmək doğru deyil»,-deyərdilər. Qəlbin təmizlənməsində də belə düşünülməli və mümkün olan işlərin görülməsində səhlənkarlıq göstərilməməlidir. Təsəvvüfdə geniş yayılmış bir məsəl var:

«Ata himmət! Övlad cəhd!» -deyirlər. Yəni ustadından himmət gözləyən bir şəxs, az-çox səy göstərməlidir. Lütf və kərəmi sonsuz olan uca Allahın qəlb tərbiyəsi ilə bağlı bir bəndədən gözlədiyi «Nəfsini bilən Rəbbini tanıyar», -həqiqətinin məzmununa uyğun olaraq ilahi əzəmət qarşısındakı acizliyini və «heç»liyini dərk edərək səmimi və xalis bir niyyətlə çalışmasından ibarətdir. Çünki bu nəfs mübarizəsində çalışmaq bəndədən, yardım isə Allahdandır. Şübhəsiz ki, uca Allahın bir bəndədən soruşacağı hesab da ona verilmiş ilahi lütflər ölçüsündədir. Mühüm olan bir bəndənin nail olduğu nemətlər ölçüsündə Haqqa və xeyirə yönəlməsidir.

Ey Rəbbimiz! Bizə könül aynamızda həqiqət parıltılarını, iki dünyanın sirr və hikmətlərini seyr etdirərək, gözlərimizi və könüllərimizi elə nurlandır ki, o biri aləmdə camalını görməklə şərəflənək!

Amin!

İnsanın kamala çatması mənəvi ölçü və həssaslığa əməl etməsi nəticəsində xam sifətlərdən sıyrılaraq kamil bir səviyyə qazanması ilə mümkündür.

C. TƏSƏVVÜF TƏRBİYƏSİNDƏ TƏMƏL ƏSASLAR

Təsəvvüf əhlinin böyüklərindən olan Əbdül Xaliq Gücdəvaninin -qüddisə sirruh- təsbit etdiyi bəzi prinsiplər var. Xüsusən, Nəqşi yolunun getdiyi seyr və süluk üslunda, yəni xam sifətlərdən qurtulub kamil insan olmağı hədəf seçən mənəvi tərbiyədə bu prinsiplərə əməl etməyin müstəsna bir önəmi var. Bu prinsipləri belə sıralaya bilərik.

1. Huş dər dəm: Hər nəfəs alıb verəndə, mənəvi baxımdan ayıq olmaq.

2. Nəzər bər qədəm: Gözün ayağın ucuna baxması.

3. Səfər dər vətən: Hər addımda Haqqa doğru getmək.

4. Xəlvət dər əncümən: Xalqın içində olarkən belə Xaliq ilə bərabər olmaq.

5. Yad-kərd: Qəlbin zakir hala gəlməsi.

6. Baz-gəşt: Yeganə məqsədin ancaq Allahın rizası olması.

7. Nigah-daşt: Şeytani və nəfsani düşüncələrdən qorunmaq.

8. Yad-daşt: Özünü hər zaman Allahın hüzurunda hiss etmək.

9. Vuqufi-zaman: Hər an özünü yoxlamaq və zamanı yaxşı dəyərləndirmək.

10. Vuqufi-ədədi: Zikrin sayına diqqət və əməl etmək.

12. Vuqufi-qəlbi: Qəlbin hər zaman Allahın zikri ilə məşğul olması və zikrdə qəlbə yönəlmək.

Bu qiymətli prinsiplər üzərində qısa da olsa durmaqda fayda olduğunu düşünürük.

1. Huş dər dəm: Hər nəfəs alıb verəndə mənəvi baxımdan ayıq olmaqdır.

Mövlana Sadəddin Kaşqari bu ölçünü belə dəyərləndirir:

«Bir nəfəsdən başqa bir nəfəsə keçərkən belə, əsla qafil olmamaq və hər zaman Allahın hüzurunda olmaq.»

Hər nəfəsdə ayıq olmaq zikr edənin istər zikr zamanı, istərsə də başqa zamanlarda Allahdan qafil olmaması deməkdir. Nəfəsləri qəflətdən qurtarmaq qəlbə hüzur bəxş edər. Hər nəfəs alıb verərkən qəlbin Allahın hüzurunda olması Allaha itaət bərəkəti ilə nəfəsləri ehya etməyə bağlıdır. Bir insanın qəlbi Allah ilə bərabərliyin rahatlıq və şüuruna qovuşanda buna bağlı olaraq hal və davranışlarında da müsbət irəliləyişlər görünür.

2. Nəzər bər qədəm: Ayağın ucuna baxaraq yerimək deməkdir. Salik (təriqət yolçusu) gözünün və ona bağlı olaraq da könlünün ətrafa çox baxmaması üçün, yolda ayaqlarının ucuna baxaraq yeriməlidir. Çünki dünya nemətlərinə ölçüsündən daha çox bağlanmaq qəlbin rahatlığını pozur, Haqq ilə insan arasında bir pərdə olur.

Əslində, bu üsul həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- yeriş tərzini mənimsəməkdən ibarətdir. Peyğəmbərimiz -səllallahu



əleyhi və səlləm- yeriyərkən zəruri olmasa, ətrafına baxmaz, ümumiyyətlə, ayaqlarının ucuna baxaraq, sanki yoxuşdan enirmiş kimi sürətli və vüqarla yeriyərdi. Yəni bu prinsip Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- örnək əxlaqından götürülmüşdür. Həqiqətən, göz hara baxarsa, könül də oraya axar. Gözün sanki bir kamera kimi çəkdiyi filmlər qəlbi çox zaman lüzumsuz şeylərlə məşğul edər. Bu baxışlar könül arxivində lazım olmayan bir yer tutar. Buna görə də, könlün dağınıqlıqdan və pərişanlıqdan qoruna bilməsi müəyyən mənada oraya təsir edən görüntülərin keyfiyyətinə bağlıdır.

Çünki təriqət yolçusunun qəlbi Allahdan qeyri bir şeyə bağlananda vəsvəsələr başlayır. Əgər qafillərlə söhbət edərsə, onların sərt qəlblərinin pisliyi, pis xasiyyətləri, xəstə fikirləri onun qəlbinə təsir edər. Bu isə son dərəcə təhlükəlidir.

Buna görə də, salikin təvazökar insanlara yaraşan ədəb və üslub ilə mümkün olduqca ayaq uclarına baxaraq yeriməsi zəruri olduğu kimi, başqa zamanlarda da baxışlarına diqqət etməsi lazımdır. Yeriyərkən ayaq uclarına baxmaqda təvazökarlıq, ədəb, həddini bilmək, gözü haramdan qorumaq və Rəsulullahın -səllallahu əleyhi və səlləm- sünnəsinə bağlılıq var.

3. Səfər dər vətən: Bir kamil mürşidə qovuşmaq məqsədilə yola çıxmaqla birgə, salikin pis əxlaqdan və günahların çirkabından arınıb gözəl əxlaq və incə duyğulara, yəni əsl mahiyyətinə yönəlməsini ifadə edir. Salik heç bir zaman içində olduğu mənəvi halla kifayətlənməyib, daha gözəl bir mərtəbəyə qovuşmağa çalışmalıdır. Ya da bir məqamdan daha yüksək bir mərtəbəyə səfər etməyə cəhd göstərməlidir.

Həzrət Əbu Osman əl-Məğribi belə buyurmuşdur:

«Salik nəfsinin istəklərini tərk edib, Allaha ibadət və itaətə dönməlidir. «Səfər dər vətən» sözü ilə nəzərdə tutulan bir ölkədən başqa bir ölkəyə səfər etmək deyil, insanın öz iç aləmində Allaha -cəllə cəlaluhu- qovuşmasıdır. Salik bir kamil mürşid tapdığı zaman zahiri yolçuluqdan əl çəkib mənəvi yolçuluğa başlayar».



Seyr və sülukda bu düstur ilə salik, **«Mən Rəbbimə gedirəm»** (əs-Saffat, 99) deyən İbrahim -əleyhissalam- kimi hər addımda Rəbbinə getməkdə olduğunu dərk etmək səviyyəsinə çatır.

4. Xəlvət dər əncümən: Xalq içində olarkən belə, Xaliq ilə bərabər olmaq düşüncəsini qoruya bilməkdir. Yəni salik zahirən insanlarla söhbət halında olsa da, gündəlik işləri ilə məşğul olsa da, daxilən uca Allah ilə birgə olmaq gücünə, bacarığına sahib olmalıdır. Bunun hesabına da ətrafında olanlara hiss etdirmədən Rəbbi ilə hər zaman birgəliyini davam etdirmiş və eyni zamanda bəşəri həyatın tələblərini də yerinə yetirmiş olur. Belə ki, *«əl karda, könül yarda»* kimi gözəl bir deyim də bu halı çox ifadəli bir biçimdə bizə çatdırır.

Uca Allah Qurani-Kərimdə bu mənəvi gücə sahib olan bəndələrini belə vəsf edir:

«(Onu) **o kəslər** (təqdis edər) **ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi** (dəhşətdən ürəklərin duymaqdan, gözlərin görməkdən qalacağı) **bir gündən** (qiyamət günündən) **qorxarlar.»** (ən-Nur, 24/37)

Nəqşilikdə söhbət və ictimailəşmək əsasdır. Buna görə də təkbaşına tənha bir yerdə xəlvətə çəkilmək deyil, zahirən insanların içində olmaqla birgə, qəlbən uca Allah ilə olmaq halını davam etdirmək daha məqbul sayılmışdır.

5. Yad-kərd: Qəlbin zakir hala qovuşmasıdır. İnkar və təsdiq yoluyla («Lə iləhə illəllah» zikri ilə) qəlbdə bir növ bütə çevrilmiş olan bütün masiva kirləri çıxarıldıqdan sonra yeganə məqsədin Allah olduğu fikri qəlbdə yerləşir.

Zikrin zərif hərarətinin qəlbdən bütün vücuda yayılması nəticəsində insanın şüur altında olan ülvi duyğular canlanıb bir düşüncəyə çevrilir və davranışlara təsir edəcək bir güc olur. Çünki zikri və fikri

Allah ilə olan bir insanın mərhəmət, səbir, səxavət və bağışlaya bilmək kimi ilahi əxlaqdan pay ala bilməməsi mümkün deyil. Bütün bunlar isə kamil bir insan ola bilməyin məcburi şərtlərindəndir. Buna görə də qəlbin zikrlə dirilməsi təsəvvüfün ən mühüm prinsiplərindəndir.

6. Baz-gəşt: Tələb və məqsədin ancaq Allahın rizası olmasıdır.

İnkar və təsdiq zikrinin sonunda «Allahım, məqsədim ancaq Sənsən və istəyim ancaq Sənin rizandır» deyilərək edilən zikri daha dərindən düşünməkdir. Bu, inkar və təsdiq zikrinin mənasını dərk edib tövhid sirrinin qəlbdə həqiqi mənada yerləşməsi üçündür.

Beləliklə, Allah ilə arada pərdə olan bütün qayə və arzular yox edilərək qəlbi rahatlıq təmin edilir. Başqa yöndən, zikr kimi mənəvi bir qayda (tapşırıq) ilə mərhələlər keçmək, kəramətlərə nail olmaq kimi, könülə gələ biləcək vəsvəsələr də tamamilə rədd edilib, əsl qayənin Allahın rizasını qazanmaq olduğu düşüncəsi könülə yenidən nəqş edilir.

Bu yolla edilən zikrin mənası düşüncəyə möhkəm yerləşib həyata əks edəndə də artıq fani və lazımsız şeylər gözdən düşür, hər şeydə ilahi təcəllalər müşahidə edilməyə başlanılır.

7. Nigah daşt: Nəfsani və şeytani düşüncələrdən qorunmaqdır. Gözü uyğun olmayan şeylərə baxmaqdan, ağlı pis düşüncələrə yönəlməkdən qorumaq və Haqqın təcəlla məkanı olan qəlbi hər zaman nəzarət altında saxlayaraq masivanın oranı istila etməsinə mane olmaqdır.

Təsəvvüfün bir hədəfi də qəlbi mənfi düşüncələrdən və batil fikirlərdən qorumaqdır. Qəlbi bunlardan qorumaq isə çox çətin bir işdir. Buna nail olan şəxs təsəvvüfün gerçək səmərəsini əldə etmiş olur.

8. Yad daşt: Bəndənin hər zaman uca Allahın mənəvi hüzurunda olduğunu yadında saxlaması və bu düşüncə ilə də hərəkətlərinə diqqət etməsidir. Buna *«muraqibə»* də deyilir.

Uca Allah ayeyi-kərimədə belə buyurur:

«And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq!» (əl-Qaf, 50/16)

Buna görə də, ehsan duyğusunu, yəni uca Allahın bəndəsini hər an görməkdə və hər halını bilməkdə olduğu düşüncəsini heç bir zaman itirməmək zəruridir. Həqiqətən, bu duyğu günahlara qarşı sağlam bir zireh kimidir. Çünki bir insan özünün ilahinin hüzurunda olduğunu bilərsə və qəlbi Allah ilə olarsa, necə günah edə bilər?

9. Vuqufi-zamani: Hər keçirilən saatı *«hüzur»*, ya da *«qəflət»* nöqteyi-nəzərindən sorğu-suala çəkmək və zamanı doğru dəyərləndirməkdir. Salik içində olduğu vaxtın qiymətini yaxşı bilməli və lazımsız şeyləri tərk edib, zamanını ən qiymətli məsələlərə həsr etməlidir. Zamanı nə dərəcədə doğru dəyərləndirdiyini öyrənmək üçün də nəfsini tez-tez sorğu-suala çəkməlidir.

Başqa bir mənada zamanı doğru dəyərləndirmək salikin hər an öz halından xəbərdar olması və halının şükür, yoxsa üzr tələb etdiyini bilərək buna uyğun hərəkət etməlidir. Həqiqətən, salik hər gecə və gündüz etdiyi əməllərini bir-bir düşünməli, saleh əməlləri ona qismət edən Allaha şükür edib, daha yaxşı işlər görməyə çalışmalı, xətaları üçün də tövbə edib peşmanlıqla Allaha yönəlməlidir. Ömrün son dərəcə qiymətli olan hər anını və xüsusilə, uca Allahın ayrıca bir bərəkət verdiyi müstəsna anları bir fürsət və qənimət bilməli, bütün gücü ilə mənəvi sayıqlıq içində məsələləri dərk etmək və hər zaman canlı qalmaq üçün çalışmalıdır.

Xülasə, hər an və hər halın hesabatını edərək özünü Allahın hüzurunda keçirdiyi anına və halına şükür edib, qəflət içərisində yaşadığı zamanlar üçün də tövbəkar olmalıdır.

Bir başqa ifadə ilə *«qəbz»* halında (qorxu və buna bənzər duyğularla mənəvi daralma) istiğfara, *«bast»* halında (ümid və mənəvi fərəhlənmə) isə şükür etməyə davam etməlidir. Bu yolla istənilən halda qəflətdən qorunan bir şəxs keçmişin lazımsız narahatlıqlarından və gələcəyin qorxusundan qurtularaq yaşamaqda olduğu halın qədrini bilər və təsəvvüfdəki *«Sufi, İbnül-vaxt olmalıdır»*, prinsipinə əməl edər.

10. Vuqufi-ədədi: Zikrin sayına diqqət və əməl etməkdir. Saleh mürşidlər təriqət yolçusunun mənəvi halına görə bəlli bir miqdarda zikr verirlər.[25] Çünki zikrin də ümid edilən nəticəni hasil edə bilməsi üçün bəlli bir sayı, əgər belə demək mümkünsə, dozası vardır. Buna görə təriqət yolçusunun zikr əsnasında diqqətinin dağılıb, könlünün vəsvəsəyə düşməməsi üçün, mürşidinin söylədiyi ölçülərə və verdiyi sayıya əməl etməsi zəruridir. Çünki zikrdə keyfiyyət nə qədər önəmli olsa da, zikrin kəmiyyəti, yəni müəyyən bir hüdudu və ölçüsü olmadığı zaman bir sıra hallarda zehni və mənəvi narahatlıqlar özünü göstərər. Bu durum hər şeydə olduğu kimi zikrdə də ifratın və ölçüsüzlüyün doğura biləcəyi xətaların bir nəticəsidir. Buna görə də, zikr həm keyfiyyət, həm də kəmiyyət etibarı ilə ən gözəl bir şəkildə yerinə yetirilməlidir. Çünki zikrdə saya əməl etmək mücərrəd olaraq onu saymaq demək deyil, say çərçivəsi içərisində «qəlbi zikri» dərinləşdirməkdir. Bunun isə zikrin keyfiyyətinə mane olmadığı kimi, əslində, onu gücləndirən bir şərt olduğu açıqdır.

Həqiqətən, zehin müxtəlif düşüncələrlə dolu, qəlb də çeşidli narahatlıqlarla dinc olmadığı bir halda edilən zikrdə onun sayına əməl etmək də çox zaman mümkün olmur. Buna görə də ağılı dağınıqlıqdan qoruyub zikr zamanı diqqəti zikrin mənası üzərində cəmləməklə birgə, zikrin sayına da əməl etmək, eyni zamanda bu işə olan ciddi münasibətin bir ifadəsidir.

25. Peyğəmbərin -səllallahu əleyhi və səlləm- şəxslərin vəziyyətini nəzərə alaraq fərqli miqdarda zikr təlimi tətbiq etməsi ilə bağlı baxın, s. 103 (f. "Allahın zikri və düşüncə" mövzusuna)

11. Vuqufi-qəlbi: Qəlbin hər zaman Allahın zikri ilə məşğul olmasıdır. Bu, ehsan duyğusunun daimi bir düşüncə halına gəlməsi deməkdir. Salik hər fürsətdə qəlbini yoxlamalı, onun nə halda olduğuna baxmalıdır. Çünki zikrdə başlıca məqsəd qəlbin zikr ediləndən xəbərdar olmasıdır. Zikr ağızdan qəlbə enməyən quru sözlərin təkrarından ibarət deyil. Buna görə də zikr zamanı bəndə müraqibə halında olmalı, bütün diqqəti zikr edilənə yönəltməyə çalışmalıdır. Bu yolun böyük şəxsləri zikrdə diqqəti qəlbə yönəltməyin başlıca şərt olduğunu söyləyirlər. Zikrin gerçək mahiyyətini dada bilmək üçün bütün varlığın və xüsusən, qəlbin Allaha yönəlməsi zəruridir.

Qurani-Kərimdə uca Allah belə buyurur:

«Rəbbinin adını zikr et və bütün varlığınla Ona yönəl.» (əl-Muzzəmmil, 73/8)

Ruhlara nizam və həyat qidası verənlər nəfsini təmizləmiş salehlərdir.

D. KAMİL MÜRŞİD VƏ İRŞAD METODLARI

1. KAMİL MÜRŞİD

Mənəviyyat yolunda irəliləyən bir mömin çox fərqli təcəllalarla qarşılaşır. Çünki insanın qəlbi okean kimidir. Bu okeanın suları bəzən çox durğun olur, bəzən də qorxunc dalğalı bir fırtına qopur. Buna görə də okeanı keçib sahilə qovuşmaq üçün gəminin sağlam olması qədər, təcrübəli bir kapitana da ehtiyac var. Əgər kapitan fırtınalar zamanı gəmisini idarə edə bilməsə, onu okeanın dərinliklərinə batırar. Hələ yolun başlanğıcında olanlara bu kimi təcəllalar çox da görünməz. Ancaq bu dəryada yol getdikcə uca Allaha bağlı olduğu, ya da şeytani qaynaqlı müxtəlif əlamətlər, fərddən-fərdə dəyişən bəzi mənəvi cilvələr, inkibas (qorxu və bənzəri duyğularla mənəvi daralma), inbisat (ümidlə mənəvi fərəhlənmə) və sairə kimi adlandırılan bir sıra hallar özünü göstərməyə başlayır. Bunların təsbit olması və tədbir alınması üçün güclü və kamil bir mürşidin rəhbərliyinə ehtiyac var.

Hər mömin bu istiqamətə yönəlmək istədikdə özü üçün bir nəzarət ölçüsü müəyyən etməlidir. Ümmətə ən böyük nümunə şəxsiyyət olan Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- qəlbi həyatını da diqqətlə və gücü çatdığı ölçüdə öz həyatında tətbiq etməyə çalışmalıdır. Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- Haqqa təslimiyyətini, bəla və sıxıntılar qarşısında səbir və şükür halını, nemətlər dərya kimi önünə axarkən göstərdiyi gözü toxluq və təvazökarlığını imkan ölçüsündə həyata keçirməlidir. Buna görə də qəlbin inkişafı yolunda olan çətinlikləri aradan qaldırmaq üçün Peyğəmbərin varisi olan alimlərin, ariflərin və kamil mürşidlərin rəhbərliyinə təvazökarlıq və ədəblə müraciət edib, onların tövsiyələrini ürəkdən həyata keçirməyə çalışmaq zəruridir. Haqq dostlarının yanında olmağı və onların tərbiyəsi altında inkişaf etməyi nemət bilməlidir. Çünki nurunu günəşdən alan ay günəşin varlığına bir dəlil olduğu kimi, nuri-Məhəmmədi ilə nurlanmış vəlilər də həzrət Peyğəmbərin bir şahidi və varisidirlər.

Təsəvvüf, insanda fitri baxımdan az və ya çox var olan mənəvi istedadı inkişaf etdirməkdir. Hər könül, əgər belə demək mümkündürsə, altında neft olan ərazi kimidir. Ancaq yoxlama aparılmadığı üçün o neft özbaşına heç bir zaman çıxarılmaq imkanı tapa bilməz. Məhz, o yerin altında olan neft uca Allahın insana verdiyi mənəvi bir istedaddır. Bu da eynilə ağıl kimi hər insanda müxtəlif səviyyədədir.

Bu istedadın inkişafı üçün mənəvi yoxlama tətbiq edərək o cövhəri açığa çıxaracaq şəxs kamil mürşiddir. Ancaq bu neftin çıxarılması üçün mədənin olduğu yerə qədər o boruların çatması zəruridir. Bu yoxlama alətinin bir qayaya çırpılıb parçalanmaması üçün də onun sağlam olması lazımdır. Bu o deməkdir ki, mənəvi rəhbərliyinə təslim olunacaq mürşidin müqtədir və bacarıqlı olması da son dərəcə önəmlidir. Bunun da bəlli olan bir sıra əlamət və ölçüləri var. Yeri gəlmişkən, bu önəmli məsələyə də bir az toxunmaq istəyirik.

Həqiqi bir kamil mürşidi onun sahib olduğu bu üç xüsusiyyətlə tanımaq olar:



Birinci xüsusiyyət:

Kitab və sünnəyə tam bağlıdır. Kamil bir mürşidin həyatı və əməlləri Qurani-Kərim və sünnə əxlaqının yaşanmasından ibarətdir. Kamil mürşidin kitab və sünnəyə bağlılığı çox yüksək səviyyədədir. Qarlı ərazidə olan bir şəxsin addımlarını ondan öndə gedən rəhbərin ayaq izlərinə tam bir həssaslıqla qoyaraq yeriməsi kimidir. Buna görə də, kamil mürşidə Peyğəmbər varisi deyilir. Təbii ki, belə bir bağlılıq olan yerdə nəfsani bir həyat yaşanmaz.

İkinci xüsusiyyət:

Söz və halları ilə Allahı xatırlatmasıdır. Allahın vəli qulları ilahi adların təcəllalarına kamil ölçüdə açıq olub, cəmali sifətləri əxlaqa çevirdiklərindən onlar ətrafındakılara hər zaman Allahı xatırladırlar. Belə ki, əshabi-kiram həzrət Məhəmməddən -səllallahu əleyhi və səlləm- belə soruşdu:

- Allahın vəli qulları kimlərdir?

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə cavab verdi:

«(Allahın vəli bəndələri) onların üzlərinə baxanda uca Allahı xatırladan kimsələrdir.» (Heysəmi, «Məcmauz-Zəvaid», X, 78; İbn Macə, «Zöhd», 4)

Allah dostu olan bir kamil mürşidin simasının da onun üz tutduğu şəxsin könlünə rahatlıq verməsi, onu mənəvi bir aləmə aparması, Allahı və axirəti xatırlatması zəruridir. Çünki onlar Allah və Rəsulunun əxlaqı ilə tərbiyə olunmuşlar.

Uca Allahın ən geniş məşhur adlarından ikisi *«Rəhman»* və *«Rəhim»*dir. Allahın vəli qulları da çox mərhəmətlidirlər. Uca Allah "Səttarul-uyub"dur (eyibləri örtən). Bir vəli də eyib araşdırmaz, əksinə, onu örtər. Uca Allah Kərimdir, Allahın dostları da səxavətlidir və əliaçıq olmaqdan həzz alar. Uca Allah çox bağışlayandır, yəni Qafurdur. Vəlilər də xəta və qüsurları bağışlayarlar. Uca Allah Həlimdir, Allah dostları da mülayimdirlər.



Kamil mürşidlər Allahın dostlarıdır. Buna görə də onlar başqa insanlardan bir çox yönləri ilə fərqlidirlər. Onların qəlbləri Allaha yaxındır. İbadətlərində ciddilik və mütilik var. Davranışlarına çox diqqət yetirirlər. Rəsulullahın -səllallahu əleyhi və səlləm- yolu ilə getdiklərindən onların duaları başqa insanların dualarından daha məqbuldur. Onların bütün vücudu zikr etdiyindən qəlbləri də paklaşır və beləliklə də getdikləri hər yerə fərəh verirlər.

Səmimi bir mömin bir fasiqlə söhbət edən zaman onun söhbətindən təsirlənir, narahat olur. Halbuki, saleh bir möminlə birgə olarkən onun ruhuna rahatlıq bəxş edir. Ancaq bir mömin üçün Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ilə birgə olmaq xəyalların belə qovuşa bilmədiyi bir gözəllikdir. O peyğəmbərlər sultanının mənəvi heybətinə müxatəb olmağın şərəfi qarşısında bir möminin alacağı mənəvi həzzi dil ilə ifadə etmək mümkün deyil. Kamil mürşidlər də Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- yolu ilə getdikləri üçün Onun sünnəsinə kamil bir biçimdə tabe ourlar. Onlar Peyğəmbər əxlaqına çox yaxınlaşa bildikləri üçün qaynağı Allah Rəsulundan -səllallahu əleyhi və səlləm- gələn mənəvi bir heybət və feyz daşıyırlar. Necə ki, elektrikə əl vuran bir insan sarsılır, həqiqi bir mürşidin də insanın ruhunu öncə bir az sarsıtması, sonra da onu ehya edib mənəvi üfüqlərə aparması lazımdır.

Üçüncü xüsusiyyət:

Mənəvi təyindir. Bir şəxsi mürşid təyin etmək üçün bir zümrənin toplanması yetərli deyil. Bu vəzifə həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- qədər gedib çıxan sağlam bir silsilədən izacəsi olan bir kamil mürşidin müəyyən etməsi və təyini ilə olur. Belə bir təyinat olmadığı zaman silsilə orada kəsilir. Buna görə də, bəzi kamil mürşidlər səlahiyyətli bir şəxsi tapa bilmədikləri zaman özlərinə xələf olaraq, onların yollarını davam etdirəcək bir şəxs müəyən etmirlər. Bəzən bir nəfər, bəzən də həzrət Xalid Bağdadi kimi bir əlamət ilə çox sayda mürşid təyin edirlər. Bunun hikməti uca Allaha aid olan bir keyfiyyətdir.

Xülasə, qəlbin kamilləşməsi və mənəvi həqiqətləri qəbul edəcək bir hala gəlməsi bir sıra qaydalarla (tapşırıqlarla) mümkündür. Bunun üçün mənəvi kamilliyin yollarını bilmək və tətbiq etmək zəruridir. Bu yollardakı çətinlikləri təhlükəsiz bir biçimdə aradan qaldırmaq üçün də Haqq dostlarının rəhbərliyinə ehtiyac var. Hər salik mənəvi inkişaf üçün ona rəhbər olacaq bir mürşid axtarmalıdır. Ancaq o, tərbiyəsini qəbul edəcəyi mürşiddə də bəzi xüsusiyyətlərin olub-olmadığına diqqət yetirməlidir.

Bir neçə mühüm xəbərdarlıq:

Buraya qədər anlatdığımız xüsusiyyətləri ilə kamil mürşidlər müstəsna bir Haqq dostu və seçilmiş bəndələr olaraq ortaya çıxdıqlarından, əlbəttə, onlara qarşı ədəb və hörmətlə yanaşmaq, onlardan mənəvi baxımdan istifadə etmək zəruridir. Ancaq bu ədəb hörmət və istifadəni zəruri ölçüləri pozaraq ifrat və ölçüsüzlük içərisində boğulmamaq da şərtdir. Çünki bütün peyğəmbərlər də, saleh şəxslər də hər şeydən öncə bir bəndədir. Uca Allah onlara elm, hikmət, mərifət dəryalarından nələri nəsib etmişsə, ancaq onlara nail olmuşlar. Zaman gələr, gözlərinə və könüllərinə iki cahanın sirləri açılar, ancaq elə zaman da gələr ki, bir addım uzağı görə bilməzlər.

Şeyx Sədi «Gülüstan» əsərində belə rəvayət edir:

«Bir şəxs həzrət Yaqubun yanına gəlib ona deyir:

- Ey qəlbi nurlu, ağıllı Peyğəmbər! Yusifin köynəyinin ətrini bu köynək Misirdən gələrkən duydun. Bəs niyə Yusif səndən bir az aralıda olan quyuya atılarkən onu görmədin?

Yaqub -əleyhissalam- da bu cavabı verdi:

- Bizim bu məsələdə nail olduğumz ilahi qismət çaxan şimşəklər kimidir. Buna görə də, həqiqətlər bəzən bizə ayan olur, bəzən də görünmür!»

Həzrət Peyğəmbər də -səllallahu əleyhi və səlləm- bir gün ondan o anda cavabını bilmədiyi bir sıra suallar soruşan bir şəxsə

vəhyin qəti olaraq gələcəyini nəzərdə tutaraq «İnşaallah» kəlməsini söyləmədən:

«Sabah gəl, cavabını verim!», buyurmuşdu.

Ancaq ertəsi gün ilahi vəhy gəlmədi və bu vəziyyət on beş gün davam etdi. Beləliklə, aləmlərin onun hörmətinə yaradıldığı O Varlıq Nuru belə, aciz qaldı. Nəhayət, ilahi vəhy aşağıdakı xəbərdarlıqla birgə gəlməyə başladı:

«Və heç bir şey barəsində: «Mən onu sabah edəcəyəm!»-demə! Ancaq: «İnşaallah (əgər Allah istəsə, Allah qoysa) **deyəcəyəm!»,-de…»** (əl-Kəhf, 18/23-24)

Bu ölçü həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- haqqında belə, müəyyən edildikdən sonra onun məzmununun bütün bəndələrə nə dərəcədə şamil olduğunu yaxşı anlamaq lazımdır. Bu baxımdan, məsələn, Allahın sevdiyi bir bəndə dua edəndə onun duası mütləq qəbul olacaq, ya da bir xəstəyə dua oxuyanda mütləq o şəfa tapacaq deyilməz. Çünki bu məsələlər hər iki tərəfin səmimiyyəti ilə birgə bir də uca Allahın istəyinə uyğun olmalıdır ki, məqsəd əldə edilmiş olsun. Bundan başqa edilən dua və yalvarışların hamısının qəbul edilməsinin yalnız bu dünyada deyil, daha sonra, yəni axirətdə də təcəlla edə biləcəyini və bunların da Haqqın iradəsinə bağlı keyfiyyətlər olduğunu yaddan çıxarmaq olmaz.

Başqa bir önəmli məsələ də həm peyğəmbərlərin, həm də Allah dostlarının fərqli-fərqli imkanlara, xarakterlərə sahib olmasıdır. Onların birində özünü daha açıq şəkildə göstərən bir xüsusiyyət, başqasında eyni səviyyədə olmaya bilər. Onun üçün onların hamısından eyni xarakteri və imkanı gözləmək doğru deyil. Qurani-Kərimdə də bildirildiyi kimi, Musaya -əleyhissalam- bir elm verilmişdir, bu elm həzrət Xızırda yoxdur, Xızıra -əleyhissalam- bir elm verilmişdir, o da həzrət Musada yoxdur. Eyni şəkildə, həzrət Geylani bir həzrət Mövlana deyil, həzrət Mövlana da bir həzrət Geylani ola bilməz. Çünki hər iki tərəfə verilənlər və onlardan istənilən xidmətlər ayrı-ayrıdır. Ancaq, əlbəttə, hamısında əsl qayə qulluq və mərifətdir. Çünki Rəbbə gedən yollar yaradılmışların nəfəslərinin sayı qədər çoxdur.



Başqa bir önəmli məsələ də peyğəmbərlərdən başqa heç bir qulun İlahi təminat altında olmadığı həqiqətidir. Yəni bir bəndə zirvələrin zirvəsinə çıxsa da, hər an ayağı büdrəyə bilər. Belə ki, bir zamanlar saleh bir kimsə olan Bəlam bin Baura daha sonra nəfsinə təslim olaraq əbədi ziyana uğramışdır. Bu hadisə Qurani-Kərimdə belə bildirilir:

«(Ey Rəsulum!) **Onlara** (yəhudilərə) **ayələrimizi verdiyimiz kimsənin xəbərini də söylə** (oxu)**. O,** (ayələrimizi inkar edib) **imandan döndü. Şeytan onu özünə tabe etdi və o** (haqq yolundan) **azanlardan oldu. Əgər Biz istəsəydik, onu** (həmin ayələrlə) **ucaldardıq. Ancaq o, yerə** (dünyaya) **meyil edib nəfsinin istəklərinə uydu. O elə bir köpəyə bənzəyir ki, üstünə cumsan da dilini çıxardıb ləhləyər, cummasan da…»** (əl-Əraf, 7/175-176)

«Qəsəs» surəsində bildirilən Karunun misalı da belədir. O da çox müstəsna saleh bir bəndə idi. Ancaq sonra səfil bir qafil və rəzil bir düşmən olaraq əbədi səadətini pərişan etmişdir. Uca Allah onu arxalandığı, qürrələndiyi sərvəti ilə birgə yerin dibinə soxmuşdur. Başqa sözlə, hansı mənəvi məqam, mərtəbə və üstünlük olursa-olsun, istənilən halda bəndələrinin içindəki nəfslər hər zaman pusquda gözləyir və fürsət tapan kimi könüllərə ziyan vurur. Bu baxımdan həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə, aşağıdakı şəkildə Haqqa yalvarmışdır:

«Allahım! Rəhmətini umuram. Gözümü açıb qapayanadək belə, məni nəfsimin istəyi ilə baş-başa buraxma! Hər halımı islah elə! Şübhəsiz, Səndən başqa ilah yoxdur.» (Əbu Davud, «Ədəb», 100-101)

Haqq dostları da daima bu hədisi-şərifin içində yaşayar və heç bir zaman «Bizim işimiz sona yetdi» şəklində bir düşüncəyə qapılmazlar. Çünki seyr və süluklarını bitirsələr də, bu düşüncəyə qapılanlar hər zaman yarı yolda qalmışlar. Ancaq «Hələ tam əldə edə bilmədim» deyərək öz nöqsanlarını görənlər acizlik içində və yalvarış halında fasiləsiz olaraq məsafə qət etmişlər. Belə ki, peyğəmbərlərin baş tacı olan həzrət Məhəmməd Mustafa -səllallahu əleyhi və səlləm- belə, o misilsiz qulluq təzahürlərinə baxmayaraq, gecələr ayaqları şişənə qədər namaz qılmağı heç bir zaman tərk



etməmiş və Onun belə etməsinin səbəbini soruşan həzrət Aişəyə belə demişdir:

«Ey Aişə, şükür edən bir qul olmayımmı?» (Müslim, «Münafiqun», 79)

O Kainatın Fəxrinin pak xanımlarının dediklərinə görə:

«Rəbbini həmd-səna ilə təqdis et *(Onu bütün naqis sifətlərdən uzaq tutaraq pak bil, «Sübhanəkə Allahümmə və Bihəmdik» kəlməsini de)* **və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri** *(çox qəbul edəndir)***!»** (ən-Nəsr, 110/3) ayəsindən sonra hər an bir öncəki andan daha çox həmd və səna ilə məşğul olmuşdur.

O halda, Haqq yolunda kim hansı dərəcəyə yüksəlirsə yüksəlsin, heç bir zaman qulluq məsuliyyətindən qurtara bilməz və əməllərində heç bir şəkildə azalma və biganəlik olmamalıdır. Yəni fərzlər, vaciblər, sünnələr, haramlar, halallar, mübah olanlar, müstəhəblər və başqa bütün ilahi ölçü və borclar qulluq yolunda olan hər kəsin çiyinlərinə qoyulub, ölüm vaxtınadək də bu yük götürülməyəcək. Ona görə də həqiqi kamil mürşidlər bütün ömrünü aşağıdakı ayənin əmrinə tabe olaraq yaşamaq üçün mübarizə edirlər:

«Sən isə Rəbbini tərifləyib şükür et (sübhanallah və bihəmdih de)**, səcdə edənlərlə** (namaz qılanlarla) **birlikdə ol! Və sənə yəqin** (ölüm) **gələnədək Rəbbinə ibadət et!»** (ər-Hicr, 15/98-99)

Belə mənəvi rəhbərlər xalqa qarşı etdikləri xidmətə görə ən kiçik bir şey belə istəməzlər. Hətta, Rəbblərinə qulluq etdikləri üçün belə bir əvəz gözləməzlər. Çünki bilirlər ki, qarşılıq gözləyərək saleh əməl edənlər etdiklərinin dəyər və dərəcələrini aşağı salırlar. Bu baxımdan həzrət Əli ilə həzrət Fatimə özləri oruclu olduqları halda, iftar üçün saxladıqları yeməyi bir axşam onların qapısına gələn bir miskinə, başqa bir axşam bir yetimə, üçüncü axşam da bir əsirə verərək üç gün su ilə iftar etmişlər. Onlar təşəkkür etmək istəyənlərə isə belə cavab vermişlər:

«Biz sizdən təşəkkür gözləmək üçün belə etmədik. Yeganə məqsəd və niyətimiz Allahın rizasıdır…»



Bir sözlə, həqiqi kamil mürşidlər örnək bir şəxsiyyət olmaqla peyğəmbərlərin tərbiyə və təmizləmə xüsusiyyətlərini davam etdirən ruh dünyasının zirvələridir. Eyni zamanda bu Haqq dostları Allaha və onun ülvi sifətlərinə arif olaraq imanlarında ehsan dərəcəsinə yüksəlmiş kimsələrdir. Bu yolla özlərinə Allah yanında *«elmi-lədün»*, yəni Allaha bağlı olan elm, hikmət, mərifət və başqa nemətlər bəxş edilmişdir. Ancaq heç biri bir səhabə dərəcəsində deyil. Əlbəttə, səhabə də peyğəmbərlərin mərtəbəsində, peyğəmbərlər də həzrət Peyğəmbərin məqamında deyil. Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- gəlincə, o da uca Allahın sadəcə bəndəsi və rəsuludur. Bu həqiqətə uyğun olaraq insanlara həddindən artıq dəyər verməkdən çəkinməli və hamısına ancaq halına görə münasibət göstərilməlidir. Yəni Veysəl Qərani, hətta, İslam hüququnu sistemə salan İmam Əzəm belə heç bir zaman bir səhabə dərəcəsində ola bilməz. Vaxtaşırı bəzi qafillərin ustad hesab etdikləri şəxsləri səhabədən, hətta, Rəsulullahdan -səllallahu əleyhi və səlləm- üstün tutaraq ona bir hörmət, ehtiram göstərməyə çalışırlar. Bu xətadan daha dəhşətli bir zəlalətdir. Bu zəlalət uca Allahın bölgüsünün tərsinə olaraq bir mübaliğə içində insanı həqiqətdən uzaqlaşdıran bir ifratdır. Buna görə də, Rəsulullah -səllallahu əleyhi və səlləm- belə halların ortaya çıxa biləcəyindən narahat olaraq qafil tərif və öygüləri qadağan etmişdir. Əgər bir şəxs öz nəfsinin istəyinə uyğun olaraq başqasını tərifləyərsə və bu tərif onun nəfsini gücləndirərsə, İslam Peyğəmbəri o tərifləyən şəxsi nəzərdə tutaraq belə buyurmuşdur:

«Onun üzünə torpaq atın!» (Əhməd b. Hənbəl, «Müsnəd», VI, 5)

Çünki nəfsi təhrik edən tərif qəlbin fəlakətinə yol açan imzalardır.

Varlıqlar aləmi məhəbbət və rabitə ilə davam edir. Çünki rabitə varlığın mahiyyətini təşkil edən məhəbbətin bir təzahürüdür. Məhəbbətin təzəlik və canlılığının davam etdirilməsidir.

2. İRŞAD METODLARI

a. **Məhəbbət-Rabitə**

Təsəvvüfün mahiyyətinə və qayəsinə baxdığımız zaman onun seyr və sülukda təməl şərtinin *«məhəbbət»*, son məqsədinin də *«ədəb»* olduğunu görürük. Bunlardan *«məhəbbət»* vasitə, *«ədəb»* isə nəticədir. Bu iki anlayışın önəmi üzərində nə qədər çox danışılsa, yenə də azdır. Bir varlığa duyulan məhəbbət artdıqca, bu məhəbbətdən o varlığa hər hansı bir *«nisbəti»*, yəni yaxınlığı, bənzərliyi, ya da əlaqəsi olan hər şeyə o yaxınlığın gücü dərəcəsində bir pay düşür.

Məsələn, mürşidini həddən çox sevən bir mürid ona aid davranışlardan, naqis olsa da, oxşar davranışlara sahib olanlara belə, o davranışlar mürşidini xatırlatdığı üçün bir məhəbbət duyar. Mürşidinin bir yaxını ilə qarşılaşsa, Kəbədən indi dönmüş bir hacıya göstərdiyi hörmət kimi onu da rəğbətlə qarşılayar, ona iltifat göstərər.

Mürşidinin istifadə etdiyi hər hansı bir əşyaya sahib olmaq onun ruhunda ölçüsüz bir sevinc meydana gətirər. Bu keyfiyyət həzrət Veysəl Qəraninin həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- tərəfindən ona göndərilən Xirqeyi-Səadət qarşısında duyduğu sevincinin bir oxşarıdır.

Məhəbbətin çoxalmasına paralel olaraq sevilən varlığa yaxınlıq keyfiyyəti getdikcə ən güclü nisbətdən ən zəifinə doğru bir istiqamət alır. Burada onu da ifadə edək ki, məhəbbətin əhatə etməsini, mərkəzində sevilən varlıq olmaqla yaxın və uzaq bütün nöqtələri əhatə edəcək şəkildə bir dairə kimi sonsuzadək genişlənməyin təsəvvüfdəki adı *«mütləq eşq»*dir.[26] Bu keyfiyyət Yunus Əmrənin:

«Yaradılanı xoş gör,
Yaradandan ötrü»

misralarında ifadə etdiyi kimi sifət, mahiyyət və əməlləri nə olursa-olsun, Yaradanı onun hörmətinə bütün məxluqatı məhəbbət və mərhəmətlə qucaqlaya bilmək halıdır. Bu, aşiqin çata biləcəyi ən son mərhələdir. Bu mərhələyə qədər olduğu, demək olar ki, hər nöqtədəki halının ifadəsi isə «məcazi eşq»dir.

Salik mürşidinə sevgi və məhəbbətlə bağlandığı anda bu məcazi eşq başlayır. Bu eşq də «məcazi»dir. Çünki qəlb Allaha məxsus olduğundan həqiqi məşuq Allahdan başqası ola bilməz. Başqa sevilənlər və onlarla yaşanılan hallar bir saraya çıxmaq üçün nəridivanın pillələri kimidir. Bunlar qəlbin Allah sevgisinə hazırlanması yönündəki vərdişlərə bənzəyir. Əgər belə demək mümkündürsə, «Leyla»dan «Mövla»ya çatmaq cəhdidir. Bu mübarizədə ən bərəkətli mərhələ gerçək bir kamil mürşidə bağlanmaq, onunla ünsiyyət və məhəbbətin mənəvi həyəcanını yaşamaqdır. Bunun ən səmərəli təzahürü isə rabitədir. Məhəbbətin belə adi və bəsit əlaqələrlə müqayisə edilməyəcək dərəcədə bir yüksək səviyyəyə çatması «rabitə»nin elə özüdür.

---

26. Qurani-Kərim möminləri Allaha olan sevgisinin zəruriliyini bu mübarək ayə ilə bəyan edir:

«…Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir…» (əl-Bəqərə, 2/165) Bu sevgi dilimizdə «ilahi eşq» kimi ifadə edilir.

Rabitənin lüğətdəki mənası bağ və əlaqədir. Bu baxımdan kainatda rabitəsiz heç bir canlı yoxdur. Hər şey bir-biri ilə əlaqədədir.

Başqa bir ifadə ilə rabitə varlığın mahiyyətini təşkil edən məhəbbətin bir təzahürüdür. Məhəbbətin təzəlik və canlılığının davam etdirilməsidir.

Üç növ rabitə var:

1. Təbii rabitə:

İnsanın öz yaxınlarına olan sevgisidir. Bu fitri şərtlərin təsiri ilə olur. Bir ananın öz övladına olan məhəbbəti kimi.

2. Bayağı (çirkin) rabitə:

Qadağan edilmiş olan şeytani təmayüllərə bağlanmaqdır. Bir qumarbazın qəlbinin hər zaman qumarla məşğul olub, ailəsini belə unutması kimi.

3. Ülvi rabitə:

Müqəddəs anlayışlara və ülvi duyğularla insanı Allaha yönəldən vasitələrə rabitədir. Qəlbən cilalanma və müşahidə məqamına qovuşmuş şəxslərin ruhaniyyətindən istifadə etmək üçün əməli baxımdan və ya mənəvi baxımdan daimi bir surətdə onlarla birlikdə olmaqdır.

Biz burada rabitənin yuxarıda saydığımız bu üç növündən sonuncusunu şərh edəcəyik. Bu təriqət yolçusunun mürşidindən layiqincə istifadə edə bilməsi, onun məhəbbətini könlündə daimi bir surətdə təzə saxlaması üçün gerçəkləşdirəcəyi bir təlimi ifadə edir.

Təsəvvüfi tərbiyə metodlarından biri olan rabitə hər təriqətdə adı və tətbiq şəkli az-çox fərqli olmaqla birgə, ümumiyyətlə, müridin mürşidini gözünün qarşısında canlandırması və onun hal və davranışlarını xatırlayaraq ülvi duyğularla həmhal olması deməkdir.

Mürşidə olan hörmət və məhəbbətin bu yolla hər zaman təzə saxlanılması müridə mənəvi bir canlılıq qazandırır.

İnsan təsirə açıq olan bir varlıqdır. Bəzi xəstəliklərdə olduğu kimi, insan oğlunun hallarında da sirayət etmək xüsusiyyəti var. Ruhlar arasındakı mənəvi alış-veriş həyatın inkar edilməyəcək gerçəklərindən biridir. Xüsusilə, fəal və təsir gücü çox olan şəxsiyyətlərdəki güclü mənəvi təmayüllər onların yaxınında olanlara istedadları ölçüsündə az, ya da çox təsir edir. Bu təsir, sirayət edən halın müsbət, ya da mənfi olmasına da bağlı deyil. İstənilən halda təsir baş verir. Yeganə şərt budur ki, arada sevgi və ünsiyyət bağları olsun.

Məsələn, ölçüsüz dərəcədə mərhəmətli, mülayim və fədakar insanların halları onların içində yaşadıqları camaata təsir edir. Məhəbbətin bir təzahürü olan rabitə belə əxlaqi məziyyətlərə dair mənəvi alış-verişi çoxaltmaq, sürətləndirmək və bunları daha çox əxlaqa çevirmək üçündür. Buna görə də, sağlam ağıl sahibi olan hər bir mömin təqva sahibi olan saleh şəxslərə sevgi duyaraq, onlarla ünsiyyət quraraq bu gözəl halın təsirini çoxaltmağa çalışmalıdır.

Bu necə hikmətdir ki, təmiz və gözəl bir paltara palçıq bulaşmasından narahat olan ağıl, əgər vəhyin nuru ilə aydınlanmamışsa, günahlarla qaralmış qəlblərdəki çirkin xasiyyətlərin ruhu istilasından çox zaman kiçik bir narahatlıq belə duymaz. Çünki nəfsani və şeytani təlqinlərin bir növ mənəvi narkozuna məruz qaldığından bu mənəvi sıxıntını duymaz. Buna görə də, könül gözünü açmaq və əbədi fayda ilə ziyanı dəqiq hesablamaq zəruridir. Çünki müsbət təsirlərlərlə birgə, mənfi şəkildə də gerçəkləşə bilən və bir növ «şəxsiyyət mübadiləsi» demək olan bu sirayətlər qarşısında insan seçimində azaddır. Ancaq uca Allah bu seçimin doğru olanını da Qurani-Kərimdə belə xəbər vermişdir:

«Ey iman edənlər! Allahdan qorxun və sadiqlərlə bərabər olun!..» (ət-Tövbə, 9/119)

Diqqət etsək, görərik ki, uca Allah bu ayeyi-kərimədə bəndələrinə *«Sadiq olun!»* buyurmamış, təqvanın qorunması üçün *«sadiqlərlə bərabər olmağı»* əmr etmişdir. Çünki sadiq olmaq yolunda atılacaq ilk addım sadiqlərlə birgə olmaq, yəni onlarla

məhəbbətli bir ünsiyyət qurmaqdır. Sadiq olmaq bu vəziyyətin təbii bir nəticəsidir. Belə ki, *«Üzüm üzümə baxa-baxa qaralar»*, sözü də bu həqiqətin bir ifadəsidir.

Saleh və sadiqlərlə bərabər olmaq nəfsi cilovlamaqda radiasiya kimi, müşahidəsi mümkün olmayan, ancaq nəticəsi mütləq olan bir təsirdir. Saleh insanların mühitində olmaq, onların hal və davranışlarını müşahidə etmək, hətta, onların nurani çöhrələrinə baxmaq belə bu qəbildəndir. Buna görə də, mənəviyyat böyüklərinin hüzurunda ola bilmək böyük bir nemətdir. Çünki hallar sirayət edir. Gül bağçasında əylənən insanın paltarına gül qoxuları hopduğu kimi, salehlər məclisi də ruhlardakı mənəvi alış-verişin bazarı kimidir.

Həzrət Xacə Ubeydullah Əhrar belə buyurmuşdur:

«Qurani-Kərimin: **«Ey iman edənlər! Allahdan qorxun və sadiqlərlə bərabər olun!»** ayəsindəki *«bərabər olun!»* əmri daimi bir surətdə birgə olmağı ifadə edir. Yəni bərabər olmaq mütləq bir surətdə deyildiyindən həm əməli, həm də hökmü olaraq iki yönlüdür. Əməli bərabərlik sadiqlərin məclisində qəlb rahatlığı ilə faktik olaraq iştirak etməkdən ibarət olduğu kimi, hökmü bərabərlik də onların hüzurunda olmadıqları zaman sadiq insanların hallarını xəyal etməkdən ibarətdir.»

Bu baxımdan Haqq dostları ilə zahiri bərabərlikdə ədəb ölçülərinə uyğun olaraq ülvi duyğularla iştirak etmək zəruri olduğu kimi, o halı Haqq dostlarının olmadığı bir şəraitdə də onlarla qəlbi bir birgəlik şəklində davam etdirməlidir. Çünki haqq dostları ilə əməli bərabərlik hər zaman mümkün olmaya bilər. Bu təqdirdə mənəvi bərabərliyi davam etdirmək üçün **rabitə**yə ehtiyac var.

Ancaq öncədən ifadə etdiyimiz kimi, təsəvvüfi tərbiyədə boş bir əməli bərabərlik məqbul deyil. Çünki bəziləri bir kamil mürşidin dizinin dibində otururlar, ancaq qafil olduqlarına görə ondan bir fayda götürə bilmirlər. Başqa yöndən uzaq diyarlardakı bir çox müridlər mürşidlərinə olan dərin hörmət, həsrət, eşq və bağlılıqları vasitəsi ilə inanılmaz fayda əldə edirlər, gözəl hallara, ilhamlara və mənəvi duyğulara nail ola bilirlər. Böyüklərin buyurduğu: *«Yəməndəki*

yanımda, yanımdakı Yəməndə», sözü də əsasən bunu ifadə edir. Buna görə də mühüm olan harada olursa-olsun, mənəvi bərabərlik duyğusunu itirməməkdir.

Bundan başqa, mənəvi gücü çox olan insanların ətrafındakıları öz halı ilə boyamaq istedadı nə qədər çox olsa da, bu təkbaşına yetərli deyil. Çünki təsəvvüfdəki hal təsiri elə bir mənəvi cərəyandır ki, o cərəyanın sürət və təsirindən mükəmməl istifadənin əldə edilməsi kamil mürşidin gücü qədər müridin istedadına və məhəbbətinin səviyyəsinə də bağlıdır. Ona görə də hər mürid, ancaq mürid olduğuna görə, eyni mərhələyə çata bilməz. Fərq müriddən müridə dəyişən istedad və mənəvi məhəbbətdəki səviyyədən doğulur. Bir misal ilə söyləmək lazımdırsa, onu belə ifadə edə bilərik. Bir şəxsin su almaq məqsədilə qabını kiçik bir gölə, ya da ucsuz-bucaqsız bir okeana salması arasında fərq yoxdur. Hər iki halda o ancaq qabının ölçüsü qədər su götürə bilər. Buna görə də müridin də istedadlı və istedadından istifadə etmək bacarığı olmalıdır. Həzrət Yunus Əmrə gözəl deyir:

Çeşmelerden bardağın,
Doldurmadan kor isen,
Bin yıl anda dururşa,
Kendi dolası degil.

❁

Rabitə və ünsiyyətdə istifadə olunan başqa bir üsul da silsileyi-şərifə[27] oxunmasıdır. Bu, salehlərin yad edilməsi ilə qəlblərə enməsi arzu edilən rəhmətdən və yad edilən o mübarək insanların gözəl hallarının təsirindən bir pay ala bilmək üçündür. Belə ki, böyük alimlərdən Süfyan Uyeynə belə buyurmuşdur:

«Salehlərin adının çəkildiyi məclislərə rəhmət enər.» (Acluni, «Kəşfül-Hafa», II, 70)

Əsasən, Allah dostlarının mənqibələrini ehtiva edən çeşidli

27. **Silsileyi-şərifə:** həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- qədər uzanan mürşidlər zəncirinə verilən addır.

kitabların yazılması da onlara məhəbbət bəsləyən kimsələrdə həmişə bir ilham gərçəkləşdirmək üçündür.

Məhz rabitənin qayəsi də həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- qədər gedib çatan Allah dostları silsiləsi ilə könüllərin feyziyab olmasıdır. Bir-birinə bağlı olan və elektrik naqilinə toxunaraq titrəyən insanlar kimi, ən sondakı da eyni cərəyandan öz istedadına görə bir nəsib alır. Mürşidə onun hüzurunda olarkən göstərilən ədəb və məhəbbət, o olmayanda da göstərilməlidir. Bu onun əxlaqı ilə tərbiyə olunmaq deməkdir və belə bir rabitə **«fəna fiş-şeyx»** adlandırılmışdır.

«Fəna fiş-şeyx» məqamından sonra isə **«fəna fir-rəsul»** məqamı var. Belə ki, İslam səmasının ulduzları olan əshabi-kiramın bəziləri İslamla şərəflənməmişdən öncə insan fitrətinə uyğun olmayan bir həyat yaşayırdı. Ancaq doğru yolu tapdıqdan sonra Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- duyğularının onlara təsir etməsi ilə dünyanın ən fəzilətli insanlarına çevrildilər. Rəsulullahdan -səllallahu əleyhi və səlləm- silsilə halında kamil mürşidin könlünə axan feyz də saliklərə rabitə və söhbətlə ötürülür. Bunun hesabına Rəsulullahın -səllallahu əleyhi və səlləm- örnək şəxsiyyəti müridə istedadı ölçüsündə təsir edir.

Bu mərtəbədə həyatın hər anında Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- hüzurundaymış kimi hərəkət edərək Onun əxlaqı ilə bütünləşməkdir. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ilə olan rabitəni, yəni bağlılığı gücləndirmək üçün də salət və salamlarla, onun mübarək sünnəsinə itaət ilə könüldə sağlam bir sevgi və birgəlik xətti çəkmək zəruridir.

Məlum olduğu kimi, *«fəna fir-rəsul»* halı ən gözəl bir şəkildə Əbu Bəkr Siddiqdə (r.a) gerçəkləşmişdir. Ondakı bu hal qarşısında həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Əbu Bəkr məndən, mən də Əbu Bəkrdənəm. Əbu Bəkr dünya və axirət qardaşımdır.» (Deyləmi, «Müsnəd», I, 437)

Bu hədisi-şərif qarşılıqlı mənəvi yaxınlığı çox gözəl ifadə edir.



Bu mənəvi bərabərliyin üst mərhələsi də **«fəna fillah»** məqamıdır.

Qurani-Kərimdə belə buyurulur:

«… Siz harada olsanız, O, sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir!» (əl-Hədid, 57/4)

«Biz insana şah damarından daha yaxınıq.» (Qaf, 50/16) ayələrinin sirrinə layiqincə nail olmaq da *«fəna-fillah»* məqamına qovuşmaqla mümkündür.

Uca Allahda fani olmuş bir kamil mürşidin qəlbi ilahi adların təcəllaları ilə feyzlənmişdir. Bu baxımdan mürşidin qəlbi, sanki işıq şüalarını bir nöqtəyə toplamış bir alət kimidir. Bu təcəllaların bərəkəti ilə bütün mənfilikləri yandırıb kül edər. Mürid rabitə ilə bu bərəkətdən istifadə etməyə çalışır. Qəlbdən nəfsani pis duyğular yox olur, onun yerini örnək şəxsin halları tutur. Qəlbi işğal edən dünyəvi hər şey qəlbdən çıxarılaraq layiq olduğu yerdə saxlanılır. Müridlə mürşid arasındakı bu hal təsiri mürid üçün eyniləşmə istiqamətində bir inkişafa yönəlir.

Hədisi-şərifdə belə buyurulur:

«İnsan sevdiyi ilə bərabərdir…» (Buxari, «Ədəb», 96)

Belə ki, bu məsələdə Qurani-Kərimdə olan Əshabi-Kəhf hekayəsi[28] çox diqqətəlayiqdir. Əshabi-Kəhfin köpəyi Kıtmır, saleh və sadiq insanlara gözətçilik etdiyi üçün onlardakı sədaqət ona da təsir etmişdir. O da sadiqlərdən olaraq cənnətə girəcək.[29]

Qitmir adlı köpək səmimi bir şəkildə sadiqlərə gözətçi olduğundan bu dərəcəyə yüksəlmişsə, həqiqi bir möminin də Allah dostlarına məhəbbətlə bağlılığı sayəsində çox böyük bir məsafə qət edəcəyi şübhəsizdir.

❁

28. «Kəhf» surəsi, 9-26-cı ayələr.

29. Məlumat üçün baxın, İ. Haqqı Bursəvi, «Ruhul-Bəyan», V, 226.

Burada təsəvvüfdə önəmli olan rabitə ilə bağlı bir başqa mövzuya da toxunmaq istəyirik.

Rabiteyi-Mövt/Təfəkkürü-Mövt (Ölümü düşünmək)

Təsəvvüfdə ölümə rabitə qurmağa *«ölümü düşünmək»* deyilir. Ölümü düşünməyin insanın hal və davranışları üzərində böyük bir təsiri var. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurur:

«Bütün zövqləri kökündən yox edən ölümü çox xatırlayın!» (Tirmizi, «Zöhd», 4)

Gerçəkdən, ölümü düşünmək insanı narahat edən nəfsani dünya sevgisini azaldır. Çünki dünyanın keçici mal, mərtəbə, mövqe və nəfsani gözəlliklərini ölçüsüz dərəcədə sevmək və onlara könül bağlamaq qəflət kimi mənəvi xəstəliklərin ən dəhşətlisidir. Qəlbimizin belə bağlılıqlardan qorunması üçün qəbri düşünmək, gələcəkdə başımıza gələcək qəbir hallarını fikirləşmək, bizi səmimi bir tövbə və ibadətlə mütiliyə sövq edərək dünyəvi ehtiraslardan, boş istək və həvəslərdən qoruyar. Davamlı olaraq dediyimiz zikr və qurduğumuz rabitə axirətin qurtuluş və səadətinə yol açar.

İslam böyükləri qafil qəlbləri oyandırmaq və ölmüş könülləri diriltmək üçün bu yöndə bir çox nəsihətlər vermiş və xalqı xəbərdar etmişlər.

Belə ki, həzrət Əli (r.a), oğlu Həsənə (r.a) vəsiyyətində belə buyurmuşdur:

«Ey oğul! Ciddi olaraq ölümü düşün və ölümü anmaqla qəlbini tərbiyə et. Sonda hər şeyin yox olacağını unutma və bu yoxluqda qərar tutacağını bil! Qəlbinə dünyanın hər zaman ola biləcək təhlükələrini tez-tez xatırlat!»

Həqiqətən, zaman düz bir xətt ilə axıb getmədiyindən yaxşı günlərlə bərabər, acı və sıxıntılı günlərin də ola biləcəyini unutmamaq lazımdır.

İmam Qəzali də (r.a) belə nəsihət edir:



«Ey oğul! İstədiyin qədər yaşa, ancaq necə olsa da, bir gün öləcəksən. İstədiyini sev, ancaq necə də olsa, bir gün ayrılacaqsan! İstədiyini et, ancaq necə olsa da, bir gün hesabını verəcəksən!..

Ey oğul! Məqsədin ruhunu kamilləşdirməyə, nəfsinə hakim olmağa, bədənini də ölümə hazırlamağa yönəlməlidir. Çünki son mənzilin qəbir olacaq. Qəbirdəkilər «nə zaman gələcəksən?»,-deyə gözləyirlər. Əsla, oraya azuqəsiz getməyi düşünmə!»

Ömər bin Əbdüləzizin son xütbəsindəki nəsihətlərdən bir qismi isə belədir:

«Ey insanlar!

Dəhşət saçan axirət yamandır. Cəlali sirrə nail olan peyğəmbərlər və bəzi mələklər belə, o cəza gününün dəhşətindən titrəyirlər. İlahi cəlalın qarşısında kimdə taqət və dözüm qalar?

Bununla bərabər, Allahın sonsuz genişlikdə olan rəhmətinə görə ümidsiz olmayın!

Dəqiq bilin ki, sabah məhşərdə xilas olmaq, bu gün Allahdan qorxan, küfr və üsyandan çəkinən, əbədi olanı fani olandan üstün tutan insan üçündür. Əks hərəkət edənlər aldanarlar, ömür sərmayəsini layiq olmayan işlərə sərf edər və sonda əliboş qalarlar.

Bu gün keçmiş insanların yerinə sizlər varsınız. Sizin yerinizə də başqaları gələcək!

Görürsünüz ki, gələnlər gedir, gedənlər qayıtmır. Bu qeyri-ixtiyari gediş, varlıqdakı bu axın uca Allaha doğrudur.

Aranızdan ayrılıb axirətə gedənləri hər gün yola salırsınız, əbədi istirahət yerlərinə aparırsınız. Bunlardan heç ibrət almırsınızmı? Onları qara torpaq altında yataqsız, yastıqsız, tək və tənha qoyub geri dönürsünüz? Ölüm acısını dadan o fanilərin halı nə qədər ibrətlidir. Onlar tanımadıqları bir aləmə getmişlər, sevdiklərindən ayrılmışlar, bu keçici həyatın qəflətindən oyanmışlar. Gerçəyi görmüşlər, ancaq iş işdən keçmiş, quş yuvadan uçmuş, pis işləri yox etmək və gələcəklə bağlı tədarük görmək imkanları əldən çıxmışdır. Əllərində xeyirli



əməllərindən başqa bir şey qalmamışdır. O cəza günündə günahları gözlərində böyümüş, üzüntü dolu halları ilə aqibətlərini gözləyirlər. Pərişan bir halda mütləq baş verəcək olan məhşərin dəhşəti ilə titrəyirlər.»

Ölüm bir başqa aləmdə oyanmaq və həqiqəti bilmək səbəbidir. Ancaq o aləmdəki oyanış bir fayda verməyəcəyindən ölməmişdən əvvəl qəflət pərdələrini yırtıb oyanmaq zəruridir.

Ölümü düşünmək müridi ehtiraslardan, dünyaya bel bağlamaqdan və hər cür nəfsani təmayüllərə meyil etməkdən qoruyan bir vasitədir. Təsəvvüfdə başlıca qayə nəfsə qalib gəlmək olduğundan ölümü düşünmək, demək olar ki, bütün təriqətlərdə bu məqsədlə istifadə olunan bir üsuldur.

❁

b. Söhbət

Söhbət və zikr məclisləri ilahi rəhmət vədincliyin fasiləsiz və bol-bol yağdığı dünyadakı cənnət bağçalarıdır.

Kamil mürşidlərin salikin ruh və qəlbinə təsir məqsədilə istifadə etdikləri ən önəmli vasitələrdən biri söz, yəni söhbətdir. Nəfsini təzkiyə, qəlbini təsfiyə etmiş bir şəxsin sözlərində yaşadığı halın duyğuları var. Bu duyğularla və ixlasla deyilən sözlər dinləyənin qulağından qəlbinə yol tapır və ona faydalı təsir edir.

Söhbəti təsirli edən ən təməl şərt isə «**ixlas**»dır. Tam bir ixlas sahibi olaraq kəlmələrə yüklənmiş bir sıra məna və duyğuları öz müridinə çatdırmağa çalışan kamil mürşidin bu fəaliyyəti Rəsulullahın -səllallahu əleyhi və səlləm- sünnəsinə tabe olmaqdan ibarətdir. Bu təsiri meydana gətirən ixlas bildiyi ilə əməl etmək və müridə tələqin etdiyi şeyi həqiqətən və ürəkdən istəməkdən ibarətdir.

Sözün təsirli olmasının başqa bir səbəbi də «vəciz» olmasıdır.

Sözü vəciz bir şəkildə ifadə etmək isə dilə mütləq mənada hakim olmaqla, məqsədəuyğun olan ən doğru kəlmələri seçə bilməklə mümkündür. Bu qüdrətin zirvəsi Qurani-Kərimdir.

Peyğəmbərin -səllallahu əleyhi və səlləm- Məkkə dövrünü idrak etdiyi zamanda məşhur ərəb şairi İmrul-Kaysın qızı sağ idi. Ona əz-Zilzal surəsini oxudular. Bəlağət, fəsahət və ecazın nə demək olduğunu bilən bu qadın heyrətdən dondu və belə dedi:

«Belə bir söz bəndə sözü ola bilməz. Heç bir bəşər bu səviyyədə bir söz söyləməyə qabil deyil. Yer üzündə belə bir kəlam varkən, artıq atamın şeirinin Kəbənin divarından asılı qalması doğru deyil. Xahiş edirəm, onu oradan götürün və bunu ora asın!»

Elə buna görə də, hədisi-şərifdə belə buyurulur:

«Şübhəsiz ki, bir qisim sözlər sehr kimi təsir gücünə sahibdir.» (Buxari, «Nikah», 47)

Yəni söz qəlbdə sehrli bir təsir meydana gətirir.

Bu baxımdan, sözlərlə tərbiyə etməyin, yəni söhbətin önəmi çox böyükdür. Xüsusilə, həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- söhbətindəki bərəkətin nə demək olduğunu layiqincə anlaya bilmək üçün o söhbətlərin baş verdiyi əsrə, insanlıq tarixində *«səadət əsri»* deyilməsinin səbəb və hikmətlərini düşünmək kifayətdir. Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- bir sünnəsi olan söhbətlər, demək olar ki, bütün təriqətlərdə, xüsusilə Nəqşilikdə qəlbdən-qəlbə feyz ötürülməsi üçün xüsusi bir mövqeyə sahibdir.

Sözün müsbət və ya mənfi təsir qüvvəsini ifadə etməklə bağlı Yunus Əmrənin bu misraları çox gözəldir:

Söz ola kəsə savaşı,
Söz ola kəsdirə başı,
Söz ola ağulu aşı,
Bal ilə yağ edə bir söz.

Əshabi-kiramın keçmişləri baxımından məhsuldar olmayan torpaqlara bənzəyən könül aləmləri Allah Rəsulunun -səllallahu

əleyhi və səlləm- söhbət məclislərindəki mənəvi iqlimin rəhmət və bərəkəti ilə yoğruldu. Bunun hesabına bir vaxtlar üstü torpaqla örtülmüş olan misilsiz fəzilət və məna toxumları cücərib boy atdı. Qəlbdən qəlbə əks edən məhəbbət və ruhaniyyət neməti ilə bu ulduz şəxsiyyətlər inkişaf etdi. Cahiliyyə dövrünün mərhəmətsiz, vicdansız, qız uşaqlarını diri-diri torpağa basdıracaq qədər sərt qəlbli, haqq və hüququ tanımayan insan əridi, yox oldu. Eyni bədən içində olan bu insanların bu dəfə gözü, könlü yaşla doldu. Onlar başqalarını özlərindən çox düşündülər, incə, zərif, həssas bir insana çevrildilər.

Bu mənada *«səhabə»* və *«söhbət»* kəlmələrinin eyni kökdən törədiyi də diqqəti cəlb edir. Əshabi-kiram Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- duyduğu məhəbbət, hörmət və ədəb içərisində mənəvi söhbət və tərbiyədən gözlənilən nəticəni əldə edə bilən insanların bir gözəl nümunəsi oldular. Ancaq sanki nail olduqları bu bərəkətin şərtini bəyan etmək məqsədi ilə Rəsulullahın -səllallahu əleyhi və səlləm- söhbətində olarkən əldə etdikləri rahatlığı və ədəbi belə ifadə edirdilər:

«Sanki başımızın üzərində bir quş var idi. Elə düşünürdük ki, azca tərpənsək, bu quş uçacaq.» (Əbu Davud, «Sünnə», 23-24)

O insanlar Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- şəxsiyyətini və uca əxlaqını getdikləri hər yerə apardılar. Qiyamətədək mənqibələri davam edəcək bir misilsiz fəzilət nümunəsi göstərdilər. Onlar haqqında ayeyi-kərimədə uca Rəbbimiz belə buyurur:

«(İslamı) **ilk əvvəl qəbul edib** (bu işdə başqalarından) **irəli düşən mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə gəldikdə Allah onlardan, onlar da Allahdan razıdırlar.** (Allah) **onlar üçün əbədi qalacaqları,** (ağacları) **altından çaylar axan cənnətlər hazırlamışdır. Bu böyük qurtuluşdur** (uğurdur)**!»** (ət-Tövbə, 9/100)

İbadət vəcdi içində keçən bütün söhbətlər Allah Rəsulunun söhbətlərindən bir nümunədir. Çünki mənəvi istifadənin mərkəzi Odur. Mənəvi həyacanlarla dolu söhbətlər də o mərkəzdən fasiləsiz olaraq doğulan parıltılardır. Buna görə də, bir bəndə Rəsulullahın -səllallahu əleyhi və səlləm- nurundan bir Haqq dostu vasitəsi ilə pay alsa,

bu nur eyni mərkəzdən olduğu üçün şəxsən həzrət Peyğəmbərdən -səllallahu əleyhi və səlləm- alınmış kimidir. Bir şamla başqa şamların, ya da çıraqların yandırılması kimi… Çıraqları yandıran və onlar vasitəsilə ətrafı işıqlandıran alov eyni alovdur. Bəndə bu çıraqların ən sonuncusu ilə işıqlansa da, o işıq ilk işıqdan törədiyi üçün hər zaman ilk qaynağı əks etdirir.

Söhbət və zikr məclisləri ilahi rəhmət və dincliyin bol-bol yağdığı dünyadakı cənnət bağçalarıdır. Hədisi-şərifdə belə buyurulur:

«Bir cəmiyyət Allahı zikr etmək üçün bir araya gəlsə, mələklər onları əhatə edər. Allahın rəhməti onları bürüyər, üzərilərinə rahatlıq enər və uca Allah onları öz yanında olanlar arasında zikr edər.» (Müslim, «Zikr», 39)

Sadiq və salehlərin belə məclisləri qənimət bilinməlidir. Çünki bu məclislər elə bir məna cənnətidir ki, içində ilahi eşqlə çağlayan gözlər və könüllər gizlidir.

Könül ərləri, salehlər və ariflər də qəlblərindəki məhəbbət, eşq və vəcdlərini söhbətlərinə daxil edirlər. Qəlblərindəki sirlərin nuru camaata təsir edir. İnikas və mənəvi boyanma nəticəsində qabiliyyət və istedada görə könüllər feyz və həqiqətin nuru ilə dolur. Gül, qərənfil və nadir çiçəklərlə bəzənmiş bir bağça üzərindən əsən sabah ruzigarının getdiyi yerlərə və könüllərə bahar fərəhi verən incə ətirlər aparması kimi.

Uca Allah ayeyi-kərimədə buyurur:

«Sən onlara öyüd ver. Öyüd möminlərə fayda verir.» (əz-Zariyat, 51/55)

Bu ayeyi-kəriməni ən kamil şəkildə yaşayan Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Din nəsihətdən ibarətdir.» (Buxari, «İman», 42)

Nəsihətin iki mənası var. Biri səmimiyyət, o birisi xeyirə dəvətdir.

Abdullah bin Rəvaha (r.a) əshabi-kiramdan biri ilə qarşılaşdığı zaman belə dedi:

«Gəl qardaşım! Bir müddət oturub Allah üçün Rəbbimizə olan imanımızı təzələyək. Onu zikr edək.»

Bunun nə demək olduğunu anlamayan bir səhabə gedib vəziyyəti Peyğəmbərə -səllallahu əleyhi və səlləm- danışdı. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- ona belə dedi:

«Allah, Abdullah bin Rəvahaya rəhmət etsin. O, mələklərin tərifləyiyi zikr məclislərini çox sevər.»[30]

Söhbətin önəmini göstərmək baxımından bu hədis də çox önəmlidir:

«Bir qadın Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına gəldi və ona belə dedi:

- Ey Allahın Rəsulu! Sənin sözlərindən ancaq kişilər faydalanır. Bizlərə də bir gün ayırın ki, o gün toplaşıb Allahın sənə öyrətdiklərindən bizə də öyrədəsən!

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurdu:

- Yaxşı, filan gün burada toplaşın!

Qadınlar toplaşdılar. Nəbi -səllallahu əleyhi və səlləm- də gəlib Allahın ona öyrətdiklərindən qadınlara öyrətdi.» (Buxari, «Elm», 36)

Bu söhbətlərin bərəkəti ilə bütün ümmətə nümunə analar olan səhabə xanımlar Rəsulullahı -səllallahu əleyhi və səlləm- uzun müddət görməyən övladlarını tənbeh edərdilər. Belə ki, Huzeyfə (r.a) bir neçə gün Peyğəmbəri -səllallahu əleyhi və səlləm- görmədiyi üçün anası onu danlamışdı. Özü bunu belə anladır:

«Anam məndən soruşdu:

- Peyğəmbərlə son dəfə nə vaxt görüşmüsən?

Mən də:

- Bir neçə gündür ki, onunla görüşməmişəm.

Mənə çox əsəbləşdi və sərt bir şəkildə tənbeh etdi.

30. Baxın, Əhməd bin Hənbəl, «Müsnəd», III, 265.

Mən də:

- Dayan, qəzəblənmə! İndi Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına gedərəm, onunla birgə axşam namazını qılaram, sonra da həm mənə, həm də sənə dua etməsini ondan istəyərəm. - dedim.» (Tirmizi, «Mənaqib», 30; Əhməd b. Hənbəl, «Müsnəd», V, 391-392)

Böyüklərdən Məhəmməd Ziyauddin -qüddisə sirruh- tez-tez kiçik uşaqları başına toplayar, onlarla söhbət edərdi. Bir gün belə bir söhbətdən sonra xanımı ondan soruşdu:

- Onlar hələ kiçikdirlər, söhbətdən nə anlayarlar?

Həzrət belə cavab verdi:

- Onlar da az-çox istifadə edər. Ancaq mənim əsl məqsədim onların bir şey anlaması deyil, söhbət məclisləri Allahın rəhmətini çəkər. Mən o rəhməti istəyirəm. Bu uşaqlar da bir vasitədir…»

Böyük vəli Şah Nəqşibənd -qüddisə sirruh- deyir:

«Bizim tərbiyə yolumuz söhbət üzərində qurulmuşdur. Xeyirlər Allah üçün saleh insanlarla bərabər olmaqdadır. Onlarla söhbətə davam edə-edə həqiqi imana qovuşmaq nəsib olur.»

Alimlərdən Cəfər bin Süleyman da (r.a) saleh insanlarla bərabər olmağın ona nə verdiyini belə anladırdı:

«Qəlbimdə bir sərtlik hiss etdiyim zaman yerimdən qalxar, tez Məhəmməd bin Vasinin yanına gedər, onun məclislərində iştirak edər, üzünə baxardım. Beləliklə, qəlbimdəki sərtlik yumşalar, içimə ibadət həyəcanı gələr, tənbəllik üzərimdən qalxar və bir həftə bu həyəcan ilə ibadət edərdim.»

Ömər bin Əbdüləziz da (r.a) belə buyururdu:

«Mədinənin fəqihlərindən Ubeydullah bin Abdullah ilə bir məclisdə olmaq mənim üçün bütün dünyadan daha sevimli və xeyirlidir. Onun kimilərlə oturub durmaqla ağıl nurlanır, qəlb rahat olur, ədəb qazanılır.»

Böyük vəli Əbul-Həsən Şazilinin -qüddisə sirruh- tələbələrindən biri söhbətləri tərk etmişdi. Bir gün həzrət bu tələbə ilə qarşılaşdı. Ondan soruşdu:

- Niyə bizdən ayrıldın, söhbətlərimizi tərk etdin?

- Bu zamanadək sizdən aldıqlarım və öyrəndiklərim mənə yetər, artıq sizə ehtiyacım qalmadı.

Bu sözlərdən çox üzülən həzrət Şazili onu belə xəbərdar etdi:

- Bax, övladım! Əgər bir şəxsin birisindən aldığı feyz ilə kifayətlənməsi doğru olsaydı, həzrət Əbu Bəkr Siddiqin (r.a), həzrət Peyğəmbərdən -səllallahu əleyhi və səlləm- aldığı feyz ilə kifayətlənməsi zəruri olardı. Halbuki, o, Allah Rəsulu -səllallahu əleyhi və səlləm- vəfat edənədək Ondan ayrılmadı…»

Əlbəttə, sadəcə Əbu Bəkr (r.a) deyil, bütün əshabi-kiram həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- söhbətində böyük bir şövq ilə iştirak edər və ondan feyz alardı. Rəsulullah -səllallahu əleyhi və səlləm- də hər vasitə ilə əshabını buna sövq edirdi. Çünki Onun ən önəmli tərbiyə üsullarından biri də söhbət idi.

Söhbətlə əldə ediləcək gözəllikləri qazanmaq üçün buna həvəs göstərmək qədər önəmli olan başqa bir məsələ də var. O da söhbətin zaman və yerinə diqqət yetirməkdir. Bu mövzu ilə bağlı Abdullah İbn Məsud (r.a) belə demişdir:

«Rəsulullah -səllallahu əleyhi və səlləm- bizi bezdirməmək üçün öyüd verməkdə ən uyğun zamanı seçərdi.» (Buxari, «Elm», 11)

Əshabi-kiramdan Əbu Vaqid əl-Leysi (r.a) anladır:

«Bir gün məsciddə bir qrup insanla birlikdə Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- yanında idik. Bu zaman üç nəfər adam qapıda göründü. Biri içəri girmədən getdi. Digər ikisi isə içəri girib, Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- yanına gəldi. Onlardan biri Peyğəmbərimizin ətrafında olan halqadakı boş yerdən birində oturdu. Başqası isə yer olmadığı üçün və heç kimi narahat etməmək düşüncəsi ilə halqanın arxasında oturdu.

Bir müddət sonra Peyğəmbər -səllallahu əleyhi və səlləm- söhbətinin bir yerində belə buyurdu:



«Sizə bu üç nəfər şəxsin vəziyyətini anladımmı? Bizim ətrafımızdakı halqada oturan birinci şəxs Allah təalaya sığındı, Allah da onu öz himayəsinə aldı.

İkincisinə gəlincə, o şəxs Allahdan həya etdi, ədəbə sarıldı. Uca Allah da o bəndəsindən həya etdi, onu əzabından əmin qıldı.

İçəri girməyən üçüncü şəxsə gəlincə isə o, bu məclisdən üz çevirdi, Allah da ondan üz çevirdi.» (Buxari, «Elm», 8)

Bu hədisi-şərifdəki hikməti dərk edən bütün İslam böyükləri elmin zirvəsində olsalar da, hər zaman Haqq dostlarının söhbət məclislərində könüllərini yoğurmuşlar və heç bir zaman belə məclislərdə olmaqdan imtina etməmişlər. Belə ki, böyük məzhəb imamlarından Əhməd bin Hənbəl (r.a) tez-tez böyük vəli Bişr Xafinin -qüddisə sirruh- yanına gedər, onunla söhbət edərdi. Tam mənası ilə ona bağlanmışdı.

Bir dəfə tələbələri ona dedilər:

- Ey İmam! Sən, Quran və sünnə elmlərində müctəhid olan bir alimsən. Buna baxmayaraq, belə sıravi bir adamın yanına gedib-gəlmək sənə yaraşarmı?

Böyük İmam bu cavabı verdi:

- Bəli, sadaladığınız məsələləri mən ondan daha yaxşı bilirəm. Ancaq o, uca Allahı məndən daha yaxşı bilir və tanıyır.»

❁

c. Xidmət

Məqbul bir xidmət səmimiyyət, mərhəmət və başqalarını özündən üstün tutmaq duyğuları ilə dolu olan bir könüllə yaradılmışlarayönəlmək surəti ilə Allah rizasının axtarılmasıdır.



Xidmət əhli mina döşənmiş tarlada yüyürən bir insan kimi həssaslıqla münasibətlərindənəzakət ölçülərinə diqqət yetirməlidir. Çünki onun müxatəbi ilahi nəzərgah olan könüllərdir.

Təsəvvüfi tərbiyədə xidmətin əhəmiyyəti çox böyükdür. Könüllərə təvazökarlıq, heçlik və yaradılmışlara qarşı şəfqət duyğusunu yerləşdirməyin ən təsirli yolu xidmətdən keçir. Bu baxımdan, bütün kamil mürşidlər saliklərin tərbiyəsində xidməti önəmli bir vasitə kimi qəbul etmişlər.

İslam əxlaqının əsasını axtarsaq, onu Rəbbə eşq və ixlasla yönəlməkdə, bu yönəlişin yeganə əlamətini də, heç şübhəsiz, **«xidmət»**də taparıq. Çünki *«xidmət edən himmətə nail olar»* ölçüsü çərçivəsində xidmət könülləri ilahi zirvələrə yüksəldəcək müstəsna və ülvi bir pillədir.

Xidmət elə bir pillədir ki, ilahi vüsala və sonsuz mükafata nail olanların hamısı, peyğəmbərlər və övliya məhz bu pillənin üzərində ucalmışlar. Yəni bu mübarək insanlar həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- bir hədisində ifadə olunan fikrin əyani nümunələri olmuşlar:

«Bir millətin başçısı onlara xidmətçi olandır…» (Deyləmi, «Müsnəd», II, 324)

Buna görə bəndələr üçün zirvələrin yolu və əbədiyyət qazancı səmimi bir könüllə edilən xidmətlərdən keçir. Belə ki, yerinə görə ilahi rizaya uyğun olan kiçik bir xidmət çoxsaylı nafilə ibadətlərdən üstün ola bilər.

Belə ki, istinin çox şiddətli olduğu bir səfərdə həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- uyğun bir yerdə dayanmışdı. Səhabənin bir qismi oruclu, başqa bir qismi isə oruclu deyildi. Oruclu olanlar yorğun olduqlarından yatdılar. Oruclu olmayanlar isə onlar üçün dəstəmaz suyu daşıdılar və onlara kölgələnmək üçün çadırlar tikdilər. Ancaq iftar vaxtı olanda Rəsulullah -səllallahu əleyhi və səlləm- belə buyurdu:

«Bu gün oruc tutmayanlar daha çox savaba nail oldular.» (Müslim, «Siyam», 100-101)

Ümmətinə belə çoxsaylı xidmət çıraqları təqdim edən həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- Quba məscidi və Peyğəmbər məscidi tikilərkən səhabənin bütün təkidlərinə və maneə olmaq cəhdlərinə baxmayaraq, mübarək çiyinlərində daş daşımışdır. Varlıq Nurunun bu yüksək təvazökarlığı və xidmət ruhu bütün ümmət üçün misilsiz bir nümunədir. Əsasən, onun həyatı başdan sona Haqqa, insanlığa və bütün məxluqata xidmətlə keçmişdir.

Dolayısı ilə, o mübarək varlığı özlərinə örnək seçən bəxtiyarların həyatlarında da xidmət ən açıq əlamətlərdən biridir. Yəni hər Haqq aşiqi və Peyğəmbər məcnunu olan könül xidmət əhlidir. Xidmət əhli olanlar da göydəki aya və günəşə bənzəyərlər. Onlar ətraflarını nurlandırdıqca özlərinin parlaqlığı da artar. Nə payızın, nə də qışın solğunluğu onlara bir zərər verə bilməz. Başqa bir ifadə ilə, onlar uzun yollar boyunca min bir canlıya, heyvana, ağaca, gülə, sünbülə, bülbülə xidmət edərək axıb gedən bir çay kimidirlər. Onların qovuşacaqları mənzil cananın sonsuzluq və vüsal dəryasıdır.

Bu həqiqəti bilənlər xalqa padşah olsalar belə, özlərini hər zaman bir xadim, yəni xidmətçi olaraq görmüşlər. Qoca Osmanlı padşahı Yavuz Sultan Səlim Xanın dövlətinə mübarək əmanətlər verilərkən xütbədə onun haqqında belə deyildi:

«Hakimül-Hərameyniş-Şərifeyn (Məkkə və Mədinənin hakimi).» Sultan bu sözləri eşidəndə göz yaşları içində imama etiraz edib belə dedi:

«Əksinə, Xadimül-Hərameyniş-Şərifeyn (Məkkə və Mədinənin xidmətçisi).»

Onun bu düzəlişi ülvi bir xidmət anlayışının və qulluqdakı əsl qayənin dərk edilməsinin təzahürüdür.

Belə ki, Ubeydullah Əhrar -qüddisə sirruh- qovuşduğu mərtəbəni xidmətin bərəkətinə aid etmişdi. O, bu nemətə şükür edərək belə buyurmuşdu:

«Biz bu yoldakı məsafələri sadəcə təsəvvüf kitablarını oxuyaraq deyil, oxuduqlarımızı imkan ölçüsündə tətbiq etməklə və xalqa xidmətlə qət etdik. Hər kəsi bir yolla aparırlar, bizi də xidmət yolu ilə apardılar».

Bu isə sadəcə bilməyin kifayət etmədiyini, bilgini mütləq xidmətə çevirməyin zəruriliyini də ifadə edir.

Ancaq edilən xidmətin Haqq dərgahında məqbul olması onun bir sıra şərtləri yerinə yetirməklə icra edilməsinə bağlıdır. Buna görə də, qəbul olunan bir xidmət səmimiyyət, mərhəmət və başqalarını özündən üstün tutmaq duyğusu ilə dolu bir könüllə yaradılmışlara yönəlmək surəti ilə Allahın rizasının aranmasıdır. Yəni xidmət hər hansı bir nəfsi mənfəət güdmədən səmimi olaraq edilməli və onunla axirət qazancı əldə etmək hədəf seçilməlidir. Belə olduğu təqdirdə, hədisi-şərifdə deyilən bir «yarım xurma» belə, əbədi qurtuluşa yol aça bilər.

Həzrət Ubeydullah Əhrar belə deyir:

«Bir gün bazara getmişdim. Ac bir kişi yanıma gəldi və dedi:

- Acam, məni Allah rizası üçün doyurarsanmı?

O an heç bir imkanım yox idi. Sadəcə köhnə bir sarığım var idi. Bir yeməkxanaya getdim. Aşpaza belə dedim:

- Bu sarığımı al. Köhnədir, ancaq təmizdir. Bulaşıqları bununla silərsən. Ancaq bunun əvəzində bu ac insanı doyurarsanmı?

Aşpaz o yoxsula yemək verdi. Sarığımı da mənə geri qaytarmaq istədi. Bütün təkidlərinə baxmayaraq, qəbul etmədim. Özüm də ac olduğuma baxmayaraq, o yoxsul doyanadək gözlədim.»

Həzrət Ubeydullah Əhrar uca Allahın lütfi ilə sonradan böyük bir sərvətə sahib oldu. Onun əkin yerlərində minlərlə insan çalışırdı. Ancaq o mübarək şəxs buna baxmayaraq, xidmətdən əl çəkmədi. Varlı olduğu zaman vəziyyətini özü belə anladır:

«Səmərqənddə olan Mövlana Kutbuddin Mədrəsəsindəki dörd xəstəyə xidmət etməyi öz üzərimə götürmüşdüm. Xəstəlikləri artdı-

ğından yataqlarını bulaşdırırdılar. Mən onları əlimlə yuyub, paltarlarını geyindirirdim. Davamlı xidmət etdiyim üçün xəstəlikləri mənə də keçdi və yatağa düşdüm. Ancaq o halımla belə qablarla su gətirib xəstələrin altını təmizləməyə, paltarlarını yumağa davam etdim.»

❁

Böyüklərin həyatındakı Haqq yolunda infaq və xidmət fəzilətinə dair ideal davranışlar bizim üçün gözəl bir nümunədir. Bir müsəlman nə qədər zəngin olursa-olsun, maddi imkanlarının haqqını və bədəlini ancaq mənəvi gücünü artırdığı və qəlbi həyatını ucaltdığı ölçüdə verə bilər. Mənəviyyatda inkişaf artdıqca zöhd və təqva ölçülərinə əməl etmək və varlı olmağa baxmayaraq, kamil bir təvazökarlıq sahibi ola bilmək həzrət Ubeydullah Əhrarın hekayəsindəki qədər ideal bir nöqtəyə çatır.

Xidmətdə əldə edilməsi çətin olan mərtəbələrdən biri də Haqq dostu həzrət Maruf Kərhinin bu hekayəsində müşahidə edilir:

«Yaşlı və ağır bir xəstə həzrət Maruf Kərhiyə qonaq olmuşdu. O biçarə bir insan idi. Saçı tökülmüş, üzünün rəngi solmuş, əti sümüyünə yapışmışdı. Həzrət Maruf Kərhi bir yataq düzəltdi və xəstənin istirahətini təmin etdi.

Xəstə iztirabın şiddəti ilə inləyir, fəryad edirdi. Gecə səhərədək özü bir an belə yatmadığı kimi fəryadları ilə ailə üzvlərindən heç kimi də yatmağa qoymurdu. Bundan əlavə, xasiyyəti getdikcə pisləşdi və ev xalqına söyüşlər yağdırıb, onları narahat etməyə başladı. Nəhayət, onun bu sərt təbiəti və pis davranışlarına dözə bilməyən evdəkilər başqa yerlərə qaçdılar. Evdə xəstə ilə Maruf Kərhidən başqa kimsə qalmadı.

Maruf Kərhi gecələr yatmır, bu dəlisov xəstənin ehtiyaclarını ödəmək, ona xidmət etmək üçün çalışırdı. Ancaq bir gün yuxusuzluğu ona təsir etdi və qeyri-ixtiyari yatdı. Onun yatdığını görən qafil xəstə də ona şəfqət və mərhəmətlə qucaq açan bu əməli saleh şəxsə təşəkkür etmək əvəzinə, ona söyür, onu tənqid edir və öz-özünə belə deyirdi:

-Bu necə dərvişdir! Onsuz da belə dərvişlərin üzdə adları-sanları

var. Həqiqətdə isə riyakardırlar. Bütün işləri boş şeydir. Bunlar üzdə təmiz, ancaq mənəviyyatları kirlidir. Başqalarına təqvanı əmr edirlər, ancaq özləri etməzlər. Ona görə də, bu adam mənim halımı düşünmədən yatır. Öz qarnını doyurub yatmış insan sabaha qədər gözlərini yummayan biçarə xəstənin halını nə bilir!..

Maruf Kərhi isə eşitdiyi bu acı sözlərə qarşı səbir və kərəm göstərdi. Özünü eşitməzliyə vurdu. Ancaq səbri daşan xanımı daha dözə bilmədi və Maruf Kərhiyə səssizcə bunları dedi:

- Bu axmağın nələr söylədiyini eşitdin. Artıq onu bu evdə saxlaya bilmərik. Bizə daha çox əziyyət verməsinə və sizə cəfa etməsinə icazə verməyək. Ona söylə ki, buradan getsin və başqa bir yerdə başının çarəsini qılsın. Yaxşılıq onu bilənə edilər. Nankorlara yaxşılıq etmək pislikdir. Bu, onları daha da azdırır. Alçaq insanın başının altına yastıq qoyulmaz. Belə zalım şəxslərin başını daşın üstünə qoymaq lazımdır.

Xanımının bu sözlərini sakitcə dinləyən Maruf Kərhi gülümsəyərək belə buyurdu:

- Ey xanım! Onun söylədiyi sözlər səni niyə incidir? O bağırmışsa, mənə bağırmışdır, tərbiyəsizlik etmişdirsə, mənə etmişdir. Onun xoşagəlməz sözləri mənə xoş gəlir. Görürsən ki, o daimi bir iztirab içindədir. Zavallı bir an belə yata bilmir. Sən bilməlisən ki, əsl hünər, əsl şəfqət və mərhəmət belə şəxslərin cəfasına dözə bilməkdir…»

Bu hekayəni danışan Şeyx Sədi belə nəsihət verir:

«Xidmətdəki fəzilət özünü güclü, qüvvətli və sağlam hesab etdiyin zaman şükür olsun deyə zəiflərin yükünü çəkməkdir.

Məhəbbətlə dolan qəlb bağışlayıcı olur. Əgər sən yalnız quru bir bədəndən ibarət olsan, öldüyün zaman cismin kimi isminlə də ölərsən. Əgər kərəm sahibi və xidmət əhli olsan, ömrün cəsədindən sonra da fədakarlığın və könüllərə girdiyin ölçüdə davam edər. Görmürsənmi ki, Kərhdə bir neçə türbə var. Ancaq Maruf Kərhinin türbəsindən daha çox məşhur olanı və ziyarətçisi çox olanı yoxdur.»

Allah dostları çox gözəl söyləmişlər:



«Təsəvvüf yar olub, bar (yük) olmamaqdır.» Yəni hər kəsin yükünü çəkmək və buna baxmayaraq, heç kimə yük olmamaqdır.

Xüsusilə, mərhəmət və fədakarlıq sayılan xidmətlərlə ümmətə rəhmət qapıları açılar. Bir xidmətin dəyəri onun yerinə yetirilməsi üçün sərf edilən fədakarlığın böyüklüyünə və bir ibadət şövqü ilə icra edilməsinə bağlıdır. Məqbul bir xidmət ancaq Allah rizası üçün və xidmət etdiyin şəxsi incidib kiçiltməyəcək bir üslubla yerinə yetirilməlidir. Abdullah bin Münazilin -qüddisə sirruh- ifadə etdiyi kimi:

«Xidmətdə ədəb xidmətdən daha əzizdir.»

Bu həqiqətə uyğun olaraq həzrət Mövlana buyurur:

«Allah eşqi üçün çalış, Allah eşqi üçün xidmət et. Xalqın qəbul etməsi, ya da rədd etməsi ilə sənin nə işin var? Bu fani dünya bazarında sənə bol-bol qazandıracaq bir müştəri olaraq Allah yetərli deyilmi? Allahdan alacağının qarşısında insanların verə biləcəkləri nədir ki! O halda gözünü və könlünü insanlardan gələcək təşəkkürlərə deyil, Allahdan gələcək nemətlərə döndər!..»

Təsəvvüf yolunun könülləri qovuşdurmaq istədiyi gözəllik və ucalıq budur. Bu mənada həzrət Əmir Külal, tələbəsi Bahaəddin Nəqşibəndə -qüddisə sirruh- daxilində olan nəfsani təmayüllərin zərərsizləşdirilməsi üçün bu tövsiyəni vermişdir:

«Sən könül al, gücsüzlərə xidmət et! Zəifləri, könlü qırıq olanları qoru! Onlar elə kimsələrdir ki, heç bir qazancları yoxdur. Bununla bərabər, onların bir çoxu tam bir qəlb rahatlığı, təvazökarlıq içindədirlər. Belə kimsələri axtarıb tap və onlara xidmət et!».

Belə ki, Şah Nəqşibənd -qüddisə sirruh- ona bağlandığı ilk illərdə təkəbbür və özündən razılığın ziddi olan «heçlik» halına qovuşmaq üçün xəstə və problemi çox olan insanlara, yaralı heyvanlara xidmət etmiş, hətta, insanların keçəcəyi yolları təmizləyərək tam yeddi il misilsiz bir xidmət həyatı yaşamışdır.

Özü belə anladır:

«Xocamın əmr etdiyi yolda uzun müddət çalışdım. Bütün xid-



mətləri yerinə yetirdim. Varlığım elə hala gəldi ki, yoldan keçərkən Allahın hər hansı bir məxluqu qarşısında olduğum yerdə durur, öncə onun keçib getməsini gözləyirdim. Bu halım yeddi il davam etdi. Bu xidmətin müqabilində elə bir hal təcəlla etdi ki, onların inilti şəklində həzin-həzin səslər çıxarıb Haqqa yalvardıqlarını duymağa başladım».

Yuxarıdakı bu misal Yaradandan ötrü yaradılmışlara yaradıcının sevgisi ilə baxaraq fədakaranə xidmətin canlı bir təzahürüdür.

Uca Allah saleh möminlər haqqında ayeyi-kərimədə belə buyurur:

«… Onlar xeyir işlərdə bir-biri ilə yarışırlar.» (Ali-İmran, 3/114)

Saleh möminlərin bu xeyir yarışındakı ən gözəl xidmət məhsulları da **vəqf** müəssisələridir. Vəqf insanlar, insanlığın ən zirvəsində olan peyğəmbərlər, vəlilər və onların tərbiyəsi ilə kamilləşən ərən möminlərdir. Onlar könüllərindəki iman həyəcanını dünyanın dörd bir tərəfinə aparmış və tarixin ən gözəl qızıl səhifələrini yazmışlar.

Əlbəttə, xidmətlər müxtəlifdir. Allah rizası üçün görülən işlərin hamısı xidmət anlayışına daxildir. Önəmli olan istər maddi, istərsə də mənəvi olaraq könüllərin ləyaqət, istedad və iqtidarları ölçüsündə bir xidməti gerçəkləşdirməsidir. Çünki uca Allah hər kəsə bir xidmət sahəsi ayırmış, onu yaradılışına uyğun olaraq bir işə layiq etmiş və bunun üçün zəruri olan maddi və mənəvi imkanları da ona bəxş etmişdir.

Çox ibrətlidir ki, Vida həccində təqribən yüz iyirmi min səhabə olmuşdur. Bunlardan yüz mindən çox səhabə dünyanın müxtəlif bölgələrinə yayılaraq özlərini ilahi riza istiqamətində xidmətə vəqf etmiş və oralarda vəfat etmişlər. Belə ki, həzrət Osman və həzrət Abbasın (r.a) oğullarının türbələri Səmərqənddə, bir çox səhabənin qəbri də İstanbuldadır. Məkkə və Mədinədə qalanların böyük bir qismi də mərkəzi qorumuşlar və oradakı xidmətləri yerinə yetirmişlər.

Xalid bin Zeyd Əbu Əyyub əl-Ənsari səksəndən çox yaşı olmasına baxmayaraq iki dəfə İstanbulun surları-yüksək qala divarları önünədək gəlmişdir. O mübarək səhabə ruhunu burada təslim etmiş, insanları

hidayətə çağıraraq onları dünya və axirət səadətinə qovuşdurmaq üçün misilsiz xidmətlər göstərmişdir. Xidmət eşqi və axirəti xilas etmək mücadiləsi onları dünyanın dörd bir tərəfinə yönəltmişdir.

❁

Xidmət ruhunun çox dəyərli misallarından biri də Vəhb bin Kəbşədir (r.a). Bu mübarək səhabənin türbəsi Çindədir[31]. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- ona Çində təbliğ etmək vəzifəsi vermişdir. Halbuki, o zamanın şərtləri ilə Çinə bir illik yol var idi. Bu səhabə orayadək gedib uzun bir müddət İslamı təbliğ etdikdən sonra könlünü qovuran Rəsulullah həsrətini bir anlıq söndürə bilmək ümidi ilə Mədinə yollarına düşmüşdür. Bir il sürən çətin bir yolçuluğun sonunda nurlu Mədinəyə çatmış, ancaq həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- vəfat etmiş olduğu üçün Onu görə bilməmişdir. Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- ona əmr etdiyi xidmətin müqəddəsliyini dərk edərək yenidən Çinə qayıtmış və xidmət zamanı da ruhunu təslim etmişdir. Bunlar ancaq iman vəcdi ilə yerinə yetirilməsi mümkün olan möhtəşəm və fədakaranə xidmət tablolarıdır. Onların xidmət eşqi və ruhu bizlər üçün əbədi qurtuluş yollarını nurlandıran parlaq bir ulduzdur.

Şübhəsiz ki, seçilmiş səhabə bu mərtəbəyə həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- müstəsna tərbiyəsi işığında çatmışlar. Onlar bu tərbiyənin hesabına bu doqquz məsələyə diqqətlə əməl edərək yüksək mərtəbələr qazanmışlar:

1. Allaha xidmət-əmr və qadağaları sevərək yerinə yetirmək,

2. Həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- xidmət – onu ürəkdən sevərək sünnəsinin ölçülərinə görə yaşamaq,

3. İslam böyüklərinə xidmət – sevgi, vəfa və sədaqət göstərmək,

4. Ana və ataya xidmət-«of!» belə demədən rizalarını qazanmaq,

31. Çinin Guanqzhou şəhərində də Sad bin Əbu Vaqqasa (r.a) aid edilən bir yer var. Seçilmiş səhabə və Allah dostlarının qəbirlərinin çox zaman yerləşdiyi bölgə xalqının dini duyğularının canlı tutulması və qorunmasında təsiri olduğu bilinən bir gerçəklikdir. Belə ki, Orta Asiyada Səmərqənd, Buxara, Türkistan və Daşkənd kimi bölgələrdə bunun örnəkləri var.

5. Övlada xidmət-saleh bir mömin olaraq yetişmələrini təmin etmək,

6. Qohum-əqrabaya xidmət-silai-rəhm etmək, onlara ehsan etmək,

7. Möminlərə xidmət-sevinclərini və acılarını paylaşmaq,

8. Bütün insanlara xidmət-əli ilə, dili ilə onlara faydalı olmağa çalışmaq,

9. Yaradılmışlara xidmət-bütün varlıqları şəfqət qanadı altına almaq,

Bütün bu xidmətləri yerinə yetirməklə bağlı həzrət Əli Ramitəninin bu sözləri çox ibrətlidir:

«Minnətlə (başa qaxmaqla) xidmət edən çoxdur. Ancaq xidməti nemət bilənlər isə çox azdır. Siz xidmət etmək fürsətini ələ keçirməyi nemət bilsəniz və xidmət etdiklərinizə minnətdar olsanız, hər kəs sizdən məmnun olar və şikayətçiniz azalar…»

Fərqində olsaq da, olmasaq da, əslində, hamımızın aradığı ruhumuzun dincliyi, yəni rahatlığa qovuşmasıdır. Bu da Haqqa ibadət vəcdi ilə yerinə yetirilən xidmətlərlə əldə edilə biləcək tükənməz bir xəzinədir.

Buna görə də, xidmət ruh və düşüncəsinə sahib olan bir mömin istənilən halda xidmət üçün vasitə və fürsətlər tapmağın yolunu bilir. Allah rizası üçün etdiyi fədakarlıqlarda dünyəvi mənfəət arxasınca qaçanlardan daha çox çalışır və mübarizə aparır.

Eşq iqlimində bəslənən xidmət arzusu qəlbdə yerləşəndə bəndəni sonsuzluğun səyyahı edir. Qəlb, zalım Həccacın sərtliyindən xilas olur, Yunusdakı şəfqət örtüyünə bürünür. Bu ruh ilə əldə edilən elm, sənət və əxlaq məstedici bir əbədiliyə qovuşur. Bu baxımdan səmimi və həqiqi xidmətlər mənəvi kamilliyin şah əsəridir. Belə qəlblər «nəzərgahi-ilahi»dir.

Belə olduğu halda, ömrü mənəvi məziyyətlərdən uzaq bir surətdə keçirtmək çox böyük bir ziyandır. Könlünü həqiqi mənada xidmət eşqi ilə dolduranlar çox xoşbəxtdirlər!

d. Təvəccöh (diqqəti yönəltmək)

Təvəccöh, mürşidin bütün mənəvi gücünü müridin qəlbi üzərinə yönəltməsi və bu yolla onda hal formalaşdırmaqdır. Başqa bir ifadə ilə kamil mürşidin gözəl hallarını müridə ötürməsi və nəticədə onun ruh və qəlbində oyanış meydana gətirməsidir. Bunun əsas və yardımçı olmaqla bir çox vasitələri var.

Biz bu təvəccöh vasitələrindən «göz» və «öz»dən (mahiyyət) bəhs edəcəyik.

Göz *(Nəzər)*

Göz görmək vasitəsidir. Bu yolla baş verən təsir üçün *«göz»* kəlməsi istifadə ediləndə gözün yerinə yetirdiyi iş olan *«nəzər»*, yəni *«baxış»* nəzərdə tutulur. Ancaq xalq arasında *«nəzər»* kəlməsi daha çox baxmaqla meydana gələn təsiri ifadə etmək üçün istifadə olunur. Həm də bu təsirin ancaq mənfi olanı nəzərdə tutulur. Nəzər deyiləndə bir şəxsin baxması ilə meydana gələn maddi, ya da mənəvi zərər ifadə edilir. Hədisi-şəriflərdə nəzərin bu növünə belə işarə edilir:

«Göz dəyməsi (nəzər) haqdır.» (Buxari, «Tibb», 36)

«Nəzər insanı qəbirə, dəvəni qazana soxar (öldürər).» (Suyuti, «Camius-Sağır», II, 60)

Bu mənada nəzərin təsir haqqındakı bilgi, hətta, müşahidə hər kəsin bildiyi və qəbul etdiyi bir həqiqətdir. Ancaq göz ilə həyata keçirilən təsir xalqın düşündüyü kimi sırf zərərli olmayıb, faydalı da ola bilər. Bunun səbəbi baxan gözdən onun üz tutduğu ünvana doğru mahiyyəti tam olaraq bilinməyən bir şüanın yönəlməsidir. Təsir bu şüanın müsbət, ya da mənfi xüsusiyyətindən doğulur.

Zamanımızda şüa haqqındakı fiziki bilgilər onun təsirini elmi bir həqiqət olaraq qəbul etməyimizi zəruri edir.

Bu əsrdə kəşf edilmiş olan «lazer» də bir şüa növüdür. Onunla

qalın dəmirlərin kəsildiyi, əməliyyatların həyata keçirildiyi bu gün hamının bildiyi bir gerçəkdir. Başqa yöndən şüa qarşısında bəzi cisimlərin və xüsusilə onların rənglərinin göstərdiyi reaksiyalar da əvvəldən məlumdur.[32]

Gözdən çıxan şüa qarşısında maddi varlıqda meydana gələn təsir həm baxan, həm də baxılan şəxs üçün hər zaman eyni dərəcədə deyil. Həqiqətən, bəzi gözlərdə istər mənfi, istərsə də müsbət yüklü şüalar olduğu kimi, bu şüaların hər ünvandakı təsiri də eyni deyil. Bəzilərində təsirlənmək imkanı çox, bəzilərində isə olduqca azdır. Xalq gözündən güclü, ancaq mənfi şüa çıxan insanları *«gözündə olan adam»* adlandırır və belələrinin nəzərlərindən qorunmağa çalışır.

Nəzər həqiqəti bəzi heyvanlarda da var. Məsələn, gürzə ilanının baxışları o qədər təsirlidir ki, hamilə bir qadının uşağını salmasına, hətta, bir qisim canlıların ölümünə belə səbəb ola bilir.[33]

Xalqın elmi baxımdan olmasa da, hissi, ya da nəqli bir surətdə bildiyi «nəzər» keyfiyyətinin təsəvvüfdə, başqa sözlə salikin mənəvi tərbiyəsində böyük bir rolu var. Çünki kamil mürşidlər çətinliklər və qəlbi təmizlənmə nəticəsində nəzərlərindəki təsir gücü yüksək səviyyəyə çatmış kimsələrdir. Bu səlahiyyət və qüdrət varisi olduqları həzrət Peyğəmbərdən -səllallahu əleyhi və səlləm- alınmışdır. İnsanlığın mənəvi mərtəbələrində birinci sırada yer tutan peyğəmbərlər silsiləsinin ardınca əshabi-kiram gəlir. *«Söhbət»* kəlməsi ilə eyni kökdən törəyən *«səhabə»* kəlməsi həzrət Peyğəmbərin

32. Bəzi kitabxanalarda oxu masalarının üzərinə yaşıl bir örtük sərirlər. Bu gözlərin yorulmasının qarşısını almaq üçündür. Çünki insan gözü dənizə və üfüqə baxanda dincəldiyi kimi, yaşıl rəngə baxanda da dincəlir. Yaz fəslində insanların, ümumiyyətlə, ağ palтar geyмələri bu rəngin günəş şüalarını geriyə qayтardığı üçündür. Qara rəngin insanlara olan təsiri isə əksinədir. Tünd rəngli paltarlar günəş şüalarını geri qaytarmır, udur. Buna görə də insanın bədənini isti saxlayır. Həkimlər xəstəxana daxilində təmizlik simvolu olan ağ rəngli xalatlarda gəzdikləri halda əməliyyat otaqlarında mavi rəngə yaxın yaşıl paltarlar geyinirlər. Bu vəziyyət yaşıl rəngin gözləri yormayıb, əksinə, onları dincəltmək xüsusiyyəti ilə bağlıdır. Başqa yöndən tünd-sarı və tünd mavi rəngin də şüanın özünə cəlb etмək xüsusiyyəti var. Baxışların uşaqlara bir zərər verməməsi, yəni xalq deyimi ilə «nəzər dəyməsin» düşüncəsi ilə qızıl, ya da mavi muncuq taxılması da bu səbəblə bağlıdır.

33. Baxın, Buxari, «Bədül-Halk», 14.



-səllallahu əleyhi və səlləm- feyzli söhbətində Ona iman etmiş olaraq iştirak etmək şərəfinə nail olmuş şəxsləri ifadə edir. Ancaq onlarda mövcud olan şan, şərəf və etibarın bir səbəbi *«peyğəmbərin söhbəti ilə şərəflənməyin bərəkəti»* olsa da, əsl təsir edən o mübarək varlığın «baxışlarına ünvan olmaq keyfiyyətidir. Həqiqətən, *«səhabə olmaq»* üçün müxtəlif şərtlərdən bəhs edilsə də, bunlardan ən çox bilinəni bir şəxsin iman etmiş olaraq həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- nəzərlərinə ünvan olması, yəni Ona baxması və Onun baxışı ilə şərəflənməsidir.

Allah dostlarının ən üst mərtəbəsində olan bir vəli belə, ən alt mərtəbədəki bir səhabə ilə əsla müqayisə oluna bilməz. Çünki səhabədə peyğəmbərin baxışına ünvan olmaqdan doğan və başqa bir yolla qazanılması əsla mümkün olmayan böyük bir fərq var. Həzrət Peyğəmbərdən -səllallahu əleyhi və səlləm- sonra gələn müsəlmanlar bu nəzərə nail olmadıqları üçün onlar səhabə olmaq mərtəbəsinə çatmamışlar. Həzrət Peyğəmbəri görərək, səhabə olmaq şərəfinə nail olanları görməklə şərəflənən möminlər də *«tabiin»,* onları görənlər isə «təbəi-tabiin» olmaqla şərəflənmişlər.

Bununla bərabər, Allah dostları Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- mənəviyyat vadisindəki işlərinin varisləri olduqlarından onlar da bu məsələdə başqaları ilə müqayisə edilməyəcək bir səlahiyyət və iqtidara sahibdirlər. Buna görə də, bir kamil mürşiddən layiqincə istifadə etmək üçün onu sevənlərdən olmaq kifayət etmir. Bununla birgə, onun nurlu nəzərinə ünvan olmağın şərəf və feyzini qazanmaq şərtdir.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurur:

«Möminin baxışından çəkinin! Çünki o, Allahın nuru ilə baxar.» (Tirmizi, «Təfsir», 15)

Peyğəmbər bu sözləri ilə hər bir möminin baxışının onun imanı ölçüsündə olduğuna işarə etmişdir. Bu baxımdan kamil möminlər olan Allah dostlarının baxışı da başqalarına nisbətən çox güclüdür.

Hədisi-şərifdə adı çəkilən *«Çəkinin!»* xəbərdarlığı *«kamil möminlərin hüzuruna gizli niyyətlərlə və bulanıq könüllərlə getməyin! Çünki onlar müstəsna bir baxış ilə sizin gizlətməyə çalışdığınızı da görürlər»,* deməkdir.



Çünki nəzəri bir gücə qovuşanlar üçün zahiri pərdələr yox olmuşdur. Buna görə də, onlar həqiqətləri dəqiq bilirlər. Buna görə də, alimin qarısında dili, arifin qarşısında isə könlü qorumaq bir dini ədəbdir.

Bir mürşidin tərbiyə metodu olaraq istifadə etdiyi ən önəmli vasitələrdən birinin göz (nəzər) olması baxımından saliklər üçün mürşidin nəzərinə layiq olmaq böyük bir bəxtiyarlıq olaraq qəbul edilmişdir.

Bir Xatirə

İmam Xətib məktəbində oxuduğum illər idi. Əhməd Can adlı gözəl bir könül insanı tanıdım. Pakistanlı idi. Həzrət Samiyə məftun idi. Rəhmətlik atam Musa Əfəndini -*qüddisə sirruh*- çox sevər, yanından ayrılmaq istəməzdi. Belə ki, tez-tez Türkiyəyə həzrət Saminin ziyarətinə gələndə bağçamızda olan qonaq evində qalırdı.

Könlü elə dərin bir məhəbbətlə dolu idi ki, söhbət olmadığı günlərdə belə, həzrət Samini görmək şövqü ilə alışıb-yanır və həzrət Pirin evinin ətrafında dolaşırdı. Bir axşam bu məhəbbətin onda necə meydana gəldiyini belə danışdı:

«Bir həcc mövsümü idi. Rövzeyi-Mutahharada Əshabi-Suffə deyilən yerdə oturmuşdum. Bu zaman çox zərif, təmiz üzlü və üzünə baxanda Allahı xatırladan bir möhtərəm şəxs yanında olan nurlu bir camaat ilə önümdən keçdi. Tam qarşımda olarkən mənə bir **nəzər** etdi.

O mələk gözlərin nəzəri ilə bir anda başqa bir iqlimə, ayrı bir dünyaya girdim. Hər şey dəyişdi. Aldığım mənəvi həzzdən az qaldım özümü itirəm. Bir anda o misilsiz insana məftun olmuş, yarı bayılmış bir halda yıxılmışdım. Az sonra bir az özümə gəldim. Dərhal o möhtərəm şəxsi tapmağa çalışdım. Ancaq Rövzeyi-Mutahharanın o məşhur sıxlığında bu mümkün olmadı.

Yenə eyni yerdən keçə biləcəyini düşünərək orada gözləməyə başladım. Şükür ki, ümidim boşa çıxmadı. Sevinclə onu izləməyə başladım. Ətrafındakılar məni bir dilənçi zənn etmişdilər. Bir neçə şəxs mənə yaxınlaşıb sədəqə vermək istədi. Ancaq qəbul etmədim. Əslində, varlı bir adam da deyildim, ancaq o saleh şəxsin nəzərlərinin

bərəkəti ilə dünyaya aid olan hər şey gözümdə dəyərini itirmiş və artıq başqa bir qənaət dəryasına qərq olmuşdum. Nəhayət, bir evə çatdılar və içəri girdilər. Mən də arxalarından evə girmək istəyəndə yanındakılar tanımadıqları üçün, təbii ki, mane oldular. Ancaq o ariflər sultanı həzrət Sami arxaya döndü və lütf edib məni də içəriyə buraxdı. O gün, o evdə bu böyük şəxsin çoxsaylı təcəllalərinə, **nəzər** və **təvəccöh**ünə nail oldum.

Əlhəmdulilləh, o nəzər və təvəccöhlərlə bütün həyatım dəyişdi, gözəlləşdi və artıq başqa, çox incə əbədi bir dünyanın insanına çevrildim. İndi hər il bir az pul yığıb bura gəlirəm. Onun nəzər və təvəccöhündən istifadə edə bilmək könlümün ən böyük mənəvi qazancı və yeganə istəyidir.»

Öz (Mahiyyət)

Mürşidin, müridin ruh və qəlbində idarə etmək üçün istifadə etdiyi ən təsirli və qısa vasitə mahiyyətdir (özdür). Bu, *«qüddisə sirruh»* deyərək andığımız vəlidəki *«sirr»*in istifadə edilməsi ilə icra olunur. Bu vasitənin mahiyyətini ancaq onu istifadə edən bilir. Bu təsəvvüfün hal qisminə daxildir, söz qisminə aid olmadığından kitablarda bu məsələyə yer verilmir.

e. Dua

Kamil mürşidin təriqət yolçusunu yönləndirmək üçün istifadə etdiyi vasitələrdən biri də duadır. Bu da Rəsulullahın -səllallahu əleyhi və səlləm- sünnəsinə bağlı olan bir keyfiyyətdir.

Bilindiyi kimi, həzrət Ömər (r.a) müsəlman olmamışdan öncə təsəvvür edilə biləcək pisliklərin ən dəhşətlisi olan həzrət Peyğəmbəri qətl etmək günahına batmağa çalışırdı. Ancaq Rəsulullahın -səllallahu əleyhi və səlləm- daha əvvəl olmuş bir duasının bərəkəti ilə bu günahından əl çəkib hidayətə qovuşmuşdu. Kainatın Fəxrinin -səllallahu əleyhi və səlləm- həyatında buna bənzər hadisələr çoxdur.

Məlum olduğu kimi, həzrət Peyğəmbərdən -səllallahu əleyhi və səlləm- Taif mühasirəsində müsəlmanlara çox ziyan vurmuş olan Sakif qəbiləsinə bəd dua etməsi istəniləndə o rəhmət Peyğəmbəri onların doğru yolu tapması üçün dua etmiş və bu duanın bərəkəti

ilə qısa bir müddət sonra o qəbilə müsəlman olaraq Rəsulullahın hüzuruna gəlmişdi.[34]

Şeybə adlı bir səhabə bu hadisəni belə anladır:

«Huneyn günü Rəsulullah -səllallahu əleyhi və səlləm- ilə birgə döyüşdə iştirak etdim. Ancaq müsəlman olduğum və Peyğəmbəri qəbul etdiyim üçün deyil, sadəcə Həvazin qəbiləsinin Qureyş üçün əsgər toplaması və döyüşə başlaması mənə ağır gəldiyi üçün vuruşurdum. Müharibə zamanı Rəsulullah -səllallahu əleyhi və səlləm- ilə birgə olarkən ona dedim:

- Mən qara, ağ atlar görürəm.

Rəsulullah -səllallahu əleyhi və səlləm- buyurdu:

- *Şeybə! Müsəlmanların yardımına gələn bu atları ancaq kafirlər görər.*

Sonra əlini kürəyimə vurdu və belə dua oxudu:

- *Ey Rəbbim! Şeybəyə hidayət ver.*

İkinci və üçüncü səfər eyni duanı təkrar edərək kürəyimə vurdu. Üçüncü dəfə vurandan sonra əlini kürəyimdən qaldırdığı zaman yer üzündə mənə Ondan daha sevimli başqa bir şəxs yox idi.» (İbn Kəsir, «əl-Bidayə», IV, 333)

Məşhur Ravi Əbu Hureyrənin anası da iman etməsi ilə bağlı oğlunun çoxsaylı təklifini rədd etmiş olduğu halda, sonda həzrət Peyğəmbərin duasının bərəkəti ilə hidayətə qovuşmuşdu.[35]

Duanın bu təsir gücü həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- varislərində də çoxdur. Bu da bərəkətli bir vasitə, yəni islah yoludur.

Dua istənilən halda bir nəticə meydana çıxarar. Əgər duadakı istək mütləq qədərə zidd olduğuna görə nəticəsiz qalırsa, onun əvəzindəki ilahi nemət axirətdə təcəlla edir. Bu məsələ də hədisi-şəriflərdə sabitdir.[36]

34. Baxın, İbn Hişam, «əs-Sirə», IV, 103.

35. Baxın, Müslim, «Fəzailüs-Səhabə», 158.

36. Baxın, Əhməd İbn Hənbəl, «Müsnəd», III, 18.

Başqa yöndən, duanın bir bərəkət hasil edə bilməsi üçün mütləq yüksək və saleh bir şəxsiyyətin dilindən deyilməsi də şərt deyil. Əgər dua səmimiyyətlə və həqiqətən arzu edilərək deyilmiş olsa, bu kifayətdir. Bu təqdirdə bir mömin qardaşı üçün günahkar bir möminin duasının belə böyük bir qiyməti var. Çünki uca Allah bəndəsi nə qədər günahkar olursa-olsun, ondan əl çəkməz. Əgər elə olsaydı, qüsurlu bir şəxsin xətasını söyləməyi «qeybət» adı ilə böyük bir günah olaraq elan etməzdi.

Buna görə də, günahkar olan şəxslərin *«Mənim duamdan nə çıxar»* düşüncəsi ilə Məhəmməd ümmətinə və sevdiklərinə dua oxumaqdan imtina etmələri doğru bir davranış deyil. Çox günahkar bir bəndənin bir başqasına duası belə, səmimi və özü üçün edirmişcəsinə olduğu təqdirdə məqbul ola bilər. Uca Allah istədiyi bəndəsinin duasını qəbul edər.

Bu məqsədlə duanın başqa xüsusiyyətlərindən də bir az danışmaq faydalı olar.

Rəsulullah -səllallahu əleyhi və səlləm- möminlərin bir-birinin yanına gələrək, ya da bir-birinin yanında olmadığı halda, dua etmələrini hər zaman tövsiyə etmişdir. Ümrə ziyarəti üçün ondan icazə istəyən həzrət Ömərə (r.a) belə deyərək ondan dua istəmişdi:

«Bizi də duanda unutma, qardaşım!» (Tirmizi, «Dəavat», 109; Əbu Davud, «Vitr», 23)

Həzrət Ömər (r.a) bu iltifatlı istək qarşısında öz halını belə təsvir etmişdir:

«O qədər sevindim ki, sanki dünyalar mənim oldu.»

Şübhəsiz ki, Rəsulullah -səllallahu əleyhi və səlləm- Allah yanında yaradılmışların ən şərəflisidir. Belə olduğu halda, o Varlıq Nuru əshabından dua istəmişdi. Bu vəziyyət kamal əhli olan şəxslərin mövqe baxımından onlardan daha aşağı səviyyədə olanların dualarından da istifadə edə biləcəklərinə bir işarədir.

Rəsulullah -səllallahu əleyhi və səlləm, həzrət Ömərə (r.a) belə buyurmuşdur:

«Tabiinin ən xeyirlisi Üveys adlı bir şəxsdir. O, Allaha and içsə, uca Allah onu andında mütləq sadiq edər. Artıq sizdən kim onunla qarşılaşsa, o sizin üçün bağışlanma istəsin.»[37]

Həzrət Ömər (r.a)-da nəhayət, həzrət Veysəl Qərani ilə qarşılaşıb ondan dua istəmişdir.

Göründüyü kimi, fəzilət və təqva sahibi olan saleh şəxslərdən bəla və sıxıntıların yox olması və xeyir işlərin olması üçün dua istəmək şəxsən Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- ümmətinə tövsiyələrindən biridir.

37. Baxın, Müslim, «Fəzailüs-Səhabə», 223-225.

Sən (hər zaman) **əfv yolunu tut, yaxşılığı əmr et…**

(əl-Əraf, 7/199)

E. TƏSƏVVÜFİ ÜSLUB

1. HİDAYƏT və RƏHMƏT ÜSLUBU

Təsəvvüfdə tərbiyənin məzmunu kimi, üslubunun da böyük əhəmiyyətinin olduğunu çox yaxşı bilən kamil mürşidlər bu mövzuda da nəbəvi bir yol tutaraq çoxsaylı insanların hidayətə qovuşmasına vəsilə olmuşlar. Mənəvi tərbiyədə saliklərin inkişaf etməsi baxımından onlara şəfqət və mərhəmətlə yaxınlaşmağı özləri üçün düstur seçmiş və bu yolla da səmərəli nəticələr əldə etmişlər. Allah dostlarının həyatı bu məsələlərlə bağlı saysız-hesabsız misallarla doludur. Böyük mütəsəvvif həzrət İbrahim Haqqı Ərzurumlunun bu hekayəsi çox ibrətlidir:

«Mübarək Ramazan ayında vəz və nəsihət etmək üçün Ərzurumun bir kəndinə dəvət edilən həzrət İbrahim Haqqını kəndə gətirmək üçün pul ödənmək şərtilə bu işləri yerinə yetirən və müsəlman olmayan bir xidmətçi ilə at göndərilmişdi. Onlar yola çıxdılar, ancaq minik bir dənə olduğundan həzrət İbrahim Haqqı, həzrət Ömərin (r.a) Qüdsə gedərkən köləsi ilə birgə növbələşərək dəvəyə minməsi ilə bağlı gözəl əxlaq nümunəsini tətbiq etdi. Müsəlman olmayan xidmətçi buna çox etiraz etdi və belə dedi:

- Kəndlilər bu vəziyyəti eşitsələr məni danlayarlar, pulumu da verməzlər!

Həzrət:

- Övladım! Son nəfəsdə halımızın necə olacağı məchuldur! Sən kəndlilərin səni danlamasından qorxursan, mən isə Allahın hüzurunda veriləcək olan böyük hesabdan qorxuram!,-buyurub ata minmək məsələsini növbəyə qoydu.

İlahi hikmət nəticəsində tam kəndə çatacaqları zaman həzrət Ömərin (r.a) misalında olduğu kimi, sıra xidmətçiyə çatdı. Kəndlilərdən qorxan adam öz haqqından imtina etdiyini bildirərək həzrətin ata minməsini təkid etdi.

Ancaq Həzrət belə dedi:

- Sıra sənindir!

Həzrət bundan sonra atın önündə gedərək kəndə girdi.

Xalq bu halı görəndə dərhal xidmətçinin ətrafına toplaşdı və onlar belə dedilər:

- Vay sənin halına! Gəncliyinə baxmayaraq ata minmisən, bu ağsaqqal qoca ustad isə piyada gedir! Sənin sədaqətin budurmu?! Biz sənə belə dedikmi?!

Bu vaxt həzrət İbrahim Haqqı məsələni izah etdi və kəndlilər xidmətçidən əl çəkdilər. Bunu görən kəndçilərdən biri müsəlman olmayan xidmətçiyə dedi:

- Ey adam! Bu qədər fəziləti gördün və yaşadın! Heç olmasa, müsəlman ol!

Xidmətçi bir neçə dəqiqəlik sükutdan sonra oradakılara bu ibrətli cümləni söylədi:

- Əgər sizin dininizə dəvət edirsinizsə, əsla sizin dininizə girmərəm! Ancaq bu mübarək şəxsin dininə dəvət edirsinizsə, onun dininə hələ yolda ikən iman etmişəm!»

Bir dərya kimi könlü olan bu Haqq dostu ilə bağlı olan misal bir hidayət və rəhmət üslubunu ortaya qoyur. İnsana daha çox onun xarakterinə baxaraq davranmaq müəyyən mənada yaradılana Yaradanın nəzəri ilə baxa bilməkdir. Bunun üçün saleh könüllər insana uca Allahın yer üzündəki *«xəlifə»*si olmaq şərəfi bəxş edildiyini və ona ayədəki ifadəsi ilə Rəbbin: **«Öz ruhundan** (qüdrətindən bir sirr) **üfürmüş»**[38] olduğunu bilirlər. Onlar günahlarla nə qədər kirlənmiş olsalar da, qulun mahiyyətindəki mükəmməlliyə baxaraq ondan üz çevirməzlər. İnsandan asanlıqla ümid kəsilməz. Kamil mürşidlər insanın ümidini itirməməsini təmin edərlər. Bu, həqiqətən, inkar olunmayacaq əqli və hissi bir səbəbdir. Belə ki, uca Allah Qurani-Kərimdə bizə ən çox **«Rəhman və Rəhim»** adını təlqin etmiş, hətta, mərhəmətinin bütün məxluqata şamil olduğunu göstərən «ər-Rəhman» mübarək adını daşıyan bir surə nazil etmişdir. Bu surənin ilk ayəsi də «ər-Rəhman»dır.

Bu baxımdan, insana bu könül pəncərəsindən, yəni hidayət və rəhmət üslubu nəzərindən yaxınlaşmaq ilahi rizaya ən uyğun və nəticə baxımından da son dərəcə bərəkətli və insanda mövcud olan ülvi gözəllikləri cücərdəcək bir xüsusiyyət ehtiva edir. Çünki bu üslub həm tətbiq edənə, həm tətbiq edilənə, yəni hər iki tərəfə də ayrı bir lətafət, kamillik, məhəbbət, Haqqa rəğbət xüsusiyyətləri qazandıran bir vasitədir. Bu üslub Yunusları Yunus, Mövlanaları Mövlana edən bir iksirdir. Bu iksir mənəvi baxımdan ölməkdə olan çoxsaylı xəstə ruhlar üçün də bir abi-həyat kimidir.

Onun üçün təsəvvüfün istər mahiyyəti, istərsə də islami təbliğdə ona aid üslubun istifadə edilməsi, hər zaman böyük bir əhəmiyyət ərz etmişdir. Tarixi bir gerçəkdir ki, Anadolunun ictimai nizamının Monqol istilaları ilə sarsıldığı dövrdə yetişən Mövlana və Yunus Əmrə kimi böyük mütəsəvviflər, sanki bir sülh, əmin-amanlıq və rahatlıq bulağı olmuş, yorulmuş, bezmiş kütlələrə, qanayan yaralara və yorğun könüllərə şəfa və təsəlli vermişlər. Onlar çox qafilləri, xilas olmağı gözləyən bir xəstə kimi qəbul etmişlər və onlara münasibətlərində «kin və nifrət»dən hər zaman uzaq olmuşlar. Yunus Əmrə çox gözəl söyləyir:

38. Baxın, «Hicr» surəsi, 29.

Ben gelmedim davı[39] için,
Benim işim sevi için.
Dostun evi gönüllerdir,
Gönüller yapmaya geldim!

Bu böyük şəxsiyyətlər könülləri nurlandırmağa gəldiklərindən insanlara hər zaman könül pəncərəsindən baxmışlar, ətraflarına daima məhəbbət və şəfqət çiçəkləri səpmişlər və bu yolla da çox insanın doğru yol tapmasına vəsilə olmuşlar. Əgər onlar bu gözəl və qabiliyyətli davranışların əksinə hərəkət etsəydilər, arada uçurum olan insanlarla əlaqə tamamilə qopar və nəhayət, bu kimi şəxslərə Haqqı təbliğ etmək imkanı yox olardı. Bu da ilahi istəyə ziddir. Çünki uca Allah bəndələrinin onların içinə düşdüyü bataqlıqdan xilas edilməsini istəyir. Bunun üçün insanlıq tarixi boyunca minlərlə peyğəmbər göndərmiş və gözəl üslubla könülləri saflaşdırmağı onlara əmr buyurmuşdur. Bu məqsədə uyğun olaraq insanlara lütf edilən Allah dostları da onların mənəvi tərbiyəsində bu nəbəvi üslubu davam etdirmişlər.

Şəfqət və mərhəmətin yeganə qaynağı olan uca Rəbbimiz bəndələrinin haqq dinə dəvət edilməsində seçilməsi zəruri olan təsirli üslubu belə bəyan edir:

«(Ey Rəsulum!) **İnsanları hikmətlə** (Quranla, tutarlı dəlillərlə)**, gözəl öyüd-nəsihət** (moizə) **ilə Rəbbinin yoluna** (İslama) **dəvət et, onlarla ən gözəl surətdə** (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) **mücadilə et…»** (ən-Nəhl, 16/125)

«(Xalqı) **Allaha tərəf çağıran, yaxşı iş görən və: «Mən müsəlmanlardanam!»-deyən kəsdən daha gözəl danışan kim ola bilər? Yaxşılıqla pislik eyni ola bilməz!** (Ey mömin kimsə!) **Sən** (pisliyi) **yaxşılıqla dəf et!** (Qəzəbə səbirlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver!) **Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən!»** (əl-Fussilət, 41/33-34)

39. Davı: Dava, iddia.

Tövsiyə edilən bu ilahi üslubun tətbiqi nəticəsində tarixdə çox tikanlaşmış ruhlar gülə çevrilmiş, zindan kimi sinələr nura qərq olmuşdur.

Bu həqiqətdən çıxış edərək həzrət Mövlana -qüddisə sirruh- istər inancsız, istərsə günahkar insanları doğru yola yönəltməyin önəmini və bu məsələ ilə bağlı zəruri olan üslubu belə tələqin edir:

«Dəmir, qapqara və nursuz olmaqla birgə, silinib cilalandığı zaman ondakı pas gedər! Bir ayna dəmirdən olsa da, cilalananda üzü parlayar və gözəlləşər, orada şəkillər, surətlər görünər.»

«Könül şəhərinin suyunu bulandırma ki, orada ay və ulduzların hərəkətini görə biləsən! Çünki insanlar bulağın suyuna bənzərlər, su bulanan da onda heç bir şey görə bilməzsən!»

❁

Həzrət Mövlananın buyurduğu kimi, insanın ruhu parlaq bir su kimidir. Ancaq pis işlər və günahlarla kirlənəndə orada heç bir şey görmək olmaz. Belə vəziyyətdə mənəviyyat incilərini və həqiqət nurlarını görə bilmək üçün o suyu durultmaq lazımdır. Başqa sözlə, təsəvvüfün qayəsi nəfsani duyğuları tərbiyə edib, fərdləri və bu yolla da cəmiyyətləri sülhə, əmin-amanlığa, dincliyə qovuşdurmaqdır. Çünki uca Allah insanı incəlik, zəriflik və ülvi dərinliklərlə bəzəmişdir. İnsanın əsl qiyməti də bu keyfiyyətləri qəlb aləminə yerləşdirib, inkişaf etdirmək ölçüsündədir. Ruhaniyyət dolu qəlblər gözəl əxlaq, saleh əməl və mənəvi halların təzahürünə açıqdır. Bu şəkildə bəndə ən gözəl biçimdə, yəni *«əhsəni-təqvim»* olaraq yaradılmışdır və bunun tələb etdiyi şərtləri yerinə yetirməlidir.

Bu baxımdan küfr, şirk və günahda nə qədər çirkaba batırsa-batsın, heç bir insan hidayət dəvətinə ünvan seçilməkdən məhrum olmamalıdır. Bunun səadət əsrində çoxsaylı misalları var. Onlardan biri belədir:

«Allah Rəsulu -səllallahu əleyhi və səlləm- əmisi həzrət Həmzəni şəhid edərək onu dərin bir kədərə qərq edən Vəhşini İslama dəvət etmək üçün onun yanına bir səhabə göndərdi. Vəhşi isə Rəsulullaha -səllallahu əleyhi və səlləm- belə cavab verdi:

- Ey Məhəmməd! Sən **«Onlar Allahla yanaşı başqa bir tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə qıymaz** (onu öldürməz)**, zina etməzlər. Hər kəs bunu** (bu işləri) **etsə, cəzasını çəkər. Qiyamət günü onun əzabı qat-qat olar və** (o, əzab) **içində zəlil olub əbədi qalar.»** (əl-Furqan, 25/68-69) deyə, Allahın hökmünü bəyan etmiş olduğun halda, necə olur ki, məni İslama dəvət edirsən? Mən ki bu çirkinliklərin hamısını etdim. Mənim üçün bir qurtuluş yolu varmı?

Bu hadisədən sonra uca Allah aşağıdakı ayəni nazil etdi:

«(Ey Peyğəmbər! Mənim adımdan bəndələrimə) **de: «Ey Mənim** (günah törətməklə) **özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah** (tövbə etdikdə) **bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!»** (əz-Zümər, 39/53)

Nəhayət, Vəhşi ayeyi-kərimədəki müjdə ilə fərəhləndi və: «Rəhmətin nə qədər də böyükdür, ey Rəbbim!»,-deyərək tövbə etdi və dostları ilə birlikdə müsəlman oldu.

Həzrət Həmzəni Uhudda şəhid edən Vəhşi artıq həzrət Vəhşi (r.a) idi. O, bu hidayət və bağışlanmanın mənəvi həzzi içində uca Allahın onu bağışlamasını ümid edərək, həzrət Həmzəni öldürməsinə qan bahası olaraq, peyğəmbərlik iddiasında olan Müseylemətül-Kəzzabı bütün təhlükələri göz önünə alıb qətl etdi və bu yolla da bir fitnəyə son qoydu.

Peyğəmbərin -səllallahu əleyhi və səlləm- yanındakı səhabələr belə dedilər:

- Ey Rəsulullah! Bu bağışlanma və mərhəmət ancaq Vəhşiyə aiddir, yoxsa bütün müsəlmanlara?

Rəsulullah -səllallahu əleyhi və səlləm- belə buyurdu:

- *Bütün müsəlmanlar üçündür.»*[40]

Məqbul olan bir tövbəyə yönələn könüllər bu rəvayətdən də

40. Baxın, Heysəmi, «Məcmauz-Zəvaid», X, 214-215.

göründüyü kimi həqiqi və kamil mənadakı mərhəmətin, məhəbbətin ən təsirli nəğmələrini həzrət Peyğəmbərdən -səllallahu əleyhi və səlləm- duymuşdur. Bir sözlə, bütün insanlıq aləmi təsəlli, şəfa və fərəh verən tərənnümləri Onun mübarək dodaqlarından eşitmişdir. Ucsuz-bucaqsız əfv və kərəm dənizini və onun ümid sahilini Varlıq Nurunun kərəmi ilə görmüşdür. Bütün günahlara baxmayaraq, **«Ey mənim bəndələrim!»** şəklindəki mərhəmətli ilahi xitaba da o Kainatın Fəxrinin hörmətinə nail olmuşdur.

Bu baxımdan, Allahın rəhmət və mərhəmətini ön plana çıxararaq ümidverici bir üslubla təlqin etmək yaşadığımız dövrdə mənfi materialist təsirlərlə Qərbdəki oxşar mənəvi böhran içində yaşayan cəmiyyətimiz üçün çox önəmlidir. İnsanları ağıl savaşlarına sürükləmək deyil, duyğu ilə qazanmaq daha doğru bir yoldur. Çünki bir çoxları əqli baxımdan yanlış yönləndirilmiş ola bilər. Ona görə də, mübahisə və münaqişə ilə kimisə razı salıb doğru yola yönəltmək imkan daxilində deyil. Çünki mənfi münasibət əqli dəlilləri qəbul etməyə maneə olur. Qəlblərin həqiqətlə ünsiyyət qurması üçün hər şeydən öncə bir anlayışla yanaşıb onların içindəki doğru təmayüllərin cücərməsinə çalışmaq daha təsirli bir metoddur.

❁

Xəta, üsyan və günahlara batmış bir insanı tənqid etmədən, eyiblərini sadalamadan və dini əmrləri yerinə yetirməsini istəmədən öncə onun qəlbini qazanmağa diqqət yetirilməlidir. Bunun üçün şəxsi yaxınlıq və təlqinin təsir zəminini yaradacaq məhəbbətli bir əlaqə qurmağa çalışmaq lazımdır. Üz tutduğun insanın qəlbi bu yolla hazır bir hala gətirildikdən sonra xətalar yavaş-yavaş düzəldilə bilər. Bundan başqa maddi və mənəvi bəxşişlərin üz tutulan ünvanda oyandıracağı ruhi əlaqənin bərəkətli səmərəsini göz önündə tutmaq gərəkdir. Bu məsələ ilə bağlı həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- günah dumanları ilə boğulmuş könüllərə səmavi bir pəncərə açıb onlara təzə nəfəslər verməyin zəruri olduğunu ifadə edən bu sözlərinin mənasını dərindən anlamaq lazımdır: *«Şəfaətim özəlliklə ümmətimdən böyük günah işləmiş olanlar üçündür.»* (Əbu Davud, «Sünnə», 20)

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- günahkarlara qarşı bu münasibətini həzrət Mövlana çox gözəl izah edir:

«Dərman sağaltmaq üçün xəstə və yaralı şəxslər axtarar. Harada bir dərd varsa, dərman ora gedər. Harada alçaq və çuxur yer varsa, su ora axar!»

«Sənə rəhmət və mərhəmət suyu lazımdırsa, sən də belə et!»

Ancaq dərman və məlhəmin təsiri üçün hər şeydən öncə yaranın mikroblardan təmizlənməsi zəruridir. Bu da xəstə könüllərin günah mikrobundan təmizlənməsi, yəni tövbə suyu ilə yuyulması deməkdir. Dərman, yəni şəfaət bundan sonra gerçəkləşir.

Belə ki, bir hədisi-şərifdə buyurulur: *«Günahlarına peşmanlıqla tövbə edən heç günah etməmiş kimi olar!».* (İbn Macə, «Zöhd», 30)

Bu mübarək sözlər bir yandan müjdə, başqa yöndən də bu müjdənin şərtini ifadə edir.

Bu ölçü çərçivəsində hidayət və rəhmət üslubundakı ülvi incəliyə bütün peyğəmbərlər əməl etdiyi kimi, onların yolu ilə gedən Allah dostları da diqqətlə əməl etmişdir. Buna uyğun olaraq imanın ilk meyvəsinin mərhəmət olduğu dərk olunmuş və qulluq qısa olaraq bu iki ölçü çərçivəsində izah edilmişdir:

- «Təzim li-əmrillah», yəni Allahın əmrlərini ehtiramla yerinə yetirmək.

- «Şəfqət li-xəlqillah», yəni Yaradandan ötrü yaradılanlara şəfqət və mərhəmət göstərmək.

Allah dostlarından Fudayl bin İyazın halı bu ölçülərlə yaşayan möminin könülünə çox gözəl bir misaldır: «Onu bir dəfə ağlayarkən gördülər:

- Niyə ağlayırsan?,-dedilər.

O da:

- Mənə zülm edən bir zavallı müsəlmanın halına üzüldüyümə görə ağlayıram. Bütün kədərim qiyamətdə onun rəzil olması ilə bağlıdır…»,-buyurdu.

Bu kamil insanları belə rəhmət və mərhəmətə sövq edən gücün səbəbini həzrət Mövlana belə şərh edir:

«Rəhmət dənizləri coşanda daşlar da abi-həyat içər. Yüz illik ölü məzarından çıxar. Şeytan ruhlu qara simalar hurilərin belə qısqanacaqları gözəl bir mələk olur.»

Rəvayət edildiyinə görə, həzrət İbrahim bin Ədhəm bir sərxoşun pis qoxulu və bulaşıq ağzını yumuşdur. Bunu görənlər ondan nə üçün belə etdiyini soruşanda bu cavabı vermişdir:

- Əgər uca Allahın adını zikr etmək üçün yaradılan dil və ağzı bulaşıq saxlasam, hörmətsizlik olar…

Adam ayılanda ona belə demişlər:

- Xorasan zahidi İbrahim bin Ədhəm sənin ağzını yudu.

Bu vəziyyətdən peşman olan sərxoşun könlü oyandı və o belə dedi:

- Elədirsə, mən də tövbə etdim.

Belə bir hala vəsilə olan İbrahim bin Ədhəmə yuxusunda Haqq yanından belə buyuruldu:

«Sən Bizim üçün onun ağzını yudun! Biz də sənin üçün onun qəlbini yuduq!»

❁

Uca Allah, həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- və onun şəxsində bütün ümmətə Qurani-Kərimdə belə buyurur:

«Sən (hər zaman) əfv yolunu tut, yaxşılığı əmr et…» (əl-Əraf, 7/199)

Bu əmrin tətbiq edilməsində şübhəsiz ki, Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bizim üçün çox gözəl və mükəmməl bir örnəkdir. Onun göstərdiyi gözəl əxlaq, mərhəmət və əfv təzahürləri, sanki mələkləri belə qısqandıracaq, əlçatmaz bir zirvədədir. Bu nümunələrdən biri belədir:

«Məkkənin fəthi günü Allah Rəsulu -səllallahu əleyhi və səlləm-

ümumi bir əfv elan etmişdi. İllər boyu zülm və düşmənlikdən başqa bir şeyə şahid olmayan Məkkə o gün nümayiş etdirilən böyük bir əfv bayramı ilə misilsiz məhəbbət və mərhəmət təcəllaları yaşayırdı. Ancaq məkkəlilərdən Fudalə adlı bir şəxs bu gözəlliyə kölgə salmaq üçün həzrət Peyğəmbəri -səllallahu əleyhi və səlləm- öldürmək məqsədi ilə onun yanına soxuldu. Onu tanıyan və niyyətini bilən Allah Rəsulu -səllallahu əleyhi və səlləm- təlaş keçirmədi, qəzəblənmədi, şəfqət və mərhəmət qanadlarını açaraq sakit bir tərzdə Fudaləyə belə dedi:

- Sən Fudalə deyilsən?

Fudalə:

- Bəli!

Bundan sonra o aləmlərə rəhmət olan Peyğəmbər belə buyurdu:

- Ey Fudalə! Zehnində düşündüyün şeydən tövbə et, bağışlanma istə!

Sonra Peyğəmbər mübarək əllərin Fudalənin köksünə qoydu.

Beləliklə, o anda Fudalənin düşüncəsindəki Peyğəmbəri öldürmək fikri yox oldu, qəlbi iman nuru ilə doldu və Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bir anın içərisində onun üçün yaradılanların ən sevimlisi oldu.[41]

Heç şübhəsiz ki, bu hal *«Səni öldürməyə gələn səndə dirilsin!»* şəklində ifadə edilən çox üstün bir davranış və kamillikdir. İslam tarixi bunun misilsiz və saysız-hesabsız misalları ilə doludur. Belə ki, başda həzrət Ömər və bir çox başqaları bu gözəl üslubun qiymətli meyvələri olmuşlar.

Həzrət Mövlana buyurur:

«Allahın rəhmətinin kamalı və kərəm dəryasının dalğalanması nəticəsində hər məhsuldar olmayan yerə yağış yağır, hər susuz yer suya qovuşur!»

41. İbn Hişam, «əs-Sirə», IV, 46; İbn Kəsir, «əs-Sirə», III, 583.



«Ey hidayətə çağıran! Bil ki, kəm baxan gözün dərmanı, yaxşı baxan gözdür! Yaxşı göz və gözəl baxış kəm baxan gözü ayağı altında əzib yox edər. Yaxşı göz və təmiz baxış Allahın rəhmətinin qəhrindən daha üstün olması ilə bağlıdır. Rəhmətdəndir. Pis göz isə qəhrdən, yəni lənətdən irəli gəlir. Başqa sözlə, gözəl baxış Haqqın rəhmətindən olduğu üçün pis gözə qalib gəlir. Bu hal qüdsi hədisdəki:

«Rəhmətim qəzəbimdən çoxdur» (Buxari, «Tövhid», 55)*, bəyanının bir təcəllasıdır. Bunu da bil ki, Allahın rəhməti hər zaman qəhrindən üstündür. Bu baxımdan hər bir Peyğəmbər ona qarşı olan düşmənlərinə qalib gəlmişdir.»*

«Deməli, bəlanı aradan qaldırmağın çarəsi azğınlıq etmək, zülm etmək deyil. Onun çarəsi əfv etmək, bağışlamaq və kərəmdir. «Sədəqələr bəlanı dəf edər»[42] *nəbəvi xəbərdarlığı səni oyandırsın. Artıq xəstəlik və bəlaları müalicə etmək üsulunu yaxşı anla!..»*

«Ancaq bunu da unutma ki, zalımları bağışlamaq, məzlumlara zülm etməkdir. Oğrulara və hər cür pis insanlara yazığı gəlmək, zəif insanları döymək, onlara mərhəmət etməməkdir!»

Bu tarazlığa gözəl şəkildə əməl etmək zəruridir. Çünki Allah «Qafurur-Rəhim», yəni çox bağışlayan və mərhəmət sahibi olmaqla birgə, «Əzizün- Züntiqam», yəni zülm və haqsızlıq edən insanlara, haqqa təcavüz edənlərə qarşı da onlardan intiqam alan bir izzət sahibidir.

Onun üçün Allah Rəsulu -səllallahu əleyhi və səlləm- bir hədisi-şərifində belə buyurmuşdur: *«Dalaşan iki qardaşınızı gördüyünüz zaman zalıma da, məzluma da yardım edin».*

Bu sözləri eşidən səhabə Ondan soruşdu:

- Ey Rəsulullah! Məzlumu anladıq. Ancaq zalıma necə yardım edəcəyik?

42. Baxın, Tirmizi, «Zəkat», 28; Suyuti, «Camius-Sağır», I, 108.



Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurdu:

- Onun da zülmünə mane olmaqla…» (Buxari, «İkrah», 7; Müslim, «Birr», 62)

Bir sözlə, söyləmək istədiyimiz budur ki, bu gün dünya ilə birlikdə ölkəmizdə yaşayan insanlar da iman və İslam baxımından bir yaralı quş kimidirlər. Diqqətli və həssas bir şəkildə onların yaralarını sarmaq üçün onlara mərhəmət və sevgi ilə yanaşmaq zəruridir. Bu da, əlbəttə, başdan bəri anlatmağa çalışdığımız üslub və məzmun içərisində gerçəkləşdiriləcək bir keyfiyyətdir.

Günahkara qarşı olan dözümlü münasibəti günaha aid etməmək, günaha aid olan düşmənliyi də günahkara yönəltməmək zəruridir. Bu şüurda olan bir mömin təbliğ və tərbiyədə üslub olaraq «tənqidi özünə, dözümü başqasına» metodunu seçməlidir.

2. MÜLAYİM OLMAQ VƏ ŞƏFQƏT ÜSLUBU

İnsana təsəvvüfə aid olan bir gözlə baxmaq, onun günahlarla kirlənmiş mənəviyyatından daha çox mahiyyətinə yönəlmək və ona iltifat göstərmək zəruridir. Təsəvvüfi üslubun günaha deyil, günahkara dözümlü yanaşıb onu mərhəmətlə qucaqlamasının dərin bir hikməti də elə budur. Həqiqi bir təsəvvüf əhli günahkar insanı qanadı qırıq bir quş kimi şəfqət və ünsiyyətə möhtac bir varlıq olaraq qəbul edər. Onun böhranlı ruhunu təskin etməyin, yenidən sağlamlıq və rahatlığa qovuşdurmağın narahatlığını sinəsində hiss edər. Çünki Xaliq üçün məxluqa göstəriləcək şəfqət və dözüm möminləri kamala və fəzilətə qovuşduran ən güclü bir təsir vasitəsidir.

Deyildiyinə görə, əshabi-kiramdan olan həzrət Əbud-Dərda Şamda qazı idi. Bir gün xalqın bir günahkara söydüyünü eşitdi və onlara belə dedi:

- Siz quyuya düşmüş bir adam görsəniz nə edərsiniz?

Oradakılar:

- İp sallayıb çıxartmağa çalışarıq.

Həzrət Əbud-Dərda:

- Elədirsə, günah quyusuna düşmüş bu adamı da niyə bir ip sallayıb xilas etməyi düşünmürsünüz?

Onlar çaşdılar:

- Sən bu günahkara düşmən deyilsənmi?

Həzrət Əbud-Dərda da bu hikmətli cavabı verdi:

- Mən onun özünə və şəxsiyyətinə deyil, günahına düşmənəm!».

Bu misalda həzrət Əbud-Dərdanın mömin könüllərə yerləşdirmək istədiyi çox dərin hikmətlər var. Bu hikmətlər uca Allahın əmr və rizası ilə həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- uca əxlaqından ümmətə yönəlmiş ülvi təsirlərdir ki, bunlar İslam tarixində bir kamillik düsturu olaraq hidayət sevincinə və nuruna vəsilə kimi dərk edilmişdir. Bu hikmətlər saleh əməl sahibi olan insanların torpağında kök ataraq bir üsluba çevrilmişdir.

Bu üslub günahkarı günah içində boğmayıb, onu anlayış, əfv, mərhəmət və məhəbbət iqlimində, tövbə dəryasında arındırmaq cəhdidir. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm, Əbu Cəhil kimi müşriklərin ən azğınına belə incə bir üslubla yaxınlaşmış və onların düşdüyü günah çuxurlarını eşələyib etdikləri rəzalətlərlə məşğul olmamış, sadəcə və sadəcə imanın qurtuluş və səadət dəryasında tərtəmiz olmağa çalışmışdır. Belə ki, uca Allahın iman və tövbəyə sarılan şəxsin əvvəlki günahlarını silməsi, onlara heç bu günahları etməmiş insanlar kimi münasibət göstərməsi, hətta, səmimiyyət ölçüsündə o günahların hamısını savab dəftərinə yazması, bu məsələdə bizə yol göstərən böyük bir hikmət örnəyidir.

Ayeyi-kərimədə buyurulur:

«Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa! Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayandır, rəhm edəndir!» (əl-Furqan, 25/70)

Bu uca mərhəmətdən pay almayanlar həm özlərinin, həm də insanlığın düşmənidirlər. Belə mərhəmət və şəfqət bilməyən qafil-

lər əbədi qismətlərinin yollarını bağlayan zavallılardır. Ancaq mərhəmət qaynağına qovuşan Mövlanalar, Yunuslar kimi Haqq dostları insanların da dostları olaraq hər kəs tərəfindən, hətta, qurdu və quşu ilə bütün bir kainat tərəfindən sevilən nur üzlü bir cənnət güllərıdir. Onlar tikanların üzərində belə aləmə gözəllik bəxş edir və yaralı könülləri müalicə edirlər. Önəmli olan da elə budur, yəni gül təbiətli ola bilmək. Bu dünya bağçasında tikanları görüb, onlardan inciyərək bir tikana çevrilmək deyil, araya qış kimi çilələr də girsə, onları bahar iqlimi ilə qucaqlayaraq bütün aləmə bir gül ola bilmək…

Həzrət Mövlana çox gözəl buyurur:

«Ay gecədən ürkmədiyi, qaranlıqdan qaçmadığı üçün nurlandı, işıq saçmağa başladı. Gül də o gözəl qoxunu tikan ilə xoş münasibət qurduğu üçün qazandı.»

«Bu həqiqəti güldən də eşit. Bax, o nə deyir: Tikanla birgə olduğum üçün niyə qəmə düşməliyəm, niyə özümü kədərə salmalıyam? Mən ki gülməyi, o pis xasiyyətli tikanla birgə olmağa dözdüyüm üçün əldə etdim. Onun vasitəsilə aləmə gözəlliklər və xoş ətirlər səpmək imkanına qovuşdum…»

Həzrət Əşrəfoğlu Rumi bu hala qovuşmaq üçün zəruri olan üslubu bir beytində belə xülasə edir:

Ol dost için ağuları,
Şeker gibi yutmak gerek!..

❁

Əshabdan biri cəza verə-verə artıq bezdikləri bir içki düşkünü haqqında lənət etmişdi. Bunu eşidən Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə buyurdu:w

«Ona lənət etməyin. Allaha and içərək söyləyirəm, bu adam haqqında bildiyim bir şey varsa, o da onun Allah və Rəsulunu sevməsidir.» (Buxari, «Hüdud», 5)

Mərhum Ramazanoğlu Mahmud Saminin -qüddisə sirruh- bir tələbəsi keçirtdiyi böhran nəticəsində çaşmış və sərxoş bir vəziyyətdə onun qapısına gəlmişdir. Qapını açan şəxs onu danlayaraq belə demişdir:

- Bu nə haldır? Hansı qapıya gəldiyini bilirsənmi?

Danlanan və biçarə adam belə deyərək çarəsizliyini dilə gətirir:

- Məni mərhəmətlə qucaqlayacaq başqa bir qapı varmı!

Baş verənləri içəridən eşidən həzrət Sami tez qapıya gəlir, o könlü zədələnmiş tələbəsini içəri dəvət edir və onu can sarayına çağırır. Onun viranə olmuş könlünü mərhəmət, şəfqət və məhəbbətlə oyadır. Bu könül incəliyi üslubu ilə tərbiyə olunan o şəxs də bütün mənfi xüsusiyyətlərindən xilas olaraq salehlər zümrəsinə daxil olur.

Allah dostlarında müşahidə edilən «Xaliqin nəzəri ilə məxluqata şəfqətlə baxa bilmək» kimi yüksək əxlaq ölçüsü Rəsulullahın -səllallahu əleyhi və səlləm- bu hədisi-şərifində çox gözəl ifadə edilmişdir:

«Nəfsim qüdrət əlində olan Allaha and içirəm ki, bir-birinizə mərhəmət etmədiyiniz müddətdə cənnətə girə bilməzsiniz.

Əshabi-kiram belə dedi:

- Ey Rəsulullah! Bizim hamımız mərhəmətliyik.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə buyurdu:

«- *Mənim nəzərdə tutduğum mərhəmət sizin anladığınız kimi yalnız bir-birinizə olan mərhəmət deyil, əksinə, bütün yaradılmışlara şamil olan mərhəmətdir, bəli, bütün yaradılmışlara şamil olan mərhəmət!..»* (Hakim, «Müstədrək», IV, 185)

İnsan əsl qayəsindən nə qədər uzaq qalırsa-qalsın, insan olmaq heysiyyəti ilə yenə də uca bir şərəf sahibidir. Onun öz cövhərindəki ucalıqlardan xəbərsiz olaraq günah bataqlığına düşməsi, Kəbənin divarındakı qara daşın oradan yerə düşüb kir, pas içində qalması kimidir. Bu hala laqeyd qalaraq dərhal hərəkət etməyəcək bir mömin vicdanı ola bilməz. Bu halda belə, möminlər Həcərül-Əsvədə hörmətlə yanaşarlar. Onu dərhal tozu, torpağı ilə yerdən götürər, göz yaşları içində təmizləyərək əski uca ehtiram mövqeyinə qoymaq üçün bir-biri ilə yarışarlar. Onun cənnətdən çıxmış olduğunu və mahiyyətindəki uca dəyəri düşünərlər. Halbuki, insan da bu qara daş

kimi cənnətdən çıxmışdır. Etdiyi günahlara görə nə qədər aşağı bir səviyyəyə düşsə də, onun mahiyyətində bir dəyər var.

Başqa yöndən heç bir ləyaqətli həkim xəstəsinə «Niyə xəstələndin?», deyə qəzəblənməz. Xəstəlik insanın qüsurlarına görə ortaya çıxmış olsa belə, bunu xəstənin əməl, ya da düşüncəsindən qaynaqlanan zəifliyinin doğurduğu bir nəticə olaraq izah edər. Beləliklə, xəstəyə xəstə olmasına səbəb olmuş amillərə görə əsəbiləşmək yerinə, onun çəkdiyi iztirab və kədəri düşünərək vaxt keçirmədən böyük bir mərhəmət və şəfqətlə onun müalicəsinə yönələr. Həkim bu müalicəyə görə məsuliyyət daşıyır. Elə təsəvvüf əhli də cəmiyyət içində xəstəxana otaqlarını gəzən bir həkimin duyğuları ilə yaşayar. Onun davranışlarına hakim olan bu duyğu da yoldan çıxan insanlar üçün sanki bir xilasedici dərmandır.

Belə bir məlhəmi xəstəyə vermək və dinə görə günahkar olan bir insanı içinə düşmüş olduğu günah bataqlığından qurtarmaq çox böyük bir səadətə yol açar. Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- Xeybər fəthi zamanı hərb meydanında həzrət Əliyə -radıyallahu anh- verdiyi bu tövsiyə də çox ibrətlidir:

«Ey Əli! Bir şəxsin sənin vasitənlə doğru yola qovuşması, sənin üçün ən qiymətli dünya neməti olan qızıl tüklü dəvələrə sahib olmaqdan daha xeyirlidir.» (Buxari, «Cihad», 143)

Bu həqiqət bir ayeyi-kərimədə belə ifadə olunmuşdur:

«… Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa)**, o, bütün insanları diriltmiş kimi olar…»** (əl-Maidə, 5/32)

Bu bir iman məsələsidir. Şübhəsiz, insani duyğu və düşüncələrin xəta baxımından ən ağırı küfrdür. Bundan belə qurtarmaq şansı yumşaq bir üslub ilə davranılacağı halda daha yüksək olduğuna görə, uca Allah, Musanı -əleyhissalam-, Firona iman təlqin etmək üçün göndərəndə ona yumşaq sözlə müraciət etməyi əmr buyurmuşdur. Çünki hidayətə dəvət edənin bu işdə uğuru yuxarıda ifadə edildiyi kimi qazancların ən böyüyünə körpü olan bir saleh əməldir. Uca Allah Fironun küfrdəki şiddətindən qafil deyildi. Başqa sözlə, üz

tutulan şəxs küfrdə Firon dərəcəsində dəhşətli olsa belə, bizim təlqin üsulumuz asıb-kəsmək, təhdid etmək kimi radikal metodlarla deyil, bizi yumşaq söz söyləməyin xeyirli olduğu düşüncəsinə yönəldən ilahi təlimat çərçivəsində olmalıdır.

Həzrət Mövlana çox gözəl buyurur:

«Allahın: «Ey Musa! Firona qarşı yumşaq söz söylə, ona mehribanlıq göstər!», sözünü yaxşı dərk et!»

«Çünki qaynayan yağa su töksən, ocağı söndürər, qazanı da korlayarsan…»

Uca Allahın, həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- şəxsində bütün ümmətə yönəltdiyi bu buyruq ayeyi-kərimədə belə ifadə olunmuşdur:

«(Ey Rəsulum!) **Allahın mərhəməti səbəbinə sən onlarla** (döyüşdən qaçıb, sonra yanına qayıdanlarla) **yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün** (Allahdan) **bağışlanmaq dilə…»** (Ali-İmran, 3/159)

Bu üslub, ancaq günahkar və kafirlər üçün deyil, İslamı ən yüksək səviyyədə yaşamaqda olan insanlara belə, insan olduqları üçün ortaya çıxa biləcək bir sıra zəiflik və qüsurlara qarşı da tətbiq oluna bilər. Çünki qüsuru düzəltməyə çalışarkən günahkarı əzib, onu incidəcək sərt və qaba bir üslub məqsədin ziddinə və bəlkə də tam zidd istiqamətdə nəticələr ortaya çıxara bilər. Çünki belə bir üslubla edilən xəbərdarlıqlarda insanlar bəzən öz doğma ata və anasına qarşı belə, dözümsüzlük göstərə bilirlər. Belə olan halda, onların başqalarına dözümlü yanaşmaları, əlbəttə, çox çətindir. Belə vəziyyətdə deyilən doğrular da könüllərə bir dişli bıçaq kimi mənfi təsir göstərir, öz fayda və cazibəsini itirir.

Həzrət Mövlana buyurur:

«Bir qəbahətinə görə səni danladığı zaman atan belə sənin gözündə bir canavar kimi vəhşi və quduz görünür…»

«Bu hal onun danlaq və cəfasından qaynaqlanan dərdin bir təsiridir. Yəni atanın xəbərdarlığı sənin yaxşılığın üçün olduğu halda, onun söylədiyi tənqid və verdiyi cəfa atanın könlündəki mərhəmət və rəhmi sənə canavar kimi göstərir…»

Ona görə də insanın bu psixologiyası unudulmamalı və nə qədər günaha batmış olsa da, onun qiymətli bir varlıq olduğu dərk edilməlidir. Buna görə də, hədisi-şərifdə Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«İnsana günah olaraq öz müsəlman qardaşını xor görməsi yetər». (Müslim, «Birr», 32)

Bu hədisi-şərifin hikmətini qavramış olan BəzmialəmValidə Sultanın xidmətçilərin şəxsiyyətinin əzilməməsi üçün onların qırdığı əşyaların zərərini ödəmək məqsədi ilə Şamda bir vəqf qurması bizə böyük bir könül üfqünü göstərir. Bu düşüncədə olan bir mömin təbliğ və tərbiyədə üslub olaraq **«qüsuru özünə, qüsursuzluğu başqasına»** metodunu seçməlidir.

Çünki uca Allah belə buyurur:

«…(bir-birinizin eyibini, sirrini) arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar (qeybət də belədir)…» (əl-Hucurat, 49/12)

Bu ilahi təlimatlar istiqamətində yaşaya bilən ideal insanlar heç bir zaman dünyanı axirətdən ayrı düşünməyən böyük əxlaq və fəzilət qəhrəmanları olmuşlar. Belə məna sultanlarının yolu ilə gedərək tarixə yön vermiş dünya sultanlarından biri Osman Qazinin mənəvi himayədarı həzrət Şeyx Ədəbalı tərəfindən ona və onun şəxsində gələcək olan bütün dövlət adamlarına, hətta, ailədən başlamaqla ən alt təbəqədən başlayaraq ən üst mərtəbədəki hər bir idarəçiyə verilən bu tövsiyələr çox dərin və mənalıdır:

«Ey oğul! Bəysən! Bundan sonra qəzəb bizə, dözüm sənə… Küsmək bizə, könül almaq sənə… İttiham etmək bizə, dözmək sənə… Acizlik bizə, yanılmaq bizə, xoş görmək sənə… Yola getməmək,

ziddiyyətlər, ipə-sapa yatmamaq, anlaşılmazlıqlar bizə, ədalət sənə… Pis göz, boş ağız, haqsız yozum bizə, bağışlamaq sənə…»

«Ey oğul! Bundan sonra bölmək bizə, birləşdirmək sənə… Tənbəllik bizə, xəbərdarlıq etmək, cəsarətləndirmək, nizama salmaq sənə…»

Bu misilsiz nəsihətlər öz şəxsiyyətinə qarşı münasibətdə yanlış davranışlara yol versələr belə, insanları Allah üçün bağışlayıb, Allahın qullarına nə olursa-olsun, şəfqət, mərhəmət və məhəbbətlə baxa bilmək kimi könül zənginliyinin və ülvi fəzilətin çox dəyərli bir təzahürüdür.

Belə ki, Rəsulullah -səllallahu əleyhi və səlləm- bir cəmiyyətdəki günahkar şəxsi tanısa belə onu incitməmək üçün, özünü elə göstərirdi ki, sanki onu tanımır və onun qüsurundan danışarkən bütün cəmiyyəti bu nöqsandan uzaq tutmağa çalışırdı. Bəzən də günahkar insanların xətasını onlara yaraşdırmadığını hiss etdirmək məqsədi ilə belə buyururdu:

«Mənə nə olub ki, sizi belə görürəm.» (Buxari, «Mənaqib», 25; Müslim, «Salət», 119)

O mübarək Peyğəmbər bu sözləri ilə, sanki belə bir qüsurun olmadığını, özünün yanlış gördüyünü ifadə edirdi.

Bu, bir qüsurlu şəxsi utandırmamaq və onu kiçiltməmək üslubudur. Bu üslub təsəvvüfü doğru anlayıb, yaşayanların ortaq xüsusiyyətidir. Çünki Allahın yolu könül qırmaqdan deyil, onu düzəltməkdən keçir. Yunus Əmrə çox gözəl söyləmişdir:

Gönül Çalabın tahtı,
Çalap gönüle baktı.
İki cihan bedbahtı,
Kim gönül yıkar ise!

Həqiqətən, qüsurlarına görə qınanaraq yadlaşdırılan və xor görülən bir çox şəxs ancaq bu üslub və anlayışın bərəkəti ilə yenidən rəhmət iqliminə daxil ola bilmişdir.

❁

Deyilənə görə, həzrət Cüneyd Bağdadinin bir tələbəsi var imiş. Bir gün tələbəsini onun adına ləkə gətirəcək bir vəziyyətdə yaxaladılar. Bundan son dərəcə pərişan olan tələbə oradan ayrıldı və bir daha dərgaha gəlmədi. Bir müddət keçəndən sonra könül evi dağılmış bu tələbə söhbət etdiyi dostları ilə birgə bazardan keçən Cüneyd Bağdadinin gözünə sataşdı. Tələbə müəllimini gördü, utandığından sürətlə oradan uzaqlaşdı. Bu halı duyan Cüneyd -qüddisə sirruh- yanındakılara dönüb:

«Siz gedin, mənim yuvamdan bir quşum uçmuş!»,-deyib tələbəsinin ardınca getdi. Geri dönüb baxan tələbə müəlliminin onu təqib etməkdə olduğunu görəndə daha da həyəcanlandı, addımlarını tezləşdirdi. Gedib bir dalana girdi. Peşmanlığın tələşı ilə qeyri-ixtiyari başını divara çırpdı. Müəllimini qarşısında görəndə rəngdən-rəngə girdi, başını aşağı saldı. Cüneyd -qüddisə sirruh:

«Övladım! Hara gedirsən, kimdən qaçırsan?! Bir müəllimin tələbəsinə yardım və mərhəməti belə çətin günlərdə olar»,-dedi və onu dərgaha apardı. Müəlliminin ayaqlarına düşən tələbə etdiklərinə görə peşman olub tövbə etdi».

Bu vəziyyət onu göstərir ki, insan nə qədər qüsurlu olursa-olsun, onu rədd etmək doğru deyil, əksinə, ona bir ata şəfqəti ilə yaxınlaşa bilmək kamilliyinin mənəvi tərbiyədəki bərəkətli nəticələrindən biridir.

Başqa yöndən xəta və qüsurları bağışlamaqla birgə, pisliyə belə yaxşılıqla cavab verə bilmək, hətta, pisliyini gördüyü birisinin islah və hidayəti üçün dua edə bilmək kamil bir müsəlmanın ən gözəl xüsusiyyəti olmalıdır. Bu xüsusiyyətə aid ən gözəl misal olaraq həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- Taifdə onu daşlayanlara bəd dua etməyib, onların doğru yola qovuşması üçün dua etməsini göstərə bilərik. Onun gətirdiyi dinin şərəfini qorumaq üçün Məkkədə insanların qəhr olub ilahi qəzəblə həlak olmalarını deyil, hər birinin hidayət dairəsi içinə girməsini istəməsi çox azğın insanın qurtuluşuna yol açan bir metoddur.

Hədisi-şərifdə belə buyurulur:

«Sizə yaxşılıq edənlərə yaxşılıq etmək, pislik edənlərə də pislik etmək bir məziyyət deyil, əsl məziyyət sizə pislik edənlərə qarşı eyni şəkildə münasibət göstərməyib, yaxşılıq edə bilməkdir.» (Tirmizi, «Birr», 63)

Çünki yaxşılıq edilən şəxs əgər düşməndirsə, dost olar, ortada dayanmışsa, yaxınlaşar, yaxındadırsa, sevgisi çoxalar. Bu gün dünyada materializmin amansız prinsiplərinə qapılaraq böyük bir mənəviyyat böhranına sürüklənmiş olan insanların ruhunun rahatlıq tapmaq üçün daha çox mistik düşüncələrə yönəlməsinin hikməti də budur. İslamın təqdim və təlqinində təsəvvüfi üslubun istifadə edilməsi də bu baxımdan daha uğurludur. Bu gün Qərbdə hidayətə qovuşan yuxarı təbəqəyə mənsub olan insanların çoxu ruhundakı boşluğu doldurmaq üçün həzrət Mövlana və İbn Ərəbi kimi mütəsəvviflərin əsərlərinə müraciət edir. Qərb aləmində çox oxunan və satılan islami əsərlərin içərisində təsəvvüflə bağlı olan kitablar başlıca yer tutur. Buna görə də müasir dövrümüzdə:

«Gəl! Gəl! Nə olursan ol, yenə gəl!

Kafir, məcusi və ya bütpərəst olsan da, gəl!

Bizim dərgahımız ümidsizlik dərgahı deyildir

Yüz kərə tövbəni pozsan, yenə də gəl!»

deyən Mövlananın bütün insanlıq aləmini əhatə edən mənəvi genişliyinə çox böyük ehtiyac var.

Həzrət Mövlananın bu dözümlü dəvətindəki qayə insanı öz cövhəri ilə tanış edib, onu şəfqət və anlayışla qarşılamağın feyzli zəminində xətalarından qurtararaq İslam ilə şərəfləndirməkdir. Hər kəsi əski halı üzrə qalmaq şərti ilə və heç bir məqsəd olmadan qəbul etmək deyil. Məqsəd o insanın mənəvi aləmini düzəltməkdir. Bir təmirçinin yanına xarab əşya aparılar. Belə şəxslərin könül dərgahları da bir təmirxanaya bənzəyir ki, orada görülən iş yanlış olanları düzəltmək

olduğu üçün, dəvətin daha çox xətalı insanlara xitabən edilməsi çox təbiidir.

❁

Xüsusilə, dini həyatın çox zəiflədiyi və dini ölçülərə görə insanların bir xeyli qüsurlu olduğu zamanlarda üz tutulan ünvana təsəvvüfə bağlı olan başqasını özündən üstün tutmaq, mərhəmət, dözüm və anlayışla münasibət göstərmək zəruridir. Çünki bu davranış günah, fitnə və üsyanın bütün yönlərdən əhatə etdiyi belə şəxslərin tərbiyə olunub xilas edilmək ehtimalını artıracaq ən bərəkətli bir davranışdır.

Ancaq bu da deyilməlidir ki, günahkara qarşı anlayış göstərmək fərdi məsələlərə aiddir. Qul haqqını tapdalayan bir mahiyyət kəsb edərək cəmiyyətin rahatlıq və xoşbəxtliyini pozan qüsur və zülmü xoş görmək və onlara əfv nəzəri ilə baxmaq doğru deyil. Bundan başqa dinin səthi ölçüləri ilə yaşayan şəxslərin günahkara qəzəb duyğusu ilə baxması da heç şübhəsiz ki, yanlış deyil. Onlar üçün günahkardan uzaq olmaq, qəlbin onunla ünsiyyətdən doğulacaq zərərlərdən qorunması üçün zəruridir. Çünki həyatı qafil yaşayan şəxslərdə günahlar gözəl bir musiqi kimi nəfslərə xoş gəlir və bu günahlar onun ağırlığı hiss edilmədən törədilir. Buna görə də günahkarın günahını nəzərə almamaq həm ilahi ölçüləri pozmağa, həm də qəlbin o günahlara bulaşmasına səbəb olduğuna görə cəmiyyət üçün təhlükəlidir. Yəni günahkara qarşı olan anlayışı günaha aid etmək olmaz. Günaha qarşı olan düşmənliyi də günahkara qarşı yönəltmək doğru deyil. Bütün bunlardan sonra söylənəcək son sözümüz isə bu hədisi-şərifdir:

«Asanlaşdırın, çətinləşdirməyin! Müjdələyin, nifrət etdirməyin!..»
(Buxari, «Elm», 11)

Təbii ki, dinin mahiyyətinə zərər verməmək və istiqamətdən ayrılmamaq şərti ilə…

Ey Rəbbimiz! Bizləri könülləri ilahi hikmətlərlə dolu gerçək eşq əhlindən edib iki dünyanın sirlərinə aşina elə! Qəlblərimizi,

Yaradandan ötrü yaradılmışlara qarşı mərhəmət, şəfqət və sevginin mənbəyi elə! Günah və qüsurlarımızı savab və gözəlliklərlə dəyişdir! Ey Rəbb! Bizləri «Rəhmətim qəzəbimdən çoxdur» sirri çərçivəsində hərəkət edərək, hər zaman əfv yolunu tutaraq hidayət rəhbəri olan salehlər zümrəsinə daxil elə!

Amin!...



ÜÇÜNCÜ BÖLMƏ

Mərifətullah
və
İlahi Ehsanlar

A - Mərifətullah

1-Zati-Uluhiyət

2-Allahın sifətləri və təcəllaları

3-Mərifətullah və ariflərdəki təcəllalar

B. İlahi Ehsanlar

1-Lədun elmi

2-Duyma qabiliyyəti

3-Səlahiyyət-Kəramət

4-Doğru yuxular



«Nəfsini tanıyan Rəbbini də tanıyar.»

MƏRİFƏTULLAH VƏ İLAHİ EHSANLAR

Uca Allah o qədər aşkardır ki, sanki zühurunun şiddətindən bilinmir.

A. MƏRİFƏTULLAH

1. ZATİ-ULUHİYYƏT

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurur:

«Allahın yaratdıqlarını düşünün. Zatı üzərində düşünməyin. Çünki siz Onun qədrini (Ona layiq bir şəkildə) əsla bilməzsiniz…» (Deyləmi, «Müsnəd», II, 56; Heysəmi, «Məcmauz-Zəvaid», I, 81)

Peyğəmbərimizin bu bəyanı uca Allahın zatının mahiyyətini qavramağın mümkün olmadığını ifadə edir.

Bəşər idrakını iman və irfan iqliminə aparıb hidayət nuruna qovuşduracaq olan Allah haqqındakı bilgilər də, Onun zatının mahiyyətinə aid deyil, sifətlərinə bağlıdır. Çünki uca Allahın zamanı və məkanı yoxdur. İnsan idrakı isə zaman və məkanla bağlı olduğundan onun məntiqi ancaq maddi aləmdən aldığı informasiyalarla fəaliyyət göstərir. Bir şeyi qavraya bilmək üçün o şeyin görülə bilən aləmdə bir bənzərinin və bunun da zehində bir bilgisinin olması zəruridir. Allah isə yaratdıqlarına bənzəməz (Muxalifətun lil-həvadis). Bu, sonradan meydana gəlmiş olan heç bir şeyə bənzəməməsi onlardan mütləq surətdə fərqli, üstün və mükəmməl olduğunu ifadə edir. Bu məntiqi həqiqət kainata hakim olan nizamın mükəmməlliyini idrak etməyin

bir nəticəsidir. Belə bir aləmi yaratmaq qüdrətindəki ilk səbəb, yəni uca Allah yaratdığı əsərləri ilə əsla müqayisə edilə bilməz. O, bütün yaradılmışların üzərində olan bir kamal, əzəmət və qüdrət sahibidir. Onun belə olması bir əqli və məntiqi zərurətdir. Bu baxımdan tayı, bərabəri və bənzəri olmayan Allahın zatının mahiyyəti haqqında fikir söyləmək İnsan üçün nə mümkündür, nə də doğrudur.

Yəni uca Allah haqqında bizim görəcəyimiz iş Onun sifətlərini öyrənərək Zatının var olduğunu idrak və qəbul etməkdir. Onun üçün uca Allahın Qurani-Kərimdə bizlərə özü haqqında təqdim etdiyi misal və izahlar da bu mahiyyətə görədir. Ayeyi-kərimədə belə buyurulur:

«Allah göylərin və yerin nurudur. Onun nuru içərisində çıraq olan bir qəndilə bənzəyər. O çıraq bir şüşənin içindədir. O şüşə isə, sanki inciyə bənzər (parlaq) **bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə olan mübarək bir zeytun ağacından yandırılır. Onun yağı özünə od toxunmasa da, sanki işıq saçır. O, nur üstündə nurdur. Allah dilədiyini öz nuruna qovuşdurur. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir!»** (ən-Nur, 24/ 35)

Diqqət edilsə, ayeyi-kərimədəki misalla bəşər idrakı öncə qavraya biləcəyi informasiyalarla yoğrulur, sonra da xəyal və idrakın dərk edə bilməyəcəyi bir həqiqət ilə o informasiyalardan təcrid edilərək ən dəqiq ifadə ilə **«nur üzərinə nur»** deyilir. Yəni Onun nuru misaldan göründüyü kimi məhdud bir neçə çeşid nur deyil, birisi, ya da hamısı da deyil. Saysız-hesabsız olaraq hər nurun üzərində məhdudlaşdırılması və bilinməsi mümkün olmayan bir nurdur. Ancaq hər kəs Haqq dəlili görə bilməz, haqqın ayələrini bilməz və Haqqın istəyinə qovuşa bilməz. Çünki görünəni idrak etmək nura bağlı olduğu qədər, görəcək gözün var olmasına da bağlıdır. Çünki gözlə görünməsi mümkün olan hər şey nurun bərəkəti ilə gözü olan hər kəsə görünə bilər, ancaq korlar onu görə bilməz. Deməli, varlıq və həqiqəti göstərən nur qədər, görən bir ruh da müşahidə etmək üçün əvəzedilməz bir şərtdir. Çünki ancaq görən ruh dərk edən və anlayandır.

Başqa yöndən, uca Allahın ayeyi-kərimədə özünü «Nur» kimi təqdim etməsi və *«Allah göylərin və yerin nurudur»*, buyurması bütün aləmi yaradan, bu geniş kainatı göstərən, gizli-açıq saysız-hesabsız həqiqətləri bildirən, gözləri və könülləri şənləndirən varlığın ancaq özünün olduğunun bir ifadəsidir. Çünki uca Allahın o mübarək nuru olmasaydı, heç bir şey bilinməz, tapılmaz, heç bir həqiqət sezilməz və heç bir sevinc könülə dolmazdı.

Bu mənada varlıqların təzahür və müşahidəsinin yeganə səbəbi olan bütün nurlar o uca nurun bir təcəllasindən ibarətdir. Başqa sözlə, göydəki nurların dərəcələrinə dünya aləmində də bir misal var. Məsələn, günəşin şüaları ayın üzərinə düşüb, oradan yer üzündə bir evin içinə daxil olaraq divardakı bir güzgüyə düşsə, sonra bundan başqa divardakı bir güzgüyə əks etsə, sonra da ondan su dolu bir qaba düşsə, daha sonra bundan evin tavanına yayılsa, bunların ən güclüsü ilk qaynaq olan günəşdəki, ikinci olaraq aydakı, üçüncü olaraq birinci güzgüdəki, dördüncü olaraq ikinci güzgüdəki, beşinci olaraq sudakı, altıncı olaraq da tavandakı nurdur. Hamısında da ilk çıxış nöqtəsinə yaxın olan uzaq olandan daha güclüdür. Göylərdəki nurların dərəcələnməsi də bunun kimidir. Yəni istifadə edilən nur istifadə edəndən daha güclüdür. Bütün bu nurlar artaraq, güclənərək ən böyük və sonsuz nurda başa çatır. Bu da uca Allahın nurudur.

Yəni hər şeyin ortaya çıxması və bilinməsi ancaq göylərin və yerin nurlandırıcısı olan uca Allahın ortaya çıxarması və bildirməsi ilədir. Çünki Onun nuru olmadan varlığın ortaya çıxması və görünməsi mümkün deyil. Ancaq gündüzün işığında baharın yaşıllığına baxan insan gözünə görünən cürbəcür rənglər qarşısında belə deyər: *«Yaşıllıqdan başqa bir şey görmədim»*. Bu insan baharı və yaşıllığı görər, ancaq onun görməsini təmin edən işığı fərq etməz. Halbuki, gördüyü bütün rəngləri işıq sayəsində dərk etmişdir. Belə vəziyyətdə işıq, əslində, çox aşkar olduğuna görə gizli qalmışdır. Bu həqiqətdən çıxış edərək mərifət sahibləri belə buyurur:

«Uca Allah, əslində, gizli deyil. Ancaq bizim bəşəri istedad və idrakımız baxımından aşkarlığı elə bir dərəcədədir ki, gizlidir.»

Həzrət Hüdayi buyurur:

Zuhuru perde olmuştur zuhura,
Gözü olan delil istermi nura?

Başqa bir ifadə ilə bir otaqda beş min voltluq bir işıq yansa, insanın gözündəki görmə qabiliyyəti bu işığın güclü təsirindən heç bir şey görə bilməz. Belə olduğu halda, milyonlarca voltluq işıqdan çox üstün bir nurun sahibi olan uca Allah da əlbəttə, bəşər idrakının gücü baxımından gizlidir. Bu nöqtəni ifadə etmək üçün Qurani-Kərimdə möminlər haqqında belə buyurulmuşdur:

«Onlar ki, qeybə iman edərlər…» (əl-Bəqərə, 2/3)

Ancaq bəsirət əhli üçün bu elə bir qeybdir ki, nurunun təcəlla şiddəti ilə ən açıq varlıqlardan daha aşkardır. Belə ki, biz hava ilə nəfəs alırıq, onunla yaşayırıq, ancaq bizi əhatə etdiyi halda, onu görə bilmirik. Sadəcə, nəfəs almaqla hiss edirik. Bunun üçün də onu görmədiyimiz halda, inkar etmək bir yana, həyati zərurət olduğuna görə: *«Hava olmasa, yaşaya bilmərik!»*, deyirik.

Sudakı canlılar da bizim kimidir. Onlar da dərya içində suyun fərqinə vara bilmirlər. Halbuki, su onları tam əhatə etmişdir.

Bu o deməkdir ki, bir varlıq qarşımızda, sağımızda, solumuzda, ya da başqa yönlərdə olsa, onu idrakımız qavraya bilər. Ancaq hər tərəfimizi əhatə etsə, bütün cəhət şərtlərindən sıyrılır və varlığının zühuru idrakımızın imkanı xaricində olur. Belə məkan şərtləri içərisində görmək imkanı olan gözlərimizə Onun varlığı gizli qalır. Bu belə olmasaydı da, məsələn, hava gözlə görünsəydi, həyatı yaşamaq mümkün olmazdı. Çünki dumanlı bir havada başqa varlıqların hamısı görünməz olardı. Yəni bizi tam əhatə edən bir varlığın görünməsi başqa varlıqların görünməməsinə səbəb olardı. Ona görə də uca Allah bu aləmdə gözlər üçün gizli qalmışdır. Əgər zahir olsaydı, insanlar həm Onun camalının gözəlliyindən, həm də onları tam əhatə etmiş olacağına görə başqa heç bir şey görə bilməzdilər və təbii ki, o zaman dünya həyatı deyilən bir şey olmazdı.

O halda xəyal və idrakın imkanlarından daha üstün bir varlıq olan uca Allah həm ən gizli, həm də ən aşkardır. Daha doğrusu, zat olaraq gizli, təcəlla olaraq aşkardır.

Aşkardır, çünki bütün varlıqlar Onun zatının nurundan yaranır.

Gizlidir, çünki gözlərin Onun nuruna baxmağa gücü çatmaz…

Aşkardır, Ondan başqa nə varsa, ancaq Onun sifətləri ilə təcəlla edər.

Gizlidir, tayı-bərabəri olmadığı üçün… Çünki insanın bilgisi, ümumiyyətlə, əşyanı ziddi ilə tanımaqla formalaşır. Buna görə də heç ziddi olmayanın və əsla dəyişməyənin gizli qalması da çox təbiidir.

Belə bir varlığı idrak etməklə bağlı yaradılmışlar içərisində şüur sahibi olan heç bir varlıq, əlbəttə, kifayət dərəcədə qabiliyyətə sahib deyil. Buna görə də iman, Onun zatının həqiqətini bilmək deyil, onun varlığını qəbul etməkdən ibarətdir. Çünki var olub-olmamaq keyfiyyəti başqa, var olan bir şeyin mahiyyəti haqqındakı hökm başqa bir şeydir.

Bu baxımdan uca Allah zati-uluhiyətinin sadəcə var olub-olmama keyfiyyətini qavraması üçün İnsanı ağıl neməti ilə təchiz etmiş olduğu kimi, müşahidə edilə bilən aləmi də sifət təcəllaləri ilə doldurараq onlarla təsirdən təsir edənə doğru getmək yolu ilə dərk etmək imkanı təqdim etmişdir. Aşağıdakı misal bu həqiqəti çox gözəl ifadə edir:

«Allah dostlarının böyüklərindən olan həzrət Cüneyd Bağdadi bir gün bir çox şəxsin tələş və maraq içərisində harasa yüyürdüyünü gördü. Onlara belə dedi:

- Belə tələş və həyəcanla hara gedirsiniz?

Onlar da:

- Filan yerdən bir alim gəlmişdir! Uca Allahın varlıq və birliyini min bir dəlillə izah edir! Onun bu dəlil və izahlarından istifadə etməyə gedirik. İstəyirsənsə, sən də gəl.

Buna cavab olaraq həzrət Cüneyd acı bir təbəssümlə onlara baxaraq belə dedi:

- Görən gözlər, eşidən qulaqlar və hiss edən qəlblər üçün kainatda saysız-hesabsız ilahi şəhadət tərənnümləri və dəlilləri var. Şəxsən Allah təalanın özü ilə bağlı çoxsaylı şəhadəti var. Ey əhali! Bütün bunlara baxmayaraq, şübhəsi olan varsa, buyursun getsin! Bizim könlümüzdə gümanın (şübhənin) bir zərrəsi belə yoxdur».

Qısacası, görən gözlər üçün uca Allah aləmin mahiyyəti olan insanda, sözsüz bir Quran olan kainatda və sözlü bir kainat olan Quranda saysız-hesabsız ilahi sifət təcəlləri bəxş etmişdir. Bundan başqa, onlardan istifadə etməklə bağlı yardımçı və yol göstərici olan peyğəmbərlər göndərmişdir. Peyğəmbərlər vasitəsi ilə də görünən və görünməyən aləmlərin həqiqətlərini bəlli ölçüdə Qurani-Kərimdə müşahidə edildiyi kimi, bəşərin idrak səviyyəsinə uyğun bir şəkildə «kəlam» surətində lütf etmişdir.

Başqa sözlə, kəlamın imkanları içərisində Allah ilə bağlı qısa olaraq bunları deyə bilərik:

Əslində, Mütləq Varlıq heç bir qeydlə qeyd oluna bilməz. Onun özünü vəsf etməsindən başqa, Onu heç bir sifətlə təyin etmək olmaz. Hətta, Ona bizim məhdud olan idrakımızla «mütləq» deməyimiz belə Onu qeydə almaqdır, ancaq anlatmaq üçün belə söyləmək olar. Yoxsa insanın ağlına nə gəlirsə-gəlsin, Allah onun ağlına gələndən üstündür.

Belə bir Sübhan olan Mütləq Varlığın sifətlərini bəyan etməsi isə zatının zəruri etdiyi bir şeydir. Parlaq bir çırağın öz işıqlarını əks etdirməsi kimi… Bütün varlıqlar Mütləq Varlığın bilgisində toplu olaraq sabitdir. Kainat da bu həqiqətin bir təzahürüdür. Şəhadət aləmi dediyimiz bu aləmdəki varlıqlar izafi olaraq mövcuddur. Öz varlıqları baxımından heç biri var ola bilməz. Mütləq varlığın sifətlərinin, əsərlərinin, hökmlərinin, qüdrətinin, yaradıcılığının məzhərləri olmaq etibarı ilə mövcud sayılırlar. Zati-uluhiyət bütün varlıqlarda yaradıcılığını, qüdrətini, hikmətini, tədbirini, səlahiyyətini, sifətlərini izhar etməklə bərabər, varlıq aləmi heç bir vaxt zatın zühuru deyildir.

Yəni varlıq aləmi zatın deyil, sifətlərin zühurudur.



Başqa sözlə, zat hər şeydən müqəddəs və münəzzəhdir. Günəş olmasa, işığı olmaz, ancaq günəşin işığı günəşdən ayrı bir varlığa sahib deyil, günəş də deyil. Hər şeyi O bilmək və tanımaq, kainatı, varlıq aləmini ilah qəbul etməkdir ki, bu, «Bir»i «hər» olaraq düşünən materializmə yol açır. Əflatunun ortaya atdığı panteizm deyilən inanc məhz bu qorxulu və yanlış düşüncədən qaynaqlanmışdır. Bəziləri Vəhdəti-Vücudu da bu inanc sisteminin içinə daxil etmək istəmiş və o sistem içində qəbul etmişsə də, həqiqi sufilər belə bir yanlış inancı hər zaman rədd etmişlər. Çünki hər şeyi Onun varlığı ilə var olmuş bilməklə birgə, zatı hər şeydən müqəddəs, gerçək Vəhdəti-Vücud[1] inancıdır. Yəni kainat Haqqın sifətlərinin təzahürləridir, ancaq zatı kainat deyil. Çünki Yaradıcı əsla yaradılmış şəklində zühur edə bilməz. Bu qənaətə sahib olmaq açıq bir küfrdür. Çünki uca Allah yaradılmış deyildir, Onun tayı-bərabəri və bənzəri yoxdur, yaradılmışların heç birinə bənzəməz. Başqa sözlə, O hər cür bəşəri sifətlərlə vəsfləndirməkdən uzaqdır. Bu həqiqətdən uzaqlaşaraq yəhudilərin Üzeyrə -əleyhissalam-, xristianların da İsaya -əleyhissalam-, haşa, Allahın oğlu deyəcək qədər irəli getdikləri bəllidir. İnsan oğlunun öz xəyal iqlimində yaradıb, sonra da inanmağa başladığı bütün bu dəlalət təzahürlərinə cavab olaraq uca Allah belə buyurur:

«(Müşriklər) **Allahı lazımınca qiymətləndirmədilər** (uca tutmadılar)**. Halbuki, qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə büküləcəkdir.** (Allah müşriklərin Ona) **aid etdikləri sifətlərdən tamamilə uzaq və ucadır!»** (əz-Zumər, 39/67)

Bu baxımdan İslam inancının təməlini təşkil edən tövhid kəlməsi, həqiqətdə **«lə iləhə»** kəlməsi ilə könüldən bütün yanlış inanc və ilah anlayışlarını çıxarmaq, onun yerinə **«illəllah»** ifadəsi ilə ən doğru,

1. Vəhdəti-Vücud, Muhyiddin ibn Ərəbi tərəfindən sistemləşdirilmiş təsəvvüfi bir düşüncədir. Bu məsələ ilə bağlı «Vəhdəti-Şühud» deyilən başqa bir anlayış da vardır ki, bu da «İkinci minilliyin yeniləşdiricisi» adını almış olan həzrət İmam Rəbbaniyə aiddir. Bu iki görüş, əslində, eyni şeyi fərqli pəncərələrdən izah etməkdən başqa bir şey deyil. Yəni hər ikisi də uca Allahın «Vücud» sifətinin mahiyyəti ilə görə bildiyimiz aləmdəki vücud-varlıq arasındakı fərqi qavramaq və açıqlamaqdır. Bir fərqlə ki, Vəhdəti-Vücud tövhidi hiss etmək, Vəhdəti-Şühud isə tövhidin təcəlilərini müşahidə etməkdir. Əsasən, bunlar bir haldır və ağılla şərh edilən fəlsəfi izahlarla qarışdırılmamalıdır.



yəni uca Allahın qəbul etdiyi, doğru bir Allah anlayışı və inancını yerləşdirməkdir. Belə ki, ayeyi-kərimələrdə buyurulur:

«Allahdan başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa, Onundur…» (əl-Bəqərə, 2/255)

«… Onun bənzəri olan heç bir şey yoxdur, O eşidəndir, görəndir». (əş-Şüəra, 26/11)

«(Ey Rəsulum!) **De ki: «O Allah birdir. Allah möhtac deyildir! O, nə doğmuş, nə də doğulmuşdur! Onun heç bir tayı-bərabəri də yoxdur!»** (əl-Ixlas, 112/1-4)

Bir sözlə, bizim Allahın zatı ilə bağlı düşüncəmiz ancaq öz aləmimizdən alacağımız informasiya və hikmətlər çərçivəsində Onu bilmək və Ona təslim olmaqdır. Yəni qul bu fani aləmdə və fani ölçülər içərisində hansı hal və qabiliyyətdə olursa-olsun, Allahın zatını idrak etmək məsələsində acizdir, acizdir, acizdir…

Qurani-Kərimdə bildirildiyi kimi, Musa -əleyhissalam- Tur dağında uca Allahla danışanda bundan böyük bir mənəvi ləzzət duydu. Daddığı ilahi təcəlla ilə özündən getdi. Dünyada, yoxsa axirətdə olduğunu unudaraq sanki zaman və məkanın xaricinə çıxdı. Böyük bir eşq, vəcd və şövq içərisində Allahın uca zatını görmək üçün könlündə şiddətli bir arzu oyandı və uca Allahdan bunu tələb etdi. Uca Allah da belə buyurdu:

«Lən tərani- Məni əsla görə bilməzsən!» Bundan sonra uca Allah ona dağa baxmasını əmr etdi. Əgər dağı yerində görə bilərsə, uca Allahı da müşahidə edə biləcəyini buyurdu. Rəvayətə görə, çoxsaylı örtüklərin arxasından uca Allahdan bir nur təcəllasi dağa təsir etdi. Dağ parça-parça oldu. Bu dəhşətdən Musa -əleyhissalam- özündən getdi. Ayılanda hədd aşdığı üçün uca Allahdan bağışlanma istədi.[2]

2. Baxın, «Əraf» surəsi, 7/143.

Bu Quran həqiqəti də Allahın zatını dərk etməkdə bəşərin mütləq bir acizliyə məhkum olduğunu açıq göstərir.

Bununla birgə, hədisi-şəriflərdə bildirildiyi kimi möminlər cənnətdə uca Allahın zatını bu dünyada on dörd gecəlik ay kimi gördükləri şəklində müşahidə edəcəklər. Bu həqiqət ilə yuxarıda söylədiyimiz həqiqət arasında bir təzad yoxdur. Çünki dünyadakı şərtlər ilə axirətdəki şərtlər eyni deyil. Yəni möminlərə cənnətdə uca Allahın zatını müşahidə etməyi mümkün edəcək fərqli bir istedad və qabiliyyət ehsan ediləcək. Belə ki, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- bu dünya şərtləri içərisində saxlanılmayıb, Cəbrayıl tərəfindən köksünün yarılaraq mənəvi əməliyyatdan keçməsi, müəyyən mənada üstün vəzifələri yerinə yetirə biləcək bir imkan və qabiliyyəti Ona təqdim etmək üçün idi. Əks halda, Rəsulullahın -səllallahu əleyhi və səlləm- gücü normal bir bəşəri imkanla nə bu vəzifələri yerinə yetirməyə, nə də Merac kimi uca bir təcəllaya kifayət deyildi…

Bir sözlə, **imandan ehsana** yüksələ bilənlər bütün bu ilahi sirlər işığında həqiqət və mərifətə nail ola bilənlərdir. Belə bəndələr kainatın göz bəbəyi və canı olurlar. Bunlar gerçək kamil insanlardır. Hər zaman əzəl aləmini, yəni Mütləq Varlığa qovuşmağı arzulayar və onun həsrətini çəkərlər. Bu qeydlər aləmində, bu izafi varlıq aləmində yaşamaq onlar üçün, sanki bir qürbətdir. Ancaq onlar bu aləmdə öz fani varlığından sıyrılmış, haqq varlığı ilə var olduqlarını bilmiş və iradələrini Haqqın iradəsinə təslim etmişlər.

Uca Allah hamımızı ən doğru və yəqin bir imana qovuşdursun. İman bağımızı da uca Allahın rizası istiqamətindəki saleh əməl qönçələri ilə gözəlləşdirsin. Həbibinə qonşu eyləyib zatının camal və kamalı ilə şərəfləndirsin!..

Amin!..

Haqqın nuru ilə baxan insan zərrədə əbədiyyəti görər, bir damlada bütün ümmanı seyr edər.

(Həzrət Mövlana)

2. İLAHİ SİFƏTLƏR VƏ TƏCƏLLALARI

Uca Allahın zatı birdir, sifətlərini isə saymaqla qurtarmaz. Yəni Onun sifətləri bəlli bir miqdarda deyil, sonsuzdur. Allah təalanın sifətlərinin hamısını yalnız Özü bilir. Bunlardan bir qismi isə sadəcə peyğəmbərlərə, bir qismi də (Allahın doxsan doqquz adı) başqa insanlara bildirilmişdir. Alimlər də doxsan doqquz rəqəminə daxil olmayan bir çox ilahi sifətləri bilirlər.

Bilinən və bilinməyən bütün ilahi sifətlər isə hər şeydən öncə kainatın yeganə yaradıcısının nöqsan sifətlərdən uzaq, kamal sifətlərlə Ondan ayrılmaz şəkildə bağlı, xəyalın təsəvvür edə bilməyəcəyi qədər mükəmməl olduğunu ifadə etmək üçündür. Bu baxımdan:

a. Zati

b. Sübuti olaraq iki kateqoriyada təsnif edilən ilahi sifətlərdən hər hansı birinin nöqsanlı olması, ya da bunlara uyğun olmayan bir başqasının əlavəsi mümkün deyil.



Belə ki, Onun varlığının kamalı diri, davamlı və mütləq **həyat sahibi** olması ilədir. Onun həyat sifəti ziddi ölüm olan bir həyat deyil, əksinə yalnız Ona məxsus olan bir həyatdır. Bu məsələ Qurani-Kərimdə belə ifadə olunur:

«Şanında ölmək olmayan daimi həyat sahibi…» (əl-Furqan, 25/58)

Onun **elm**i düşüncə və fikir məhsulu olmaqdan uzaqdır. Bu kainatda görünən heç bir ağıl və iradənin çata bilməyəcəyi dərəcədə incə və həssas olan nizam və ahəng uca Allahın nə qədər sonsuz bir elm sahibi olduğunun ən sadiq dəlilidir. Belə ki, bu kainatda insan oğlu kiçik bir kəşfə belə çoxsaylı insan və əsrlər boyu davam edən zamanın yardımı ilə qovuşur. Bundan əlavə bu kəşf çoxsaylı elm və qaydalar nəticəsində əldə edilir. Məsələn, bu gün geniş yayılmış cib telefonları ilə əlaqə qurmaq xüsusiyyəti insanın yaradılmasından nə qədər sonra və çoxsaylı təcrübələr nəticəsində gerçəkləşmişdir. Başqa inkişaf növləri də belədir. Halbuki, bu kəşf, icad və hələ bilinməyən çoxsaylı sirlər uca Allahın kainatın nizamına bir anda ilahi elmi ilə yerləşdirdiyi xüsusiyyətlərdir.

Uca Allahın elmi ilə yaradılmışların elmi arasında sonsuz fərqi bu misal çox gözəl ifadə edir:

«Xızırın -əleyhissalam- Musaya -əleyhissalam- qeyri-adi və hikməti bilinməyən hadisələr göstərdiyi səyahət zamanında bir sərçə gələrək mindikləri gəminin kənarına qondu. Sonra bu sərçə dimdiyi ilə dənizdən su götürdü. Xızır -əleyhissalam-, bu mənzərəni Musaya göstərərək belə dedi:

«Allahın elmi yanında sənin, mənim və bütün məxluqatın bu quşun dimdiyi ilə dənizdən aldığı su qədərdir». (Buxari, «Təfsir», 18/4)

Bu həqiqətlər işığında həzrət Mövlana **elm**, **eşitmək** və **görmək** sifətlərinin bəşərə təlim edilməsindəki hikməti belə ifadə edir:

«Uca Allah, qorxub fəsad çıxarmamağın və pozğunçuluq törətməməyin üçün özünün alim, yəni «hər şeyi çox yaxşı bilən» olduğunu bildirdi.»



«Çirkin və pis sözlərə dodaqlarını bağlayasan deyə özünün eşitmək, yəni «hər şeyi çox yaxşı eşidən» olduğunu bildirdi.»

«Gizli olan pisliklərə bulaşmamağın üçün özünün görən, yəni «hər şeyi çox yaxşı görən» olduğunu bildirdi.»

Var olan bütün kəlamlar da uca Allahın **kəlam sifəti**nin bir təcəllasıdır. Beləliklə, uca Allah kəlam sifətindəki sonsuz qüdrəti təzahür etdirməkdə, bundan başqa öz uca mübarək adını çoxsaylı dil ilə zikr etdirməkdədir. O, cansız zənn edilənlər də daxil olmaqla hər bir yaradılana kəlam sifətindən onlara məxsus olan bir dil vermişdir. Ayeyi-kərimədə belə buyurulur:

«Yeddi (qat) **göy, yer və onlarda olan hər kəs** (bütün məxluqat) **Allahı təqdis edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib ona şükür etməsin. Ancaq siz onların** (dillərini bilmədiyiniz üçün) **təqdisini anlamazsınız…»** (əl-İsra, 17/44)

Şübhəsiz, bütün təsbihlər adlarla olduğundan uca Allahı tanımağın insan üçün mümkün olan yeganə vasitəsi Onun idrak sahəmizdə olan ilahi sifətinin təcəllalarıdır.

Bu sifətlər isə, onların mənaları düşünüləndə «sifət», xarakterizə etdiyi zata dəlalətləri göz önündə olduqda isə «isim»dir. Yəni Allah bu sifətlərlə o dərəcədə bağlıdır ki, bunlar Onun üçün ad dərəcəsindədir. Belə ki, insanlar arasında da şəxslər sifətləri ilə yüksək səviyyədə xarakterizə olunurlarsa, o sifətlər nəticədə onlar üçün bir ad olaraq istifadə edilir. Həzrət Siddiq, İmam Əzəm, Meyyitzadə və başqaları kimi.

Başqa sözlə, ilahi sifətin təcəllalarına **«əsma təcəllaları»** da deyilir. Bu mənada Onun sifətləri şəxsən uca Allah tərəfindən də aşağıdakı ayə ilə bir ad olaraq ifadə edilmişdir:

«Ən gözəl adlar Allahındır…» (əl-Əraf, 7/180)

Uca Allah Özünü ilahi adları vasitəsilə bəndələrinin idrakına təqdim etmişdir.

Çünki bəndə uluhiyət ilə əlaqəsini adlar vasitəsilə təmin edir. Bu

gerçək Allahı nöqsan sifətlərdən uzaq tutmaq üçün Onun adının çox önəmli bir ünsür olduğunu ortaya qoyur. Bu baxımdan qulun Ona qarşı etdiyi yaxşı, ya da pis işlər uluhiyətinin həqiqətinə deyil, adına yönəlir. Beləliklə, həqiqəti hər zaman bütün nöqsan sifətlərdən uzaq qalır.

Həqiqətən də, insan əgər uca Allahın xas adı olmasa, Ona qarşı münasibətlərini tənzimləməkdə çətinlik çəkər. Çünki insan varlığı adda görüb, adla ifadə etməyə vərdiş etmişdir. İnsan üçün ad varlığın ifadəsidir. Buna görə də, uca Allah, Adəmi -əleyhissalam- yaratdığı zaman ona bütün adları öyrətmiş və həzrət Adəmin mələklərdən üstün olduğunu bu yolla ifadə buyurmuşdur. Çünki bir varlığın adını bilmək müəyyən mənada onun zati varlığını da tanımaq deməkdir. Belə ki, bizlər uca Allahı onun mübarək adları ilə tanımasaq, Onun haqqında nə bilərik ki?

Yəni insan Rəbbinin xüsusiyyətlərini bildirən adlara hər zaman möhtacdır. Hər bəndə yaşadığı çeşidli vəziyyətlərdə Rəbbini halına uyğun olan bir adla çağırmaq istəyir. Bu adlar olmasaydı, Onunla olan əlaqə çox zəif olardı, bəlkə də mümkün olmazdı.

Demək olar ki, bu adlar zat və uluhiyət qarşısında qulun söz tapa bilməmək problemini müəyyən dərəcədə həll edən ifadələr, yəni bəşər ruhunun bağlı qapılarını açan açarlardır. Çünki Allahın adlarını sadəcə zikr etmək belə, imana qida verir, ilahi rahatlığı hiss etdirir, Ona olan sevgini və məhəbbəti artırır, insanı təslimiyyətə yönəldir, onun yanında olanlara rəğbət yaradır, dünyadan və onun fani ləzzət və həzzlərdən əl çəkdirib, əbədi olana yönəldir və bəndəni Haqqa qovuşmaq arzusu ilə yandırıb yaxır. Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- müxtəlif vəziyyətlərdə oxunmasını tövsiyə etdiyi dua və zikrlərin Allahın adları ilə dolu olması da bu faydaları göstərir.

Çox çətin şərtlər daxilində olan, ilahi mərhəmətə çox möhtac olan bir mömin Rəbbindən yardım istəyərkən bu halını ifadə edib xülasə şəklində bir ad seçir: «Rəhman və Rəhim» adlarına sarılır. Günahlarının ağırlığı altında əzilərkən, könül bağının qopduğunu hiss edərkən, Haqqa yaxınlaşdıracaq bir vasitə axtarır: «Qaffar və Səttar»

adlarına sığınır. Kainatda, ya da öz ruhunda təcəlla edən ilahi qüdrət və əzəməti tamaşa edərkən, kitablarda ifadə edilə bilməyən duyğu və mərifətini dilə gətirəcək bir bəyan axtarar: «Allahu Əkbər» deyərək dalğalanan ruhu sakitləşər. Bir sözlə, qul özünün müxtəlif hallarında uca Allahın müxtəlif sifətlərinin vasitəçiliyi ilə ruhunun bağlanmış qapılarını açar və hiss etdiyi çoxsaylı problemləri həll olunar.

Buna görə də uca Allah özünü həqiqətə uyğun olaraq, ancaq insanların anlaya biləcəyi tərzdə tanıtmışdır. Yəni Onun özünü: Alim, Hakim, Qadir, Qafur və başqa bir sıra sifətlər vasitəsilə tanıtmasında və insanın da Onu belə tanımasında, əslində, insana aid olan şəxsi bir səbəb vardır. Çünki insan bu xüsusiyyətlərin bir qismini (son dərəcə məhdud olsa belə) özündə tapır. Bu da bəşər idrakının iman və hidayəti üçün lütf edilmiş bir ilahi nemətdir.

Müəyyən mənada Allahın sifət və əməllərinin təcəllası «bəşəri anlayışa yönələn ilahi uyğunlaşma»dan ibarətdir. Təcəlla, təcəlla edəni izhar edər. Ancaq bu izhar Onu zatında olduğu kimi deyil, bizim idrakımıza uyğunlaşdırılmış şəkildə ortaya çıxır. Bu həqiqətin işığında həzrət Mövlana belə buyurur:

«Haqqın nuru ilə baxan insan zərrədə əbədiyyət, sonsuzluq günəşini görər, bir damlada bütün dənizi seyr edər.»

Həzrət İbrahim Gülşəni də bu incəliyi dərk edərək onu belə tərənnüm etmişdir:

Nedir bu katrelerde bahrı-umman olduğun cana?

Nedir bu zerrelerde şemsi-taban olduğun cana?

«Ey can, bu damlaların içində bir ümman dənizi olmağın nədir? Bu zərrələrin içində parlaq bir günəş olmağın nədir, ey can?»

Bu sualın cavabı da həzrət Mövlananın bu sözlərində gizlidir:

«Hikmətindən sual olunmayan Haqqın işini kim anlaya bilər? O işin həqiqətinə kim qovuşa bilər? Bu söylədiyim sözlər ancaq anlatmaq üçün söylənmiş zəruri sözlərdir.»

«Əslində, din işi heyran olmaq, çaşıb qalmaqdan başqa bir

şey deyil. Ancaq bu heyranlıq ağıl dərk edə bilmədiyi üçün həqiqət qibləsinə arxa çevirmək deyil, əksinə, dostun məst və aşiqi olaraq heyrətə düşməkdir.»

«Çünki yatsaq, Onun eşqi ilə özümüzdən keçmiş olarıq, Onun məsti olarıq. Ayıq olsaq, Onun yazdığı dastanda çox sirlər yaşayarıq.»

«Əgər ağlasaq, Onun ruzilərlə, bərəkətlərlə dolu buluduyuq, gülsək, Onun parlaq şimşəyi olarıq.»

«Qəzəblənsək, hiddətlənsək, savaşa girsək, bu, Onun qəhrinin əksi, cəlalının təcəllası olar. Barışsaq, üzr istəsək, bu da Onun sevgisinin üzə çıxmasıdır, görüntüsüdür.»

«Bu fani aləmdə biz kimik? Biz bir kölgə varlıq, bir heçdən ibarətik. Heç bir hərflə birləşməyən, heç bir nöqtəsi olmayan əlif kimiyik. Bizdən zühur edən hər hərəkət, hər hal, Onun adlarının və ilahi sifətlərinin təcəllasıdır.»

Həzrət Mövlananın belə bir heyrət və heyranlıq dəryasına qərq edən səbəb Allah təalanın sifət və adlarının özündə və aləmdəki ağılları heyrətə salacaq ülvi və sonsuz təcəllalarıdır. Bu həqiqət, yəni Allahın adlarının çoxluğu, Onun əməllərinin çoxluğunu anlamağı asanlaşdırır. Uluhiyyətinin məzmunundakı ölçüsüzlüyü ifadə edir. Onu məhdudlaşdıran dar anlayışlardan uzaq tutur. Xüsusilə, zidd xüsusiyyətlər uluhiyəti məhdudlaşdırmaq təmayülü daşıyan anlayışlara qarşı təsirli bir vasitə olur. Kimisi Onu sadəcə Zahir olaraq görmək istəyir. Elədir, ancaq Allah eyni zamanda Batindir.

Yəni uca Allah zidd sifətləri varlığında toplamışdır.

Bu ucalıq bütün varlıqların bir-birindən fərqli olmasına səbəb olmuşdur. Buna görə də bəşəri idraka sığan keyfiyyətlər zidd olanlar sayəsində qavranıla bilir. Bundan başqa ziddiyyət nə qədər kamildirsə, idrak o qədər parlaq olur.

Başqa yöndən, bizim aləmimizdə ziddlər bir arada yola getməyib, bir-birini yox etməyə və eyniləşdirməyə təmayüllüdür. Bu, varlığın əslinin tək olmasından doğulan bir keyfiyyətdir ki, həm fiziki aləmdə,

həm də metafizik həqiqətlər sahəsində mütləq bir surətdə var. Yəni «adətullah»ın ortaya çıxartdığı bir zərurətdir. Aydınlıq qaranlığı, isti soyuğu yox etməklə eyniləşmə təmayülü göstərdiyi kimi, təfəkkür və duyğularda meydana gələn ruhi alış-verişlər də bu ilahi qanuna görədir. Ancaq Allahın zatında olan ziddlər bizim aləmimizdəki kimi bir-birini yox etmək təmayülündə deyil, onlar birgə yaşamaq istedadına və iqtidarına malikdir. Müəyyən mənada uca Allahın heç bir sifətinin öz zatında bir ziddi yoxdur. Yəni O, həyat sahibidir. Ancaq həyatı yaradılmışlar üçün onun ziddi olan ölümdən uzaqdır. Vardır, varlığı bunun ziddi olan yoxluqdan uzaqdır. Elm sahibidir, bunun ziddi olan cəhalətdən uzaqdır. Ehtiyacları həll edir, ancaq Özü heç bir şeyə möhtac deyil. Bir sözlə, Onun bütün İlahi sifətləri belədir.

Bu baxımdan zidd sifətlərin Allah yanındakı mütləq mahiyyətini bilmək imkanımız olmadığı və biz ancaq müşahidə sahəmizə daxil olan aləmdən aldığımız informasiyalarla düşünmək iqtidarında olduğumuz üçün o keyfiyyəti idrak və təhlil etmək imkanımız yoxdur. Bunu belə bir misalla izah edə bilərik:

Bir elektrik şəbəkəsindən alıcının qabiliyyətinə görə soyuducuda soyutma, bir peçdə isə qızdırma kimi iki zidd nəticə əldə edə bilərik. Bunları eyni bir otaqda həyata keçirsək, qızdırma və soyutma keyfiyyətləri bəlli ölçüdə bir-birinin təsirini yox etdiyi halda, bu vəziyyət onların mənşəyi olan elektrik şəbəkəsində ortaya çıxmaz. Buna görə də uca Allah bütün varlıqları bəlli bir istedad və iqtidar ilə təchiz etdiyindən, onlar da Allahın adlarının təcəllasına bu çərçivədə nail olurlar. Ziddlərin bir-biri ilə mübarizəsi çoxun aza qalib gəlməsi ilə əbədi olaraq davam edir.

Deməli, aləmimizdə ziddlər arasındakı mübarizə, əslində, bir yox etmək əməliyyatından daha çox, bir qələbəni təmin etmək məqsədi daşıyır. Çünki hər zidd keyfiyyət, bir, ya da bir neçə ilahi ada bağlandığı və Allahın adları da əbədi olduğu üçün bu ziddlik ortadan qaldırıla bilməz.

Bu düşüncənin təbii bir nəticəsi budur ki, möminlərdə Allahın «Hadi» (doğru yolu göstərən) ilahi sifəti qalib gəlmişdir. Kafirlərdə

isə «Mudill» (zəlalətə yönəldən) sifəti təcəlla etmişdir. Belə olan halda bizim aləmimizdə iman-küfr ziddiyyəti də qiyamətədək davam edəcək. Bunların arasındakı mübarizəni «qələbə» xüsusiyyətindən uzaqlaşaraq birinin digərini tamamilə yox etmək şəklində nəticələnməsi mümkün deyil. Çünki bütün ilahi adların təcəllası fasiləsiz və əbədidir.

Bunun başqa bir nəticəsi də budur. Kafirlər nə qədər güc və qüdrət sahibi olsalar da, imanı yox edə bilməzlər. Eyni gerçək möminlər üçün də doğrudur. Bəşəri bir fəaliyyət sahəsi olaraq iman-küfr üçün izah etdiyimiz bu həqiqət kainatdakı bütün ziddiyyətlər üçün də özünü doğruldur.

❁

Digər tərəfdən, Allahın bütün adlarının təcəlla tərkibləri ilə meydana gələn kainat belə bir təcəllaya açıq olmaq baxımından tək deyil. Eyni keyfiyyət **insan** və **Quran** haqqında da var.

Kainat bu təcəllada əməli bir aləmdir. Quran o kainatın bütün həqiqətlərinin «kəlam» surətində ifadə edildiyi bir həqiqətlər mənzuməsidir. İnsan isə bu prosesdə kainat kimi ilahi adların bütün təcəllalarına məzhər olmaq yönündən kainatın mahiyyəti, toxumu, canıdır. Buna görə də ona «kiçik aləm» deyilmişdir.

İlahi adlardakı ziddiyyətlərin onların kamil bir təcəlla məkanı olan insanda da mövcud olması təbiidir. Buna görə «Hadi» ilahi sifətinin qalib gəldiyi bir mömində mütləq «Mudill» ilahi sifətindən də bir zərrə var. Belə bir şəxsin imanı ona amil olan sifətin o şəxsdə qələbəsinin nəticəsidir. Kafirdə isə vəziyyət bunun əksinədir.

Bu keyfiyyətin təbii bir nəticəsi odur ki, hər mömində küfrə, hər kafirdə də imana az, ya da çox bir meyil var. Buna görə də möminlərin *«qorxu ilə ümid arasında»* yaşaması önəmli bir məsələdir. Buna görə, möminlərin hər an ayaqlarının büdrəyəcəyi ehtimalını yaddan çıxarmamaları zəruridir.

Bundan başqa, ən şiddətli bir kafirin belə bir gün gəlib «Hadi» ilahi sifətinə ünvan ola biləcəyini yaddan çıxarmayaraq onu bu ümid və ehtimalın işığında müxatəb qəbul etmək lazımdır.

Hədisi-şərifdə bu məsələyə diqqət yönəldilərək belə buyurulur:

«Bir kimsə uzun zaman cənnətlik olanların əməllərini həyata keçirər, sonra əməli cəhənnəmlik olanların əməli ilə sona çatdırılar. Bir kimsə də uzun zaman cəhənnəmliklərin əməlini həyata keçirər, sonra əməli cənnətliklərin əməli ilə başa çatdırılar.» (Müslim, «Qədər», 11)

Buna görə də hər möminin könlü qorxu və ümid arasında olmalıdır. Uca Allah belə buyurur:

«…Sənə yəqin (ölüm) **gələnədək Rəbbinə ibadət et!»** (əl-Hicr, 15/99)

Uca Allahın bu ilahi düsturu hər bir mömin üçün ölçüdür.

İman və inkar baxımından qədərin məchul olmasına görədir ki, mütləq əminlik də, mütləq ümidsizlik də küfrdür. Çünki son nəfəsdə baş verəcək vəziyyəti heç kim bilməz. Çünki peyğəmbərlərlə onun işarə etdiyi şəxslərdən (əşəreyi-mübəşşərə kimi) başqa heç bir kimsə üçün təminat yoxdur.

Yuxarıda ifadə etdiyimiz kimi, zidd sifətlər Allahın zatında bir-biri ilə iç-içə və dinclik şəraitində olduğu halda, uca Allahın bu sifətləri imtahan aləmi olan dünyamızda bir-birinə qalib gəlməyə meyil göstərir. Onlar bu xüsusiyyətlə təcəlla etmişdir. Yəni tez-tez «Hadi» adının təcəllası ilə hidayətə qovuşanların qalib gəlməsi, tez-tez də «Mudill» adının qələbəsi ilə küfr edənlərin çoxalması kimi. Hətta, peyğəmbərlərin dözülməsi mümkün olmayan qeyri-adi fəaliyyətlərinə baxmayaraq, kafir və fasiqlər hər zaman mövcud olmuş, kafir və zalımların hakimiyyətdə olduqları dövrlərdə də möminlər imanlarını qorumuşlar.

Qurani-Kərimlə sabitdir ki, Əshabi-Uhdud atəşlə dolu xəndəklərin içinə atılarkən, ilk İsəvilər aslanların dişi arasında can verərkən, Həbibi-Nəccar zalım bir tayfa tərəfindən daşa basılarkən, Fironun sehrbazları isə Musaya -əleyhissalam- iman etdiklərinə görə qolları, ayaqları çarpaz şəkildə kəsilib xurma budaqlarından asılarkən belə, bir iman zəifliyinə uğramadan belə demişlər:

«… Ey Rəbbimiz! Bizə (bolluca) **səbir əta et və bizi müsəlman olaraq öldür!»** (əl-Əraf, 7/126)

Onlar son nəfəslərində imanları uğrunda mücadilə aparmış və şəhid olaraq Rəbblərinə qovuşmuşlar.

Bu həqiqətlərdən bizə etiqadi və tərbiyəvi bir nəticə hasil olur. Buna görə bir kimsə küfründə nə qədər şiddətli olsa da, onu heç kimsənin İslamın dəvətindən məhrum etmək haqqı yoxdur. Çünki o, bir an şüurunun altındakı «Hadi» ilahi sifətinin təcəllasına rəvac verərək şəxsiyyət etibarı ilə bir dəyişikliyə uğraya bilər. Yəni ən azğın bir kafirin belə hidayət ehtimalı var. Bu həqiqəti uca Allah, Fironu hidayətə dəvət etmək üçün göndərdiyi həzrət Musa və həzrət Haruna belə çatdırmışdır:

«Ona yumşaq söz söyləyin. Bəlkə o, nəsihət dinləyər, ya da Allahdan qorxar.» (Taha, 20/44)

Heç şübhəsiz ki, bu ayeyi-kərimə eyni zamanda bizə İslamı təbliğ etmək məsələsində mükəmməl bir metod təqdim edir. Bu metodun iki əsası var:

1. Həqiqəti üz tutduğun şəxsə onun mənliyini zədələmədən yumşaq bir üslubla təbliğ etmək.

Belə ki, Firon, Musanın -əleyhissalam- möcüzələri qarşısında bir çox hallarda imana meyil etdi. Ancaq Haman və onun ətrafındakılar tez mane oldular. O, özü də təkəbbürləndi və iman etmədi. Ancaq Qırmızı dənizdə boğulma anında acizliyini dərk etdi və uca Allahın «Hadi» adına sarılmaq istədi:

«Gerçəkdən İsrail oğullarının inandığı ilahdan başqa ilah olmadığına mən də iman etdim. Mən də müsəlmanlardanam.» (Yunus, 10/90)

Ancaq ömrü boyu «Mudill» adının təcəllasına uyğun olaraq yaşamış Fironun ölüm anındakı bu imanı qəbul edilmədi və o, amansız zalım kafir olaraq axirətə getdi.

Başqa bir ayeyi-kərimədə belə buyurulur:

«(Ey Rəsulum!) **İnsanları hikmətlə** (Quranla, tutarlı dəlillərlə) **gözəl öyüd-nəsihətlə** (moizə) **Rəbbinin yoluna** (İslama) **dəvət et,**

onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) **mücadilə et…»** (ən-Nəhl, 16/125)

Uca Allah bu ayədə deyilən metodu tətbiq etməyi təkid etmişdir.

2. Hansı vəziyyətdə olduqlarına baxmadan təbliğ bütün insanlara aid olmalıdır.

Firon iman etmək istəməyən bir zalım və bədbəxt olduğu kimi, eyni zamanda Musanı -əleyhissalam- yox etmək üçün minlərlə körpəni qətl etmiş bir cani idi. Belə olmasına baxmayaraq, yenə də ilahi təbliğə ünvan seçildi. Bundan başqa, ayeyi-kərimədə belə buyruldu:

«Ona yumşaq söz söyləyin. Bəlkə o, nəsihət dinləyər, ya da Allahdan qorxar.» (Taha, 20/44)

Bu ilahi bəyan təbliğin hansı vəziyyətdə olurlarsa-olsunlar, bütün insanlara aid edilməsinin zəruriliyini ortaya qoyur.

Belə ki, Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm, Əbu Cəhlə İslamı dəfələrlə təbliğ etmişdi. Əbu Cəhl isə həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- açıq olan peyğəmbərliyini vicdanında qəbul etdiyi halda nəfsinin istəkləri və təkəbbürü nəticəsində onu dilə gətirməmişdi. Ancaq həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- bu üstün davranışı Ömər bin Xəttab, Əbu Süfyan, Hind və Vəhşi kimi başlanğıcda İslam düşməni olan şəxslərin hidayətinə yol açmışdır.

Bu münasibət ölçüsü istər islami xidmətlərdə, istərsə də bütün bəşəri münasibətlərdə real vəziyyətin nəzərə alınması qədər insanların hallarının da nəzərə alınmasından doğan bir gözəllik, yumşaqlıq və incəliyi gerçəkləşdirmək imkanını təmin edər. Mütəsəvviflərin davranışlarında ən kamil və feyzli bir vasitə olaraq müşahidə edilən təməl münasibət ölçüsü də budur.

Allah təala öz zati varlığının və vəhdaniyyətinin qəlb ilə təsdiq və dil ilə deyilməsi bu imanın meydana gətirdiyi təbii və vicdani bir məcburiyyət olaraq ibadətlərlə möhkəmləndirilməsini istəmiş və bunu gerçəkləşdirəcək qabiliyyəti varlıqlar içərisində ancaq insanlara

və cinlərə lütf etmişdir. Onları idrak və qavrayışla təchiz etdiyi üçün bu idrak və qavrayışın səviyyəsi ölçüsündə məsuliyyət daşıdığını bildirmiş və bu məsələləri yerinə yetirməyə borclu etmişdir.

Cinlər sayca insanlardan çox olmasına və buna görə də Qurani-Kərimdə bir yerdə ifadə edildikləri hər ayeyi-kərimədə insanlardan öncə zikr edilmələrinə baxmayaraq, şərəf və ucalıq məsələsində ən üstün mövqe insanlara məxsusdur. Belə olmaqla birgə, insanlar və cinlər yaradılış qayələri olan ibadət və qulluq vəzifələrində bərabərdirlər. Uca Allah bu məsələni Qurani-Kərimdə belə bildirmişdir:

«**Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!»** (əz-Zariyat, 51/56)

Rəhməti qəzəbindən üstün olan və sonsuz bir mərhəmət sahibi uca Allah insanlar və cinlərə verdiyi «qulluq» vəzifəsinin icra edilməsi üçün onları ağıl, idrak, qavrayış və yaxşını pisdən ayırma gücü ilə təchiz etmişdir. Bundan başqa, uca Allah insanlara və cinlərə ilahi yardım da lütf etmişdir. Kainat uca Allahın varlığına hər ünsürü ilə bir dəlildir. Uca Allah insanların və cinlərin öz ağılları ilə bu dəlilləri anlamaqda çətinlik çəkəcəyini bildiyi üçün, onlara yardım etmək məqsədi ilə peyğəmbərlər və kamil mürşidlər göndərmişdir. Həqiqətən, bu əlavə yardımdan heç bir fərdin kənarda qalmaması üçün də bu yardımı ilk olaraq insanların atası olan həzrət Adəmə göstərmiş və bu məqsədlə ona peyğəmbərlik vermişdir. Ancaq insan cinlərdən üstün olduğuna görə, bütün peyğəmbərlər insanların arasından seçilmiş və onların bəziləri cinlərin də peyğəmbəri olmuşdur.

Peyğəmbərlərin təbliğləri mücərrəd həqiqətlər baxımından bir-biri ilə eyni olduğu halda, ictimai hökmlər, insan həyatının keçdiyi təkamül yoluna paralel bir seyr təqib edərək son Peyğəmbərdə və ona göndərilən Qurani-Kərimdə kamala çatdırılmışdır. O, artıq bir daha hökmü qiyamətədək ləğv edilməyəcək bir bəyan möcüzəsi halında davam edəcək. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- də insan və cin aləminin hər ikisinə Peyğəmbər olduğundan Onun bu sifəti də

«Rəsulus-Sakaleyn»dir. Yəni o, insanların və cinlərin peyğəmbəridir. Səkaleyn insanlar və cinlər aləminin hər ikisinə də aid olan bir addır.

İlahi adların qovuşması ilə vücuda gələn kainat, ilahi qüdrətin göz qamaşdıran bir nümayiş yeridir. Elm inkişaf etdikcə ilahi sənətin xariqə təcəllaləri daha dərindən və əhatəli bir şəkildə qavranılır və uca Allahın qüdrətinin anlaşılması yönündə daha böyük məsafələr qət edilir. Müasir dövrümüzdə kosmik çalışmalardan başlamış genetika elminin son nailiyyətlərinə və kompüter xariqəsinə qədər bütün elmi fəaliyyətlər bu hökmümüzü təsdiq edir. Buna görə də uca Allah belə buyurur:

«… Bəndələr içində ancaq alimlər Allahdan (lazım olduğu şəkildə) **qorxar.»** (Fatır, 35/28)

Çünki elm öz tərəqqisi ilə bəşər idrakına uca Allahın qüdrət və əzəməti ilə bağlı yeni bir dəlil təqdim edir. Kainat bu xüsusiyyətinə görə insan idrakının kəşfinə hazır olan sonsuz bir həqiqətlər mənzuməsidir. Bu halı ilə o, sanki kəlmələrə tökülməmiş bir şeir və müfəssəl bir kitabdır. İlahi əmrlərə riayət etməklə elmdə incəliklərə bələd olanlar sətirlərə əks etmiş olan gerçəkləri arxada qoyub mənəvi bir səlahiyyətlə kainat kitabındakı hikmət və sirləri oxumağa başlayarlar.

Dəqiq elmlər aləmə hakim olan ilahi nizamı «təbiət qanunları» adı altında sistemləşdirməyə çalışır. Ancaq elmdə incəliklərə bələd olanlar təbiət qanunları deyilən bu həqiqətləri daha ümumi bir nöqtədən qavrayaraq kainata hakim olan ilahi istəyə qovuşurlar.

Bir kiçik kainat demək olan insan da aləmlər kimi bəşər idrakına təqdim edilmiş sonsuz bir həqiqətlər mənzuməsidir. İnsana kainatın cövhəri, toxumu deyilməsinin hikməti də budur. Bir toxumda öz nəslinin bütün xüsusiyyətləri var olduğu kimi, insana da kainat və Qurandakı bütün sirr və həqiqətlər bir nüvə halında yerləşdirilmişdir.

Başqa bir ifadə ilə varlığı yaratdıqlarının varlığına bənzəməyən, zatını qavramaq mümkün olmayan, ancaq əsər və sənətini dərk etmək yolunu açıq saxlayan uca Allah insanı yer üzündə «xəlifə» olaraq yaratmışdır.

Onu məxluqatın ən şərəflisi etmiş və kainatın cövhərinə çevirmişdir. Onda olan həqiqətlər baxımından insan kiçik bir kainatdır. Elm də bu baxımdan insana hər şeydən öncə özünü tanıtmalı, varlığın qayəsini bildirərək mərifətullaha qapı açmalıdır.

Həzrət Yunus Əmrə də elmin əsl qayəsini çox gözəl ifadə edir:

İlim ilim bilmektir
İlim kendin bilmektir.
Sen kendini bilmezsin
Bu nice okumaktır!

Okudum bildim deme
Çok taat kıldım deme
Eğer Hakkı bilmezsen
Bu kuru laf demektir.

Uca Allahın insana lütf etdiyi bu xüsusi qiymət və mövqe daha çox təsəvvüfi mühitlərin geniş dünyalarından doğulan könül əsərlərində ifadəsini tapmışdır. XVIII əsr şairlərindən Şeyx Qalibin bu mövzudakı məşhur şeiri insanı layiq olduğu dəyərlərlə tərif edən əsərlərin ilk olanlarından biridir. Şair bu şeirində insana belə xitab edir:

Sendedir mahzeni-esrari-muhabbet sende,
Sendedir madeni-envari-fütüvvet sende.

«Ey insan oğlu! Bil ki, məhəbbət sirlərinin mövcud olduğu könül səndədir, səndə... Yaradılış təmizliyi, kərəm və mürvət nurlarının qaynağı da səndədir, səndə...»

Gizli gizli dahi vardır nice halet sende,
Marifet sende, hüner sende, hakikat sende.

«Səndə çox gizli hallar var. Çünki mərifət, hünər və həqiqət də səndədir...»

Nazar etsen yer ü gök, düzah u cennet sende,
Arş u kürsiyy ü melek, sendedir elbet sende.

«Diqqətlə baxsan görəcəksən ki, sanki yer, göy, cənnət, cəhənnəm səndədir. Hətta, ərş, kürsü və mələk də, əlbəttə səndədir…»

Hoşça bak zatına kim zübdei-alemsin sen,
Merdümi-didei-ekvan olan ademsin sen.

«Buna görə də ey insan, öz varlığına xoş bax ki, sən kainatın cövhərisən, varlıqların göz bəbəyi olan adamsan…».

Bir sözlə, bəşəri idrakın ancaq səbəbdən səbəbkara, təsirdən təsir edənə, sənətdən sənətkara ötürülmə yolu ilə qavramağa çalışdığı uca Rəbbinin möhtəşəm həqiqətlərindən bu fani aləmə enmiş bir təcəlla cövhəridir. Bu xüsusiyyətləri ilə insan müxtəlif təcəllada bir kainatdır və canlı bir Quran olmağa yeganə namizəddir.

Ancaq elmi araşdırmalar kainatdakı məchul olanları məlum etmək yönündə qazandığı səviyyə və uğurları hələ «insan» üzərində əldə etməmişdir. Bunun səbəbi insanın «ruh» və «bədən»dən ibarət olması və ruh haqqında insanlara uca Allahın istəyinə uyğun olaraq az bir bilgi vermiş olmasıdır. Buna görə də, iç dünyası ilə insan kainatdan daha böyük bir gizlilik daşıyır. Onun bədəni haqqındakı bilgi bundan iki min əvvəlkinə nisbətən çox böyük bir dəyişiklik və inkişaf ərz etdiyi halda, insanın ruhu ilə bağlı çalışmalar buna paralel bir inkişaf yolu keçməmişdir. Bu keyfiyyət Qurani-Kərimdə ifadə olunan həqiqətin təsdiqindən ibarətdir:

«(Ey Rəsulum!) **Səndən ruh** (ruhun mahiyyəti və keyfiyyəti) **haqqında soruşarlar. De: «Ruh Rəbbimin əmrindədir** (Allahın əmri ilə yaradılmışdır)**». Sizə** (bu barədə) **yalnız cüzi bir bilik verilmişdir!»** (əl-İsra, 17/85)

Kainata gəlincə, adətullah, ya da sünətullah dediyimiz son dərəcə bir-birinə bağlı və mükəmməl qaydalarla sistemli bir şəkildə qurulmuşdur. Bunlar eyni zamanda uca Allahın sonsuz elm və qüdrətinə dəlalət edən istər fiziki, istərsə də metafizik aləmlərə aid olan hikmətli qanunlardır. Bunlardakı dəyişməz və ortaq xüsusiyyətlər bu

qanunları qoyanın tək və bir varlıq olduğuna, bu kainat əsərinin tək bir əldən çıxdığına şahidlik edən bir dəlildir. İslam insanı Quran ayələrini oxuduğu kimi, kainat kitabındakı bu təcəlaları görməyə dəvət edir. Çünki uca Allah özünü bəndələrinə yaratdıqlarındakı hikmət, ibrət və sirlər vasitəsilə tanıdır. Ayeyi-kərimələrdə belə buyurulur:

«Məgər onlar yer üzünə baxıb orada növbənöv gözəl (bitkilər və meyvələr) **yetişdirdiyimizi görmürlərmi?»** (əş-Şüəra, 26/7)

«(Ey Rəsulum!) **Sən Allahın mərhəmətinin** (yağışının) **əsər-əlamətinə bax ki, torpağı öldükdən sonra necə dirildir, doğrudan da, O, ölüləri dirildəndir. O** (Allah) **hər şeyə qadirdir».** (ər-Rum, 30/50)

«Yeddi göyü (bir-birinin üstündə) **qat-qat yaradan da Odur. (Ey insan!) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görə bilmərsən. Bir gözünü qaldırıb** (səmaya) **bax. Heç orada bir yarıq** (çatdaq, nöqsan) **görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada** (axtardığını tapmayıb) **zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!»** (əl-Mülk, 67/3-4)

«Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır? Göyə (baxmırlar ki) necə ucaldılmışdır? Dağlara (baxmırlar ki) **necə dikəldilmişdir? Və yerə** (baxmırlar ki) **necə döşədilmişdir?»** (əl-Ğaşiyə, 88/17-20)

«Məgər onlar başlarının üstündəki göyə baxıb, onu necə yaratdığımızı, bəzədiyimizi və orada heç bir yarıq olmadığını görmürlərmi?!» (Qaf, 50/6)

Bu ucsuz-bucaqsız kainatda ağılları heyrətə salan bir nizam və ahəng olduğu bir gerçəkdir. Bu nizam və ahəng son dərəcə mükəmməl, incə və həssas hesabların əbədi tarazlığın içərisində heç çaşmadan kainat yaradılandan bəri davam edir. Məlumdur ki, əgər dünyanın quruluşunda 23,5 dərəcəlik bir maillik olmasaydı, mövsümlər meydana gəlməzdi. Belə vəziyyətdə yaz olan yer əbədi yaz, qış olan yer əbədi qış olardı. Ya da günəşlə dünyamız arasındakı məsafə bir az daha çox olsaydı, hər yer qütblərə dönərdi. Günəş bizə indikindən bir az daha yaxın olsaydı, hər şeyi yandırıb külə çevirərdi. Bu və

buna bənzər keyfiyyətlər bütün səmavi cisimlərin həyatın varlığını mümkün edəcək bir şəkildə proqramlanmış olduğu həqiqətini ortaya qoyur.

Bir sözlə, görən gözlər dərk edər ki, ilahi səltənət və tənzim qarşısında bu dünya fəzada hərəkət edən milyardlarla, trilyonlarla tozdan sadəcə bir dənəsidir. Dağlar, ovalar, okeanlar və insan da bu tozun içərisindədir. Deməli, insan aciz bir varlıqdır, ona qalan ancaq qulluğudur, başqa sözlə, o bir heçdən ibarətdir!..

Uca Allahın sonsuz dərəcədə mükəmməl, bir-birinə bağlı çox incə bir hesab mexanizm ilə şanına layiq olan bir şəkildə yaratdığı insanlar, yerlər və göylərdəki qüdrət və əzəməti inkişaf edən elmlə birlikdə daha dərindən anlaşılacaq:

«Onun (Quranın) **haqq olduğu onlara** (müşriklərə) **bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə** (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında)**, həm də onların öz daxilində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyilmi?!»** (əl-Fussilət, 41/53)

Həqiqətən, kainat haqqındakı araşdırmalar inkişaf etdikcə Qurani-Kərimin incəlikləri bir az daha əhatəli şəkildə dərk olunur. Çünki dəqiq elmin hər bir yeni kəşfi Quranın təsdiq etdiyi kimi, bu kəşflər bəzən onun anlaşılması çətin olan ayələrini izah etməyə yardım edir.

Belə ki, insanın yaradılış mərhələlərinə işarə edən Quran ayələri qarşısında embriologiya, anatomiya və biologiya kimi elmi sahələrin insaflı alimləri heyrətə düşmüş və onlar həqiqəti təsdiq etmək məcburiyyətində qalmışlar. Qurani-Kərimdə insanın ana bətnindəki formalaşma mərhələləri belə buyurulur:

«Biz, həqiqətən, insanı tərtəmiz (süzülmüş) **palçıqdan yaratdıq.** (Biz Adəmi torpaqdan, Adəm övladını isə süzülmüş xalis palçıqdan - nütfədən xəlq etdik)**. Sonra onu** (Adəm övladını) **möhkəm bir yerdə** (ana bətnində) **nütfə halına gətirdik. Sonra nütfəni laxtalanmış qana** (rüşeymə, bağlı qalan bir şeyə) **çevirdik, sonra laxtalanmış qanı bir tikə** (çeynənmiş) **ət halına saldıq, sonra o**

bir tikə əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa (yeni) **bir məxluq olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah nə qədər** (uca, nə qədər) **uludur!»** (əl-Muminun, 23/12-14)[3]

Qurani-Kərim astronomiya, botanika, biologiya, geologiya və başqa bu kimi elmlərə aid bir kitab olmadığı və az sözlə çox mənalar ifadə edə bilmək sifətinə sahib olduğu üçün elm və texnikanı detalları ilə şərh etmək vəzifəsi yoxdur. Ancaq elm və texnologiya sahəsində olan hər bir yeni kəşf Quranın dəqiq şəkildə deyil, işarə yolu ilə bildirdiyi hikmət, ibrət və həqiqətləri təsdiq edərək ilahi mesajların gün keçdikcə daha açıq bir hala gəlməsinə xidmət edir. Bu həqiqətlərin ən açıq və geniş bir şəkildə olduğu aləm isə kainatdır. Bunun səbəbi insanda cövhər və toxum şəklində mövcud olan həqiqətlərin Quranda bir az daha açıq bir şəkildə yer tutmasına baxmayaraq, yenə də bir çox hökmün gizli qalmış olması ilə bağlıdır.

Quranın misli-bərabərinin olmaması keyfiyyəti sonsuz həqiqətləri ehtiva etməsi ilə bağlıdır. Çünki elmi araşdırmalarla ortaya çıxan həqiqətlər Quranda açıq və geniş bir şəkildə olsaydı, bundan iki problem yaranardı:

3. Qurandakı yaradılış mərhələlərinə aid olan bu ayələr anatomya sahəsində araşdırmaları ilə şöhrət qazanmış olan professor Marşall Consonu da heyrətə salmışdır. Xüsusilə, «Bir çeynəmlik ət»in xüssusiyyətlərinə dair mübarək ayədə verilən bilgilər son dərəcə diqqəti cəlb etmişdir:

«Bir çeynəmlik ət (mudğa)…» tam dişlərin düzülüşünə görə formalaşmış bir vəziyyətdədir. Sanki çeynənmiş bir ətin üzərində diş izləri qalmışdır. Bu ətin həcmi bir santimetrdir (sanki bir çeynəmlikdir).

Bir çeynəmlik ətdə insanın bütün xüsusiyyətləri var, ancaq bu xüsusiyyətlərin bəzisi fəaldır, bəzisi də hələ fəaliyyətə başlamamışdır! Tibb elmi bu vəziyyəti şərh edə biləcək bir termin tapa bilməmişdir. Orqanlar çalışır desə, hələ çalışmayanlar da var, orqanlar çalışmır desə, axı, çalışanlar da var. Ancaq Quran bunu **«üzvləri tam olaraq deyil, qismən formalaşmış bir çeynəm ət»** (əl-Həcc, 5) deyə xarakterizə edərək bu bir çeynəm ət (mudğa) ilə bağlı bütün bilgiləri ehtiva edən bir anlayışla bu həqiqəti əsrlər öncəsindən xəbər vermişdir.

Qurani-Kərimi öncə rədd edib, sonra da tamamilə qəbul etmək məcburiyyətində qalan professor Marşall bu həqiqətlər qarşısında özünü belə deməkdən saxlaya bilməmişdir: «Bəli, elm əhlinə işıq tutan bu Quran Allah tərəfindən endirilmişdir. Zaman gəldikjə onun həqiqətləri bir-bir açılacaq və görünəcəkdir. Allahın buyurduğu:

«Hər bir xəbərin (Quranda sizə xəbər verdiyim əzabın Allah tərəfindən təqdir olunmuş) müəyyən bir vaxtı vardır və siz (onu) biləcəksiniz» (əl-Ənam, 6/67) ayəsi təcəlli edəcək». (Baxın, Əbdül Məcid Zindani, «Quranda elmi möcüzələr», s. 31-36)

a. İnsanlar yaşadıqları dövrün elmi səviyyəsi baxımından bunları qəbul etməkdə çətinlik çəkər və inkar yoluna yönələrdilər. Allah rəhmət və mərhəmətinə uyğun olaraq bu həqiqətləri zaman keçdikcə anlaşıla biləcək bir örtüyə bürüyərək, gizləyərək bəndələrinə lütf etmişdir.

b. Əgər bütün həqiqətlər Qurani-Kərimdə açıq və geniş bir şəkildə yer tutmuş olsaydı, onun həcmi çox genişlənər, əzbərləmək, qorumaq mümkün olmaz, başdan sonadək oxunması isə qeyri-mümkün olardı.

Çünki uca Allah ayeyi-kərimələrdə belə buyurur:

«(Ey Rəsulum!) **Biz Quranı sənə hər şeyi** (dini hökmləri, halal-haramı, günah və savabı) **izah etmək üçün müsəlmanlara da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik.»** (ən-Nəhl, 16/89)

«…Yaş və quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) **olmasın!»** (əl-Ənam, 6/59) buyrularaq Qurani-Kərimdə aləmdəki bütün həqiqətlərə işarə edildiyini bəyan etmiş.

«Onlar Quran barəsində (onun Allahın kəlamı olması haqqında) **düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar»** (ən-Nisa, 4/82) ayeyi-kəriməsi ilə də bəndələrini Quranın həqiqi təfəkkür iqliminə dəvət etmişdir.

Qurani-Kərim uca Allahın sözləri ilə desək, bir **«furqan»**dır. Yəni hidayət ilə dəlalət, xeyir ilə şər, nur ilə zülmət arasındakı fərqi ortaya qoyan və bunlar arasındakı fərqləri göstərən mübarək bir kitabdır. Qurani-Kərim ona yaxınlaşanların qismətinə, niyyət və qabiliyyətinə görə nəticə verir. Ona pozulmamış bir qəlb ilə yaxınlaşanda yeni-yeni dəlillərlə iman güclənir. Bu həqiqət Qurani-Kərimdə belə ifadə edilmişdir:

«Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq öz Rəbbinə təvəkkül edər». (əl-Ənfal, 8/2)

Başqa yöndən, Qurani-Kərimə mənfi bir münasibətlə baxanların da azğınlığı artar. Çünki hər hansı bir şeyə məhəbbət nəzəri ilə baxanda ondakı bütün gözəlliklər daha aydın göründüyü kimi, əksinə mənfi münasibətlə baxanda isə onda var olan heç bir məziyyət görünməz. Əbu Cəhlin İslama baxışı kimi. Belələrinin Qurani-Kərimi oxuduqca onun ucalığına qovuşması mümkün olmadığından, onların acizlik içərisində küfr və azğınlığı artar. Yəni sevmədiyi bir rəqib tərəfindən məğlubiyyətə uğrayanların qəzəb və çılğınlıqlarına bənzər bir halda olarlar. Nəticədə, layiq olacaqları cəza da artar. Bu məsələ ilə bağlı ayeyi-kərimələrdə belə buyurulur:

«Biz Qurandan möminlər üçün şəfa və mərifət olan ayələr nazil edirik. O, zalımların (kafirlərin) **ancaq ziyanını artırır.»** (əl-İsra, 17/82)

«… (Ey Rəsulum!) **De: «O, iman gətirənlərə hidayətdir və** (cəhalət xəstəliyinə tutulmuş ürəklərə) **şəfadır. İman gətirməyənlərin isə qulaqlarında karlıq** (ağırlıq) **vardır. O,** (Quran) **onları kor etmişdir. Onlar** (sanki) **uzaq bir yerdən çağırılırlar** (heç bir şey eşitməz, heç bir şey anlamazlar)**».** (əl-Fussilət, 41/44)

Göründüyü kimi, Quranın inananlar üçün bir hidayət rəhbəri olmasına baxmayaraq, o həqiqət günəşinə qarşı inadla gözünü bağlayan kafirlərin isə ancaq küfr və ziyanını artırdığı ilahi bəyan ilə təsbit olunmuşdur.

Belə şəxslər haqqında ayeyi-kərimədə buyurulur:

«Məgər onlar (peyğəmbərləri yalançı hesab edən kafirlər) **yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən qəlbləri** (bəsirət gözləri)**, eşidən qulaqları olsun? Həqiqətən, gözlər kor olmaz, lakin sinələrdəki ürəklər** (qəlb gözü) **kor olar»**. (əl-Həcc, 22/46)

Yuxarıda ifadə etdiyimiz kimi, kainat iİlahi sifətlərin təcəllası ilə meydana gəlmiş bir varlıqlar mənzuməsi, Qurani-Kərim isə bu varlıqlar mənzuməsində mövcud olan həqiqətlərin kəlama inikasıdır. İnsan isə bunların hər ikisinin cövhəri, xülasəsi və bir növ toxumudur. Ona görə də insanda bütün zidd təcəllalardan az, ya da çox bir pay var.

❁

Kainatı və içindəkiləri ilahi adların təcəlla tərkibləri ilə yaratmış olan uca Allah bu sifətlərin kamil təcəllalarını yalnız insana nəsib etmişdir. İnsanı yaradılmışların əşrəfi edən də budur. O da öz qabiliyyəti ölçüsündə zidd sifətlərə sahibdir. Gülər, ağlayar, sevər, nifrət edər və s. Yəni insanın varlığında rəhmət sifəti də var, qəhr, qəzəb də var. Ona görə də insandan lütf və kərəm də gözləmək olar, qəzəb və kin atəşi də təzahür edə bilər.

Onda sevgi və nifrət duyğuları hər zaman bir-birini əvəz edir.

Bir sözlə, insan Allahın bir çox sifətindən pay almışdır. Ancaq bu sifətlərin təcəlla dərəcələri hər insanda müxtəlifdir. Ən azından ən çoxuna qədər bu təcəlladan pay almaq insanların dərəcələrini meydana gətirir.

Məsələn, hər insanda Allahın **«Rəhman»**, ya da **«Rəhim»** sifətindən bəlli bir ölçüdə mütləq bir təcəlla var. Ancaq bu, insandan insana hər zaman dəyişir və dərəcələrinə görə fərqlənir. Kiminin «Rəhman» və «Rəhim» sifəti ancaq öz nəfsinə, ya da ən çoxu yaxın ailə üzvləri və dostlarına aid olur. Eləsi də var ki, onun bu sifəti bütün insanlığı əhatə edir, hətta, heyvanlara belə aid olur. Məsələn, «Rəhman» sifətinin kamil təcəllasına bu hadisəni misal göstərə bilərik:

«Bəyazid Bistami bir yerdən başqa bir yerə səyahət edərkən bir ağac altında oturur və yemək yeyir. Yeməyini bitirib, yoluna davam edən Bəyazid xeyli yol getdikdən sonra torbasının üzərində bir qarışqa görür. Həzrət: «Allahın bu məxluqunu vətənindən ayırdım»,- deyərək geri dönür, qarışqanı o ağacın altına qoyur.»

Misilsiz mərhəmət örnəklərindən başqa biri belədir: «Səri-Sakati -qüddisə sirruh- dərsində tələbələrinə:

«Möminlərin dərdi ilə kədərlənməyən onlardan deyildir.» (Hakim, «Müstədrək», IV, 352; Heysəmi, «Məcmauz-Zəvaid», I, 87) hədisini izah edərkən bir tələbəsi həyacanla içəri girir və belə deyir:

- Ustadım! Sizin məhəllə yandı, kül oldu. Ancaq sizin ev yanmadı, xilas oldu.



Səri-Sakati sevinc içində: «əlhəmdülillah»,-deyir.

Otuz il sonra bir dostuna belə deyir:

«Mən o vaxt «əlhəmdülillah» deməklə bir anlıq olsa da, ancaq özümü düşünmüş, fəlakətə uğrayanların iztirabından uzaq qalmış oldum. Otuz ildir o halımın tövbəsi içindəyəm.»

Başqa sözlə, rəhmət və məhəbbət bir inkişaf nöqtəsi olaraq kim və haradan başlamış olursa-olsun, bütün məxluqatı əhatə etmək istiqamətində bir inkişaf yolu seçərsə, sahibini kamil mömin, ya da başqa bir ifadə ilə həqiqi aşiq edər. Eşq, tumurcuqlanan bir çiçək kimi müəyyən sevgilərə təmayül və bağlılıqla başlamış olsa da, Yaradandan ötrü bütün məxluqata doğru yönəldiyi anda gerçək **«eşq»** olur.

«İlahi eşq» deyilən mərhəmət və məhəbbət əlaqəsinin hüdudları sonsuz bir üfüqə doğru getmədikcə, o mərhəmət və məhəbbət eşq şəklində ifadə edilə bilməz. Ona **«məcazi eşq»** demək olar.

Allahın adlarının təcəlla tərkibləri insanların sayı qədər fərqli xarakterlərin meydana gəlməsinə yol açmışdır. Müxtəlif rənglərin bir-birinə qarışdırılmasından əldə edilən bu nəticə daha çox olan rəng istiqamətində olduğu kimi Allahın adlarının təcəllalarının tərkibi də qalib olan təcəlla hansı sifətdə isə, ona yaxın olan bir məzmun qazanır. Bu keyfiyyət xarakterə uyğun yol seçilib, daha asan inkişaf imkanı təmin etmək üçün təriqətlərin meydana çıxmasına yol açdığı kimi, hər müridin tərbiyəsi üçün də fərqli bir tərbiyə metodunun zəruriliyini ortaya çıxarır.

Həqiqətən, təməl və hakim xüsusiyyətləri baxımından xarakterlər də ümumi bir təsnifə görə bölünə bilər. Yaradılmışların insan, heyvan, bitki və cansızlar olmaqla fərqli kateqoriyalara ayrıldığı kimi. Ancaq eyni kateqoriyadakı iki varlığın sayıq olduğu hər hansı bir xüsusiyyətin ən azı ilə ən çoxu arasındakı fərq, iki ayrı kateqoriya arasındakı fərqdən daha çox ola bilər. Məsələn, ən aşağı mövqedə olan bir insandan ən yüksək dərəcədəki bir insana qədər olan məsafə və dərəcələnmə heyvanla insan arasındakı fərqlərdən və səviyyələrdən



daha açıqdır. Bu qədər fərqi meydana gətirən ünsür tərkibə bağlı olan təcəllalərdəki böyük fərqdir. Bu, müsbət sifətlərdə olduğu kimi, mənfi sifətlərdə də müşahidə olunur. Zülmün, ya da küfrün ən alt mərtəbəsində olanla zirvədəki oxşarı arasında inanılmaz bir keyfiyyət fərqi var.

Məsələn, «Mudill» sifətinin qalib olduğu ən aşağı səviyyədəki bir kafir öz həyatının hüdudları içərisində səfeh bir həyat sürər. Möminlərin imanı onu maraqlandırmaz. Ancaq Əbu Ləhəb və ona bənzəyən insanlarda olduğu kimi, küfrün dərəcəsi artdıqca bu hal o şəxsi peyğəmbər və saleh insanlarla mübarizəyə yönəldər. Zülm də bunun kimidir. Qida məqsədi ilə deyil, zövq üçün ovçuluq edən bir ovçunun zaman keçdikcə qəlbi sərtləşərək zülmü sadizmə qədər gedib çıxar. Tarixdə Romanın zalım krallarının ilk İsəviləri sirklərdə aslanlara parçalatdıraraq qəhqəhələrlə seyr etmələri Qurani-Kərimdə buyrulan bu həqiqətə bir misaldır:

«Bəlhum-ədall», yəni **«onlar heyvanlardan da aşağıdır.»**

❁

İstər təbii əşyalarda, istərsə də insanda özünü göstərən təcəllalar arasındakı sonsuz fərqlər bu aləmin təməl qanunlarından birinin «fərqlilik» olduğu gerçəyini meydana çıxarır. Bütün aləmi deyil, iki varlığı bir-biri ilə eyniləşdirmək istəyi belə, boş işlərlə məşğul olmaqdan başqa bir şey deyil. Çünki sonsuz ilahi adların təcəllalərına uyğun olaraq kainatda ekiz yoxdur. Maddəsi, mənası və tam anlamı ilə ekiz bir insan, budaq, yarpaq və meyvə baxımından ekiz bir ağac olmadığı kimi.

Allah insan və kainatı bu təməl baxış bucağından qavraya bilmək, insana onun ziddi olan varlıqlara qarşı dözümlü yanaşmaq, bir sıra hallarda onlara mərhəmət və anlayışla münasibət göstərmək imkanı qazandırır. Təsəvvüf ondan faydalana bilməyənlərin, ümumiyyətlə, qəzəbləndiyi keyfiyyətlərə belə məhəbbət və anlayışla baxa bilmək yetkinliyidir. Bu zahiri görüntünün hikmətini bilməyin qazandırdığı bir fəzilətdir.

Bu fəzilət və kamillik isə bizlərə çoxsaylı keyfiyyətlər qazandırır. Hər şeydən öncə günahkarlara qəzəb yerinə təəssüf hissi ilə, kafirə onun məhrumiyyətini düşünərək yumşaqlıq və ümidlə münasibət göstərməyimizi təmin edir. Təbliğ məsələsində bizə bir güc və cəsarət verir. Onları kor İnsanlar kimi üzləşdikləri təhlükələrlə bağlı xəbərdar etmək, onları tərbiyə etmək bizim borcumuzdur. Qanadı qırılmış bir quş görən zaman onun halına ürəyi ağrıyanların, günahkar insanlara münasibətdə göstərdikləri qəzəbin məntiqsizliyini qavramağımızı təmin edir. Məhəbbət və mərhəmət hisslərimiz coşaraq qoyulmuş əlaqələri aşıb, bütün insanlığı əhatə etmək istiqamətində inkişafa başlayar. Belə insanlardan ibarət olan bir cəmiyyətdə cinayət və çəkişmələr yerini sevgi dolu yardımlaşma duyğularına verər. Çoxu keçmişdə qalmış saleh şəxslərin sayı çoxalır. Onların həzrət Peyğəmbəri -səllallahu əleyhi və səlləm- nümunə götürərək gerçəkləşdirdikləri gözəl əxlaq mümkün olduqca ümumiləşər. Qüsurlu insanlara qarşı bütün münasibətlər bu parlaq misaldan göründüyü kimi bir kamillik qazanar:

Təsəvvüf tarixinin məşhur simalarından biri olan Bəlx şeyxlərindən Hatəm Əsamm -qüddisə sirruh- Allah və Rəsulunun mənəvi tərbiyəsi ilə nəfsini və ruhunu incələşdirərək əxlaqını uca bir mərtəbəyə yüksəltməyə nail olmuş müstəsna bir şəxsiyyətdir. Həzrət Pirin eşitmə imkanı çox yaxşı olmasına baxmayaraq, «Əsamm» yəni «kar» ləqəbi ilə məşhur olması çox ibrətli olan bir hadisə ilə bağlıdır:

«Bir gün onun yanına öz şikayətlərini bildirmək istəyən dərdli bir qadın gəldi. Tam məramını anlatmağa başlayanda qadından qeyri-ixtiyari olaraq bir çirkin səs eşidildi. Qadın bir şam kimi əridi, sanki məhv oldu. Həzrət Hatəm isə qadının pərişan olub çətin vəziyyətdə qalmaması üçün heç bir şey eşitməmiş kimi özünü karlığa vurdu və əlini qulağına götürərək:

- Bacım, qulağım çətin eşidir, bir az yüksək səslə söylə! Eşidə bilmədim ...», dedi.

Beləliklə, qadın qüsurunun gizli qaldığını eşidərək rahat oldu. Məramını yüksək səslə yenidən söyləməyə başladı.

Rəvayətə görə, bu hadisədən sonra həzrət Hatəm qadının duyub, inciməməsi üçün o ölənədək tam on beş il hər kəsə qarşı özünü elə göstərdi ki, guya kardır. Buna görə də ona «Hatəmi-Əsamm», yəni «Kar Hatəm» dedilər. O, bu ləqəblə şöhrət tapdı.»

Bu misaldakı parlaq incəliyi və əxlaqi səviyyəni sadəcə kitablardan öyrənilmiş məlumatlarla həyata keçirmək, əlbəttə, mümkün deyil. Həzrət Hatəmin göstərdiyi bu nəzakət və fəzilət onun uca Allahın eyibləri örtən mənasındakı **«Səttarul-uyub»** sifətindən aldığı payı bir əxlaqa çevirməsi ilə izah edilə bilər. Belə davranışlar, xüsusilə, təsəvvüfdə **«Allahın əxlaqı ilə tərbiyə olunmaq»** şəklində adlandırılır.

Bu baxımdan, həqiqi Allah dostları uca Allahın mübarək sifətlərinin təcəllalarına nail olaraq öz iradələrini Onun iradəsinə təslim edərlər. Onun hər istəyinin doğru olduğunu bilirlər və ətraflarında olanları da bu yola yönəldirlər. Bu mənada aşağıdakı misal çox hikmətlidir:

«Həzrət Sünbül Sinan bir gün müridlərindən soruşdu:

- Övladlarım! Uca Allah bu kainatın idarə olunmasını sizə versə, nə edərdiniz?

Hər mürid bir şey söylədi. Kimi:

- Bütün kafirləri yox edərəm!

Kimi:

- Bütün içki içənləri aradan götürərəm!

Kimi də:

- Bir nəfərin olsun belə, siqaret çəkməsinə icazə vermərəm!

Müridlərin arasında olan və alimlərdən sayılan Müslihiddin Əfəndi isə heç bir cavab verməyərək susurdu. Həzrət Şeyx bu dəfə ona tərəf dönərək dedi:

- Övladım! Bəs sən nə edərdin?

Müslihiddin Əfəndi çox ədəblə belə cavab verdi:

- Ustadım! Allah qorusun, uca Allahın iradə və idarəsində bir qüsur varmı ki, başqa bir şey düşünüb istəyim? Mənim cavabım budur ki, sadəcə hər şeyi olduğu kimi davam etdirərdim.

Həzrət Sünbül Sinan bu cavabdan çox məmnun oldu:

- İndi iş öz mərkəzini tapdı!,-buyurdu.

O gündən sonra Müslihiddin Əfəndi «Mərkəz Əfəndi» olaraq tanındı və ustadı həzrət Sünbül Sinandan sonra mənəvi əmanət ona verildi».

Həzrət İbrahim Haqqı Ərzurumi də sanki bu halı xülasə edərək Haqqa olan münasibətini belə dilə gətirir:

Her işleri fayıktır,
Birbirine layıktır,
Neylerse muvafıktır;
Mevlam görelim neyler,
Neylerse güzel eyler!

Bir sözlə, bu gözəl və yüksək hallara nail olmaq Allahın sifətlərinin təcəllalarına bürünməklə mümkündür. Əks halda, üzərində yazılan yazıdan və çəkilən rəsmdən xəbəri olmayan bir kağızdan fərqimiz olmaz. Həzrət Mövlana çox gözəl söyləyir:

«Bir kağıza qəmli bir adam şəkli çəksən, o rəsm və kağız qəmdən də, sevincdən də xəbərsizdir.»

«Rəsm görünüşdə qəmlidir, ancaq rəsmin də, kağızın da qəmdən xəbəri yoxdur. Şəkildə gülən bir adamın da, güldüyündən xəbəri yoxdur.»

Dolayısı ilə, bizlər insan olmaq şərəfinə görə çoxsaylı ilahi sifət təcəllalarına nail olsaq da, əgər bunlardan xəbərimiz yoxdursa, o kağız və quru bir şəkilə bənzəyərik. Ona görə də, bizə imtahan üçün verilmiş olan bütün fani sifətləri uca Allahın mübarək sifətlərinin təcəllasında əritməliyik. Bilməliyik ki, Onun uca zatına aid bütün

sifətlərin məzmunu təriflərə sığmayacaq bir genişlik və sonsuzluğa sahibdir. Onların hamısı əzəli və əbədidir. Onların hamısı mütləqdir və sonsuz bir xüsusiyyətlə bağlıdır. Yəni heç bir sifətin sərhədi və sahili yoxdur. Bu baxımdan Onun elm, kəlam, qüdrət, yaratma və başqa bütün sifətləri bu mahiyyətləri ilə hər cür bənzətmə və izahdan da uzaqdır. Bizim və dünyamızın xüsusiyyətləri isə həm məhdud, həm də fanidir, bir yoxluqdan ibarətdir. Bu halı ilə hələ özünü kamil mənada tanıya bilməyən insan oğlunun, əlbəttə, uca Allaha aid, Ona məxsus, yəni xüsusi mahiyyətdə olan sifətləri layiqincə idrak etməsi mümkün deyil. Uca Allahın zatının həqiqət və mahiyyətini dərk edə bilmədiyimiz kimi, sifətlərinin də həqiqət və mahiyyətini kamil mənada dərk edə bilmərik.

Bu həqiqəti bilib, özündəki görmə, duyma, anlama, danışma və başqa bütün sifətləri uca Allahın sifətlərinin kiçik bir zərrəsinin bir təcəllasi olduğunu dərk edənlər heçlik iqlimində mərifət feyzi ilə yaşayar və həqiqi imanın dərin həzzi içində fani olaraq belə deyərlər:

«Allahdan başqa varlıq yoxdur.»

Könlü və düşüncəsi irfanın zirvəsində olanlar bu hikmətlə yoğrularlar:

«Ey Rəbbim! Sən necəsənsə, eləsən!»

Beləliklə, onlar hər cür qorxu və vəsvəsədən azad olaraq sağlam bir qəlblə Rəbblərinə qovuşar, vəlilər dəftərinə yazılarlar.

Bir dərviş Bəyazid Bistamidən soruşdu:

«- Ustadım! Allahın ən böyük adları hansılardır?»

Bəyazid cavab verdi:

«- Övladım! Uca Allahın hansı adı kiçikdir ki?! Qafil olma, Allahın bütün adları böyükdür. Sən tələbinin qəbul olunmasını istəyirsənsə, qəlbinin dünya nemətlərinin işğalından azad etməlisən! Onun adları qafil qəlblərdə təcəlla etməz. Ancaq Onun nuru ilə aydınlanmış qəlbə uca Allah hər an adları ilə baxar!»

Belə ki, Allahın adına bir çox ayeyi-kərimədə «uca» təyini qoşulur:

«Rəbbinin uca adını təsbih et!» (əl-Vaqiə, 56/96)

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- namaz qılarkən rükuda: «Sübhanə rabbiyəl azim» (Əzəmət sahibi olan Rəbbimi bütün nöqsan sifətlərdən uzaq tuturam), səcdədə də: *«Sübhanə rabbiyəl alə»* (Ucalar ucası Rəbbimi bütün nöqsan sifətlərdən uzaq tuturam), deyərək bu əmri yerinə yetirmişdir.

Allahım! Ən gözəl adlarının hörmətinə, xüsusilə, seçilmiş adının hörmətinə bizə mərifətullah və məhəbbətullah sirrindən bir pay nəsib elə!

Amin!..

Mərifətullaha qovuşan kamil insan Haqqın eşq və məhəbbətinin təcəllası altında olduğu üçün, zərrəbin altında olan bir kağızın yanması kimi, nəfsi təmayüllər onda ömrünü bitirmişdir.

3. MƏRİFƏTULLAH VƏ ARİFLƏRDƏKİ TƏCƏLLALAR

Mərifətullah bütün kainatdakı sirr və hikmətləri əhatə edən, sərhədsiz və sonsuz bir ilahi elmdir. Bu elmi tam mənası ilə izah etmək bəşər idrakının imkanı xaricindədir. Ancaq hər kəs iqtidar, bacarıq və çalışması ölçüsündə bu elmdən həzz duyar və bir pay alar. Buna görə də Kainatın Fəxri -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«(Allahım!) Səni layiq olduğun şəkildə öyməkdə və tərifləməkdə acizəm! Sən Özünü necə öymüsənsə, necə tərif etmisənsə, eləsən!» (Müslim, Salat, 222)

Bir hədisi-şərif kimi rəvayət edilən:

«Mən gizli bir xəzinə idim, mərifətimi (tanınmağımı) istədim və Məni tanımaları üçün məxluqatı yaratdım.»[4] -bu ifadələr də mərifətullahın önəminə işarə edir.

Qurani-Kərim və həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- hədisi-şəriflərindən sonra Rəbbinin mərifətinə qovuşmuş se-

4. Baxın, Acluni, «Kəşfül-Xəfa», II, 132.

çilmiş bəndələrin davranış və sözlərindən daha gözəl heç bir şey yoxdur. Çünki onların davranış və sözləri bir kitabdan oxunaraq qazanılmış elm deyil, onların davranış və sözləri uca Allaha bağlıdır. Buna görə də onlara «Peyğəmbərlərin varisləri» deyilir. O seçilmiş qulların davranışlarını müşahidə edən və kəlamlarını eşidənlərin könülləri feyz ilə dolar. Onların çalışma gücü artar, sirlər onlara əyan olar, şeytani vəsvəsələrdən və dünyəvi ehtiraslardan xilas olarlar.

Bu Haqq dostlarının bir qismi həzrət Adəm sifətli, bir qismi həzrət İbrahim sifətli, bir qismi həzrət Musa sifətli, bir qismi həzrət İsa sifətli, bir qismi də həzrət Məhəmməd sifətlidir.

Həzrət Məhəmmədin -səllallahu əleyhi və səlləm- sifətinə bağlı olanların ən açıq əlamətləri bunlardır: mərifət, məhəbbət və tövhid əhli olmaq. Bu seçilmiş şəxslərin içində elələri də var ki, onlar bütün gözəl xüsusiyyətləri özlərində topladıqlarından sifətsizdirlər. Yəni onları izah etmək qeyri-mümkündür.

Uca Allah sevdiyi bu bəndələrinə hallarına görə müxtəlif təcəllalar bəxş etmişdir. Bu mənada birini Şah Nəqşibənd eyləyib, onu səlahiyyət və mərifətullahda sonsuz və misilsiz bir himmət dəryasına çevirmiş, birini Məcnun kimi eşq çöllərində gəzdirmiş, birini heyrət vadilərinə salmış, birini ilahi əzəmət qarşısında lal eyləmiş, birini Yunus Əmrə kimi eşq bülbülü kimi oxutmuş, birini də həzrət Mövlana kimi dilindən hikmətlər fışqıran və nadir incilər saçan bir məna dəryası etmişdir.

Uca Allah bu fərqli təcəllalara məzhər etdiyi bütün vəlilərini dostluq iqlimində mərifət elmi ilə bəzəyib, müstəsna rəhbərlər şəklində bütün insanlığa ehsan etmişdir.

Mərifətullaha qovuşan kamil insan Haqqın eşq və məhəbbətinin təcəllası altında olduğu üçün, zərrəbin altında bir kağızın yanması kimi, onda nəfsani təmayüllər ömrünü bitirmişdir. Beləliklə, nurani bir cazibə mərkəzi halına gəldiyindən, başqa insanlar da qeyri-ixtiyari olaraq onu sevər və sayarlar. Ancaq o, fani iltifat və əlaqələrin pəncəsindən özünü xilas etmiş olduğuna görə, qürur, təkəbbür və özündən razılıq kimi mənfi sifətlərin girdabına düşməz. O, xalq

içində Haqq ilə bərabərdir. O, «Təzim li-əmrillah», yəni Allahın əmrlərinə hörmətlə riayət edər və «Şəfqət li-xəlqillah», yəni Allahın yaratdıqlarına şəfqət və mərhəmət duyğusu ilə yaşar. Ancaq Allaha məhəbbəti olmayan, zalım və nankor insanlara əsla məhəbbət və meyil göstərməz. Ancaq mərhəmət ölçüsünə uyğun olaraq onlar da acıyar, onların doğru yolu tapması üçün dua edər.

Mal, mülk və dünyaya aid bütün sərvətlər ona yalnız infaq etmək üçün lazımdır. Kamil insan özünü mərifətullaha və Allaha qovuşmağa həsr etmişdir. Artıq o bu dünyanın ona aid dərd və iztirablarına məhəl qoymayan xalis bir bəndədir.

❁

Mövlana -qüddisə sirruh- ruhların, nəfslərin və qabiliyyətlərin fərqli olduğunu, hər kəsin öz güzgüsündə kainat naxışlarını dəyişik şəkillərdə və fərqli bir biçimdə gördüklərini, xalqın içərisində belə Allah ilə birgə olmaq hallarını bu hekayə ilə çox gözəl ifadə edir:

«Bir sufi sevincə qərq olub düşünmək üçün gözəl bir bağçaya gedər. Bağçanın rəngbərəng gözəlliyindən məst olar. Gözlərini örtərək müraqəbə və təfəkkürə başlayar.

Orada olan qafil bir şəxs elə düşünər ki, sufi yatıb. Onun bu halına heyrətlənər, canı sıxılar. Sufiyə belə deyər:

- Niyə yatmısan? Gözünü aç və üzüm çubuqlarını, çiçək açmış ağacları, yaşıllaşmış çəmənləri seyr et. Allahın rəhmət əsərlərinə bax!

Sufi də ona belə cavab verir:

- Ey qafil! Bunu yaxşı bil ki, Allahın rəhmətinin ən böyük əsəri könüldür. Ondan kənarda olanlar isə bu böyük əsərin kölgəsi kimidir. Ağaclar arasından bir su axıb gedər. Onun parlaq suyunda iki tərəfdə əkilmiş ağacların əkslərini görərsən…

Su içində görülənlər xəyali bir bağçadır. Əsl bağ və bağçalar könüldədir. Çünki könül uca Allahın baxdığı yerdir. Onların zərif və lətif əksləri su və palçıqdan ibarət olan dünya aləmindədir.



Əgər bu aləmdə olanlar könül aləmindəki o sevinc sərvinin əksi olmasaydı, uca Allah bu xəyal aləminə aldanış məkanı deməzdi. Uca Allah «Ali-İmran» surəsinin 185-ci ayəsində belə buyurur:

«… Dünya həyatı isə aldadıcı həzzdən (əyləncədən) **başqa bir şey deyil.»**

Qafil olanlar və dünyanı cənnət zənn edərək «Cənnət budur!», deyənlər bu dərənin görüntüsünə aldananlardır.

Əsl bağ və bağçalardan, yəni Allah dostlarından uzaqda qalanlar o xəyala meyil edərək aldanırlar.

Bir gün bu qəflət yuxusu başa çatar. Gözlər açılar, həqiqət görünər, ancaq son nəfəsdə o mənzərənin nə faydası olar?

Xoşbəxt o adamdır ki, ölməmişdən əvvəl ölmüşdür. Onun ruhu bu bağın həqiqətindəki ətri almışdır.

Həqiqətən, bir şəxs dünyanın nəfsani ləzzətlərinə fikir verməz, ondan üz çevirərsə, uca Allah -cəllə cəlaluhu- o qulun ruhunu saf, qəlbini nurlu edər.

Rəsulullah -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«İçinə nur daxil olan qəlb açılar və genişlənər.»

Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyuranda ondan soruşmuşlar:

- Ey Rəsulullah, bunun əlaməti nədir?

O da:

«-Fani dünyadan uzaqlaşmaq, əbədi olan axirət yurduna könül vermək və ölməmişdən əvvəl ölümə hazırlaşmaqdır», (Təbəri, «Təfsir», VIII, 37) şəklində cavab vermişdir.

Bu şərəfli mərifət yolunun sadiq yolçuları olan Allah dostlarının könülləri yaz yağışının damcılarından iri incilər meydana gətirən sədəflər kimidir. Onlara məhəbbətlə yanaşan xam könülləri Allahın lütfü ilə bir böyük inci sədəfinə çevirməyə çalışırlar. Əsas odur ki, bu



yolu seçənlər bu sədəfdə qorunub saxlanacaq yağış damcısını dərk edə bilsin!

«Məsnəvi»nin şərhində belə buyurulur:

«Kəlam sahibi olan Allah buludun qulağına bir sirr söylədi. Buludun gözündən su tuluğu kimi yaş axdı. Gülün qulağına bir sirr söylədi, onu rəng və ətri ilə gözəlləşdirdi. Daşa bir sirr söylədi, onu mədən içində qiymətli bir daşa çevirdi. Yəni lətif sifəti ilə təcəlla edib, buluddan su axıtdı, gülü gözəlləşdirdi, daşı da qiymətləndirdi.

İnsan vücuduna da bir sirr verdi. O sirri qoruyan mərifət əhlini sonsuzluğa ucaltdı. İlahi aləmdən ilham alan bu Haqq dostları cisimdən xilas olub, Haqqa yaxınlığın sirrinə qovuşdu.»

Heç şübhəsiz ki, bu sirlər fərqli təcəllalər halında mərifətə yol açan məhəbbət sirridir. Elə bir məhəbbət sirri ki, hər şeyin kamalı və gözəlliyi onun bərəkətli iqlimində gizlənmişdir.

Yüksək səviyyədəki Allah dostlarında zati məhəbbət təcəllaları yox olur. Zati məhəbbət bir İnsanın bir fani olan şeyi qeyri-iradi sevməsi və onunla bir sevgi əlaqəsi qurmasıdır. Bu məhəbbət məcazidir. Həqiqi zati məhəbbət isə Rəbbə aşiq olmaqdır və Onda fani olmaq halıdır.

Bu zati məhəbbət təcəllalərinə məzhər olan Haqq dostları məhəbbət görəndə sevən, qəhrə uğrayanda isə sevgisi zəifləyən şəxslər deyil. Aşağıdakı hekayə zati məhəbbətə aid gözəl bir misaldır:

Mövlana Cami -qüddisə sirruh- belə anladır:

Pirimiz Mövlana Sadəddin Kaşqarinin söhbət çevrəsində bir gənc var idi. Bu gəncdə çətinliyə dözüm, xəlvət və eşq ən yüksək dərəcədə idi. O da mənim kimi bir fani gözələ vurulmuşdur. Beləliklə, könlündə topladığı dəyəri bir anda o tərəfə çevirmişdi.

Qızıldan və brilyantdan hədiyyə olaraq bir şey alıb, o gözəlin keçəcəyi yola atmış və oradan keçənlərdən birinin o qiymətli əşyaları götürməməsi üçün də bir kənarda gizlənmişdi. Onun düşüncəsinə görə sevgilisi oradan keçəcək və hədiyyəni görüb, onu götürəcəkdi.

Ancaq onun sevgilisi bu hədiyyənin kimdən və necə gəldiyini bilməyəcəkdi. Mən vəziyyəti öyrənəndə ona dedim:

«- Sən çox yaxşı olmayan bir iş etmisən! Çox zəhmət çəkərək qazandığın şeyi onun yoluna atmısan! Tapsa, görsə, alsa belə, kimdən və nə üçün olduğunu bilməyəcək. Barı bir şey et ki, səndən gəldiyini bilsin!»

O gənc göz yaşları içərisində sarsılaraq belə cavab verdi:

«- Sən nə danışırsan? Mən etdiyim işin yaxşı olmadığını bilmədiyimi düşünürsən? Mən bu işi edirəm, ancaq heç bir əvəz istəmirəm. Çünki hədiyyələrimə görə onun mənə qarşı bir minnət altına girməsini istəmirəm!»

Bu cavabdan titrədim. Bir faniyə olan məcazi məhəbbət belə dərinlik, incəlik, zəriflik və davranış gözəlliyi ilə olarsa, kim bilir, «zati məhəbbət»ə nail olanlar mərifətullahın necə ülvi təcəllasını qazanarlar.

Qəlbin bu mərhələlərini izah etmək məqsədi ilə Mövlana Cəlaləddin Rumi, Səlcuqlu Mədrəsəsində zahiri elmlərin zirvəsində olduğu halda, yaşadığı halını «Xam idim», mərifətullah təcəllalarına nail olub kainatdakı sirlər ona əyan olmağa başladığı zaman keçirtdiyi halı da «bişdim», zati məhəbbətdə fani olduğu halını isə «yandım», deyə ifadə etmişdir.

Mərifətullaha qovuşmaq ancaq uca Allahın zatı ilə doymuş, Onda aram tapmış bir iman və ilahi təcəllalar bəşər idrakına sığa biləcək bir ölçüdə kəsb etməklə mümkündür.

Allahım! Bizə lütf etdiyin əmanətlərin haqqını ləyaqətlə yerinə yetirə bilməyi nəsib et! Bizi axirətdə rəhmətinin çoxuna nail edəcək dərəcədə saleh əməl sahibi et! Qəlblərimizi məhəbbətullahın ehtişamlı təcəllalarına məkan et! Bəndələrinə məhəbbət və mərhəmətinin təcəllası olaraq ehsan etdiyin «əhsəni təqvim» sirrinə qovuşduraraq könüllərimizi rəhmət şəhləri ilə ehya və abad et!

Amin!..

İlahi ehsanlara nail olmaq qəlbin səviyyəsinə bağlıdır.

B. İLAHİ EHSANLAR

Allahdan başqa bütün varlıqlar uca Rəbbimizin «Lətif» sifətinin təcəllası ilə, yəni Onun lütf etməsi ilə yaradılmışdır. Yaradılmışların heç biri haqq edərək və əvəz ödəyərək var olmuş deyil. Varlıqların fani vücudları ilə onların yaradılış hikmətlərinə bağlı olan bütün əlamət və imkanları tamamilə ilahi bir ehsanlardır. nemətdir. Bu o deməkdir ki, bütün yaradılmışların var olması uca Allahın lütf, kərəm və ehsanından ibarətdir.

Yaradılmış hər şeyin var olması və onların sahib olduğu xüsusiyyətlər, əslində, bir «ilahi mövhibə» (ilahi ehsan) olmaqla birgə, biz bu anlayışı təsəvvüf yoluna girmiş olanların qət etdikləri mərhələlər ölçüsündə vəhbi olan nailiyyətlər üçün istifadə edirik. Xalq içində qabiliyyəti olanlar bu yolda irəlilədikcə müstəsna olan bir sıra lütf və məziyyətlərə hələ axirətə getməmişdən öncə sahib olmağa başlayırlar. Bu nailiyyətlərin başlanğıcında cüzi iradədən istifadə etməklə əldə olunması mümkün olsa da, nəticədə bu lütf yalnız haqq etməklə olmadığından bunları sırf ilahi mövhibə olaraq görmək və «mövhibə» kəlməsini bu lütflərə aid etmək adət olmuşdur. Çünki burada bir insanın haqq etməsi ilə nailiyyət arasındakı böyük fərq haqq etməyi «yox» hesab etmək təmayülünü doğurmuşdur. Bu görüş

həm də onunla bağlıdır ki, insanın şəxsi imkanı da bir ilahi nemətdir. Ona görə də məsələnin belə şərh edilməsi yanlış deyil.

Təsəvvüfi tərbiyədə mənəvi baxımdan müəyyən bir səviyyəyə yüksəlmiş olan bəzi qabiliyyətli şəxslər bu mənəvi yolçuluqda bir çox kamillik təcəllalarına nail olurlar. Belə ki, bir sıra Haqq dostlarına hikmətlər əyan olur, bir çox sirli məsələlər bir-bir açılır. Məchul olunanlar kəşf olunmağa, müəmmalar fəth olunmağa başlayır. Sağlam bir qəlbdə doğulan duyğular və ilhamlar bəndəni Haqq və həqiqətin mahiyyətinə yönəldir. Lövhi-Məhfuzun gələcəyə aid olan bir çox gerçəyinin qəlbə əks etməsi ilə meydana çıxan doğru yuxular görülür. Bəndə hər şeydə ilahi istəyi duyan fərasətli bir baxışa və kamil bir təfəkkürə qovuşur.

Səmimi çalışmalardan başqa ancaq ilahi lütf və ehsanların nəticəsində əldə edilən bu halların bir çox fərqli təzahür şəkilləri var. Bu nailiyyətlərin bir elm olaraq ifadəsinə «lədünniyat» deyildiyi bir gerçəklikdir. Lədünni bilgilər (yəni Allah təalanın lütf etdiyi, oxumaqla qazanılmayan) insan idrak və düşüncəsinin sərhədlərini aşan bir məzmunda olsa da, bu elmə uca Allahın lütf və kərəmi ilə qovuşanlar inkişaf etdikləri ölçüdə geniş bir düşüncəyə və duyğuya çatırlar. İndi bu lədünni elmin məzmununu insanın gücü və dinin icazə verdiyi ölçüdə şərh etməyə çalışaq.

Mən bəndəmi sevəndə onun, sanki danışan dili, düşünən qəlbi, eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı oluram. Məndən nə istəsə, mütləq verərəm. Mənə sığınsa, onu qoruyaram.

(Buxari, «Riqaq», 38)

1. LƏDÜN ELMİ

Bu elm ancaq uca Allahın lütf etməsi ilə əldə olunan, tamamilə Haqq vergisi, **vəhbi** bir elmdir.

Qurani-Kərimdə bu elm haqqında **«bizim yanımızdan, bizim tərəfimizdən bir elm»** mənasına gələn مِن لَّدُنَّا عِلْما ifadəsindən istifadə edilmişdir. (Kəhf, 18/65) **«Lədün elmi»** anlayışı da buradan gəlir.

Əsasən, uca Allahın, Peyğəmbərimizə -səllallahu əleyhi və səlləm- bildirdiyi həqiqətlər üç yerə bölünür. Bunlardan **birinci** bölgüyə aid olan həqiqətlər ancaq Peyğəmbərlik nuru ilə dərk olunduğundan bunlar uca Allah ilə Onun mübarək Peyğəmbəri arasında bir sirr olaraq qalmışdır. Belə gerçəkləri Peyğəmbər -səllallahu əleyhi və səlləm- əshabından heç bir kimsəyə söyləməmişdir.

Uca Allah ilə Rəsulu arasında belə deyilməsi doğru və mümkün olmayan, deyilsə belə, anlaşılmaq imkanı olmayan həqiqətlərin mövcudluğu bir sıra hədisi-şəriflərin məzmunundan bilinir. Belə ki, Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- əshabına belə buyurmuşdur:

«*Əgər bildiklərimi bilsəydiniz, az gülər, çox ağlayardınız.*» (Buxari, «Küsuf», 2; Müslim, «Salət», 112)

Başqa bir hədisi-şərifdə də belə buyurulur:

«Mənim uca Allah ilə elə anlarım olur ki, onları nə uca Allaha yaxın olan bir mələk, nə də hər hansı bir Peyğəmbər bilə bilməz.» (Münavi, «Feyzül-Kadir», IV, 8)

Uca Allahın, Peyğəmbərimizə -səllallahu əleyhi və səlləm- bildirdiyi **ikinci** qrup həqiqətlər mənzuməsi də var ki, bunlar ancaq əqli baxımdan və ruhən yüksəlmiş, «havas» və «havassul-havas», yəni seçilmiş təqva sahibi bəndələr və seçilmişlərin də seçilmişi adlandırılan istedadlı, bacarıqlı şəxslər tərəfindən doğru olaraq qavranıla bilər. Bu kateqoriyadan olan həqiqətləri həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm, həzrət Əbu Bəkr və həzrət Əli kimi bir sıra böyük səhabəyə danışmış olduğu tarixi bir gerçəklikdir. Bunların sinədən sinəyə ötürülməsi bir ənənədir. Çünki bu həqiqətlər sətirlərə töküldüyü zaman onun əhli olmayanların da bunları bilmək və yanlış anlamaları səbəbi ilə xətaya sürüklənmək ehtimalları var. Bununla birlikdə, insanın bu məsələ ilə bağlı mənəvi istedadı və iqtidarı qədər məsuliyyəti də vardır. Bəndə öz təhlükəsizliyi üçün bu qabiliyyəti də inkişaf etdirmək məcburiyyətindədir.

Uca Allahın, Peyğəmbərimizə -səllallahu əleyhi və səlləm- bildirdiyi həqiqətlərin **üçüncü** qrupunu təşkil edənlər isə şəri gerçəklərdir. Bu kateqoriyadan olan bilgiləri bütün insanlıq aləmi iman və əməl baxımından bilməyə borcludur. Buna görə də uca Allah bu hökmləri ən aşağı səviyyədə olan qullarını da nəzərə alaraq, onların da gücü çatacağı bir şəkildə təqdir etmişdir. Bunlar hər kəsə lazımdır və hamının borcunu müəyyən etmək üçün aləmə elan olunmuşdur.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- əshabına tez-tez qiyamətədək olacaq hadisələrlə bağlı izahlar verir, ancaq əshabın bir çoxu bunu layiqincə qavraya bilmirdi. Bir qismi də unudardı.[5]

Ancaq yuxarıda ifadə etdiyimiz kimi, bəzi bu işləri bilən insanlara anlaşılması çətin bir sıra həqiqətləri xəbər verdiyi və bunların çoxunun da ancaq qəlbdən-qəlbə ötürüldüyü bilinir. Çünki bunlar hamıya lazım olmadığı kimi, bir çox şəxsin idrak və düşüncəsinin ölçülərinə

5. Baxın, Buxari, «Qədər», 4.

də uyğun deyil. Qabiliyyəti olanlar arasında belə bilgilərin fasiləsiz ötürülməsinin hər kəsə müraciət etmək şəklində deyil, çox zaman sinədən-sinəyə, yəni bu işi bilən bir fərddən bu işi bilən başqa bir fərdə ötürülməsi ilə gerçəkləşdiyi tarixi bir ənənədir.

Həzrət Əbu Bəkr və həzrət Əlidən başqa, səhabələrdən İbn Məsud, Əbu Hureyrə, Muaz bin Cəbəl və Haris bin Malik (r.anhuma) da bu xüsusi elmə aid bəzi sirləri bilmişlər.

❁

Uca Allah Ondan haqqı ilə qorxan, bəşəri iradə və arzularını ilahi iradəyə təslim edə bilən qullarının qəlblərinə gözlərin görmədiyi, ağılların dərk etmədiyi bir çox lütflər vermişdir. Belə ki, uca Rəbbimiz belə iman sahibi olan qullarına xüsusi bir elm və hikmət verdiyini Qurani-Kərimdə ifadə etmişdir:

«Ey iman edənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla-nahaqqı ayırd edən (bir nur) **verər** (dünyada və axirətdə çıxış yolu göstərər)**, günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf** (mərhəmət) **sahibidir!»** (əl-Ənfal, 8/29)

«Ey iman gətirənlər! Allahdan qorxun və Onun Peyğəmbərinə iman gətirin ki, (Allah) sizə Öz mərhəmətindən iki pay versin, sizə (qıl körpüsü üstündə) **getməyiniz üçün nur bəxş etsin və sizi bağışlasın…»** (əl-Hədid, 57/28)

Hədisi-şərifdə belə buyurulur:

«Öyrəndikləri ilə əməl edənə uca Allah bilmədiklərini öyrədər.» (Əbu Nuaym, «Hilyətül-Övliya», X, 15)

Digər bir hədisi-şərifdə də belə buyurulur:

«Hər kim Mənim vəli bir bəndələrimə düşmənçilik edərsə, mən ona qarşı müharibə elan edərəm. Bəndəm ona əmr etdiyim fərzlərdən daha sevimli hər hansı bir şeylə mənə yaxınlaşa bilməz. Bəndəm mənə (fərzlərdən başqa etdiyi) nafilə ibadətlərlə də fasiləsiz olaraq yaxınlaşar, nəhayət, mən onu sevərəm. ***Mən bəndəmi sevəndə onun, eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı oluram.*** *Mən-*

dən nə istəsə, mütləq verərəm. Mənə sığınsa, onu qoruyaram.» (Buxari, «Riqaq», 38)

Göründüyü kimi, fərzləri ədəb və qaydalarına əməl edərək səmimiyyətlə yerinə yetirdikdən sonra eşq, şövq və vəcd ilə ürəkdən edilən nafilə ibadətlər uca Allahın belə möhtəşəm lütf və nemətlərinə bir yol açır. Bunun üçün nəfsin çirkin arzularına qarşı müqavimət göstərərək haram və şübhəli olan şeylərdən çəkinməli, Peyğəmbərin sünnəsi həyat tərzi olmalıdır. Bu lütfləri əldə etmək üçün bədənə aid olan həzzləri zəruri olan ölçüdə saxlayıb, ruhi aləmi inkişaf etdirmək lazımdır. Çünki bu elə böyük lütfdür ki, uca Allah insanın bəşəri zəifliklərilə pərdələnən idrakını doğruya, həqiqətə, hikmətə açır. İnsan hər hal və hərəkətində ilahi iradəyə görə addım atır. O, analiz və təxmin etdiyi məsələlərdə doğru nəticələr qazanır. Səbəb və bəhanələr, zahiri görüntülər iradəsi Haqqın iradəsində ərimiş belə bir bəndəni aldada bilməz. Bəndə hadisələrin mahiyyətini kəşf etməyə nail olur və uzaq görən bir insana çevrilir.

Qəlbə gələn ilhamlar nəticəsində doğru nəticələr əldə etməklə birgə, bir də ağla gələn və düşüncədə doğulan xoş və incə fikirlər vardır ki, bunlar kəlmələrlə deyil, çox zaman işarə və simvollarla əhlinə bildirilən qəlb əhvalına aid incə mənalardır. Bunlara **«lətifə»**, ya da bunun cəmi olan **«lətaif»** deyilir. Bu mənalar uca Allahın mənəviyyat yolundakı saleh bəndələrinə lütf etdiyi işarə və əlamətlərdir.

Bundan başqa, uca Allah saleh bəndələrinə üzləşdikləri çətin vəziyyətlərdə qaibdən gələn səslərlə xəbərdarlıq edərək yardım edər. Buna **«hətif»** deyilir. Bu xəbərdarlığı edən şəxs görünmür, onun ancaq səsi eşidilir. Elə «hətif» sözünün mənası da budur.[6] Bu salikin qəlbində ortaya çıxan və onu Haqqa dəvət edən səsdir.

Bu hadisə hatifdən səs eşitməyin bir həqiqət olduğunu göstərir:

«Rəsulullah -səllallahu əleyhi və səlləm- vəfat etdikdən sonra Onu yumaq istəyən əshab bir problemlə üzləşdi. Onlar belə düşünürdülər ki, Rəsulullahı -səllallahu əleyhi və səlləm- başqa ölülərimiz kimi əvvəlcə paltarını çıxarıb yuyaq, yoxsa paltarı əynində olduğu

6. Bu incəliyinə görə, müasir ərəb dilində telefona hətif deyilir.

halda yuyaq. Bu məsələ bir ixtilaf yaratmışdı. Bu ixtilafdan sonra Rəsulullahın -səllallahu əleyhi və səlləm- paltarı çıxarılmadan yuyulacağı qaibdən gələn bir səslə bildirilmişdi.»[7]

❁

Uca Allah peyğəmbərləri vasitəsilə insanlara «kitabı», «hikmət»i və başqa bilmədiklərini öyrətmişdi. Bu təlim bəzən açıqdan, bəzən də qeybi olaraq qəlbə gələn ilhamlar şəklində gerçəkləşmişdir. Ancaq bu hallar yuxarıda da ifadə etdiyimiz kimi, çox zaman insan idrakı ilə qavranılması çətin olan bir keyfiyyətdə təzahür etdiyindən insanların çoxuna məchul qalmışdır. Ancaq Allaha bağlı olan elmin haqq və həqiqət olduğu Quran və sünnədə açıq göstərilmişdir.

Belə ki, Qurani-Kərimdə[8] və Peyğəmbərin -səllallahu əleyhi və səlləm- bəzi hədisi-şəriflərində anladılan, həzrət Musa -əleyhissalam- ilə Xızır -əleyhissalam- arasında baş verən bu hadisə Allaha aid olan bu elmin məzmunu ilə bağlı möhtəşəm əlamətlər təqdim edir:

«Həzrət Musa və ona inananların arxasına düşmüş Firon ordusu İsrail oğullarının gözləri qarşısında Qırmızı dənizdə boğulmuşdur. Bu ilahi lütfdən sonra həzrət Musa -əleyhissalam- qövmünü topladı. Onlara çox açıq, bəlağətli və atəşli vəz söylədi. Bu vəzin təsiri ilə onu dinləyənlərin qəlbi yumşaldı, gözlərindən yaş axdı. Qövmü həzrət Musanın elm və mərifətdəki dərinliyinə heyran qaldı. Onların içərisindən biri bu söhbətin feyzi ilə məst olaraq belə dedi:

- Ey Allahın Peyğəmbəri, dünyada səndən daha alim olan bir kimsə varmı?

Həzrət Musa -əleyhissalam- isə xoşuna gələn bu suala «Allah bilir» demək əvəzinə:

- Xeyr, belə bir kimsə tanımıram, -deyə cavab verdi.

7. Baxın, Əbu Davud, «Cənaiz», 27/28; Əhməd b. Hənbəl, VI, 267; İbn Macə, «Cənaiz», 10.

8. Baxın, «Kəhf» surəsi, 60-82-ci ayələr.



O bu yolla da zəllə[9] işləmiş oldu. Uca Allah bu cavabı yaxşı qarşılamadı və o zaman həzrət Musaya vəhy edərək belə buyurdu:

- İki dənizin birləşdiyi yerdə bir bəndəm var. O səndən daha yaxşı alimdir. Ona xüsusi bir elm (Allaha bağlı elm) vermişəm.

Musa -əleyhissalam- bu elmi öyrənmək arzusu ilə belə dedi:

«… Mən (Xızırla görüşmək üçün) **iki dənizin qovuşduğu yerə çatmayınca və uzun müddət gəzib dolanmayınca** (bu səfərdən) **geri dönməyəcəyəm!»** (əl-Kəhf, 18/60)

Bundan sonra bacısının oğlu Yuşa bin Nun ilə yola çıxdı. O, səyahət zamanı bəzi təcəllalar gördü. Nəhayət, axtardıqları şəxsi tapdılar. Qurani-Kərim bu görüşü belə təsvir edir:

«(Musa və Yuşa) **orada Öz dərgahımızdan mərhəmət** (peyğəmbərlik və vəhy, yaxud ilham və kəramət) **əta etdiyimiz və Öz tərəfimizdən elm** (qeybə dair bəzi biliklər) **öyrətdiyimiz bəndələrimizdən birini** (Xızırı) **tapdılar.»** (əl-Kəhf, 18/65)

Musaya -əleyhissalam- vəhylə işarə edilən bu şəxs bir qayanın üzərində yaşıl bir xirqəyə bürünmüşdü. Həzrət Musa ona yaxınlaşıb salam verdi və belə dedi:

- Mən Musayam.

Xızır[10] -əleyhissalam- da:

- Deməli, İsrail oğullarının peyğəmbəri Musa sənsən.

---

9. **Zəllə:** Peyğəmbərlərdə çox nadir olaraq özünü göstərən və ilahi rizaya uyğun olmayan, qeyri-iradi (qəsdən deyilməyən) söz və davranışlar.

10. Xızır kəlməsi ərəbcə «yaşıl», ya da «yaşıllıqla bağlı» deməkdir. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- buyurur: *«Xızırın -əleyhissəlam- «Xızır» deyə adlandırılmasının səbəbi bu idi. O, saralmış otların üzərində oturduğu zaman otlar yaşıllaşardı».* (Buxari, «Ənbiya», 27; Tirmizi, «Təfsir», 18; Deyləmi, «Müsnəd», I, 345)

Peyğəmbərin səhabələrini görmüş olan (tabiin) Mücahid belə deyir: «Xızır namaz qıldığı zaman ətrafı yaşıl olurdu». Bu deyilənlərdən anlaşıldığına görə, Xızır adı onun əsl adı olmayıb, sonradan verilmişdir.



Musa -əleyhissalam-:

- Mənə Allah tərəfindən bildirilən insanlar arasındakı ən üstün alim sənsən?

Xızır -əleyhissalam- belə cavab verdi:

- Ey Musa, Allah sənə bir elm vermişdir, o məndə yoxdur, mənə bir elm vermişdir, o da səndə yoxdur.

Musa -əleyhissəlam, Xızıra -əleyhissəlam:

«… Öyrədildiyin doğru yolu göstərən elmdən mənə öyrətmək şərti ilə sənə tabe olummu?» (əl-Kəhf, 18/66) dedi.

Musa -əleyhissalam-, Xızırdan -əleyhissalam- bu elmi öyrənmək arzusunu belə bildirdi. Görünür ki, bu elmi öyrənmək üçün ayeyi-kərimədə deyildiyi kimi, «tabe olmaq» zəruridir. Çünki bu elm sinədən-sinəyə ötürülür. Bunun üçün də bir maddi və mənəvi bərabərlik məcburiyyəti var.

Musa -əleyhissalam- zahirən anlaşılması mümkün olmayan, ona qəribə görünən bəzi həqiqətlərin hikmətini Xızırdan -əleyhissalam- öyrənmək istəyirdi. Xızır -əleyhissalam- isə Musaya -əleyhissalam- belə buyurdu:

«Sən mənimlə bir yerdə olsan, əsla dözə bilməzsən. Axı sən bilmədiyin bir şeyə necə dözə bilərsən?» (əl-Kəhf, 18/67-68)

Xızır -əleyhissalam- əslində, bu sözü ilə həzrət Musanın psixoloji vəziyyəti haqqında ilk kəşfi etmiş, Ona özünü tanıtmışdı. Demək istəmişdi ki, bu hal işin sonunda gerçəkləşəcək. Çünki bu elm böyük bir səbir istəyirdi, Musa -əleyhissalam- isə çox hərəkətli bir həyatdan gəlirdi. Orada həzrət Musanın alacağı dərs ilahi həqiqət elmi qarşısında öz mövqeyini və acizliyini görmək idi.

Musa -əleyhissalam- isə təkidlə belə dedi:

«İnşallah, səbirli olduğumu görəcəksən. Sənin heç bir əmrindən çıxmayacağam.» (əl-Kəhf, 18/69)

Xızır -əleyhissalam- belə dedi:

«Əgər mənə tabe olacaqsansa, səbəbini sənə izah etməyincə məndən heç bir şey haqqında soruşma!» (əl-Kəhf, 18/70)

Bundan sonra onlar sahildə birgə hərəkət etdilər. Nəhayət, iki qardaşa aid olan bir gəmiyə mindilər. Xızır -əleyhissalam- onlardan pul belə almayan bu saleh şəxslərin gəmisini deşməyə başladı. Musa -əleyhissalam- həyəcanla belə dedi:

- Gəmidə olanları suda boğmaq istəyirsən? Gəmini niyə deşirsən? Bu gəminin sahibləri onsuz da yoxsul adamlardır, onların çörək pulu bundan çıxır. Bu yazıqların gəmisindən nə istəyirsən? Doğrusu, sən çox qəribə bir iş etdin!

Xızır -əleyhissalam- isə əvvəlki xəbərdarlığını xatırlatdı:

- Mən sənə mənimlə birgə olmağa səbir edə bilməzsən, demədimmi?

Musa -əleyhissalam-:

- Unutduğum bir şeyə görə məni hesaba çəkmə. Bu etdiyimə görə, mənə bir çətinlik yaratma.

Elə bu vaxt bir sərçə uçaraq gəminin kənarına qondu. Sonra dənizdən dimdiyi ilə su götürdü. Xızır -əleyhissalam- bu mənzərəni Musaya -əleyhissalam- göstərərək belə bir bənzətmə etdi:

- Allahın elmi yanında sənin, mənim və başqa yaradılmışların elmi bu quşun dənizdən dimdiyi ilə aldığı su qədərdir.

Bir müddət sonra gəmidən düşdülər və birlikdə getməyə başladılar. Nəhayət, bir oğlan uşağına rast gəldilər. Xızır -əleyhissalam- tez o uşağı öldürdü.

Musa -əleyhissəlam:

- Tərtəmiz bir canı, bir canın əvəzi olmadan necə qətl etdin?! Həqiqətən, sən pis bir iş gördün.

Xızır -əleyhissalam- isə yenə eyni şəkildə cavab verdi:

- Mən sənə mənimlə birgə olmağa səbir edə bilməzsən, demədimmi?

Musa -əleyhissalam- verdiyi sözü yerinə yetirə bilməməyin peşmanlığı içində belə dedi:

- Əgər bundan sonra bir şey soruşsam, mənimlə yoldaşlıq etmə. Həqiqətən, sənə qarşı irəli sürə biləcəyim bəhanələrin sonuncusu budur.

Yenə getməyə başladılar. Nəhayət, bir kəndin camaatına rast gəldilər. Onlardan yeməyə bir şey istədilər. Ancaq bu kəndin adamları onları qonaq etməkdən boyun qaçırdılar. Bundan başqa onlara qarşı çox pis münasibət göstərdilər. Həzrət Musa və Xızır -əleyhissalam- kənddən çıxarkən orada yıxılmaq üzrə olan bir divar gördülər. Xızır -əleyhissalam- kərpiclə o divarı yenidən hörüb düzəltdi. Bundan sonra Musa -əleyhissalam- belə dedi:

- Onların yanına gəldiyimiz halda bizimlə maraqlanmayan, bizi qarşılamayan, aclığımıza son qoyacaq bir-iki tikəni belə bizə çox görən bu insanlar üçün sən əvəzsiz olaraq iş görürsən. İstəsəydin, bu gördüyün işin əvəzində pul ala bilərdin.

Xızır -əleyhissalam- isə belə dedi:

- Artıq bir-birimizdən ayrılmaq vaxtı gəldi. İndi sənə səbir edə bilmədiyin üç hadisənin əsl mahiyyətini bildirəcəyəm: O deşdiyim gəmi dənizdə çalışan yoxsul insanların idi. Mən gəminin qüsurlu olduğunu göstərmək istədim. Çünki onların arasında bütün təzə gəmiləri qəsb etməyə çalışan bir kral var idi. Öldürdüyüm o oğlan uşağı isə sabah bir düşmən olacaq idi. Onun anası və atası isə saleh insanlar idilər. Buna görə də uşağın onları azğınlıq və nankorluğa sürükləməsindən, onlara əziyyət verməsindən qorxduq. Beləliklə, istədik ki, Rəbbləri onun yerinə onlara daha təmiz və daha mərhəmətli bir övlad versin. Tikdiyim divar isə o kənddəki iki yetim uşağın idi. Altında da onlara aid bir xəzinə var idi. Uşaqların atası saleh bir insan idi. Rəbbin istədi ki, o iki uşaq yetkinlik yaşına çatsın və Rəbblərindən bir rəhmət olaraq xəzinələri çıxarsın. **Mən bunu da**

özümdən etmədim. Sənin səbir edə bilmədiyin hadisələrin əsl mahiyyəti budur.»[11]

Bu hekayədəki hikmətli, ibrətli və sirli nöqtələrə dair bir çox şey ifadə edilmiş və şərhlər verilmişdir. Bu mövzu ilə bağlı hikmət dolu nöqtələrdən bir neçəsini belə ifadə edə bilərik:

Allaha bağlı olan elm hadisələrə zahiri şərtlərin bəşəri ölçülərin aid olmadığı bir məsafədən, keyfiyyəti çox insana məlum olmayan bir nizamın ölçüləri ilə baxmaqdır.

Məsələn, bütün elmlərdə «sual» öyrənməyin ən önəmli açarı sayılır. Bu elmdə isə sual, etiraz, münaqişə və mübahisə yoxdur. Bunun əvəzində, sükut, səbir və təslimiyyət var. İşin sonuna və nəticəsinə baxılır. Həzrət Ərzurumlu İbrahim Haqqı çox gözəl söyləyir:

Hak şerleri hayreyler
Zannetme ki gayreyler
Arif anı seyreyler
Mevla görelim neyler
Neylerse güzel eyler!

Deme niçin şu şöyle
Yerincedir o öyle
Var sonunu seyreyle
Mevla görelim neyler
Neylerse güzel eyler!

Qissədə təsfir edilən gəmi səyahətində saleh gəmiçi qardaşlar həzrət Musa və həzrət Xızırdan -əleyhissalam- pul almamışlar. Buna görə də, Haqq dostlarına etdikləri kiçik bir yaxşılığın böyük bərəkətini gördülər. Gəmiləri kiçik bir zərər gördü, ancaq qəsb olunmaqdan xilas oldu. Yəni ehsan edilən halal sərmayə zay olmadı. Gəmini qüsurlu göstərərək onun kral tərəfindən qəsb olunmasına maneçilik törədilməsi işari mənada insanın ömür dəryasında üzən gəmisi kimi nəfsini qüsursuz gördüyü təqdirdə təkəbbür və özünü

11. Bu qissənin anladıldığı rəvayətlər üçün baxın: Buxari, «Təfsir», 18/4; Müslim, «Fəzail», 170.

bəyənmə girdabında mənəvi baxımdan həlaka sürüklənəcəyi, buna görə də hər zaman acizlik və qüsurunu etiraf etməklə mənəvi itkilərdən çəkinməsinin zəruri olduğu şəklində şərh edilmişdir.

Xızırın -əleyhissalam- günahsız bir uşağı öldürməsində də hikmətlər var:

İnsan oğlu qəlbindəki övlad, ana, ata, qardaş və dost sevgisi kimi bəşəri, ancaq məsum sevgiləri layiq olduğu ölçüdə tutmalı, Allah sevgisindən üstün hesab etməməlidir. Əks halda, bunlar insanı həqiqi məqsədindən uzaqlaşdırar, hətta, onu yolundan çıxardar.

Uca Allahın mübarək adlarından biri də **«ər-Raqib»**dir. Bu isə uca Allahın sevdiyi bəndələrinin qəlbindəki Allah sevgisinin hər şeydən uca tutulmasına istəməsi, bu sevginin üzərinə başqa bir sevginin kölgəsinin düşməsinə razı olmaması deməkdir. Yəni Allaha sevgi ortaq qəbul etməz.

Halbuki, vaxtı ilə Yaqub -əleyhissalam- da oğlu Yusifin alnındakı peyğəmbərlik nurunu sezmiş və qəlbində ona qarşı şiddətli bir məhəbbət oyanmışdı. Yaqubun -əleyhissalam- oğluna olan ölçüsüz məhəbbət və sevgisi Allaha toxundu. Buna görə də uca Allah onu bir imtahanla sınamaq istədi. Nəticədə, məlum olduğu kimi, oğlu ilə arasında uzun bir ayrılıq oldu. Çox məhəbbət acı bir ayrılıq gətirdi.[12]

Bəzi böyük həqiqətlər sosial vərasət yolu ilə xalqın ümumi malına çevrilir və cəmiyyətin ortaq mədəni irsi olur. Əslində, bir bütə çevrilən sevgilərlə bağlı olan bu nüans da bir xalq mahnısında belə ifadə edilmişdir:

«Çox məhəbbət tez ayrılıq gətirir.»

Həqiqətən, çox ibrətli və hikmətlidir ki, Xızırın -əleyhissalam- öldürdüyü uşağın anası da, atası da, əlbəttə, uşaqları doğulanda sevincə qərq olmuş, öldüyü zaman isə böyük bir matəmə bürünmüşdülər. Halbuki, uşaq yaşasa idi, özü ilə bərabər ana və atasının dünya və axirətini də məhv edəcəkdi.

Əgər ana və ataya qalsa idi, onlar övladlarının ölməsini istəməz-

12. Baxın, «Ruhul-Bəyan», j. IV, s. 218.

dilər. Ancaq mərhəməti sonsuz olan uca Allah o saleh bəndələrini bir ana və atanın övladına bəslədiyi sevgidən daha çox sevdiyi üçün o uşağın ölümünü təqdir etdi, onun yerinə saleh bir övlad verməklə, onlara, əslində, lütf bəxş etmiş oldu. Ölən uşaq məsum olaraq bu aləmdən axirətə köçdüyü üçün onun fani dünya həyatına müqabil ana və atası ilə birlikdə əbədi bir axirət həyatı da qorunmuş oldu. Yəni qəhr şəklində gələn bir lütf ilə zərərin kiçiyi böyüyündən üstün tutuldu.

Deməli, bəndələrin hadisələri dəyərləndirməsi ilahi hikməti bilmədiklərinə görə, çox zaman yanlış olur.

Uca Allah Qurani-Kərimdə belə buyurur:

«… Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər. (Onu) **Allah bilir, siz bilməzsiniz.»** (əl-Bəqərə, 2/216)

Günahsız, məsum bir insanı qətl etmək təbii ki, böyük bir günahdır və şəriətə görə qisas almağı zəruri edir. Ancaq bu hekayədəki kimi bir örnəyin şəri hökmlərin qəbul etmədiyi bir şəkildə və ancaq batini elmə görə gerçəkləşdirilməsi zahiri şərtləri yerinə yetirməyə borclu olan Məhəmməd ümməti üçün mümkün deyil. Buna görə də qəlbi elmə sahib olan böyük şəxslər də, zahiri səbəblər yaranmadan hərəkət etməz, səbəblər dünyasından ayrılmazlar. Şəri hökmlərin sərhədləri hər kəs üçün dəyişilməsi mümkün olmayan ölçülərdir.

Musa -əleyhissalam- şəriət sahibi olan bir Peyğəmbərdir və bu şəriəti tətbiq etməyə borcludur. Xızır -əleyhissalam- isə Allahın bildirdiyi bir elmlə hərəkət edir. Yəni etdiklərini öz arzusu ilə deyil, Rəbbinin əmri ilə həyata keçirir. Musanın -əleyhissalam- Xızıra -əleyhissalam- etiraz etməsi isə Allahın qoyduğu hüdudları qorumaq üçündür. Bu hekayəni Qurani-Kərimdə insanlara bildirən də uca Allahdır. Deməli, hekayədəki hadisələr zahiri baxımdan şəri həqiqətlərə zidd kimi görünsə də, əslində, bir-birini tamamlayan fərqli təzahürlərdir. Həzrət Musa -əleyhissalam- bu təcəllalərin sirrini öyrənən kimi, etiraz etməkdən əl çəkdi. Anladı ki, şəriət bədən, həqiqət isə ruh kimidir. Şəri qaydalar hər kəsə aid olduğundan insanların

çoxunun batini gerçəkləri bilmədiklərinə görə vəzifə və borcları da, ancaq zahiri səbəblərlə bağlıdır.

Başqa yöndən, kəndlilərin mənfi münasibətlərinə baxmayaraq, Xızırın -əleyhissalam- onların üzləşdikləri bu mənfi münasibətə fikir vermədən və heç bir maddi mənfəət ummadan kənddə yıxılmaq üzrə olan bir divarı təmir etməsi, əslində, yetimlərin himayəsinin çox önəmli bir məsələ və yüksək bir fəzilət olduğunu açıq göstərmək üçündür. Bundan başqa, halal qazancın da zay edilməyəcəyi hikmətinin ifadəsidir. Həqiqətən, saleh qulların halal qazancları Allah tərəfindən qorunar, zay olmaz.

Həzrət Osman (r.a) divarın altından çıxan bu xəzinə ilə bağlı aşağıdakı bilgiləri verir:

«Xəzinə qızıldan düzəldilmiş bir lövhə idi. Onun üzərində bu yeddi sətir yazılmışdı:

1. Ölümün olduğunu bilib, gülən şəxsə təəccüb edirəm.

2. Dünyanın fani olduğunu bilib, ona rəğbət göstərən şəxsə təəccüb edirəm.

3. Hər şeyin bir qədərlə təyin edildiyini bilib, əldən çıxan şey üçün üzülən şəxsə təəccüb edirəm.

4. Hesaba çəkiləcəyini bildiyi halda, mal toplayan şəxsə təəccüb edirəm

5. Cəhənnəm atəşinin olduğunu bildiyi halda, günah işləyən şəxsə təəccüb edirəm.

6. Allahı dəqiq olaraq bildiyi halda, Ondan başqasını xatırlayan şəxsə təəccüb edirəm.

7. Cənnətin olduğunu dəqiq bildiyi halda, dünyada istirahətə ümid edən şəxsə və şeytanı düşmən olaraq bildiyi halda, ona itaət edən şəxsə təəccüb edirəm.» (İbn Həcər əl-Əskəlani, «Münəbbihat», 29)

Bu hekayədə işari məna ilə həzrət Musa və həzrət Xızırın -əleyhissalam- görüşdükləri iki dənizin birləşdiyi yerin xatırladılmasındakı məqsəd zahir elmində həzrət Musanın, batin elmində də Xızırın -əleyhissalam- dərin bir dərya olduğunu göstərməkdir.

Həzrət Musanın Allaha bağlı olan elmi öyrənmək məqsədi ilə Xızıra -əleyhissalam- tabe olması təsəvvüfdəki mürid-mürşid münasibətlərinə oxşamaq baxımından da xeyli maraqlıdır. Bu baxımdan demək olar ki, bir şəxs elmdə həzrət Musa -əleyhissalam- qədər dərin olsa belə, onda olmayan bir elmi öyrənmək üçün təvazökarlıq və təslimiyyət duyğuları içərisində məna sultanı olan Allah dostlarının önündə diz çökməli, onların elmini tələb etməlidir.

Sevimli Peyğəmbərimizdən aşağıda deyiləcək şeylər soruşulanda o Varlıq Nuru belə cavab vermişdir:

- Ey Rəsulullah! Quranda və sünnədə cavabını tapa bilmədiyimiz bir məsələ ilə qarşılaşanda nə edək?

«- Onu fəqihlərdən və abidlərdən (salehlərdən) soruşun və onların müzakirəsinə təqdim edin. O məsələdə öz şəxsi görüşünüzlə əməl etməyin.» (Heysəmi, «Məcmauz-Zəvaid», I, 178)

Böyük fiqh alimi, müctəhid həzrət İmam Şafii könül əhli bir şəxs olan həzrət Şeybani Raidən mənəvi baxımdan istifadə etmək üçün onun qarşısında bir tələbə kimi böyük bir ədəblə diz çökər, bir sıra məsələləri onunla müzakirə edərdi. Tələbələri:

- Ey imam! Sizin kimi bir alimlə Şeybanini necə müqayisə etmək olar? Ona etdiyiniz hörmət və iltifatın hikməti nədir,-deyə soruşanda o böyük imam belə cavab vermişdir:

- Övladlarım! Bu şəxs bizim bilmədiklərimizi bilir!

Əhməd bin Hənbəl və Yəhya bin Main də bəzi məsələləri Maruf Kərhinin yanına gedib ondan soruşardı.

Məna ustadlarının yanına zahiri elmləri deyil, qəlbi elmləri öyrənmək üçün gedirlər. Çünki onlar Allaha qovuşduran yolların rəhbərləridir. Belə ki, bir çox böyük təfsir, hədis, fiqh alimləri təsəvvüfə

bağlanmış, bilmədikləri incəlikləri də Haqq dostlarından soruşmuşlar. İbn Abidin, Alusi və başqaları kimi…

Dünyanın ən böyük hüquqçularından biri olan həzrət İmam Əzəm Əbu Hənifə də, həzrət Cəfər Sadiqin söhbətindən feyz almışdır.

Həzrət Əbu Hənifənin mənəviyyat əhlinə böyük hörmətini ifadə edən bu hadisə də çox önəmlidir:

«Deyilənə görə, bir gün Haqq dostlarından İbrahim bin Ədhəm, həzrət İmam Əzəmin yanına gəldi. Əbu Hənifənin yanında olan tələbələr İbrahim bin Ədhəmə yuxarıdan aşağı, saymazyana baxdılar. İmam Əzəm bu halı gördü və İbrahim bin Ədhəmə belə buyurdu:

- Buyurun, əfəndimiz, məclisimizə şərəf verin!

İbrahim bin Ədhəm pərişan bir əda ilə salam verib keçdi. İbrahim bin Ədhəm oradan ayrılanda yanındakı tələbələr İmam Əzəmdən soruşdu:

- Bu şəxs böyüklük sifətinə nə dərəcədə layiqdir? Sizin kimi böyük bir şəxs ona niyə «əfəndimiz» deyir?

Buna cavab olaraq İmam Əzəm böyük təvazökarlıq ifadə edən bu cavabı verdi:

- O, hər zaman Allah ilə məşğuldur, biz isə işin dedi-qodu ilə məşğuluq...»

❁

Başqa yöndən, bütün məsələlərdə olduğu kimi, Allaha bağlı olan elmin öyrənilməsində də ilahi qərarla müəyyən edilmiş olan ədəb və ərkana əməl etmək zəruridir. Bu ədəbin ən önəmlilərindən biri qulun acizlik və heçliyini dərk edərək təvazökar olmasıdır.

Belə ki, **«Kəlimullah»** şanına məzhər və böyük peyğəmbərlərdən biri olan Musa -əleyhissalam-: *«Mən öz qövmümlə məşğul olmalıyam, mənə Tövrat kitabı yetər, onsuz da vəhy alan bir insanam. Uca Allahdan istəsəm, O, mənə bu elmi birbaşa öyrədər…»*, deməmiş yüksək bir təvazökarlıq göstərərək İlahi istəyə tabe olmuşdur. Beləliklə, gələcək insanlığa bu məsələ ilə bağlı bir ölçü və davranış mükəmməlliyi təqdim etmişdir.



«O alimi tapmaq üçün, lazım gələrsə, illərlə onu axtarmağa hazıram», -deməsi də bunun açıq bir dəlilidir. Həzrət Musanın -əleyhissalam- Xızıra qarşı göstərdiyi bu təvazökarlıq elm və mərifət sahibi olan hər kəs üçün gözəl bir nümunədir.

Uca Allah istəsəydi, Xızır ilə Musanı -əleyhissalam- o dəqiqə qarşılaşdıra bilərdi. Halbuki, onları çətin bir yolçuluğun sonunda qarşılaşdırmaq istədi. Deməli, bu yolda eşq və istəklə birgə, böyük bir əzm, iradə, çalışma və ilahi lütfün olması zəruridir.

Eyni zamanda həzrət Musa ilə Xızır arasında olan bu hallar batin elminin də səbəblərə və üsula uyğun olaraq bir ustaddan öyrənilməsinin zəruriliyinə işarə edir. Yəni bu elmə çox halda səbəbsiz, rəhbərsiz və mürşidsiz qovuşmaq mümkün deyil. Ancaq həzrət Veysəl Qərani kimi **«Üveysi xarakter»** sahibi olanlar istisnadır. Bu yolda məqsədə qovuşmaq üçün böyük bir əzm və himmətə ehtiyac var.

Bundan başqa, həzrət Musanın Xızırdan -əleyhissalam- elm öyrənmək istəməsi: *«Necə ola bilər ki, bir vəli böyük bir Peyğəmbərə dərs versin?»,* şəklində bir sual da yarada bilər.

Bu zaman aşağıdakı məsələyə diqqət edilməlidir. Həzrət Musanın -əleyhissalam-, Xızırdan -əleyhissalam- elm öyrənmək istəməsi onun heç bir elm və mərifətə sahib olmadığı, ona kəşf və ilhamdan heç bir pay lütf edilmədiyi mənasına gəlmir. Bu hal hər hansı bir məsələdə belə kamil olandan o məsələni öyrənmək kimidir.

Məsələn, Memar Sinanın memarlıqdakı elmi gücü və qabiliyyəti Süleymaniyə Məscidinin tikintisində çalışan bütün sənətkarlardan heç şübhəsiz daha üstündür. Sinanın o məsciddəki bir mərmər ustası qədər mərmərlə bağlı işləri bilməməsi onun üçün bir qüsur deyil. Çünki o sənətkarlar da Sinanın təlimatına uyğun olaraq işləyirlər.

Bu baxımdan Xızırın -əleyhissəlam, Musaya -əleyhissalam- bəlli bir müddət ustad olması səbəbi ilə Musadan -əleyhissalam- üstün olduğunu söyləmək olmaz. Burada kimin üstün olduğu ilə bağlı müqayisə aparmaq da doğru deyil. Çünki Musa ilə -əleyhissəlam, Xızır



-əleyhissalam- müqayisə olunmayacaq dərəcədə fərqlidirlər. Buradakı hikmət ilahi elm qarşısında peyğəmbərlər də daxil olmaqla, bütün yaradılmışların aciz olduğu gerçəyinin bütün insanlığa göstərilməsidir.

Peyğəmbərlər də bir insan olmaqla birlikdə, ilahi vəhyi almış seçilmiş şəxslərdir. Uca Allahın bu müstəsna qulları günah etməzlər. Ancaq onlar da aciz bir insan olmaq baxımından nadir hallarda «zəllə» deyilən xətalar edə bilərlər. Uca Allah bu yolla onlara da ya bir ehkam müəyyən edilsin deyə, ya da insanlığa misal olsun deyə, insan olmağın acizliyini daddırır və onlara çox zaman bizə məchul olan bir keyfiyyətdə tərbiyə edir. Burada da Musa -əleyhissalam- ilahi elmin sonsuzluğu qarşısında bəşərin sahib olduğu elmin acizliyini anlayacaq, ona bildirilməyən hələ çox elmlərin mövcud olduğunu göstərəcəkdir. Qiyamətədək davam edəcək olan insanlıq da onun hekayəsindən ibrət alacaq.

Həqiqətən, peyğəmbərlər belə, peyğəmbərlik kimi böyük bir qüdrət və səlahiyyətə sahib olmalarına baxmayaraq, onlara bəxş edildiyi qədər elmə vaqif olmuş və uca Allahın lütf etdiyi ölçüdə də qeybi bilmişlər. Allaha bağlı olan elm vəhbi olduğundan onlar belə, uca Allahın bildirdiyini bilir, bildirmədiyini bilməzlər. Belə ki, Şeyx Sədinin «Gülüstan» adlı əsərində belə bir hekayə var.

«Bir şəxs həzrət Yaquba deyir:

- Ey qəlbi nurlu, ağıllı Peyğəmbər! Yusifin köynəyinin qoxusunu Misirdən gələrkən duydun. Niyə Yusif sənin yaxınlığında olan quyuya atılarkən onu görmədin?

Yaqub -əleyhissalam- isə bu cavabı verir:

- Bizim bu məsələ ilə bağlı nail olduğumuz ilahi pay çaxan şimşəklər kimidir. Buna görə də, ilahi istəyə bağlı olaraq gerçəklər bizə bəzən əyan olur, bəzən də qapanır!»

Belə ki, Musanın -əleyhissəlam, Xızırdan -əleyhissalam- elm tələb edərkən istifadə etdiyi söz də **«Sənə verilən elm»** şəklindədir. Yəni elm bəndəyə deyil, uca Allaha aiddir. Bütün elmlərin mütləq

mənbəyi böyük Allahdır. O, dilədiyinə istədiyi qədər ehsan edər. Bəzi elmlərin öyrənilməsi üçün bir sıra zahiri səbəbləri vasitə edər, bəzi elmləri isə birbaşa qulunun qəlbinə lütf edər.

Başqa yöndən bir bəndə oruclu olarkən unudaraq bir şey yesə, orucu pozulmaz. Həzrət Musanın -əleyhissalam-, Xızıra -əleyhissalam- verdiyi sözü unudaraq ona etiraz etməsi onların yoldaşlığının davam etməsinə mane olmamışdır. Ancaq həzrət Musa -əleyhissalam- bu elmdən alması mütləq olan payını məcbur olmadığı halda bir peşmanlıq həyəcanı ilə:

«Əgər bundan sonra səndən bir şey soruşsam, məni yanında saxlama» (əl-Kəhf, 18/76) deyərək şərtə bağladığı üçün, nəticədə onun payı bu qədər məhdud oldu.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Allah Musaya rəhmət etsin. Əgər o səbir edə bilsəydi, uca Allah onlar vasitəsilə bizə (daha çox, əsrarəngiz və qeyri-adi) **hadisələr bildirəcəkdi.»** (Müslim, «Fəzail», 170; Buxari, «Təfsir», 18/2)

Deməli, bu yolda səbir və təmkin əhli olmaq əsasdır.

Təsəvvüf əhlinin bu hekayə ilə bağlı dəyərləndirmələrindən biri də belədir:

Rəvayət edildiyinə görə, həzrət Musaya -əleyhissalam- bu səyahətində yoldaşlıq edən gənc Musanın -əleyhissalam- bacısının oğlu və ona iman edənlərin, yəni əshabının liderlərindən olan Yuşa bin Nun idi. Bu şəxs Musanın -əleyhissalam- vəfatından sonra da onun xəlifəsi olmuşdur.

Həzrət Peyğəmbər də -səllallahu əleyhi və səlləm- hicrət yolçuluğunda haqqında hədisi-şərifdə *«üçüncüləri Allah olan ikinin ikincisi»* (Buxari, «Əshabün-Nəbi», 2) buyurulan və ümmətinin ən fəzilətlisi olan həzrət Əbu Bəkri (r.a) yol yoldaşı olaraq seçmişdi. Bu misallar mənəvi yoldakı Allah rizası üçün olan həqiqi dostluğun önəmini göstərmək üçündür.

Min bir sirr və hikmətlərlə dolu olan Musanın -əleyhissalam- bu hekayəsi belə, bizə Allaha bağlı olan elmin məzmunundan sadəcə bir neçə misal vermişdir.

❁

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- bir hədisi-şərifində belə buyurmuşdur:

«Şübhəsiz, mən sizin görmədiklərinizi görürəm və eşitmədiklərinizi eşidirəm. Göy sanki guruldadı və guruldaması da onun haqqıdır. Çünki göydə dörd barmaq yer yoxdur ki, bir mələk Allaha səcdə etmək üçün o yerə alnını qoymasın. Allaha and içirəm ki, mənim bildiyim gerçəkləri siz bilsəydiniz, az gülərdiniz və çox ağlayardınız… Evlərinizdən səhralara tökülüb yüksək səslə Allaha yalvarardınız.»

Bu hədisi nəql edən Əbu Zərr Qifari (r.a) bu sözləri eşidəndə belə demişdir:

«Vallah, mən kəsilən bir ağac olmağımı ürəkdən istədim!» (İbn Macə, «Zöhd», 19)

Allaha bağlı olan həqiqətlər qarşısında bəzi səhabələr də düşdükləri heyrət və dəhşət okeanındakı acizlik duyğularını bu kəlmələrlə dilə gətirmişlər:

Həzrət Əbu Bəkr (r.a): *«Quşların dimdiklədiyi bir xurma dənəsi olaydım!»*

Həzrət Ömər (r.a): *«Kaş bir ot olardım! Kaş heç bir şey olmayaydım!»*

Möminlərin anası həzrət Aişə (r.a): *«Kaş bu ağacda bir yarpaq olaydım!»*

Allahın qüdrət və əzəməti qarşısında onları ikiqat edən bu vəziyyət acizlik və qorxu məqamıdır.

Əshabi-kiramdan Haris bin Malik əl-Ənsari (r.a), Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- söhbətində vəcdə gələr və



bayılardı. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- bir səhər ona belə dedi:

- Ey Harisə! Səhəri necə açdın?

Harisə (r.a):

- Həqiqi bir mömin kimi!

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- bu dəfə:

- Ey Haris! Hər hal və həqiqətin bir dəlili var. Sənin imanının həqiqətinin dəlili nədir?

Harisə (r.a):

- Ey Rəsulullah! Dünyadan əl-ətək çəkəndə gündüzlərim susuz, gecələrim yuxusuz hala gəldi. Rəbbimin ərşini açıqca görməyə başladım. Bir-birilərini ziyarət edən cənnət əhli ilə, bir-birinə düşmən olan cəhənnəm əhlini görürəm.

Bundan sonra Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə buyurdu:

- Oldu, ey Harisə! Bu halını qoru! Sən Allahın qəlbini nurlandırdığı bir şəxssən.» (Heysəmi, «Məcmauz-Zəvaid», I, 57)

Yenə Harisə (r.a) haqqında Rəsulullah -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Bir şəxs, qəlbini Allahın nurlandırdığı bir insanı görmək istəyirsə, Harisəyə baxsın.» (İbn Hacər, «əl-İsabə», I, 289)

Həzrət Mövlana beytlərində bu hadisəni könül dili ilə təmsili olaraq belə anladır:

«Harisə (r.a), Rəsulullahdan -səllallahu əleyhi və səlləm:

- Gördüklərimi anladımmı? -deyərək icazə istəyir və gördüklərini danışmağa başlayır:

- Ya Rəsulallah! İnsanların sabah olacaq deyə inandıqları məşhər gününü bu gün ortaya qoyaq. Həşr və nəşrin bütün sirlərini üzə çıxaraq. Əmr et, bu sirlərin pərdələrini götürək. İçimdəki ilahi hikmətlər cövhəri göylərin günəşi kimi parlasın!»



«Ya Rəsulallah! Əmr et, kimlər dünyanın kir və çirkinlikləri arasında xalis qızıl və brilyantlar kimi qalmağı bacardı, kimlər küfrün qızıl və qara rəngi ilə paslandı, bunları anladım.»

«Peyğəmbərliyinin sönməz işığında nifaqın yeddi uçurumunu əyan edim.»

«Axirətdə günahkarların geyəcəyi paltarı xalqa göstərim. Orada peyğəmbərlər üçün çalınacaq davul və böyük davulun səsini eşitdirim.»

«Coşqun və daşqın bir halda olan Kövsər hovuzunu göstərim ki, onun suyu xalqın üzünə səpilsin, səsi qulaqlarına dəysin!»

«Susamış kimsələrin o hovuzun ətrafına qaçdıqlarını açıqca göstərim! Onların çiyinləri çiyinlərimə toxunur. Bağırtıları qulağımı dəlir!»

«Cənnətlik olanlar sevinclərindən gözümün önündə qucaqlaşaraq bir-biriləri ilə görüşürlər».

«Cəhənnəmlik olanların da ah-vay səsləri ilə inləyib fəryad və fəğan etmələri, sanki qulağımı kar edəcək!»

«Bunlar dərindən söylədiyim bir sıra işarələrdir. Yenə də söyləyə bilərəm, ancaq Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- danlamasından qorxuram!»

O özündən getmiş halda belə söyləyirdi. Görünməmiş bir vəcd ilə özündən keçmiş, sanki şüurunu itirmiş, bütün sirləri açıb göstərəcək bir hala gəlmişdi.

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- onu bu haldan oyandırmaq üçün belə dedi:

- Özünü topla! Sus!

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə deyərək həzrət Harisənin yaxasını çəkdi və belə buyurdu:

- Özünə gəl! Dilini dinc saxla! Sən söylənilməyəcək sözləri söyləməyə başladın. Ruhunun aynası bədən qəfəsindən kənara çıxdı. Ancaq unutma ki, nail olunan sirləri açıb söyləməyin səbəbi onları

həzm edə bilməməyindir. Allahın adlarından biri də Səttardır. Bunu bil və bu sifətlə bəzənməyin səadətini quru bir həzm edə bilməməyə qurban etmə!»

Kainatın hər zərrəsində ilahi bir tarazlıq olduğu kimi, ruhi aləmdəki təcəllalar qarşısında da qul tarazlığı və orta yolu qorumaq məcburiyyətindədir. Bütün məsələlərdə ümmətinə ən gözəl bir nümunə olan Kainatın Fəxri -səllallahu əleyhi və səlləm- ruhaniyyətin zirvə nöqtəsində belə, ölçüləri pozmamış, istiqamətdən ayrılmamışdır.

Bəzi zamanlarda Rəsulullah -səllallahu əleyhi və səlləm- elə bir mənəvi feyzlə dolardı ki, bu hala uzun müddət dözmək mümkün olmazdı. Xüsusilə, vəhyin endiyi zamanlarda çox iztirab çəkər, inci dənələri kimi tər damcıları axardı. Feyz və özünə qapanmağın ən yüksək səviyyəsinə çatdığı bəzi anlarda:

«Ey Aişə, ruhaniyyət məni istila etdi. Gəl, bir az mənimlə danış!»[13],-deyərək bəşəri iqlimə dönərdi.

Bunun əksinə dünya halı Ona qalib gələndə də:

«Ey Bilal! Tez ol, (insanları) namaza çağır ki, fərəhləyək!» (Əbu Davud, «Ədəb», 78), buyuraraq bəşəriyyət və ruhaniyyət iqlimləri arasında tarazlığı təmin edərdi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- iç aləmində son dərəcə ölçülü olduğu kimi, zahiri məsələlərə münasibətdə də hər zaman orta yolu qoruyub saxlayardı. Uca Allahın ona lütf etdiyi, ağlın qavraya bilməyəcəyi yüksək həqiqətləri onların əhli olmayan insanlardan başqasına bildirməmişdir. Bu məsələnin önəmini çox gözəl bilən həzrət Əli də (r.a) belə buyurmuşdur:

«İnsanlarla anlayacaqları şəkildə danışın.» (Buxari, «Elm», 49)

Bu o deməkdir ki, insanlara öz ağlınızın dərk etdiyi qədər deyil, onların dərk edəcəyi dərəcədə söyləyin.

Əbu Hureyrə (r.a) bu sirli mənəvi həqiqətlərlə bağlı olaraq, xalqın anlaya bilməyəcəyi qorxusu ilə bir sıra hədisi-şərifləri rəvayət etmədiyini belə ifadə edir:

13. Baxın, Münavi, «Feyzül-Qadir», V, 228.

«Mən, Rəsulullahdan -səllallahu əleyhi və səlləm- iki qab (dolusu elm) götürdüm. Bunlardan birini xalqa yaydım. Əgər o birisini yaymış olsaydım, bu boynum kəsilərdi.» (Buxari, «Elm», 42)

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Hikməti onun əhlindən başqa birisinə versəniz, zülm etmiş olarsınız.» (Darimi, «Muqəddimə», 34)

Bu cümlə zidd mənası ilə aşağıdakı mənanı da ifadə edir:

«Hikmət və sirləri onun əhli olanlara qadağan etsəniz, yenə zülm etmiş olarsınız.»

Ayeyi-kərimədə buyurulur:

«Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) **bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir** (əbədi səadət) **verilmişdir. Bunu ancaq ağıl sahibləri düşünüb dərk edərlər.»** (əl-Bəqərə, 2/269)

❁

Təmkin əhli olan böyüklər bu elmdən onlara verilən payı idrakı geniş olmayanlara təklif etməmişlər. Çünki ağlın qavramaqda aciz olduğu bu gizli sirlər onun əhli olmayanlara verilməməlidir. Belə ki, Allahın bəzi bəndələrinə lütf etdiyi bu müstəsna sirlərə sahib olanlardan Həllac Mənsur qəlbindəki təcəllalardan kiçik bir zərrəni faş etdiyi üçün qanları axıdılmış, edamla cəzalandırılmışdır.

Vəhdət dəryasına dalan Həllac dərin bir vəcd və məstlik halında olarkən üzərindəki təcəllaların şiddətinə təslim olmuş və «Ənəlhəqq» deyə fəryad etmişdir. Məhrəm bir sirr beləcə dilə gətirilmiş, insanlar bu sirri ağlın ölçüləri ilə ölçmüş və ağıl bu yükü çəkə bilməmişdir.

Həllacdakı bu hal bir çox vəlidə də özünü göstərmişdir. Ancaq bu nə bir təsbitdir, nə də bir açıqlamadır. Bu, sadəcə keçici bir haldır. Fənafillah məqamında olarkən təmkin halını qoruya bilməyib ağıla nəzarəti itirən vəlilərdə özünü göstərir. Ağlın zahiri ölçüləri və mübahisə aləmini tərk etdiyi, yəni tükəndiyi bu halda onun sahibinə şəri baxımdan bir təklif yoxdur. Çünki ilahi ölçü ilə şəri məsuliyyətin

ilk şərti «ağıllı olmaq»dır. Ağlın isə belə sözlərdə heç bir iştirakı yoxdur. Bu halları ağıl ilə dərk etmək mümkün deyil.

Belə hallar cazibənin qalib gəlməsi ilə baş verdiyindən belələrinə təsəvvüfdə «məczub»[14] deyilir. Bunların zahiri ölçülərinə sığmayan belə halları bu işin əhli olanlara normal görünsə də, avam İnsanlar tərəfindən normal sayılmır və belə insanlar onları qınayarlar. Bunun üçün Həllac Mənsurun misalımızda adını çəkdiyimiz sözü və aqibəti haqqında: «Həllac da haqlı, onu öldürənlər də» fikri meydana gəlmişdir. Buna görə də təsəvvüfdə «təmkin» çox tövsiyə edilmiş və məczub deyil, cəzb etməyə çalışmaq məqbul sayılmışdır.

Rəvayətə görə, cəllad Əbul-Haris asmaq üçün Həllacın önünə keçmiş və ona ağır bir zərbə vurmuşdur. Belə ki, Həllacın burnu, üzü parça-parça olmuşdur. O anda Şibli də ətrafındakılara gizli olan bir səbəblə haray çəkərək cübbəsini parçalamış və özündən getmişdir.

Həllacdakı bu təcəlla bir haldır. Bu hal keçdikdən sonra Haqq Haqdır, əşya da əşyadır. Şeyx Şibli deyir:

«Biz Həllac ilə eyni mərhələlərdən keçdik. Mənə məcnun dedilər və fikir vermədilər, ona isə ağıllı dedilər və edam etdilər.»

Şibli belə anladır:

«Həllac edam ediləndə gecə vaxtı məzarının başına getdim. Sabaha qədər namaz qıldım. Səhər vaxtı uca Allaha yalvardım:

«İlahi! Bu, sənin mömin, arif və tövbə edən bir qulun idi. Bu bəndənə verdiyin müsibətlərin hikməti nədir?»

Bu zaman məni yuxu basdı. Yuxuda qiyamətin qopduğunu gördüm. Orada Haqqın bu sözünü eşitdim:

«Sirrimizi əhli olmayanlar arasında yaydığından onun başına bu bəlanı gətirdik!»

14. Məjzub: ilahi jazibə qarşısında ağılı zəifləmiş, anjaq mənəvi aləmində hər zaman uja Allaha bağlı olan kimsədir. Bəşəri həyat üçün yad olan bir hal sayılsa da, qəlbi idrak, dərin anlayış baxımından bir çox adi insanlardan üstün olmuşlar. Onların iradə, idrak və duyğuları dözülməsi mümkün olmayan bir jərəyan kimidir. Zat təjəlliləri qarşısındakı ajizliyin bəşəri həyatdakı misallarından biri də bu insanlardır.

Bu ifadələrdən də anlaşıldığı kimi, Haqqda fani olaraq həqiqət sirrinə nail olmaq deyil, nail olunan sirrin sürükləyə biləcəyi mənəvi sərxoşluq halında bu sirri əhli olmayanlara söyləmək zərərlidir. Bu ölçüyə əməl etməməkdən törəyən bəzi həyəcanlı halları və istisna misalları bütün təsəvvüf və Haqq dostlarına aid etmək doğru deyil. Allahın sevdiyi bəndələri haqqında pis söz söyləmək və onların qiymətini təqdir etməmək, cəhalət və bəsirətsizlikdən irəli gəlir. Bir möminin onları rədd etməsi mümkün deyil.

Bu baxımdan mənəvi yolda ən təməl əsas müqəddəs ölçülərə sıx-sıx sarılmaq, ancaq əbədi sirləri də rədd etməməkdir. Bundan başqa uca Allah ilə bəndəsi arasındakı gizli sirləri danışmaq da doğru deyil.

Bütün bunlar ruhi özünəqapanma və ağılın ölçülərindən kənarda yaşanan halların təcəllalarıdır. Belə ki, bu xüsusi hallar keçib gedəndən sonra insan yenidən normal vəziyyətinə qayıdır və bu həyəcanlar yerini sükunətə verir.

Bəzi Haqq dostları da ruhlarına qalib gələn müstəsna təcəllaların təsiri ilə vərdiş olunmamış bir sıra davranışlara sürüklənmişlər. Ancaq ağıl və iradənin əldən getdiyi o aləmdən oyanan da yenə doğru istiqamətlərini davam etdirmişlər.

Bir dəfə Cüneyddən -qüddisə sirruh- soruşuldu:

- Bəzi Allah dostları vəcd halında olarkən adətdən kənara çıxırlar. Onların bu halı haqqında nə deyə bilərsiniz?

Cüneyd -qüddisə sirruh- belə cavab verdi:

- Onları öz halları ilə baş-başa buraxın, Allah ilə olmaqdan həzz alıb rahatlığa qovuşsunlar. Şəriətin açıqca yasaqladığı məsələlərdən başqa, onların hallarını qınama. Diqqət et ki, bu yol onların ciyərlərini yandırıb qovurmuş, səyləri və çalışmaları onları yormuş və onlar çoxsaylı bəlalara dözmüşlər. Onlar bu hərəkətləri yaşadıqları hallardan xilas olmaq üçün edirlər. Bunda bir qorxulu şey yoxdur».

Rəvayətə görə, Həllac Mənsurun edam edilməmişdən öncə etdiyi bu dua eyni zamanda onun mənəvi səviyyəsini və səmimiyyətini göstərir:



«Allahım! Sənin bəndələrin Sənə olan yaxınlıqlarına və dinlərinə bağlılıqlarına görə məni öldürmək üçün toplaşdılar. Onları bağışla. Çünki Sən mənə lütf etdiyin sirləri onlara da qismət etsəydin, onlar mənim haqqımda belə düşünməzdilər. Əgər onlardan gizlədiyin şeyləri məndən də gizləmiş olsaydın, belə gizli işlərlən xəbər verə bilməzdim. Ey Rəbbimiz, onları əfv et! Çünki onlar məni Sənə qovuşdururlar!»

Həllacın halını məna aləmində seyr edənlər deyirlər ki, onu dar ağacından asdıqları zaman İblis onun yanına gəldi və belə dedi:

- Bir **«ənə»**[15] sən dedin, bir **«ənə»** də mən dedim. Necə olur ki, belə dediyinə görə sənin üzərinə rəhmət, mənim üzərimə lənət yağır?!

Həllac İblisə belə cavab verdi:

- Sən «ənə» deməklə özünü Adəmdən üstün hesab etdin. Təkəbbürünü ortaya qoydun, mən isə «Ənəlhəqq» dedim, özümü Allahda fani etdim. Mənliyi ortaya qoymaq demək olan təkəbbür cəhənnəm əlamətidir. Mənliyi ortadan qaldırmaq, yəni Haqqda fani olmaq isə heçliyin ifadəsidir. Buna görə də mənə rəhmət, sənə isə lənət və zillət endi.»

İbrahim bin Fatik, Həllacı ziyarət etməyə gedəndə Həllacın ona bu nəsihəti verdiyini danışır:

- Ey oğlum! Bəzi insanlar mənim küfr etdiyimə inanırlar. Bəziləri də mənim vəlayətimə inanırlar. Küfrümü elan edənlər vəli olduğumu söyləyənlərdən Allah yanında və mənim nəzərimdə daha sevimlidir.

Mən:

- Niyə belə söyləyirsiniz?

O, belə cavab verdi:

- Vəli olduğuma inananlar mənə olan gözəl münasibətlərinə görə, küfr etdiyimə inananlar isə öz dinlərinə bağlı olduqlarına görə belə edirlər. Dininə sədaqətli olan şəxs sadəcə mənə gözəl münasibət bəsləyəndən Allah yanında daha sevimlidir».

15. **«Ənə»** ərəb dilində «mən» şəxs əvəzliyidir.



Həllacdakı təcəllalardan daha üstün bir halı yaşayan həzrət Mövlana isə belə buyurmuşdur:

«Əgər Həllac mənimlə Allahım arasındakı təcəllalərdən xəbərdar olsaydı, o da məni daşa basardı.»

Bu və buna bənzər hallar Haqqda fani olmağın üzə çıxan ifadələridir. Həzrət Mövlana Fənafillahı beytlərində bu təşbeh ilə izah edir:

«Sonsuz olan həyat çayını görəndə kasadakı suyunu, yəni bu fani ömrünü sonsuzluq çayına qarışdır! Su heç çaydan qaçarmı?»

«Kasadakı su çayın suyuna qarışanda orada öz varlığından xilas olar, çay suyu olar».

«Belə olanda o kasadakı suyun əlaməti, sifəti yox olar, ancaq zatı qalar. Artıq bundan sonra o nə azalar, nə kirlənər, nə də iylənər.»

Mövlana və onun kimi mənəvi ucalığa qovuşmuş bir qəlbə sahib olanların hər duyğu və düşüncəsi ilahi hikmətə yönəldiyi üçün uca Allah onların sanki görən gözü, tutan əli… olur.

Mövlanaya aşiq olan bir mütəfəkkir onda olan bu halların dərk olunması məsələsində insanların çoxunun aciz qaldığını ifadə edərək belə yazır:

«Biz, Mövlana Cəlaləddinin vəcdinin fəryadlarını dinlədik. Daldığı rahatlıq dənizinin dərinliklərini görməyimizə imkan yoxdur. Dənizin lap dibindən sıyrılıb, suyun üzünə nə çıxdısa, onu görürük. Biz həzrət Mövlananın eşqini deyil, sadəcə eşqinin dilə gələn fəryadlarını əldə etdik. Pəltək dilimizlə anlatmağa çalışdığımız ancaq bundan ibarətdir. Rahatlıq dənizinə ancaq o baş vurdu. Bizə vəcdinin fırtınasından çıxan səslər qaldı. Heyhat! Onu Mövlana hesab ediri.»[16]

Eşq, vəcd və özünəqapanma halı elə bir ümmandır ki, ancaq əhlinə məlum olan bir Rəbbani cilvədir.

Bu sirr elmindən bir qismini simvolik bir şəkildə olsa da, sətirlərə tökən Muhyiddin İbn Ərəbiyə Allah dostları böyük dəyər vermiş, onun ifadələrinin dərinliklərində olan misilsiz sirlərin həqiqətlərini

16. Nurəddin Topçu, «Mövlana və Təsəvvüf», s. 139.



seyr etmişlər, onu «Böyük Şeyx» deyə yad etmişlər. Batini aləmdən uzaqda olanlar isə, bu nüansı görə bilmədikləri üçün onu küfrdə ittiham etmişlər.

Əgər sirlərə dözə biləcək dost və sirdaş olmasa, susmaq daha yaxşıdır. Çünki hər kəsə ağlının dərk edə biləcəyi ölçüdə söz demək lazımdır. Əgər haldan anlamayana hikmət və mərifətdən bəhs etsən, həqiqətə zülm etmiş olarsan.

Bu baxımdan Muhyiddin İbn Ərəbi -qüddisə sirruh- belə buyurmuşdur:

«Halımızı bilməyənlər əsərlərimizi oxumasınlar.»

Həzrət Mövlana da belə deyir:

«Mən bu sirləri qapalı və müxtəsər söylədim. Çünki geniş bəyan etməyə çalışanın dili, dinləyənin də idrakı yanardı.»

Həzrət Mövlana bir-birindən çox fərqli istedad və qabiliyyəti olan insanlara təqdim edilən «Məsnəvi»sində dar idrakların yanlış yola düşməməsi üçün anlaşılması çətin olan ilahi sirləri və mücərrəd həqiqətləri ya sadə obrazlı hekayələrlə anlatmış, ya da simvollarla örtərək bu sirləri yalnız onun əhlinə bildirmişdir.

Bu sahədə mənəvi dərinliyi olmayanlara «Məsnəvi»nin mənasında olan incəlikləri şərh etməmişdir.

Mövlana -qüddisə sirruh- belə deyir:

«Mənim beytlərim beyt deyil, bir məna dünyasıdır. Satirik ruhda deyilən əsərlərim də satira deyil, tərbiyə üsuludur. Hekayələrim bəsit və adi sözlər deyil, təlimdir. Sirləri izah etmək və anlatmaq üçündür.»

Həzrət Ömər (r.a) şahid olduğu bir hadisəni belə anladır:

«Bir gün Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına getdim. Həzrət Əbu Bəkr (r.a) ilə Allahın birliyi haqqında söhbət edirdilər. Onların arasında oturdum. Sanki ərəbcə bilməyən bir insan kimi onların sözlərindən heç bir şey anlaya bilmədim. Əbu Bəkrdən soruşdum:



- Bu nə haldır? Siz Peyğəmbər -səllallahu əleyhi və səlləm- ilə hər zaman belə söhbət edirsiniz?

Həzrət Əbu Bəkr (r.a) belə buyurdu:

- Bəli, bəzən Rəsulullah -səllallahu əleyhi və səlləm- ilə baş-başa qalanda belə söhbət edirik».[17]

Həzrət Ömər kimi dühasından şübhə edilməyəcək dərəcədə olan bir insan öz dili ilə baş verən bu söhbətdə məsələni dərk etməkdə çətinlik çəkirsə, adi insanların nə vəziyyətdə olacağı bununla müqayisə edilərək asanca anlaşıla bilər.

Belə söhbətlərdə ifadə olunan həqiqətlərin yazılması və bu yolla da xalqa ötürülməsi arzu edilməmiş və bu iş son dərəcə zərərli sayılmışdır. Ancaq bu yolla belə gerçəklər avam İnsanlar üçün sirr olaraq qalmış, əhli olanlara isə deyilmişdir. Buna görə də kamala çatdığı zənn edilən İnsanlar haqqında danışılarkən, **«Qaddəsəllahu sirrahu»**, yəni «Uca Allah onun sirrini (iç aləmini) hər cür mənəvi ləkələrdən arındırsın», ifadəsindən istifadə olunur.

❁

Qayəsi baxımından təsəvvüf insanların mənəvi aləmləri ilə məşğul olduğu üçün kainatın yaradılış səbəbi olan **məhəbbət**i də təbii olaraq istifadə etməyə məcburdur. Buna görə də təsəvvüf **«eşq və məhəbbət yolu»** olaraq adlandırılmışdır. Ancaq eşq bir coşğunluq olduğundan iradənin zəifləməsi, cəzb olunma, vəcd və həyəcanın nəzarətdə saxlanılmaması kimi bir nəticəni də özü ilə birgə ortaya çıxarır.

Belə ki, Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ilə Cəfər Təyyar (r.a) arasında olan sonsuz məhəbbət haqqında bir misal belədir:

«Cəfər (r.a) bir qrup səhabə ilə Həbəşistan hicrətindən dönüb, Mədinəyə gəldi. Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- Xeybərdə olduğunu öyrənəndə dincəlmədi, həsrətlə yoluna davam

17. Baxın, Əhməd bin Abdullah ət-Təbəri, «ər-Riyazun-Nadra», II, 52.

etdi. Allah Rəsulu -səllallahu əleyhi və səlləm, Cəfəri (r.a) qarşısında görəndə sevincə qərq oldu və belə buyurdu:

«Xeybərin fəthinə, yoxsa Cəfərin gəlməsinə sevinim?» (İbn Hişam, «əs-Sirə», IV, 3)

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- «ümrətül-qəza»dan[18] dönərkən şəhidlərin başçısı həzrət Həmzənin yetim qızı Fatiməyə kimin baxacağı məsələsini yaxınları ilə müzakirə etdi. Bu müzakirənin nəticəsində qızı Cəfər Təyyara əmanət etdi. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm, Cəfərin (r.a) alnından öpərək ona belə buyurdu:

«Yaradılış və əxlaq baxımından mənə çox oxşayırsan». (Buxari, «Məqazi», 43)

Cəfər (r.a) bu nəbəvi iltifat qarşısında elə həyəcanlandı ki, sevincinin şiddətindən özündən getdi. Məsum bir uşaq kimi oynamağa, pərvanələr kimi vəcd içində dönməyə başladı.» (Əhməb b. Hənbəl, «Müsnəd», I, 108)

İnsan oğlu nail olduğu belə ülvi bir iltifatla özündən gedib sərməst ola biləcəyi kimi, ilahi təcəllalarla nemət və lütflərə nail olanda da xarici aləmdən sıyrılıb özünə qapana bilər. Bu çox təbiidir. Önəmli olan o həyəcan seli içində belə, insan olmağın zəruri etdiyi şərtlərdən kənara çıxmamaq, tarazlıq və istiqaməti qoruya bilməkdir.

Bu tarazlığın qorunması üçün təsəvvüfi yollarda zahiri elmlər ilə mənəvi həyatı birləşdirmiş olan şəxslərin rəhbərliyinə ehtiyac var.

İnsanları tərbiyə etmək vəzifəsini öz üzərinə götürənlər, buna borclu olanlar zahiri elmlərdə zəruri olan bir qüdrət və səviyyəyə çatmadığı halda eşq və məhəbbət yolundakı təhlükə yenə böyükdür. Bunu zərərsizləşdirmək üçün «Nəqşibəndiyyə» kimi bir sıra təriqətlərdə mürşidlərə zahiri elmləri də bilən şəxslərdən olmuş və bu yolla da işarə edilən təhlükədən özlərini qoruya bilmişdir.

18. **Umrətül-qəza:** Rəsulullahın -səllallahu əleyhi və səlləm- Hudeybiyə anlaşmasının əldə edildiyi il niyət edib, ancaq gerçəkləşdirə bilmədiyi və bir il sonra qəza olaraq etdiyi ümrə.

Allah dostlarındakı tərbiyə üsulları fərqlidir. Təsəvvüf yollarının böyüklərindən olan Nəqşilik saliki cəzbə halına salmadan tərbiyə edir. Həzrət Əbdülxaliq Gücdəvani belə buyurmuşdur:

«Əgər Həllac bizim zamanımız və tərbiyəmizdə olsaydı, onu səkr halına düşməkdən Allahın icazəsi ilə qoruyardıq.»

Bəzi təriqətlərdə isə tez-tez cazibə və coşğunluğun şiddəti ilə ortaya çıxan həddən artıq həyəcan isə şəriət baxımından bir ayaq büdrəməsindən ibarətdir. Bunlar, əslində, məqbul olan həyəcan və coşğunluğun ölçü pozulanda doğura biləcəyi təhlükəni göstərir.

❁

Peyğəmbərlərin ortaq xüsusiyyətlərindən başqa, onlara xas olan fərqli bir sıra xüsusiyyətləri də var. Allah dostları da bir-birinə münasibətdə bunun kimidir. Məsələn, cəlali və ya camali xarakterdə ola bilərlər. Ancaq bunların hamısı qəlb aləmində uca Allahı adi insanın dərkindən və anlayışından daha fərqli bir biçimdə bilir və bütün fani və faniliklərdən əl çəkərək Ona yaxınlaşmağa çalışırlar. Bu ucsuz-bucaqsız mərifətullah sahəsində hər zaman öz acizliklərini dərk edirlər. Belə olmaqla birgə, onların hamısı eyni mərhələdə olmadığı kimi, eyni vəzifə ilə də yüklənməmişlər. Bəziləri seyr və sülukun sonunda xalqa dönər. Bunlar tərbiyə etməklə vəzifələndirilmişlər. Əvvəlcədən də ifadə etdiyimiz kimi, bir uşağa tədrici metodla dərs verən bir müəllim kimi bildikləri həqiqətlərin çoxunu bəşəri münasibətlərində özlərini bilməyən şəxs kimi göstərirlər. Bu haldan istifadə edərək bir şeyi bilib, ancaq özünü bilməyən kimi göstərməyə «təcahüli-arifanə» deyilir.

Başqaları isə tərbiyə etməyə borclu olmadıqlarından onlar heyrət məqamında qalır və daimi bir surətdə sükut edirlər. Belələri ilahi qüdrət səhnələri qarşısında lal insan kimidirlər. İnsanlar qarşısında vəzifəsi olan bəziləri isə, sanki coşub-daşırlar. Dillərindən və könüllərindən ilahi sirr və hikmətlər axır.

Bəzilərində isə bu hallar hər zaman olmur, ötəri xarakter daşıyır. Onların həyatında müxtəlif səhifələr olur. Bu hallara misal olaraq

həzrət Məhəmməd Parisada olan təcəllalardan biri də belədir:

Həzrət Məhəmməd Parisa gecə namazından sonra məscidin həyətində bir az istirahət edər, qısa bir söhbətdən sonra evinə gedərdi. Bəzən də onda elə bir hal təcəlla edərdi ki, səhər azanına qədər məscidin həyətində, sanki donub qalar, dərin bir heyrət halı yaşayardı. Səhər azanı ilə birgə məscidə girərdi.

Bu vəlilərin yaşayış və duyğuları kimi, ölümə münasibətləri də fərqli olmuşdur. Həzrət Mövlana ilahi eşq ilə qovrulduğuna görə ölümü «qovuşma» və «toy gecəsi» olaraq dərk etmişdi. Həsən Bəsri -qüddisə sirruh- isə «Xaşyətullah» (Allah qorxusu) təcəllasının üstün olması səbəbi ilə hər zaman son nəfəsdə nə halda olacağının narahatlığını hiss etmişdir.

Allaha aid elm haqqında bildiyimiz məlumat bu elmin hər şeydən öncə peyğəmbərlərdəki və bir az da olsa, qisməti olan vəli qullardakı müxtəlif təcəllalarından, sözlə ifadə etmək mümkün olsa, bir qırıntı sayıla biləcək paylardır. Bu elmin mütləq həqiqəti uca Allahın yanında olduğundan onu həqiqi mənası ilə qavraya bilmək bizim idrakımızın ölçülərindən kənarda olan bir keyfiyyətdir.



Duyma qabiliyyəti pərdələrin arxasında olanları, yəni uzaq məsafələrin sirrini müşahidə edə bilməkdir. Çünki sədəfin içinə baxa bilənlər incilərin fərqinə vara bilərlər.




2. FƏRASƏT

Fərasət, uca Allahın sevdiyi bəndələrinin qəlbinə lütf etdiyi bir nurdur. Yəni ağıllı olmaq, üstün zəka, sezmək, bilmək və anlamaq kimi halların mənəvi bir idrak qabiliyyəti olaraq qəlbdə ortaya çıxmasıdır. Qəlbə doğan səmimi hisslər və nail olunan ilhamlar hesabına hadisələrin iç üzü, zehnlərdən və qəlblərdən keçənləri doğru bilmək və anlamaqdır.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Möminin fərasətindən özünüzü gözləyin, çünki o Allahın nuru ilə baxar.» (Tirmizi, «Təfsir», 15)

Şübhəsiz ki, bu fərasət nəfsinin qürurundan sıyrılıb Allahın nuru ilə baxanlar nail ola bilərlər. İslam tarixində bu halın bir çox misalı var:

«Həzrət Ənəs (r.a) özünün rəvayət etdiyinə görə bir gün həzrət Osmanın (r.a) yanına gedərkən yolda bir qadın görür. Qadının gözəlliyinə heyran olur. Bu düşüncə ilə həzrət Osmanın yanına gedir. Onu görən həzrət Osman (r.a) belə deyir:



- Ey Ənəs! Gözlərində zina izləri olduğu halda mənim yanıma gəlirsən!

Bu sözdən çaşan Ənəs (r.a) heyrət içində belə deyir:

- Allahın Rəsulundan sonra da vəhy gəlirmi?

Həzrət Osman (r.a) buyurur:

- Xeyr, bu bir bəsirət və doğru olan fərasətdir.»[19]

Həzrət Ömərin (r.a) bir çox məsələlərlə bağlı rəyinin daha sonra gələn ayələrlə uyğun olduğu da məşhurdur.

Belə ki, Peyğəmbərimiz buyurmuşdur:

«Sizdən öncə yaşamış ümmətlər içində onlara ilham olunan şəxslər var idi. Əgər ümmətimin içində də onlardan biri varsa, heç şübhəsiz, o, Ömərdir.» (Buxari, «Əshabün-Nəbi», 6)

Əbu Abbas bin Mehdi belə anladır:

«Səhrada yol gedərkən yanında su qabı olmayan, başı açıq və ayağı yalın bir şəxsin məndən irəlidə getdiyini gördüm. Öz-özümə dedim ki, görəsən, bu adam namazını necə qılır. Çünki bu adamda dəstəmaz və namaza aid bir şey yoxdur, deyə düşündüm. Belə fikirləşərkən adam mənə tərəf döndü və bu ayəni oxudu:

«Bilin ki, Allah içinizdə olanları bilir, buna görə də Ondan çəkinin.» (əl-Bəqərə, 2/235)

Bu zaman özümdən gedərək yerə yıxıldım. Özümə gələndə o şəxsə belə nəzərlə baxdığım üçün Allahdan əfv istədim və yoluma davam etdim. Yolda gedərkən o şəxsi yenə gördüm. Onu görəndə içim bir heybət hissi ilə doldu. Yerimdə dondum. Adam mənə tərəf döndü və bu ayəni oxudu:

«O, bəndələrinin tövbəsini qəbul edər, günahlarını bağışlayar və etdiklərini bilər.» (əş-Şura, 42/ 25) Sonra o şəxs gözdən qeyb oldu və bir daha onu görə bilmədim.»

19. Kuşeyri, «Risalə», 238.



Zünnun Misri də -qüddisə sirruh- belə anladır:

«Bir gün əynində köhnə və yamaqlı paltar olan bir gənc gördüm. Nəfsim ondan nifrət etsə də, qəlbim onun vəli olduğuna şahidlik edirdi. Nəfsim ilə qəlbim arasında qalıb, düşünməyə başladığım zaman gənc mənim sirrimi bildi və mənə baxaraq belə dedi:

«Ey Zünnun! Mənə paltarımın köhnəliyini görmək üçün baxma! İnci sədəfin içində olur». O gənc bu sözləri deyəndən sonra çıxıb getdi.»

Allah dostlarından həzrət Əbdülxaliq Gücdəvaninin söhbətinə ilk dəfə gələn və xristian olduğunu gizləyən bir gənc belə soruşdu:

- *«Möminin fərasətindən qorunun! Çünki o, Allahın nuru ilə baxar!»* hədisinin sirri nədir

Əbdülxaliq Gücdəvani ona cavab olaraq belə dedi:

- Belindəki zünnarı çıxart! (Xristianların bağladığı o küfr əlamətini aç!) İslam ol!

Bu duyma qabiliyyəti qarşısında gənc həzrət Pirin önündə şəhadət kəlməsini söylədi və müsəlman oldu».

Rəvayət edilir ki, Cüneyd Bağdadi də -qüddisə sirruh- müsəlman paltarı geyinmiş bir gəncin yəhudi olduğunu və yaxın günlərdə İslam ilə şərəflənəcəyini ilk baxışda duyma qabiliyyəti ilə təsbit etmişdir.

Bir sözlə, duyma qabiliyyəti qəlbdəki iman və təqva dərəcəsinə görə artıb-azalan ilahi bir nemətdir.



İstiqamət və çalışma saysız-hesabsız kəşf və kəramətdən üstündür. Bilmək lazımdır ki, kəşf və kəramət dinin əmrlərinə əməl etməyə yol açmırsa, bəla və fitnədən başqa bir şey deyil.

(Mövlana Xalid Bağdadi)




3. TƏSƏRRÜF-KƏRAMƏT

Mütləq qadir olan uca Allah bir şeyi istədiyi zaman ona «**Kun**!», yəni «Ol!» deyər və o iş olar. Buna baxmayaraq, uca Allah ilahi istəyinə uyğun olaraq bəzi hadisələrin təsərrüf səlahiyyətini bir sıra bəndələrinə vermişdir. Həqiqət budur ki, o səlahiyyətlər Rəbbimizin yaradıcı sifəti ilə o işə daxil olmadığı müddətdə gerçəkləşə bilməz. Ancaq uca Allah belə səlahiyyətlərdə bir sıra bəndələrini vasitə etmişdir. Dörd böyük mələkdə olduğu kimi.

Məsələn, bu mələklərdən Cəbrail -əleyhissalam- vəhyi peyğəmbərlərə bildirməklə, Mikail -əleyhissalam- təbiət hadisələrini sövq və idarə etməklə, Əzrail -əleyhissalam- can almaqla, İsrafil -əleyhissalam- isə Sura üfürməklə vəzifələndirilmişdir.

Əlbəttə, uca Allah bu vəzifələri o mələkələrə ehtiyac olmadan da birbaşa gerçəkləşdirə bilərdi. Ancaq uca Allah ilahi iradəsi ilə onlara belə bir vəzifə və səlahiyyət vermişdir. Mələklərin güc və qüdrəti də, əsasən, uca Allahın qüdrətinə bağlıdır. O gücü onlara verən uca Allahdır. Bütün yaradılmışların güc və səlahiyyəti də bunun kimidir.

Uca Allah peyğəmbərlərinə də bir sıra idarə etmə səlahiyyətləri vermişdir. Bunların arasında Süleymanın -əleyhissalam- heyvanların dilini bilməsi, küləklərə və cinlərə hökm etməsi məşhurdur.

Peyğəmbərlərin İmamı, Kainatın Fəxri olan Peyğəmbərimizə -səllallahu əleyhi və səlləm- də bir çox müstəsna səlahiyyətlər lütf edilmişdir. Onun ümmətinin seçilmiş olanlarından bəziləri də bu lütflərdən uca Allahın verdiyi qədər pay almışlar. Məsələn, Əbdülqadir Geylani, Əhməd ər-Rifai kimi bir sıra böyük vəlilərin istər həyatlarında, istərsə də vəfat etdikdən sonra bəzi qeyri-adi işlər gördükləri bilinir.

Səlahiyyət hər hansı bir fərddə onun birbaşa öz iradəsi ilə baş verməyən, eyni ilə bütün başqa hadisələrdə olduğu kimi uca Allahın (Xaliq) sifətini təcəlla etdirərək o işə daxil olması ilə olur. Yəni səlahiyyətin başqa hər hansı bir hadisədən fərqi yoxdur. Fərq onun istisna olmasındadır. Yəni hər qula verilməməsindədir.

❁

Səlahiyyətin bir növü olan kəramət uca Allahın bir neməti olaraq kamil bir iman, mərifət və təqva nəticəsində vəli qullarda özünü göstərən və təbiət qanunları ilə izahı mümkün olmayan, metafizik, xariqüladə hadisələrdir. Bu kəramətin həqiqi olmayan, görünüşdə olan hissəsini təşkil edir. Allah dostlarının nəzərində əsas kəramət isə istiqamət üzrə yaşamaqdır. Haqq dostları nail olduqları bu mənəvi səlahiyyətlə düşüncə, fikir və hətta, davranış baxımından başqa insanlardan fərqlidirlər.

Bu izahdan da anlaşıldığı kimi övliyadan zühur edən kəramətlər iki qisimdir:

1. Mənəvi kəramət: Elm, əxlaq, ibadət, mərifət və təqvada irəli getmək, mənəvi səviyyəyə yüksəlmək **«Əmr edildiyi kimi, düz** (yolda) **ol!»** (Hud, 11/112) ayeyi-kəriməsinin məzmunundan bir pay ala bilməkdir. Yəni istiqamətdir. Məsələn, istiqamət üzrə olan bir vəlinin ağzından çıxan sözlər hikmət və irşad olduğu halda, o sözlər elə bir üslub ilə deyilir ki, müxatəblərdən heç kimsənin könlünü incitməz.

Hətta, o sözlər qarşısındakının xətasını göstərərək xəbərdarlıq mahiyyətində olsa belə.

Bunları ağıl və düşüncə ilə əldə etmək mümkün deyil. Uca Allah bunu ancaq seçdiyi bəndələrinə ehsan edər.

2. Kövni və suri kəramət: Məkanı, məsafəni bir anın içərisində qət etmək, ortada olmayan əşyanı göz önünə gətirmək, vəhşi heyvanlara iş gördürmək və başqa bu kimi maddi aləmdə meydana gələn qeyri-adi hadisələrdir.

Həqiqi təsəvvüf əhli belə kəramətlərə çox etibar etməz. Çünki belə bir kəramətin baş verməsi vəli olmağın şərtlərindən deyil. Allah təala bu tip səlahiyyətləri də seçdiyi bəzi bəndələrinə lütf edər. Ancaq bu tip kəraməti zərurət olmadan üzə çıxarmağın xoş bir şey olmadığı ifadə edilmişdir. Bir vəli də mümkün qədər belə bir kəraməti üzə çıxarmaq istəməz. Çünki xalq belə kəramətə heyran olar, onu alqışlayar. Cahil şəxslər artıq hər şeyi o vəlidən gözləməyə başlayarlar.

Xalq bu kəramət növlərindən ikincisinə rəğbət etsə də, əslində, məqbul olan birincisidir. Çünki təsəvvüf əhli belə bir ortaq fikir formalaşdırmışdır: «Ən böyük kəramət istiqamətdir.» İstiqamət üzrə olmayan bir salikin cəhdləri isə boş bir şeydir.

Həzrət Mövlana Xalid Bağdadi belə buyurur:

«İstiqamət və çalışma saysız-hesabsız kəşf və kəramətdən üstündür. Bilmək lazımdır ki, kəşf və kəramət dinin əmrlərinə əməl etməyə yol açmırsa, bəla və fitnədən başqa bir şey deyil».

Kəramətlərin ülvi bir qayəsi var. Bu da üz tutduğu insanları əgər belə demək mümkünsə, «şok təsiri ilə» istiqamətə yönləndirməkdir. Ancaq din ilahi mükəlləfiyyətlərdən (vəzifələrdən) ibarətdir. Qiyamətədək də bu xüsusiyyəti ilə davam edəcək. Fövqəladə hadisələr isə dinin bu xüsusiyyətinə zərər verir. Buna görə də məcbur olmadıqca nə peyğəmbərlər möcüzəyə baş vurmuş, nə də vəlilər kəramət göstərmişlər.

Həqiqi bir kəramətin, ümumiyyətlə, bu nəticələri olur:

1. Nəfsi tərbiyə etməsi,

2. Qəlbin çirkin xasiyyət və təmayüllərdən təmizlənib ilahi feyz ilə dolması,

3. Sirlərin və hikmətlərin qəlbə əyan olması.

Başqa yöndən, kəramətlərin meydana gəlməsində ən önəmli vasitələrdən biri də uca Allahın quluna sirri olaraq bildirdiyi **«ismi-əzəm»**dir. İlahi nemətlər bəhsində önəmli bir mövqeyi olan «ismi-əzəm» mövzusuna da qısaca toxunmaq istəyirik.

«İsmi-əzəm» onunla edilən duanı məqbul edən ilahi adlardan biridir. Ancaq bunun uca Allahın adlarından hansı olduğu bir sirrdir və bu məsələ ilə bağlı bir çox rəvayətlər var. Bunların arasında uca Allahın zatının adı olan və bütün adları özündə toplayan «Allah» ləfzinin «ismi-əzəm» olduğu görüşü güclüdür.

Bu məsələdəki fikirlərdən biri də belədir: Uca Allah insan oğluna bir ruh üfürərək ona qüdrətindən bir pay lütf etdiyi üçün ilahi adlarının ən əhatəli təcəllasını «insan»da gerçəkləşdirmişdir. Kamil insan fitrətində bir güc kimi mövcud olan bu ilahi adları bir gücdən əmələ çevirərək Allahın əxlaqı ilə tərbiyə olunmaq bəxtiyarlığına qovuşa bilən şəxsdir. Başqa sözlə, bir bəndədə hansı ilahi adın təcəllası qalibdirsə o şəxs üçün onun ismi-əzəm olduğu söylənilir. Yəni mərhəmət və şəfqət duyğuları inkişaf etmiş olan bir bəndədə uca Rəbbimizin «Rəhman» və «Rəhim» adlarının təcəllası hakimdir. Başqa sözlə, belə bir şəxs üçün bu adlar ismi-əzəm sayılmışdır.

Ancaq əsl mərifət uca Allahın gözəl adlarının mahiyyətini yaşanan bir əxlaqa çevirməkdir. Belə olmasa idi, bir çox insan ismi-əzəmi kitablardan, ya da əzbərdən oxuyardı. O halda dil, «Ey Rəhman, ey Rəhim!..» deyərkən qəlbin mərhəmətdən payı yoxdursa, arzu edilən şeyin əldə edilməsini gözləmək boş bir şeydir.

Bu məsələ ilə bağlı həzrət Əli (r.a) ilə bir bədəvi arasında baş verən bu hadisə çox ibrətlidir:



«Bir gün kasıb bir bədəvi həzrət Əlidən sədəqə istəyir. Həzrət Əli (r.a) o anda başqa bir imkanı olmadığından yerdən bir ovuc qum götürür və nə isə oxuyaraq quma üfürür. Bundan sonra bunları bədəvinin ovucuna qızıl olaraq tökür. Bədəvi heyrətlər içində qalır. Bunun necə olduğunu, ovcundakı quma nə oxuduğunu ona da söyləməsi üçün həzrət Əliyə yalvarır. Həzrət Əli (r.a) isə çox sakit bir şəkildə oxuduğunun «Fatihə» surəsi olduğunu söyləyir. Bundan sonra sevinclə yerdən bir ovuc qum götürən bədəvi «Fatihə» surəsini oxuyub quma üfürür. Ancaq qum heç dəyişmir. Bədəvi, həzrət Əlidən bunun hikmətini soruşur. Həzrət Əli isə işin mahiyyətini belə xülasə edir:

«Bu, bir qəlb fərqidir.»

Həzrət Mövlana da «Məsnəvi»sində belə bir hekayə danışır:

«Bir gün həzrət İsaya -əleyhissalam- bir şəxs yol yoldaşı olur. Onlar birgə gedərkən bu şəxs bir küncdə sümük parçaları görmüş və həzrət İsaya yalvararaq belə demişdir:

- Nə olar, ey İsa! Bildiyin ismi-əzəmi mənə də öyrət ki, mən də bu sümükləri dirildim.

Həzrət İsa ona cavab olaraq belə buyurur:

- O işə sənin gücün çatmaz. İsmi-əzəmi oxuyub ölünü diriltmək üçün yağışdan daha təmiz bir nəfəs sahibi, qulluqda mələklərdən daha anlayışlı bir insan olmaq zəruridir. İsmi-əzəm təmiz bir dil və təmiz bir qəlb istəyər. Yəni elə bir şəxs ki, nəfsi haram ilə qaralmış olmasın və mələklər kimi üsyan və günahdan təmiz olsun. Çünki bir şəxsin nəfsi pak olarsa, o şəxsin duası qəbul olar. Uca Allah o şəxsə xəzinələrini əmanət edər. Məsələn, fərz edək ki, sən həzrət Musanın əsasını əlində tuta bilərsən. Ancaq Musadakı güc səndə varmı ki, o əsanı əcdahaya çevirəsən və onu özünə tabe edə biləsən? Hətta, Musanın əsası əcdaha olanda onun özü belə qorxmuşdu və uca Allah ona: **«Qorxma, ey Musa!»** (ən-Nəml, 27/10) buyurmuşdu. Bu misalda olduğu kimi, səndə İsanın nəfəsi yoxdursa, ismi-əzəm oxuyub əzbərləməyin sənə nə faydası olar ki?,-dedi.



Ancaq qafil şəxs yenə sakitləşmədi və belə dedi:

- Ey İsa! Bu istedad məndə yoxdursa, barı sən o sümüklərin üzərinə ismi-əzəm oxu!

İsa -əleyhissalam- bu axmağın sözlərinə çox təəccüb etdi və belə dedi:

- Ey Rəbbim! Bu sirlərin hikməti nədir? Bu axmağın bu dərəcədə mübahisəyə meyil etməsi nədəndir? Onun qəlbi ölüdür, ancaq başqasının cəsədini diriltməyə çalışır. Ancaq onun vəzifəsi odur ki, ölü olan qəlbini diriltsin. O, özünü diriltmək üçün dua etmək əvəzinə, başqalarını diriltməyə çalışır. Bu nə qəflətdir!».

Həqiqi Haqq dostları könüllərində bu kamilliyə qovuşmuş şəxslərdir. Bu baxımdan Allahın vəli qullarından bir kəramət zühur etdiyi zaman onların Allahın lütf və nemətlərinə şükür duyğuları daha da artar. Onların bu halları apardıqları ağır mübarizədə özləri üçün bir güc qaynağı olur. Həqiqi vəlilər kəramətlərinə görə axirətlərinin təmin olunduğu hissinə əsla qapılmazlar. Əksinə, Allaha qarşı acizlik, təvazökarlıq və nəfslərini bir heç saymaq duyğuları ilə yaşayarlar. Təkəbbür, özündən razılıq və fitnəyə düşmək narahatçılığından əmin olmadıqlarına görə hər zaman qorxu içindədirlər.

Belə ki, uca Allahın -cəllə cəlaluhu- ona ismi-əzəm bildirdiyi Belam bin Bauranın kədərli aqibəti çox ibrətlidir. Bu şəxs İsrail oğulları içində alim və vəli bir şəxs olaraq tanınırdı. Ancaq sonradan təkəbbür və dünya nemətinə aldanma nəticəsində o yüksək halını itirdi, hətta, imansız olaraq öldü.

Bu hadisə Qurani-Kərimdə belə bildirilmişdir:

«(Ey Rəsulum!) **Onlara** (yəhudilərə) **ayələrimizi verdiyimiz kimsənin xəbərini də söylə** (oxu)**. O,** (ayələrimizi inkar edib) **imandan döndü. Şeytan onu özünə tabe etdi və o,** (haqq yoldan) **azanlardan oldu. Əgər Biz istəsəydik, onu** (həmin ayələrlə) **ucaldardıq. Ancaq o, yerə** (dünyaya) **meyil edib nəfsinin istəklərinə uydu. O elə bir körpəyə bənzəyir ki, üstünə cumsan da dilini çıxardıb ləhləyər, cummasan da.** (Onun üçün heç bir fərqi

yoxdur) **Bu, ayələrimizi yalan hesab edənlər barəsində çəkilən misaldır.** (Ey Peyğəmbərim!) **Bu əhvalatları** (yəhudilərə) **söylə ki, bəlkə,** (lazımınca) **düşünsünlər!»** (əl-Əraf, 7/175-176)

Kəramət sahibi olan bir vəliyə həddən artıq iltifat göstərmək yuxarıda deyilən səbəbə görə son dərəcə ziyanlı və təhlükəli sayılmışdır. Haqq dostlarının kəramət göstərməkdən çəkinmələrinin səbəblərindən biri də bu təhlükədir. Kəramət son sayılan bir mərtəbə deyil və vəlinin mənəvi dərəcəsini göstərməz. O Haqq dostları çox yaxşı bilirlər ki, peyğəmbərlərdən başqa, heç kimsə təminat altında deyil. Elə İnsan vardır ki, cəhənnəmə bir qarış qalarkən cənnətə girmişdir. Eləsi də var ki, cənnətə bir qarış qalmış cəhənnəmə yuvarlanmışdır. O halda hər bir mömin bu ayeyi-kəriməni həyat düsturu etməlidir:

«… Yəqin (ölüm) **gələnədək Rəbbinə qulluq et!»** (əl-Hicr, 15/99)

Bütün məsələlərdə olduğu kimi, kəramət şəklində özünü göstərən belə ilahi lütflər qarşısında da yeganə ölçümüz Quran və sünnədir. Bununla birlikdə, kəramətin inkaredilməz bir şəkildə haqq və həqiqət olduğu da bir gerçəklikdir.

Belə ki, kəramətin Qurandakı dəlillərindən bir neçəsi belədir:

Süleymana -əleyhissalam-, vəziri Əsaf, Səbə ölkəsinin başçısı Bəlkisin taxtı haqqında:

«Mən onu sənə bir göz qırpımında gətirərəm…» (ən-Nəml, 27/40), demiş və bu da gerçəkləşmişdir.

Zəkəriyyə -əleyhissalam- məbədə qapanıb ibadətlə məşğul olan həzrət Məryəmə himayədarlıq etməyə borclu idi. Bu onun vəzifəsi idi. Ancaq o, hər zaman məbədə girəndə həzrət Məryəmin yanında müxtəlif ruzilər görürdü. Bunun hikmətini öyrənmək üçün həzrət Məryəmdən soruşdu:

«- Bu ruzilər sənə haradan gəlir?

Həzrət Məryəm belə cavab vermişdir:

-Allah yanından…» (Ali-İmran, 3/37)

«Ali-İmran» surəsinin 24 və 25-ci ayələrindəki həzrət Məryəmə həqiqətən Allah tərəfindən ruzi verilməsi ilə bağlı xəbərlər kəramətin Qurandakı dəlillərindəndir.

Kəramətin sünnədəki dəlilləri isə çoxdur. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Üç şəxs hələ beşikdə olarkən danışmışdır. Bunlar Məryəm oğlu İsa, Cüreycə aid edilən uşaq və başqa bir uşaqdır».

Peyğəmbər sonra bunları izah etmişdir.[20] Başqa bir sağlam hədisdə də səfərə çıxmış olan üç şəxsin gecə vaxtı sığındıqları bir mağarada çıxılmaz vəziyyətdə qaldıqları anladılmışdır. Mağaranın girişi yuvarlanan bir qaya ilə örtülmüş, yolçulardan hər biri Allah rizası üçün etdiyi bir əmələ sığınaraq dua etmiş və nəticədə meydana gələn ilahi lütf ilə mağaranın giriş qapısı açılmışdır.[21]

Rəvayətə görə, Ömər (r.a) minbərdə xalqa xütbə oxuyarkən «Ey Sariyə, dağa, dağa!» - deyə səslənmişdir. Xütbədəki mövzu ilə heç bir əlaqəsi olmayan bu sözü söylədiyi zaman Sariyə Mədinəyə bir aylıq yol olan bir yerdə Allah düşmənləri ilə döyüşürdü. Ancaq Allah -cəllə cəlaluhu-, Ömərin (r.a) səsini Sariyəyə eşitdirmişdir. (İbn Hacər, «əl-İsabə», II, 3)

Buna bənzər misallar səhabə dövründə çoxdur.

Başqa yöndən kəramətin ziddi olaraq kafir, fasiq və vəli olmadığı halda özünü vəli kimi göstərən şəxslərdən övliyanın kəramətinə bənzər bir sıra qeyri-adi hadisələr baş vermişdir. Bunların iddialarına uyğun olaraq meydana gələn qeyri-adi hadisələrə də **istidrac** deyilmişdir.

Belə hallar bir sıra ruhi məşqlər hesabına gerçəkləşir. Yəni ruhdakı bəzi qabiliyyətləri dinə daxil olmayan bir sıra təsirlərlə potensial bir imkandan konkret bir əmələ çevirmək mümkündür. Məsələn, Hind yoxsulları da çox zaman çətinliklər yolu ilə bir ruhi güc

20. Baxın, Müslim, «Birr», 8.

21. Baxın, Buxari, «Ədəb», 5; «Ənbiya», 53; «Zikr», 100.

qazana bilirlər. Bəzən də bu sehr, ya da cinlərdən «huddam»[22] istifadə etmək şəklində baş verir. Belə qeyri-adi hadisələrin kəramətdən fərqini anlaya bilmək elmin işidir. Ancaq bir məsələni söyləyək ki, belələrinin həyatı təqva ölçüləri içində olmur. Bunların Rəsulullahın sünnəsinə bağlılığı qüsurludur. İlk diqqət ediləcək nöqtə də budur.

Belə ki, Cüneyd Bağdadi -qüddisə sirruh- buyurur:

«Bir şəxsi havada uçarkən görsəniz, əgər onun halı kitab və sünnəyə uyğun deyilsə, bu bir istidracdır».

İlahi bir nemətə nail olaraq hər hansı bir qeyri-adi hadisəni öz varlığında hiss etdiyini söyləyən şəxs bunu bir göstəriş ədası ilə nümayiş etdirməz. Çünki gerçək Haqq dostları özünü göstərməkdən uzaq olduqları üçün çox məcbur olmasalar, kəramət göstərməzlər. Onlar insanlara örnək alına biləcək bəşəri əxlaq mükəmməlliyi ilə görünərlər. Peyğəmbərin -səllallahu əleyhi və səlləm- ümmətinə mükəmməl bir nümunə ola bilmək üçün, ümumiyyətlə, bəşəri təmayüllərin ehtiyacına uyğun hərəkət edib, yalnız zəruri hallarda Allahın icazəsi ilə nadir bir hadisə olaraq möcüzə göstərməsi kimi. Allah dostları da Rəsulullahın -səllallahu əleyhi və səlləm- yolundan zərrə qədər ayrılmazlar. Kəramət ilə istidracın fərqini qavraya bilmək üçün sadəcə bu məsələyə diqqət yetirmək kifayətdir.

Firon da istidrac sahibi olanlardan idi. Dörd yüz illik ömründə bir dəfə olsun belə, başı ağrımamışdı. Dişləri də sağlam idi. O yoxuşdan aşağı enərkən atının ön ayaqları uzanardı.

Istidrac kafir və fasiqə təkəbbür və özündən razılıq duyğusu verir. Onun aqibətini çox pis hala gətirir. Musa -əleyhissəlam, Qırmızı dənizə əsasını vurub, Allahın icazəsi ilə yol açdı. Onların arxasınca gələn Firon əsgərlərinə tərəf dönüb belə dedi: «Baxın! Qüdrətimdən dəniz bir yola çevrildi.»

Halbuki, o yola daxil olan kimi, yol yenə dənizə çevrildi. Firon əsgərləri ilə birgə həlak oldu.

22. Bəlli olan bir şeyi oxumaqla bir cinin itaət altına alınması və xidmətçi kimi istifadə edilməsi mümkündür. Belə cinlərə «huddam» deyilir. Huddam, onu özünə bağlamış olan insanın hər əmrini qabiliyyəti ölçüsündə yerinə yetirir.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- hədisi-şəriflərində Dəccalın da bir çox istidrac göstərərək insanları aldatmağa çalışacağını bildirmişdir.

Bir də istidrac sahibinin iddiasının əksinə ortaya çıxan hallar vardır ki, buna da «ihanə» (zəlil etmə) adı verilir. Məsələn, peyğəmbərlik iddiasında olan bir yalançı Müseyləmətül-Kəzzab quyudakı suyun çoxalması üçün quyuya tüpürmüş, ancaq quyunun suyu tamamilə qurumuşdur.

Rəsulullah -səllallahu əleyhi və səlləm- və əshabi-kiram dövründə səlahiyyət və kəramətlərin gerçəkləşməsi necə mümkün olmuşsa, sonrakı dönəmlərdə meydana gəlməsi də imkan daxilindədir. Vəlilərin bir qisim insanların iradələrinə yön vermək məqsədi ilə göstərdikləri səlahiyyət və kəramətlər tabe olduqları Peyğəmbərin bərəkətindəndir və eyni zamanda onun möcüzələrinin bir növ davamıdır.

İstər səadət əsrində, istərsə də daha sonrakı zamanlarda baş verən səlahiyyət və kəramətlərin bir çox şəxslərin doğru yolu tapmasına vəsilə olduğu tarixi bir gerçəklikdir. Belə ki, belə hadisələrə şahid olan bir çox şəxs: «Vəlisi belə olan bir dinin, kim bilir Nəbisi necə olar!», deyərək kəramətin əsl mərkəzini dəstəkləmişlər.

Təsərrüf və kəramətə aid olan bir sıra xüsusi örnəklər:

Kainatın Yaradıcısı və Maliki olan uca Allah öz varlığını bilməsi, ibadət və itaət etməsi və yer üzünü gözəl bir məkana çevirməsi üçün yaradılmışların ən şərəflisi olaraq insanı özünə xəlifə təyin etdi. Ayeyi-kərimədə bu gerçək belə ifadə edilmişdir:

«(Ey Rəsulum!) **Sənin Rəbbin mələklərə: «Mən yer üzündə bir xəlifə yaradacağam»,- dedi…»** (əl-Bəqərə, 2/30)

Bu ayədə insanın «xəlifə» seçilməsi aşağıdakı mənaları ifadə edir:

«Öz iradəmdən, qüdrət və sifətimdən ona bir sıra səlahiyyətlər verəcəyəm. O, mənə bağlı qalaraq, mənə vəkil olaraq yaratdıqlarım

üzərində bir sıra təsərrüf səlahiyyətinə sahib olacaq. Mənim adımdan ehkamımı icra edəcək. O bu məsələdə əsl deyil, öz zatı və şəxsi adından ehkamı icra edəcək deyil, ancaq mənim bir naibim və vəkilim olacaq. İradəsi ilə mənim iradəmi, mənim əmrlərimi, mənim qanunlarımı tətbiq etməyə borclu olacaq. Sonra onun ardınca gələnlər və ona xələf olaraq eyni vəzifəni yerinə yetirənlər olacaq:

«O (uca Allah) **sizi yer üzündə xəlifələr etdi»** (əl-Ənam, 6/165) sirri zahir olacaq». (Elmalılı, «Hak Dini», I, 299-300)

İstər peyğəmbərlərdə özünü göstərən səlahiyyət və möcüzələr, istərsə də Haqq dostlarında özünü göstərən səlahiyyət və kəramətlər insanın bu xəlifə olmaq sirrinin bir təcəllasıdır. Bu təcəllaların saysız-hesabsız misallarından bir neçəsi belədir:

«Mənsur bin Abdulla, Əbu Abdullah İbn Cəllanın halını belə rəvayət etmişdir:

İbn Cəlla deyir ki, Mədineyi-Münəvvərə getmişdim. Yoxsul idim. Rəsulullahın -səllallahu əleyhi və səlləm- mübarək qəbrinin yanına getdim. Salam verdim və belə dedim:

- Ey Allahın Rəsulu! Yoxsulluq və ehtiyac içərisindəyəm!.. Sənə qonaq oldum…

Bir müddət sonra yatdım. Yuxuda Rəsulullah -səllallahu əleyhi və səlləm- mənə bir çörək verdi. Çörəyin yarısını yedim, sonra oyandım. Gördüm ki, çörəyin o biri yarısı yanımdadır.»[23]

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- vəfatından sonra baş vermiş bir hadisənin hikmətini əl-Utbi belə anladır:

«Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- mübarək qəbrinin yanında oturmuşdum. Qəflətən bir bədəvi gələrək belə dedi: «Sənə salam olsun, ey Allahın Rəsulu! Mən uca Allahın: **«…Əgər onlar özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsə idi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli**

23. Baxın, Kəlabazi, «Taarruf», tərcümə edən S. Uludağ, s. 214.

olduğunu bilərdilər» (ən-Nisa, 4/64) buyurduğunu eşitdim. İndi mən günahlarımdan tövbə edib, bağışlanma istəyərək və mənim üçün Rəbbimə şəfaət etməyini istəyərək sənin yanına gəldim»-dedi.

Sonra o bədəvi ürəkdən bir şeir oxudu və oradan ayrıldı. Bu zaman mən yuxuya getdim. Yuxumda həzrət Peyğəmbəri -səllallahu əleyhi və səlləm- gördüm. O, mənə belə buyurdu:

«Ey Utbi! Bədəviyə çat və Allahın onu bağışladığını ona müjdələ!». (İbn Kəsir, «Təfsir», I, 532)

❁

Çanaqqala müharibəsinin çox şiddətli olduğu bir mərhələdə minbaşı Lütfi Bəy:

«Yetiş, ey Məhəmməd! Kitabın əldən gedir!..»[24], deyərək fəryad edir, həzrət Peyğəmbərdən –səllallahu əleyhi və səlləm- yardım istəyirdi. Allah Rəsulundan ixlas və səmimiyyətlə tələb edilən bu yardımın nə şəkildə təzahür etdiyini aşağıdakı hadisə qəti olaraq təsdiq edir:

«1928 -ci il… Çanaqqala zəfərindən düz on üç il keçmişdir.

Alim, arif və zərif insan olan Alasonyalı Camal Öyüt Xocaəfəndi Həccə gedir. O, Mədinədə bir çox dəyərli şəxslərlə tanış olmaq fürsəti tapır. Bu mübarək şəxslərdən biri də Peyğəmbərimizin – səllallahu əleyhi və səlləm- türbəsinə baxan şəxsdir. Bu Haqq dostu eyni zamanda bir sadiq Osmanlı dostudur. O ancaq «Osmanlı» deyər, başqa bir şey söyləməz. Camal Öyüt Xocaəfəndi bunun səbəbini soruşmaqdan özünü saxlaya bilmir və belə soruşur:

- Bu dərəcədə məhəbbətin səbəbi nədir?

Bu piri-fani olmuş nurani türbədar heç fikirləşmədən bu cavabı verir:

- Osmanlını İslam adına sevmək üçün bir xatirəm belə mənə bəsdir.

24. Baxın, Mehmed Niyazi, «Çanaqqala Məhşəri», s. 352-355.



Camal Öyüt Xocaəfəndinin israr etməsindən sonra o mübarək şəxs misilsiz xatirəsini belə anladır:

«1915-ci ildə olan Həcc ziyarətinə Hindistan alimlərindən bir şəxs də gəlmişdi. Bu şəxsin dərin bir dünyası var idi. O varlı bir Allah dostu idi. Həcdən sonra Rəsulullahın -səllallahu əleyhi və səlləm- qəbrini ziyarət etmək üçün Mədinəyə gəlmişdi. Çox kədərli idi. Gözünün yaşı durmadan axan bu mübarək şəxsdən kədərinin səbəbini soruşdum. Onun göz yaşları daha da artdı və o, bu cavabı verdi:

- Neçə illərdən sonra Aləmlərin Peyğəmbərini ziyarət etmək mənə nəsib oldu. Ancaq müşahidə etdim ki, Rəsulullah -səllallahu əleyhi və səlləm- öz yerində, məqamında deyil. Elə bildim ki, mənim qəlb gözüm kor olmuşdur. Rəsulullahın -səllallahu əleyhi və səlləm- varlığını hiss edə bilmirəm. Mədinəyə gələndən sonra bu düşüncələr məni rahat buraxmır və ona görə də pərişanam.

Yaşlı türbədar o gecə yuxusunda Allah Rəsulunu -səllallahu əleyhi və səlləm- görür. O, hindistanlı alimin danışdıqlarını xatırladır. Allah Rəsulu onu narahatlıqdan qurtarır və belə deyir:

«- *Bəli, onun hiss etdikləri doğrudur. Mən indi Mədinədə deyiləm. Çanaqqaladayam… Çətin vəziyyətdə olan əsgər övladlarımı tək qoymağa könlüm razı olmadı. İndi onlara yardım edirəm.»* (18 mart, 2001-ci il, Bazar günü, «Zaman» qəzeti)

Belə ki, ingilis general Hamiltonun Çanaqqala məğlubiyyəti ilə bağlı söylədiyi bu sözlər və etiraf yuxarıda deyilən fikirlərin, sanki bir şahididir:

«Bizi türklərin maddi gücü deyil, mənəvi gücü məğlub etmişdir. Çünki onların atmağa bir barıtı belə qalmamışdı. Ancaq biz göydən enən gücləri müşahidə etdik.»

Belə hadisələr uca Allahın peyğəmbərlərinə onlar vəfat etdikdən sonra da verdiyi bir səlahiyyətdir. Onlar qəbirlərində bizim dünyəvi informasiyalarla mahiyyətini dərk edə bilmədiyimiz bir şəkildə diridirlər. Belə ki, aşağıdakı hədisi-şərif də bunu açıq göstərir.



Evs bin Evsdən (r.a) rəvayət edildiyinə görə Rəsulullah -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Günlərin ən fəzilətlisi cümə günüdür. Ona görə də o gün mənə çoxlu salət və salam söyləyin. Çünki sizin salət və salamlarınız mənə çatdırılır.»

Bunu eşidən əshabi-kiram Ondan soruşdu:

- Ya Rəsulallah! Vəfat etdiyin və Səndən heç bir əsər-əlamət qalmadığı zaman salət və salamlarımız Sənə necə çatdırılır?

Buna cavab olaraq həzrət Məhəmməd -səllallahu əleyhi və səlləm- belə buyurdu:

«- Uca Allah Peyğəmbərlərin bədənlərini çürütməyi torpağa haram etdi.» (Əbu Davud, «Salət», 201; Baxın, Nəsai, «Cümə», 5)

Bu dirilik halı şəhidlərdə də təcəlla edir. Belə ki, uca Allah ayeyi-kərimədə belə buyurur:

«Allah yolunda öldürülənləri (şəhid olanları) **heç də ölü zənn etmə! Əsl həqiqətdə, onlar diridirlər. Onlara Rəbbi yanında ruzi** (cənnət ruzisi) **əta olunur…»** (Ali-İmran, 3/169)

Şübhəsiz ki, peyğəmbərlərdəki dirilik, şəhidlərdə olan diriliyə nisbətən daha üstündür.

❁

Peyğəmbər varisi olan Haqq dostlarında da səlahiyyət və kəramət təcəllaləri bu günümüzədək davam edir. Bunun da saysız-hesabsız misallarından bir neçəsi belədir:

«Həzrət Ubeydullah Əhrar Orta Asiyadan bir anın içərisində böyük məsafə qət edərək İstanbulun fəthində iştirak etmişdir. Bunu nəvəsinin oğlu Xacə Məhəmməd Qasım belə danışır: «Həzrət Ubeydullah Əhrar cümə axşamı günortadan sonra qəflətən atının hazırlanmasını əmr etdi. Atına minib sürətlə Səmərqənddən kənara çıxdı. Mövlana Şeyx adlı məşhur bir tələbəsi onu bir müddət təqib etdi. Həzrət Ubeydullah Əhrarın atının üzərində bir sağa, bir sola

meyil etdikdən sonra qeyb olduğu xəbərini verdi. Həzrət Ubeydullah Əhrar bir müddətdən sonra geri döndü. Tələbələri həyəcanla bu qəfil yolçuluğun hikmətini soruşdular. O da belə buyurdu:

- Türk sultanı Mehmed Xan məndən yardım istədi. Mən də Ona yardım etməyə getdim. Uca Allahın icazəsi ilə zəfər qismət oldu».

Xorasandan gəlib İstanbulu ziyarət edən pir Ubeydullah Əhrarın nəvəsi Xacə Əbdülhadi belə anladır:

«İstanbula getdiyim zaman Sultan II Bəyazid atam Ubeydullah Əhrarın üz cizgilərini, bədən quruluşunu təsvir etdi və belə anlatdı.

Atam Fateh anlatdı ki, fəthin ən şiddətli zamanında Rəbbimə yalvararaq zamanın qütbünün köməyə çatmasını istədim. Sadaladığım əlamətləri ilə bir ağ atın üzərində qarşıma gəldi və belə dedi:

- Qorxma, zəfər sənindir!

O pirə belə dedim:

- Kafirlərin əsgəri çoxdur!

O cübbəsini açaraq mənə dedi:

- İçinə bax!

Heyrətlə cübbəsinin astarının içində sel kimi axan bir ordu gördüm.

- Bu ordu sənə yardıma gəldi.

Davam etdi:

- İndi bu təpənin üzərində üç dəfə böyük davula toxmaq vur! Bütün əsgərlərə hücum əmri ver!

Mən də onun dediyi kimi etdim. O pir də ordusu ilə hücumda iştirak etdi. Parlaq fəth gerçəkləşdi…»[25]

Bir sözlə, Fatehin fəthi zamanı bütün övliyanın ruhaniyyət və yardımından faydalandığı tarixi bir gerçəklikdir.

25. Baxın, Mövlana Şeyx, «Mənaqibi-Xacə Ubeydullahi-Əhrar», vr. 4b-5a; Məcdi Mehmed, «Hadaiquş-Şəqaiq», s. 272-273; Molla Cami, «Nəfəhatül-Üns»,s. 764-765.

Xüsusilə, həzrət Ağşəmsəddinin maddi və mənəvi sahələrdə çox yardımı olmuşdur.

❀

Həzrət Əziz Mahmud Hüdayinin «səlahiyyət»i ilə bağlı baş vermiş bir hadisə belədir:[26]

1975-ci il. Günorta namazına yaxın bir vaxtda həzrət Pirin türbəsi önünə nur üzlü, qaraşın bədənli və bəstəboy bir gənc gəlmişdi. O an təsadüfən Əziz Mahmud Hüdayi məscidinin imamı ilə rastlaşdı və belə dedi:

- Mən Əziz Mahmud Hüdayini görməyə gəlmişəm! Onunla necə görüşə bilərəm? Görəsən, o indi buradadır?

Belə bir sual qarşısında çaşan İmam Məhərrəm Əfəndi dedi:

- Oğlum! Bəli, Əziz Mahmud Hüdayi buradadır.

Həzrət Pirin orada olduğunu eşidən gənc sevinclə dedi:

- Lütfən, məni onunla görüşdürərsinizmi?!

Ancaq bu sözlərə bir məna verə bilməyən Məhərrəm Əfəndi türbənin yanında olduqlarından bir də dedi:

- Oğlum! Əziz Mahmud Hüdayi buradadır!

Gənc də öz istəyini təkrar etdi:

- O zaman mənimlə görüşdür! Mən onunla görüşmək istəyirəm!

Məhərrəm Əfəndi hələ gəncin halından bir şey anlaya bilmədiyinə görə, məsələni həll etmək üçün soruşdu:

- Övladım! Sən Əziz Mahmud Hüdayini tanıyırsanmı?

Üzü kimi könlü də saf olan gənc sözün belə uzanmasına və müraciət etdiyi şəxsin niyə onu Mahmud Hüdayi ilə görüşdürmək istəmədiyinə heyrət edərək dedi:

26. Bu hadisəni İmam Xətibdə oxuduğum illərdə tələbəlik dostum olan əziz Mahmud Xüdayi məscidinin imamlarından Məhərrəm Kır Əfəndidən şəxsən dinlədim.

- Mən Əziz Mahmud Hüdayini yaxından tanıyıram. Məni buraya o dəvət etdi. Biz onunla ziyarətlə bağlı danışmışdıq. Onun mənim gələcəyimdən xəbəri var.

Sözün bu yerində Məhərrəm Əfəndi məsələnin fərqli və sirli nüansda olduğunu dərk etdi və maraqla soruşdu:

- Övladım! Siz necə danışdınız?

Gənc danışmağa başladı:

- Əzizim, mən 1974-cü ildə Kipr hərəkatında paraşütlə endirilən qrupda idim. Biz ordumuzun dənizdən, rumların da Beşbarmaq dağlarından qarşılıqlı mübarizələrini davam etdirdikləri bir zamanda paraşütlərlə yerə endik. Ancaq hava çox küləkli olduğundan hər birimiz bir tərəfə sovrulurduq. Mən də düşmən xəttinə düşdüm. Ağaclıq olan bir yerdə iki tərəfdən gələn bir cəhənnəm atəşi altında qaldım. Nə edəcəyimi bilmədim. Bu zaman böyük bir çaşqınlıq içində idim. O anda qarşımda uzun boylu, heybətli və nur üzlü bir qoca dayandı. Mənə gözəl və gülərüzlü bir sifət ilə baxdı və belə dedi:

- Oğlum! Bura düşmən xəttidir. Sənin burada nə işin var? Niyə təkbaşına bu xəttə daxil oldun?

Mən də:

- Ata! Mən gəlmədim, külək məni buraya atdı.

Nur üzlü qoca başını yüngülcə aşağı endirdi və belə dedi:

- Mən də müharibəyə gəldim. Sizdən əvvəl göndərildim. Buraları çox yaxşı tanıyıram. Hansı birlikdənsən? Gəl, səni onların yanına aparım!

Birlikdə dəhşətli bir atəş topu altında yola düşdük. O mübarək insan çox sakit halda gedirdi və onun bu halı mənə də rahatlıq verdi. Onun hər halı məni başqa bir çaşqınlığa yönəldirdi. Məndən adımı, haralı olduğumu və başqa bir çox suallar soruşdu. Mən də onun istədiyi cavabları verdikdən sonra çox maraqlanıb onun kim olduğunu soruşdum:

- Ata, bəs sən kimsən?

O da:

- Oğlum! Mənə Əziz Mahmud Hüdayi deyirlər.

Sonra:

- Ata! Sən mənə çox böyük bir yaxşılıq etdin! Əgər sağ-salamat ölkəmə qayıtsam, bir vəfa borcu olaraq səni ziyarət etmək istəyirəm. Ünvanını mənə verərsənmi?

O gözəl üzlü mübarək insan ünvan olaraq sadəcə belə dedi:

- Oğlum! Üsküdara gəlib kimdən soruşsan, məni sənə göstərər!

Bu zaman artıq üzvü olduğum birliyə çatmışdıq. Minnət, məhəbbət və hörmətlə bu gözəl İnsanın əlini öpdüm, onunla vidalaşdım. Sonra da komandirimin yanına getdim.

Məni bir anda qarşısında görən komandirim təəccübləndi. Mənim o atəş burulğanından necə xilas olub bölüyümə qovuşduğuma heyrət etdi və yuksək səslə soruşdu:

- Bura necə gəldin?

Mən də:

- Məni yaşlı, gözəl bir ata gətirdi,-dedim.

Müharibə bitdikdən sonra ölkəmə qayıtdım. Ancaq Əziz Mahmud Hüdayinin mənə etdiyi yaxşılıq heç bir zaman ağlımdan çıxmadığı üçün bir vəfa borcu olaraq, nəhayət, onu ziyarət etməyə niyyət etdim və Üsküdara gəldim. Soruşduğum şəxslər *«O mübarək bir insandır»*, - deyərək buranı göstərdilər.

Bu zaman susub, dərin bir nəfəs alan gənc Məhərrəm Əfəndiyə müraciət edərək öncəki istəyini təkrar etdi:

- Əzizim! Mən Əziz Mahmud Hüdayi ilə belə tanış oldum. Artıq mənə hörmət göstərərək onunla görüşdürün!

Beləliklə, məsələni bütün yönləri ilə öyrənən Məhərrəm Əfəndi şahid olduğu bu mənəvi mənzərə qarşısında çox həyəcanlandı. Sanki,



yalvararaq onun gözlərinin içinə baxan gəncə bir müddət heç nə demədi. Sonra da özünü ələ alıb yanıqlı bir səslə, sanki kəkələyərək bunları dedi:

- Övladım! Əziz Mahmud Hüdayi bu gün həyatda deyil. O, 1543-1628-ci illlər arasında yaşamış olan böyük bir Allah dostudur. Hər halda, səni buraya «Fatihə» oxumaq üçün çağırmış ola bilər! Bu da onun türbəsidir!

Bu cavabı eşidən vəfalı və imanlı gənc elə indicə öyrəndiyi bu həqiqətdən son dərəcə mütəəssir oldu. Özünü görmək niyət və həsrəti ilə gəldiyi və həyatını borclu olduğu böyük vəlinin sadəcə türbəsi ilə qarşılaşmışdı. Hərb sahəsinin o dəhşətli hadisələri içində yaşadığı mənəvi halların nə olduğunu yenicə dərk etməyə başladı və göz yaşları içərisində hıçqırdı. Əlləri ilə üzünü örtdü, uzun bir müddət hönkür-hönkür ağladı.

Hüdayi mehrabının imamı da ağlayırdı…

Haqq dostu həzrət Ramazanoğlu Mahmud Saminin söhbətində şəxsən eşitdiyimiz uşaqlıq illərinə aid bir xatirəsi də belə idi:

Özündən iki yaş kiçik bacısının ayaqları tutulmuşdu. Onların yaşadığı mühitdə xalqın istianə üçün çox müraciət etdiyi Kaplancı Baba adı ilə məşhur olan bir Haqq dostunun türbəsi var imiş. Bir gün anası və bacısı ilə birlikdə bu şəxsin türbəsini ziyarət etməyə getmişlər. O gecə də türbədə qalmışlar. Gecə vaxtı yatarkən ayağı iflic olan bacısının fəryadı ilə oyanmışlar. Anası qızından nə olduğunu soruşmuş, o isə həyəcanla:

- Türbədən bir qoca çıxdı və ayaqlarımdan tutaraq aşağıya doğru çəkdi, -demişdir.

Bu hadisəni danışan həzrət Sami Əfəndi bacısının o gündən başlayaraq ömrünün sonunadək ən kiçik bir ayaq ağrısı belə hiss etmədən yeridiyini ifadə etmişdir.

❁



Bütün bu deyilənlər və ona bənzər hadisələr uca Allahın bəzi bəndələrinə ehsan etdiyi təsərrüf səlahiyyətinin bərəkəti ilə yaşanan ilahi lütflərdir. Ancaq bunu da unutmamaq lazımdır ki, bu işlərin sahibi uca Allahdır. Onun bəndələrinə yardımı istər mələklər vasitəsilə, istərsə də Allahın vəli qulları vasitəsi ilə indi yaşadığımız dövrədək davam edərək gəlmişdir.

Möminin doğru yuxusu peyğəmbərliyin qırx altı hissəsindən biridir.

(Buxari, «Təbir», 26; Müslim, «Röya», 6)

1. SADİQ RÖYALAR

İlahi nemətlərdən biri də sadiq röyalardır. Sadiq röyalar həqiqətləri bilməyin yollarından biri olaraq qəbul edilir. Yuxu zamanı insanın maddi aləmlə əlaqəsi ən aşağı səviyyədə olur. Bədənə həbs edilmiş olan ruha aid hisslər güclənir. Ülvi mənzərələri pərdələyən nəfsaniyyət buludları dağılaraq görmə şəffaflaşır. Bu yolla yuxularında qeyb aləmini seyr etmək bir sıra saleh bəndələrə nəsib olur. Bu kəşflərin doğruluğu isə yuxudan ayılandan sonra müşahidə edilir.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Ümmətə peyğəmbərlikdən (peyğəmbərliyin xüsusiyyətlərindən) sadəcə mübəşşirat qalmışdır.»

Əshab:

- Mübəşşirat nədir, ey Rəsulullah? -deyə soruşdu.

- *Doğru yuxudur, deyə cavab verdi.»* (Buxari, «Təbir», 5; Müslim, «Salət», 207-208)

Doğru yuxu səmimi möminlərin könüllərinin yuxu zamanı ilahi müjdələrə və təlqinlərə açılmasıdır.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm:

«Onlar (Allah dostu olan möminlər) **üçün dünya həyatında da, axirətdə də müjdələr var!»** (Yunus, 10/64) ayəsində bəhs edilən «dünyadakı müjdə»ni izah etmək məqsədilə belə buyurmuşdur:

«Müsləmanın gördüyü, ya da ona göstərilən sadiq röyadır.» (Tirmizi, «Röya», 3)

Yuxu üç qisimdir:

1. Şeytani yuxular: Şeytanın insanı qorxutmaq, mənəvi sıxıntıya salmaq, ya da kədərləndirmək məqsədilə təlqin etdiyi yuxulardır. Yüksək bir yerdən yıxılmaq, ya da insana təsir göstərən qarışıqlıq, fəlakət səhnələri görmək kimi. Belə yuxuların bir əsası yoxdur. Belə bulanıq, bir hissəsi xatırlanan, qarışıq bir yuxu görən, gördüyünü heç kimə danışmamalıdır və şeytanın hiyləsindən Allaha sığınmalıdır.

2. Xarici bir təsirlə görülən yuxular: İnsanın hal və xəyalına bağlı olaraq yuxusuna əks edən mənzərələrdir. Məsələn, çox duzlu yemək yemiş olan bir şəxsin yuxuda çox su içməsi, ya da düşüncəsini çox məşğul edən bir məsələnin yuxusuna əks etməsi kimi. Bunların da yozumu yoxdur. Bu yuxular əsassızdır.

3. Sadiq röyalar: Belə yuxular dəqiq olaraq xatırlanır. Bunlar uca Allah tərəfindən ya müjdə, ya da xəbərdarlıq mahiyyəti daşıyır. Bunları vəzifəli bir qisim mələklər Lövhi-Məhfuzdan götürərək uca Allahın əmr və icazəsi ilə yatan insanın ruhuna təlqin edirlər.

Doğru yuxular Lövhi-məhfuzdan gələcəyə aid olan pırıltılardır. Peyğəmbərin -səllallahu əleyhi və səlləm- peyğəmbərliyinin başlanğıcında sadiq röyalar görməsi altı ayadək davam etmişdir.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Zaman yaxınlaşdıqca[27] möminin yuxusu demək olar ki, heç yalan olmaz. (Gördüyü kimi gerçəkləşər.) Möminin sadiq röyası pey-

27. Hədis şərhçiləri «zamanın yaxınlaşması» ifadəsini qiyamətə yaxın, ya da səhərə yaxın (səhər vaxtı) olaraq açıqlamışlar.



ğəmbərliyin qırx altı hissəsindən biridir. Peyğəmbərlikdən olan bir şey isə yalan olmaz.» (Buxari, «Təbir», 26; Müslim, «Röya», 6)[28]

Doğru yuxular onun əhli olanlar tərəfindən yozuma, yəni şifrələrinin açılmasına möhtacdır. Yuxu yozmaq da Haqq vergisi olan bir elmdir. Peyğəmbər -səllallahu əleyhi və səlləm- namazlardan sonra bəzən əshabın gördüyü yuxuları dinləyər, onları yozar, gələcəyə aid bu şəkildə özünü göstərən təcəllaləri izah edərdi.

Həqiqətən, yuxuları yozmaq bəzi qaydalara əsaslanan bir elmdir. Bu elmi bilənlərə də «muabbir» (yuxu yozan) deyilir. İnsanların istifadə etməsi üçün yuxu yozumu ilə bağlı bir çox əsər yazılmışdır. Bunlardan İbn Sirin və Muhyiddin Ərəbinin yuxu yozma kitabları məşhur olmuş və çox zaman onlardan iqtibas edilərək günümüzədək müxtəlif kitablar ortaya qoyulmuşdur. Bununla birgə, ancaq belə kitablarda mövcud olan məlumatlara əsasən yuxu yozmaq ziyanlıdır. Çünki yuxu yozmaq, əsasən, bir «kəşf»dir. Buna görə də, yuxunu yozanın mənəvi bir gücə sahib olması zəruridir. Əks halda, yanlış yozum nəticəsində təhlükələrlə üzləşmək olar.

Çünki Peyğəmbərimiz belə buyurmuşdur:

«... Yuxu onu ilk yozana görə anlaşılar.» (İbn Macə, «Təbir», 7)

Bu baxımdan yuxuları onun əhli olmayanlara danışmaq olmaz. Bu elmi bilənlər də belə demişlər:

«İlk yozum mühümdür. Sonrakıların əhəmiyyəti olmur.»

«Mizanun-Nüfus»[29] adlı risalədə anladıldığı kimi yuxu elmi «ənfusi» (subyektiv) və «afaqi» (obyektiv) olmaqla iki yerə ayrılır. Subyektiv olanını həm avam, həm də seçilmiş hər kəs öyrənə bilər. Yəni birindən eşitmək yolu ilə, ya da keçmişdə onun əhli olan şəxslərin yuxu yozmalarını müxtəlif əsərlərdən toplamaqla öyrənmək

28. Doğru yuxunun peyğəmbərliyin qırx altıda biri olması məsələsi belə açıqlanmışdır: həzrət Məhəmmədin -səllallahu əleyhi və səlləm- peyğəmbərliyi iyirmi üç il davam etmişdir. Peyğəmbərliyin ilk altı ayı doğru yuxular şəklində gerçəkləşdiyindən, bu altı ay iyirmi üç ilin qırx altıda birinə uyğun sayılmışdır.

29. Bəyazid məscidinin müəllimlərindən olan Hafiz Xulusiyə aid bir risalədir. Hicri 1305-ci ildə İstanbulda çap edilmişdir.



mümkündür. Bunun hesabına bir-birinə bənzəyən yuxular keçmiş təcrübələrə əsasən yozula bilər.

Yuxuda varlıqların hər biri lüğətdəki bir kəlmə kimidir. Yəni o sanki ayrı bir dildir. Bu dildə görülən varlığa aid edilən məna uzaq bir əlaqəyə əsaslanır. Yəni tamamilə sənədsiz və səbəbsiz deyil. Məsələn, ilan düşməndir. Bu məna Adəmin -əleyhissalam- hekayəsinə bağlıdır. Onda görünən hər hal və hərəkət düşmənə aid bir davranış kimi izah edilir. Ancaq bir ilan düz, ya da ölü kimi hərəkətsiz görülərsə, bu yol anlamına gəlir.

Başqa yöndən yuxu yozulmasında bir çox təsir edən faktorlar var. Günlər, mövsümlər, yuxunun görüldüyü gecə vaxtı və başqaları. Məsələn, qışda görülən yuxunun nəticələri gec ortaya çıxır, səhər vaxtı görülən yuxunun nəticəsi isə tez bilinir. Ancaq bu yozumlar yuxu sahibinin xarakteri fərqli olduğundan çox zaman nöqsanlı olur.

Obyektiv olan yuxu elmi isə ancaq seçilmiş insanlara məxsus olub kəşfə möhtacdır. Çünki yuxunun şeytani, yoxsa Rəhmani olduğunu seçə bilmək uca Allahdan gələn ilhamları qəbul etməyə bağlı olan bir keyfiyyətdir. Bundan başqa, insanların xarakteri də bir-birindən fərqli olduğu üçün eyni yuxunu görən iki şəxsin yuxusunun yozumu bir-birindən fərqli ola bilər. Bu incəliyi qavraya bilmək isə mənəvi bir səlahiyyət istəyir.

Belə ki, həzrət İbn Sirinin yanına iki şəxs gəlir. Onlar bildirirlər ki, yuxularında xətib olaraq xütbə oxuduqlarını görmüşlər. Həzrət İbn Sirin bu yuxunu görən şəxslərdən birinin Həccə gedəcəyini, o birisinin isə edam olunacağını bildirmişdir. Həqiqətən, bir müddət sonra o iki şəxsdən biri Həccə gedir, o birisi isə edam edilir.

Səadət əsrində baş verən bir hadisə belədir:

«Bir qadın yuxusunu yozmaq üçün Peyğəmbərimizə -səllallahu əleyhi və səlləm- müraciət edir. Qadın deyir ki, o, yuxusunda evinin orta dirəyinin qırılıb onun qarşısına düşdüyünü görmüşdür.

Rəsulullah -səllallahu əleyhi və səlləm- qadından ərinin olub-olmadığını və əgər varsa, harada olduğunu soruşur. Qadın ərinin səfərə

getdiyini və hələ geri dönmədiyini söyləyir. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- qadının ərinin sağ-salamat dönüb qayıdacağını və onların şad olacaqlarını müjdələyir. Bu yuxu Peyğəmbərin yozduğu kimi doğru çıxır.

Həzrət Əbu Bəkrin (r.a) xilafəti dövründə bu qadın yenə əri səfərdə olarkən eyni yuxunu görür. O, bu dəfə xəlifənin yanına gəlib yuxusunun yozulmasını istəyir. Həzrət Əbu Bəkr (r.a), Rəsulullah -səllallahu əleyhi və səlləm- kimi öncə qadından əri ilə bağlı məlumat alır və sonra qadına deyir ki, ərin səfərdə ölmüşdür.

Qadın isə təlaşa düşür və çaşqınlıq içində Əbu Bəkrə (r.a) belə deyir:

- Eyni yuxunu Rəsulullah -səllallahu əleyhi və səlləm- ərimin sağ-salamat dönəcəyi kimi yozmuşdu.

Həzrət Əbu Bəkr:

- Doğrudur, Ona elə kəşf olunmuş, mənə də belə ilham olundu,- buyurur.

Aradan çox keçmədən onun yozumunun doğru olduğu bilinir».

Yuxu zamanı ağıl və fikrin dərk edə bilmədiyi, xəyali və bilinməyən çox hallar müşahidə olunacağından bunların doğru yozulması çox çətin və hətta, mənəvi bir qabiliyyət olmadan mümkün deyildir.

Uca Allah, Qurani-Kərimdə Yusifə də -əleyhissalam- bu elmi verdiyini bildirmişdir.[30]

Belə ki, həzrət Yusif -əleyhissalam- bir çörəkçi ilə saray xidmətçisinin (su paylayan) yuxusunu dinləmişdi. Çörəkçi bir tabaq çörəyi başı üzərində apararkən havadan quşların hücum edib, çörəkləri yediyini anlatmış, Yusif də -əleyhissalam- bunu çörəkçinin padşah tərəfindən edam etdiriləcəyini və göydən quşların enib başının ətini yeyəcəyini söyləyərək yozmuşdur. Saray xidmətçisi də yuxusunda əvvəlki kimi sarayda padşaha xidmət etdiyini gördüyünü bildirmişdir. Yusif -əleyhissalam- onun yuxusunu belə yozmuşdur:

30. Baxın, «Yusuf» surəsi, 6-cı və 111-ci ayələr.

«Səni yenə padşah qəbul edəcək və sən onun xidmətçisi olacaqsan.»

Həqiqətən, bu kəşflər yozumda olduğu kimi doğru çıxmışdır.

Yuxarıda da ifadə etdiyimiz kimi, yuxu yozmaq elminin böyük bir qismi kəşfə bağlıdır. Bunun üçün də yuxu yozanın mənəvi bir dərəcədə olması zəruridir. Belə ki, İstanbul İmam Xətib Məktəbində oxuduğumuz zaman müəllimimiz olan mərhum Cəlaləddin Öktəm Xocaəfəndi vaxtı ilə yuxu yozumunda həqiqi bir ustad olmuşdur. O, yuxu yozumunun şəffaf və ruhani bir qəlb ilə edilə biləcəyini ifadə edir, yozumun doğruluğunu yuxu yozanın təqvasına bağlayırdı.

Rəhmətlik Cəlaləddin Öktəm gənclik illərində lisələrdə din dərsləri tədris edir və diri bir könüllə təqva üzrə bir həyat yaşayırdı. O illərdə doğru yuxu yozmaları ilə şöhrət tapmışdı. Belə doğru yuxu yozmalarına aid bir çox misal söylədikdən sonra müəllimimiz deyirdi ki:

«Elə bir zaman gəldi ki, bu pərdə mənim üçün örtüldü. Çünki din dərsləri ləğv edildi. Məni də fəlsəfə müəllimi təyin etdilər. Ağıl məhsulu olan fəlsəfi nəzəriyyələr içində üzməyə başlayanda könül bulaqlarım qurudu.»

Doğru yuxulara aid olan məşhur misallardan biri də belədir:

Məşhur «Qəsideyi-Bürdə» şairi İmam Busiri bir gün evinə gedərkən yolda nur üzlü bir piri-faniyə rast gəlir. Yaşlı şəxs ona deyir:

- Ey Busiri! Bu gecə yuxunda Rəsulullahı -səllallahu əleyhi və səlləm- gördünmü?

İmam Busiri:

- Xeyr, görmədim.

Piri-fani bu qısa söhbətdən sonra başqa bir şey demədən ayrılır. Ancaq onun bu sözləri imamın könlündəki həzrət Peyğəmbərə olan sev-gi və məhəbbəti coşdurur. O gecə imam yuxusunda həzrət Peyğəmbəri görür və yuxudan oyananda içinin sevinc və rahatlıqla dolduğunu hiss edir.

Bundan sonra Peyğəmbərimizi -səllallahu əleyhi və səlləm- öyən və bir çox Peyğəmbər aşiqlərini məhəbbət dəryasında yuyan bir çox məthiyyələr yazır.

Bir müddət sonra bədəninin yarısı iflic olur. O, yeriyə bilmir, hərəkət etməyi bacarmır. O zaman məşhur Qəsideyi-Bürdəni yazıb bununla uca Allahdan şəfa istəyir.

Qəsidəni bitirdiyi gecə yuxusunda həzrət Peyğəmbəri -səllallahu əleyhi və səlləm- görür və qəsidəni Ona oxuyur. Qəsidənin hamısını oxuyandan sonra Rəsulullah -səllallahu əleyhi və səlləm- mübarək əlləri ilə İmam Busirinin iflic olmuş bədən üzvlərini sığallayır. Çox dərin bir məhəbbətin təsiridir ki, İmam Busiri yuxudan oyandığı zaman xəstəliyinin yox olduğunu görür və Allaha şükür edir.

O gecənin səhəri sağlam olaraq sevinc içində məscidə gedərkən yolda həzrət Şeyx Əbur-Rəca ilə rastlaşır. Həzrət ona deyir:

- Ey Busiri! Aləmlərin Fəxrinə həsr etdiyin qəsidəni oxuyarsanmı?

İmam Busiri:

- Rəsulullahı -səllallahu əleyhi və səlləm- mədh edən qəsidələrim çoxdur. Hansını istəyirsən?

Şeyx Əbur-Rəca:

- Həzrət Peyğəmbərin hüzurunda oxuduğunu istəyirəm. Çünki Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- bu qəsidədən çox məmnun olduğunu gördüm.

Bu qəsidəni hələ heç kimin eşitmədiyini bilən İmam Busiri heyrətlənir.[31]

İslam aləmində çoxsaylı misalları olan kəşf, duyma qabiliyyəti, ilham və doğru yuxular vasitəsilə qeyb aləminə aid olan bir çox sirrin sadiq şəxslərə əyan olduğu bilinir.

Halbuki **«… Göylərdə və yerdə Allahdan başqa heç kim qeybi**

31. Baxın, İlhan Armutçuoğlu, «Qəsideyi-Bürdə», mənzum tərcüməsi, s. 7-10.

bilməz…» (ən-Nəml, 27/65) bəyanı ilahi bir həqiqətdir. Deməli, burada bir izaha ehtiyac var. Bu izah, əsasən, *«… Bəndəmi sevəndə mən onun sanki eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı oluram…»* (Buxari, «Riqaq», 38) hədisi-şərifinin mahiyyətindədir. Kəşf və ilhamın mərkəzi Allahın insana üfürdüyü ruhdur. Zahirən bədəndəki adi gözlə görülsə belə, o gözdə mövcud olan «ilahi nur» qarşısında qeybin pərdələri Allahın dilədiyi ölçüdə çəkilmiş olur. Bu təqdirdə qeybi göstərən yenə Allahdır. Bəndədə qeybi görəcək, eşidəcək və biləcək bir qüdrət yoxdur. Bəndənin bilməsi ancaq uca Allahın bəndəsinə lütf edib bildirməsi hesabına mümkündür. Ayeyi-kərimədə uca Allah belə buyurur:

«(Ey Rəsulum!) Bunlar Bizim sənə vəhy yolu ilə bildirməkdə olduğumuz qeyb xəbərlərindəndir…» (Ali-İmran, 3/44)

Uca Allah bu ayə ilə bir sıra qeybi həqiqətləri bildirdiyini xəbər verir:

Bir də belə bir məsələ vardır ki, qeyb iki cürdür: **Mütləq qeyb və izafi qeyb.**

Allahdan başqasının bilməyəcəyi qeyb **mütləq qeyb**dir. Bir şəxsin mütləq qeybdən bir şey bilməsi, onun qabiliyyətinə bağlı deyil. O ancaq Allahın bildirməsi ilə bilinər. Bu da uca Allahın lütfü qədərdir.

İzafi qeyb isə bəzilərinə məlum, bəzilərinə isə məchul olan keyfiyyətlərdir. Məsələn, bir şəxsin cibindəki pulu yalnız özü bilir, başqası bilməz. Bəzi şəxslər üçün qeyb olan bir şey, bəzi şəxslər üçün qeyb olmaya bilər.

Burada Allahın vəli qulları üçün mövzu olan qeyb mütləq qeybdir. O da ancaq Allahın bildirməsi ilə və bildirdiyi qədər bilinə bilər.

❁

Həqiqi Haqq dostları fikir və analizlərində nə qədər doğru nəticələr əldə etsələr də, kəşf və duyma qabiliyyətinə sahib olduqlarını iddia edə bilməzlər. Elə insanlar var ki, üzlərinə baxanda Allah xatırlanır. Onların dillərindən hikmət və mərifət damcıları tökülür.

Əgər belə demək mümkünsə, onlar danışmazlar, sanki danışdırarlar. Buna baxmayaraq, onlar Haqqın lütfləri qarşısında ikiqat əyilərlər. Çünki insan zəif bir varlıqdır. O, həddi aşaraq təkəbbürə yuvarlana bilər. İnsanın özünü üstün görməsi isə ən böyük fəlakətdir. Belə olan halda, uca Allah da bəndəsini xəbərdar etmək üçün ona aciz olduğunu daddıra bilər.

Əslində, duyma qabiliyyəti, kəşf və doğru yuxular Allahın saleh bəndələrinə həqiqətləri ilham edərək lütf etməsindən ibarətdir.




DÖRDÜNCÜ BÖLMƏ

TƏSƏVVÜFƏ AİD OLAN BƏZİ MƏSƏLƏLƏR

A. TƏVƏSSÜL

B. TƏBƏRRÜK

C. QƏBİR ZİYARƏTİ



«… Qəlblər ancaq Allahı zikr etməklə aram tapar.» (ər-Rəd, 13/28)

TƏSƏVVÜFƏ AİD BƏZİ MƏSƏLƏLƏR

Ey iman gətirənlər! Allahdan qorxun, Ona (Onun rəhmətinə və lütfünə qovuşmaq üçün) vəsilə (yol) axtarın!..» (əl-Maidə, 5/35)

A. TƏVƏSSÜL

Bəndəni onun yaradılışındakı başlıca qayə və məqsədə qovuşduran hər cür yol və vasitə bir **vəsilə**dir. Allaha yaxınlaşmaq üçün bu vəsilələrə sarılmağa da təvəssül deyilir. Xüsusi mənada isə təvəssül duanın qəbuluna səbəb olacağı ümidi ilə başda gözəl adlar olmaqla, Qurani-Kərim, saleh əməllər, peyğəmbərlər və saleh şəxslər vəsilə edilərək Allahdan bir şey istəmək, arzu edilən bir şeyin əldə edilməsi, ya da arzu edilməyən bir şeyin dəf edilməsi üçün Ona dua etmək və yalvarmaq deməkdir.

Əl-Maidə surəsinin 35-ci ayəsində uca Allah belə buyurur:

«Ey iman gətirənlər! Allahdan qorxun, Ona (Onun rəhmətinə və lütfünə qovuşmaq üçün) **vəsilə** (yol) **axtarın!..»**

Ayeyi-kərimədə «vəsilə» kəlməsi mütləq olaraq, yəni heç bir məhdudiyyət olmadan işlədilmişdir. Bu baxımdan Allaha yaxınlaşmaq üçün aranması zəruri olan vəsilə deyilərkən namaz, oruc, cihad və onlara bənzər saleh əməllər nəzərdə tutulur. Bir sıra təfsirçilər isə bu

sayılanlarla birgə, həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- əxlaqı ilə tərbiyə olunmaq məqsədilə bir kamil mürşidin tərbiyəsini qəbul etməyin də bir *«vəsilə»* olduğunu ifadə etmişlər.

Alimlər və salehlərin bəndəni Rəbbinin yoluna yönəltmələri ruhbanlıq mahiyyətində bir fəaliyyət deyil. O, bir irşad və xəbərdarlıqdır. Gediləcək yolda yolçulara rəhbərlik etməkdən ibarətdir. Bunun əvəzində xristianlıqda ruhbanlıq var. Onlara görə, ruhban Allah ilə bəndə arasında zəruri bir vasitədir. İslam isə bunu rədd edir. Yəni Allah ilə bəndə arasında üçüncü bir şəxs təsəvvür olunmaz. Bəndə Rəbbinə şəxsən, birbaşa və hər an yönələ bilər və Ona ibadət edə bilər.

Belə olduğuna görə ruhbanlıqda olduğu kimi, mürşidlərin mənəviyyat yolunda irəliləyən mürid ilə Allah arasına girdikləri fərz olunaraq onların gördüyü bu vəzifəyə qarşı bir sıra etirazlar olmuşdur. Halbuki, ruhbanlıq bir şəxsin rahib olmadan uca Allaha qulluq edə bilməməsidir. Bu, təhrif edilmiş xristianlıqda mövcuddur. Alimlərin və şeyxlərin icra etdikləri vəzifə rahiblərin vəzifələri ilə əsla müqayisə edilə bilməz.

Bu məsələ ilə bağlı irəli sürülən tənqidlər təvəssülün lüğəvi mənasını da önə çıxarmaqdan doğulan yersiz və lüzumsuz sözlərdir. Beləliklə təvəssülün həqiqi mahiyyətini pərdələyirlər. Belə etirazlar daha çox həqiqi kamil mürşidlərin hallarını bilməyən, təsəvvüfə bağlı mühitlərdən kənarda olan insanlar arasından eşidilir. Onların belə düşünməsinə bəzən də təsəvvüfə bağlı metodları layiqincə həzm edə bilməmiş olan bir qisim təssübkeşlərin hərəkətlərindəki yanlışlıqlar səbəb olur. Ancaq bunu da haqlı saymaq mümkün deyil. Çünki bir işə mənsub olan şəxsin acizliyini, bacarıqsızlığını və bəzən də pis niyyətini əsas götürərək o işə etiraz etmək doğru olmadığı kimi, bu məsələdə də şəxslərin qüsurunu təsəvvüfə aid etmək doğru deyil. Belə şəxsi qüsurları onların təmsil etmək iddiasında olduqları yüksək dəyərlərə aid etmək məntiqi baxımdan da doğru deyil. Belə ki, ağlı başında olan heç kim müsəlmanların qüsurlarına görə İslamı ittiham etməz.

Yuxarıda da izah etdiyimiz kimi həqiqi mürşidlər həqiqətən alimlərin zahiri elmlərin tədrisində etdikləri rəhbərliyə bənzər bir vəzifəni mənəviyyat yollarında icra edirlər. Bu, qul ilə Allah arasına girmək deyil, insanları kamil mürşidin təcrübə və bacarığından faydalanaraq Allaha gedən yolda xəbərdar etmək və onları tərbiyə edib mənfi xüsusiyyətlərdən qurtarmaq, yollarını sağ-salamat qət edə bilmələrini təmin etmək cəhdindən ibarətdir. Bir yolçuluq zamanı bizim miniyimiz qayə deyil, vasitədir. Bir kamil mürşid də müridə mənəvi tərbiyə verib, onun iç dünyasını Allah və Rəsulunun əxlaqı ilə bəzəyən bir müəllim deməkdir. Hətta, bəzi müridlər qisməti və istedadı varsa, sürətlə inkişaf edərək işin başlanğıcında ona yol göstərib önündə üfüqlər açan mürşidini yolun sonunda arxada qoya bilər. Bir misal göstərməyə ehtiyac olarsa, Şəms Təbrizi ilə həzrət Mövlananın misalını göstərə bilərik.[1]

Yəni kamil mürşidlər bütün əhəmiyyət və qiymətinə baxmayaraq, əsla qayə deyil, ancaq bir vasitə hökmündədirlər.

Həqiqətən, təvəssül müəyyən mənada kamil və təcrübəli bir mömin demək olan kamil mürşidi rəhbər seçərək ayaqların büdrəməsinin mümkün olduğu incə yollardan sağ-salamat keçmək üçün onların rəhbərliyinə müraciət edib təlim və feyzlərindən istifadəyə çalışmaqdır. Başqa bir mənası ilə də təvəssül məramını uca Allahın sevdiklərinin hörmətinə Ona ərz edərək duanın qəbul olunmasına çalışmaq cəhdidir. Uca Allahın saleh qullarını müqəddəs hesab etmək deyil.

İmam Malik (r.a):

«Diləklərinizdə Rəsulullahı -səllallahu əleyhi və səlləm- vəsilə edin!..»

İmam Cəzəri -qüddisə sirruh:

«Dualarınızın qəbul edilməsi üçün peyğəmbərlər və saleh şəxsləri vəsilə seçin!..»

1. Belə ki, həzrət Mövlananın ruhunda bir imkan kimi olan mənəvi okeanı kəşf edən Şəms Təbrizi, sanki bir neft dənizini yandırmaq üçün lazım olan qığılcım idi. Onun işi və səlahiyyəti bundan ibarət idi. Belə ki, bu dənizi yandıranda elə böyük bir mənəvi partlayış ilə qarşılaşdı ki, özü də bu alov ümmanı içində qaldı.

Əshabi-kiramdan Osman bin Huneyfin (r.a) rəvayət etdiyi bir hədisi-şərif belədir:

«Bir kor Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına gələrək belə dedi:

- Ey Rəsulullah! Allaha yalvar, gözümdəki xəstəlik sağalsın! Gözümün kor olması mənə çox ağır gəlir!

Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurdu:

- *İstəyirsənsə, səbir et. Bu sənin üçün daha xeyirlidir.*

Kor isə belə dedi:

- Ey Rəsulullah! Məni əlimdən tutub gəzdirəcək bir kimsəm yoxdur. Bu hal mənə çox əziyyət verir. Lütfən, gözlərimin açılması üçün dua edin!

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- buyurdu:

- Get, dəstəmaz al! Sonra iki rükət namaz qıl! Sonra da belə dua et*: «Allahım! Rəhmət Peyğəmbəri olan Nəbin Məhəmmədlə (Onun hörmətinə) Sənin zatından istəyirəm və Sənə yönəlirəm… Ey Məhəmməd! Ehtiyacımın verilməsi üçün səninlə Rəbbimə yönəlirəm!.. Allahım! Onu mənə şəfaətçi et!..»* (Tirmizi, «Dəavat», 118; Əhməd bin Hənbəl, «Müsnəd», IV, 138)

Hakimin rəvayət etdiyinə görə, korun gözü açıldı və o dünya işığına qovuşdu. (Hakim, «Müstədrək», I, 707-708)

Başqa yöndən, Rəsulullahın da -səllallahu əleyhi və səlləm- öz dualarında çox zaman aşağıdakı cümləni söylədiyi rəvayət edilmişdir:

«Peyğəmbərinin və məndən əvvəlki peyğəmbərlərin haqqı üçün diləyimi qəbul et!» (Heysəmi, «Məcmauz-Zəvaid», IX, 257)

Başqa bir hədisi-şərifdə Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Adəm -əleyhissalam- cənnətdən çıxarılmasına səbəb olan zəllə işlədiyinə görə xətasını anlayıb uca Allaha belə dua etdi:

- Ey Rəbbimiz! Məhəmməd haqqı üçün Səndən məni bağışlamağını istəyirəm.

Uca Allah:

- Ey Adəm! Hələ yaratmadığım[2] halda sən Məhəmmədi haradan tanıdın?

Adəm -əleyhissəlam:

-Ey Rəbbimiz! Sən məni yaradıb, ruhundan üfürdüyün zaman başımı qaldırdım, ərşin sütunları üzərində «Lə iləhə illəllah, Məhəmmədən Rəsulullah» cümləsinin yazıldığını gördüm. Bildim ki, Sən zatının adına ancaq yaradılmışların ən sevimlisinin adını artıra bilərsən!

Buna cavab olaraq uca Allah belə buyurdu:

- Doğru söylədin, ey Adəm! Həqiqətən, O mənə yaradılmışların ən sevimlisidir. Onun haqqı üçün Mənə dua et. Bir halda ki, Mənə dua etdin, Mən də səni bağışladım. Əgər Məhəmməd olmasaydı, səni yaratmazdım». (Hakim, «Müstədrək», II, 672)

Başqa yöndən İslam ənənəsinə görə dua uca Allaha həmd etmək və həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- salət və salam göndərməklə başlayır və bunlarla da sona çatır. Peyğəmbərimiz üçün edilən duanın (salavatın) rədd edilməyib, qəbul ediləcəyi ilə bağlı bir inam və qənaət var. Dualarımızın əvvəlini və sonunu salət və salam ilə bəzəmək də bu həqiqətdən qaynaqlanır. Belə ki, iki məqbul və şübhəsiz qəbul olunacaq duanın arasına öz dualarımızı yerləşdirmək onların da qəbul edilməsini təmin etmək üçündür.

Belə ki, Rəsulullah -səllallahu əleyhi və səlləm- namazdan sonra Allaha həmd etmədən və Onun Peyğəmbərinə salət və salam

2. Əzəldə ancaq özü var olan uca Allah insanlar və cinlərin düşüncəsi səviyyəsində bilinməyi istədi və buna görə də Allahdan başqa olan hər şeyi yaratdı. Bu yaradılışda ilk olan «Məhəmmədin nuru»dur. Buna görə də Allah Rəsulu -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur: *«Adəm ruh ilə cəsəd arasında olarkən мən nəbi idim».* (Tirmizi, «Mənaqib», 1). Buna görə Peyğəmbərin -səllallahu əleyhi və səlləm- cövhəri demək olan «Məhəmmədin nuru» yaradılışda ilkdir. Ancaq bu nurun bədənə bürünüb göndərilməsi baxımından isə O, peyğəmbərlərin sonuncusudur. Yuxarıdakı ifadədə «Məhəmmədin nuru» deyil, bəşər sifəti ilə göndərilən «Məhəmmədin zatı» nəzərdə tutulmuşdur.

söyləmədən dua edən bir şəxs gördü. Bundan sonra həzrət Məhəmməd -səllallahu əleyhi və səlləm- belə buyurdu:

«Bu adam tələsdi. Sonra o şəxsi yanına çağırdı və belə buyurdu:

«Biriniz dua edəcəyiniz zaman öncə uca Allaha həmd və səna etsin, sonra Peyğəmbərə salət və salam söyləsin. Daha sonra da istədiyi şəkildə dua etsin.» (Tirmizi, «Deavat», 64)

Bəndənin etdiyi duada öz məramını başda peyğəmbərlər və onların varisi olan Allah dostları ilə Haqq yanında yüksək mövqeləri olan salehlərin uca Allah nəzərindəki hörməti xatirinə istəməsi, uca Allahın sevdiklərini vəsilə edərək bu duyğularla Ona yönəlib, yalvarması da ilahi mərhəməti cəlb edib, duanın qəbul olunmasındakı mühüm şərtlərdən biridir. Ancaq dua yalnız uca Allahadır. **Buna görə də duada Allahın sevdikləri vəsilə edilərkən onlardan deyil, ancaq uca Allahdan istəmək zəruridir.** Duada uca Allahın sevdiyi şəxslərin adlarını çəkmək, sadəcə Allaha edilən duanın qəbul olunması üçün istifadə edilən bir üsuldur.

Bundan başqa fəzilət sahibi olan saleh şəxsləri vəsilə olaraq seçmək də, əslində, onların saleh əməlləri və üstün xüsusiyyətləri ilə təvəssül etmək deməkdir. Çünki onların Haqq yanındakı yüksək mərtəbə və uca dəyəri bu saleh əməllərinə görədir.

Bu baxımdan Rəsulullah -səllallahu əleyhi və səlləm- belə, uca Allahdan zəfər və yardım tələb edərkən mühacirlərin kasıb olan insanlarını vəsilə seçər və bu yolla istəyərdi.[3] Peyğəmbərimiz bu məqsədlə buyururdu:

«Mənim yanıma zəif olanları çağırın. Çünki sizə ancaq zəif olanlarınızın (dua və bərəkəti) ilə ruzi verilir və yardım olunur.» (Əbu Davud, «Cihad», 70; Əhməd b. Hənbəl, «Müsnəd», V, 198)

Çünki cəmiyyətin gözündə onlara etibar qazandıracaq bir məqamı və varlığı olmayan, boynubükük, qəlbiqırıq, ancaq qənaət və ilahi təqdirə riza ilə könlü zəngin olan bu saleh insanların vasitə seçilməsi ilə ediləcək duanın qəbula layiq olduğu şübhəsizidir.

3. Baxın, Buxari, «Cihad», 76; Təbərani, «Mucəmul-Kəbir», I, 292.

Qırıq və kədərli qəlbləri vəsilə edərək ilahi rizaya qovuşmaqla bağlı Malik bin Dinarın bu rəvayəti olduqca mənalıdır:

«Musa -əleyhissalam-, uca Allaha yalvaranda belə dedi:

- Ey Rəbbimiz! Səni harada axtarım?!

Uca Allah buyurdu:

- Məni qəlbiqırıqların yanında axtar.» (Əbu Nuaym, «Hilyə», II, 364)

Ənəsdən (r.a) rəvayət edildiyinə görə, həzrət Ömərin (r.a) xilafəti dövründə quraqlıq baş vermişdi. O, Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- əmisi həzrət Abbasla (r.a) birgə gedərək yağış yağması üçün onu vəsilə seçərək uca Allaha belə dua etmişdir:

«Allahım! Peyğəmbərimiz ilə Sənə təvəssül edərdik və bizə yağış verərdin. Indi isə Peyğəmbərimizin əmisi ilə Sənə təvəssül edirik, bizə yağış ver!»

Bundan sonra yağış yağdı və xalq suya qovuşdu». (Buxari, «İstiska», 3)

Başqa bir rəvayətə görə həzrət Ömər (r.a) belə dua etmişdir:

«Allahım! Bulud da, su da Sənin yanındadır. Buludu göndər və bizə yağış ver.»

O, belə deyərək təvazökarlıq və göz yaşları içərisində uzun müddət və duyğu yüklü bir dua ilə yalvarmışdı. Bu duadan sonra rəhmət buludları göy üzündə topa-topa olmuş və bərəkətli yağış yağmışdır. Sonra həzrət Ömər (r.a) bu ilahi nemətə görə belə buyurmuşdur:

«Ey insanlar! Rəsulullah -səllallahu əleyhi və səlləm- bir uşağın atasını sevdiyi kimi, əmisi Abbası da sevər, ona hörmət göstərər və onun andını öz andı sayardı. Ey insanlar! Əmisi Abbasa Rəsulullahın -səllallahu əleyhi və səlləm- göstərdiyi bu məhəbbət və hörmətə siz də əməl edin! Onu başınıza gələn hər cür müsibət zamanı Allaha dua edərkən vəsilə seçin!» (Hakim, «Müstədrək», III, 377)

İbn Əbdil Bərrə görə bu rəvayət də deyilən məsələni aydınlaşdırmağa yardım edir:

«Həzrət Ömər (r.a) dua etmək üçün həzrət Abbası da götürərək getdi və belə dua etdi:

«Allahım! Biz Peyğəmbərimizin əmisi ilə Sənə yaxınlaşır (təqarrüb) və onun şəfaətçi olmasını istəyirik (istişfa). Peyğəmbərin üçün onu himayə et! Belə ki, Sən ana və atasının yaxşılıq və gözəl əməllərinə görə iki (yetim) uşağı himayə etmişdin.[4] Biz bağışlanma istəyərək və şəfaət diləyərək Sənə gəldik!»

Sonra həzrət Ömər (r.a) insanlara yönələrək bu ayeyi-kərimələri oxudu:

«(Tövbə edib) **Rəbbinizdən bağışlanmağınızı diləyin. Çünki O,** (tövbə edən bəndəsinin günahlarını) **çox bağışlayandır! O, sizə göydən bol yağış göndərər. O, sizə mal-dövlət, oğul-uşaq əta edər. O, sizin üçün bağlar, bağçalar yaradar və çaylar axıdar!»** (Nuh, 71/10-12)

Sonra da Abbas (r.a) ayağa qalxaraq dua etdi. Həzrət Abbasın gözlərindən bulaq kimi yaş axırdı. (Bu vasitə ilə Allahın yağış ehsan etməsindən sonra) xalq:

«Səni təbrik edirik, ey Hərameyn xidmətçisi!»,-deyərək Abbasa toxunmağa başladı.» (İbn Əbdil Bərr, «İstiab», II, 814-815)

Bu hadisə səhabənin bir başqa səhabə ilə təvəssül etməsini göstərən açıq bir dəlildir. Ancaq bu hal bəzilərinə görə təvəssülün ancaq saleh şəxslərin həyatdakı yaşadıqları zaman üçün doğrudur, onların vəfat etməsindən sonra isə onlarla təvəssül etmək yanlışdır. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- ilə təvəssül etməyi ancaq Onun vəfatından öncəki dövrə bağlamaq həqiqəti əks etdirməyən bir fikirdir. Belə ki, həzrət Ömərin (r.a):

«Ey Rəbbimiz! Biz Sənə Peyğəmbərimiz ilə təvəssül edərdik»,

4. Bu sözü ilə həzrət Ömər (r.a) Xızırın –əleyhissəlam, həzrət Musaya müdaxiləsindən bəhs edən bu ayəyə işarə etmişdir:
«Divara gəldikdə isə, o, şəhərdə olan iki yetim oğlanın idi. Altında onlara çatası bir xəzinə var idi. Onların atası əməlisaleh (bir adam) idi. Rəbbin onların həddi-buluğa çatmalarını və Rəbbindən bir mərhəmət olaraq öz xəzinələrini tapıb çıxartmalarını istədi. (Ey Musa!) Mən bunları öz-özümdən etmədim (yalnız Allahın əmrini yerinə yetirdim). Sənin səbir edib dözə bilmədiyin şeylərin yozumu (batini mənası) budur.» (əl-Kəhf, 18/82)

şəklindəki yalvarışı Rəsulullahın -səllallahu əleyhi və səlləm- yalnız vəfatından öncəyə deyil, sonraya da şamildir. Elə həzrət Abbas (r.a) ilə təvəssül etmələri də onun başqa bir şəxsin deyil, Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- əmisi olduğuna görədir. Yəni onun Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- bir yaxın qohumu olduğuna görə təvəssülün aid edildiyi məqam vəfat etmiş olsa da, yenə şəxsən Rəsulullaha -səllallahu əleyhi və səlləm- aiddir. Bunun kimi, Allah dostlarının böyüklərinin bəziləri üçün də ölümdən sonra təvəssül imkanı və uyğunluğu var.[5]

Bunun ən açıq misallarından biri budur:

«Alimlər və ehtiyac sahibləri saleh insanların sələfi olan böyüklərdən İmam Əzəmin qəbrini ziyarət edirlər və onunla təvəssül edərək faydasını görürdülər. Belə ki, onlardan biri olan həzrət İmam Şafii belə anladır:

«Bir ehtiyacım olduğu zaman iki rükət namaz qılardım. Sonra Əbu Hənifənin məzarına gedər və orada Allaha dua edərdim. Onun bərəkəti ilə ehtiyacım dərhal yerinə yetirilərdi».[6]

❁

Başqa yöndən saleh əməllər də çətinliklərdən qurtulmaq üçün bir vəsilədir. Hədisi-şərifdə Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- keçmiş ümmətlərdən olan səfərə çıxmış üç yoldaşın halını belə bildirir:

«Səfər zamanı bu üç yoldaş yağışa düşür. Onlar gecələmək üçün bir mağaraya girirlər. Birdən dağdan bir qaya parçası düşür və mağaranın qapısını bağlayır. Bundan sonra onlar belə deyirlər:

«Saleh əməllərimizlə Allaha dua etməkdən başqa çarəmiz yoxdur. Bizi buradan Allahdan başqa heç bir şey xilas edə bilməz.»

Onlardan biri anasına və atasına olan itaətini vəsilə olaraq seçir. Qaya bir az yerindən tərpənir, ancaq hələ mağaradan çıxmaq mümkün deyil. İkincisi Allah qorxusunu, həya və iffətini vəsilə edir. Qaya bir

5. Mövzu ilə bağlı daha geniş məlumat üçün baxın: Zəkəriyyə Gülər, «Vəsilə və Təvəssül hədislərinin qaynaq dəyəri», İLAM araşdırma dərgisi, j. II, sayı, 1, s. 83-132.

6. əl-Heytəmi, «əl-Hayratül-Hisan», s. 94.

az da aralanır, ancaq yenə çıxmaq mümkün olmur. Üçüncüsü də qul haqqına əməl etməyini vəsilə edir, Allaha yalvarır. Bundan sonra qaya mağaranın ağzından tamamilə kənara çəkilir və onlar çölə çıxırlar».[7]

Duanın qəbul olunmasına vəsilə olan başqa bir şərt də uca Allahın adlarıdır. Uca Allahın adlarının çox zikr edilməsi yolu ilə bir qisim istəklərin qəbul olunması üçün Ona yalvarmaq da çox geniş yayılmış bir təvəssül yoludur.

Ayeyi-kərimədə belə buyurulur:

«Ən gözəl adlar Allaha aiddir. O halda bu adlarla Ona dua edin!» (əl-Əraf, 7/180)

Belə ki, həzrət Aişə (r.a) anamız, Rəsulullahın -səllallahu əleyhi və səlləm- belə dua etdiyini bildirir:

«Allahım! Mən Sənin tahir, tayyib, mübarək və Sənə ən sevimli olan adınla (o adın hörmətinə) Səndən istəyirəm. O ad ki, onunla Sənə dua ediləndə qəbul edirsən, Səndən istənildiyi zaman verirsən, Səndən mərhəmət tələb ediləndə rəhmət edirsən və sıxıntıdan qurtulmaq üçün onunla Səndən yardım istənildiyi zaman çıxış yolu və genişlik verirsən».

Bu hədisi-şərifin davamı belədir:

«Rəsulullah -səllallahu əleyhi və səlləm-, həzrət Aişədən (r.a) soruşur:

- Ey Aişə! Hansı adı ilə dua ediləndə uca Allahın o duanı qəbul edəcəyini mənə öyrətdiyini bilirdinmi?

Həzrət Aişə (r.a):

- Anam, atam Sənə fəda olsun, ey Rəsulullah! O adı mənə də öyrət!

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

- O ad sənə öyrədilməməlidir, ey Aişə!

7. Baxın, Buxari, «Ədəb», 5; «Ənbiya», 53; «Zikr», 100.



Bundan sonra həzrət Aişə anamız oradan uzaqlaşıb bir müddət oturmuş və sonra gəlib Rəsulullahın -səllallahu əleyhi və səlləm- başını öpərək:

- Ey Rəsulullah! Xahiş edirəm, o adı mənə öyrət!

Rəsulullah -səllallahu əleyhi və səlləm- isə yenə belə buyurmuşdur:

- O adı sənə öyrətməməliyəm, ey Aişə! Çünki o adla sənin dünya nemətlərinə aid olan bir şey istəməyin uyğun olmaz!

Həzrət Aişə (r.a) belə anladır. Bundan sonra mən yerimdən qalxdım, dəstəmaz aldım və iki rükət namaz qıldıqdan sonra uca Allaha belə yalvardım:

- Ey Rəbbim! Mən Səni «Allah» deyə çağırır və dua edirəm. «ər-Rəhman», «əl-Bərr», «ər-Rəhim» deyə çağırıram. Bildiyim və bilmədiyim bütün gözəl adların ilə Səni çağırıram. Məni bağışlamağın və mənə mərhəmət etməyin üçün Sənə dua edirəm.

Aişə (r.a) anamız sözlərinə belə davam edir:

- Mən bunları söyləyəndə Allah Rəsulu -səllallahu əleyhi və səlləm- güldü və belə buyurdu:

- Şübhəsiz, o ad sənin duada söylədiyin adların içindədir!». (İbn Macə, «Dua», 9)

Ənəs bin Malik (r.a) da belə bir hədisi-şərif rəvayət edir:

«Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- bir adamı belə dua edərkən gördü:

«Allahım! Mən, «Həmd Sənə məxsusdur. Səndən başqa ilah yoxdur. Sən ortağı olmayan təksən. Sən bol nemət verənsən (Mənnan). Göyləri və yerləri yaradansan (Bədii). Sən cəlal və nemət sahibisən!, -deyərək Səndən istəyirəm!»

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurdu:

«Vallah bu adam Allahın ismi-əzəmi ilə istədi. O ad ki, uca Allah



onunla istəyəndə verir və onunla dua edəndə qəbul edir.» (İbn Macə, «Dua», 9; Nəsai, «Səhv», 58)

Bu və buna bənzəyən hədisi-şəriflərdən anlaşıldığı kimi uca Allahın gözəl adları ilə təvəssül etmək də Rəsulullahın -səllallahu əleyhi və səlləm- sünnələrindən biridir.

❁

Bəzi alimlər, ümumiyyətlə, təsəvvüfə bağlı olaraq göstərilən «təvəssül», «istianə», «istiğasə», «istişfa», «təşəffu», «təvəccöh» və «təbərrük» kəlmələri arasında məzmun baxımından bir fərq olmadığını söyləmişlər.[8]

Yardım istəmək mənasına gələn bu kəlmələr idarəetmə səlahiyyətinə sahib olan Haqq dostlarından istər onların hüzurlarında, istərsə də onların olmadığı bir şəraitdə bu mübarək insanlardan yardım tələb etməyi ifadə edir. «Himmət tələb etmək» mənəvi baxımdan üst dərəcədə olduğuna inanılan saleh şəxslərdən məqsədə çatmaq yolunda vəsilə olmalarını istəməkdir. Bu isə onların dua, təvəccöh, yaxın münasibət və əlaqələri ilə gerçəkləşir.

Himmət kəlməsi, çox zaman Allahın vəli qullarının yardımı ilə bağlı istifadə olunur. Allahın yardımından danışanda isə «nüsrət» və «tofiq» kimi kəlmələrdən istifadə olunur.

Əsasən, yardım edəcək olan ancaq uca Allahdır. Ona edilən dualarda vəsilələrlə təvəssül etməyi, sanki Allahdan başqasından yardım istəmək şəklində düşünmək doğru deyil. Çünki təvəssüldə yönəlinən güc ancaq uca Allahdır.

Ayeyi-kərimələrdə belə buyurulur:

«… Qələbə yalnız Allahdandır. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!» (əl-Ənfal, 8/10)

«Əgər Allah sizə yardım edərsə, heç kəs sizə qalib gələ bilməz! Yox, əgər sizi zəlil edərsə, Ondan sonra kim sizə kömək edə bilər? Buna görə də, möminlər Allaha təvəkkül etsinlər!» (Ali-İmran, 3/160)

8. Baxın, Sübki, «Şifaüs-Səkam fi Ziyarati Hayril-Ənam», s. 133-134.

Abdullah İbn Abbas (r.a) belə anladır:

«Bir gün həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- tərkində idim. O, mənə belə buyurdu:

«Övladım! Sənə bir neçə söz söyləyim. Allahı (yəni Onun əmr və qadağalarını) qoru ki, Allah da səni qorusun. Allahın (rizasını) bütün işlərində öndə tut ki, Allahı önündə görəsən. Bir şey istəyəcəksənsə, Allahdan istə. Yardım diləyəcəksənsə, Allahdan dilə! Bil ki, bütün insanlar bir yerə toplaşıb sənə fayda verməyə çalışsalar, ancaq Allahın sənin üçün təqdir etdiyi faydanı təmin edə bilərlər. Əgər bütün insanlar sənə zərər verməyə çalışsalar, ancaq Allahın sənin-lə bağlı təqdir etdiyi zərəri verə bilərlər…» (Tirmizi, «Qiyamət», 59)

Bu həqiqəti bütün möminlər belə qəbul etdikləri kimi, namazların hər rükətində oxunan *«Fatihə»* surəsindəki:

«(Rəbbimiz!) Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik!», ayeyi-kəriməsi ilə də bu həqiqəti təsdiq edirlər.

Belə ki, Bədr müharibəsində düşmənə qarşı döyüş zamanı ilahi yardım gələndən sonra uca Allah ayeyi-kərimədə Rəsulullaha -səllallahu əleyhi və səlləm- belə buyurdu:

«Atdığın zaman sən atmadın, ancaq Allah atdı…» (əl-Ənfal, 8/17)

Yəni edilən hər bir mənəvi yardım və lütfdə həqiqi və mütləq güc sahibi yalnız uca Allahdır.

Bir sıra möminlərin heç bir şirk və küfr məqsədi olmadan uca Allaha yaxınlaşmaq arzusu ilə etdikləri səmimi dualarında salehlərin mənəvi yardımlarını ummaları, onların yad edilməsi ilə enməsi ümid edilən rəhmətdən bir təbərrük mahiyyətindədir. Bu, bir növ mənəvi iqlimin, feyz və bərəkətin əldə olunması üçündür. Hər şey ancaq və ancaq Allahın istəyi ilə olar. Onsuz da, dua etmək üçün vəsilə olaraq seçilən şəxs bu işlərin mütləq baş verməsini təmin edən deyil, bütün işləri gerçəkləşdirən ancaq uca Allahdır.

Bir sıra şəxslərin saleh insanların olmadığı şəraitdə, ya da onların qəbirlərini ziyarət edərkən: *«Ey filan şəxs! Mənə şəfa ver!*

Mənim bu ehtiyacımı həll et!» kimi sözlərlə birbaşa onlardan bu tipli şeylər istəmələri son dərəcə yanlışdır və bu cür tələblər Allaha şərik qoşmağın qapısını açа bilər. Şübhəsiz, bu cür yardım tələbləri üçün bir sıra izahlar verilsə də, çox həssas olan tövhid əqidəsinin mahiyyətini zədələyə biləcək bu və buna bənzər cahilanə hərəkətlərdən qəti surətdə uzaq durmaq zəruridir. Çətinliklərin həll edilməsində, kainatın idarə olunmasında Allahdan başqasının mütləq səlahiyyətinin ola biləcəyi fikrini yaradan bu cür ifadələrdən əsla istifadə etmək olmaz.[9]

9. Bu cür ifadələrin istifadə edilə biləcəyini söyləyə bilənlər bu sözlərin bəlağət elmindəki «məcazi-əqli» növündən olduğunu irəli sürmüşlər. Məcazi-əqli işin gerçək törədicisinə və bu işin yaradıcısına deyil, o işin məkan, zaman, səbəb kimi əlaqəsi olduğu bir şeyə istinad edilməsi deməkdir. Bu ədəbi sənətə görə, məsələn: «Yer öz ağır yüklərini çıxardıb atacağı zaman» (əz-Zilzal, 99/2) ayəsində yükləri kənara çıxaran Allah olduğu halda, iş onun həqiqi törədicisinə deyil, işin məkanına istinad edilmiş, ancaq Allah nəzərdə tutulmuşdur.

Sufilər də yardım istənilən şəxsin həqiqi yardım edən deyil, həqiqətdə yardım edənin Allah olduğuna inandıqlarını və Ondan istədiklərini söyləyirlər. Əks halda, onlar da bunun açıq bir Allaha şərik qoşmaq olduğunu qəbul edirlər.

Bu mövzu ilə bağlı Məhəməd Əbu Zəhra belə deyir:

«Avamın və cahil müsəlmanların sözləri ən yaxın olan məna ilə izah olunur… Onların Peyğəmbərin -səllallahu əleyhi və səlləm- qəbrini ziyarət etmələrinin qarşısını almaq deyil, tərbiyə etmək doğru olar. Onları küfr, ya da Allaha şərik qoşmağa aid etmək deyil, anlatmaq və öyrətmək doğrudur. Şübhəsiz, uca Allah tövhidi qiyamətədək qoruyacaqdır. Peyğəmbər -səllallahu əleyhi və səlləm- ömrünün sonunda şeytanın bu bölgədə ona ibadət edilməsindən ümidini kəsdiyini bildirərək möminləri mücdələmişdir. O halda, artıq İbn Teymiyyə tövhiddən narahat olmamalıdır». (Əbu Zəhra, «İbnü-Teymiyyə», s. 326)

Dini ədəbiyyatda müxtəlif məqsədlərlə tez-tez təkrar edilən «Mədət, ey Rəsulullah!» nidaları da Peyğəmbərin axirətdəki şəfaətini umaraq ona müraciət mənasındadır. Bir sıra insanların buna da Allaha şərik qoşmaq gözü ilə baxması yersizdir. Çünki hər mömin həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- şəfaətinin belə, ancaq uca Allahın istəməsi ilə gerçəkləşə biləjəyinə inanır.

Allah Rəsulunun əziz xatirələrinə göstərilən hörmət Ona olan sevgi, məhəbbət və könül rabitəsinin məhsuludur.

B. TƏBƏRRÜK

Təbərrük, əsasən, bərəkət istəmək deməkdir. Bir şey vasitəsilə bərəkət və feyzə nail olmağı ifadə edir.

Yemək qalığı ilə təbərrük

Allah dostlarının yediyi qidaların qalığını yeyib-içmək ruhda bir canlılıq yaratmaq üçün istifadə olunan vasitələrdən biridir. Bir sıra şəxslərin düşündüyü kimi, bu keyfiyyət də əsassız və bidət olan şeylərdən deyil. Çünki bunun həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- həyatında bir çox hallarda gerçəkləşdiyi ilə bağlı hədis və siyər kitablarında müxtəlif misallar var.

Müxtəlif zaman və məkanlarda, xüsusilə, Təbük səfərində səhabə Rəsulullahın -səllallahu əleyhi və səlləm- qidalarının mübarək qalıqları ilə bərəkət tapmışdır.

Təbük səfərində ordu susuzluqdan əziyyət çəkdi. Həzrət Rəsulullah -səllallahu əleyhi və səlləm- barmaqlarından bir neçə damcı su axıtmış, sonra baş barmağından bulaq kimi su axmışdır. Nəticədə,

qablar su ilə dolmuş, təbərrük olaraq ondan içilmiş və ordunun su ehtiyacı onunla təmin olunmuşdur. Rəsulullahın -səllallahu əleyhi və səlləm- barmağından axan bu su, şübhəsiz, Zəmzəmdən daha şəfalı və daha üstündür. Çünki Rəsulullahın -səllallahu əleyhi və səlləm- nurlu əllərindən və mübarək bədənindən axmışdır.

Bir sıra hədisi-şəriflərin bəyan etdiyi kimi Rəsulullahın -səllallahu əleyhi və səlləm- süd içdiyi zaman içdiyi qabdakı qalığından başqa səhabələrə də verər, həm içən bu süddən bərəkətlənər, həm də süd artardı.

Səhl bin Sad (r.a) belə rəvayət edir:

«Rəsulullaha -səllallahu əleyhi və səlləm- bir içməli şey gətirilmişdir. Ondan bir az içdi. Bu zaman sağ tərəfində bir uşaq, sol tərəfində isə əshabın böyüklərindən yaşlı şəxslər otururdu. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- sağındakı uşağa misilsiz bir incəlik və nəzakətlə buyurdu:

- Əgər icazə versən, bu içməli şeyi öncə böyüklərinə verim?

O ağıllı uşaq da hər kəsi çaşdıran və aləmə ibrət olmağa layiq bu gözəl cavabı verdi:

- Ey Rəsulullah! Səndən mənə bir nemət olaraq verilən qismətimi heç kimə vermərəm!

Bundan sonra sevimli Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- mübarək əlindəki içməli şeyi o uşağa verdi». (Buxari, «Əşribə», 19)

Əsma binti Əbi Bəkr belə anladır:

«Mən, Abdullah bin Zübeyrə hamilə idim. Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına getmişdim. Mədinəyə çatdım və Qubada qaldım. Orada Abdullah doğuldu. Sonra Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına getdim. Onu qucağına aldı və bir xurma istədi. Xürmanı ağzında bir az çeynədikdən sonra bir parçasını Abdullahın ağzına qoydu. Abdullahın mədəsinə düşən ilk tikə bu oldu. Ona dua etdi və Allahdan bərəkət istədi.[10]

10. Baxın, Buxari, «Əqiqə», 1.

Əbu Əyyub əl-Ənsari, Peyğəmbəri -səllallahu əleyhi və səlləm- qonaq etdiyi günlərdə Ona yemək bişirib göndərirdi. Yeməyin qalan hissəsi geri qaytarılanda Peyğəmbərin barmaqlarının toxunduğu yeri axtarıb tapardı. (Müslim, «Əşribə», 170-171)

Həzrət Cabir də (r.a) Xəndək savaşından öncə böyük xəndəklərin qazıldığı o çətin anlardakı bir xatirəsini belə danışır:

«Biz xəndək qazarkən qarşımıza son dərəcə sərt bir qaya çıxdı. Səhabələr Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına gedib belə dedilər:

- Qazmaqda olduğumuz xəndəkdə qarşımıza sərt bir qaya çıxdı.

Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- belə buyurdu:

- *Mən xəndəyə enəcəyəm.*

Sonra ayağa qalxdı, aclıqdan qarnına daş bağlamışdı. Biz üç gün idi ki, yeyəcək bir şey dadmadan orada qalmışdıq. Peyğəmbər -səllallahu əleyhi və səlləm- beli əlinə aldı və sərt qayaya vurdu. O qaya un kimi olub bir qum topasına çevrildi.

Mən:

- Ey Rəsulullah! Evimə getməyə icazə verin!,-dedim.

Evə çatanda arvadıma:

- Allah Rəsulunu -səllallahu əleyhi və səlləm- dözülməz bir vəziyyətdə gördüm. Yeməyə bir şey varmı?,-deyə soruşdum.

Arvadım:

- Bir az arpa, bir də oğlaq var, -dedi.

Oğlağı kəsdim, arpanı da üyütdüm. Əti qazana qoyduq, çörək bişdi. Qazan daşın üstündə qaynayırdı. Bu zaman Rəsulullahın -səllallahu əleyhi və səlləm- yanına getdim və belə dedim:

- Ey Allahın Rəsulu! Bir az yeməyim var. Bir-iki nəfərlə birgə bizə buyurun.

Peyğəmbər -səllallahu əleyhi və səlləm- soruşdu:

- *Yemək nə qədərdir?*

Mən də olanı söylədim.

Bundan sonra həzrət Məhəmməd belə buyurdu:

- Həm çoxdur, həm də gözəldir! Xanımına söylə, mən gələnədək qazanı odun üzərindən götürməsin. Çörəyi də təndirdən çıxarmasın!

Sonra əshabına:

- *Ey Xəndək əhli! Cabir bizə qonaqlıq hazırlamış, tez olun, buyurun!,*-deyə yüksək səslə çağırdı.

Oradakılar birlikdə qalxdılar. Mən həyəcanla arvadımın yanına qaçıb belə dedim:

- Vay bizim halımıza! Peyğəmbərimiz yanında mühacirlər, ənsar və onlarla birgə olanlarla gəlir.

Xanımım isə belə dedi:

- Allah Rəsulu səndən nə qədər yeməyimiz olduğunu soruşdumu?

Mən dedim:

- Bəli.

Bundan sonra arvadım dedi:

- Onda həyəcanlanma. O, səndən daha yaxşı bilir.

Bir müddət sonra onlar gəldilər. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- səhabələrinə belə buyurdu:

- *Bir-birinizi sıxışdırmadan içəri keçin!*

Onlar on-on içəri girdilər. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- çörəyi kəsir, üzərinə ət qoyur, yeməyin suyunu da onun üzərinə tökür və hər dəfə qazanın, təndirin üstünü örtür, ondan aldığını əshabına verirdi. Nəhayət, bütün əshab doydu. Yemək isə bir az da artdı. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- mənim xanımıma üz tutaraq belə dedi:

- Bunu ye, qonşularına da ver, çünki aclıq insanları pərişan etdi!» (Buxari, «Məğazi», 29; Müslim, «Əşribə», 141)

Əşya ilə təbərrük

Sevilən şəxsi xatırladan bir əşyanın o şəxsi sevəndə onu yada salıb,duyğulandıraraq aralarındakı əlaqəni gücləndirdiyi bir həqiqətdir. Bu, insan təbiətində olan bir xüsusiyyətdir. Ancaq bu duyğu və davranışda ölçünü itirməyin bütləşdirməyə gətirib çıxartdığı da bir tarixi həqiqətdir.[11]

Başqa yöndən çox sevilən bir şəxsin onu xatırladan əşyasını sevmək də bəşəri və təbii bir təmayüldür. Mühüm olan ölçünü pozmamaqdır. Həqiqətən, mücərrəd anlayışlar konkret varlıqlarda hal və keyfiyyət olaraq əks olunur.

Əşyadakı hal və keyfiyyət təcəllasının Qurani-Kərimdə göstərilən ən canlı misalı budur:

«Yusifin -əleyhissalam- köynəyi Yaquba -əleyhissalam- çatdırılmaq üçün Misirdən götürüldüyü zaman Kənan elində olan Yaqub -əleyhissalam- onun ətirini almış, köynəyi kor gözlərinə sürtmüş və görməyə başlamışdır.»[12]

Əşya ilə gerçəkləşən bu təsir də kamil mürşidin saliki bəlli bir səviyyədə saxlamaq üçün istifadə etdiyi vasitələrdən biridir. Çünki bu təsirlərlə həmhal olmaq əlaqəni gücləndirir. Bu eyni zamanda hədiyyələşmə sünnəsinin də bir ifadəsidir.

11. Belə ki, dinlər tarixində «fetişizm» deyilən və ölən milli qəhrəmanların əşyalarına pərəstiş (tapınma) və onları müqəddəs hesab etmək kimi dəlalət, bu bəşəri duyğu və təmayülün təbiilik ölçülərinin pozulmasından törəmiş bir tarixi azğınlıqdır. Çünki mücərrəd anlayışları qavramaq olduqca çətindir. Bu çətinliyə görə də, ən mücərrəd bir varlıq olan Yaradıcını bir sıra insanlar maddi varlıqlarda əyaniləşdirərək qəbul etmişlər. Bütpərəstlik də bu bəşəri zəiflikdən törəmişdir. Ancaq mücərrəd həqiqətlərin əyaniləşdirildiyi vasitələrdə bir mənəvi təcəlli var. Sağlam mühakimə sahibləri üçün doğru olan əsərdən onu yaradana doğru getməklə mücərrəd gerçəklərin fiziki varlıqlardakı əkslərini, naxışlarını və təcəllilərini qavraya bilməkdir. Allah da, ruh da bu yolla bilinir. Başqa mücərrəd anlayışlar üçün də bu ölçü doğrudur.

12. Baxın, «Yusif» surəsi, 12/93-96.

Peyğəmbər -səllallahu əleyhi və səlləm-, Bəni Saidə məhəlləsində əshabı ilə birlikdə idi. O, Səhl bin Sada (r.a) buyurdu:

- Ey Səhl, bizə su verərsənmi?

Bundan sonra Səhl bir qab su verdi.

Səhl bu qabı ömrü boyu saxlamışdır. Çünki Əbu Hazim (r.a) belə anladır:

«Səhl bu qabı çıxarıb bizə göstərdi. Biz də ondan su içdik. Daha sonra Ömər bin Əbdüləziz, Səhldən bu mübarək qabı ona bağışlamasını xahiş etdi. O da hədiyyə verdi.» (Buxari, «Əşribə», 30)

❁

Səhl bin Sad (r.a) anladır:

«Bir qadın Peyğəmbərimizə -səllallahu əleyhi və səlləm- bir xirqə gətirdi və belə dedi:

- Ey Rəsulullah! Bunu sizə hədiyyə etmək istəyirəm. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- də onun hədiyyəsini qəbul etdi və xirqəni geyindi.

Əshabdan biri belə dedi:

- Ey Rəsulullah! Bu çox gözəl paltardır, bunu mənə hədiyyə edərsinizmi?

Allah Rəsulu -səllallahu əleyhi və səlləm- razılaşdı, tez xirqəni ona verdi. Həzrət Peyğəmbər oradan ayrıldıqdan sonra əshabi-kiram o adamı danlayaraq belə dedi:

- Sən yaxşı bir iş etmədin. Allah Rəsulu onu ehtiyacı olduğu üçün almışdı. Sən də onu istədin. Bilirsən ki, aləmlərə rəhmət olan Peyğəmbərimizdən bir şey istəyəndə, əsla, etiraz etməz.

Bu sözləri eşidən o şəxs dedi:

- Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- onu geyindiyi üçün onunla təbərrük etmək istədim. Ümid edirəm ki, bu xirqə mənim kəfənim olar.» (Buxari, «Ədəb», 39)

❁

Həzrət Aişə (r.a) belə deyir:

«Məkkədə qureyşlilər üçün taxt üzərində yatmaqdan daha gözəl bir şey yox idi.

Rəsulullah -səllallahu əleyhi və səlləm- Mədinəyə gəldiyi və Əbu Əyyubun evində qonaq olduğu zaman ondan soruşdu:

- *Ey Əbu Əyyub! Sizin bir taxtınız yoxdurmu?*

Əbu Əyyub da (r.a) belə dedi:

- Vallah, yoxdur.

Ənsardan Sad bin Zürarə bunu eşidəndə Rəsulullaha -səllallahu əleyhi və səlləm- dirəkləri saç ağacından düzəldilmiş, üstü kətan lifi ilə toxunmuş və həsirlə örtülmüş bir taxt göndərdi.

Rəsulullah -səllallahu əleyhi və səlləm- evinə köçənədək onun üzərində istirahət etdi. Peyğəmbər öz evinə köçəndən sonra da vəfat edənədək o taxtdan istifadə etdi.

Rəsulullah -səllallahu əleyhi və səlləm- vəfat edəndə bu taxtın üzərinə qoyularaq yuyuldu, kəfənləndi və bu taxt üzərində olduğu halda Onun cənazə namazı qılındı.

Xalq ölüsünü daşımaq üçün onu bizdən istəyirdi və onunla təbərrük edirdi.

Həzrət Əbu Bəkr və həzrət Ömərin cənazəsi də bu taxtın üzərində daşınmışdı.» (Bəlazuri, «Ənsabul-Əşraf», I, 525)

❁

Buna bənzər başqa bir hədis də belədir:

«Səhabələrdən ən çox hədis rəvayət edən Əbu Hureyrə (r.a) hər zaman Peyğəmbərin -səllallahu əleyhi və səlləm- yanında olur, Onun hər hal və hərəkətini izləyirdi. Əbu Hureyrə (r.a) bir gün Peyğəmbərimizdən -səllallahu əleyhi və səlləm- soruşdu:

- Ey Rəsulullah! Sizdən çox hədis eşidirəm, ancaq onların bir çoxunu yaddımda saxlaya bilmirəm.

Bunu eşidən Peyğəmbər -səllallahu əleyhi və səlləm- Əbu Hureyrəyə belə buyurdu:

- Örtüyü yerə sər!

O da sərdi.

Rəsulullah -səllallahu əleyhi və səlləm- ona dua etdi və mübarək əlləri ilə bir şeyi ovcuna alıb çiyinə salınan paltarın üstünə nə isə atırmış kimi hərəkət etdi. Sonra belə buyurdu:

- Bu çiyninə örtdüyüm paltarı topla.

Əbu Hureyrə (r.a) bu əmri yerinə yetirəndə uca Allah ona elə güclü bir yaddaş ehsan etdi ki, eşitdiyi heç bir şeyi unutmadı.» (Tirmizi, «Mənaqib», 46)

❁

Firas adlı bir səhabə var idi. O da Peyğəmbərə aid bir əşyaya sahib olmaq istəyirdi. Bir gün Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- yanına gələndə Onun bir qabdan yemək yediyini gördü və bu qabı ona hədiyyə verməsini xahiş etdi. Heç kimin istəyinə yox deməyən Rəsulullah da -səllallahu əleyhi və səlləm- qabı ona bağışladı.

Həzrət Ömər (r.a) tez-tez Firasın evinə gedər və belə deyərdi:

- Tez o mübarək qabı bura gətir. O, Allah Rəsulunun mübarək əllərinin dəydiyi bu qabı Zəmzəm suyu ilə doldurub doyunca içər, artıq qalan suyu üz-gözünə səpərdi.» (İbn Həcər, «əl-İsabə», III, 202)

❁

Əbu Cuhayfə (r.a) belə söyləyir:

«Rəsulullah -səllallahu əleyhi və səlləm- günortanın istisində Bathaya çıxdı. Dəstəmaz aldı, günorta və ikindi namazını iki rükət olaraq qıldı. Önündə qısa bir nizə var idi… O zaman gördüm ki, insanlar qalxıb gedir, Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- mübarək əllərini tutur və üzlərinə sürtürdülər. Mən də bir əlini tutdum və o mübarək əlini üzümə sürtdüm. Birdən hiss etdim

ki, mübarək əli qardan daha soyuq, müşkdən daha gözəl ətirli idi.» (Buxari, «Mənaqib», 23)

❁

Ənəs bin Malik (r.a), Peyğəmbərin -səllallahu əleyhi və səlləm- Həcc ziyarətini anladarkən əshabi-kiramın onun saçı ilə təbərrük etmək üçün bir-biri ilə necə yarışdığını belə danışır:

«Rəsulullah -səllallahu əleyhi və səlləm- şeytana daş atmağı tamamladıqdan sonra qurbanını kəsdi və təraş oldu. Bərbər sağ tərəfdəki saçları tutdu və kəsdi. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm-, Əbu Talhanı çağırdı və bu saçları ona verdi. Sonra bərbər sol tərəfdəki saçları tutdu. Peyğəmbərimiz -səllallahu əleyhi və səlləm- kəsilməsini əmr etdi, o da kəsdi. Bunları da Əbu Talhaya verdi və belə buyurdu:

«Bunları insanlar arasında böl.» (Müslim, «Həcc», 326)

Ənəs (r.a) belə nəql edir:

«Rəsulullahı -səllallahu əleyhi və səlləm- gördüm, bərbər onun saçını qırxırdı. Əshab da sanki onun ətrafında pərvanə olmuşdu. Bir tək saç telinin belə yerə düşməməsi üçün çalışır, hər kəs o saç telinin onun olmasını istəyirdi.» (Müslim, «Fəzail», 75)

Belə ki, əshabi-kiram həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- həm əşyaları, həm də saç və saqqalının mübarək tükləri ilə təbərrük edirdi. Onlar döyüşlərdə belə bu təbərrük həyəcanı ilə yaşayırdılar. Bunun ən gözəl misallarından biri də Xalid bin Vəlidin (r.a), həzrət Peyğəmbərin saçlarından bir neçə mübarək tükü baş sarığında saxlamasıdır. Rəvayət olunduğuna görə, Xalid (r.a), Yərmük döyüşündə bu sarığı itirmişdi. Əsgərlərinə sarığın tapılmasını əmr etdi. Ancaq sarıq tapılmadı. Həzrət Xalid yenidən axtarmağı əmr etdi. Nəticədə, sarığı tapdılar. Baxdılar ki, çox köhnə bir sarıqdı. Səhabə bu köhnə sarığa görə Xalidin (r.a) bu qədər israr etməsinə heyrətləndilər. Bunu görən Xalid (r.a) belə söylədi:

«Rəsulullah -səllallahu əleyhi və səlləm- saçlarını kəsdirmişdi.

Əshab o saçları dərhal götürürdü. Mən də saçından bir neçə tük aldım və bu sarığın içinə qoydum. Bu mənim üçün elə bir bərəkət oldu ki, onunla girdiyim bütün savaşlar zəfərlə nəticələndi. Zəfərlərimin sirri mənim Rəsulullaha -səllallahu əleyhi və səlləm- olan məhəbbətimdir.»
(Heysəmi, «Məzmauz-Zəvaid», IX, 349)

❁

Əshabın gözünün önündə baş verən bu hadisələr maddəyə belə duyğuların təsir edə bildiyinin başqa bir dəlilidir. Önəmli olan zəruri həddi aşmamaq şərti ilə o təsirdən feyz ala biləcək bir könül sayıqlığına sahib olmaqdır.

Əshabi-kiramdan sonra da saleh insanlar (Allah onlardan razı olsun) təbərrüklə bağlı belə işləri öz dövrlərində də davam etdirmişlər. İmam Əhməb bin Hənbəl ilə həzrət İmam Şafii arasında olan bu hadisə bunun çox gözəl bir misalıdır:

«İmam Şafiinin tələbələrindən olan Rabi bin Süleyman söyləyir:

Bir gün İmam Şafii mənə belə dedi:

- Rabi, bu məktubu al, Əhməd bin Hənbələ çatdır və sonra da cavabını gətir.

Mən də məktubu aldım və Bağdada getdim. Sabah namazında Əhməd bin Hənbəllə görüşdüm. Onunla birlikdə sabah namazını qıldım. İmam bin Hənbəl mehrabdan ayrılanda məktubu ona verib belə dedim:

- Bu, Misirdən qardaşın İmam Şafiinin sənə göndərmiş olduğu məktubdur.

O mənə belə dedi:

- Məktubda nədən danışılır, bilirsənmi?

Mən də:

- Xeyr.

Bundan sonra Əhməd bin Hənbəl məktubun üzərindəki möhrü

qopartdı və məktubu oxumağa başladı. Birdən gözləri yaşla doldu. Mən ondan soruşdum:

- Ey İmam! Nə oldu? Məktubda nə yazır?

O da mənə belə dedi:

- İmam Şafii yuxusunda həzrət Peyğəmbəri görmüşdür. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- ona belə buyurmuşdur:

«Əhməd bin Hənbələ bir məktub yaz və məndən də salam söylə. Əlbəttə, o böyük bir fitnəyə məruz qalacaq və ondan: *«Quran məxluqdur (yaradılmışdır), deməsi tələb ediləcək. Əsla, bu tələbə boyun əyməsin! Allah onun adını qiyamətədək yaşadıb yüksəldəcək.»*

Mən:

- Ey imam! Bu, sənin haqqında çox böyük bir müjdədir,-dedim.

Bundan sonra İmam Əhməd bin Hənbəl sevincindən əynindəki köynəyini çıxardıb mənə verdi. Mən də məktubun cavabını aldıqdan sonra Misirə getdim. Məktubu İmam Şafiiyə təqdim etdim. Bundan sonra İmam Şafii mənə belə dedi:

- Onun hədiyyə etmiş olduğu bu köynəyi alıb səni üzmək istəmirik. Ancaq heç olmasa, onu bir suya batır və o suyu bizə ver ki, biz də o köynəyin bərəkətinə bu yolla ortaq olaq.»[13]

❁

Məscid minbərlərində çox diqqətlə qorunan Rəsulullahın mübarək saqqalı da səadət əsrindən bu günədək gəlib çatan feyzli bir səhər küləyi kimi ümmət üçün bir rəhmətdir. Allah Rəsuluna -səllallahu əleyhi və səlləm- olan sevgi və məhəbbətə görə Onun əziz xatirələrinə göstərilən hörmət də Rəsulullaha -səllallahu əleyhi və səlləm- duyulan könül bağlılığını gücləndirir. Peyğəmbər aşiqi olan möminlər bu əziz xatirələrindən istifadə etmişlər.

Osmanlı İmperiyasının heç bir İslam dövlətinə nəsib olmayan və altı yüz ildən çox davam edən ehtişamı, əslində, mənəviyyata verdiyi

13. Baxın, İbnül-Cevzi, «Mənaqibül-İmam Əhməd bin Hənbəl.» s. 609-610.

böyük önəmin nəticəsidir. Osman Qazinin məşhur bir rəvayətə görə, qonaq qaldığı bir otaqda Qurani-Kərim olduğuna görə gecə ayağını uzadıb yatmaması, Yavuz Sultan Səlim Xanın müqəddəs əmanətləri böyük bir təzim duyğusu ilə İstanbula gətirib, qırx hafiz təyin edərək bu əmanətlərin yanında dayanmaqla əsrlərcə fasiləsiz bir surətdə Qurani-Kərim oxunması Osmanlı dövlətinin dillərdə dastan olan böyüklüyünün başlıca mənəvi şərtlərindəndir.

Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- xirqəsinin və Topqapı sarayındakı müqəddəs əmanətlərin bu gün İstanbulda möminlərin ziyarətinə açılması da millətimiz və İslam dünyası üçün bir şərəf və təbərrük səbəbidir..

Mən sizə qəbir ziyarətini qadağan etmişdim. İndi isə ziyarət edin. Çünki qəbir ziyarəti sizə axirəti xatırladır. (Tirmizi, «Cənaiz», 60; Müslim, «Cənaiz», 106)

Qəbirstanlıqlar bir hikmət və ibrət məktəbidir, qəbir ziyarətləri də ölümü düşünməyin ən təsirli təlim vasitəsidir.

C. QƏBİR ZİYARƏTİ

İnsan həyatı boyu yaşamaq sevinci ilə ölümdən qorxmaq kimi iki dəhşətli ziddiyyət arasında çalxalanır. Hər zaman axıb gedən həyat və ölümün həqiqi mənasını dərk etmədən insanın həqiqi mahiyyəti, yaradılışındakı sirr və hikməti dərk olunmaz.

«Dünyaya gəliş və dünyadan gedişə» kimi iki böyük bilinməzliyin arasında sıxılan idrak dünyaya aid olan həqiqi bir dəyərə qovuşub, hal və hərəkətlərini bu ölçüyə görə tənzim etmədikcə fani dünyanın aldadıcı kölgələr aləmindən xilas olub gerçəklər yurduna doğru mənəvi bir yolçuluğa çıxa bilməz.

Mömin üçün ölüm Allahdan gələn bir vüsal salamıdır, sevinclər, lətafətlər, iltifatlar içində bir haldan başqa bir hala çevrilmədir. Kafir və fasiqlər üçün isə ölüm əzab və iztirab içində can verməkdir, cəhənnəmin atəş dəryasından qopub gələn bir əzab fırtınasıdır.

Bəşəriyyətin ən önəmli irfanı torpağın altında olan müəmmanı həll etməklə başlayır. Fikirlər, çalışmalar, araşdırmalar, mənəvi

dərinliklər və qəlbi duyğular ölüm həqiqətinin ətrafında bir pərvanəyə çevrilmədikcə bu *«məzar»* deyilən sirli ölkənin həqiqəti bilinməz.

Həqiqətən, həyatda insan üçün ən önəmli iki nəsihətçi var. Onlardan biri danışır, o birisi isə susur. Danışan nəsihətçi Qurani-Kərim, dərin sükutu ilə nəsihət verən isə ölümdür.

Bu həqiqətə arxalanan əcdadımız qəbirstanlıqları şəhərin ortasında və məscidin giriş-çıxış yerlərində salmışlar. Bunun məqsədi nəsihətçilərdən biri olan ölümdən yetərincə ibrət almaq olmuşdur. Onlar qəbirlərin yanında uzunömürlü sərv ağacı əkmişlər ki, yaz-qış solmasın və axirət aləminin sonsuzluğunun simvolu olsun.

Ölümün bilinən bir dili yoxdur. Ancaq o dərin bir sükutda necə böyük mənalar var! Qəbirstanlıqlar fani həyatını başa vuran ana, ata, uşaq, sevgili, qohum, dost ünvanları ilə doludur.

Allahın əmrlərinə uyğun bir həyat yaşayıb-yaşamadığımıza görə formalaşacaq qəbir aləmi haqqında həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Qəbir, ya cənnət bağçalarından bir bağça, ya da cəhənnəm çuxurlarından bir çuxurdur.» (Tirmizi, «Qiyamət», 26)

Həzrət Məhəmməd -səllallahu əleyhi və səlləm- bu ifadəni işlətməklə ölümlə həyat arasındakı sıx əlaqəyə işarə etmişdir.

Həqiqətən, qəbirstanlıqlar bir hikmət və ibrət məktəbidir. Qəbir ziyarətləri də ölümü düşünməyin ən təsirli təlim vasitəsidir.

Rəsulullah -səllallahu əleyhi və səlləm- şəxsən özü tez-tez ondan əvvəl axirətə köçmüş əshabının qəbrini bir vəfa örnəyi olaraq ziyarət etmiş və onlara dua etmişdir.

Belə ki, həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- Uhuddakı şəhidlərin qəbrini ziyarət edər və belə deyərdi:

«Səbir etdiyiniz şeylərə əvəz olaraq sizlərə salam olsun! Sizlər üçün axirət yurdu nə qədər gözəldir!» (Təbəri, «Camiul-Bəyan», XIII, 186; İbn-Kəsir, «Təfsir», II, 529)

Həzrət Məhəmməd tez-tez Baqi məzarlığına gedər, orada uyuyanlara salam verər və belə dua edərdi:

«Ey möminlər yurdunun sakinləri! Sizə salam olsun. Bizlər də, inşallah, sizlərə qovuşacağıq. Uca Allahdan bizim və sizin üçün gözəllik və salamatlıq diləyirəm.» (Müslim, «Cənaiz», 104)

Hətta, bir gecə yarısı Peyğəmbər -səllallahu əleyhi və səlləm, həzrət Aişənin otağında yatarkən Cəbrail -əleyhissalam- Onu oyandırdı və gətirdiyi əmri təbliğ etdi. Uca Allah onun Baqi məzarlığına gedib ölülərə dua etməsini istəyirdi.

Allah Rəsulu -səllallahu əleyhi və səlləm-, həzrət Aişəni (r.a) oyandırmamağa çalışaraq yavaşca qalxdı. Onun bu halı hələ yuxuya getməmiş olan Aişə anamızın diqqətini cəlb etdi. Sonra da Rəsulullahın -səllallahu əleyhi və səlləm- arxasına düşərək Cənnətül-Baqi qəbirstanlığına qədər onu izlədi.

Həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- iki gözünün iki çeşməyə çevrilib ağlayaraq ümmətinə dua etdiyini görəndə isə, tutduğu işdən utandı. Orada bir az durub, şanlı Peyğəmbərin bu coşqun halını seyr etdi. Sonra da qaçaraq evə döndü və yorğanını başına çəkərək özünü yatmış kimi göstərdi. Onun arxasınca tez evə dönən Peyğəmbər -səllallahu əleyhi və səlləm-, həzrət Aişənin tez-tez nəfəs aldığını görəndə vəziyyəti başa düşdü və onu danlayaraq belə dedi:

«*Allah və Rəsulunun sənə haqsızlıq edəcəyindən qorxdunmu?»* (Müslim, «Cənaiz», 103)

Həzrət Məhəmməd bu sözləri ilə uca Allahdan gələn buyruğu yerinə yetirdiyini ifadə etmiş oldu.

Kainatın Fəxri -səllallahu əleyhi və səlləm- özü tez-tez belə qəbir ziyarətlərinə getdiyi kimi, əshabını və ümmətini də bu mövzu ilə bağlı aşağıdakı sözləri ilə təşviq etmişdir:

«Mən sizə qəbir ziyarətini qadağan etmişdim. İndi isə ziyarət

edin. Çünki qəbir ziyarəti sizə axirəti xatırladır» (Tirmizi, «Cənaiz», 60; Müslim, «Cənaiz»,106)[14]

Qəbir ziyarəti ziyarət edən üçün bir ibrət vasitəsi olduğu kimi, ziyarət edilənlər üçün də bir rəhmət vəsiləsidir. Çünki qəbrə girən şəxs bataqlığa düşən insan kimi imdad gözləyir.

İbn Abbas (r.a) belə rəvayət edir:

«Peyğəmbər -səllallahu əleyhi və səlləm- iki qəbrin yanından keçərkən onlar haqqında belə buyurdu:

«İkisi də əzab çəkir, ancaq bu əzab böyük bir günaha görə deyil. Birisi söz gəzdirdiyinə görə, o birisi isə kiçik dəstəmazı pozarkən zəruri olduğu şəkildə qorunmadığına görə əzab çəkir».

Bundan sonra O, yaş bir xurma budağı istədi. Bu yaş budağı iki yerə böldü. Sonra bunları qəbirlərin baş hissəsinə sancdı. Sonra da sözlərinə belə davam etdi:

«Qurumadıqları müddətdə onların əzabını yüngülləşdirəcəyinə ümid edirəm.» (Müslim, «Təharət», 111)

Müfəssir Qurtubi bu hədisi-şərifi belə izah edir:

Hədisin «Qurumadıqları müddətdə» qismi o budaqların yaş qaldığı dövrdə təsbih etdiklərinə işarə edir. Belə ki, alimlərimiz buyurmuşlar:

«Qəbirlərin yanına əkilən ağaclardan və orada oxunan Quran-Kərimdən məzarda olanlar istifadə edərlər. Bir ağac əkmək belə ölülərin əzabını yüngülləşdirirsə, bir möminin Quran oxumasından kim bilir nə qədər istifadə edərlər. Ölüyə hədiyyə edilən şeyin savabı da ona çatır.» (Qurtubi, «Təfsir», X, 267)

Quranın oxunmasına görə əldə ediləcək ilahi rəhmətdən ölülərin də istifadəsi üçün, xüsusilə mübarək «Yasin» surəsinin oxunması hər kəsin bildiyi və tətbiq etdiyi bir üsuldur.

14. Cahiliyyə dövründə insanlar əcdadlarına aid olan ruhların bir müqəddəslik qazandığını düşünərək bununla fəxr edirdilər və buna görə də qəbir ziyarətinə gedirdilər. Uca Peyğəmbər bu batil olan cəhalət dövrünün adətindən bir nişanə qalmaması üçün ilk zamanlar qəbir ziyarətini qadağan etmişdi. Bu təhlükə ortadan qalxan kimi bilavasitə ölümü düşünmək məqsədi ilə qəbirlərin ziyarət edilməsinə icazə verdi.

Belə ki, hədisi-şəriflərdə buyurulur:

«… Yasin Quranın qəlbidir. Bir şəxs onu Allahın rizasını və axirət yurdunu istəyərək oxusa, şübhəsiz, günahları bağışlanar. Ölülərinizə də «Yasin» surəsini oxuyun.» (Əhməd b. Hənbəl, «Müsnəd», V, 26)

«Sizdən biri vəfat edəndə onu çox saxlamadan qəbirə qoyun. Dəfn etdiyiniz zaman da biriniz onun baş tərəfində Fatihə surəsini, ayaq tərəfində də əl-Bəqərə surəsinin son hissəsini oxusun.» (Təbərani, «əl-Mucəmül-Kəbir», XII, 340; Deyləmi, «Müsnəd», I, 284; Heysəmi, «Məcmauz-Zəvaid», III, 44)

Ala bin əl-Ləclac əshabi-kiramdan olan atası Ləclac vəfat edəndə ona bu vəsiyyəti söylədiyini rəvayət etmişdir:

«Məni qəbirə qoyduğunuz zaman

« Bismillah və əla sünnəti Rəsulillah »[15] deyin və üzərimə torpaq atın. Baş tərəfimdə «Bəqərə» surəsinin əvvəlini və son hissəsini oxuyun. Şübhəsiz, mən Abdullah bin Ömərin bu dediklərinin gözəl olduğunu söylədiyinin şahidi olmuşam.» (Beyhəqi, «əs-Sünənül-Kübra», IV, 56)

Əshabi-kiramdan Amr bin Asın (r.a) vəfatı zamanı ətrafındakılara vəsiyyət olaraq söylədiyi bu sözlər də diqqəti cəlb edir:

«Məni qəbirdə dəfn etdiyiniz zaman bir dəvə kəsib ətinin bölünməsi üçün lazım olacaq vaxt qədər məzarımın başında gözləyin ki, sizin varlığınızla yeni həyatıma alışmağa imkan tapım və Rəbbimin elçilərinə verəcəyim cavabları hazırlayım.» (Müslim, «İman», 192)

Bu hədisi kitabında rəvayət edən Nəvəvi İmam Şafiinin (r.a) bu sözlərini nəql etmişdir:

«Məzarın başında Qurandan ayə və surələr oxumaq müstəhəbdir. Quranın hamısının oxunması (xətm edilməsi) isə daha gözəldir.» (Nəvəvi, «Riyazüs-Salihin», 293)

Bu rəvayətlərdən də anlaşıldığı kimi, qəbirləri ziyarət etmək,

15. Allahın adı ilə və Rəsulullahın -səllallahu əleyhi və səlləm- sünnəsinə görə səni Haqqa əmanət edirik.

orada olanlara salam verib, dua oxumaq və bağışlanma istəmək, onlar üçün bir xeyir iş görüb Qurani-Kərim oxumaq ölülər üçün bir rəhmət vəsiləsidir. Qurani-Kərimdə Rəbbimiz bizdən öncə axirətə köçmüş mömin qardaşlarımız üçün belə dua etməyimizi buyurmuşdur:

«Onlardan (mühacirlərdən və ənsardan) **sonra gələnlər** (tabiin) **belə deyərlər: «Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş** (din) **qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə** (həsədə) **yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən.»** (əl-Həşr, 59/10)

Ancaq qəbir ziyarətlərində diqqət ediləcək başqa bir məsələ də bir sıra yanlış işlərdən və bidət davranışlardan uzaq olmağın zəruriliyidir.

Alimlər möminlərin qəbir ziyarətləri ilə bağlı ölçüsüz davranışlardan qorunmaq üçün bir çox şeylər yazıb söyləmişlərsə də, bu məsələ ilə bağlı yanlış işlər bu günədək təəssüf ki, davam edir və onun qarşısını almaq mümkün olmamışdır.

Dini savadı az olan insanların düşüncəsini bir xeyli qarışdıran qəbir ziyarəti və onunla bağlı duyğu və davranışların ölçüsüzlükdən təmizlənməsi çox çətin bir işdir. Çünki insanın mücərrəd həqiqətləri qavramaqdakı zəifliyi qəbir ziyarətini bəziləri üçün, sanki Allaha şərik qoşmaq kimi sayılacaq bir məzmuna bağlamışdır. Qəbirlərin başında şam yandırmaq, çit bağlamaq və o qəbirdə yatan insanlardan yardım istəmək kimi… Bu, xristianların mücərrəd bir Allah məfhumunu qavramaqdakı gücsüzlüyünə görə günahsız bir Peyğəmbər olan həzrət İsaya uluhiyət aid etmələri kimi bir zəflik və acizliyin təzahürüdür. Başqa yöndən bu ifrat davranışlara qarşı bir əks fikir olaraq ortaya qoyulmuş başqa bir anlayış da qəbir ziyarətinin Allaha şərik qoşmaq sayılmasıdır. Bu düşüncə də əvvəlki kimi doğru deyil.

İslam bütün məsələlərdə olduğu kimi, qəbir ziyarəti ilə bağlı məsələlərdə də orta yolun tərəfdarıdır. Yuxarıda deyildiyi kimi, həzrət Peyğəmbər və əshabi-kiramın qəbir ziyarəti ilə bağlı söz və davranışları bu məsələdə ölçüsüzlüyə yuvarlanmadan necə hərəkət edilməsinin zəruriliyini bizlərə göstərir.

İbn Abbas (r.a) deyir:

«Sad bin Ubadənin (r.a) anası vəfat etmişdir. O, Peyğəmbərin yanına gələrək soruşdu:

- Ey Allahın Rəsulu! Yanında olmadığım bir zamanda anam vəfat etdi. Onun adına sədəqə versəm, ona bir faydası olarmı?

Allah Rəsulu -səllallahu əleyhi və səlləm:

- *Bəli.*

Sad (r.a):

- Ey Allahın Rəsulu! Siz də şahid olun ki, meyvə bağçamı anamın adına sədəqə verirəm.» (Buxari, «Vəsayə», 15)

Hidayət rəhbərimiz həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«İnsan öləndə bütün əməlləri bitir. Ancaq bu üç şey bundan müstəsnadır:

Tükənməyən sədəqə, istifadə edilən elm və ona dua edən xeyirli övlad.» (Müslim, «Vəsiyyət», 14)

Bu hədisi-şəriflər vəfat etmiş möminlərin sağ olarkən etdikləri və vəfat etdikdən sonra da davam etməkdə olan gözəl işlərindən fayda görəcəklərini, bundan başqa həyatda olan yaxınlarının və mömin qardaşlarının dua və infaqlarından istifadə edə biləcəklərini bəyan edir və onları bu gözəl işləri etməyə yönəldir.

Həqiqətən, axirətə köçmüş bir möminin arxasından savabı ona aid olmaq niyyəti ilə bir çox gözəl işlər görülməlidir. Yuxarıdakı hədisi-şərifin məzmununa görə vəfat edən bir möminin xeyirli işləri davam etdiyi müddətdə savabı da davam edər və əməl dəftəri bağlanmaz. Vəfat edəndə təkbaşına qəbir aləminə girib, dünyaya vida edən bir mömin üçün varislərinin və gerçək dostlarının bir vəfa borcu olaraq müxtəlif xeyir işlər görmələri ən fəzilətli əməllərdən sayılır.

Xüsusilə, ölünün borclarını ödəmək həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- tərəfindən təşviq edilmiş bir gözəl əməldir. Həzrət

Peyğəmbər -səllallahu əleyhi və səlləm- bir cənazə gəldiyi zaman onun borcu olub-olmadığını soruşar, borcu ödənildikdən sonra cənazə namazını qılardı. Bu hal ölülərimiz üçün bizlərin edəcəyi işlərlə bağlı gözəl bir mərhəmət təlimidir.

Bu məsələ ilə bağlı İmam Məhəmmədin zəruri səbəblərə görə tutulmayan və qəza etməyə də güc çatdırılmayan orucların yerinə fidyə verilməsi ilə müqayisə edərək, qılınmamış namazların da bağışlanması ümidi ilə «iskati-salət» deyilən bir ictihadı var. Buna görə qılınmamış hər vaxt namaz üçün bir yoxsulun bir günlük yeyəcək ehtiyacının ödənməsi, ya da bunu əvəz edəcək bəlli bir məbləğin infaq edilməsi zəruridir. Ancaq ediləcək bu infaq miqdar baxımından heç bir dəyişikliyə uğramadan olduğu kimi ehtiyacı olan şəxsə verilməlidir. İmam Məhəmmədin bu ictihadında üç mühüm fayda var:

a) İnfaqa təşviq və infaq edənin savab qazanması

b) Möhtac olanların sevinib, ölən üçün dua etməsi

c) Ölü üçün uca Allahın əfv və rəhmətinin ümid edilməsi.

Ölünün xeyirinə edilməkdə olan *«iskat»*[16] təəssüf ki, günümüzdə *«devir»*[17] edilmək yolu ilə əsl qayəsindən uzaqlaşdırılaraq İslamın ruhuna zidd olan bir mahiyyət qazanmışdır.

«Devir» adı verilən bu iş müəyyən mənada bir hiylədir. Bu cür yanlış bir yolla icra edilməmiş bir ibadət, əslində, infaq edilməmiş

16. **İskat:** Namaz, oruc, qurban, adak, kəfarət kimi ibadət və borcları yerinə yetirmədən vəfat etmiş bir şəxsi bu borcdan qurtarmaq üçün yoxsullara onların nağd əvəzini ödəməyə deyilir. (Hayrettin Karaman, «Əbədiyyət Yolçusunu Uğurlarkən», s. 81-85)

17. **Devir:** Nağd əvəz vermək yerinə müəyyən miqdar pulu bir bez parçasına bükərək kasıba bağışlamaq, sonra onu bağışlamaq yolu ilə yenidən geri almaq və borc bitənədək bu işi davam etdirməyə deyilir. Belə bir təcrübə həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm, tabiin və təbəi-tabiin dövründə yoxdur. Ancaq iskata hicri ikinci əsrin sonlarında, devir şəklində iskata isə hicri beşinci əsrdə icazə verilmişdir. Yaşadığımız dövrdə bir adətə çevrilmiş olan və islamın qaynaqlarına bağlı olduğu hesab edilən devir adəti, infaqda xəsisliyə və ibadətlərdə tənbəlliyə səbəb olan bir bidətdir. Bu baxımdan devir adətinin tərk edilməsi və ölünün adına həqiqətən sədəqə verilməsi, xeyir işlər görülməsi, qüsurlarının bağışlanması üçün də uca Allaha yalvarılması zəruridir. Bu yolla həm sünnəyə uyğun hərəkət edilmiş, həm də edilən maddi ibadətlər, xeyirlər və sədəqələr həqiqi sahiblərini, yəni ona möhtac olan şəxsləri tapmış olacaq. (Hayrettin Karaman, «Əbədiyyət Yolçusunu Uğurlarkən», s. 81-85)

sədəqə görüntüsü yaradan bir davranışla əvəz edilməyə çalışılır. Belə ki, axirətə köçmüş bir şəxsin üzərində olan namaz borclarından[18] təmizlənməsi məqsədilə ortaya bir az pul qoyularaq bunun xalis bir niyyətlə ehtiyac sahiblərinə verilməsi zəruri olduğu halda, təəssüf ki, çox zaman bir neçə şəxs arasında «aldım, qəbul etdim; bağışladım», ifadələri ilə əldən-ələ ötürülməkdə, bununla da guya infaq edilən məbləğin miqdarı artırılmaqdadır.

Az bir pulu bir çox insana (niyyəti əvvəlcədən bəlli olan bir hərəkətlə) öncə verib, sonra geri almaq, daha sonra bir başqasına verib, yenə geri almaq və bu yolla pul verilənlərin sayına uyğun olaraq bu məbləğin çoxalmış olduğuna və xeyrin artdığına inanmaq bunu edənlərin ancaq özlərini aldatdıqları çirkin bir bidətdir. Xüsusilə, varlı insanların belə bir yola baş vurması və bundan bir nəticə umması insanı heyrətə salır. Həm də bu vəziyyət kənardan baxanların böyük bir məntiqsizlik olaraq dəyərləndirdiyi və Allah qorusun, guya Allahı aldatmağa çalışmaq kimi gördüyü boş bir işdən başqa bir şey deyil.

Ey Rəbbimiz! Niyətlərimizi öz rizan ilə uyğunlaşdır! Dünyaya meyil edib, özünü bir su gölməçəsində həlak edənlərin aqibətindən bizləri qoru! Ey mərhəmətlilərin ən mərhəmətlisi olan Rəbbimiz! Həyatımızı və ölümümüzü saleh qullarına lütf etdiyin bərəkət, nemət, ülvi gözəlliklər və Sənə qovuşmaq ilə bəzə və mükəmməl et!

Ey Rəbbimiz! Kainatı ilahi məhəbbət gözlüyü ilə tamaşa edə bilməyi, onu şüur, duyğu, vicdan titrəyişləri və imana bağlı həyəcanlar bucağından seyr etməyi, gözlərdən axan peşmanlıq şehləri ilə bağışlanma iqlimlərinə çatmağı, üzü ağ və vicdan rahatlığı ilə Sənin hüzuruna gəlməyi hamımıza nəsib et!

Amin!

18. Bu namaz borcları deyilərkən aşağıdakılar nəzərdə tutulur: Vəfat edən bir şəxsin həyatda olarkən qıla bilmədiyi, ya da səmimiyyət və təslimiyyət kimi batini şərtlərə layiqincə əməl etmədən qılmış olduğu namazlardır. Burada yuxarıda deyilən borcu ödəmək prinsipinə arxalanaraq səhlənkarlıq və tənbəlliyə görə qılınmamış namazlar nəzərdə tutulmur.

BEŞİNCİ BÖLMƏ

HAQQ DOSTLARINDAN NƏSİHƏTLƏR



Xoş gör

Haqq dostlarının xəbərdarlıq və nəsihətləri Quran iqliminin və Allah Rəsulunun söhbətlərinin bir əksidir.

HAQQ DOSTLARINDAN NƏSİHƏTLƏR

Təsəvvüf yolunda zahirini və batinini kamilləşdirmiş və mənəvi mərhələləri qət edərək davranış mükəmməlliyinə qovuşmuş olan Haqq dostları «peyğəmbərlərin varisləri» anlayışı ilə ifadə olunan bir şərəfə nail olmuş bəxtiyarlardır. Onlar nəbəvi tərbiyə və davranış mükəmməlliyinin ayrı-ayrı zamanlara yayılmış zirvələridir. Yəni onlar həzrət Peyğəmbər və onun əshabını görmək şərəfinə nail olmayanlar üçün əməli və canlı rəhbərlərdir.

Hədisi-şərifdə buyurulur:

«(Zahirini və batinini kamilləşdirmiş, elmini irfan halına gətirmiş) alimlər Peyğəmbərlərin varisləridir.» (Əbu Davud, «Elm», 1)

Uca Allahın Rəhman və Rəhim adlarının təcəllalarına nail olan bu kamil möminlərdə mərhəmət və şəfqət bir xarakterə çevrilmişdir. Bu saleh möminlər «nəfsim, nəfsim» eqoistliyindən xilas olub, «ümmətim, ümmətim» qayğıkeşliyinə nail olaraq bir irşad ömrü yaşarlar. Onların irşad ömürləri fani cəsədlərindən sonrada davam

edər. Onlar nəfslərini islah edərək ruhlarını bir körpüyə çevirib ilahi vüsala qovuşanlardır ki, ümməti də bu yolla apararaq Rəbbə qovuşdurmağa çalışırlar. Onlar qurtuluş gözləyən kütlələrin müəllimidir. Allah və Onun bəndələrinin hüzurunda bir camaatın məsuliyyətini vicdanlarında daşıyan qəhrəmanlardır.

Haqq dostlarının xəbərdarlıq və nəsihətləri Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- söhbətlərinin bir əksidir. Çünki mənəvi istifadənin mərkəzi odur. Ruhu həyəcanlarla dolu olan söhbət, xəbərdarlıq və nəsihətlər məhz o mərkəzdən ardıcıl olaraq axıb gələn parıltılardır. Haqq dostları belə məclisləri qənimət bildiklərinə görə, onlar həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- iyirmi üç illik peyğəmbərlik həyatını sözlə, əməllə və duyğu ilə ümmətə çatdıran örnək şəxsiyyətlər olmuşlar.

Haqq dostu işığın ətrafında fırlanan pərvanələr kimi uca Allah məhəbbəti ilə iradəsiz olmuşdur. Artıq uca Allah onun görən gözü və eşidən qulağıdır. Haqqın eşq və məhəbbətinin təcəllası altında olduğu üçün hər rəng işığı qırmaq özəlliyi eyni olan, içindən keçən şüaları yaxınlaşdıran, ya da uzaqlaşdıran bir kağızın yanması kimi nəfsani təmayüllər onda ömrünü başa vurmuşdur. Bu yolla bir nurani cazibə mərkəzinə çevrildiyindən başqa insanlar da iradi, ya da qeyri-iradi onları sevər və könülləri onlara doğru axar. Onların xəbərdarlıq və nəsihətləri ruhlara məlhəm və şəfa olar.

Bu ülvi üfüqə və mənəvi gücə nail olan Haqq dostlarının xəbərdarlıq, irşad və nəsihətləri elmi ilə əməl etməyən kimsələrin nəsihətlərinin əksinə olaraq qafil könüllərin oyandırılmasında daha böyük bir qiymət və təsirə sahibdir. Bu baxımdan onların bərəkətli nəsihətlərini misilsiz bir nemət bilməli və bu düşüncə ilə onların ruhlara rahatlıq bəxş edən irşadlarına səmimiyyət və məhəbbətlə könül verilməlidir. Haqq dostlarının əbədi səadət yolunu işıqlandıran, istiqamət göstərən bir çıraq kimi olan bu nəsihətlərindən bir neçə misal:

❁

Həsən Bəsri *-qüddisə sirruh-* (d.642, v. 728)

Ey Adəm oğlu! Həqiqi mömin ehsan sahibi olsa belə, yenə də sabahı qorxu içində açmalıdır. Çünki ona da bu yaraşır. Mömin axşama da yenə eyni qorxu ilə qovuşar. Bəli, o hər zaman bu iki qorxu arasındadır.

1. Keçmiş günahlar. Bu günahlarına görə uca Allahın ona necə münasibət göstərəcəyini bilməz.

2. Gələcək həyatı. Necə bir həyat yaşayacaq, son nəfəsi necə olacaq? O hər zaman bu sualların cavabını düşünər.

Ey insanlar! Bu həqiqəti dərk edərək saleh əməllər edin. Allah və Rəsulu etdiyiniz işləri görür. Siz bir gün gizli olanı və aşikarı bilən Allahın hüzuruna qayıdacaqsınız. Bax o gün etdiyiniz bütün işlər bir-bir sizə xəbər veriləcək.

Siz qəlblərinizə çox diqqət edin. Onları davamlı olaraq Allahın zikri ilə təzələyin. Çünki qəlb tez paslanır. Nəfslərinizi də cilovlayın. Çünki o, çox azğındır. Əgər siz nəfslərinizin çirkin istəklərinə mane olmasanız. O, bir gün sizi qorxunc bir uçuruma yuvarlayar.

Öz eyiblәriniz olduğu halda başqalarında eyib axtarmaqdan əl çəkmədikcə kamil iman sahibi ola bilməzsiniz. Belə olduğuna görə, başqalarının eyiblərinə baxmazdan öncə öz eyiblərinizə diqqət yetirin və onları düzəldərək işə başlayın!

Ey insanlar! Qurani-Kərim möminlər üçün şəfa, inananlar üçün rəhbərdir. Kim ona tabe olarsa, hidayətə qovuşar və doğru yolu tapar. Ondan üz çevirən bədbəxt olar və fəlakətlərə sürüklənər.

Ey Adəm oğlu! Təkbaşına öləcək, təkbaşına diriləcək, təkbaşına hesaba çəkiləcəksən!

❁

Malik bin Dinar *-qüddisə sirruh-* (--- v.748)

Bu iki şeydən başqa dünyada səfa qalmadı:

1. Qardaşlarla qarşılaşmaq və onlarla söhbət etmək.

2. Təhəccüd namazına qalxmaq və bərəkətli vaxtda doyunca zikr etmək, Quranla məşğul olmaq.

❁

Cəfər Sadiq -*qüddisə sirruh*- (d.699, v. 766)

Bir saleh əməl edəndə onu gözündə kiçilt və gizli saxla. Çünki etdiyin işi kiçik hesab etsən, səni özünü bəyənməyə yönəltməz. Onu gizləsən, əksiyi tamam olar, yəni fəziləti artar. Tələssən, o saleh əmələ daha tez qovuşmuş olarsan. Çünki nəfs zəiflik göstərib onu gecikdirə bilər və ya səni bu saleh əməli etməkdən uzaqlaşdıra bilər.

Mömin qardaşına aid sevmədiyin bir şey eşitsən, təkidlə onun bir səbəbinin olacağını düşün. Əgər belə bir səbəb tapa bilməsən, "bəlkə mənim anlaya bilmədiyim bir səbəb vardır" de və eybini ört!

❁

Süfyan Sevri -*qüddisə sirruh*- (713-777)

Elm, Allahdan qorxmaq, Onun əmrlərini yerinə yetirmək üçün öyrənilməlidir. Elmin fəzilət baxımından üstün olması insanı deyilən duyğuların sahibinə çevirdiyi üçündür. Belə olmasaydı, o da başqa əşyalar kimi sayılardı.

Xorasana gedib təbliğat aparmaq, Məkkədə qalıb yaşamaqdan sənin üçün daha faydalıdır.

Elm öyrənmək üçün ilk zəruri şərt bu elmi tapmağın yollarını axtarmaqdır. Bu elmi tapandan və onu əldə edəndən sonra onun ardınca əməl gəlir… Sonra sükut və təfəkkür… Daha sonra kainata ibrət nəzəri ilə baxış…

❁

Cüneyd Bağdadi -*qüddisə sirruh*- (--- 909)

Allah ilə söhbət, yəni onunla birgə olmaq gözəl bir ədəb, heybət və özünün hər zaman uca Allahın qarşısında hiss etmək halının davamı ilə;



Rəsulullah -səllallahu əleyhi və səlləm- ilə söhbət Onun sünnəsinə və ömür yoluna tabe olmaq ilə;

Allah dostları ilə söhbət, ehtiram və xidmət ilə;

Ailə üzvləri ilə söhbət, gözəl əxlaq ilə;

Qardaşlarla söhbət, hər zaman gülərüzlü olmaq və onları sevindirməklə;

Avam ilə söhbət isə dua və mərhəmət ilə olur.

❁

İmam Qəzali -*qüddisə sirruh*- (--- 1111)

Oğlum! Bu üç ibadətində mütləq surətdə qəlbini ayıq saxla, ağlın ilə qəlbin ayrı-ayrı olmasın! Bunlar, Qurani-Kərim oxumaq, Rəbbini zikr etmək və namaz qılmaq ibadətləridir. Bu üç halda bir an belə ağlını və könlünü başqa yerə yönəltmə. Allahın hüzurunda olduğunu unutma! Əgər yönünü qibləyə çevirsən, ancaq ağlın başqa işlərlə məşğul olsa, bu gördüyün işin dəyəri olmaz. Yönünü İslamın doğulduğu ilk məbəd olan Kəbəyə çevir, qəlbini də həzrət Allaha bağla! Əgər ariflərdən olmaq istəsən, sükutun fikir, baxışın ibrət və diləyin itaət olsun. Çünki bu üç xislət ariflərin əlamətidir.

Oğlum! Qul borcundan son dərəcə çəkin! Bir quruş borc üzündən qəbul olunmuş bir çox ibadətin savabı yox olar. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- borclu olaraq ölənlərin namazını qılmazdı. Onun məqsədi varlı adamları mərhəmətə gətirib,varlı adamların borc verdiklərini geri almaqdan imtina etməsini təmin edərək bu borcu borclu olana bağışlamaq idi. Mömin borc alarkən lazım olduğundan artıq borc götürməz. Ancaq ehtiyac üzündən borc götürərsə və bu borcu ödəmək niyyəti ilə alarsa, uca Allah ona yardımçı olar. Hətta, bu borcu ödəmək üçün çalışıb, ancaq onu ödəmədən ölərsə, qiyamətdə də Allah yardımçısı olar.

Bəlaya da şükr etmək lazımdır. Çünki küfr və günahlardan başqa bəla yoxdur ki, onun içində sənin bilmədiyin bir yaxşılıq olmasın! Allah sənin yaxşılığını səndən daha yaxşı bilir. Şər hesab etdiyin çox



şey vardır ki, sənin üçün xeyirdir. Xeyir hesab etdiyin çox şey vardır ki, sənin üçün şərdir. Ən salamat yol ilahi təqdirə razı olmağın, hər halına şükür deyə bilməyindir.

Oğlum! Son dərəcə diqqət yetirəcəyin bir cəhət varsa, o da kimlər ilə oturub durmağındır. Bunu yaxşı bil ki, bir səbət sağlam alma içindəki bir çürük almanı sağlamlaşdıra bilməz. Ancaq bir çürük alma bu almaların hamısını çürüdər. Buna görə də hər zaman saleh insanlarla oturub dur!

Yaxşı yoldaş da gül yağı satana bənzəyər, ya satın alarsan, ya o sənə bu yağdan bir az sürtər, ya da heç olmasa, onun yanında olduğun müddətdə bu yağın gözəl ətrini duyarsan. İnsan sevdikləri ilə bərabərdir. Dünyada kimi sevər və kim ilə oturub-durarsan, qiyamətdə də onunla həşr olunarsan. Ona görə də elmi ilə əməl edən alimlərin və salehlərin söhbətində davamlı olaraq iştirak et!

Oğlum! Həyatda hər şey Allahın bölgüsü ilədir. Allah kimini varlı, kimini yoxsul, kimini şikəst, kimini alim və kimini də cahil etmişdir. Dünyanın nizamı ancaq bu yolla təmin oluna bilər. Özündən aşağı səviyyədə olan şəxsləri görəndə təkəbbürlənərək onlara pis gözlə baxma! Sən onların yerində, onlar da sənin yerində ola bilərdi. Bunu düşünərək yoxsullarla yoldaş ol! Onlara münasibətdə hər zaman təvazökar olmağa çalış! İnsanlıq və İslam vüqarını qoru! Səadət ancaq bu yolla əldə edilə bilər. Dünya və axirətdə rahatlıq istəyirsənsə, heç kimi incitmə! Səndən gənc olan bir şəxsi gördüyün vaxt: «Bunun günahı mənim günahımdan azdır», səndən yaşlı şəxs gördüyün vaxt «Bunun savabı mənim savabımdan çoxdur, bilmədiyim yönləri ilə məndən daha fəzilətlidir», düşüncəsi ilə onlara bax. Bir alim görəndə: «Bunun elmi var, özünü xilas edər», səndən cahil olanı görəndə: «Bu bilməz, Allah onu bağışlayar», deyə düşün! Hətta, bir kafir gördüyün vaxt son nəfəs bəlli olmadığına görə: «Uca Allah bunu hidayətə yönəldərsə, bütün günahları bağışlanmış və tərtəmiz olaraq Allahın hüzuruna çıxa bilər. Görəsən, mənim son nəfəsim necə olacaq?» -deyə öz aqibətini düşün! Özünü nə qədər tanısan və nə qədər aşağı hesab etsən, Allah yanında o ölçüdə hörmət qazanarsan.

Oğlum! Əlindən gəldiyi qədər din qardaşlarının ehtiyaclarını ödə! Çünki Allah Rəsulu belə buyurmuşdur:

«Kim mömin qardaşının bir ehtiyacını ödəyərsə, uca Allah da onun bir ehtiyacını ödəyər.» (Buxari, «Məzalim», 3)

Başqa bir hədisi-şərifdə həzrət Məhəmməd -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Kim bir müsəlmanın eybini örtərsə, uca Allah da dünya və axirətdə onun eybini örtər.» (Müslim, «Birr», 72)

Ağlı olan şəxs öz nəfsinə deməlidir ki, mənim sərmayəm ancaq ömrümdür. Başqa bir şeyim yoxdur. Bu sərmayə o qədər qiymətlidir ki, verilən hər nəfəs, artıq heç bir şəkildə bir daha ələ keçməz. Nəfəslər sayılıdır və azalmaqdadır. O halda nəfəslərini yaxşı dəyərləndir və bu fani dünyaya sabah öləcəksənmiş kimi bax. Bütün bədən üzvlərini haramdan qoru və təqvaya sarıl.

Allahım! Ömrümüzü səadətlə başa çatdır! Bizi Allahın rizasına və Camalullaha nail elə! Səhər-axşam bizi gözəlliklərdən ayırma! Təqvanı bizim üçün mənəvi qida et, təvəkkül və inamımızı Sənə yönəlt! Bizi haqq yolda sabit qıl! İbadətə layiq ancaq Sənsən! Səni nöqsan sifətlərdən uzaq tuturam. Sənə layiqincə qulluq edə bilmədiym üçün zalımlardan oldum.

Həmd aləmlərin Rəbbi olan uca Allahadır. Kainatın Fəxri olan həzrət Məhəmməd Mustafaya salət və salam olsun!

❁

Abdülqadir Geylani -*qüddisə sirruh*- (1077-1166)

Ey oğul! Sənə təqva lazımdır. Buna görə də təqvanın şərtlərini yerinə yetirməyə çalış ki, qəlbin daxili düşmənlikdən və çirkin xasiyyətlərdən xilas olsun, xeyir yola yönəlsin.

Ey oğul! Dünya malı toplayarkən gecə odun toplayan, ancaq əlinə nə keçdiyini bilməyən bir şəxs kimi olma. Əlinə keçən dünya malının halal, yoxsa haram olduğunu, qanuni, yoxsa qeyri-qanuni olduğunu öyrən. Bütün işlərində tövhid və təqva günəşi ilə birgə ol.

Ey oğul! Quran ilə əməl etmək səni Quranın mövqeyinə yüksəldər, o ucalıqda əyləşdirər. Sünnə ilə əməl etmək isə səni Allahın Rəsuluna yaxınlaşdırar. Rəsulullahın -səllallahu əleyhi və səlləm- qəlbi və mənəvi gücü ilə Allah dostlarının qəlblərinin çevrəsindən bir an olsun belə ayrılmazsan. Allah dostlarının qəlblərini gözəlləşdirən odur.

Ey oğul! Haram yemək qəlbi öldürür. Halal yemək isə qəlbi dirildir. Tikə vardır ki, səni dünya ilə, elə tikə də vardır ki, səni axirətlə məşğul edər. Elə tikə vardır ki, səni dünya və axirətin Yaradanına bağlayar.

Ey oğul! Nəfsinlə cihad məsələsində sənə yardım edənlərlə yoldaş ol. Onların söhbətlərində iştirak et. Nəfsinin azmasına yardım edənlə yoldaş olma. Öncə öz nəfsinlə məşğul ol, öz nəfsinə faydalı ol və öz nəfsini düzəlt, sonra başqaları ilə məşğul ol. Başqalarını işıqlandırdığı halda, özünü əridib yox edən şam kimi olma. Ey Allah yolunda gözəl əməllər işləmək istəyən insan! İxlaslı ol! Əks halda, boş-boşuna yorulmuş olacaqsan.

İnsanları tərbiyə etmək sözlə deyil, ürəkdən gələn səmimi bir inamla və şövqlə ola bilər. Tərbiyə xəlvət, ibadət, zikr, riyazət və təfəkkür ilə əldə edilə bilən bir nəticədir. Yoxsa, formal və zahiri göstərişdən uzağa getməyən, əsla ruha təsir etməyən bir sıra davranışlarla əldə edilə biləcək nəticələr deyil. Buna görə də Allah yolunda olan yolçunun dili ilə qəlbi, daxili ilə xarici, sözü ilə əməli bir olmalıdır və bunlar eyni şeyi ifadə etməlidir.

❁

Əhməd ər-Rifai -*qüddisə sirruh*- (1118-1182)

Ey insanlar! Allah dostları ilə yaxın olmağa çalışın. Çünki Allahın vəlisini sevən Allahı sevmiş, ona düşmənlik edən də, Allaha düşmənlik etmiş olur.

Zikrə davam edin. Çünki zikr ilahi vüsal üçün bir maqnitdir. Uca Allaha yaxınlıq üçün sağlam bir ipdir. Allahı davamlı olaraq zikr edənlər Allah ilə gözəl bir ünsiyyət içindədir. Allah ilə gözəl bir ünsiyyət içində olan Ona qovuşmuşdur. Zikrin qəlbə yerləşməsi

söhbətin bərəkəti ilə mümkün olur. Çünki insan dostunun yolundadır.

Təfəkkür, Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- ilk əməlidir. Belə ki, bütün fərzlərdən öncə Onun ibadəti Allahın yaratdıqlarını və nemətlərini düşünməkdən ibarət idi. Ona görə də, siz də yaxşı düşünün və düşünməyi ibrət vasitəsinə çevirin.

Diqqət edin! Ələk kimi unun incəsini ələyib, kəpəyini özünüzə saxlamayın. Əsla, dilinizlə hikmət deyilərkən qəlblərinizdə hiylə və fəsad olmasın. Əgər belə olsa, «İnsanlara yaxşılıq əmr edib, özünüzü unudursunuzmu?» (əl-Bəqərə, 2/44) ayəsinin hökmünə görə hesaba çəkilərsiniz.

Qəlblərinizi tərtərmiz edin. Çünki qəlb təmizliyi üst-baş təmizliyindən daha önəmlidir. Uca Allah paltarlara deyil, qəlblərə baxar. İstiqamət ölçüsünü gözləyib Allahdan başqasını tələb və arzu etməyin.

Ey insanlar! Təvazökarlıq və rahatlıqla qapını döyənə qapı açılar. O şəxs içəriyə qəbul edilər. Ədəblə içəriyə girən izzətlə qarşılanar.

❁

Əbdülxaliq Gücdəvani *-qüddisə sirruh-* (--- 1189)

Ey oğul! Sənə vəsiyyət edirəm ki, bütün hallarında elm, ədəb və təqva üzərində ol! Keçmişdə yaşamış insanların əsərlərini oxu və sünnə əhli olan insanların yolu ilə get! Fiqh və hədis öyrən və cahil sufilərdən çox uzaq qaç! Namazlarını mütləq camaatla qıl! Qəlbində şöhrətə meyil varsa, imam və müəzzin olma, şöhrətdən gücün çatdığı qədər uzaq dur! Şöhrətdə afət var. Vəzifələrdə də gözün olmasın. Hər zaman özünü aşağı səviyyədə olan insanlarla birgə gör! Gücün çatmayan işin altına girmə! Xalqın sənə aid olmayan işlərinə qarışma! Fasiq idarəçilərlə oturub-durma! Bütün məsələlərdə tarazlığı qoru! Ölçünü əldən verib, gözəl səs dinləməyə çox meyil etmə ki, bu səs ruhu qaraldır və sonda nifaq doğurur. Ancaq gözəl səsi də inkar etmə ki, onunla azan və Quran oxunur və ruhlar dirilir. Az ye, az danış, az yat və qafil insanlardan aslanlardan qaçan kimi qaç! Fitnə zamanı tək qalmağa üstünlük ver, mənfəəti üçün fitva verərək dinin zəifləməsinə

səbəb olanlardan, təkəbbürlü varlı insanlardan və cahillərdən uzaq dur! Halal ye, şübhəli işlərdən uzaq dur və evlənərkən təqvaya diqqət et. Əks halda, dünyaya bağlanar və bu yolda dinini zədələyərsən… Çox gülmə, qəhqəhələrlə gülməməyə çalış! Çox gülmək qəlbi öldürür. Ancaq təbəssümü də əldən buraxma. Hər kəsə şəfqət gözü ilə bax və heç kimi kiçik görmə! Öz zahirini çox bəzəmə. Çünki çölə çox bəzək vurmaq için xarab olmasından irəli gəlir. Münaqişə etmə, kimsədən bir şey istəmə, qənaətkar ol, qənaətlə varlı ol, vüqarını qoru! Sənin üzərində əməyi olanlara və səni tərbiyə edənlərə qarşı vəfalı ol, malın və canınla onlara xidmət et və onların halı ilə maraqlan! Onları qınayan qafillər xoşbəxt ola bilməz. Dünyaya və dünya əhli olan qafillərə meyil etmə! Könlün hər zaman kədərli, bədənin iş görmək üçün güclü, gözün yaşlı və qəlbin incə olmalıdır. İşin xalis, duan yalvarış və paltarın təvazökarlıq, yoldaşın Haqq dostları, sərmayən zahiri və batini din elmləri, evin məscid və yaxınların Allah dostları olsun!..

❁

Fəriduddin Əttar *-güddisə sirruh-* (1119-1220)

Səni incidənlərin üzr istəmələrini qəbul et. Xalqı incidəni Allah sevməz. Belə bir xasiyyət dindar insana yaraşmaz. Zülmlə bir qəlbi yaralayan, o yaranı öz bədənində açmış olur. Öz eybini görə bilənlərin ruhlarında bir güc yaranır.

Axmaqlığın əlamətləri bunlardır:

Öz eybini görməyib, başqalarının qüsurunu axtarmaq. Könlünə xəsislik toxumu səpdiyi halda, səxavət ummaq.

Əxlaqı ilə xalqı razı etməyən şəxsin Allahın yanında heç bir dəyəri yoxdur.

Xəstələri ziyarət et. Çünki bu Peyğəmbər sünnəsidir. Əlindən gəlirsə, susuzlara su ver. Məclislərdə insanlara xidmət et. Yetimlərin hal və vəziyyətlərini soruş ki, Allah səni əziz etsin. Çünki yetimin bir anlıq ağlaması belə, uca ərşi titrətməyə yetər. Bir yetimi ağladan zalım cəhənnəm atəşinə odun olar. Xəstə bir yetimi sevindirən özü üçün cənnət qapısını açar.

Allah yolunda nə verirsənsə, öz malın odur. Geri qalanların hesabı var.

❁

Muhyiddin İbn Ərəbi -*qüddisə sirruh*- (1165-1240)

Qəlbini Allahın zikrinə alışdırsan, mütləq qəlbin zikrin verəcəyi nurla nurlanar. O nur qəlb gözünün açılmasını təmin edər.

Allahın qullarına şəfqət və mərhəmətlə münasibət göstər. Mərhəmətini bütün canlılara bol-bol saç. Belə demə: «Bu otdur, cansızdır, faydası yoxdur». Bəli, onların faydası və bir çox xeyri var. Yaradılmışların öz halına uyğun olmasına imkan ver və ona Yaradıcının mərhəməti ilə mərhəmət et.

Səndən bir şey istəyəni boş qaytarma, gözəl bir sözlə olsa belə, onun könlünü al, ona gülər üz göstər. İrəlidə Allahla görüşəcəyini düşün.

Dünya malı üçün Allahdan başqası səni qul etməsin. Çünki sən ancaq səni qul olaraq qəbul edən Allahın bəndəsisən.

Allahın mömin qullarına salam vermək, yemək yedirtmək, onların işlərini görmək yolu ilə onlara məhəbbət göstərməlisən. Bunu yaxşı bil ki, möminlərin hamısı tək bir insan, tək bir vücud kimidir.

Özünü camaata alışdır. Allah qorxusu ilə ağlamağa çalış. Allahın ipinə sarıl. Allahın sevib, razı olacağı işlərə rəğbət göstər.

❁

Həzrət Mövlana -*qüddisə sirruh*- (1207-1273)

Uca Allah nəbiləri və vəliləri aləmlərə rəhmət olaraq dünyaya göndərmişdir. Buna görə də yorulmadan, bezmədən xalqa nəsihət verirlər. Bu nəsihətləri dinləməyib, qəbul etməyənlər üçün də: «Ey Rəbbim! Sən bunlara rəhm et, rəhmət qapısını onların üzünə bağlama» -deyə yalvarırlar. Sən ağlını başına yığ, vəlilərin öyüdlərini can-başla dinlə ki, üzüntüdən, qorxudan xilas olasan, mənəviyyatın rahatlığa qovuşsun, özünü hər zaman təhlükəsiz hiss edəsən!

Fürsəti qaçırmadan və tərəddüd etmədən bu fani aləmin aldanışlarından sıyrılmış, özünü tamamilə Haqqa təslim etmiş olan kamil insanın ətəyini tut ki, axır zamanın, bu pozulmuş dünyanın fitnələrindən qurtara biləsən!

Vəlilərin sözləri abi-həyatla dolu, saf, dupduru bir bulaq kimidir. Fürsət var ikən ondan doyunca iç, könlündə mənəvi çiçəklər, güllər açılsın. Əziz dostum, bil ki, ədəb insanın bədənindəki ruh kimidir. Əslində, ədəb Allah dostlarının gözü və könül nurudur. Əgər şeytanın başını əzmək istəyirsənsə, gözünü aç və gör ki, şeytanın qatili ədəbdir.

Sən varını, yoxunu, malını, mülkünü ver və bir könül al. Al ki, o könül məzarda, o qapqara gecədə sənə işıq versin, nur versin…

Haqq dostu olan bir insan ilə bir an bərabər olmaq bir ömürə bərabərdir. Ondan düşən bir tük isə qiymətli bir mədənə əvəzdir. Ancaq Haqq dostlarının ziddi olan elə sərt qəlbli insanlar da var ki, onlarla bir arada olmaq və danışmaq bir tərəfə dursun, onları görməmək və onlardan uzaq olmaq dünyanın mülkünə bərabərdir.

Könlümə dedim ki: «Öndə olmağa həvəs göstərmə, lütfə yaxın ol. İncidən tikan olma. Kimsədən sənə bir pislik gəlməsini istəmirsənsə, pis sözlü, pislik öyrədən, pislik düşünən olma. Hər halınla saleh əməllər içində ol.»

❁

İbrahim Desuki -*qüddisə sirruh*- (--- 1277)

Oğlum! Sənə lazım olan odur ki, övliya zümrəsinin duasını alasan. Təbərrük olaraq onların himmətinə nail olmağı arzulayasan.

Ey Qurani-Kərimi oxuyub əzbərləyən şəxs! Onu oxuyub əzbərlədiyin üçün çox öyünmə… Bir halına bax. Onun şərtlərinə uyğun əməllərin varmı? Onun şərtlərinə əməl edirsənmi?

Ey oğlum! Mübahisə, söz-söhbət, gözəl sözlər kimi faydasız işlərlə məşğul olmağı tərk et, sükut əhli ol. İxlası seç, bu yolda saleh əməllərin olsun və nəfsinə uyma.



O şəxslərlə oturub-dur ki, şəriəti və həqiqəti özündə toplamış olsun. Bunu yaxşı bil ki, bu yolda sənə ən çox yardım edən insanlar bu tipli insanlar olacaq.

Oğlum! İstəyirəm ki, hər zaman sünnəyə əməl edəsən… Bu yolda lazım olan ədəb əsaslarına riayət edəsən.

Cəsur olmalısan, kölgəsindən belə ürkərək qorxanlardan olmamalısan. Hər hansı bir sıxıntı ilk anda səni yerə sərməməlidir.

Mövlanın sevgisi ilə dol, hətta, onunla vəcd halında ol.

Övladlarım! Qeybət etmək üçün birini axtarsanız, atanızın, ananızın qeybətini edin. Çünki onlar yaxşılıqlarınızı almağa, başqalarından daha layiqdir.

Uca Allah bir gün və gecədə yetmiş iki dəfə qullarının qəlbinə baxır. O halda, qəlbinizi təmiz saxlayın, onu gözəl və parlaq edin. Çünki ora Rəbbinizin nəzərgahıdır.

Ey qardaşım! Əsla öz hesabına bir şey etdiyini düşünmə. Bil ki, oruc tutanda onu sənə Allah tutdurmuşdur, namaz qılanda onu sənə Allah qıldırmışdır, bir iş edəndə onu sənə Allah etdirmişdir. Təqva dərəcəsinə çatmısansa, Allah sənə çatdırmışdır. Maddi-mənəvi bir şeyin varsa, Allah bunları sənə qazandırmışdır.

Ey oğlum! İnsanların və cinlərin əməli qədər əməlin olsa belə, «mən» deməkdən çəkin. Çünki Allah «mən» iddiasında olanları aciz edər. Mənlik davasındasansa, maddi və mənəvi dərəcən aşağı düşər, bunu unutma!

❁

Bahaəddin Nəqşibənd *-qüddisə sirruh-* (1318-1389)

Bizim yolumuz uca Allahın göstərdiyi qurtuluş yoludur. Çünki bu yol sünnəyə uymaq və əshabi-kirama tabe olmaqdır. Buna görə də yolumuzda az zamanda çox qazanc əldə edilir.

Yolumuz söhbət və məhəbbət yoludur. Əshabi-kiramın yolunun söhbət olduğu kimi… Xeyir və bərəkət birlikdədir, birlik də söhbətlə



olar. Tənhalığa çəkilməkdə şöhrət təhlükəsi də ola bilər, şöhrət isə afətdir.

Bizim yolumuzda olan şəxslərin üç şeyə diqqət yetirməsi zəruridir:

Birincisi, uca Allaha qarşı ədəbdir. Yəni zahiri və batini ilə tamamilə qulluq içində olmalı, uca Allahın bütün əmrlərini yerinə yetirib, yasaqlarından çəkinməli, uca Allahdan başqa hər şeyi könlündən çıxarmalı və nemətləri Allah yolunda səfərbər etməlidir.

İkincisi, Rəsulullaha -səllallahu əleyhi və səlləm- qarşı ədəbdir. Bu da ibadət, münasibət və bütün davranışlarda Ona məhəbbətlə tabe olmaqdır.

Üçüncüsü, səni tərbiyə edən Haqq dostuna qarşı ədəbdir.

Yeyiləcək bir qida, bir nemət, hər nə olursa-olsun, qəflətlə, qəzəb ilə, ya da istəməyərək hazırlanmış və tədarük edilmişsə, onda xeyir və bərəkət yoxdur. Çünki ona nəfs və şeytan yol tapmışdır. Belə bir yeməyi yeyən şəxsdə mütləq onun feyz və rahatlığını pozacaq bir nəticə meydana gəlir. Qəflətə uymadan hazırlanan və uca Allahı düşünərək yeyilən halal və xalis yeməklərdən xeyir meydana gələr. İnsanların xalis və saleh əməllər etməkdə uğur qazanmalarının səbəbi yeməkdə və içməkdə harama, şübhəli şeylərə və qul haqqlarına diqqət yetirmələridir. Hər nə hal üzrə olursansa-ol, xüsusilə, namazda təslimiyyət və səmimiyyət halında olmaq, zövqlə və göz yaşı tökərək namaz qıla bilmək, halal tikə yeməyə və xörəyi uca Allahı xatırlayaraq bişirib Onun hüzurunda imiş kimi yeməyə bağlıdır. Vücudu haram tikə ilə bəslənmiş olan bir şəxs namazdan zövq ala bilməz.

Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- «Namaz möminin meracıdır» (Süyuti, «Şərhu İbn Macə», I, 313) ifadəsində həqiqi namazın dərəcələrinə işarə var. Namaz qılmağa başlayan şəxsin «iftitah» təkbirini söyləyərkən uca Allahın əzəmətini, ucalığını düşünərək təslimiyyət və səmimiyyət içində olması zəruridir. Belə ki, bu halı elə bir səviyyəyə çatdırmalıdır ki, özünü unutmaq halına qovuşa bilsin. Bu halın zirvəsi Rəsulullahdadır -səllallahu əleyhi və səlləm.



«Lə iləhə illəllah» kəlməsini söyləməyin həqiqəti uca Allahdan başqa nə varsa, heç birini qəlbdə bütə çevirməməkdir. İslam dininin hökmlərini yerinə yetirmək, yəni əmrləri icra edib, yasaqlardan çəkinmək, haramları, şübhəli şeyləri, hətta, mübahların çoxunu tərk etmək, icazə verilənlərdən uzaq durmaq, mübahlardan zəruri miqdarda istifadə etmək tamamilə bir nur və səfadır. Eyni zamanda bu, övliya dərəcəsinə qovuşduran bir vasitədir. Vəli olmaq dərəcəsinə ancaq bu yolla qovuşmaq olar. Bu səviyyəyə yüksələ bilməyənlərin hamısı deyilənlərə diqqət yetirmədiklərinə görə bu dərəcəni əldə edə bilməmişlər. Onlar öz arzularına tabe olmuşlar. Çünki uca Allahın feyzi, bərəkəti hər an gəlir.

❁

Mövlana Xalid Bağdadi *-qüddisə sirruh-* (--- 1826)

Sənə Allaha itaəti və təqva üzrə olmağı, harada olursansa-ol, insanlara əziyyət və cəfa verməməyi, xüsusilə, Hərameyni-Şərifeyndə daha çox diqqətli olmağını tövsiyə edirəm.

Qeybətini etsələr belə, sən heç kimin qeybətini etmə. Heç kimin dünya malından bir şey alma. Şəriətin alınmasını halal etdiyini al və onu xeyir işlərə sərf et. Mömin qardaşların ac və yoxsul olduğu halda, şəhvətin üçün pul xərcləyərək ləzzət alma. Əsla, yalan söyləmə. Heç kimə yuxarıdan aşağı baxma. Heç kimsədən nəfsinin üstün olduğunu düşünmə. Qəlbi və bədəni ibadətlərdə bütün gücünü sərf et. Bununla birgə, nəfsinə: «Heç bir zaman məqbul ola biləcək bir xeyir iş görmədim», düşüncəsini qəbul etdir. Çünki ibadətlərin ruhu niyyətdir. Niyət isə ancaq ixlas ilə mümkündür. Səndən daha böyük olanlara ixlas lazımdırsa, sənə necə lazım olmaya bilər? Uca Allaha and içirəm ki, anam məni doğduğundan bu günədək Allah yanında məqbul və mötəbər olub, hesabı soruşulmayacaq tək bir xeyir iş gördüyümə inanmıram.

Əgər öz nəfsini bütün xeyir işlərdə məğlub olaraq görmürsənsə, bu cəhalətin ən son nöqtəsidir. Əgər nəfsinin iflas etdiyini düşünürsənsə, Allahın rəhmətindən də ümidsiz olma.



Musa Əfəndi -*qüddisə sirruh-* (1918-1999)

Bir möminin könül aləmi və kamalı davranışlarında özünü göstərir. Bu gözəlliklərin ən önəmli olanlarından bir neçəsi belədir:

Hər zaman təvazökar olması, zamanın və nəfəslərin qiymətini bilib, israf etməməsi, Allahın qullarını sevib onlarla çəkişməməsi, üz tutduğu insanlara dini səviyyələrinə görə münasibət göstərməsi, qəbahətləri örtməsi, halal və harama diqqət yetirməsi və hər kəsin kiçik gördüyü bir sıra mənfi işləri daha böyük görməsidir. Çünki günahını kiçik hesab edən, Allah qorusun, uca Allahı kiçik görmüş olar.

Mövlamızın rizası yolunda səhər vaxtlarını namaz, zikr, dualarla şərəfləndirək. Başda ailə üzvlərimiz və böyüklərimiz olmaqla onlara xidmət edək. Dünya malına həris olanlarla ünsiyyəti azaldıb, saleh insanlarla oturub duraq. Qohumlarımız ilə möhtac olanlara xidmət edək, həm dil ilə, həm də maddi baxımdan onlara yardım edək. Haram və halala münasibətdə çox diqqətli olaq. Bazar-dükan işlərində də çox diqqətli olaq ki, qulluq məsələlərinə səhlənkar yanaşmış sayılmayaq.

Bütün xətalar, peşman olacağımız işlər, tərəddüdlər, şübhələr zikrdən qafil olduğumuz anlarda meydana gəlir. Zikrin mənəvi halını davam etdirənlərdə dünya kədəri, üzüntüsü, hətta, lüzumundan daha artıq dünyəvi sevinc belə olmaz. Hər zaman hüzur içində, səxavət və yaradılmışlara qarşı şəfqətli olmaq o boşluğun yerini doldurur.

Yəni sevgi, hər zaman sevgi… Uca Allah onu sevən qulunu sevgi dəryasında üzdürər. Artıq o şəxs uca Allahın sevdirdiyi ölçüdə sevilməyə layiq olanları sevər.

Bir insan mənsub olduğu cəmiyyətə Allah rizası üçün gözəl xidmət etməyi çox qiymətli bir vəzifə saymalıdır. Bir cəmiyyətin həyatına, intizamına, rifahına xidmət edən şəxs o cəmiyyətin arasında çox qiymətli bir varlığa sahib olmuşdur. Bununla birgə onun savab və mükafatı da o ölçüdə böyükdür.

Hədisi-şərifdə belə buyurulur:

«Bir qövmə xidmət edən şəxs (savab və mükafata nail olmaq baxımından) onların ən böyüyüdür.» (Deyləmi, «Müsnəd», II, 324)

Bir çox şəxslər ibadət və itaətə çox yönəldikləri halda, uca Allahın sifəti olan "səttarul-uyub", yəni eyibləri örtmək və qüsurları bağışlamaq xüsusiyyətinə laqeyd qalırlar. Buna görə də tam istənildiyi kimi tərəqqi edə bilmirlər. Halbuki, bağışlamaq və eyib örtmək gözəl əxlaqın ən önəmli olanlarından biridir. Uca Allah biz qullarının saysız-hesabsız qüsur və xətalarının örtüb bağışladığı kimi, biz də bağışlamağı bacarmalıyıq. Çünki Allah sevgisi olanlar bağışlamağı bacarırlar.

Bütün hünər bu dünya işlərində və min bir məşğələ içində Haqqla birgə ola bilməkdir. Bu elə bir xoş haldır ki, uca Allahın quluna olan bir hədiyyəsidir. Bu gözəl və ülvi vəzifəni yerinə yetirə bilsək, dünyanın ötəri oyuncaqlarına aldanmaqdan xilas olarıq.

Uca Allahın quluna ən böyük nemətlərindən biri o qulunun aciz olduğunu ona bildirməsidir. Bu mənəviyyat yolunda qazandığım bəlkə də ən böyük nemət xətalarımı görmək oldu. Rəbbimə qarşı müflis olduğumu dərk etdim. Bu yolla da bir kimsənin xətasını görməyə və onunla mübarizə aparmağa gücüm qalmadı. Həmd olsun, bütün bunların şükrü içində yaşayıram…

❁

Rəbbimiz! Haqq dostlarının könüllərindəki məhəbbət atəşindən bizlərə də bir qismət lütf elə! Mənəvi himmətləri ilə yüksəldiyimiz Haqq dostlarının feyzli xəbərdarlıq, tərbiyə və nəsihətləri ilə istiqamətə yönəlməyimizi nəsib elə!..

Amin!..

ALTINCI BÖLMƏ

TƏSƏVVÜFƏ BAĞLI HEKAYƏLƏR VƏ İBRƏTLƏR

Həqiqi təhsil
Mənəvi tərbiyədə metod
İbrahim bin Ədhəm və ceyran
Haqq yoluna ləkə salmamaq
Kəramət
Qafil qəlblərin təsiri
Dostun qapısı
İtaət, xidmət, nəsihət
Yaradılmışlara xidmət
Haqq dostlarında nəzakət
Hüzurda iradə
Ədəb
Xidmətdə ədəb
İlla ədəb
Bir Haqq dostunun əxlaq və xidməti
Fanilər deyil, əbədi olan bilsin
Heç kimə xor baxma!
Heç kimi gözdən salma!
Yetimi sevindirmək
Dostluq
Dostluqda məqsəd
Tam təslimiyyət
Möminin duasını almaq
Bir məzcub və könül əlacı
Üzlər var, mələk kimi
Xeyirdə mənəvi vəziyyət
Ərşi-əlaya yüksələn saleh əməl
Hər zaman Haqqı fərq etmək
Mənə Kərim lazımdır
Öndə gedənlərin məsuliyyəti
Allahın dəvətini qəbul etmək
Halalın önəmi
Halal qazanc
XÜLASƏ



«Ədəb ya hu!»





Dostluğun mərkəzini Mövlada tapan Haqq dostları əbədi olaraq bütün insanlığın dostu kimi qalırlar.





TƏSƏVVÜFƏ BAĞLI HEKAYƏLƏR VƏ İBRƏTLƏR

Bundan öncəki bölmələrdə tez-tez vurğuladığımız kimi, təsəvvüf sözdən daha çox haldır, yəni davranış mükəmməlliyi ilə bağlı olan elm olduğundan o, Allah dostlarının könül iqlimlərindən əsərək həyata təsir edən feyz və gözəlliklərlə doludur. Qədim dövrlərdən başlayaraq «qissə», «mənqibə» kimi adlarla insanlara çatdırılan bu gözəlliklər imanı kamilləşdirən, əxlaqı mükəmməlləşdirən, ilahi eşq və məhəbbət bulaqlarını coşduran mərhəmət, əfv, başqasını özündən üstün tutmaq kimi ülvi hislər bəsləyən yönləri ilə bəndələrə istiqamət verən təsirli bir vasitədir. Belə ki, Qurani-Kərimdə də tez-tez gördüyümüz qissələr hadisələrin birbaşa həyatla bağlı olması baxımından, onların könüllərdə yaradacağı təsiri üzə çıxarmaqda və insanın kamilləşdirməsi yolunda ilahi bir üslub verməkdədir.

Bizlər də bu ilahi üsluba istinadən bundan öncəki bölmələrdə tez-tez müxtəlif misallar verdiyimiz kimi, bu bölmədə də izah etməyə çalışdığımız mövzu və həqiqətlərə bağlı bir neçə nümunə vermək və bu yolla da təsəvvüfə bağlı həqiqətlərin sadəcə sətirlərdəki deyil, könüllərdəki halını da əks etdirməyə çalışdıq. Bundan başqa, bu qissələrin ehtiva etdiyi hissələrə aid ifadə edilməsi zəruri olan təfsir, xəbərdarlıq və yozumla bağlı söylənə biləcək məsələləri də qısa



şəkildə ifadə etməyə çalışdıq. Qısası, bu bölmədə oxucularımıza mütəsəvviflərin bir dərya olan əxlaq və fəzilət dünyalarından bir neçə damla təqdim etmək istədik.

HƏQİQİ TƏHSİL

Həzrət Sami Əfəndi, Darul-Fünunun hüquq fakültəsini yenicə bitirmişdi. Onun gözəl halını və tərtəmiz mənəviyyatını çox bəyənən bir Allah dostu belə dedi:

- Övladım, bu təhsil də gözəldir, ancaq sən həqiqi təhsil almağa fikir verməlisən. Səni irfan məktəbinə qeyd edək, orada da könül elmlərini və axirət sirlərini öyrən.

Bu Allah dostu sonra belə dedi:

- Övladım! O məktəbdə necə tərbiyə verirlər, nə öyrədirlər bilmirəm. Ancaq bildiyim bir şey var ki, **bu təhsilin ilk dərsi incitməmək, son dərsi də inciməməkdir…**

İBRƏT:

İncitməmək nisbətən asandır. Ancaq inciməmək insanın əlində deyil, çünki o, bir könül işidir. Başqa sözlə, inciməmək ancaq fanilərdən gələn və qəlblərə sancılan zəhərli oxların təsirsiz qalması ilə mümkündür. Bu da nəfs təmizliyi və qəlb saflığının səviyyəsi ölçüsündədir. Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- Taifdə daşa basılaraq təhqir ediləndə mələklər belə demişdilər:

- Ey Allahın Rəsulu! İstəyirsənsə, bu iki dağı bir-birinə vurub buranın zalım xalqını həlak edək.

Ancaq o aləmlərə rəhmət olaraq göndərilmiş olan uca Peyğəmbər mələklərin bu təklifini qəbul etmədi. Şəfqət və mərhəmət duyğuları ilə mübarək üzünü Taifə çevirdi və əhalisinin doğru yolu tapması üçün dua etdi.[1]

1. Baxın, Buxari, «Bədul-Xalq», 7; Müslim, «Cihad», 111.



Bir Peyğəmbər aşiqi olan Həllac Mənsur da daşa basılarkən belə dua etmişdir:

«Allahım! Bunlar bilmirlər, məndən əvvəl onları bağışla!»

Bu, həqiqi təhsil ilə, yəni mənəvi tərbiyə nəticəsində əldə edilən sağlam qəlbə aid bir haldır.

Əbul-Qasım əl-Hakimdən sağlam qəlbin əlamətləri soruşulanda bunları söyləmişdir:

«Sağlam qəlbin üç əlaməti var:

Birincisi, incitməyən bir qəlb

İkincisi, inciməyən bir qəlb

Üçüncüsü də, yaxşılığı Allahın rizası üçün edib, əvəzini gözləməyən bir qəlb…

Çünki bir mömin uca Allahın hüzuruna heç kimsəyə əziyyət etməsə, təqva ilə qəlbini Rəbbə yönəldib kimsədən inciməsə, vəfa ilə etdiyi gözəl əməllərə hər hansı bir fani olanı ortaq etməsə, ixlas ilə gələr…»

Şair çox gözəl demişdir*:*

Cihan bağında ey aşık budur maksudi-ins ü cin,

Ne kimse senden incinsin ne sen bir kimseden incin!

❁

MƏNƏVİ TƏRBİYƏDƏ METOD

Həzrət Şah Nəqşibənd təsəvvüfdə qəlbin təmizliyi və nəfsin saflığı ilə bağlı məsələlərdə diqqət yetirdiyi incəlikləri belə bəyan etmişdir:

«Bizlər müridi zəruri olduğu tərzdə, yəni onun içində olduğu hala görə tərbiyə edirik. Lazım gələndə cəzbə, ehtiyac olanda süluk yoluna üstünlük veririk. Bilirik ki, söhbətimizə gələnlərin bir çoxunun qəlbində məhəbbət toxumu var, bəzilərində yoxdur, ya da dünyəvi və nəfsani şeylərə meyil etdiyinə görə çürümüşdür.



Bizim vəzifəmiz bu dünya malı ilə olan fani əlaqələri kəsmək, qəlbi təmizləmək və könülə məhəbbət toxumu əkmək, əkilmiş olanları da həqiqət zəmzəmi ilə suvarıb yetişdirərək mərifətullah günəşi ilə bir ixlas fidanına çevirməkdir.

Zikr tələqini isə bir şəxsin əlinə çaxmaq daşı vermək kimidir. Bundan sonrakı nəticə, yəni çaxmaq daşını çaxıb, eşq çırağını yandırmaq işi müridin üzərinə düşür.»

İBRƏT:

Bədənə aid xəstəliklər müxtəlifdir və onların müalicə yolları da bir-birindən fərqlidir. Ruha və könülə aid xəstəliklər də belədir. Bu baxımdan, fərasət və bəsirət sahibi olan Allah dostları mənəvi tərbiyədə xitab etdikləri insanların vəziyyətinə görə araşdırma və müalicə yolu tətbiq edirlər. Kiminə İbrahim bin Ədhəmin etdiyi kimi: *«Tacı və taxtı tərk et!»*, tövsiyəsi verirlər, kimisinə də Fateh Sultan Mehmed Xanda olduğu kimi: «Əgər bu vəzifədən əl çəksən və səndən daha ləyaqətlisi bu vəzifəyə gəlməsə, günaha girəcəksən!» deyib, xəbərdarlıq edərək tərbiyə və təvəccöhlərini onların olduğu məqamda davam etdirirlər.

Kimini su ilə, kimini atəşlə imtahan edirlər. Başqa sözlə, bir xəstəlik olan şəxsin şəfa tapması üçün onun həkimə təslim olması və həkimin verdiyi resepti tətbiq etməsi zəruri olduğu kimi, mənəvi xəstəliklərdə də vəziyyət belədir, hətta, daha həssasdır. Çünki bədəni müalicə edərkən yol verilən bir xəta ancaq bu dünyaya bağlı olan bir zərər yarada bilər, ancaq könül müalicəsində yol verilən xəta isə əbədi olaraq bir həyatı peşman edər.

❁

İBRAHİM BİN ƏDHƏM VƏ CEYRAN

İbrahim bin Ədhəm əvvəllər Bəlxdə səltənət və dəbdəbəyə düşkün olan bir hökmdar idi. Onun bu düşkünlükdən xilas olub, axirətini də qazanması üçün dövrün arif və sufiləri tez-tez ona ibrətli

xəbərdarlıqlar edirdilər. Belə ki, məşhur bir rəvayətə görə, bir gecə sarayının damında əcaib səslər eşitmiş, yatmamış və maraqla soruşmuşdu:

- Orada nə edirsiniz?

Qəribə bir cavab verildi:

- Dəvəmizi itirdik. Onu axtarırıq.

İbrahim bin Ədhəm qəzəbləndi:

- Damda dəvə axtararlar?

Bu dəfə eşitdiyi cavab isə mənalı və ibrətli idi:

- Ey İbrahim! Damda dəvə axtarmağın mümkün olmadığını bilirsən, ancaq niyə bu yaşadığın dünyəvi təntənə və dəbdəbə içində əbədi səadəti axtarmağın mümkün olmadığını düşünmürsən?

Başqa ibrətli xəbərdarlıqlarla müqayisədə bu sözlər İbrahim bin Ədhəmə bir xeyli təsir etdi. Ancaq bir müddət sonra bu xəbərdarlığı da unutduğuna görə, onun halında hər hansı bir dəyişiklik olmadı.

Günlər gəlib keçirdi. Bir gün İbrahim bin Ədhəm ətrafında olan insanlarla birlikdə ceyran ovuna getdi. Bir müddət ətrafında olan insanlardan ayrıldı. O yaxşı bir ov axtarırdı. Birdən qulağına «Oyan!» deyə bir səs gəldi. Bir şey anlamadı. Eyni səs bir daha təkrar olundu. Sonra bu səs daha tez-tez eşidilməyə başlandı. Sonra hər tərəfdən eyni səsləri eşitdi. Səslər ona belə deyirdi:

- Ölüm səni oyandırmadan sən özün oyan!

İbrahim bin Ədhəm həm çaşdı, həm də qorxdu. Ancaq bu zaman qarşısına gözəl bir ceyran çıxdı. İbrahim bin Ədhəm bu nazlı heyvanı ovlamaq eşqinə düşdü. Bir az öncə eşitdiyi sözləri unutdu, bir ox çıxartdı və yayına qoydu, nişan aldı. Oxu atmaq istəyirdik ki, nazlı ceyran gözlərini İbrahim bin Ədhəmə zilləyib dilə gəldi:

- Ey İbrahim! Rəhman olan Allah məni ovlamaq üçün səni yaratdı?

İbrahim bin Ədhəm titrədi. Gözləri yaşardı, atından düşdü, səcdəyə qapandı, tövbə etdi və uca Allaha belə yalvardı:

- Ey lütf və kərəmi sonsuz olan Allahım! Mənim vəziyyətimə nəzər sal! Çoxdandır dəbdəbə içində ömür nəfəslərimi zay edirəm… Ey Allahım! Lütfünlə könlümü yu, qəlbimdə Sənin sevgindən başqa bir şey saxlama!».

Artıq İbrahim bin Ədhəmin gözləri başqa bir aləmə açılmış, o ilahi bir iqlimin seyrinə dalmışdı. Bu gözəl tamaşa onda olan başqa gözəllik anlayışlarını tamamilə yox etmişdi. Artıq hər səhər ehtişamla geydiyi səltənət paltarları və ona qürur verən Bəlx sultanlığı onun könlündə bütün dəbdəbəsini, bəzəyini, önəmini itirdi. Onun gözlərində bu şeylər iyrənc görünməyə başladı.

Bu halət içində gözləri tövbə yaşları ilə nəmli, ürəyi peşmanlıq atəşi ilə yanıq olan İbrahim bin Ədhəm səhralara üz tutdu. Bir az getmişdi ki, bir çobanla rastlaşdı. Dərhal onun yanına getdi və öz paltarlarını ona verib, onun paltarlarını özünə götürdü. Bu zaman könlündə böyük bir rahatlıq hiss etdi. Çoban bu vəziyyəti görub çaşmışdı. O, belə düşünürdü: «Yəqin padşahımız ağlını itirib». Ancaq İbrahim bin Ədhəm ağlını itirməmiş, əksinə, ağlı başına gəlmişdi. O, ceyran ovuna çıxmış, ancaq uca Allah onu bu ceyran vasitəsilə oyandırmışdı…

İBRƏT:

Dünya ilə axirətdən birini seçmək məsələsi ortaya çıxanda axirəti seçənlər əbədiyyət sultanı olaraq sonsuz mükafatlar qazanırlar. Ancaq dünyanı seçənlər bu aləmdə zahirən sultan olsalar da, əslində, əbədi aləmin əllərinə heç bir şey keçməyəcək olan dilənçiləri kimidirlər. Bu sirri anlayan İbrahim bin Ədhəm öz islahının ancaq hökmdarlıqdan imtina etməklə mümkün olduğunu görəndə o, bu fədakarlığı etdi və bir əbədiyyət sultanı oldu. Onun qarşısına çıxan xəbərdaredici səbəblər isə, müəyyən mənada könlündə olan ixlas və səmimiyyət cövhərinin bir bərəkətidir. Daha doğrusu, onun könül halı ilahi iqlimə doğru addım atdıracaq səbəblərin qarşısına çıxmasına və Haqqın uca təcəllalərinə nail olmasına, sultanlığı tərk etmək kimi böyük bir fədakarlığın onun üçün asanlaşdırılmasına və nəhayət, bir anın içində

saysız-hesabsız ehsanlara qovuşmasına vəsilə olmuşdur. Bu halı şair çox gözəl ifadə etmişdir:

Hak teccelli eyleyince her işi asan eder,
Halk eder esbabını, bir lahzada ihsan eder.

❁

HAQQ YOLUNA LƏKƏ SALMAMAQ

Bu yol, yəni təsəvvüf yolu Haqq nurunun təcəlla etdiyi elə bir gözəl və təmiz üfüqdür ki, əsla, ləkə qəbul etməz. Bu yolun canını və ruhunu görə bilənlər onda, əsla, parlaq dinə zidd olan bir hal tapa bilməzlər.

Belə ki, həzrət Şah Nəqşibəndin mənəvi çevrəsində avam, seçilmiş, bir sözlə, cəmiyyətin hər təbəqəsindən olan çoxsaylı tələbə var idi. Hüsaməddin Xacə Yusif kimi Buxaranın ən böyük alimləri də onun söhbət məclislərində iştirak etməyə can atırdı. Ancaq alimlərdən bəziləri bunu öz aralarında bir dedi-qoduya çevirib, Bahaəddin Nəqşibənd -qüddisə sirruh- haqqında lazım olmayan şeylər danışmağa başladılar. Nəhayət, bir gün bu müxalif olanlar həzrət Nəqşibənd ilə bir məclisdə görüşüb öz narazılıqlarını bildirdilər. Həzrət Nəqşibənd -qüddisə sirruh- onlara belə dedi:

- Gəlin, yolumuzu sizə izah edim. Əgər Qurana və sünnəyə zidd olan bir məsələ varsa, söyləyin, ondan əl çəkim!

Həzrət Pirin dediklərini dinləyən və uca təsəvvüf yolunu bütün incəlikləri ilə öyrənən o alimlər şahid olduqları bu ülvi həqiqətlərə tam inandılar və etiraz edəcək bir şey tapa bilmədilər. Onlar ədəblə belə dedilər:

- Sizin yolunuz sirati-müstəqim imiş, başqa heç bir etirazımız yoxdur.

İBRƏT:

Bu hadisədən anlaşılan odur ki, həqiqi təsəvvüf yolu Quran və sünnəyə tabe olmaqda böyük bir diqqət və qəlbi incəlik göstərir. Saliklərinə də bu yolla hərəkət etməyi işarə edən Şah Nəqşibəndin zahiri elmlərdə alimlərlə mübahisə etməyib, əksinə, «Əgər Qurana və sünnəyə zidd olan bir məsələ varsa, söyləyin, ondan əl çəkim» buyurması bu yolda istiqamətin önəmini ifadə edir. Başqa sözlə, bu yolun salikləri üçün zəruri olan eyni həssaslığı göstərərək bu tərtəmiz yola ləkə salmamaqdır. Ancaq burada alimlər deyilərkən nəzərdə tutulan saleh alimlərdir, qəlbləri və elmləri fəsada düçar olub, xalq yoluna zidd olan hərəkətlər edən, səmimiyyəti və təqvanı bir heç sayan, Allah dostlarının fəzilətlərini inkar edən və Quranın ifadəsi ilə desək, az bir dünya malı əvəzində Allahın ayələrini satan qafillər deyil.

❁

KƏRAMƏT

Bir gün müridləri həzrət Şah Nəqşibənddən kəramət istəmişlər. O, buna cavab olaraq buyurdu:

- Bizim kəramətimiz açıqdır. Baxın, çiyinlərimizdəki bu qədər günah yükünə baxmayaraq, hələ də ayaqüstə durur və yer üzündə yeriyə bilirik. Bundan daha böyük kəramət ola bilərmi?

Bundan sonra təsəvvüf yolunda önəmli olan əsas işin kəramət deyil, istiqamət olduğunu bir daha xatırladaraq belə buyurdu:

- Bir şəxs bir bağçaya girsə və orada hər ağac yarpağı dilə gəlib: «Ey Allahın vəlisi, salam!»,-deyə çağırdığını eşitsə, zahirən də, daxilən də bu səsə əsla iltifat göstərməməlidir! Əksinə, qulluqdakı əzmini və mübarizliyini daha da artırmalıdır.

Bundan sonra bəzi müridləri belə dedilər:

- Ustadımız, nə qədər üzərini örtsəniz də, sizdə də tez-tez kəramət özünü göstərir!

O böyük təvazökarlıq abidəsi belə buyurdu:

- O müşahidə etdiklərіniz müridlərin kəramətləridir.

Çünki o halını elə gizləyirdi ki, həyatda olarkən söz və kəramətləri haqqında yazmaq istəyən müridi Hüsaməddin Xacə Yusifə bu işi etməyə icazə verməmişdi.

İBRƏT:

İslam böyükləri Haqq yolunda özlərinə hər zaman kəraməti deyil, istiqaməti ölçü seçərək nail olduqları yüksək məqamlara qovuşa bilmişlər. Onlar kəramət hesabına havada uçan quşun, suda üzən balığın sahib olduğundan daha artıq bir dəyər qazanmadıqlarını dilə gətirmişlər. Onlara görə mərifət quş və balığı yamsılamaq deyil, Haqqın rizasına tabe olaraq yüksək bir qulluq düşüncəsi içində istiqamət üzrə yaşamaqdır. Onlar bu düsturu hər zaman ifadə etmişlər və bunu öz halları ilə göstərmişlər.

❁

QAFİL QƏLBLƏRİN TƏSİRİ

Hicri 1340-cı ilin mübarək bir günündə İstanbul Ayasofya məscidində Qurani-Kərim və mövlud ziyafəti var idi. Məscid ağzınadək dolu idi. Alimlər və tələbələr məsciddə idilər. O dövrün ən gözəl hafizləri Qurani-Kərim və mübarək mövlud oxumağa başlamışdılar.

Bəylərbəyili Adil Bəy adında mənəvi hal sahibi və kəşfi açıq olan bir şəxs də kürsüyə yaxın bir yerdə oturmuşdu…

Bir az sonra Adil Bəyə mənəvi bir daralma halı gəldi. Sıxıldı, bezdi. Halbuki, o mənəvi atmosferdə Quran və mövlud oxunarkən belə bir könül daralması olmamalı idi. Adil Bəy maraqla ətrafına baxdı. Gördü ki, onun qarşısında sərt qəlbli, xəstə könüllü bir qafil var. Onlar fərqində olmadan üz-üzə oturmuşdular. Bu yolla da o sərt və xəstə qəlbdən onun qəlbinə bir daralma gəldiyini anlayan Adil Bəy tez yerini dəyişdirdi. Beləliklə, bir az fərəhləndi, ancaq o qafil qəlbin təsirini bir müddət təmizləyə bilmədi.[2]

2. Qılınan namazın təsiri qəlblərin vəziyyətinə görədir. Uca Allah «Maun» surəsində belə

İBRƏT:

Saleh kimsələrdən könüllərə rahatlıq və fərəh əks etdiyi kimi, qafil kimsələrdən də narahatlıq və pis duyğular əks edər. Çünki gül bağçasında gəzən qəlblər min bir ətirlə məst olduğu halda, pislik məkanında gəzən ruhlar da pis qoxulara bulaşar. Ona görə də uca Allah könülləri çürümüş və hər zaman ətrafına pis təsir göstərən münkirlər haqqında belə buyurur:

«(Ey Rəsulum!) **Ayələrimizə istehza edənləri gördüyün zaman onlar söhbəti dəyişənə qədər onlardan üz çevir. Əgər şeytan** (bu qadağan əmrini) **sənə unutdursa, xatırlayandan sonra o zalım tayfa ilə birgə oturma»** (əl-Ənam, 6/68)

Bu ilahi əmrdəki incəliyi mənəvi həssaslığa sahib olan seçilmiş bəndələr daha yaxşı anlayırlar. Çünki qəlbdəki həssaslıq artdıqca ölçülər dərinləşir, baxışlar pərdənin arxasındakı gerçəkləri görməyə başlar, hisslər hər kəsin fərq etmədiyi halları sezər. Buna misal olaraq Seyfi Babanın halı çox ibrətlidir:

«Həzrət Sami Əfəndini çox sevən Haqq dostlarından Seyfi Baba kəşfə açıq olan, hal sahibi bir şəxs idi. Topqapıda yaşayırdı. Bir gün Sami Əfəndini -qüddisə sirruh- ziyarət etməyə gəlmişdi. Ancaq dövlətxanəyə girər-girməz özündən getdi. Onu içəriyə gətirib ustadın hüzuruna çatdıracaq olan şəxs tələşla üzərinə su töküb ayılmasını təmin etdikdən sonra «Tez bir həkim çağıraq» deyəndə Seyfi Baba buna etiraz etdi:

- Yox oğlum, həkim çağırmayın. Mənim halımın bir bədən xəstəliyi ilə əlaqəsi yoxdur! Torqapıdan Ərənköyə gələnədək yollarda gördüyüm üsyan əhli və üsyan yerlərindəki pisliklər mənə təsir etdi və bu tərtəmiz qapıdan girib içəridəki ruhaniyyətə nail olanda da, könlüm o təsirə dözə bilmədi. Buradakı mənəvi iqlimin bərəkəti və ariflər sultanı Sami Əfəndinin himməti ilə bir azdan heç bir şey qalmaz.

buyurur: «Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər. Onlar riyakarlıq edirlər». Bu baxımdan məscidlərdə də qafil, yəni qəlbi mənəvi baxımdan xəstə olan şəxslərin, hətta, münafiqlərin belə olması təbiidir.

Bir sözlə, qafillərdən mənfi təsirlər zühur edib qəlbi daraltdığı kimi, saleh insanlardan da müsbət və feyzli təsirlər hasil olub, könlü fərəhləndirir. Bu baxımdan könül insanı hallarını qorumaq üçün mümkün olduğu qədər qafillərdən uzaq, salehlərə yaxın olmalıdır. Bu mənada həzrət Davud, uca Allaha tez-tez belə yalvarardı:

- Allahım, mənim qafillərin məclisinə getdiyimi görsən, oraya çatmadan ayaqlarımı qır ki, onların yanına gedə bilməyim. Belə etməyin mənim üçün böyük bir lütf olar.»

❁

DOSTUN QAPISI

Həzrət Əbu Səid Nişapuri bir gün tələbələrinə belə dedi:

- Minikləri hazırlayın, qəsəbəyə gedirik.

Hər şey hazırlandı və həzrət Pir bir qrup tələbəni də özü ilə götürərək yola çıxdı. Nişapurda bir kəndə çatanda soruşdu:

- Bu kəndin adı nədir?

Cavab verdilər:

- Dəri-dost, yəni dostun qapısıdır.

Bundan sonra Əbu Səid -qüddisə sirruh- orada dayanmağa qərar verdi. Bir günlük qonaqlıqdan sonra bəzi tələbələri belə dedilər:

- Ustad! Hansı qəsəbəyə gedəcəyik, yolumuza davam edəcəyikmi?

Könlü mənəvi sirlərlə dolu olan həzrət Əbu Səid buyurdu:

- Aşiqin dost qapısına çatması üçün çox yol getməsi zəruridir. Biz bir halda ki, buraya, yəni bu «dost qapısı»na çatdıq, artıq hara gedək?

Qırx gün orada qaldı. Bir çox mənəvi hallar yaşandı və kənd camaatından bir çox kimsə Əbu Səidin -qüddisə sirruh- mübarək və feyzli söhbətləri ilə tövbə etdi, onun sadiq tələbəsi oldu.

Deməli, həzrət Pirin «dost qapısı» olaraq nəzərdə tutduğu əsl

məna bu idi, yəni könülləri fəth etmək… Çünki dostun riza sarayının qapısının açılması ancaq ora qazanılmış bir könül aparmaqla mümkündür…

İBRƏT:

Bir könül qazanaraq dost qapısını açmaq bütün bağrı yanmış, aşiq Haqq dostlarının ən böyük işi və onları uca vüsala hazırlayacaq saleh əməllər zəncirində bir məhəbbət düsturu olmuşdur. O cümlədən həzrət Şah Nəqşibənd məsul olduğu tərbiyə vəzifəsini elə həssas və elə müstəsna bir əzmlə yerinə yetirirdi ki, tələbələrinin bütün halları ilə maraqlanırdı. Həzrət Pir bir şəxsi ziyarətə gedəndə onun vəziyyətini soruşandan sonra ailə üzvlərini, qohumlarını, minik heyvanlarını, hətta toyuqlarını belə soruşardı. Bu yolla da o insanın könlünü qazanmağa çalışardı. Bir məclisdə yemək hazırlandığı zaman hazırlayanlara o yeməkdən şəxsən özü verərdi…

❁

İTAƏT - XİDMƏT - NƏSİHƏT

Davud Tainin söhbətində iştirak edən saleh bir şəxs Maruf Kərhiyə belə dedi:

- Əsla, gözəl işləri görməyi tərk etmə! Çünki əməl səni uca Allahın rizasına yaxınlaşdırar.

Maruf soruşdu:

- Əməl ilə nəyi nəzərdə tutursan?

O şəxs buyurdu:

- Bütün hallarda Rəbbinə itaət etməyi, müsəlmanlara xidmət göstərməyi və nəsihət verməyi.

İBRƏT:

İtaət və təslimiyyət ilə edilən az bir ibadət, itaətsiz və təslimiyyətsiz

edilən dağlar qədər ibadətdən Haqq yanında daha xeyirlidir. Çünki qulluq itaət və təslimiyyətlə başlayır. Belə ki, şeytan uca dərgahdan ibadət azlığına görə deyil, itaət və təslimiyyətin nöqsan olduğuna görə qovulmadımı?

Xidmət isə bütün peyğəmbərlərin və Allah dostlarının sarıldığı elə bir fəzilətdir ki, o böyük şəxsiyyətlər xəstəlik halında, hətta, ölüm döşəyində belə xidməti əldən buraxmamışlar. Bu vəziyyət xidmətə necə sarılmağın zəruri olduğunu ifadə etmək məsələsində irfan əhli üçün yetərli bir misaldır. Qısacası, xidmət mərhəmətli və səxavətli könüllərin şüarıdır.

Yetkin mömin xidmət əhlidir və fani varlığından sıyrılmış bir halda özünü xidmət karvanının ən sonunda hiss və qəbul edən bir könül insanıdır. O, dərdlilərin, xəstələrin və ümidsizlərin yanında, matəmlilərin ətrafındadır. O, kədərli, iztirab içində olan və tənha insanların dostudur.

Nəsihət verməyə gəlincə isə bu ancaq bu işi bilənlərə aid olan bir keyfiyyətdir. Çünki edilən tövsiyə yaşandığı ölçüdə təsir edər. Buna görə də hər kəsin nəsihət verməsi doğru deyil. Bu işə ləyaqəti olanların, yəni bu məsələdə nəbəvi üslub və əxlaqa bürünmüş şəxslərin nəsihət vermək səlahiyyəti var. Bununla birgə, bu səlahiyyətə nail olduğu halda bundan qaçmaq məsuliyyətdir və hesabı çox böyükdür. Çünki hədisi-şərifdə belə buyurulur:

«Din nəsihətdir.» (Buxari, «İman», 42)

Buna görə də, nəsihəti tərk etmək «Əsr» surəsində bir peşmanlıq səbəbi kimi bəyan edilir. Təbii ki, nəsəhət dinləməmək də bu mənanın içərisindədir. Yəni bir peşmanlıq səbəbidir.

Bir sözlə, Haqq yolunun yolçuları itaət, xidmət və nəsihəti özləri üçün ən önəmli bir düstur etməli və bu əbədi səadət vasitələri ilə Haqqın rizasını qazanmağa çalışmalıdır.

❁

YARADILMIŞLARA XİDMƏT

İstanbuldakı Aksarayda olan Validə məscidini tikdirmiş olan Pertevniyal Validə Sultan vəfat edəndə onu saleh bir şəxs yuxusunda gözəl bir məqamda gördü və soruşdu:

- Tikdiyin məbədə görə Allah səni bu məqama yüksəltdi?

Pertevniyal Validə Sultan dedi:

- Xeyr!

O saleh şəxs çaşaraq soruşdu:

- Onda hansı əməlinə görə bu mərtəbəyə yüksəldin?

Validə Sultan bu ibrətli cavabı verdi:

- Çox yağışlı bir hava idi. Əyyub Sultan məscidinə ziyarətə gedirdik. Yol üzərində səkinin kənarında yığışan su gölməçəsinin içində cılız bir pişik balasının çırpındığını gördüm. Faytonu saxlatdırdım, yanımdakı bacıya[3] belə dedim:

- Get, o pişik balasını götür, yoxsa o zavallı boğulacaq!

Bacı isə pişik balasını gətirmək istəmədiyi üçün belə dedi:

- Aman, Sultanım! Sizin də, mənim də üstümüz kirlənər.

Mən də onu sındırmamaq üçün özüm arabadan yerə düşdüm. Palçığın içinə girdim və o pişik balasını xilas etdim. Pişik balası titrəyirdi. Ona yazığım gəldi və onu qucağıma alıb isitdim. Çox keçmədən zavallı pişik balası canlandı.

Uca Allah bu gözəl məqamı o pişik balasına olan kiçik xidmət və mərhəmətimə görə mənə verdi.

İBRƏT:

İnsan ruhunun yüksələcəyi kamillik səmasına çıxış yolu

3. Validə sultanların yanında sudanlı zənci qadınlar işləyirdi. Bunlara sarayda «bacı» deyilirdi. Sudanlılar təmiz, namuslu, həyalı olduqları üçün Osmanlılar sarayda xidmətçi olaraq onlara üstünlük verirdilər.

mərhəmət və xidmət pillələrindən keçir. Bu baxımdan hər müsəlman xidmət və mərhəməti özünün əsl xarakterinə çevirməli və bu onun ən gözəl xüsusiyyəti olmalıdır.

❁

HAQQ DOSTLARINDA NƏZAKƏT

Musa Əfəndi -qüddisə sirruh- anladır:

Bir həcc mövsümü idi. Möhtərəm həzrət Sami Əfəndi və övladları Məkkəyi-Mükərrəmədə Beytullah məscidinə yaxın, türküstanlı Əbdüssəttar Əfəndinin Ciyad istiqamətində olan evində idik. Onun otağı küçəyə qarşı, bizim otağımız isə içəriyə tərəf idi. Bir gün günorta vaxtı bizim yaşadığımız otağın qarşısına gəldi və belə buyurdu:

- Deyəsən, çöldə kiminsə yeməyə ehtiyacı var.

Yeməyi hazırlayıb çölə çıxanda heç kimi görmədim. Düşündüm ki, bu yoxsul adam gözləməyib getmişdir. Ona görə də geri döndüm. Səkkiz-on dəqiqə keçdi. Həzrət Əbdüssəttar yenə bizim otağın qapısında göründü və belə buyurdu:

- O ehtiyacı olan şəxs yenə gəldi, içəri baxır.

Yenə yeməyi götürüb qapının önünə çıxdım. Dilini çölə çıxarıb içəri baxan heyvanı, yəni acmış köpəyi gördüm. Tez yeməyi onun önünə qoydum. Köpək çox acmışdı. Yeməyin hamısını yedi.

İBRƏT:

Böyüklərin nəzakət və təvazökarlığı belə olur. Həzrət Sami Əfəndi iti adı ilə çağırmamış, şəxs sözündən istifadə etmişdir. Hətta, çox zaman heyvanlara belə «yaradılmış» yerinə «Allahın qulu» deyirdi.

Çünki Yaradandan ötrü yaradılanlara göstərilən əxlaq gözəlliyi əslində, Yaradana ərz edilmiş, Ona ürəkdən bağlı olan bir könül gözəlliyi, yəni sağlam qəlbdir.

Sağlam qəlb sahibi olan isə dostluğun bitməz-tükənməz qaynağını əldə etmişdir. Artıq o, ilahi bir ləzzət halındadır. Çünki sağlam qəlblər Haqqın təcəlla etdiyi məkanlardır. Belə qəlblər səxavətin və mərhəmətin şah əsəridir.

❁

HÜZURDA İRADƏ

Son dövr mütəsəvviflərindən Şeyx Məhəmməd Nurul-Ərəbinin «bəşəri iradə»ni, yəni cüzi iradəni inkar etməsi ilə bağlı söz-söhbət yayılır. Bunu eşidən Sultan Əbdülməcid Xan, həzrət Pirin hüzur dərslərinə çağrılmasını və orada ondan bu məsələnin soruşulmasını istəyir. Fərman yerinə yetirilərək Şeyx Məhəmməd Nurul Ərəbi hüzur dərsinə dəvət edilir. Orada ondan məsələnin mahiyyəti soruşulur. Həzrət belə cavab verir:

«Bəndədə cüzi bir iradə, əlbəttə, mövcuddur. Məsuliyyətin qaynağı da odur. Ancaq hər kəsdə və hər zaman deyil. Məsələn, mən, əlbəttə, cüzi bir iradə sahibiyəm. Ancaq padşahın əmri ilə gəldim. Buradan durub getmək isə məndən asılı deyil. «Gəl» deyilsə, gəlirik. «Get» deyilsə, gedirik. Deməli, burada iradəm müəyyən bir məsələdə yox kimidir. Eyni şəkildə padşahın hüzurunda olduğuma görə edə biləcəyim hərəkətlər də məhduddur. Bəzi kimsələr də bu misalda olduğu kimi hər zaman daimi olaraq Rəbbinin hüzurunda olduğunu dərk edir və belə yaşayır. Allah hər yerdə hazır və nazir olduğu halda bir çox şəxs özünü ancaq namaz qılarkən Allahın hüzurunda hiss edir. Halbuki, bəlli bir mənəvi mərtəbəyə yüksəlmiş olanlar hər an ilahi hüzurda olduğunu dərk edir və belə yaşayır. Belə şəxslərdə cüzi iradənin olub-olmadığını siz müəyyən edin».

Onun bu sözləri padşahın xoşuna gəlmiş və o, Şeyx Məhəmməd Nurul-Ərəbiyə gözəl münasibət göstərmişdir.

İBRƏT:

Qul bir iradə sahibidir. Bu iradə, ya da qüdrət ona uca Allah tərəfindən bəxş edilmişdir. Uca Allahın bütün məsələdə iradəsi olmaqla birlikdə, rizası ancaq xeyir işlərdədir. Bir müəllimin qayəsi tələbəsinin bilgiləri öyrənib yuxarı sinifə keçməsidir. Tələbə çalışmasa, müəllimin edə biləcəyi bir şey yoxdur. Bir həkimin vəzifəsi xəstəyə şəfa verməkdir. Xəstə verilən dərmanları qəbul etməsə, artıq yaranacaq mənfi nəticəyə görə xəstənin özü məsuliyyət daşıyır. Burada həkimə aid olan heç bir günah yoxdur. Başqa yöndən, iradəni hüzurunda olduğumuz şəxsə təslim etmək təslim edilən şeydən daha gözəl bir nemətin ehsan edilməsinə yol açır. Yəni bir bəndə ixlas ölçüləri içərisində öz baxışını uca Allahın sonsuz nəzərinə, əllərini onun sonsuz qüdrət əlinə, dilini onun sonsuz kəlam sifətinə, qulaqlarını onun sonsuz eşitmə qabiliyyətinə təslim edərsə, baxışı, duyması və idrakı başqa olar. Yəni verdiklərindən əsla məhrum qalmaz. Əksinə, hər təslim etdiyi şey sonsuzluğun içindən ona gözəl nemətlərlə dönər. Buna görə də hər zaman ilahi hüzurda olduğunun idrakı ilə uca iradəyə təslim ola bilən saleh qullar haqqında uca Allah hədisi-şərifdə məcazi olaraq belə buyurur:

«Onların görən gözü, eşidən qulağı, tutan əli olaram…» (Buxari, «Riqaq», 38)

❁

ƏDƏB

Davud Tai belə söyləyir:

«İyirmi il həzrət Əbu Hənifə ilə birlikdə oldum. Bu zaman ərzində diqqətlə fikir verdim və gördüm ki, o mübarək insan nə tək olarkən, nə də yanında başqa şəxslər olduğu halda başı açıq oturmadı. O, heç vaxt istirahət edərkən ayaqlarını uzatmadı. Bir gün ondan soruşdum:

- Tək olarkən ayağınızı uzatmaqda bir qüsur varmı?

Mənə belə dedi:

- Uca Allah qarşısında ədəbli olmaq daha üstündür.»

İBRƏT:

Sultanın, ya da yüksək mövqeyi olan bir şəxsin hüzurunda olanlar burada başqa yerdə davrandıqları kimi davranmazlar. Onlar olduqları yer və məqama uyğun davranmaq üçün çalışarlar. Yəni birinin hüzurunda olmaq ədəbə bürünmək deməkdir. Allah dostları da hər an Allahın hüzurunda olduqlarını dərk edərək yaşadıqlarından əsla ədəbi tərk etməzlər. Buna görə də bu ədəb halı onların bütün həyatlarına şamildir. Çünki onlar hər zaman və məkanda sabah hüzurunda olacaqlarını pərdəsiz olaraq görən və dəlilsiz olaraq hiss edən arif könüllərdir. Yəni onlar:

«… Siz harada olsanız, O, sizinlədir…» (əl-Hədid, 57/4) sirrini bilərək bütün anlarını Allah ilə birgə olmaq düşüncəsi ilə yaşayarlar.

Demək istəyirik ki, bəziləri özlərini ancaq namaz qılarkən Allahın hüzurunda hiss edər və bu duyğu onları heç olmasa, namazın ədəbi ölçüsündə bir ədəbə sövq edər. Allah dostları isə hər an bu duyğu içində olduqlarından onların namazdan kənardakı halları və ədəbləri də namazda olduğu kimidir. Belə İnsanlarla bağlı uca Allah buyurur:

«O kəslər ki, daim namaz qılarlar…» (əl-Məaric, 70/23)

Yəni namazlarını vaxtlı-vaxtında qılmaqla birgə, bu insanlar davamlı olaraq namaz halı içində yaşayırlar. Bu da namaza səhlənkar yanaşmamağı bildirməklə bərabər, namazdan kənarda da hər zaman davamlı olaraq ilahi hüzurda olduğunu düşünmək və bu halı qorumaq deməkdir.

❀

XIDMƏTDƏ ƏDƏB

Əbu Abdullah Rugandi buyurur:

«Əsla, sənə verilən hər hansı bir xidməti kiçik hesab etmə! Çünki xidmət xidmətdir və sənə önəmsiz görünən bir xidmət müxtəlif səbəblərlə Allah yanında çox önəmli ola bilər. Allahın rizasının hansı xidmətdə olduğu bizim üçün məchuldur. Ona görə də uca Allahın rizasına qovuşanadək xidmət göstərməkdə davam et. Bu zaman əldə

etdiyin nemətlər və gözəlliklər də ancaq sənin şükür və xidmətini artırsın».

İBRƏT:

Önəmli olan bir xidməti sadəcə yerinə yetimək deyil, eyni zamanda onu səmimi və ən gözəl bir şəkildə icra etməkdir. Başqa sözlə, xidmətə yönələnlərin məqsədi xidmət etmək deyil, Allahın rizasına qovuşduracaq işlər görmək olmalıdır. Ancaq başqasının, yəni ona məqam, mövqe və mənfəət təmin edəcək şəxslərin gözünə girmək üçün xidmət göstərib, başqa xidmətlə bağlı işlərə fikir verməmək axirət həyatı üçün iflas deməkdir. Belələri zahirən bəzi adamların gözünə girər, ancaq uca Allahın rəhmət nəzəri onların üzərindən qalxar və ilahi qəzəb özünü göstərər. Çünki xidmətdə önəmli olan məsələ bu aləmdə fanilərin nəzərində gözqamaşdırıcı nəticələr əldə etmək deyil, insanı axirət aləmində mənəviyyat sultanı edəcək əməl və xidmətlər ortaya qoya bilməkdir.

Bu baxımdan salik hər cür xidməti özünə qənimət bilməlidir. Ola bilər ki, hər kəsin kiçik hesab etdiyi bir xidmət içində yerlərə və göylərə sığmayacaq qədər böyük savab və ilahi mükafatlar gizlənmişdir. Çünki uca Allah bizim istədiyimiz dəryaları ixlas və səmimiyyət imtahanı üçün bəzən bir damlanın içində gizləyir və könüllərin nəyə yönəldiyini müəyyən edir.

❁

İLLA ƏDƏB

İbn Ata -qüddisə sirruh- belə deyir:

«Bu mənəvi yolda irəliləyənlər ancaq namaz və oruc kimi fərz ibadətlərlə bu ucalığa yüksəlməmişlər. Əksinə, bunları əksiksiz və qüsursuz bir şəkildə icra etməklə birgə, fəzilətli əməllər və davranışlarla yüksəlmişlər. Belə ki, Allah Rəsulu buyurur:

«Qiyamət günü mənə ən yaxın olanınız, xasiyyət və əxlaqca ən gözəl olanınızdır.» (Tirmizi, «Birr», 71)

İBRƏT:

Şair çox gözəl söyləyir:

Edeb bir tac imiş nuri-Hüdadan,

Giy ol tacı emin ol her beladan.

Bir arif şair də belə söyləyir:

Ehli-diller arasında aradım kıldım taleb,

Her hüner makbul imiş illa edeb, illa edeb.

Həqiqi ədəb və əxlaq qəhrəmanları olanlar peyğəmbərlər və vəlilərdir. Bir də seçilmiş şəxslərin ardınca gedənlərdir ki, onlar da yüksək bir əxlaqa sahib olmaq üçün iradə nümayiş etdirirlər. Əxlaqın əsası dinin kamilliyindən ayrı olan bir şey deyil. Əxlaq heyvani xüsusiyyətlərdən xilas olub, insani məziyyətlərə bəzənməkdir. Əslində, müsəlman olmaq da İslam əxlaqına sahib olmaq deməkdir. Ülvi gözəllikləri, hal və davranışlara yönəldə bilməkdir.

Bir sözlə, ağıl və hikmət nəzəri ilə baxanda Qurani-Kərimdə ən böyük və əsaslı yer tutan mövzunun ədəb və əxlaq olduğu görünür. Ondakı tarixi qissələr belə, əxlaqı, yəni davranış mükəmməlliyini tədqiq etmək məqsədi daşıyır.

Həzrət Mövlana buyurur:

«Qəlbim ağlımdan soruşdu:

- İman nədir?

Ağlım da qəlbimin qulağına pıçıldadı:

- İman ədəbdən ibarətdir».

«Ona görə də ədəbsiz şəxslər ancaq özünə pislik etmir. O ədəbsizliyinə görə bütün dünyanı atəşə atmış olur.»

❁

BİR HAQQ DOSTUNUN ƏXLAQ VƏ XİDMƏTİ

Həzrət Əhməd ər-Rifai hər gördüyü şəxsə salam verərdi. Bir kənd, ya da qəsəbədə bir şəxsin xəstə olduğunu eşitsə, fürsət düşən kimi onun ziyarətinə gedərdi. O, ziyarətə gedərkən qarşılaşdığı kor İnsanların əllərindən tutar, onları gedəcəkləri yerə qədər ötürərdi. Bir qoca İnsanla qarşılaşsa, onun əlindəki yükü götürər və ətrafındakı dostlarına Peyğəmbərimizin -səllallahu əleyhi və səlləm- bu hədisi-şərifi ilə nəsihət verərdi:

«Kim bir qocaya hörmət və yardım edərsə, Allah təala da ona qocaldığı zaman hörmət və xidmət edəcək bir şəxsi ehsan edər.» (Tirmizi, «Birr», 75)

Bu Haqq dostu şəhər kənarına səyahət etdiyi zaman geri dönərkən meşəyə girər, odun kəsər, ulağına yükləyərək şəhərə gətirər, bu odunu dullara, çarəsiz, yoxsul və möhtac olanlara paylayardı.

Dəlilərə və şikəstlərə xidmət edər, onların paltarlarını yuyar, onlarla birlikdə oturar, onlarla söhbət edər, onların yeməyini öz əlləri ilə gətirər və yedirdərdi. Sonra da onlardan dua etmələrini istəyərdi. O, müridlərinə belə deyərdi:

«Belə aciz insanları ziyarət etmək müstəhəb deyil, vacibdir!»

Bir gün uşaqlar oynayarkən onların yanından keçirdi. Bir neçə uşaq həzrət Əhməd ər-Rifainin mənəvi heybətindən qorxub qaçdı. Həzrət Pir dərhal onların arxasınca qaçdı və böyük bir şəfqətlə, məhəbbətlə onları bağrına basıb könüllərini fəth etdi və belə deyib üzr istədi:

«Övladlarım! Görürsünüz ki, mən də aciz bir qulam! Əgər sizi narahat etdimsə, haqqınızı halal edin!»

İBRƏT:

Haqqın rizasını qazanmağın və ona qovuşmağın öyrədildiyi mərifətullah yolu ağappaq bir səhifəyə bənzəyir. Belə ki, orada yazılan bütün yazılar da ağappaqdır və bunları ancaq uca Allah

oxuyur. Bu baxımdan, Allah dostları bir ömür boyu o səhifəyə qara bir ləkə düşməməsi üçün çırpınır. Belə ki, onlar bir qarşıqanı belə, incitməkdən çəkinirlər və Allahın rizasını qazanmaq üçün əxlaq və xidmətlərini hər zaman tərtəmiz bir şəkildə uca Allaha ərz edirlər. Çünki uca Allah belə buyurur:

«… Şübhəsiz ki, Allah tövbə edənləri və təmiz olanları sevər.»
(əl-Bəqərə, 2/222)

❁

FANİLƏR DEYİL, ƏBƏDİ OLAN BİLSİN!

İslam tarixinin ilk illərində Mədineyi-Münəvvərədə bəzi yoxsulların qapılarına bilinməyən bir şəxs hər sabah bir çuval ərzaq qoyardı. Bir səhər o yoxsullar oyananda gördülər ki, qapılarına ərzaq qoyulmamışdır. Səbəbini öyrənmək istəyərkən yanıqlı bir ağlaşma səsi eşidildi. Mədineyi-Münəvvərə, həzrət Əlinin (r.a) nəvəsi həzrət Zeynal Abdinin vəfatı xəbəri ilə çalxalandı. Hər kəs dərin bir matəmə büründü.

Bu Peyğəmbər övladına qarşı son vəzifələr də diqqətlə yerinə yetirilməyə başlandı. Növbə mübarək bədəninin yuyulmasına çatanda bu şərəfli vəzifəni yerinə yetirəcək olan şəxs meyidin kürəyində içinə su toplanmış böyük yaralar gördü və çaşdı. Səbəbini başa düşmədi. Onun yaxınlarından bunun səbəbini soruşdu. Əhli-beytdən olan və bu sirri bilən bir şəxs bunları söylədi:

«Həzrət Zeynal Abdin hər səhər hazırladığı ərzaq çuvallarını kürəyində daşıyaraq erkəndən yoxsulların qapısına aparır və heç kimə görünmədən geri dönərdi. Xalq da bu çuvalların kimin qoyduğunu bilməzdi. Kürəyində gördüyünüz o yaralar o çuvalları daşımaq nəticəsində əmələ gəlmişdir.»

İBRƏT:

Əməllərini ancaq uca Allahın rizası üçün edənlər onların bilinməsini haram olan bir sirr kimi xalqdan gizlətməyə çalışırlar. Çünki

Haqqa aid olduğu halda, xalqa ərz edilən əməllərdə insanı Allaha qovuşduracaq heç bir fəzilət qalmaz. Çünki onları təkəbbür və özündən razılıq kimi nəfsə bağlı min bir duyğu əhatə edər. Başqa sözlə, Haqq yolunda edilən hər bir saleh əməl, «Fanilər deyil, əbədi olan bilsin!» düşüncəsi ilə olsa, məqbul sayılır və belə əməllərin savab və mükafatlarını yazmağa nə qələm çatar, nə də mürəkkəb.

Səmimi və fədakar xidmətlərlə Allahın bəndələrini məmnun etməyə çalışarkən nəfsini deyil, Haqqı razı edə bilən adsız və həqiqi qəhrəmanlar çox xoşbəxtdirlər.

❀

HEÇ KİMƏ XOR BAXMA!

Rəvayət edilir ki, bir gün İsa -əleyhissalam- İsrail oğullarından saleh bir insan olduğu zənn edilən bir şəxslə şəhər kənarına gedir. Xalq arasında fasiq və məşhur günahkar kimi tanınan bir şəxs də onların arxasınca düşür. İstirahət üçün fasilə verildiyi zaman bu günahkar bəndə səmimi bir peşmanlıq içində, utanaraq onlardan kənarda oturdu və mərhəmətlilərin ən mərhəmətlisi olan uca Allahın əfvinə sığınaraq belə dua etdi:

«Rəbbim! Bu uca Peyğəmbərinin hörmətinə məni bağışla! Saleh bir şəxs olduğu zənn edilən insan bunu eşidəndə istehza etdi, ona yuxarıdan aşağı baxdı və əllərini səmaya qaldırıb belə yalvardı:

«Allahım! Sabah qiyamət günü məni bu adamla birlikdə həşr eyləmə!» Bundan sonra uca Allah İsaya -əleyhissalam- belə vəhy etdi:

«Ey İsa, bəndələrimə söylə, ikisinin də duasını qəbul etdim. Boynubükük günahkar bəndəmi bağışlayıb ona cənnəti qismət etdim. Xalqın saleh bir mömin zənn etdiyi şəxsi isə, o mənim bağışladığım bəndəmlə birgə olmaq istəmədiyi üçün cənnətlik olanlardan etmədim.»

İBRƏT:

İlahi lənət və qəzəbə uğrayanlardan başqa, hansı səbəblə olursa-

olsun, Allahın bəndələrinə yuxarıdan aşağı baxmaq qəlbin cinayətidir. Bu cinayəti edənlər isə ilahi məhəbbətdən uzaq, bir qara daşa çevrilmiş qisməti olmayan qəlblərdir. Bir şəxs başqasına yuxarıdan aşağı baxıb onu alçaltmaqdan daha çox, özünü alçaldıb pərişan edir. Belə ki, həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- buyurur:

«Birinin din qardaşına yuxarıdan aşağı baxması ona günah olaraq yetər.» (Müslim, «Birr», 32)

Şair çox gözəl söyləmişdir:

Harabat ehline hor bakma zahid,

Defineye malik viraneler var!

❁

HEÇ KİMİ UTANDIRMA!

Hamdun Qəssar -qüddisə sirruh- buyurur:

«Yıxıla-yıxıla gedən bir sərxoş görəndə diqqətli ol! Əsla, onu qınama! Çox güman ki, sən də eyni bəlaya mübtəla ola bilərsən!»

İBRƏT:

Təsəvvüfə bağlı anlayışa görə tərbiyə məsələsində mərhəmət və şəfqət var. Utandırmaq, yuxarıdan aşağı baxmaq və üz tutduğun şəxsi incitmək yoxdur. Çünki uca Allah bəndəsinin qüdrətindən bir sirr olduğunu bəyan etmişdir. Buna görə də günahkara baxış tərzi olaraq palçığa düşmüş bir cövhəri məhv olmaqdan qurtarmaq düşüncəsi əsasdır… Yuxarıdan aşağı baxmaq isə məhv olan cövhəri ikinci dəfə məhv etməkdir! Bu baxımdan uca Allah bəndələrini bu xətaya düşməməsi üçün ayeyi-kərimədə belə xəbərdar edir:

«Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, onlar (lağa qoyulanlar) **o birilərindən** (lağa qoyulanlardan Allah qatında) **daha yaxşı olsunlar. Qadınlar da bir-birinə** (rişxənd eləməsinlər)**. Bəlkə, onlar** (rişxənd olunanlar) **o birilərindən (rişxənd edənlərdən) daha yaxşıdırlar…».** (əl-Hucurat, 49, 11)

Uca Allah bu sözləri ilə bəndələrinin günahlarını ölçməyi Özünə aid etmiş, insanların da bu işə cəhd etməsini qadağan etmişdir.

Başqa yöndən insanları lağa qoyub, onları ələ salanların da eyni günah və xəta çuxuruna düşdükləri çox zaman müşahidə edilmiş və bu vəziyyət bir atalar sözünə çevrilmişdir:

«Gülmə qonşuna, gələr başına!»

❀

YETİMİ SEVİNDİRMƏK

Səri-Sakati belə söyləyir:

«Bir bayram günü Maruf Kərhini küçədə xurma çəyirdəyi toplayarkən gördüm. Bu çəyirdəkləri nə üçün topladığını soruşdum. Dedi:

- Burda kiçik bir uşağın ağladığını gördüm. Ona yaxınlaşdım. Niyə ağladığını soruşdum. Yetim olduğunu, yoldaşlarının paltarı kimi paltarının, onların oyuncağı kimi oyuncaqlarının olmadığını söylədi. Yenə ağlamağa başladı. Onun halı ürəyimi dağladı. Buna görə də bu xurma çəyirdəklərini toplayıram. Bunları satacağam və o uşağın istədiyi paltarı və oyuncağı alacağam…

Bu sözlər mənim də ürəyimi dağladı və həzrət Pirdən xahiş edərək belə dedim:

- İcazə versəniz, mən o uşaqla maraqlanaram, könlünüz rahat olsun!

Sonra uşağın yanına getdim, onun bütün ehtiyaclarını yerinə yetirdim.

Bu gözəl saleh əməlin bərəkəti ilə nail olduğu halı Səri-Sakati belə ifadə edir:

«Bu xidmətin bərəkəti ilə könlümdə elə bir nur peyda oldu ki, onunla tamamilə başqa hallar yaşadım və çoxsaylı mənəvi ləzzətlər daddım…»

İBRƏT:

Yetimi sevindirib onlara sahib çıxmaq dinimizə görə çox təşviq edilən və mükafatı böyük olan bir gözəl əməldir. Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- bu məsələ ilə bağlı verdiyi vəd aşiq könülləri məst edəcək bir müjdədir:

«Öz yetimini, ya da başqasına aid olan bir yetimi himayə edən şəxs ilə mən cənnətdə belə yanbayan olacağıq.»

Hədisi söyləyən Malik bin Ənəs, həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- etdiyi kimi işarə barmağı ilə orta barmağını göstərdi. (Müslim, «Zöhd», 42)

Bir başqa hədisi-şərifdə belə buyurulur:

«Bir şəxs ancaq Allah rizası üçün bir yetimin başını sığallayarsa, əlinin toxunduğu hər saç tükünün sayı qədər ona savab verilər.» (Əhməd b. Hənbəl, «Müsnəd», V, 250)

Hədisi-şərifdə yetimin başını sığallamaq deyərkən onun maddi və mənəvi problemləri ilə yaxından maraqlanmaq nəzərdə tutulmuşdur.

❁

DOSTLUQ

Səhl bin İbrahim belə söyləyir:

«İbrahim bin Ədhəmlə dost idik. Bir dəfə ağır bir xəstəliyə tutulmuşdum. İbrahim bin Ədhəm əlində olan bütün imkanları mənim sağalmağım üçün xərclədi. Sonra sağalmağa başladım. Ondan canımın istədiyi yemək üçün bir şey istədim. Onun əlində bir şey qalmamışdı, ona görə də eşşəyini satıb, onun pulu ilə arzumu yerinə yetirdi. Sağaldıqdan sonra bir yerə getmək üçün eşşək lazım oldu və mən soruşdum:

- Ey İbrahim, eşşək haradadır?

İbrahim bin Ədhəm:

- Satdıq.

Mənim səhhətim piyada getməyə imkan vermədiyi üçün belə dedim:

- Yaxşı, mən indi nəyə minəcəyəm?

O ariflər sultanı belə dedi:

- Belimə minəcəksən, qardaşım!

O üç dayanacaqlıq yolu məni kürəyində apardı».

İBRƏT:

İzzət və nemətlə dolu, gözəl və yaxşı günlərdə hər kəs dostdur. Ancaq əsl dostluq çətin günlərdə ortaya çıxar və dəyəri heç bir şeylə ölçülməz. Bu baxımdan vəli olmağın sirri çoxsaylı pisliklərlə dolu olan bu dünya günlərində Allaha, Rəsuluna və saleh möminlərə dost olmaq və bu dostluğu sonadək qoruyub saxlaya bilməkdir.

Başqa yöndən, xüsusilə, ehtiyac içində olan mömin qardaşa edilən yaxşılıq və fədakarlıq uca Allahın rəhmətini cəlb edər. Çünki uca Allah qullarına qarşı sonsuz bir rəhmət və mərhəmət sahibidir və həzrət Peyğəmbəri -səllallahu əleyhi və səlləm- də aləmlərə rəhmət olaraq göndərmişdir. Hədisi-şərifdə buyurulur:

«Şəfqət və mərhəmət əhlinə Rəhman olan Allah da mərhəmət edər.» (Əbu Davud, «Ədəb», 58)

❁

DOSTLUQDA MƏQSƏD

Həzrət Abdullah bin Mübarək pis xasiyyətli bir şəxslə səfərə çıxmışdı. Səyahət bitdi. Onlar ayrılanda Abdullah bin Mübarək hönkür-hönkür ağlamağa başladı. Onun bu halına təəccüb edən dostları soruşdular:

- Niyə ağlayırsan? Səni belə kədərləndirən şey nədir?

O dəyəri uca olan Haqq dostu içini çəkdi və yaşlı gözlərlə belə dedi:

- O qədər yolçuluğa baxmayaraq, mənim yanımda olan yoldaşımın pis xasiyyətini dəyişdirə bilmədim. O biçarənin əxlaqını gözəlləşdirə bilmədim. Düşünürəm ki, görəsən, mənim bir nöqsan cəhətim olduğuna görəmi ona təsir edə bilmədim? Əgər o, mənim etdiyim bir xətaya görə istiqamətə yönəlmədisə, sabah halım necə olacaq?!

O, hıçqırıqlarla boğularaq ağlamağa davam etdi.

İBRƏT:

Dostluq hər zaman mənəvi baxımdan faydalı olan bir məqsədə görə qurulmalıdır. Buna görə də salehlərlə dostluq və ülfət onlardan istifadə üçün, saleh olmayan, hətta, nöqsanları olan, mənəvi baxımdan zəif şəxslərlə qurulan dostluq və ülfət isə onlara faydalı ola bilmək üçün olmalıdır. Çünki mənəvi faydadan uzaq və ancaq qəflətlə qurulmuş dostluq iki dünyanı da məhv edəcək bir zərər deməkdir. Bu zərərin ən kiçiyi belə aşağıdakı aqibəti iİnsanın qarşısına çıxarar:

«Atı atın yanına bağlasan, həmrəng olmasa da, həmxasiyyət olar».

Başqa yöndən nöqsan və qüsuru olan şəxsləri istiqamətə yönəldərkən tətbiq ediləcək üslub, mənfi bir xasiyyətə görə onları incitmək deyil. Seçiləcək üslub *«Məndə bir qüsur varmı?»*, deyə öz nəfsini sorğu suala çəkməkdir. Çünki əgər bizə bağlı olan xəta və nöqsanlara görə üz tutduğumuz İnsanı doğru yola yönəldə bilməmişiksə, bunun hesabı və günahı çox ağır olar. Hədəf pərdə olmaq deyil, pərdələri açıb həqiqəti göstərə bilməkdir.

❁

TAM TƏSLİMİYYƏT

Rəvayət edildiyinə görə, uca Allah, Musanı -əleyhissalam- Fironun yanına göndərdiyi zaman ona belə buyurdu:

«Fironun yanına get, çünki o çox azdı…» (Taha, 20/24)

Musa -əleyhissalam- ailə üzvlərini və heyvanlarını əmanət edə biləcəyi bir kimsə olmayacağından belə dedi:

- Ey Rəbbim! Ailəmə və heyvanlarıma kim baxacaq?

Buna cavab olaraq uca Allah, «qoruyanların ən xeyirlisi» olduğunu xatırladaraq belə buyurdu:

- Ey Musa! Məni tapdıqdan sonra başqa nə istəyirsən? Sən mənim əmrimi yerinə yetirməyə get! Mənə bağlan və təslimiyyət göstər! İstəsəm, qurdu qoyunlara çoban edərəm və mələklərim də sənin ailəni qoruyar. Ey Musa! Sən nə düşünürsən? Anan səni dənizə atdığı zaman səni kim qurtardı? Sonra səni anana kim qovuşdurdu? Sən bir nəfəri xəta edərək öldürmüşdün və Firon səni axtarırdı, o, səni öldürməyə qərar vermişdi. O vaxt səni Firondan kim qorudu?

Musa -əleyhissalam- bu deyilənləri həm eşidir, həm də hər cümlənin sonunda belə deyirdi:

«SƏN, SƏN, SƏN, EY RƏBBİM!»

İBRƏT:

Əlbəttə, Musa da -əleyhissalam- bütün peyğəmbərlər kimi təslimiyyətin zirvəsində idi. Ancaq peyğəmbərlər insanlar üçün bir örnək şəxsiyyət olduğundan uca Allah bizlərə önəmli olan bəzi məsələləri onların üzərində təcəlla etdirir və belə vəziyyətlərdə necə davranacağımıza işarə buyuraraq könülləri tərbiyə edir. Belə ki, bu qissədə anladılması nəzərdə tutulan şey butun aləmlərin sahibi və Rəbbi olan uca Allahın əmrləri qarşısında heç bir insanın bəhanəsinin qəbul olunmayacağını bəyan etməkdir. Çünki onun əmrini yerinə yetirməyə çalışanların ehtiyac duyacağı hər cür yardımı, ehsanı və qorumağı təmin edə biləcək güc yalnız Odur. Əgər bəndə ixlas və səmimiyyətlə Haqqın rizasına təslim olaraq Onun əmrlərini yerinə yetirməyə çalışarsa, onun istənilən halda özünə dost və yardımçı olduğunu müşahidə edər. Belə ki, o Mütləq Qoruyucu, Musanı -əleyhissalam- Fironun sarayında böyütmüş, İbrahimi -əleyhissalam- Nəmrudun

atəşlərinin ortasında gülüstana qərq etmiş, Əshabi-Kəhf adı verilən saleh gəncləri üç yüz ildən çox olan bir müddətdə mağarada yuxuya verərək zalımların şərindən qorumuş və Məhəmməd Mustafanı da -səllallahu əleyhi və səlləm- çox təhlükələrdən xilas etmiş, xüsusilə Sevr mağarasında onu düşmənlərin gözlərindən gizləmişdir. Şair çox gözəl söyləyir:

Kimseden ummam meded hafızım olsun Huda,

Ben tevekkül eylerem **«Fallahu hayrun hafiza»**…

Rahmeti

❁

MÖMİNİN DUASINI ALMAQ

Maruf Kərhinin oruclu olduğu bir gün idi. Əsr vaxtına az qalmış bazardan keçərkən bir su satanın belə dediyini eşitdi:

- Bu sudan içənə Allah rəhmət və bərəkəti ilə münasibət göstərsin!

Maruf Kərhi su satanın duasını eşidəndə orucunu pozdu.

Yanındakılar belə dedilər:

- Ustad, orucunuzu niyə pozdunuz?

Həzrət Maruf belə buyurdu:

- Su satanın duasındakı bərəkətə nail olmaq istədim.

O vəfat edəndən sonra onu yuxuda görüb soruşdular:

- Allah sənə necə münasibət göstərdi?

Belə cavab verdi:

- Su satanın o səmimi duasının bərəkəti ilə Rəbbim məni bağışladı. Mənə mərhəmətlə münasibət göstərdi.

İBRƏT:

Könlü uca Allah ilə birgə olan elə qərib insanlar var ki, bəzən onların duaları nafilə ibadətdən daha təsirli olur. Ancaq bunu da deyək

ki, daha önəmli bir fəzilətə görə, pozulan nafilə oruclar sonradan qəza edilə bilər. Çünki artıq vacib hökmündədir. Burada anladılması istənilən məsələ daha önəmli olanı önəmlidən üstün tutmaqdır. Çünki bir an gələr, kiçik görünən şeylərdə çox böyük faydalar ortaya çıxar. Başqa yöndən, viranə olan bəzi yerlərdə gözəl dəfinələrin gizli halda ola bildiyi kimi, qullar arasında da zahirən viranə olub, mənəvi baxımdan cövhər olan çox İnsanlar var. Belə İnsanlara qarşı qafil olmaq doğru deyil.

Şair çox gözəl söyləyir:

Her geceyi kadir bil, her gördügünü Hızır,

Bak didar sana nazır, sekiz cenneti hazır!..

Rahmeti

Həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- buyurur:

«Sizə cənnətə girənlərin kim olduğunu bildirimmi? Onlar həm zəif olduqları, həm də xalq tərəfindən zəif hesab edildikləri üçün, heç kimin əhəmiyyət vermədiyi, ancaq «belə olacaq», deyə and içsələr, istəklərini Allahın qəbul edəcəyi şəxslərdir.

Sizə cəhənnəmə girənlərin kim olduğunu söyləyimmi? Onlar da sərt qəlbli, kobud, xəsis və təkəbbürlə yeriyən özündən razı şəxslərdir.» (Buxari, «Eyman», 9; Müslim, «Cənnət», 47)

❁

BİR MƏCZUB VƏ KÖNÜL DƏRMANI

Həzrət Bəyazid Bistami dərman düzəldərkən gördüyü bir həkimə belə dedi:

- Ey təbib! Səndə mənim xəstəliyim üçün dərman varmı?

Həkim soruşdu:

- Xəstəliyin nədir?

Həzrət Bəyazid cavab verdi:

- Günah xəstəliyi.

Həkim əllərini yanına salaraq belə dedi:

- Mən günah xəstəliyinin dərmanını bilmirəm.

Bu zaman onların yaxınlığında olan məczub bir gənc sözə qarışdı və belə dedi:

- Mən sənin xəstəliyinin dərmanını bilirəm.

Həzrət Bəyazid sevinclə dedi:

- Söylə, ey gənc!

Xalqın məczub saydığı, ancaq əslində, bir arif olan gənc günah dərmanını belə tanıtdı:

- On dirhəm tövbə kökü ilə on dirhəm bağışlanma yarpağı al! Bunları qəlb qabına qoy! Tövhid toxmağı ilə döy! İnsaf ələyindən keçir! Göz yaşları ilə yoğur! Eşq ocağında bişir! Bu yolla yaranan məcundan hər gün beş qaşıq ye, xəstəliyindən heç bir şey qalmaz!

Bunları eşidən Bəyazid Bistami içini çəkdi və belə dedi:

- Sənin kimi ariflərə məczub deyərək özlərini ağıllı hesab edənlərin vay halına!»

İBRƏT:

Bir bəndə üçün xalqın nəzərindən daha çox Haqqın nəzəri üstündür. Yalnız belə olduğu halda, kamillik və irfan yolları açılır. Artıq onun baxışı duyğusu və düşüncəsi başqa bir sirr və dərinliyə qovuşur. Belə bəndələrdən bəzisi Veysəl Qərani olur, ancaq xalq onu qafil bir halda məcnun adlandırır. Ancaq əslində, o Allah və Peyğəmbərinin xüsusi dostluğunu qazanmışdır. Başqa yöndən, bu qissə, **«Salehlərlə birgə olun!»** (ət-Tövbə, 9/119) ilahi əmrindəki bərəkəti əks etdirir. Arif olan gəncdə özünü göstərdiyi kimi, bütün salehlərin təqdim etdiyi könül reseptləri də çoxsaylı mənəvi xəstəliklərə şəfa bəxş edərək qəlbləri canlı və təmiz bir şəkildə Haqqa bağlayar. Burada Bəyazid Bistaminin diri və agah bir qəlbi olduğu halda, o könül dərmanı istəmişdir. Bu isə onun

təvazökarlığının bir təzahürü olmaqla birgə, söhbət etdiyi həkimin könlünü müalicə etmək üçündür.

❁

ÜZLƏR VAR, MƏLƏK KİMİ

Mərhum həzrət Sami Əfəndi və mərhum atam Musa Əfəndi -qüddisə sirruh- ilə Bursadan İstanbula qayıdırdıq. Yalovada maşın qatarına minmək üçün növbəyə durmaq istəyirdik. Maşınların qarışıqlıq yaratmamaq üçün bir sıraya düzülməsi məqsədi ilə bu işə məsul olan bir şəxs bizim maşınımıza da yer göstərərkən gözü maşının arxa tərəfində oturmuş Sami Əfəndi ilə Musa Əfəndiyə sataşdı. Çaşdı və dayandı. Sonra maşına yaxınlaşdı. Maşının şüşəsindən diqqətlə içəri baxdı, dərin bir ah çəkdi və belə dedi:

«Allah, Allah, nə qəribə dünyadır, üzlər var mələk kimi, üzlər var Nəmrud kimi…»

İBRƏT:

Bu hadisə də göstərir ki, Allaha dost olmağın əlaməti, onun ilahi nurunun könülləri və çöhrələri nurlandırmasıdır. Qısacası, Allah dostları Allahı xatırladan müstəsna insanlardır. Çünki yolları Allah yoludur. Onlar həqiqət karvanının uca rəhbəri Məhəmməd Mustafanın -səllallahu əleyhi və səlləm- əxlaqına bağlıdırlar. Belə ki, onun bir halı da işarəsiz və sözsüz, sadəcə siması ilə insanları Allaha dəvət etmələridir. Yəhudilərin seçilmiş alimlərindən olan Abdulla bin Salam, həzrət Peyğəmbərin gül üzünü görəndə iman gətirmiş və belə demişdi:

«Bu üz yalançı bir insanın üzü ola bilməz!» (Tirmizi, «Qiyamə», 42; Əhməd bin Hənbəl, «Müsnəd», V, 451)

Bu baxımdan hər bəndə getdiyi, gəzdiyi, dolaşdığı hər yerdə və məkanda müsbət, ya da mənfi olmasına baxmayaraq, öz ətrafına hər zaman sözsüz bir şəkildə, yəni halı ilə bir şey söyləyir, çoxsaylı informasiya verir və saysız-hesabsız baxışlarla üzləşir. Kim bilir

onun tanımadığı və heç vaxt tanış ola bilməyəcəyi neçə şəxs onun oturuşunu, duruşunu, danışmasını, baxışlarını və davranışlarını, yəni halını seyr edərək bəyənir və öz fitrətinə uyğun olaraq örnək alır.

Bilmək lazımdır ki, kainat ilahi sevincin qaynağıdır. İnsan deyilən bu gözəl müəmma ilahi sevincin xariqə təcəllasidir. İlahi sevincin içərisində olan salehlər və kamillər ölməyən insanlardır. Çünki onlar insanlığa nümunə olan bir ömür yaşamağın nəticəsində həyatları cəsədlərindən sonra da davam edər.

❁

XEYİR İŞLƏRDƏ MƏNƏVİ VƏZİYYƏT

Musa Əfəndi -qüddisə sirruh- anladır:

«Həzrət Sami Əfəndi ilə səfərdə idik. Ürgüpdə bir şəxs maşınını dayandıraraq ondan siqaret pulu istədi. Bəzi yol yoldaşlarının etirazlarına baxmayaraq, o, belə dedi:

- Bir halda ki, istəyir, vermək lazımdır!

O, belə dedi və istəyən şəxsə siqaret pulu verdi.

Bundan çox məmnun olan yoxsul niyətini dəyişdirib belə dedi:

- İndi gedib bu pula çörək alacağam.

O, sevinərək bizdən uzaqlaşdı».

İBRƏT:

Ancaq Allah rizası üçün görülən işlər insanların qəlbinə təsir edir və onların əxlaqını gözəlləşdirir. Ona görə də ediləcək xeyir işlərdə insanın mənəvi vəziyyətindən daha çox bizim mənəvi vəziyyətimiz önəmlidir. Allah Rəsulu -səllallahu əleyhi və səlləm- buyurur:

«Bir vaxtlar bir adam dedi:

- Mən mütləq bir sədəqə verəcəyəm.

Gecə evindən sədəqəsini götürüb çıxdı və bu sədəqəni bilmədən bir oğruya verdi. Ertəsi gün o şəhərin adamları belə dedilər:

- Heyrət ediləcək bir işdir! Bu gecə bir oğruya sədəqə verilmişdir!

Adam belə dedi:

- Allahım! Sənə həmd olsun. Mən mütləq bir sədəqə verəcəyəm.

O, yenə sədəqəsini götürüb evdən çıxdı və bu dəfə də bilmədən bir fahişəyə verdi. Ertəsi gün xalq dedi-qodu söyləməyə başladı:

- Belə şey ola bilməz! Bu gecə bir fahişəyə sədəqə verilmişdir!

Adam belə dedi:

- Allahım! Bir fahişəyə belə olsa, sədəqə verdiyim üçün Sənə həmd olsun! Mən mütləq bir sədəqə verəcəyəm.

O gecə yenə sədəqəsini götürüb evdən çıxdı və onu bu dəfə də bilmədən bir varlıya verdi. Ertəsi gün xalq heyrətlə danışmağa başladı:

- Bu nə işdir! Bu gecə də varlı bir adama sədəqə verilmişdir.

Adam belə dedi:

- Allahım, oğruya, fahişəyə və varlıya olsa belə, sədəqə verdiyim üçün Sənə həmd olsun!

Onun bu səmimiyyətinə görə yuxusunda o adama belə deyildi:

- Oğruya verdiyin sədəqə bəlkə də onu etdiyi oğurluqdan utandırıb əl çəkdirəcək. Fahişə bəlkə etdiyindən əl çəkib, namuslu bir qadın olacaq, varlı da bundan ibrət alıb Allahın ona verdiyi maldan möhtaclara paylayacaq». (Buxari, «Zəkat, 14; Müslim, «Zəkat», 78)

Başqa sözlə, sədəqə verən Rəbbinə şükür etməlidir. Çünki sədəqənin təsiri verənin səmimiyyətinə görə təcəlla edər.

❀

ƏRŞİ-ƏLAYA ÇIXAN SALEH ƏMƏL

«Həzrət Davud Taiyə xidmət edən bir müridi bir gün ona belə dedi:

- Bir az ət bişirdim. Yemək istəyirsinizmi?

Ustadı susdu. Bunu görən mürid əti gətirdi. Ancaq Davud Tai -qüddisə sirruh- qarşısına qoyulan ətə baxaraq belə dedi:

- Filan yetimlərdən nə xəbər var, övladım?

Mürid dedi ki, o yetimlərin vəziyyəti yaxşı deyil. O böyük Haqq dostu belə dedi:

- Onda bu əti onlara ver!

Hazırladığı yeməyi ustadının yeməsini arzu edən səmimi mürid israr etdi:

- Ustadım, siz də uzun zamandır ət yemirsiniz.

Ancaq həzrət Davud Tai onun bu israrını qəbul etməyib buyurdu:

- Övladım! Bu əti mən yesəm, çölə çıxar, ancaq o yetimlər yesə, ərşi-əlaya çıxar!..»

İBRƏT:

Günəşin isitməməsi mümkün olmadığı kimi, yüksək ruhlar üçün də insanların halına yanmamaq, iztirab və çətinliklər qarşısında duyğusuz qalmaq da imkansızdır. Mərhəmət bütün aləmə yayılmış ilahi bir cövhərdir. Haqq dostlarının ürəyi isə mərhəmətin bitməz-tükənməz xəzinəsidir. Onların nəzərində nəfsi bəsləyən fani rəğbət və əlaqələri bir kənara qoyub, ruhu bəsləyən, gözəl davranışlarla əməllərini əbədiləşdirənlərin əldə edəcəyi qazanc həm əbədi, həm də daha gözəldir. İnsanın bu dünyada əldə edəcəyi ən qiymətli iş də ancaq belə saleh əməllərdir. Başqa qazanclar isə bir-bir geri alınan müvəqqəti əmanətlərdir. Belə ki, hədisi-şərifdə buyurulur:

«Həzrət Məhəmmədin ailəsi bir qoyun kəsmişdi. İnfaq etdikdən sonra Peyğəmbər yerdə nə qaldığını soruşdu. Həzrət Aişə (r.a) dedi:

- Ancaq bir kürək sümüyü qaldı.

Buna cavab olaraq həzrət Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurdu:

- Ey Aişə, desənə, bir kürək sümüyündən başqa hamısı bizim oldu!» (Tirmizi, «Qiyamə», 33)

❁

HƏR ZAMAN HAQQI FƏRQ ETMƏK

Həzrət Abdülqadir Geylani başına gələn bir halı belə danışır:

«Bir gün gözümün qarşısında bir nur peyda oldu və bu nur bütün üfüqü əhatə etdi. Bunun nə olduğunu öyrənmək üçün o nura baxarkən, ondan bir səs gəldi:

- Ey Əbdülqadir, mən sənin Rəbbinəm! Bu günədək etdiyin gözəl əməllərdən elə məmnun oldum ki, bundan sonra sənə haramları halal elədim.

Ancaq bu müraciət bitər-bitməz mən bu səsin sahibinin lənətlənmiş şeytan olduğunu anladım və belə dedim:

- Çəkil, get, ey məlun! Göstərdiyin nur mənim üçün əbədi bir zülmətdən başqa bir şey deyil.

Buna cavab olaraq şeytan belə dedi və uzaqlaşdı:

- Rəbbinin sənə ehsan etdiyi hikmətlə yenə əlimdən xilas oldun. Halbuki, mən yüzlərlə şəxsi yoldan çıxartmışam.

Əllərimi ulu dərgaha açdım, bunun Rəbbimin fəziləti olduğunu dərk edərək uca Allaha şükür elədim.

Camaatdan bu halı dinləyən birisi soruşdu:

- Ey Əbdülqadir, onun şeytan olduğunu haradan bildin?

Abdülqadir Geylani -qüddisə sirruh- cavab verdi:

-Sənə haramları halal etdim deməsindən!..»

İBRƏT:

Hər zaman və məkanda Allahın dinini pozmağa çalışanlar həmişə mövcud olmuşdur. Ancaq onların bu Çirkin fəaliyyətinin gücləndiyi zamanlarda hər bir mömin üçün haqq ilə batilə, doğru ilə

yalanı, xeyir ilə şəri, gözəl ilə çirkini bir-birindən seçmək zərurəti daha böyük bir önəm qazanmışdır. Bu gün yuxarıdakı qissənin başqa təcəllaləri yaşanır və bir çox özünü guya elm əhli sayan şəxslər məqsədli olaraq İslamın halallarını haram, haramlarını da halal saymağa və onları cəmiyyətə bu cür təqdim etməyə çalışırlar. Başqa sözlə, həzrət Abdülqadir Geylaninin fərasətli davranışı və hər zaman haqqı seçə bilməsi hamımız üçün böyük əhəmiyyət daşıyır. Burada həzrət Geylaninin düsturu çox açıqdır:

Uca Allah Peyğəmbərinə verdiyi bir haqqı, əsla başqalarına verməz. Halal və haramın, doğru və yanlışın, gözəl və çirkinin nə olduğunu Peyğəmbər deyil, şeytan və onun İnsanlar içərisindəki özünü savadlı göstərənlərmi daha yaxşı bilir? Əsla… Uca Allahın belə qafil İnsanlara xəbərdarlığı çox sərtdir:

«(Ey Rəsulum! Bunlara) **de: Siz dininizi** (Allahın göndərdiyi dini) **Allaha öyrətməyə çalışırsınızmı?»** (əl-Hücurat, 49/16)

❁

MƏNƏ KƏRİM LAZIMDIR

Bəyazid Bistami belə anladır:

«Bir gün Dəclə çayının o biri tərəfinə keçmək istəyirdim. Çayın yanına çatanda onun iki tərəfi mənə yol vermək üçün birləşdi. Tez özümü ələ aldım və Dəclə çayına belə dedim:

«And olsun ki, mən buna aldanmaram. Çünki adamları çayın bu tərəfindən o biri tərəfinə keçirənlər bir adamı yarım axçaya keçirirlər. Ancaq sən otuz illik əməlimi istəyirsən! Mən məhşər günü üçün hazırladığım saleh əməllərimi, əsla, burada yarım axçaya verib ziyan etmərəm. Mənə Kərim lazımdır, kəramət deyil!»

İBRƏT:

Nəfsə xoş gələn bir əməl olaraq kəramət həqiqi Haqq dostlarının böyük bir həssaslıqla yanaşdıqları incə məsələdir. Çünki kəraməti bir kənara qoyub, bir anlıq çətinliyə dözməyin əvəzi, ya müvəqqəti bir

yorğunluq, ya üç-beş quruş pul, ya da qulların gözünə görünməməkdir. Ancaq kəramətə sarılmağın əvəzi isə, bəzən o anadək edilən saleh əməllərin hamısıdır ki, bu İnsanı uca mövqelərə əliboş aparan bir könül iflasıdır. Onun üçün bütün ariflər Haqqın istəməsi müstəsna olmaqla, xalqın rizasını və təqdirini qazanmaq demək olan kəramətə əsla meyil etməmişlər. Onlar hər zaman Kərim olan Mövlanın rizasını qazanmağa çalışmışlar.

Bu mənada Allah dostlarının böyüklərindən olan Səhl bin Abdullah ət-Tüstəri çox gözəl buyurur:

«Kəramətlərin ən böyüyü pis xasiyyətləri yaxşı xasiyyətlərlə əvəz etməkdir. Bundan başqa bəzi kəramətlər ağlayan uşaqlara verilən bir oyuncaq kimidir. Bunu vəlilər deyil, ancaq qəflət sahibləri arzu edirlər. Onlar bununla aldanır və başqalarını da aldadırlar».

Ona görə də hər bir mömin üçün ən önəmli məsələ uca Allahın buyurduğu bu ölçüdür:

«Əmr olunduğun kimi doğru ol!» (Hud, 11/112)

❁

ÖNDƏ GEDƏNLƏRİN MƏSULİYYƏTİ

«Bir gün həzrət Əbu Hənifə palçıqda yeriyən bir uşaq gördü. Mərhəmət və şəfqətlə gülümsəyərək belə dedi:

- Övladım, diqqətli ol ki, yıxılmayasan!

Uşaq da zəka və bəsirət parlayan gözləri ilə imama tərəf döndü və ondan gözlənilməyən bu ibrətli cavabı verdi:

- Ey imam! Mənim palçığa yıxılmağım çox sadə bir işdir, yıxılsam, ancaq mən zərər görərəm. Ancaq siz çox diqqətli olmalısınız, çünki sizin ayağınız büdrəsə, sizə tabe olub arxanızca gələnlərin də ayağı büdrəyər. Onlar yerə yıxılsalar, onların hamısını yerdən qaldırmaq çox çətindir.

Uşağın sözlərinə heyran qalan imam ağlamağa başladı və tələbələrinə belə dedi:

- Əgər bir məsələdə sizin əlinizə daha güclü bir dəlil keçərsə, o məsələdə mənə tabe olmayın. İslamda kamil olmağın əlaməti budur. Mənə olan sevgi və bağlılığınız da ancaq bu şəkildə ortaya çıxa bilər…»

İBRƏT:

Haqq yolunda ən ön sırada durmaq həm bərəkətli, həm də məsuliyyətlidir. Çünki öndə olanların gözəllikləri ətrafa təsir etdiyi kimi, yanlışlıqları və çirkinlikləri də onların ətrafında olanlar tərəfindən doğru sayılaraq təqlid olunur və tətbiq edilir. Ona görə də İmam Əzəm kimi din böyükləri verdikləri fitvalarda bu həssaslığa əməl etmişlər, öz həyatlarını da hər zaman təqva ölçüləri içində keçirmişlər. Belə ki, bir dəfə İmam Əzəm paltarının üzərində olan çox kiçik bir ləkəni təmizləyərkən onu görənlər soruşurlar:

- Ey İmam! Verdiyiniz fitvaya görə, bu kiçik ləkə namaza mane olmaz. Niyə zəhmət çəkib onu təmizləməyə çalışırsınız?

Həzrət İmam buyurdu:

- O fitva, bu təqva!..

Deməli, böyük olsun, kiçik olsun, qullara və Haqqa qarşı bütün məsuliyyətləri əbədi aləmdə bir razılıq sevincinə çevirəcək olan yeganə ölçü budur.

❁

ALLAHIN DƏVƏTİNİ QƏBUL ETMƏK

Həsən Bəsri -qüddisə sirruh- belə buyurur:

«Qoyun insandan daha həssasdır. Çünki o, çoban səslənəndə otlamır, diqqətlə qulaq asır. Bu həqiqətdən ibrət almayıb, Allahın dəvətinə biganə qalan insana nə demək olar?!»

İBRƏT:

Dəvətlər müxtəlifdir. Bir şəxsə «gəl» deyiləndə çağıran sevmədiyi biri isə vəziyyət başqadır, dostudursa, vəziyyət tamam başqadır, anasıdırsa, vəziyyət çox fərqlidir, sevdiyi bir İnsandırsa, vəziyyət bambaşqadır. Ona görə də Allahın dəvətini qəbul etmək çox fərqli bir könül coşqusu içində və təslimiyyətlə olmalıdır. Xüsusilə, gündə beş dəfə yerləri və göyləri dolduran «Hayyə aləs-saləh» («Namaza tələsin!») dəvətinə qarşı könlümüzdəki şövq və həyəcanın necə olduğunu Haqqa bağlılıq və məhəbbət tərəzisində hər zaman çəkməliyik. Həzrət Mövlana çox gözəl buyurur:

«Ağlını başına yığ! Madam ki uca Allah səni tələb edir, bu istəyə qarşı sən başını belə ayağa çevir və qaç!»

«Çünki Onun «gəl» deməsi insana ucalıq verir. Mənəvi coşqunluq verir, sonsuz ehsanlar bağışlayır, gözəl süfrələr açır.»

❁

HALALIN ÖNƏMİ

Əbu Abbas Nihavəndidən ticarətlə məşğul olan varlı tələbələrindən biri zəkatını kimə verməsinin daha uyğun olduğunu soruşdu. Əbu Abbas da -qüddisə sirruh- belə dedi:

- Könlün kimi istəyirsə, ona ver!

Bu cavabı aldıqdan sonra müəlliminin yanından ayrılan tələbə onun getdiyi yolda dilənən bir kor gördü. Ona ürəyi yandı. Zəkat olan bir kisə qızılı çıxarıb ona verdi. Kisəni əli ilə yoxlayan kor sevinclə oradan ayrıldı. Ertəsi gün eyni yerdən keçən tələbə bir öncəki gün zəkat verdiyi korun başqa bir korla danışdığını gördü. Qulağı bu cümlələri eşitdi:

- Dünən bir bəyzadə mənə bir kisə qızıl verdi. Mən də meyxanəyə gedib yaxşı kef elədim.

Bu sözlər tələbənin canını sıxdı, könlünü daraltdı. Birbaşa həzrət Əbu Abbasın yanına getdi. Hadisəni ona danışmaq istəyirdi. Ancaq müəllimi ona fürsət vermədi. Satdığı papağın əvəzi olan bir axçanı infaq etməsi üçün ona uzadıb belə dedi:

- Bu axçanı qarşına çıxan ilk insana verərsən!

Tələbə bir şey demədən ona verilən vəzifəni yerinə yetirmək üçün oradan ayrıldı. Müəlliminin dediyi kimi qarşısına çıxan ilk insana bu axçanı verdi. Ancaq onun içini bir maraq gəmirirdi. Ona görə də axçanı verdiyi şəxsin arxasınca düşdü. O adam şəhərin kənarında olan bir yerə getdi və bir xarabaya daxil oldu. Sonra paltarının altından bir ölü kəklik çıxarıb yerə atdı. Oradan ayrılmaq istəyirdi ki, tələbə onun qarşısını kəsdi və soruşdu:

- Ey igid! Allahın rizası üçün doğru olanı söylə, bu nə işdir? Bura atdığın ölü kəklik nədir?

Adam ona axça verən şəxsi görəndə kəkələyərək bunları dedi:

- Yeddi gündür ki, bir şey tapıb, ailəmə yedirdə bilmirəm. Mən və xanımım səbir edirdik, ancaq uşaqlarımın artıq aclığa dözümləri qalmadı! Buna baxmayaraq, dilənib insanlardan bir şey istəmək, əsla, xoşuma gəlməyən bir iş idi. Min bir iztirab içində qıvrılırdım. Sənin görmüş olduğun o artıq çürüməyə başlamış ölü kəkliyi tapdım. Çox ehtiyac olduğuna görə onu yemək üçün uşaqlarıma aparacaq idim. İçimdə də Allaha yalvarırdım: «Ey Rəbbim! Mənim bu halıma yardım elə!» Mən belə yalvaranda sən gəlib o axçanı mənə verdin. Mən də Rəbbimə şükür edərək o yeyilməsi mümkün olmayan quşu zibilliyə atdım. İndi bazara gedib və sənin verdiyin axça ilə yemək üçün bir sıra şeylər alacağam…

Bu eşitdiyi sözlər tələbəni çaşdırdı. O, dərhal həzrət Əbu Abbasın yanına getdi. Həzrət Pir o tələbəsi ağzını açmadan belə buyurdu:

- Övladım! Deməli, sən qazancına şübhəli, ya da haram bir şeyin qarışıb-qarışmadığına diqqət etməmisən. Buna görə də, zəkat borcunu yerinə yetirdiyin halda, zəkatın şərab almağa sərf olundu. Ancaq qazanılan şeylər haradan və necə əldə edilmişsə, eyni şəkildə əldən çıxar. Belə ki, mənim bir tək axçamın saleh bir İnsanın əlinə düşməsinin hikməti də onu ancaq öz əl əməyim ilə qazanmış olmağımdan, yəni halallığındandır…»

İBRƏT:

Hər şey istər müsbət, istərsə də mənfi olsun, sahib olduğu xüsusiyyətlərə görə dəyər qazanır, ya da itirir. Bu həqiqət halal və haram məsələlərində daha açıq şəkildə özünü göstərir. Ona görə də bizdən öncəkilər mal və mülk haqqında belə demişlər: *«Hayla gələn huya gedər!»*. Bunun iki mənası var. Birincisi, «hay» olan Allahdan gələn yenə «hu» olan Allaha gedər. İkincisi, boş yerdən qazanılan, şübhə və haramla qarışıq olan qazanclar da yenə havaya, boşa gedər. Qısacası, halal halala yol açdığı kimi, haram da harama yol açır. Belə ki, bu həqiqəti ifadə etmək məqsədi ilə həzrət Əbu Bəkr Vərraq bir söhbətində belə buyurdu:

- Səhər yerimdən qalxanda insanlara baxıram. Kimin halal, kimin haram yediyini anlayıram!

Ondan soruşdular:

- Bunu necə anlayırsan?

Bunu belə izah etdi:

- Kim səhər tezdən yerindən qalxar-qalxmaz boş söz danışırsa, qeybət edirsə, onu-bunu söyürsə, bilirəm ki, bu hal onun yediyi haram qidadan törəyir. Kim ki, səhər tezdən yerindən qalxanda uca Allahı zikr edirsə, tövhid kəlməsini söyləyirsə, Allahdan bağışlanmasını istəyirsə, onun yediyi qida da halaldır. Çünki halal da, haram da öz xüsusiyyətlərinə görə İnsanların əməllərinə təsir edir.

❁

HALAL QAZANC

Həzrət Əbu Hənifə ticarətlə məşğul olurdu, xeyli sərvəti olan varlı bir şəxs idi. Ancaq elmlə məşğul olduğuna görə ticarətlə bağlı işlərini vəkili vasitəsilə həyata keçirirdi. O, özü ticarətinin halal olub-olmadığına da nəzarət edirdi. O, bu məsələdə çox həssas idi. Bir dəfə ortağı olan Hafs bin Əbdürrəhmanı qumaş satmağa göndərmiş və ona belə demişdi:

- Ey Hafs! Malda bir sıra qüsurlar var. Onun üçün bu malları

müştəriyə satarkən qüsurlarını söylə və bu qədər ucuz qiymətə sat!

Hafs da malı imamın bildirdiyi qiymətə satmış, ancaq malda olan qüsurları müştəriyə söyləməyi unutmuşdu. Vəziyyəti öyrənən həzrət Əbu Hənifə, Hafs Əbdürrəhmana belə dedi:

- Qumaşı alan müştərini tanıyırsanmı?

Hafs müştərini tanımadığını bildirdi. İmam halal qazancının ləkələnəcəyindən qorxdu. Satılan maldan əldə edilən qazancın hamısını sədəqə olaraq payladı. Onun bu təqvası maddi və mənəvi ticarətinə çox bərəkət gətirdi.

İBRƏT:

Bir şəxsin könlünün təmiz olduğunu, ixlas sahibi və istiqamət əhli olduğunu anlamaq üçün onun etdiyi ibadətlərdən daha çox, o ibadətləri hansı mənəvi səviyyə və hal ilə etdiyinə baxmaq lazımdır. Yəni, xüsusilə, davranışlarının İslam əxlaqına uyğun və qazancının halal olub-olmadığına diqqət yetirmək zəruridir. Bu mənada həzrət Ömər (r.a) bir şəxs öydüyü zaman onu tərifləyəndən üç şey soruşardı:

- Sən onunla qonşu oldunmu, səfərə çıxdınmı, ticarətlə məşğul oldunmu?

Əgər tərifləyən şəxs bu deyilənlərin heç birini etmədiyini söyləsə idi, onda həzrət Ömər (r.a) belə buyurardu:

- Elədirsə, onu tərifləməyin, çünki siz onu layiqincə tanımırsınız!

Ona görə də Süfyan Sevri -qüddisə sirruh- belə buyurmuşdur:

«Bir insanın dindarlığı, çörəyinin halallığı ölçüsündədir».

Bir gün ondan soruşdular:

- Ustad! Namazı birinci sırada qılmağın fəzilətini izah edərsinizmi?

O mübarək şəxs bu suala cavab verərkən diqqəti halal tikəyə yönəltmiş və belə buyurmuşdur:

- Qardaşım, sən çörəyini haradan qazandığına diqqət et! Qazancın halal olduqdan sonra, hansı sırada istəyirsənsə, orada namaz qıl. Bu məsələdə sənə heç bir çətinlik yoxdur.

Ticarətlə məşğul olanda halal qazanca diqqət yetirib, ona haram qarışdırmamağın önəmini və bərəkətini mərhum atam Musa Əfəndi -qüddisə sirruh- bu hadisə ilə anladardı:

«Müsəlman olmayan bir qonşumuz var idi. Sonradan müsəlman olmuşdu. Bir gün ondan doğru yola qovuşmasının səbəbini soruşdum. O bunları söylədi:

- Acıbadamda tarla qonşum olan Molla Rəbinin ticarətdəki gözəl əxlaqı vasitəsilə müsəlman oldum. Molla Rəbi süd sataraq yaşayışını təmin edən bir şəxs idi. O, bir axşam bizə gəldi və belə dedi:

- Buyurun, bu süd sizindir!

Çaşdım:

- Bu necə ola bilər? Mən sizdən süd istəmədim ki!

O həssas və zərif insan belə dedi:

- Mən fərqində olmamışam, ancaq heyvanlarımdan biri sizin bağçaya girib orada otlayıb. Ona görə də bu süd sizindir. Bundan başqa o heyvanın yediyi otlar bədənindən tamamilə çıxanadək südünü sizə gətirəcəyəm…

Mən dedim:

- Qonşu, belə şey olarmı? Yediyi ot deyilmi? Halal olsun!

Mənim belə deməyimə baxmayaraq, Molla Rəbi buyurdu:

- Yox, yox, elə şey ola bilməz! Onun südü sizin haqqınızdır.

Molla Rəbi dediyi kimi də etdi.

O mübarək şəxsin bu davranışı mənə çox təsir etdi. Onun hərəkəti mənim gözümdəki qəflət pərdələrini qaldırdı və hidayət günəşi içimə doğdu. Öz-özümə belə dedim:

«Belə yüksək əxlaqı olan bir insanın dini, şübhəsiz ki, ən uca bir dindir. Belə zərif, Haqqı çox sevən və tərtəmiz insanlar yetişdirən

dinin doğru bir din olduğuna şübhə etmək olmaz! Mən bu sözləri dedim və sonra şəhadət kəlməsi oxuyaraq müsəlman oldum.

Bu hikmətli qissələr halal qazanc və haram məsələsində çox diqqətli və ehtiyatlı olmağımızın zəruriliyini açıq bir şəkildə ortaya qoyur. Çünki halal qazanc təqvanın başlıca şərtlərindən biridir. Ona görə də hədisi-şərifdə belə buyurulmuşdur:

«Doğru sözlü, dürüst və etibarlı tacir, nəbilər, siddiqlər və şəhidlərlə bərabərdir.» (Tirmizi, «Büyu», 4)

Çünki nəbilər, siddiqlər və şəhidlərlə birgə olmaq şərəfini qazanan könlü həssas bir tacir cəmiyyət üçün bir rahatlıq və bərəkət vəsiləsi olar, özü üçün də həm dünyəvi, həm də axirətə bağlı səadətə yol açar. Ancaq dünya ehtirasına məğlub olanlar, bu aləmdə bir səltənət sahibi kimi görünsələr də, sonsuz aləmin əbədi bir səfili və yoxsulu olmaqdan özlərini xilas edə bilməzlər.

Peyğəmbər -səllallahu əleyhi və səlləm- belə buyurmuşdur:

«Elə bir zaman gələr ki, insan malının halal, ya da haram olduğunu heç vecinə almaz.» (Buxari, «Büyu», 7, 23)

Bir sözlə, hədisi-şərifdə işarə edilən qəflət hallarının çox zühur etdiyi və könüllər haramı tərk etməyə çalışsa da, haramın könüllərdən əl çəkmədiyi müasir dövrümüzdə halal qazanca riayət edə bilmək ən böyük məsələ və ən böyük ibadətdir.

Bu böyük ibadəti yerinə yetirərək Allahın əmrinə itaət, təslimiyyət və riza halında ola bilən qəlblər tikanların arasında sıyrılıb rəngbərəng ləçəklərlə açan güllər kimi, bir xeyir və bərəkət mənbəyi olurlar. Bunun əksinə, haram və şübhəli şeylərə yönəlmiş qəlblər də güllərin əksi olan tikanlara qarışaraq min bir pislik qaynağı və hətta, əxlaqsızlıq yuvasına çevrilirlər. Uca Allah bizi bundan qorusun!

Amin!..

XÜLASƏ

Uca Allah, həzrət Peyğəmbərə -səllallahu əleyhi və səlləm- buyurur:

«(Ey Rəsulum!) **Onu Cəbrail** (Ruhul-Əmin) **endirdi.** (Günahkarları (Allahın əzabı) **ilə qorxudan** (xəbərdar edən) **peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə** (nazil etdi)**.»** (əş-Şuəra, 26/193-195)

Bu hikmətlərin mahiyyəti odur ki, ilahi elm və irfan ancaq könül iqlimində cücərib inkişaf edə bilər. Yəni hər bir elmi həqiqət ancaq eşq, vəcd və feyz məkanı olan qəlblər vasitəsilə dərin mənaları və misilsiz gözəllikləri üzə çıxarar. Bu mənada təsəvvüfə bağlı olan aşağıdakı sözlər çox ibrətamizdir:

Elm əsasdır, ancaq bu əsasın qayəsi də gözəl əməldir. Bu da, qısa olaraq desək, Allahın buyruqlarını böyük bir itaət duyğusu ilə yerinə yetirmək və bütün yaradılmışlara mərhəmət etmək sirrində gizlidir. Əks halda, elm faydasız bir yükdür.

Yəni bütün kitab bilgiləri, əslində, bir toxuma bənzəyir. Bu toxumlar torpağa əkilməyib anbarda qalsa, onlar yenə toxumdan başqa bir şey ola bilməz. Kitabda olan bilgilər də ancaq sətirlərdə, ya da kitab taxçalarında qalsa, heç bir şey dəyişməyəcək. Ancaq torpağa əkilən toxumlar öz xüsusiyyətinə görə böyüyər, eləsi də olar ki, böyük bir çinara çevrilər. Bunun kimi, könül torpağına əkilən elm toxumları da qəlbləri bir mənəviyyat bağçasına çevirər, elm və irfanın gerçək meyvələri də ancaq o zaman əldə edilə bilər.

Buna görə də Qurani-Kərim Rəsulullahın -səllallahu əleyhi və səlləm- mübarək köksünə endirilmişdir və əshabi-kiram da ilahi

tərbiyəni, elmi və məlumatları sətirlərdən daha çox Varlıq Nurunun könül aləmində oxumuşlar. Bu yolla da onların gözləri və könülləri ilahi kəlamın o mübarək sinədəki çoxsaylı ülvi və misilsiz təcəllaləri ilə nurlanmış, İslamın ülvi və dərin həqiqətləri, sirr və hikmətləri bütün gözəllikləri ilə ruhlarına əks etmişdir. Müəyyən mənada səhabə Allah Rəsulunun -səllallahu əleyhi və səlləm- canlı bir Quran halındakı müstəsna şəxsiyyət və xarakterinə heyran qalaraq iman etmiş və onun ətrafında pərvanə olmuşdur. Təsəvvüf də bundan pay alaraq İslamı mənəviyyat və feyz iqlimində yaşatmağı bir ölçüyə çevirmişdir. Onlar həzrət Peyğəmbərin -səllallahu əleyhi və səlləm- nur mənbəyi olan könlündən Allah dostlarının duyğu və düşüncələrinə axan nurani parıltıları əsrlərə və nəsillərə çatdırmağa çalışmışlar.

Bu baxımdan dinin fitva yönü bir binanın təməl dirəkləridir, təqva yönü isə o dirəklərin ətrafındakı tamamlayıcı hissələrdir. Bu hissələr gözəllik və incəlik naxışlarıdır. Bir tərəfdən bu iki özəlliyi birləşdirən təsəvvüf, başqa bir yöndən də gözəl əməl və əxlaq mükəmməlliyi ilə birgə, İnsanı, həyatı və kainatı şərh edir, yerinə yetirilməsi zəruri olan işlərin məsuliyyətini daha geniş bir hikmətlə dərk olunmasını və icrasını təmin edir. Bu baxımdan təsəvvüf, məhəbbətullah və mərifətullah mövzusunda qullar üçün onların könüllərindən meraca doğru açılmış mənəvi bir pəncərə kimidir.

Təsəvvüf, yeri gəldikcə haqqında danışdığımız kimi İslamı ixlas, təqva, zöhd, ehsan, özünün hər zaman Allahın nəzarəti altında olduğunu hiss etmək, səmimiyyət, təslimiyyət və məhəbbət ölçüləri ilə yaşaya bilməkdən ibarətdir. Onun ən önəmli məsələsi də bu həqiqətləri anlatmaqdan daha çox onları həyatımıza imkan və istedadımız ölçüsündə əks etdirə bilməkdir. Saleh alimlər etdikləri hər vəzdə, verdikləri hər nəsihətdə və anlatdıqları hər bir ilahi gözəllik və gözəl əxlaqdan sonra belə deyirlər:

«Söyləmək asandır, dinləmək asandır, ancaq olduğu kimi əməl etmək çox çətindir!..»

Onlar bu sözləri ilə könüllərin kamilləşməsi üçün zəruri olan ölçüləri verirlər.

Bu pəncərədən baxdığımız zaman müəyyən mənada yazmaq və

oxumaq da asandır. Ancaq bu yazılanları hiss etmək, onları yaşamaq, o gözəllikləri həyatımızın mənasına çevirmək bir xeyli çətindir. Yəni «səbir et» kimi bir qısa kəlməni nə söyləyən dil, nə eşidən qulaq, nə də oxuyan göz yorular. Ancaq bu kəlmənin saysız-hesabsız dərd, çox ağır əzab, iztirab, bitib-tükənməyən sıxıntılara məruz qalmış könüllərdə təcəllasindən danışanda insanlar qan-tər tökürlər və çox zaman da səbirsizliyə üstünlük verirlər. Başqa sözlə, bütün məsələ təsəvvüfi bilgiləri sadəcə öyrənmək və öyrətmək deyil, əsl məsələ onları könüllərimizin bir həyat və səadət iksirinə çevirə bilməkdir.

Çünki uca Allah Qurani-Kərimdə belə buyurur:

«Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq, (bəlli etmək) **üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir,** (çox) **bağışlayandır».** (əl-Mülk, 67/2)

Uca Allah bu sözləri ilə qulları saleh əmələ dəvət edir. Əgər diqqətlə baxsaq, görərik ki, ayeyi-kərimədə «daha gözəl öyrənmək», «daha gözəl anlatmaq», ya da «daha gözəl dinləmək» şəklində bir ifadə yoxdur. Əksinə, «daha gözəl qulluq etmək, yəni saleh əməl» həqiqəti bəyan edilir.

Ona görə də təsəvvüfün başlıca məqsədi irfan zəmzəmi, təqva kövsəri və eşq, məhəbbət abi-həyatı ilə könül qönçələrini cücərtmək və bir qəflət çölü olan bu dünyada qulları peşman olmadan uca Allaha qovuşdurmaqdır. Bu həqiqəti anlayanlar və yaşayanlar təsəvvüfü anlamış və yaşamış olurlar. Təsəvvüf böyükləri belə buyurur:

«Təsəvvüf bir haldır, ancaq dadan bilər!..»

Bir sözlə, burayadək anlatdıqlarımızla təsəvvüf haqqında söyləmək istədiyimiz başlıca söz və məna odur ki, təsəvvüf, Allaha ən gözəl şəkildə qulluqdur və əbədi aləmə ciddi bir hazırlıqdır. Yəni təsəvvüf qulluğu ən gözəl bir şəkildə yaşaya bilməkdir, çünki uca Allah insanı, Özünə qulluq etməsi üçün yaratmışdır. Başqa sözlə, təsəvvüf qulluq etməyə mane olan çətinlikləri ortadan qaldırmaqdan və qulluğa yol açacaq imkanları təmin etməkdən başqa bir şey deyil. O, yaraları sarıyır, quraq torpaqları yaşıl və münbit bir gülüstana çevirir, viranə könülləri bir abad saray edir. Qısacası, təsəvvüf bu

qürbət aləmindən sonsuz vüsal aləminə gedərkən bəndələri Haqq yanında **«nimәl-abd»**, yəni «nə gözəl bəndə» rütbə və təltifinə aid edəcək nurlu bir yoldur.

Bütün məsələ nəfsani istəklərdən və iddialardan sıyrılıb Allahın əzəməti qarşısında **öz heçliyini** dərk edib, bu hal üzrə yaşaya bilməkdir. Bu xüsusiyyət bəndəyə acizlik və təvəkkülü təlim edən elə ülvi bir haldır ki, könlü kamilliyin zirvəsinə yüksəldir. Heçlik sarayında yaşayan könüllər heç bir zaman məhrumiyyət və zillətə düşməzlər. Əksinə, təvazökarlıq və heçlik örtüyünə büründükləri ölçüdə Haqq yanında yüksək zirvələrə nail olurlar. Şair çox gözəl söyləyir:

Mahzarı- feyz olamaz düşmeyicek hake nebat

Mütevazi olan rahmeti-Rahman büyütür.

«Bitki, heçlik sirri ilə torpağa bir toxum kimi düşmədikcə, feyz, bolluq və bərəkət qazana bilməz. Ancaq təvazökar, yəni heçlik halında torpaqla bir olanı isə Rəhmanın rəhməti böyüdər, ona min bir bərəkət verər…»

Ey Rəbbimiz! Bizi də «nə gözəl bəndə» deyə təltif etdiklərindən et! Allahım! Hüzurunda heçlik iqliminə girərək, təkəbbür və iddianın quraqlığından qorumağa çalışdığımız könüllərimizi sonsuz rəhmətinlə cücərt! Sözlərimizi əməlimizə, əməlimizi də sözlərimizə uyğun et! Sənin sonsuz kəlam sifətinin təcəllası ilə acizanə qələmə almağa çalışdığımız həqiqət qönçələrinin könüllərimizdə bitməsinə yardım et! Hamımızı sevdiklərindən edib, saleh insanlar zümrəsinə qovuşdur və onlarla həşr elə! Bizi həzrət Peyğəmbərin nurlu yolundan ayırma. Onun şəfaətinə nail et! Razı olduğun halı və əxlaqı ehsan et, hər zaman razı olduğun əməlləri etməyə yönəlt! Bütün duyğularımızı ilahi rizan ilə uyğunlaşdır. Sevmədiyin hal və davranışlardan uzaqlaşdır! Son nəfəsimizədək bizi doğru yol üzrə yaşat! Sənin elmin qarşısında bir damla, bir zərrə olan bu əsərimizi xeyirə, hidayətə, hikmətə, həqiqətə və mərifətə vəsilə et!

Amin!.

BİBLİOQRAFİYA

Abdurrahman Güzel, Mustafa Tatçı,

Yunus Emre, Ankara, 1991.

Abdülbakı Gölpınarlı,

Mesnevi ve Şerhi, I-VI, İstanbul, 1973-1974.

Abdülkadir Geylani,

el- Fethur-Rabbani (trc. Yaman Arıkan), İstanbul, 1987.

Abdülkerim el-Cili,

İnsani-Kamil (trc. Abdülaziz Mecdi Tolun, haz: Selcuk Eraydın, Ekrem Demirli, Abdullah Kartal), İstanbul, 1998.

Abdülmecid Zindani,

Kuranda İlmi Mucizeler (trc. Resul Tosun), İstanbul, 1995.

Acluni, İsmail bin Muhammed,

Keşfül-Hafa, I-II, Beyrut, (tarihsiz).

Adem Ergül,

Kalbi Hayat, İstanbul, 2000.

Ahmed bin Abdullah bin Muhammed et-Taberi,

er-Riyadun-Nadra, Beyrut, 1996.

Ahmed bin Hanbel,

el-Müsned, I-VI, İstanbul, 1992; **Kitabüz-Zühd**, (nşr. Muhammed Said Besyuni Zağlul) Beyrut, 1986.

Ahmed Davudoğlu,

Sahihi-Müslim Tercüme ve Şerhi, I-XII, İstanbul, 1979.

Ahmed er-Rifai,

Onların Alemi (trc. Abdülkadir Akçiçek), İstanbul, 1996.

Ahmed Taşgetiren,

Altın Ögütler, İstanbul, 1992.

Ali bin Hüseyin Vaizi-Kaşifi,

Reşahat Aynül-Hayat (thk. Ali Asğar Muiniyan), I-II, Tahran, 1977.

Ali Can Tatlı,

Zühd Açısından Hadislerde Dünya (Basılmamış Doktara Tezi), İstanbul, 1996.

Ali Himmet Berki,

Açıklamalı Mecelle: Mecellei-Ahkamı-Adliye, İstanbul, 1982.

Ali Özek , Hayrettin Karaman, Ali Turqut, Mustafa Çağrıcı, I. Kafi Dönmez, Sadreddin Gümüş,

Kurani-Kerim ve Türkçe Açıklamalı Meali, Sudi Arabistan, 1992.

Belazuri,

Ensabul-Eşraf, Mısır, 1959.

Beyhaki, Ebu Bekir Ahmed bin el-Hüseyn,

es-Sünenül-Kübra, (tarihsiz) Darul-fikr; **Kitabüz-Zühdil-Kebir**, Beyrut, 1996.

Beyzavi, Ebu Said Nasruddin Abdullah bin Ömer,

Envarut-Tenzil ve Esrarut-Tevil, I-IV, Beyrut, (tarihsiz).

Buhari, Ebu Abdillah Muhammed bin İsmail,

el-Camius-Sahih, I-VIII, Istanbul, 1992.

Darimi, Ebu Muhammed Abdullah bin Abdirrahman,

Sünenüd-Darimi, I-II, İstanbul, 1992.

Deylemi, Ebu Şuca Şiruye bin Şehridar,

el-Firdevs bi-Mesuril-Hitab, Beyrut, 1986.

Ebu Davud, Süleyman bin Eşas es-Sicistani,

Sünenü Ebi Davud, I-V, İstanbul, 1992.

Ebu Nasr es-Serrac et Tusi,

el-Lüma (trc. H. Kamil Yılmaz), İstanbul, 1996.

Elmalılı, M. Hamdi Yazır,

Hak Dini Kuran Dili, I-X, İstanbul, 1971.

Esad Sahib,

Mektubatı-Mevlana Halid, (trc. Dilaver Selvi, Kemal Yıldız), İstanbul, 1993.

Ethem Cebecioğlu,

Tasavvuf Terimleri ve Deyimleri Sözlüğü, Ankara, 1997.

Feridüddin Attar,

Tezkiretül-Evliya (haz. Süleyman Uludağ), İstanbul, 1985.

Ferit Devellioğlu,

Osmanlıca-Türkçe Ansiklopedik Lüğat, Ankara, 1997.

Gazali, Ebu Hamid Muhammed bin Muhammed,

İhyau Ulumid-Din, I-VI, Beyrut, 1990.

Hakim, Ebu Abdillah Muhammed bin Abdullah en-Neysaburi,

Müstedrek ales-Sahihayn, I-V, Beyrut, 1990.

Hasan Basri Çantay,

Kuranı-Hakim ve Meali-Kerim, I-III, İstanbul, 1996.

Hasan Kamil Yılmaz,

Anna Hatlarıyla Tasavvuf ve Tarikatlar, İstanbul, 2000.

Hayrat Neşriyat Ilmi Araştırma Merkezi Meal Heyeti,

Kurani-Kerim ve Muhtasar Meali, İstanbul, 2001.

Hayrettin Karaman,

Ebediyet Yolçusunu Uğurlarken, Ankara, 1999.

el-Heysemi, Hafiz Nureddin Ali bin Ebi Bekir,

Mecmauz-Zevaid ve Menbaul-Fevaid, I-X, Beyrut, 1988.

İbni-Ataullah Iskenderi,

el-Hikemül-Ataiyye (trc. Saffet Yetkin), Ankara, 1963.

İbni-Cevzi, Ebul-Ferec Abdurrahman bin Ali bin Muhammed,

Menakıbül-İmam Ahmed bin Hanbel, (thk. Abdullah in Abdülmuhsin et-Türkı), Kahire, 1409.

İbni-Hacer el-Askalani, Şihabüddin Ahmed bin Ali,

Hedyüs-Sarı Mukaddimetü Fethil-Barı Şerhi Sahihil-Buhari, I-XXVIII,

(tarihsiz). Darul-Fikr, Fuat Abdülbaki neşri: **el-İsabe fi Temyızis-Sahabe**, Mısır, 1379; **Münebbihat**, İstanbul, 1960.

İbni-Hibban, Ebu Hatim el-Busti,

el-İhsan bi-Tertibi Sahihi İbni-Hibban (tertib: İbni-Belban), I-X, Beyrut, 1987.

İbni-Hişam,

es-Siretün-Nebeviyye, Beyrut, 1992.

İbni-Kesir, İmadüddin Ebul-Fida,

Tefsiru Kuranil-Azim, I-V, Beyrut, 1988; **el-Bidaye ven-Nihaye**, I-XV, Kahire, 1993; **es-Siretün-Nebeviyye**, I-IV, Kahire, 1964.

İbni-Mace, Ebu Abdullah Muhammed bin Yezid el-Kazvini,

Sünenü İbni-Mace, İstanbul, 1992.

İbnü Abdilberr, Ebu Ömer Yusuf bin Abdullah bin Muhammed,

el-İstiab fi Marifetil-Ashab, I-IV, Kahire, (tarihsiz).

İbnül-Esir, Muhammed bin Abdülkerim bin Abdülvahid eş-Şeybani,

el-Kamil fit-Tarih, I-XIII, Beyrut, 1965.

İbrahim Canan,

Hadis Ansiklopedisi, I-XVIII, İstanbul, (tarihsiz).

İlhan Armutçuoğlu,

Kasidei-Bürde Manzum Tercümesi, Konya, 1983.

İmam Malik,

Muvatta, I-II, İstanbul, 1992.

İsmail Feni Ertuğrul,

Vahdeti-Vücud ve İbni-Arabi (haz. Mustafa Kara), İstanbul, 1991.

İsmail Hakkı Bursevi,

Ruhul-Beyan, I-X, İstanbul, 1969; **Kenzi-Mahfi**, İstanbul, 1727.

Kadir Mısroğlu,

Külliyat, Sebil Yayınevi.

Kelabazi , Tacül-İslam Ebubekir Muhammed bin İshak Buhari,

et-Taarruf li-Mezhebi Ehlit-Tasavvuf (trc. Süleyman Uludağ), İstanbul, 1992.

Kurtubi, Ebu Abdillah Muhammed bin Ahmed,

el-Cami li-Ahkamil-Kuran, I-XX, Beyrut, 1985.

Kuşeyri, Abdülkerim,

er-Risaletül-Kuşeyriyye, Beyrut, 1990.

M. Aziz Lahbabi,

İslam Şahsiyetçiliği (trc. I. Hakkı Akın), İstanbul, 1972.

Mahir İz,

Tasavvuf, İstanbul, 1969; **Yılların İzi**, İstanbul, 1975.

Mahmud Sami Ramazanoğlu,

Külliyat, Erkam Yayınları.

Makdisi, İzzüddin Abdusselam,

Sırların Çözümü ve Hazinelerin Anahtarları (trc. Hayrı Kaplan), İstanbul, 2001.

Mecdi Mehmed,

Hadaikuş-Şakaik, İstanbul, 1853.

Mecmuul-Hadis, Şam Mektebetüz-Zahiriyye Kütüphanesi, no: 59.

Mehmed Doğan,

Büyük Türkçe Sözlük, İstanbul, 1994.

Mehmed Niyazi,

Çanakkale Mahşeri, İstanbul, 1999.

Mevlana Şeyh,

Menakıbı-Hace Ubeydullahı-Ahrar, Bayezid Devlet Kütüphanesi, Bayezid bölümü, nr: 3624.

Molla Cami,

Nefahatül-Üns (sad. Abdülkadir Akçiçek), İstanbul, 1981.

Muhammed Abid el-Cabiri,

Arab İslam Kültürünün Akıl Yapısı, İstanbul, 1999.

Muhammed b. Abdullah el-Hanı,

Adab, İstanbul, 1995.

Muhammed Ebu Zehra,

İbnü Teymiyye Hayatühu ve Asruhu ve Fikruh, Beyrut, (tarihsiz).

Muhammed Esad Erbili,

Mektubat, (sad. H. Kamil, Yılmaz, İrfan Gündüz), İstanbul, 1983.

Risalei-Esadiyye, Dersaadet, 1924.

Muhammed Esed,

Kuran Mesacı (trc. Cahid Koytak, Ahmet Ertürk), I-III, İstanbul, 1999.

Muhammed Fuad Abdülbakı,

el-Mucemül-Müfehres li-Elfazil-Kuranil-Kerim, Kahire, 1988.

Muhammed Hamidullah,

İslam Müesseselerine Giriş, İstanbul, 1981.

Muhammed Salih ez-Zerkan,

Fahruddin er-Razi ve Arauhul-Kelamiyye vel-Felsefiyye, Beyrut, 1963.

Mustafa Kara,

Metinleriyle Günümüz Tasavvuf Hareketleri, İstanbul, 2002.

Münavi, Muhammed Abdürrauf,

Feyzül-Kadır Şerhul-Camiis-Sağır, I-VI, Beyrut, 1994.

Münziri, Abdülazim bin Abdülkavi,

et-Terğib vet-Terhib, I-V, Kahire, 1934.

Müslim, Ebul-Hüseyin bin Haccac el-Kuşeyri,

el-Camius-Sahih (thk. Muhammed Fuad Abdülbaki), I-III, İstanbul, 1992.

Necip Fazıl Kısakürek,

Veliler Ordusundan 333, İstanbul, 1976; **Reşahat** (Şeyh Safiyyüddin), İstanbul, 1995.

Nesai, Ebu Abdirrahman Ahmed bin Şuayb,

Sünenün-Nesai, I-VIII, İstanbul, 1992.

Nevevi, Ebu Zekeriyya Yahya bin Şeref,

Riyazüs-Salihin, Beyrut, t.s. **Riyazüs-Salihin** (tercüme ve şerh: Yaşar Kandemir, İsmail Lütfi Çakan, Raşit Küçük), I-VIII, İstanbul, 1997;

Şerhu Sahihi-Müslim, I-XVIII, Mısır, 1981.

Nurettin Topçu,

Mevlana ve Tasavvuf, İstanbul, 1998.

Osman Nuri Topbaş,

Külliyat, Erkam Yayınları.

Ömer Rıza Doğrul,

İslamiyetin Geliştirdiği Tasavvuf, İstanbul, 1948.

Razi, Fahruddin Muhammed bin Ömer,

Mefatihul-Gayb (et-Tefsirul-Kebir), I-XXXII, Beyrut, 1990.

Roger Garaudy,

İslamın Vaad Ettikleri (trc. Nezih Uzel), İstanbul, 1983.

Rudani, İmam Muhammed bin Muhammed bin Süleyman,

Cemul-Fevaid (trc. Naim Erdoğan), İstanbul, 1996.

Sadık Dana,

Külliyat, Erkam Yayınları.

Selçuk Eraydın,

Tasavvuf ve Tarikatlar, İstanbul, 1994.

Seyyid Şerif Curcani,

Kitabut-Tarifat, Beyrut, 1990.

Suat Yıldırım,

Kuranda Uluhiyyet, İstanbul, 1987.

Suyuti, Ebul-Fazl Celaleddin Abdurrahman bin Ebu Bekir,

el-Camius-Sağır, Mısır, 1306; **Şerhus-Sudur bi-Şerhi Halil-Mevta vel-Kubur**, İstanbul, 1986; **Şerhu İbni-Mace**, Karaçı, (tarihsiz).

Sübkı, Takiyyüddin Ebul-Hasen Ali,

Şifaus-Sekam fi Ziyareti-Hayril-Enam, Mısır, 1318.

Süleyman Ateş,

İslam Tasavvufu, Ankara, 1972.

Süleyman Uludağ,

Tasavvuf Terimleri Sözlüğü, İstanbul, 1991.

Şefik Can,

Mesnevi Tercümesi, I-VI, İstanbul, 1997.

Şeyh Eşref Ali Tanevi,

Hadislerle Tasavvuf (haz. Zaferullah Davudi, Ahmed Yıldırım), İstanbul, 1995.

Şeyh Sadi Şirazi,

Bostan, Istanbul, 1995.

Şihabüddin Ahmed Bin Hacer el-Heytemi el-Mekki,

Hayratül-Hisan fi Menakıbil-İmamil-Azam Ebi Hanifetin-Numan, Beyrut, 1403/1983.

et-Taberani, el-Hafiz Ebul-Kasım Süleyman bin Ahmed,

el-Mucemul-Kebir, I-XXV, 1983.

Taberi, Ebu Cafer Muhammed bin Cerir,

Camiul-Beyan an Tevili Ayil-Kuran, Beyrut, 1995.

Tahirul-Mevlevi,

Şerhi-Mesnevi, I-XIV, İstanbul, 1963-1973.

Tehanevi, Muhammed Ala bin Ali,

Keşşafu İstilahatil-Fünun, Beyrut, 1861.

Tirmizi, Ebu Isa, Muhammed bin İsa,

Sünenüt-Tirmizi, I-V, İstanbul, 1992.

Vakidi,

Meğazi, Mısır, 1948.

Zekeriya Güler,

«Vesile ve Tevessül Hadislerinin Kaynak Değeri», **İLAM Araştırma Dergisi**, Ocak-Haziran, 1997, c. 2, say. 1, s. 83-132.

İÇİNDƏKİLƏR

TƏQDİMAT……5
ÖN SÖZ ……13

BİRİNCİ BÖLMƏ

TƏSƏVVÜFÜN MAHİYYƏTİ ……19
A. TƏSƏVVÜFÜN MEYDANA GƏLMƏSİ...……19
B. TƏSƏVVÜFÜN TƏRİFİ…….....…….35
C. TƏSƏVVÜFÜN MÖVZUSU……57
D. TƏSƏVVÜFÜN QAYƏSİ……..…….59
E. TƏSƏVVÜFÜN ƏHƏMİYYƏTİ…….....……..62
F. TƏSƏVVÜFÜN DİGƏR ELMLƏRLƏ MÜNASİBƏTİ…....…….80
1. Təsəvvüf və digər islami elmlər…….80
a. Təsəvvüf və Kəlam…….....……..81
b. Təsəvvüf və Təfsir……..83
c. Təsəvvüf və Hədisi-siyər…….86
d. Təsəvvüf və Fiqh…….88
2. TƏSƏVVÜF və FƏNNİ ELMLƏR……91
3. TƏSƏVVÜF və ƏDƏBİYYAT…….……96
4. TƏSƏVVÜF və GÖZƏL SƏNƏTLƏR…….....……99
a. Musiqi……..……..99
b. Memarlıq…….....……..102

c. Xəttatlıq……103
5. TƏSƏVVÜF və FƏLSƏFƏ……106
G. FAYDALI ELM ……..……110

İKİNCİ BÖLMƏ

TƏSƏVVÜFİ TƏRBİYƏ (Seyr və Süluk)……..123
A. NƏFS VƏ ONUN TƏZKİYƏSİ……..……..127
1. NƏFSİN MAHİYYƏTİ 127
2. NƏFSİN TƏZKİYƏSİ 132
3. NƏFSİN MƏRTƏBƏLƏRİ.....149
a. Nəfsi-əmmarə……..149
b. Nəfsi-ləvvamə……157
c. Nəfsi-mülhəmə.....160
d. Nəfsi-mütməinnə……162
e. Nəfsi-radiyyə……165
f. Nəfsi-mərdiyyə……167
g. Kamil nəfs……169
B. QƏLB və ONUN TƏSFİYƏSİ……170
1. QƏLBİN MAHİYYƏTİ……170
2. QƏLBİN NÖVLƏRİ ……178
3. QƏLBİN TƏSFİYƏSİ……188
a. Halal qida……189
b. İstiğfar və dua……193
c. Quran kərim oxumaq və ehkamına tabe olmaq……199
ç. İbadətləri mütiliklə yerinə yetirmək……204
d. Gecələri ehya etmək……215

e. Allahın zikri və təfəkkür……219
ə. Rəsulullaha məhəbbət və salavati-şərifə……226
f. Ölümü düşünmək……234
g. Saleh və sadiqlərlə bərabər olmaq……241
h. Gözəl əxlaq sahibi olmaq……252
4. SAF BİR QƏLB İLƏ ALƏMƏ BAXIŞ……259
C. TƏSƏVVÜF TƏRBİYƏSİNDƏ TƏMƏL ƏSASLAR……265
D. KAMİL MÜRŞİD VƏ İRŞAD METODLARI……273
1. KAMİL MÜRŞİD……273
2. İRŞAD METODLARI……282
a. Məhəbbət-rabitə……282
b. Söhbət……292
c. Xidmət……299
d. Təvəccöh (yönəlmə)……309
e. Dua……314
E. TƏSƏVVÜFİ ÜSLUB……317
1. HİDAYƏT və RƏHMƏT ÜSLUBU ……317
2. MÜLAYİM OLMAQ və ŞƏFQƏT ÜSLUBU…… 329

ÜÇÜNCÜ BÖLMƏ

MƏRİFƏTULLAH və İLAHİ EHSANLAR……...343
A. MƏRİFƏTULLAH ……....343
1. ZATİ-ULUHİYYƏTİ……343
2. İLAHİ SİFƏTLƏR və TƏCƏLLALARI……352
3. MƏRİFƏTULLAH və ARİFLƏRDƏKİ TƏCƏLLALAR…….....380
B. İLAHİ EHSANLAR……...386

1. LƏDÜN ELMİ……...388
2. FƏRASƏT ……420
3. TƏSƏRRÜF - KƏRAMƏT ……..423
4. SADİQ RÖYALAR ……443

DÖRDÜNCÜ BÖLMƏ

TƏSƏVVÜFƏ AİD BƏZİ MƏSƏLƏLƏR.....455
A. TƏVƏSSÜL……455
B. TƏBƏRRÜK……...469
C. QƏBİR ZİYARƏTİ……481

BEŞİNCİ BÖLMƏ

HAQQ DOSTLARINDAN NƏSİHƏTLƏR……493

ALTINCI BÖLMƏ

TƏSƏVVÜFƏ BAĞLI HEKAYƏLƏR VƏ İBRƏTLƏR…….....513
Həqiqi təhsil…….....514
Mənəvi tərbiyədə metod ……515
İbrahim bin Ədhəm və ceyran……516
Haqq yoluna ləkə salmamaq……..……..519
Kəramət……520
Qafil qəlblərin təsiri……521
Dostun qapısı……...523
İtaət, xidmət, nəsihət……524
Yaradılmışlara xidmət……526
Haqq dostlarında nəzakət……...527

Hüzurda iradə……...528
Ədəb……529
Xidmətdə ədəb……530
İlla ədəb……531
Bir Haqq dostunun əxlaq və xidməti……533
Fanilər deyil, əbədi olan bilsin……534
Heç kimə xor baxma!……...535
Heç kimi utandırma!……536
Yetimi sevindirmək……537
Dostluq……538
Dostluqda məqsəd……...539
Tam təslimiyyət……...540
Möminin duasını almaq……...542
Bir məczub və könül dərmanı……...543
Üzlər var, mələk kimi……..545
Xeyir işlərdə mənəvi vəziyyət……546
Ərşi-əlaya çıxan saleh əməl…….....547
Hər zaman Haqqı fərq etmək…….....549
Mənə Kərim lazımdır ……...550
Öndə gedənlərin məsuliyyəti……551
Allahın dəvətini qəbul etmək……...552
Halalın önəmi……..553
Halal qazanc ……...555
XÜLASƏ……..559
BİBLİOQRAFİYA……563
İÇİNDƏKİLƏR…… 572